CƏLIL

MƏMMƏDQULUZADƏ

BAKI 2008



REDAKSİYA HEYƏTİ:

ANAR
ƏLİYEV NAHAD
HƏBİBBƏYLİ İSA
XƏLİLOV FƏRHAD
KƏRİMOV MAHMUD
İBRAHİMOV NAZİM (SƏDR)
ƏLİYEVA MEHRİBAN
MƏMMƏDOV XEYRULLA
MİRƏHMƏDOV ƏZİZ
NƏBİYEV BƏKİR
PAŞAYEV ATAXAN

ƏSAS MƏQALƏLƏRİN MÜƏLLİFLƏRİ:

ANAR

AĞABABAYEVA SEVDA

AXUNDOV AĞAMUSA

AXUNDOVA ELMİRA

BAĞIROV AZƏR

BAYRAMLI OFELYA

DADAŞOVA TƏRANƏ

ƏLİYEV NAHAD

ƏLİYEVA MEHRİBAN

ƏSGƏRLİ ZAMAN

HƏBİBBƏYLİ İSA

HƏSƏNZADƏ TURAN

HƏSƏNZADƏ TAHİRƏ

İBRAHİMOV NAZİM

MƏMMƏDOV XEYRULLA

MİRƏHMƏDOV ƏZİZ

NƏBİYEV BƏKİR

TALIBZADƏ KAMAL

SALMANOV ŞAMİL

ISBN 978-9952-448-26-9

894.361/03-dc22
1. Azərbaycan ədəbiyyatı – Ensiklopediya. 2. Azərbaycan incəsənəti – Ensiklopediya.

Cəlil Məmmədquluzadə ensiklopediyası.
Bakı, "Şərq-Qərb", 2008, 320 səh.

© "Şərq-Qərb", 2008

QƏBUL EDİLMİŞ ƏSAS İXTİSARLAR

ad. – adına
akad. – akademik
akad. – akademik
art. – artist
AXC – Azərbaycan Xalq Cümhuriyyəti
ADK – Azərbaycan Dövlət Konservatoriyası
ADT – Azərbaycan Milli Dram Teatrı
ADU – Azərbaycan Dövlət Universiteti (indiki Bakı Dövlət Universiteti)
AMEA – Azərbaycan Milli Elmlər Akademiyası
AOBT – Azərbaycan Dövlət Opera və Balet Teatrı
Azərb. – Azərbaycan
azərb. – azərbaycanlı
b. – başqaları
qəs. – qəsəbə(si)
qub. – qubernıya(sı)
d. – doğulub
dem. – demokratik
dos. – dosent
e.d. – elmlər doktoru
e.xad. – elm xadimi
e.n. – elmlər namizədi
əmək. art. – əməkdar artist(i)
əmək. inc. xad. – əməkdar incəsənət xadimi
filol. – filologiya
fp. – fortepiano
xalq art. – xalq artisti
xalq rəs. – xalq rəssamı
xad. – xadim
ict. – ictimai
in-t – institut
k. – kənd(i)
M. – Məmmədquluzadə
m. üzvü – müxbir üzvü
ork. – orkestr
prof. – professor
rej. – rejissor
resp. – respublika
red. – redaktor
s. – sairə
simf. – simfonik
un-t – universitet
ş. – şəhər(i)
ştq – şəhər tipli qəsəbə(si)

Ensiklopediyada məqalələr əlifba sırası ilə düzülmüşdür. Ümumi qəbul olunmuş ixtisarlardan əlavə, bu nəşr üçün işlənilmiş ixtisarlar da tətbiq edilmişdir.

Məqalənin adını təşkil edən söz, mətndə yalnız baş hərflə göstərilir.

ƏBƏDİ MİRZƏ CƏLİL

Azərbaycan və dünya ədəbiyyatında sevdiyim yazıçılar çoxdur, ancaq ömrüm boyu ən çox sevdiyim, yaradıcılığına və həyat yoluna dönə-dönə müraciət etdiyim, irsiylə, keşməkeşli ömrüylə bir daha tanış olduqca mənəvi güc aldığım, məni incidən bir çox problemlərə yazdıqlarında cavab tapdığım sənətkar, şəxsiyyət, böyük və ulu insan – Mirzə Cəlil Məmmədquluzadədir.

Bu sevgimi, pərəstişimi müxtəlif bədii janrlarda ifadə etməyə çalışmışam. İlk dəfə Aleksandr Tvardovskinin redaktorluğu zamanı "Novıy mir" jurnalında dərc olunmuş "Anlamaq dərdi" essem, "Sizi deyib gəlmişəm" pyesim, "Dindirir əsr bizi" teletamaşam, ssenarisinin müəllifi olduğum və rejissor kimi quruluşunu verdiyim ikiseriyalı "Qəm pəncərəsi" bədii filmi, böyük ədibin əsərlərinin motivləri əsasında yazdığım "Nigarançılıq" telessenarisi – ustadıma qaytarmaq istədiyim borcumun yalnız bir hissəsidir.

Bütün bunlara görə Mirzə Cəlil Məmmədquluzadə ensiklopediyasına "Ön söz" yazmaq təklifini məmnuniyyət və minnətdarlıqla qəbul etdim.

M.C.Məmmədquluzadə yaradıcılığa başladığı dövrdən daha artıq vaxt keçib – 100 ildən artıq. Və bu yüz ildən sonra da var olan sorunların, problemlərin çözülməsində ən etibarlı açar yenə də Mirzə Cəlilin əsərləridir. Bu gün – yüz ildən sonra da davam edən məfkurə mübahisə və müzakirələrində, insanın və millətin ləyaqəti, tərəqqisi, azad düşüncə uğrunda mübarizələrdə, libasını, qiyafəsini dəyişsə də, mahiyyətini dəyişməmiş cəhalətə, nadanlığa, xurafata qarşı savaşlarda, xalqın real sorunları, qayğıları, dərdləri haqqında yazmaq çağırışlarında Mirzə Cəlil sözü ən kəsərli silah olaraq qalmaqdadır:

"Bunların hamısını görə-görə, bilə-bilə və eşidə-eşidə gündə göbələk kimi artıb törəyən yazıçılarımız yazırlar, hər yandan yazırlar: yerdən, göydən, hürriyyətdən, şəriətdən, politikadan, İrandan, Turandan, ibarə, nəzm, qafiyə, şöhrət, ad... Müsəlman yazıçısı avama xoş gələn söz yazmasa, işi keçməz. Budur qanlı faciə... Mən özüm də bir az intelligentəm və hamı intelligentləri də belə qorxaq görmüşəm".

Böyük yazar haqqında söhbətə başlarkən fikrim yüz üç il əvvələ – keçən əsrin ibtidasına qayıdır. Daha dəqiq desəm, XX əsrin ilk gününə – 1901-ci il yanvarın 1-nə. Bu gün – daha düzü, o gün – yeni yüz il başlayır. Nələr olasıdır bu əsrdə?

Yüz milyonlarla insanın həlak olduğu iki cahan müharibəsi... Saysız-hesabsız qanlı vətəndaş savaşları, dini, milli, dövlətlərarası, xalqlararası davalar. Belə döyüşlərin qurbanları – toplu halında iki dünya hərbinin qurbanlarından da sayca çoxdur.

İnqilablar və əks-inqilablar, çevrilişlər, repressiyalar, konslagerlər – ölüm düşərgələri, qaz kameraları, sürgünlər, edamlar, yüz minlərlə insanın qaçqınlıq

faciəsi, bütöv xalqların yurd-yuvasından didərgin salınması, fanatizm, terror... Totalitar rejimlərin tüğyan etməsi və süqutu... Bir tərəfdən möhtəşəm imperiyaların şişib-şişib sonda partlaması, darmadağın olması, neçə-neçə xalqın müstəqilliyə, azadlığa qovuşması, o biri tərəfdən dünyanın hələ çox ölkəsində, qitəsində hökm sürən aclıq, səfalət, zorakılıq... Bir tərəfdən elmin-texnikanın görünməmiş inkişafı – ağıllı maşınlar, kosmosa sıçrayış, Ayda insan ləpirləri, sinemanın, televiziyanın, internetin icadı, penisillin, antibiotiklər, insanları sağalmaz xəstəliklərdən xilas edən başqa dərmanlar, o biri tərəfdən hələ də əlacı tapılmamış şəkər diabeti, xərçəng, QİÇS...

Sərnişinləri bir göz qırpımında qitədən qitəyə aparan, səsdən iti uçan təyyarələr və təyyarələr vasitəsilə törədilən kütləvi qırğınlar.

Osvensim, Xolokost, QULAQ, Kolıma, Hirosima və Xocalı... Stalin və Hitler... O biri tərəfdən Mahatma Qandi və Kamal Atatürk, böyük humanistlər – Martin Lüter Kinq, Alber Şveytser, Tereza Ana...

1956-cı və 1968-ci illərdə Xruşşov və Brejnev tanklarının tırtılları altında tələf edilən Macarıstan ümidləri və Praqa baharı... Qanına qəltan edilmiş Əfqanıstan... Və işğalın bu sayaq modelinin XX əsrdə 20-ci ilin aprelində ilk dəfə tətbiq olunduğu ölkə – Azərbaycan...

Azərbaycanın 1918-ci il mart faciəsi, cəmisi iki il sürən müstəqillik sevinci, Şeyx Məhəmməd Xiyabaninin Azadıstanı, 1937-ci ilin günahsız qurbanları, 21 Azər fərəhi və 21 Azər müsibəti. Hələ də sağalmamış 20 Yanvar yarası. Xalqımızın ikinci istiqlal bayramı və bu bayramın şadlığını-şadyanalığını ürək dolusu yaşamağa qoymayan Qarabağ dərdi...

Bir tərəfdən min üç yüz ildən bəri yasını tutduğumuz Kərbəla müsibəti, o biri tərəfdən:

"Bu gün Kərbəla meydanı Azərbaycandakı vətənpərvərlik meydanıdır. Yekə bir millətin dili, namusu, hüququ, vətəni təhlükədədir. Hər kimin ürəyində bir cüzi namus, vətən hissi varsa, oranın qeydinə qalmalıdır. Axıtmalı qanımız, ehsan etməli pulumuz varsa, gözümüzün qabağında ürəklər parçalayan Azərbaycan matəmgahı durur".

Bir tərəfdən pulunu xərcləməyə yer tapmayan harınlaşmış sovet törtöküntüləri, o biri tərəfdən gözünü qaçqın çadırlarında açmış, gözünü açıb yalnız bu çadırları görmüş körpələr...

Amma bunların çoxu hələ irəlidədir. Mirzə Cəlilin hələ yaşanmamış, bir qismi yaşanılacaq, böyük bir qismindən xəbərsiz getdiyi illər, on illər, qərinələr...

Bu gün isə 1901-ci il yanvarın biridir. Və bu gün, məhz bu gün, 1901-ci il yanvarın 1-də – XX əsrin ilk günündə Qori seminariyasının məzunu, Naxçıvanın və sonralar Ermənistan adlandırılan Qərbi Azərbaycanın kəndlərində müəllimlik etmiş, bir müddət pristav vəzifəsində çalışmış Mirzə Cəlil ərizə yazıb xahiş edir ki, onu bu vəzifədən azad etsinlər – pristavlıq onun işi deyil. Hətta müəllimlik də onun işi deyilmiş. Daha doğrusu, o bir, ya bir neçə kənd məktəbinin müəllimi deyil, bütün bir millətin müəllimi

olmaq üçün gəlibmiş bu dünyaya. Bu böyük vəzifəsini, bu tarixi missiyasını o gün hələ dərk etməsə də...

Mirzə Cəlil Məmmədquluzadə Azərbaycanın qədim guşəsində – Naxçıvanda dünyaya gəlib və özü yazdığı kimi, gözünü açan kimi dünyanı qaranlıq görüb – xurafat, cəhalət, fanatizm zülməti idi bu... Və o, bu qaranlığa işıq salmaq üçün gəlmişdi dünyaya.

Mirzə Cəlildən neçə yüz il qabaq Şərqin başqa bir işıqsaçanı – Molla Nəsrəddin varid olmuşdu dünyaya. Azərbaycanda uşaqdan böyüyə hər kəsin bildiyi lətifələrin qəhrəmanı Molla Nəsrəddin bir çox Şərq xalqının sevimli personajıdır. Onun mizah irsi İslam Şərqinin ortaq sərvətidir. Nəsrəddin Xoca, Nəsrəddin Əfəndi, Əfəndi adlarını daşıyaraq, o, Doğu Türküstandan Balkanlara qədər bütün müsəlman və türk dünyasını dolaşmışdır. O, nə coğrafi sərhədlər tanıyır, nə zaman hüdudları. Bəzi lətifələrdə o, Teymur Ləngin müasiridir, başqa lətifələrdə ayrı tarixi dövrün övladıdır. Onu bəzən məşhur ensiklopedist alim Nəsrəddin Tusiylə də eyniləşdirirlər. O, həmişəyaşardır, həmişə vardır.

O yerdə ki, xalq öz etirazını, narazılığını, qəzəbini ayrı vasitə ilə deyil, məhz zarafatla, kinayəylə, rişğəndlə, masqarayla ifadə etmək istəyir, o yerdə ki, möhnətini, ağrısını gülüşlə çatdırır, o yerdə ki, hakim-mütləqlərin zülmündən zinhara gəlmiş insanlar müstəbidi lağa qoymaqla ondan hayıf çıxır – o yerdə Molla Nəsrəddin zahir olur. O yerdə ki, pul sikkələri kimi fikirlər də yalnız dövlət tərəfindən möhürlənir, o yerdə Molla Nəsrəddin qəlp pul kəsəndir.

1905-ci ilin Rusiya inqilabından sonra az bir müddətdə Mirzə Cəlil demiş, "nəfəs genliyi" əmələ gəldi və amansız çar senzurası qısa bir vaxt kəsiyində çox şeyə barmaqarası baxmalı oldu, mətbuatda ilıq mehlər əsməyə başladı. Və belə bir vaxtda Tiflisin küçələrilə addımlayan, qəmli düşüncələr aləminə qərq olmuş, çoxlarının qaradinməz saydıqları 40 yaşlı kişi – Mirzə Cəlil birdən-birə ayaq saxladı. Onun başına gözəl bir fikir gəlmişdi: nəşr etmək niyyətində olduğu mizah jurnalına çox dəqiq, dürüst, sərrast ad tapmışdı: Molla Nəsrəddin. Jurnal üçün bundan·da uğurlu ad tapmaq olmazdı.

"Molla Nəsrəddin" xalqın dərdini xalqın dilində, onun danışdığı və anladığı bir dildə deməliydi. O, ulu Molla Nəsrəddinin çağdaş varisi kimi nadanlığa, ətalətə, əsarətə meydan oxumalıydı. Bu niyyətin həyata keçməsi yolunda ilk addımdan Mirzə Cəlilin sadiq silahdaşı və əməkdaşı – Ömər Faiq Nemanzadə oldu.

Rəsmi dairələr Türkiyədə təhsil almış Ömər Faiqi belə bir jurnalın təsisçisi kimi yaxın buraxmazdılar. Amma Qori seminariyasında rus dilində oxumuş Mirzə Cəlilə nə sözləri ola bilərdi? Həm də elə bir dövr idi ki, senzura, dediyim kimi, əvvəllərdəki tək cövlan edə bilmirdi. Rusiyada çıxan yumoristik "Kukareku" jurnalında hətta çar II Nikolayın başını xoruz başı şəklində çəkmişdilər. Beləliklə, ayıq-sayıq senzuradan icazə alındı.

"Molla Nəsrəddin" jurnalının meydana gəlməsini C.Məmmədquluzadə sadə olduğu qədər də dərin və mənalı sözlərlə ifadə etmişdi: "Molla Nəsrəddin"i təbiət özü yaratdı, zəmanə özü yaratdı".

Mirzə Cəlil yazırdı:

"Hələ Nikolay padşah bir saatlığa kənarda qalsın, bəs bizim öz qibləgahlarımızı nə eləyək? Bəs biz öz padşahlarımızın kefini nə səbəbə sormayaq? Biz öz qibləgahlarımızın niyə dərdinə qalmayaq? Məgər bizim öz Nikolayımız yoxdur? Məgər Şərqin məhəmmədəliləri ölübdür? Məgər şahzadə məhəmmədəlilər tək bircədirlər? Bəs hədd-hesabsız prenslər, xanlar, sultanlar, hakimlər və məmurlar Nikolaydan geri qalırlar? Bundan keçəndən sonra əmmaməli həşəratı nə eləyək? Bəs onlar nə vaxtadək cənnət, abi-kövsər vədəsilə bədbəxt islam camaatının qanını soracaqlar? Bəs nə vaxtacan avam camaatı məscid moizəsi və imam mərsiyəsinə məşğul edə-edə elm-maarifdən və savaddan uzaq saxlayacaqlar?".

1906-cı il aprelin 7-də "Molla Nəsrəddin" jurnalının ilk nömrəsi çapdan çıxdı. Müəyyən fasilələrlə jurnalın fəaliyyəti 25 il davam etdi. Mirzə Cəlil Məmmədquluzadə jurnalın ətrafına XX əsrin əvvəllərində yaşayıb-yaradan ən qabaqcıl ədəbiyyat, sənət xadimlərini yığa bilmişdi. Jurnalda dramaturq Əbdürrəhim bəy Haqverdiyev, publisist Ömər Faiq Nemanzadə, nasir Məmməd Səid Ordubadi, bəstəkar Üzeyir Hacıbəyli, şairlərdən Əliqulu Qəmküsar, Əli Nəzmi, Salman Mümtaz və başqaları çıxış edirdilər. Böyük karikatura ustası Əzim Əzimzadəylə çiyin-çiyinə "Molla Nəsrəddin"də Şmerlinq, Rotter, Xəlil Musayev (Çoxski) fəal əməkdaşlıq edirdi. "Molla Nəsrəddin" jurnalı Mirzə Ələkbər Sabir kimi dahi şairin istedadının parlaması üçün ən münbit zəmin oldu. "Molla Nəsrəddin ədəbi məktəbi" deyəndə, ilk növbədə, nəsrdə və publisistikada Mirzə Cəlil özü, şeirdə Sabir yada düşür.

M.C.Məmmədquluzadə nəsrdə, publisistikada, dramaturgiyada inqilab yaratdığı kimi, M.Ə.Sabir də şeirimizdə inqilab yaratdı.

"Molla Nəsrəddin" jurnalı özü də bütünlükdə Şərq aləmində bir inqilab idi – mənəviyyatda, ictimai şüurda, yazı üslubunda inqilab... Qısa bir vaxt ərzində jurnal Qafqazda və İranda yaşayan Azərbaycan əhalisi arasında görünməmiş şöhrət qazandı. Sadə, anlaşıqlı dili, karikaturalarının sərrastlığı və aydınlığı, qaldırılan problemlərin kəskinliyi və konkretliyi – jurnalı xalqın ən savadsız təbəqələrinə belə tanıtdı, sevdirdi. Jurnalın şöhrəti Qafqaz hüdudlarını aşdı.

Hindistandan Afrikaya qədər bir çox ölkələrdə "Molla Nəsrəddin"in fəal oxucuları, abunəçiləri, könüllü müxbirləri vardı. Türkiyə, İran, tatar, Türküstan (özbək, türkmən, qazax, qırğız), Krım-tatar, Dağıstan ədəbiyyatlarında demokratik təmayüllərin inkişafına "Molla Nəsrəddin" misilsiz təsir göstərmişdir. Tatar xalqının böyük milli şairi Qabdulla Tuqayın "Molla Nəsrəddin"ə marağı hifz olunmuş fotoşəkildə əks edilib.

Toxunduğu məsələlərdə dar milli məhdudiyyət jurnala yabançı idi. O, bütün müsəlman dünyasının yaralarını açır, bütün İslam Şərqinə aid olan naqisliklərı qamçılayır, yalnız Şərqlə kifayətlənməyib Qərbin müstəmləkəçi siyasətini damğalayırdı, imkan daxilində rus çarizminin, onun yerlərdəki nümayəndələrinin şovinist və antiislam mahiyyətini də ifşa edirdi. Tənqidi və ifşaedici

fəaliyyətində jurnal təqribilik mərəzinə tutulmamışdı. Ümumi sözlər söyləmək istəmirdi.

Məhz buna görə də jurnala inanırdılar, ona etibar edirdilər. Buna görə də ondan qorxurdular və buna görə də jurnalın müxtəlif çeşidli qatı düşmənləri vardı. Çar məmurları da ona nifrət bəsləyirdilər, cahil dindarlar da, varlılar da, "gül-bülbül" şairləri də... Tiflis general qubernatoru jurnalı dəfələrlə qadağan etmişdi. İran hökuməti gömrük məntəqələrində jurnalın nüsxələrini yandırırdı. Bir şəxs Mirzə Cəlili öldürərsə, o şəxsin cəzasız olması haqqında fitva verilmişdi. Belə bir muzdlu qatil (indiki təbirlə desək, "killer") həmin məqsədlə Tiflisə varid olmuşdu və bu işdən xəbər tutan Mirzə Cəlil cibində tapança gəzdirirdi. "Molla Nəsrəddin"ə Bakı mollaları və Aşqabad bəhayiləri lənət yağdırırdılar. Onun ünvanına Qarabağ bəyləri və Dağıstan fanatikləri hədəli məktublar göndərirdilər.

Jurnalın düşmənləri arasında başqa növ adamlar – əhli-qələmlər də vardı. Kəlküttədə və Tehranda, Bakıda və Qazanda, Ufada və Peterburqda, Krımda və İstanbulda çıxan qəzetlərin səhifələrində "Molla Nəsrəddin"in tənqidi hər halda müəyyən ədəb-ərkan çərçivəsində idisə, bəzi indiki qəzetlərimizə çox oxşayan düşük və ucuz cəridələrdə böyük yazıçıya föhş və böhtan, küçə söyüşləri yağdıran uğursuz şairciklər, hər növ cızma-qaraçılar və yalnız nadanlıqda tam olan yarımçıq "yazıçı-publisistlər" də çömçə bulayırdı. Ümumiyyətlə, ömrü boyu Mirzə Cəlilin başı belə "millət qeyrəti çəkənlərdən" az çəkməyib. Həmin "millət qəhrəmanları" öz "milli qeyrətlərini" çox əlverişli və mənfəətli şəkildə gizli polisə verdikləri danoslarla uyğunlaşdırmağı yaxşı bacarırdılar.

Çar senzurası jurnalı kəsib-doğrayırdı. "Molla Nəsrəddin"in bir çox səhifələri ya tamam boş, ya da qan qırmızı xətlə çalın-çarpaz cızıqlanmış şəkildə çıxırdı; küt senzorların ağlına gəlmirdi ki, icazə verdikləri başqa kəskin materiallarla qonşuluqda bu pozulmuş, ləğv edilmiş səhifələrin təsir gücü daha da artır.

Mirzə Cəlil Məmmədquluzadə "Molla Nəsrəddin"i bu şəraitdə, bu mühitdə nəşr edirdi və bilirdi ki, rəsmi qadağalarla istər-istəməz hesablaşmalı olsa da, hər halda onun jurnalı istismar, yalan, riyakarlıq, zülm qaranlığında yeganə açıq şüur çırağıdır.

Mirzə Cəlilin köhnə dostu və silahdaşı Əbdürrəhim bəy Haqverdiyev xatırlayırdı ki, "Molla Nəsrəddin"in bir çox nüfuzlu düşmənləri, o cümlədən İrəvan və Naxçıvan xanları, Qarabağ və Gəncə bəyləri Tiflisə təşrif gətirərkən özlərinə borc bilirdilər, redaksiyaya gəlsinlər, nifrətlərini şəxsən redaktorun özünə izhar eləsinlər. Ancaq M.C.Məmmədquluzadə ilə söhbətdən sonra onlardan bəziləri fikirlərini tamamilə dəyişir və belə deyirdilər: "Əlbəttə, onun yazdıqları həqiqətdir. Amma, axı, hər həqiqəti yazmaq olmaz".

Həqiqətə belə ikibaşlı münasibət, həqiqətin hər hansı bir parçasını deyib, başqa parçasını ört-basdır eləmək, yarımçıq həqiqət – bütün bunlar Mirzə

Cəlil vicdanının bütövlüyünə yabançı idi. Cəlil Məmmədquluzadə jurnalında oxucunun yalnız qəlbinə, hisslərinə deyil, fikrinə, şüuruna da müraciət edirdi. Molla Nəsrəddinin başqa mollalardan fərqini izah edərək yazırdı: "Mən də mollayam, siz də molla. Amma mən müsəlman qardaşlara deyirəm: "Ey müsəlmanlar, gözünüzü açınız, mənə baxınız; amma siz mollalar deyirsiniz: "ey müsəlmanlar, gözünüzü yumunuz, mənə baxınız".

Əsrin əvvəllərində Azərbaycanda müxtəlif istiqamətli onlarla qəzet və jurnal nəşr olunurdu. Onları müxtəlif məsləkli yazıçılar, mühərrirlər nəşr edirdi – aralarında sağlar da vardı, sollar da və corab təkin yeri gələndə sağ, yeri gələndə sol olanlar da...

Bu jurnallar, adətən, ilk nömrələrində öz qayələrini, amallarını bəyan edən proqram məqalələr dərc edirdilər. Bu kimi jurnalların baş məqalələrilə "Molla Nəsrəddin"in birinci sayında dərc olunmuş ilk felyetonu müqayisə etmək çox maraqlıdır. Başqa dərgilər dünyaya gəlişlərini aləmə car çəkib ibarəli sözlər və təmtəraqlı ifadələrlə kübar təbəqəyə, ancaq oxumuşlara müraciət edirdilərsə, "Molla Nəsrəddin" də öz oxucusuna üz tuturdu, amma necə?

"Sizi deyib gəlmişəm, ey mənim müsəlman qardaşlarım! O kəsləri deyib gəlmişəm ki, mənim söhbətimi xoşlamayıb, bəzi bəhanələr ilə məndən qaçıb gedirlər, məsələn, fala baxdırmağa, it boğuşdurmağa, dərviş nağılına qulaq asmağa, hamamda yatmağa və qeyri bu növ vacib əməllərə. Çünki hükəmalar buyurublar: "Sözünü o kəslərə de ki, sənə qulaq vermirlər".

Sözünü ona qulaq asmayan kəslərə demək – bu prinsipə Mirzə Cəlil Məmmədquluzadə ömrü boyu sadiq qaldı.

O, 1932-ci ildə Bakıda vəfat etdi. O, çar hakimiyyəti dövründə, müvəqqəti hökumət dövründə, menşevik Gürcüstanında, şahənşah İranında və Sovet Azərbaycanında yaşamışdır və ömrü boyu bircə kəlmə belə olsun, yalan söz deməmiş, yazmamışdır. Kiməsə xoş gələn, kiminsə könlünə yatan bircə kəlmə də...

O, acı sözlər deyirdi, xoşagəlməz mətləblərdən danışırdı və heç bir vaxt heç kimin qılığına girməyə çalışmırdı.

O, rəftarını, düşüncəsini nə ixtiyar sahiblərinə, nə hakim ideyalara, nə də avam camaatın zövqünə uyğunlaşdıra bilirdi.

"Bir para adamlar qələmi əllərinə alan kimi yalandan başlayırlar: Ay mənim yaxşı millətim! Qadan alım, ay mənim millətim! Nə qədər canım sağdır, hazıram sənə canımı fəda edəm, ay mənim gözəl millətim! Ay millətlərin padşahı millətim! Vallah Molla Nəsrəddin yalan danışa bilməz. Biz deyirik ki, belə milləti biz canü-dildən istəyə bilmərik. Bəlkə, içində bir-iki yaxşısı tapıla".

Bu sözləri ancaq öz millətini qanamış bir qəlblə, odlu ürəklə sevən vətənpərvər yaza bilərdi. Elə bir vətənpərvər ki, onun üçün vətən sevgisi özünüreklam vasitəsi, xal qazanmaq fürsəti, yerini şirin salmaq niyyəti yox, təbii və üzvi oğulluq borcudur.

Yüksək yazıçılıq, jurnalistlik, ictimai xadimlik ləyaqətini Mirzə Cəlil Məmmədquluzadə qürurla bütün keşməkeşlərdən yağlı vədələr və hikkəli hədələr, kin və nifrət, paxıllıq və həsəd mühitindən, anlanılmazlıq səhrası, cəhalət zülməti, fanatizm, riyakarlıq, yalançı vətənpərvərlik girdabı, müstəmləkəçilik zorakılığı və neçə-neçə belə burulğanlar, bataqlıqlar içindən keçirmişdir. Və bizim bu günümüzə də, xalqımızın sabahına da pak və əbədi vüqarla gəlmişdir.

* * *

"Xatirat"ını Mirzə Cəlil acı sözlərlə başlayır: "Gözümü ömrümdə birinci dəfə açan kimi dünyanı qaranlıq görmüşəm. Bu qaranlıqda ilk dəfə eşitdiklərim bunlardır: "Allahü əkbər! Allahü əkbər! Həmin səda qonşuluqda müəzzinin azanıdır".

Mirzə Cəlilin doğulduğu qədim Naxçıvan torpağı Azərbaycan tarixinə və mədəniyyətinə bir çox görkəmli şairlər, alimlər, memarlar, rəssamlar, maarifçilər, siyasi və hərbi xadimlər vermişdir. Naxçıvan İranla həmsərhəddir. Mirzə Cəlil kinayəylə yazırdı ki, bütün dünyada öz möminliyi və dindarlığı ilə məşhur olan İran ölkəsinin Naxçıvana belə yaxın olması, həmişə onun qəlbini iftixar hissiylə doldurub. Axın-axın məzlumlar İrandan Naxçıvana keçir, oradan da Bakı neft mədənlərinə can atırdılar. Həyatlarının ən məşəqqətli, ən əzablı günlərindən qurtarmaq ümidilə yeni-yeni əzablara, təhqirlərə, yarıqarın dolanacağa dözməli olurdular. Din adıyla möhtəkirlik edən şarlatanlar, fırıldaqçı şeyxlər və rövzəxanlar, usta Zeynal kimi avam və fanatik möminlər də Araz çayını adlayıb Naxçıvana keçirdilər. Bütün bunlar Naxçıvanın mənəvi iqlimini zəhərləyir, burada qaranlığın və ətalətin hökm sürməsinə səbəb olurdu.

Amma elə bu torpaqda qabaqcıl milli şüurun etirazı və müqaviməti kimi balaca, fəqət qüdrətli bir dəstə, Mirzə Cəlilin sözüylə desək, "işıqlılar" – maarifpərvər ziyalılar dəstəsi yetişirdi. Bu dəstəyə Avropa və Rusiyada təhsil almış savadlılar daxil idi. Qori seminariyasını bitirdikdən sonra Mirzə Cəlil də həmin dəstəyə qoşuldu. Geniş biliklərə malik olan Naxçıvan ədəbiyyatçısı Eynəli Sultanovun köməyilə Mirzə Cəlil Avropa və rus mədəniyyətilə daha da yaxından tanış oldu.

Ömrünün son illərində Eynəli Sultanova yazdığı qəmli, nostalji çalarları olan məktubunda Mirzə Cəlil ömrünün o uzaq illərini xatırlayırdı: "...elə saatlar olurdu ki... keçmiş günləri yada salırdım. Elə bilirdim ki, haman o Eynəli qardaşım qırx il bundan qabaq yanımda oturub, cavanlıq hissilə oxuduğu kitablardan, rus maarifindən, Avropa əhli-qələmlərindən şirin-şirin və bəzi vaxt da odlu-odlu, yanıqlı-yanıqlı söhbətlər edir. O qədər məni özünə qulaq asdırdın ki, axırda məni, doğrudan da, maarif aləminə daxil elədin. Yəqin bilirəm ki, sən olmasaydın, mən də qeyri sadəcə kənd müəllimlərinin içində yaddan çıxmışdım".

Uzun illər boyu Mirzə Cəlil Məmmədquluzadə İrəvan quberniyasının, Naxçıvan mahalının kənd məktəblərində müəllimlik etmişdir. Müəllimlik edərkən də, hüquq idarələrində çalışarkən də o, xalq güzəranının ağır şəraitilə daha yaxından tanış olur. Gözlərini açıb gördüyü qaranlıqla yenidən, artıq yetkin yaşında, mədəniyyətə, maarifə yiyələndikdən sonra rastlaşır. İndən belə o özü də bu göz-gözü görməyən qaranlığın içində yaşamalı idi. Çar müstəmləkəçilərinin qəddar özbaşınalığı, ruhanilərin insan şüurunu buxovlayan zəhmi, feodal-patriarxal cəmiyyətin amansız ziddiyyətləri – kəndxudadan tutmuş lap yuxarılaracan hakimiyyət sahiblərinin qolu zorluluğu, geniş xalq kütləsinin savadsızlığı, qadınların hüquqsuzluğu, cəhalət, avamlıq, nadanlıq zülməti – bütün bunları yazıçı ondan-bundan eşitməmişdi, özü öz gözüylə görmüş, bütün varlığıyla duymuş, qəlb ağrısıyla yaşamışdı.

Nehrəm kəndində müəllimlik edərkən 1894-cü ildə Mirzə Cəlil ilk nəsr əsəri olan "Danabaş kəndinin əhvalatları" povestini yazır. Coğrafi xəritələrdə Danabaş adlı kənd yoxdur. Bu ünvanı hər hansı konkret yerə – o sıradan, ilk növbədə, əlbəttə, Nehrəmə aid etmək istəyənlər – çox böyük yanlışlığa, xətaya yol verirlər, ona görə ki, bədii ədəbiyyatın ən ilkin şərtlərindən birini – bədii ümumiləşdirmə şərtini unudurlar.

Bir çox dəyərli insanların vətəni olan Nehrəm kəndi tariximizə nehrəmlilərin əliqanlı cəllad Andronikə göstərdikləri qəhrəman müqavimətlərilə də daxil olub.

Danabaş əhvalatları isə o dövrdəki bir çox Azərbaycan kəndlərində baş verən hadisələrin ümumiləşdirilmiş və bədii mübaliğə üsuluyla kəskinləşdirilmiş, heç bir konkret ünvanı olmayan rəmzi obrazı, məcazıdır. Bu, hər hansı Şərq kəndidir və konkret olaraq heç biri deyil. Povestə yazdığı "Yüngülvari müqəddimə"dən göründüyü kimi, müəllif bu başlıq altında XIX əsr Azərbaycan kəndi haqqında silsilə povestlər və hekayələr yazmaq fikrində imiş. Ancaq o, yalnız "Eşşəyin itməkliyi" povestini və "Danabaş kəndinin məktəbi" povestinin əvvəlini yaza bildi (sonra yarımçıq qalmış povest əsasında eyniadlı pyes yaratdı).

Beləliklə, "Eşşəyin itməkliyi" Mirzə Cəlilin ilk və yeganə bitmiş povestidir və bu əsəri dönə-dönə oxuyarkən mat qalırsan ki, bu cür dahiyanə bir yazı, əslində, müəllifin ilk qələm təcrübəsidir. Povestin elə adı polemikdir, əsrlər boyu Şərq poetikası incə, lətif obrazlar sistemini, "gül-bülbül" təşbehlərini təkrarlayırdı və birdən-birə belə "antiestetik", belə kobud, adi və sadə olsa da, bu qədər ötkəm bir ad – "Eşşəyin itməkliyi". Bəli, Mirzə Cəlil Məmmədquluzadə bütün obrazlar sistemilə, təhkiyəsilə, müəllif mövqeyilə, mətnin bədii toxumasıyla bunu deyirdi – oxuduğunuz əsər ən adicə, ən sadəcə bir əhvalatdır, bu əhvalat vur-tut ona həsr olunub ki, yazıq Məmmədhəsən əmi bir gün eşşəksiz qalır. Gülməyin, dodağınızı büzməyin. Eşşək Məmmədhəsən əmiyə çox gərək idi, neçə il idi bu biçarə varını-yoxunu satıb, silkələnib-soyulub, ailəsini ac-yalavac saxlayıb ki, Kərbəlaya ziyarətə getsin. Kərbəlanı ziyarət etmək Məmmədhəsən əminin ömrünün ən ali məqsədidir.

Günlərin bir günü Məmmədhəsən əmi papağını qabağına qoyub fikirləşdi və gördü ki, lap uşaqlıq çağında bir-iki gün istisna olarsa, həyatında yaxşı heç nə görməyib. Və ancaq irəlidəki ömründə, xülya kimi, səhrada sirab kimi Məmmədhəsən əmiyə bircə sevinc, bircə səadət görünür – Kərbəlaya səfər. Kərbəlanın fərsəq-fərsəq, adamın canını üzən, dilini-dodağını qarsıdan, uzandıqca-uzanan yolları... Bu yolları isə o, yalnız eşşəklə qət edə bilər.

Belə müsibətlə pul yığıb aldıqları eşşəklə Məmmədhəsən əmi də, onun arvadı da fəxr edir. Balaca oğulları Əhməd isə heyvana əməlli-başlı isnişib.

Amma bu kənddə bir katda da var – Xudayar bəy.

Xudayar bəy kənd miqyasında hakimimütləq və diktatordur. Həmin bu adam bir gün Məmmədhəsən əminin eşşəyini istəyir ki, şəhərə getsin. Şəhərə isə ona görə gedir ki, iki il bundan qabaq rəhmətə getmiş dostu Kərbəlayı Heydərin dul qalmış arvadı Zeynəbi siğə edib alsın. Çünki Zeynəb gənc və gözəldir, ən əsası da odur ki, rəhmətlik ərindən ona xeyli var-dövlət qalıb. Amma Zeynəb məğrur, bütöv, qırılmamış bir şəxsiyyətdir. Xudayar bəyin adını belə eşitmək istəmir.

Povestdə iki əsas xətt var və bu xətlər Xudayar bəyin məşum surəti vasitəsilə birləşir. Birinci xətt – Məmmədhəsən əminin xətti – tragikomik xətdir. Məmmədhəsən əminin faciəsi ondadır ki, ömrü boyu onu əzən, boğan bir etiqada xidmət etmək yolunda daha da əzilir, boğulur, tapdanır. Özü də bunu dərk edə bilmir. Başa düşə bilmir ki, inandığı Allah nə səbəbdən belə bir savab iş görməkdə, yəni Kərbəla ziyarətində ona kömək etmir, əksinə, qarşısına maneələr çıxır. Bəs belə olan surətdə? Məmmədhəsən əminin dərrakəsi bu bilməcəni aça bilmir.

Tragikomik vəziyyət də bundan doğur. Şaqqama gün altında, bürkü və tozlu kənd-şəhər yoluyla Məmmədhəsən əmi o baş-bu başa hey gedir, gedir, itmiş eşşəyini axtarır. Axı, Xudayar bəy ona müəyyən bir şey deməyib. O gün isə yaxınlaşır. O gün ki, zəvvarlar Kərbəla səfərinə yola düşəcəklər. Məmmədhəsən əmi onlara qoşula bilmir. Povestin bu səhifələrini həyəcansız oxumaq, unutmaq mümkün deyil – zəvvarların yola salınması, ağlayıb sızlayan Məmmədhəsən əminin acı göz yaşları, yanıqlı fəryadı: "Mən gedə bilmədim... Gedə bilmədim. Qoymadılar. Məni qoymadılar... Mənim eşşəyimi oğurladılar... Yedilər. Satdılar".

Məmmədhəsən əminin ailəsi dağılır, məhv olur. "Əhmədi bildir boğaz ağrısı tutub öldü. Anası onun iki ay qüssəsini eləyib, axırı bir dərdə mübtəla oldu və ömrünü bağışladı Məmmədhəsən əmiyə. Amma Məmmədhəsən əmi indiyədək and içir ki, Əhmədi də, övrətini də eşşəyin dərdi öldürdü".

Povestin ikinci xətti Zeynəblə bağlıdır. Köməksiz dul qadının üstünə feodal müsəlman cəmiyyətinin bütün ağırlığı – ailə-şəriət qanunları, iqtisadi və inzibati təzyiq düşür. Onu dilə tuturlar, ona məsləhət verirlər, onu hədələyirlər, qadının ətrafında sanki keçilməz sal divar ucalır: "Hünər gərək bu guppultunun, bu əziyyətin, bu rüsvayçılığın, bu hərbə-qadağanın, qazının, nəçərnikin, mollanın, qlavanın, şahidlərin, camaatın və Vəliqulunun qabağına

çıxıb tab eləsin və kəllə-kəlləyə versin! Bu hünər nəinki Zeynəbin, bəlkə, onun babasının da qüvvəsindən felə gəlməzdi... elə kim, Qasıməli sualını bir də təkrar elədi. Zeynəb hamı gücünü yığıb və üzünü qırışdırıb cavab verdi: – Razıyam".

İnsan qırıldı. İnsanda öldürüləsi ən mühüm şeyləri – ləyaqəti, qüruru, heysiyyəti, mənliyi öldürdülər. Əsərin son səhifələri:

"Zeynəb Xudayar bəyin evində altı ay yarım qaldı. Və bu altı ay yarımın ərzində Zeynəbin anadan əmdiyi süd burnunun dəliklərindən gəlib töküldü. Zeynəbi incitməklə onun tək bircə məramı var idi. Xudayar bəyin qəsdi Zeynəbin və səğirlərin var-yoxuna, puluna və mülkünə sahib olub, Zeynəbi çölə ötürmək idi...

Xudayar bəy Zeynəbin, səğirlərin və Vəliqulunun dövlətinə malik olan kimi, Zeynəb axırı arzusuna yetişdi: yəni Xudayar bəyin evindən yığışıb gəldi öz evinə. Hərçənd indi Zeynəbin evində iki həsirdən başqa bir şeyi yox idi...

...Vəliqulu çıxdı eşiyə. Çünki axşama az qalırdı, gərək gedib malları suvara idi: yubansa, Xudayar bəy mərəkə qalxızar. Ziba anasının qucağında bir az ağlayıb yuxladı".

Povest bu sözlərlə bitir. Nə qədər ağrı var burada. Tapdanmış insan üçün ağrı! Özbaşınalığın hökm sürdüyü bu mühit nə qədər qaranlıqdır, zülmət nə qədər qatıdır. Səsinə heç kəsin səs verməyəcəyi, dadın, harayın heç hara çatmayacağı bir səhra... Bu əsərdə heç bir nəfəs yeri, işıq şöləsi yoxdur və bunu heç də əsərin nöqsanlı cəhəti hesab etmək olmaz. Belə bir zülmətlə üzləşmiş, belə bir cəhənnəmə enmiş yazıçıdan işıqlı pəncərələr istəmək düz olmaz. Böyük Sabirin başqa münasibətlə dediyi sözləri bu baxımdan Mirzə Cəlilə də aid etmək olar: "Baxmış bu müsəlmanlara qəm pəncərəsindən".

"Eşşəyin itməkliyi" XIX əsr Azərbaycan kəndinin yanıqlı və yandırıcı mənzərəsidir, bütün qəlbiylə xalqının dərdlərinə ağrıyan böyük yazıçımızın "qəm pəncərəsindən" gördüyü acıdan acı səhnələridir.

Mühitin işıqsızlığı, özbaşınalığın tam "mənəm-mənəmliyi" baxımından bu əsər XX əsrin əvvəllərində yaşayıb yaratmış başqa bir yazıçının – Frans Kafkanın "İstintaq" romanıyla səsləşir. İnsan şəxsiyyətinin mənəvi daşqalaq edilməsi, ədalətsizliyin və zorakılığın, zülmün və qəddarlığın ölçüsüz miqyası, alçaldılmış və tapdanmış insan üçün qövr eləyən yaraların ağrısı, əzici quruluşun dəhşətli ümumiliyi – hər iki əsərin mütaliəsi bu fikirləri, bu duyğuları oyadır. Əlbəttə, bunlar tamamilə bir-birinə bənzəməyən üsullarda yazılmış əsərlərdir. Frans Kafkanın qəliz modernist nəsriylə Cəlil Məmmədquluzadənin aydın, ənənəvi-realist təhkiyə üsulunu zahiri nişanələrə görə tutuşdurmaq olmaz. Bu əsərlərin daha dərin qatlarda oxşarlıqları var – insan mənliyi üçün nigarançılıqdır onları bir-birinə bənzədən "Eşşəyin itməkliyi" sırf bədii cəhətdən də bu günə qədər Azərbaycan nəsrinin ən yüksək örnəyi və zirvəsi olaraq qalmaqdadır. Xəsis ifadə vasitələri, təhkiyənin dəqiqliyi, təsvirlərin yığcamlığı və rəvanlığı, xarakterlərin sərrastlığı, heyranedici

psixoloji tapıntılar, ən adi sözlərin köməyilə yaranan üzücü kədər duyumu, dilin canlılığı, şirəsi, duzu – bütün bu məziyyətlər haqqında çox danışmaq olar.

"Danabaş kəndinin əhvalatları"nda Mirzə Cəlil Məmmədquluzadə diaqnoz qoyur, mərəzi müəyyənləşdirir. Amma bu, azdır. "Mikroblar" felyetonunda yazdığı kimi, xəstə yanına gələn həkim azarın ancaq adını deyib çıxıb gedərsə, belə həkim bir qara qəpiyə dəyməz. Dərdi deyən, gərək dava-dərmanını da desin.

M.C.Məmmədquluzadə də xəstəliyi müalicə üçün onun səbəblərini, mikroblarını, viruslarını axtarır. O, bir çox səhnə əsərləri yaradır: "Ölülər", "Dəli yığıncağı", "Danabaş kəndinin məktəbi", "Anamın kitabı",· yüzlərlə felyeton, onlarla hekayə, o cümlədən bu janrın şah əsərlərindən olan "Poçt qutusu", "Usta Zeynal", "İranda hürriyyət", "Qurbanəli bəy", "Nigarançılıq" kimi şedevrlər yazır.

Səbəblərdən biri, həm də əsas səbəblərdən biri – mövhumat və cəhalətdir. Mövhumat və cəhalətlə mübarizəyə Mirzə Cəlil Məmmədquluzadənin bir çox əsəri və o sıradan ən parlağı – "Ölülər" tragikomediyası həsr olunmuşdur.

"Ölülər" haqqında söhbətə keçməzdən qabaq bir məsələ üzərində xüsusi durmaq istərdim. Mirzə Cəlil Məmmədquluzadənin İslam dininə münasibəti məsələsini aydınlaşdırmağa ehtiyac var. Sovet dövründə bütün klassiklərimizi din düşməni, az qala ateist kimi göstərmək cəhdlərinin fəsadları, nə yazıq ki, bu gün, müstəqillik və azadlıq dövründə də ara-sıra meydana çıxır. Mirzə Fətəli Axundzadənin, Mirzə Cəlil Məmmədquluzadənin və Mirzə Ələkbər Sabirin dini fanatizmə, mövhumata, xurafata, cəhalətə qarşı mübarizə aparmalarını az qala onların din düşmənçiliyi kimi, konkret olaraq, İslama düşmənçilik kimi qələmə verməyə çalışır və bu sarıdan hətta onları suçlamaq da istəyirlər. Ateist olduğunu, heç bir dinə tapınmadığını prinsipial olaraq bəyan edən Mirzə Fətəlidən fərqli olaraq, nə Mirzə Cəlil ateist idi, nə də Sabir. Mirzə Fətəlinin də mübarizə hədəfi İslam dini deyil, ümumən Şərq ətaləti və durğunluğu idi. Sabir şəriətin bütün qaydalarına riayət edən mömin müsəlman idi. Mirzə Cəlil də bir çox yazılarında milləti dininə, məscidinə hörmət etməyə çağırırdı. Onu da unutmayaq ki, sovet dövründə "Molla Nəsrəddin" jurnalı "Allahsız" adıyla nəşr edilməyə başlayanda Mirzə Cəlil etiraz əlaməti olaraq bu jurnalın redaktorluğundan imtina etdi.

Amma bununla belə, hər üç böyük klassikimizin mövhumatın, xurafatın və onlardan törənən cəhalətin barışmaz düşməni olmaları da danılmaz gerçəklikdir... Xurafata, mövhumata, cəhalətə qarşı mübarizəni dinə qarşı mübarizə hesab etmək isə müqəddəs dinimizin özünü təhqir etməkdir. Bu gün birdənbirə möminləşmiş dünənki alovlu ateistlər bunu dərk etməlidirlər. Nəyə görə biz hər cürə mütərəqqi fikrə, inkişafa qarşı olan mürtəce və mühafizəkar meylləri dinimizlə eyniləşdirməliyik?

Mirzə Cəlilin bir sıra başqa əsərləri kimi, "Ölülər" də dinə qarşı çevrilmiş əsər deyil, din adıyla möhtəkirlik edən şarlatan şeyx nəsrullahları ifşa edən

və onların fitnələrinə uyan avamlara acıyan yazıçının ehtiraslı vətəndaş harayıdır.

"Ölülər" yazıçının çox sevdiyi bədii priyom üzərində qurulur – əcaib bir vəziyyət son həddə çatdırılır. Mübaliğəli qroteskin son, ən ifrat dərəcəsi.

"Ölülər" pyesilə ilk dəfə tanış olan adam düşünür, görəsən, bu ölü diriltmək səhnəsi necə həll olunacaqdır, fırıldaqçı şeyx bu çıxılmaz vəziyyətdən hansı fəndlə qurtara biləcəkdir. Mirzə Cəlilin tapdığı dahiyanə yol məlumdur, bu situasiyadan çıxış özü çıxılmazlığın rəmzinə çevrilir. Bayaqdan bəri öz əziz meyitlərini diriltmək istəyən adamlar, indi bir-bir bu niyyətlərindən əl çəkirlər. Məlum olur ki, hər hansı bir ölünün dirilməsi kiminsə xeyrinə deyil.

Qrotesk bir vəziyyət yaranır – ölülər və dirilər dünyası saysız əlaqələrlə, münasibətlərlə, xainliklər, satqınlıqlar, əclaflıqlar, günahlarla bir-birinə elə sarmaşıb, elə qarışıb, düyünlənib ki, kimin ölü, kimin diri olduğunu ayırmaq olmur. Dəhşətli, tükürpədən bir dünya görünür – yalnız lal məzarlardan və diri meyitlərdən ibarət olan dünya. Bu dünyanın yetişdirməsi və müftəxoru olan Şeyx Nəsrullah da hər şeyi elə beləcə düşünmüşdü. Şeyx Nəsrullah bu adamlara yaxşı bələddir, onların ürəyinin içini açıq gözlə – soyuq şüurla görür. Öz iti ağlını, insan xislətinə bələdliyini də şeyx dünyada ən murdar bir işə – insanları dolamağa, onların hisslərini, müsibətlərini, dərdlərini öz xeyri və mənfəəti üçün istifadə etməyə yönəldir.

Pyes mövhumat fanatizmini qamçılayan pamfletdən ümumən fanatizmi damğalayan bir ittihamnaməyə qədər yüksəlir. Çünki iş yalnız mövhumatda və mövhumatın, xurafatın törətdikləri cəhalətdə deyil. Şeyx Nəsrullah və canlı meyitlərin küt, biçimsiz kütləsi, müti sürü şüuru və şər əmələ istiqamətlənmiş "zirək" bir fərd – əsərin əsas mövzusu bundan ibarətdir. Buna görə də, "Ölülər"in öldürücü satirası yalnız mövhumat əleyhinə mübarizə çərçivəsilə məhdudlaşmır. Bu pyesin oyatdığı anımlar, assosiasiyalar sırasında – hər növ totalitarizm, sürü psixologiyası, hər hansı bir diktatorun bütöv bir cəmiyyəti iradəsinə ram etməsi haqqında fikirlər əsasdır. Bu gün çağdaş dünyamızda, bəlkə, daha da kəskinləşmiş neçə-neçə başqa problemlərin dərk olunması baxımından da "Ölülər" çox önəmlidir. O yerdə ki, insan şüuru basqı, təzyiq altındadır, o yerdə ki, şəxsiyyət ümumi sifətsiz bir kütlə içində əriyib gedir, fikir təsdiq olunmuş ümumi standartlara və qəliblərə tabedir, o yerdə ki, hər hansı populist bir şüar kütləyə ağıllı, məntiqli, düzgün və təmkinli fikirdən daha artıq təsir göstərir – o yerdə "Ölülər" daima aktual əsər olaraq qalacaqdır. Bir çağırışıyla, bir hökmüylə on min-yüz minlərlə insanın şüuruna, davranışına hakim olan "qəhrəmanları" elə bizim günlərdə də azmı görmüşük? Xəlifəlikləri bir saat, ya bir neçə gün, bir neçə ay çəksə də, müasir şeyx nəsrullahlar onlara inanıb aldanmış kütləni istədikləri kimi sıxıb, əzib, sonra da qoyub qaçmayıblarmı? Şeyx nəsrullahların belə "dərslərinə" bu gün də ayıq-sayıq münasibət bəsləməliyik.

Bəzən "Ölülər"i Qoqolun məşhur "Müfəttiş" komediyasıyla müqayisə edirlər. Müqayisə ümumi ideya-vətəndaşlıq qayəsi baxımından edildikdə ona,

şübhəsiz, haqq qazandırmaq olar. Amma süjetin zahiri əlamətləri cəhətdən bu müqayisə o qədər də dəqiq deyil.

Bu iki pyesin fərqi yalnız onda deyil ki, "Müfəttiş"də yeganə müsbət personaj gülüş olduğu halda, "Ölülər" də fərdiləşmiş müsbət personajlar da var. Əsas fərq məncə ondadır ki, "Müfəttiş"də Xlestakov əhvalatın passiv iştirakçısıdır, hadisələrin axarında üzərək ona təlqin olunan rolu istər-istəməz oynamalı olur, "Ölülər" də isə Şeyx Nəsrullah vəziyyəti özü yaradır, vaqiəni özü yönəldir.

Mirzə Cəlil dəhşət içində görür və bizə göstərir ki, baxın, belə bir Şeyx Nəsrullahın fikri-zikri yalnız şəhvət olmasaydı, o, başqa, daha təhlükəli ictimai-siyasi səmtdə fəaliyyət göstərsəydi, məsələn, hakimiyyət iddiasına düşsəydi və insanları da arxasınca aparsaydı, cəmiyyət nə günə qalardı...

Bütün bu adamların içində dərdli-dərdli bir şəxs dolaşır: Hacı Həsən ağanın oğlu İsgəndər. Hacı Həsən ağa özünə bağışlaya bilmir ki, onun-bunun sözüylə oğlunu Avropaya oxumağa göndərib. İsgəndər oxuyub qayıdıb, bu adamlar içində özünə bir həmdəm, bir söz anlayan dost tapa bilməyib, mehrini ancaq və ancaq içki şüşəsinə salıb. Adına da Kefli İsgəndər deyirlər və bu "naxələf" çıxmış kefliyə barmaqarası baxırlar. Belə aciz-avara içki düşkününün kimə nə zərəri dəyə bilər?

İsgəndər obrazı dünyanın çeşidli ədəbiyyatlarında və müxtəlif zamanlarda mövcud olan bir ənənənin axarında yaranıb. Mühitinə asi olan narazı gənc obrazı Hamletdən Çatskiyə, Çayld Harolda qədər dünya ədəbiyyatının bir çox şah əsərlərində əks olunub. Bizim ədəbiyyatımızda da bu obrazın sələfləri çoxdur. Öz dövrünün anlayışlarına, adətlərinə meydan oxuyan Məcnundan Mirzə Fətəlinin, Nəcəf bəy Vəzirovun, Əbdürrəhim bəy Haqverdiyevin müsibətli, bədbəxt cavanlarına qədər bu bədii tipaj çeşidli təcəssümlərdə meydana çıxıb.

İsgəndəri müsbət qəhrəman adlandırmaq çətindir. Onun bütün mayası inkardan yoğrulub. O, atasının mühitini qəbul etmir, Şeyx Nəsrullahın iç üzünü görür. O, hər şeyi anlayır. Hiddətlənir, kədərlənir, ittiham edir, amma fəaliyyət göstərmir, mübarizə aparmır, içir. Bütün ağıllı nitqlərinə baxmayaraq o gücsüzdür, ona görə də tənhadır, tənhadır, ona görə də gücsüzdür... Təsəllisini yalnız sərxoşluqda tapır. İsgəndərin içkibazlığını taktiki vasitə kimi yozanlar, yəni İsgəndəri dediklərini deyə bilmək üçün özünü bir növ hamletvari dəliliyə vurmuş adam kimi təfsir edənlər, zənnimcə, yanılırlar. Yox, İsgəndərin kefliliyi ağrıdan, çıxılmazlıqdandır, gücsüzlükdəndir, dərddəndir. Hiylədən, fənddən deyil.

"Ölülər"də M.C.Məmmədquluzadə başqa mühüm bir problemi – ziyalıların məsuliyyəti, maarif problemini də qoyur. Pyesdə mövhumat fanatiklərinin qaragüruhuyla yanaşı, iki ziyalı personaj – poçt məmuru Heydər ağa və tərcüməçi Əli bəy də var. Onlar təhsilli adamlardır. Həmişə cüt gəzirlər, görünür ki, aldıqları biliklər, təfəkkürləri onları bir-birinə bab edib. Haradasa pyesdən kənar bir reallıqda onlar, bəlkə, ürəklərini də bir-birlərinə açırlar,

hacı həsənlərin avamlığını lağa qoyurlar, Şeyx Nəsrullahın "möcüzələrinə" gülürlər. Amma adam içində onlar da hamı kimi bütün bu cahil fikirlərə şərik çıxır, qaranlıq şüurun bütün aldanışlarına haqq qazandırırlar, Şeyx Nəsrullaha itaət edirlər, onun ölü diriltmək elminə "heyran" olurlar. Bu əl ziyalıları, ürəklərinin, vicdanlarının, biliklərinin və təhsillərinin məntiqini ümumi rəyin aldanışlarına satmış ziyalılardır. İsgəndər bu Gildenstranla Rozenkransa (belə bənzətmə caizsə) onların xəyanətlərini – öz şüurlarına, biliklərinə, anlayışlarına dönüklüyünü bağışlaya bilmir. Axı, onlar bu bilikləri, bu maarif işığını qaranlıq şüurlara çatdırmalı idilər. Əvəzində təhqirlər və söyüşlər qazansalar da, bu, onların müqəddəs ziyalılıq borcu idi. Amma onlar "ağrımayan başımı niyə ağrıdım" prinsipilə öz mənlərindən üz döndərdilər.

Rəsul Rzanın Mirzə Cəlil motivlərində yazdığı şeirlərindən biri Kefli İsgəndərə həsr olunub və o şeirdə belə misralar var:

Kimi dərdindən içir,
Kimi kefindən.
Kimi təzə paltardan qorxur,
kimi kəfəndən.
İsgəndəri soruşdunuz məndən?
İsgəndər içərdi.
Ləqəbi də kefli İsgəndərdi.
Gecə-gündüz düşündürürdü onu
Diri ölülərin dərdi.
Yoxsa o da, bir poçt məmuru olar.
Nə dərdlənər, nə içərdi.
Ömrü ölülər içində
Sakit, səssiz keçərdi.
Qınamayın İsgəndəri!
Yaman olur
anlamaq dərdi.

M.C.Məmmədquluzadə əhliləşdirilmiş, uyğunlaşmış ziyalılara, öz müqəddəs vəzifəsindən – fikir, aydın şüur, düşüncə işığını daşımaqdan, barışmazlıq yükünü çəkməkdən, anlamaq dərdindən imtina etmiş ziyalılara nifrət edirdi. Ömrü boyu maarif, təhsil, mədəniyyət uğrunda mübarizə aparan yazıçı həqiqi, fədakar ziyalılıqla zahiri ədəb-ərkanın, səthi savadlılığın fərqini çox gözəl duyurdu. İsgəndərin sözləri də elə bu barədə deyilmi: "Mənim də müəllimim mənə nəsihət edərdi ki, bala, səy elə, dərslərini yaxşı öyrən. Amma bu dılğırların heç birindən eşitmədim ki, desin: bala, adam ol".

Cəlil Məmmədquluzadənin mənəvi idealı – əsl adam idi, həqiqətə, ədalətə, öz əqidəsinə sadiq qalan, düşünən və düşündürən insan.

İrili-xırdalı, müxtəlif janrlı bütün əsərlərində sənətkarın anlamaq dərdi ifadə olunub. Əlbəttə, Mirzə Cəlilin anlamaq miqyasları və üfüqləri İsgəndərinkindən qat-qat geniş, dəfə-dəfə əhatəli idi. O, insan problemlərini,

cəmiyyət problemlərini, öz xalqının milli problemlərini dərindən-dərinə anlayır və dərk edirdi.

İnsan problemlərini qələmə alanda yazıçı obrazı, onun əxlaqi, fəlsəfi, emosional və məişət əlaqələrinin bütün qəlizliyini nəzərə alaraq, təsvir edirdi. Mirzə Cəlilin birtərəfli personajları yoxdur, qəhrəmanları həmişə çoxcəhətli, çoxyönlü, canlı, sözün əsl mənasında həyatidirlər. Xüsusi qeyd etmək lazımdır ki, yazıçı Şərə, Yamanlığa, Pisliyə nə qədər nifrət bəsləsə də, heç vaxt qeydşərtsiz mənfi adamlar göstərmir. Onun ən mənfur, nifrətə layiq personajlarının da bir imtiyazı var – öz xətt-hərəkətlərini, öz xasiyyət və xislətlərini şərh etmək hüququ. Bu, onların günahlarını azaltmır, ancaq realistcəsinə açır, izah edir. Nadürüstlər özlərini nadürüst hesab etmirlər, onların da öz gözlərində bəraətləri var, onların da dünyaya baxışı və hadisələrə qiymət vermək ehtiyacı, Xeyri-Şəri öz anlamlarında dərk etmək təşəbbüsü, öz həyat tərzlərindən, yetişdikləri mühitdən, şəraitdən doğan məntiqləri var və onlar bu ifrat məntiqlərindən, özlərinin "həqiqət" və "əxlaq" meyarlarından çıxış edirlər. Mirzə Cəlil Məmmədquluzadənin bir sənətkar kimi ən böyük qələbələrindən biri də məhz elə budur.

İctimai problemlərə də M.C.Məmmədquluzadə metafizik baxımdan, təcrid olunmuş şəkildə yanaşmır. O, heç zaman ümumi, mücərrəd problemlərlə maraqlanmayıb, onu narahat edən məsələlər həmişə konkretdir. Hər bir problemi o, çoxcəhətli, əhatəli, tutumlu şəkildə götürür və dialektik inkişafda nəzərdən keçirirdi. O, yalnız öz dövrünü, bu günü deyil, sabahı, gələcəyi də görə bilirdi. Problemləri yalnız indiki halda deyil, gələcəyin ola biləcək variantlarında da qavrayırdı. Öz idealları həyata keçərsə, bunun özündən doğacaq yeni problemlər haqqında da düşünürdü. Maariflənməyə, savadlanmağa bizim bir çox yazıçılarımız çağırıb. Mirzə Cəlilin böyüklüyü bir də ondadır ki, o, "maarifin səmərəsini" də qabaqcadan görürdü, zahiri, üzdən mənimsənmiş savadın nə kimi ağır nəticələr verəcəyini əvvəlcədən duyurdu...

"Danabaş kəndinin məktəbi" pyesində bu cür formal təhsilə, uçitel Həsənov kimi yarımçıq savadlıların səfeh "dərslərinə" gülür, bu "dərslərə" kəndlilərin və hətta balaca kənd uşaqlarının ironik, ayıq münasibətini acı bir sarkazmla qələmə alırdı.

Mirzə Cəlil Məmmədquluzadə öz xalqının milli problemlərini də dərindən-dərinə başa düşürdü. Xalqın coğrafi taleyi, tarixi bəxti, hansı qonşu xalqların və güclü dövlətlərin əhatəsində, daha doğrusu, mənəvi və inzibati çəmbərində qalması yazıçını daima düşündürən məsələlərdən idi. Məşhur "Azərbaycan" felyetonunda da, bir çox başqa əsərlərində də bu barədə acıdan-acı və ciddidən-ciddi fikirlərə dalır. Bu əzablı düşüncələr ən parlaq və dolğun ifadəsini "Anamın kitabı" pyesində tapmışdır. "Anamın kitabı"nda bu problemlər Azərbaycanın bütün tarixi varlığını təcəssüm etdirən fəlsəfi simvol səviyyəsinə yüksəldilmişdir. Bu pyes – pritça, rəvayətdir, onun fabulasında, quruluşunda, obrazlar sistemində folklor ünsürləri, xalq nağıl modeli çox güclüdür.

Zəhrabəyimin üç oğlu var. Ana övladlarını oxumağa göndərir – birini Rusiyaya, birini İrana, birini Türkiyəyə. Oğlanları oxuyub qayıdıblar vətənə, hərəsi öz öyrəndiyini, mənimsədiyini, öz yeni mənəvi aləmini gətirib və bunların hamısı bir-birinə uyğun deyil, yabançıdır, yaddır. Onlar başqa mədəniyyəti mənimsəyib qavramayıblar, bütünlüklə, bu, özgə mədəniyyətin, özgə dilin əsiri olub, öz milli mənliklərini büsbütün unudublar. İndi onlar sözün həm məcazi, həm də hərfi mənasında bir-birilə və analarıyla, bacılarıyla dil tapa bilmir.

Mənə elə gəlir ki, bu əsərdə Mirzə Cəlil ilk dəfə böyük mütəfəkkirimiz Əli bəy Hüseynzadə tərəfindən irəli sürülən, sonralar Türkiyədə Ziya Göyalp tərəfindən davam etdirilən triadaya – İslamlaşmaq, Türkləşmək, Müasirləşmək (yaxud İslamlaşmaq, Türkləşmək, Batılaşmaq-Qərbləşmək) üçlüyünə qarşı bir növ polemikaya girir. Əvvəllərdə yazdığım kimi, Mirzə Cəlil heç vaxt bir din olaraq İslama qarşı çıxmamışdır, əksinə, İslami əxlaq dəyərlərinə həmişə böyük önəm vermişdir.

Dilinin, millətinin türk olduğunu dəfələrlə bəyan edən yazıçı təbii ki, türkləşməyə qarşı da ola bilməzdi. Müasirləşməyə, Qərbin mədəni sərvətlərini mənimsəməyə gəldikdə, Cəlil Məmmədquluzadə ömrü boyu məhz bu əqidəylə yaşamışdır.

Bəs onda polemika nədən ibarətdir? Polemika, məncə, ondan ibarətdir ki, islamlaşmağı da, türkləşməyi də (əsərdəki anlamda osmanlılaşmağı) və qərbləşməyi, müasirləşməyi də Mirzə Cəlil yalnız bircə şərtlə qəbul edir – Azərbaycanlılığını, Azərbaycan türkü olduğunu, Azəri türkcəsində danışmağını, yazmağını unutmamaq şərtilə. Bu baxımdan həmin termini işlətməsə də, Mirzə Cəlil Məmmədquluzadə Azərbaycançılıq şüurunun əsasını qoyanlardandır. İki "obrazovannı" müsəlmanın bir-birilə rus dilində danışmasını lağa qoyanda da, Azərbaycan adlarını ruslaşdıranlara rişxənd edəndə də, öz anasına yeməyin adını küftə deyil, "qofta" şəklində deyənlərə masqara edəndə də Mirzə Cəlil nə müasirləşməyin, nə qərb dəyərlərini qəbul etməyin, nə də rus dilinin əleyhinə getmirdi, o, yalnız Azərbaycan türkcəsinin müdafiəsinə qalxırdı, hər bir insanın, ilk növbədə, öz dilini və deməli, milli mənliyini, milli ruhunu saxlamağın ehtiraslı tərəfdarı kimi çıxış edirdi.

Azərbaycan dilinin yersiz şəkildə qəliz, çox az adamın başa düşdüyü ərəb və fars sözlərilə yüklənməsinə qarşı olanda, "Ölülər" də Şeyx Əhmədin dililə "ərəbcə de, ərəbcə de" (yəni elə danış ki, camaat bir şey başa düşməsin) replikasını yazanda İslama, dinə qarşı deyil, xalqın başa düşmədən itaət qıldığı ehkamlara qarşı üsyan edirdi.

Və nəhayət, türklük məsələsi. O dövrdə indi Türkiyənin özünün imtina etdiyi bir dil, yəni ərəb və fars sözlərilə doldurulmuş Osmanlı dili mövcud idi.

Mirzə Cəlil "Papaslar" felyetonunda o vaxtkı osmanlıca (daha doğrusu, İstanbul dili) haqqında yazırdı:

"On beş milyon türk millətinin üç-dörd min ailəsinin məktəblərdə oxumuşlarını çıxandan sonra, qalanları dünyadan bixəbərdirlər. Ondan ötrü

ki, İstambulda çıxan qəzetlərin dilini başa düşə bilmirlər və bu cəhətdən, məsələn, anadolu türklərinin mində biri bilmir ki, İstambulda nə var".

Saf, təmiz Azərbaycan türkcəsini sevən və məhz bu dildə yazan Mirzə Cəlil doğma dilinin məhz bu baxımdan osmanlılaşdırılmasının (əslində ərəb-fasrlaşmasının) əleyhinə idi. Bu məsələdə Mirzə Cəlilin böyük müasirləri, mədəniyyət, ictimai fikir tariximizdə dəyərli xidmətləri olan Əli bəy Hüseynzadə və Əhməd Ağaoğluyla mətbuatda gedən mübahisələri də məlumdur.

Vaxtilə sovet ideologiyası Əli bəy Hüseynzadəni və Əhməd bəyi pantürkist kimi damğalayaraq adlarını yasaq etmişdi. Yəni onları pantürkist, turançı saymaq yanlış deyildi, amma bu ideologiyanın, məsləkin Azərbaycan xalqına zidd bir əqidə kimi qələmə verilməsi kökündən səhv idi. Bu gün Əli bəyin də, Əhməd bəyin də işıqlı simaları xalqımızın mənəvi yaddaşında layiqli yeri tutduqları bir zaman biz "Füyuzatın" da, "Molla Nəsrəddin" kimi xalqımızın mənəvi və mədəni təkamülündə əvəzsiz xidmətlərini lazımınca qiymətləndiririk... Amma bununla belə "Molla Nəsrəddin" və onun tutduğu mövqelə "Füyuzat" mövqeyi arasındakı ziddiyyəti də ört-basdır eləməməliyik. Və xüsusilə də, bu iki jurnalın dil məsələsinə, yəni xalqın anladığı, qavraya bildiyi bir dildə yazıb-yazmamaq, başqa sözlə, dildə də demokratiklik və elitarlıq məsələsinə müxtəlif şəkildə yanaşmasını danmamalıyıq. "Füyuzatçıların" yüksək səviyyəli, ancaq müəyyən mənada elitar üslubuyla "molla nəsrəddinçilərin" sadə xalqa ünvanlanmış yazıları arasında fərqi inkar etmək olmaz. Əlibəylərin, Əhmədbəylərin böyük şəxsiyyətlərini kiçiltmədən, dil siyasətində Mirzə Cəlil yolunun Azərbaycan üçün də, elə Türkiyənin özü üçün də daha perspektivli olduğunu əyani şəkildə gördük. Bunu Əli bəy özü də etiraf edirdi. Türkiyədən Azərbaycana gəlişində Mirzə Cəlillə görüşən Əli bəy "Molla Nəsrəddin"ə "yaxşı yazırsınız" qiymətini vermişdir. Bu isə belə böyük bir mütəfəkkirin və vətənpərvərin dilində xüsusi önəm daşıyan bir tərif idi. Öz fikrini Əli bəy bir misalla da əsaslandırmışdı: "Topu yerə atırsan, o, torpağa dəyib, sonra yüksəyə qalxır".

Mirzə Cəlilin, Sabirin yüksəlməsi də məhz torpağa enib sonra ucalmaq idi.

"Vətən nə Türkiyədir türklərə, nə Türküstan,
Vətən – böyük və müəbbəd bir ölkədir: Turan"

Ziya Göyalpın bir manifest kimi səslənən bu proqram beyti Əli bəy Hüseynzadənin də, Əhməd bəy Ağaoğlunun da həyatlarını qurban verdikləri əqidə idi. Bu gün biz siyasi və inzibati cəhətdən olmasa da, mədəni, mənəvi inteqrasiya nəticəsində Türk dünyası anlayışının gerçəkləşməsinə sevinirik. Beynəlxalq təşkilatlarda müstəqil türk dövlətlərinin bayraqlarının dalğalanması Ziya Göyalpın, Əli bəyin, Əhməd bəyin xəyallarında yaşayan bir arzu, bizim günlərin isə reallığıdır.

"Türk dünyası" istilahını işlətməsə də, Mirzə Cəlil üçün də belə bir dünya vardı. Çar rejimi dövründə İranda, Türkiyədə, Qafqazda, Türküstanda, İdil boyunda yaşayan türklərin ağrı-acılarını qələmə aldığı və "Molla Nəsrəddin" vasitəsilə bunların hamısına xitab etdiyi kimi, sovet dövründə də türk

xalqlarının yeni, latın əlifbasının qəbul edilməsi uğrunda yorulmaz mübarizə aparırdı, bu məqsədlə türk dünyasının uzaq yerlərinə səfərə çıxırdı.

Amma bununla belə – məsələnin məğzi də elə budur – böyük Türk dünyasının içində Mirzə Cəlilçün məxsusi və daha yaxın bir dünya Azərbaycan dünyası da vardı və onun real problemləri böyük yazıçı üçün hər cür romantik xəyallardan daha üstün idi.

Azərbaycançılıq (təkrar edirəm, bu istilahı işlətməsə də) ideyasını müəyyənləşdirmək üçün Mirzə Cəlil yazılarında hətta ölkəsinin – Güneyli-Quzeyli – coğrafi hüdudlarını belə cızırdı.

Yaralı ürəyinin fəryadı kimi səslənən məşhur "Azərbaycan" felyetonunda (27 noyabr 1917-ci il) yazırdı:

"Ax unudulmuş vətən, ax yazıq vətən!.. Bəzi vaxt otururam və papağımı qabağıma qoyub fikrə gedirəm, xəyalata cumuram, özümdən soruşuram ki:

– Mənim anam kimdir?

Öz-özümə də cavab verirəm ki:

– Mənim anam rəhmətlik Zöhrəbanu bacı idi.

– Dilim nə dildir?

– Azərbaycan dilidir.

– Yəni vətənim haradır?

– Azərbaycan vilayətidir.

Demək, çünki dilimin adı türk Azərbaycan dilidir, belə məlum olur ki, vətənim də Azərbaycan vilayətidir.

– Haradır Azərbaycan?

– Azərbaycanın çox hissəsi İrandadır ki, mərkəzi ibarət olsun Təbriz şəhərindən. Qalan hissələri də Gilandan tutub, qədim Rusiya hökumətilə Osmanlı daxillərindədir ki, bizim Qafqazın böyük parçası ilə Osmanlı Kürdüstanından və Bayaziddən ibarət olsun.

Ax, gözəl Azərbaycan vətənim, harada qalmısan?

Gəlin, gəlin, ey unudulmuş vətənin cırıq-mırıq qardaşları! Gəlin görək, beşikdə yad millətlərin südünü əmmiş, vətənimizdən yadırğamış və millətimizin ruhundan xəbərsiz bir para millət başçılarımız sizə nə gün ağlayacaqlar?! Niyə sakitsiniz, ey mənim lüt-üryan qardaşlarım?!".

"Anamın kitabı" pyesinin əsas ideyası da məhz bu yanğıdan mayalanır. Faciə müəllif tərəfindən həm ailə faciəsi kimi, həm milli faciə kimi, həm də sinfi faciə kimi yozulur. Bir-birilə də, ana-bacılarıyla da dil tapa bilməyən üç qardaş sadə xalqla, "qara camaatla" tamam-kamal ünsiyyətsizdirlər. Mirzə Cəlil ürək ağrısıyla bu qism ziyalılarla xalq arasındakı uçurumu göstərir. Göstərir ki, nicat yolunu yalnız başqa xalqların mədəniyyətini kor-koranə təqliddə görən ziyalılar heç kəsə – nə özümüzə, nə özgəsinə gərək deyil. Ən qəribəsi odur ki, bu növ ziyalılar da özlərini əsl vətənpərvər bilirlər. Amma bu cür "vətənpərvərlik" heç kimi, o cümlədən çar hökumətini də əsla təlaşa salmır... XX əsr Azərbaycan ictimai şüurunda, şərti olaraq, rusofillik, pantürkizm və panislamizm kimi üç cərəyanı "karikatürləşdirilmiş" şəkildə

təcəssüm etdirən üç qardaş arasında keçilməz sədlər, aşılmaz çəpərlər, sal divarlar dayanıb.

Divarlar, divarlar, divarlar... "Anamın kitabı"nda da, "Dəli yığıncağında" da, "Ölülər"də, "Danabaş kəndinin əhvalatları"nda da divarlar ucalır – insanlar arasında, fikirlər arasında, insanla xoşbəxtlik, həqiqət, azadlıq, işıq arasında. Gərək ki, Emerson deyib: Hər bir divarın qapısı da olmalıdır". Cəlil Məmmədquluzadə də divarlarda qapı, heç olmasa, balaca bir pəncərə, dar bir nəfəslik arayır. Amma... "Baxmış bu müsəlmanlara qəm pəncərəsindən"...

Əgər Mirzə Cəlilin əsərlərində işıqlı bir bucaq, nurlu bir künc varsa, bu hökmən uşaqlıqla bağlıdır. Uşaqlarla və uşaqlıqla. "Ölülər"də İsgəndərin kiçik bacısı və qardaşı... "Danabaş kəndinin məktəbi"ndə kəndli balaları... Bu işıqlı və günahsız uşaq aləmini mövhumatın, cəhalətin ağır zəhmi basır. Ömrün yeganə az-çox qayğısız dövrü olan uşaqlıq haqqında fikir "Eşşəyin itməkliyi"ndə də, bir çox hekayələrində də ("Buz", "Pirverdinin xoruzu", "Saqqallı uşaq"), felyetonlarında da ifadə olunub. İnsanın uşaqlığı və xalqın uşaqlığı – folklor, nənələrimizin nağılları, analarımızın laylaları, çobanların məzəli sözləri – təmiz, saf, əbədi, ilkin bir qüvvə kimi bütün bunları Mirzə Cəlil dəbdəbəli və yalançı ədəbiyyata qarşı, riyakar əxlaqa qarşı, kölə həyatının eybəcərliklərinə və murdarlıqlarına qarşı qoyur. Xalq şüurunun çeşməsi, xalq mənəviyyatının çirklənməmiş qaynaqları burdadır. Bax, məhz bu qaynaqlar, insan ömrünün əzəli, əsas və sadə dəyərləri, təbiət duyumu – sal divarın qapısı, işıq gələn pəncərəsidir.

"Anamın kitabı"ndan danışarkən bir nöqtəni də xüsusi qeyd etmək istəyirəm. Beynəlmiləlçilik" sözü sovet dövründə nə qədər bayağılaşdırılsa da, nəcib bir anlayışdır. Bütün varlığıyla beynəlmiləlçi olan Cəlil Məmmədquluzadə bu əsərində Azərbaycan millətinin əsas mənəvi dəyərlərinə, ruhuna, dilinə, ənənələrinə zərər verə biləcək üç tendensiyanı pisləmişdir. Ancaq bizim sovet dövrü ədəbiyyatşünaslığımızda bu məsələ bir tərəfli təhlil edilib. Mirzə Cəlilin pantürkizmi və panislamizmi qəbul etmədiyi göstərilsə də (bu, müəyyən dərəcədə düz idi, müəyyən dərəcədə də o dövrün tələblərinə uyğun olaraq qabardılırdı), rus çarizminin ruslaşdırma siyasətinin də barışmaz düşməni olmasının üstündən keçilirdi. O vaxt böyük rus şairi və ziyalısı Aleksandr Tvardovskinin redaktə etdiyi "Novıy mir" jurnalında "Anlamaq dərdi" adlı yazımı dərc etdirərkən, mən bunu xüsusi vurğulamışdım. Moskvadan sonra Bakıda da bu essemi çap etdirərkən senzura məhz bunu buraxmaq istəmirdi və yalnız "Azərbaycan" jurnalının redaktoru, görkəmli yazıçımız, rəhmətlik İsmayıl Şıxlının israrlı təkidilə bu fikirləri saxlaya bildik. Həmin yeri bu yazımda da olduğu kimi gətirmək istəyirəm, halbuki, indi də bəzi bugünkü "millətçilərimizin" xoşuna gəlməyə bilər:

"Və məhz ruslaşdırmanın düşməni olduğu üçün o, rus mədəniyyətinin həqiqi dostu və təbliğatçısı idi. O, rus xalqını Rusiya imperiyasının təbəəsi kimi deyil, ləyaqətlə və səmimi qəlbdən sevirdi. Dünyaya Puşkin, Qoqol, Qlinka, Tolstoyu bəxş etmiş bir xalqın dühasına heyran olmuş adam kimi

sevirdi; "Qurbanəli bəy" hekayəsində Cəlil Məmmədquluzadə nökər mahiyyətli bəy obrazı yaratmışdır; Çar zabitləri qarşısında quyruq bulayan bu nökərbəyin yaltaqlığı da miskin və iyrəncdir. Və bu hekayəni böyük Qoqolun xatirəsinə həsr edərək Cəlil Məmmədquluzadə belə adamların satın alınmış rəğbətinə qarşı yüksək humanizm, mədəni dəyərlər, ədəbi həmfikirlik əlaqələrini qoymuşdur".

Erməni-müsəlman münasibətlərinin ən gərgin vaxtında, hər iki tərəfdən qanlar axıdılan bir dövrdə Mirzə Cəlil "Kamança" əsərini yazır. İnanmıram ki, erməni ədəbiyyatında belə yüksək insani və humanist dəyərlərə malik bir əsər mövcud olsun. Mirzə Cəlil dühasının bir göstəricisi də odur ki, o özü erməni təcavüzkarlara qarşı əli silahlı vuruşa hazır olmaqla yanaşı, xalqının bir marağını, bir dəyərini, bir qarış torpağını heç kəsə qıymamaqla bərabər, xalqlar arasında, məhz azğın siyasətçilər, ifrat millətçi ziyalılar arasında deyil, sadə insanlar arasında düşmənçiliyin olmamasını istəyirdi. Dərk edirdi ki, körpələrini beşik başından başqa xalqa nifrət, kin, ədavət hisslərilə böyüdənlər öz xalqının da ayağının altında quyu qazırlar və gec-tez bu quyuya özləri düşəcəklər.

Keçmişin və indinin bütün qurbanəlibəylərinə qarşı amansız olan Mirzə Cəlil qələmi eyni barışmazlıqla yalançı vətənpərvərliyi, ucuz çayxana millətçiliyini, milli mənəm-mənəmlik təzahürlərini qamçılayırdı. O, dəqiq dərk edirdi ki, milli ləyaqət bir şeydir, milli lovğalıq tamam başqa şey. Vətən məhəbbəti gur bir vətəndaşlıq duyğusudur, amma, eyni zamanda dünyada ən fərdi, şəxsi, ən intim hisslərdən biridir. Vətənə sevgi barəsində gur səsli mikrofonlar vasitəsilə aləmə car çəkməyə nə hacət? Mirzə Cəlilin vaxtında, elə indinin özünəcən vətənə məhəbbəti gur səsli mikrofonlar vasitəsilə car çəkənlərin sayı az deyil. Belə aləmə bəyan edilmiş "vətənpərvərlik" həm təhlükəsiz şeydir, həm də çox mənfəətli. Mirzə Cəlil Məmmədquluzadə bu cür üzə görə "patriotizmə", məşhur olmaq, xal qazanmaq, alqış toplamaq, siyasi dividend yığmaq naminə göstərilən "vətənpərvərliyə" nifrət bəsləyirdi.

Vətənə məhəbbətin səmimiliyi və təmənnasızlığı bəzən paradoksal vasitələrlə sübuta yetir. Bu məhəbbət naminə "böhtançı", "antipatriot", "millətə qara yaxan", "nihilist", "xalqı təhqir edən" və başqa bu kimi damğalar da qazanmalı olursan. Bu gün Cəlil Məmmədquluzadə klassikdir, onun heykəli Nizami muzeyinin avandında ədəbiyyatımızın böyük simaları sırasında ucalır və bu gün də hətta heykəl olmuş insanı belə, "kollaborasionist", yəni "vətən xaini", "vətənini satmış" adlandıranlar tapılır...

Mirzə Cəlil demiş: "Maşallah söz danışana! Götürüb qarpız qabığını şappıltı ilə vurasan bu cür sözləri danışanın ağzından, ağzın yumsun, qoysun, getsin işinə. Müsəlmana ağıl fikirləşmək üçün verilməyib, məşğulat üçün verilib".

Belələrinin bu gün dedikləri əsrin əvvəlindəki cahillərin ittihamlarıyla necə də həmahəng səslənir. Haçan yaşamalarından asılı olmayaraq – XX əsrin əvvəlindəmi, axırındamı bu sayaq insanlar məgər başa düşə bilərlərmi

ki, ən acı sözlər, ən kəskin boyalar, ən tünd təsvirlər yalnız xalqa böyük, təmənnasız məhəbbətdən, yandırıb-yaxan ürək ağrılarından doğula bilər.

Onlardan hansı biri Mirzə Cəlil ağrısını duymağa qadirdir?

"Hərdən otururam və papağımı qoyub fikirləşirəm, öz-özümə deyirəm: ay rəhmətliyin oğlu, axı, bu müsəlmanlardan nə istəyirsən? Sonra öz-özümə cavab verirəm ki, vallah, heç özüm də bilmirəm ki, nə istəyirəm. Lal ol, ay Molla! Nə səmər hasil olacaq bu sözlərdən? Kimdir səmə qulaq verən? Kimdir məcmuə və qəzet oxuyan? Qulaqlar kar, gözlər kor, zövqlər məhv... Kimdir etina edən sənin həcv və məsxərənə? Sən ha yaz, yaz, yaz, yaz...".

Bu sözlərin ağrısını duymamaq üçün, doğrudan da, gərək qulaqların kar, gözlərin kor, beynin iflic olmuş olsun...

Mirzə Cəlilə (elə Sabirə, Mirzə Fətəliyə, Azərbaycanın bütün işıqlı adamlarına) qarşı səslənən çərənləmələr 90 il bundan öncəki zəvzəkləməklərin təkrarıdırsa, böyük yazıçının da 90-95 il bundan qabaq yazdıqları sanki elə bu gün yazılıb:

"Hər bir müsəlman qəzetini alırsan əlinə, görürsən yazılıb: maşallah filan milyonçu, maşallah filan millətpərəst, maşallah filan xan, filan bəy, filan kərtənkələ... (bu son sözlərdə lap hövsələdən çıxdığını hiss edirsən – *A.*). Müsəlman ədibi və mühərriri əlinə qələm götürəndə böyük və nüfuzlu bir adamın barəsində mədhiyyə yazmasa, yəqin bicdir və atasından xəbəri yoxdur. Amma heç biri yazmır ki, bir yandan minlərcə müsəlman acından ağlaşır və bir yandan da minlərlə manatlar xərclənir qonaqlıqlara, şöhrət ehsanlarına, qara neftə, püstə-badama, barışna və madama, sözü bir dəfə deyərlər adama...".

M.C.Məmmədquluzadənin sağlığında ona yönələn ittihamlar bəzən indi də səslənirsə, deməli, onun nadanlığa, avamlığa, cəhalətə vurduğu zərbələrin yeri indi də kimisə göynədir.

Mirzə Cəlilin bəzi çağdaşları da deyirdilər ki, guya o öz xalqını biabır edib, onun ən naqis cəhətlərini qabardıb, şişirdib, nə bilim daha nə edib. Bu ədəbi inkarçılar, diqqəti çəkmək üçün bu sayaq "orijinallıq" edənlər, öz "vətənpərvərliklərini" daha artıq qiymətə satmağa can atan cır səsli cırtdanlar özlərini "milli qeyrətin" qoruyucuları kimi göstərərək, Azərbaycanı Mirzə Cəlil Məmmədquluzadədən – xalqın qeyrət və ləyaqətinin ən yüksək daşıyıcılarından biri olan ölümsüz yazıçıdan "müdafiə" etmək istəyirdilər. Bu adamlar anlaya bilərdimi ki, sənətkar oğlunun əliylə, gözüylə, şüuru və qəlbiylə öz nöqsanlarını duyan, görən, düşünən, yazan xalq yetkin xalqdır, milli şüurun yüksək pilləsinə ucalmış xalqdır.

Əsrin əvvəllərində məşhur olan gürcü həkim Topuridze Mirzə Cəlil haqqında demişdir: "Belə satirik qabiliyyətə malik olan adamlar min ildə bir dünyaya gəlirlər. Onun mənsub olduğu xalq xoşbəxtdir".

Bu gün biz müstəqil Azərbaycanımızda demokratik cəmiyyət qurmaq istəyirik, demokratiyanın çətin yollarında ilk addımlarımızı atırıq. Demokratiyanın əsas özəlliklərinin birini hələ VIII əsrdə böyük fransız maarifçisi

Volter belə ifadə edib: "Mən sizin fikirlərinizlə qətiyyən razı deyiləm. Amma mən sizin öz fikirlərinizi istədiyiniz kimi bəyan etməyiniz üçün həyatımı qurban verməyə hazıram".

Bu gün çoxpartiyalılıq, plüralizm, çoxrənglilik şəraitində razılaşmadığımız fikirlərlə mübahisə etmək, öz mövqeyimizi məntiqlə sübut etmək əvəzinə bəzən bizim kimi düşünməyən hər kəsə qarşı amansız bir dözümsüzlük göstərir, onu təhqir etməkdən belə çəkinmirik. Elə yazıçılar da tapılır ki, həmkarlarına necə və nədən yazmaq haqqında, hətta əsərlərinə hansı adı qoyub qoymamaq barəsində lovğa-lovğa öyüd-nəsihət edir. Belə yerdə yenə də böyük Mirzə Cəlilin sözləri yada düşür:

"Heç bir fikir sahibinə demək olmaz ki, qandığını at, mən qandığımı tut. Heç bir şairə demək olmaz, elə yazma, belə yaz. Altı ildir yazırıq və altı ilin ərzində yazdığımız sözləri bu saat yenə min dəfə təsdiq edirik. Oxucularımız dağılıb bircə nəfər qalınca yazacağıq, yazacağıq".

* * *

1920-ci ildə müəyyən ictimai-siyasi səbəblər üzündən Mirzə Cəlil Məmmədquluzadə ailəsilə İrana köçür. Cənubi Azərbaycanın mərkəzi Təbrizdə məskən salır, Güney Azərbaycanda azadlıq hərəkatının rəhbəri Şeyx Məhəmməd Xiyabani ilə görüşür, dərhal "Molla Nəsrəddin" jurnalının nəşrini təşkil edir. Təbrizdə yazıçı özünü özgə işinə qarışmayan qonaq kimi aparmırdı. Həm də, axı, bura özgə yer də deyildi, doğma xalqının başqa böyük paytaxtı idi. Satira hədəflərini sərraf gözüylə müəyyənləşdirən təkin Mirzə Cəlil "Molla Nəsrəddin"in ilk Təbriz nömrəsində İran həyatının, Cənubi Azərbaycan mühitinin eybəcər cəhətlərini qamçılayan kəskin felyetonlar dərc etdi. Həm də jurnalı fars dilində çıxarmaq təklifini rədd edərək Azərbaycan türkcəsində buraxdı. Jurnalın elə ilk nömrəsi bomba təsiri bağışladı və dərhal da valinin göstərişi ilə yığışdırıldı. Amma yazıçı geri çəkilmədi. İran və Güney Azərbaycan problemlərinin bütün mahiyyətini açıb göstərən bir sıra proqram felyetonlar yazdı.

Jurnalın Təbriz nömrələrini böyük çətinliklə araya-ərsəyə gətirmək olurdu. Yenə də senzura, indi də şah senzurası, jurnalın işinə böyük əngəllər törədirdi. 1921-ci ildə Təbrizdə jurnalın beş nömrəsi çapdan çıxmışdı.

Qeyd etdiyim kimi, Tiflis dövründə Mirzə Cəlil "Molla Nəsrəddin"in ətrafında qabaqcıl ziyalıları toplaya bilmişdi; M.Ə.Sabir, Ə.Haqverdiyev, Ömər Faiq Nemanzadə, Ordubadi, Qəmküsar, Əli Nəzmi və başqaları jurnal səhifələrində "Hophop", "Mozalan", "Filankəs", "Dəmdəməki", "Hərdəmxəyal", "Qızdırmalı", "Lağlağı", "Məşədi Sijimqulu" və sairə təxəllüslərlə çıxış edirdi. Təbrizdə jurnalı başdan ayağadək bircə nəfər – Cəlil Məmmədquluzadə özü yazırdı. Amma müxtəlif felyetonların, xəbərlərin, məktubların altında köhnə dostlarının və həmfikirlərinin təxəllüslərini qoyurdu. Bəlkə, bu

da bir təsəlli idi – ona elə gəlirdi ki, köhnə silahdaşları, dostları, hətta Sabir kimi vəfat etmiş dostu da onunla buradadır, çiyin-çiyinə çalışır və çarpışırlar.

Təbrizdə Mirzə Cəlil bərk darıxırdı. O, buranın kəsif mühitində boğulurdu: "Yer üzündə ikicə şəhərdə hamamların tulanbarında peyin yandırırlar, bir Naxçıvanda, bir də Təbrizdə". Mirzə Cəlil "Tüstü" felyetonunda belə yazırdı: "...tək bircə nəfərin də fikrinə gəlmir ki, dünyada yaşamaq ibarət deyil ondan ki, səhər dükana gedib axşam abi-güştü yeyib yatasan. Sən ki, hamamın qoxumuş peyininin, üfunətli tüstüsünün içində yaşayacaqsan, dəxi niyə özgə millətləri bəyənmirsən ki, onlar hamamlarının tüstüsü ilə qonşuları boğmurlar. Hər yan tüstüdür, məclislərdə və evlərdə duxaniyyət və məşrubat tüsü, küçələrdə hamam tüstüsü, mənəviyyatda mövhumat tüstüsü, ruhda və qəlbdə kəsafət tüstüsü. Xülasə, millət tüstü içində boğulmaqdadır və boğula-boğula nicata müntəzirdi... Millət boğulur, tüstülər milləti hər tərəfdən əhatə eləyib. Əgər dadü-fəryada tez yetişməsəz, mümkündür ki, millətdən bir əsər qalmaya. Tələsmək lazımdır".

Təbriz təəssüratları Mirzə Cəlilin "Dəli yığıncağı" adlı pyesində də əks olunub. Əgər "Ölülər"də ölülərlə diriləri bir-birindən ayırmaq çətindisə, bu pyesdə "dəlilərlə" "ağıllılar" arasında bir fərq bulmaq zor işdir.

Azərbaycan radiosunda işlədiyim zaman Mirzə Cəlilin üç əsərinin – "Ölülər", "Dəlilər" ("Dəli yığıncağı") və "Dirilər" ("Danabaş kəndinin məktəbi") adlarıyla radio tamaşalarını hazırladıq (rejissoru Tofiq İsmayılov). Bu üç əsərin süjet, məkan, personajlar baxımından deyil, daha dərin mətləblər, fikir və qayə cəhətdən bir-birini tamamlamasını bir daha bütün aydınlığı ilə hiss etdim. Yeri gəlmişkən, onu da qeyd edim ki, Mirzə Cəlilin pyeslərinin şərəfli bir səhnə tarixçəsi var. Amma şəxsən özümün gördüyü üç tamaşanın təsiri mənimçün unudulmazdır. Tofiq Kazımovun quruluşunda "Ölülər", Mehdi Məmmədovun quruluşunda "Dəli yığıncağı" və Azərpaşa Nemətovun quruluşunda "Danabaş kəndinin məktəbi" tamaşalarını nəzərdə tuturam.

"Dəli yığıncağı" əsərinə gəldikdə kimin dəli, kimin ağıllı olduğunu heç cür müəyyənləşdirə bilməyən əcnəbi psixiatr Lalbyüz bu adamların arasında key-key dolaşır və elə hey özü üçün aydınlaşdırmaq istəyir: "Kim dali?", yəni dəli kimdir? Bir replikayla "Sən ki, bu xalqın dilini bilmirsən, onu necə müalicə edəcəksən" sözlərilə Mirzə Cəlil çox böyük bir mətləbə toxunur – Qərb təfəkkürlü insanların Şərq mentalitetini heç cür qavraya və anlaya bilməməsi – tək "Dəli yığıncağı"nın deyil, bu əsərdən çox-çox qabaqlar yazılmış başqa bir komediyanın da əsas mövzusudur: Mirzə Fətəli Axundzadənin "Müsyö Jordan və dərviş Məstəli şah" komediyasını nəzərdə tuturam. İlk baxışda məzəli bir zarafat təsiri bağışlayan fikirlərdə – Hətəmxan ağanın Avropayla Şərqi müqayisə edən sözlərində əslində dərin bir hikmət var. Mirzə Fətəlinin pyesində müsyö Jordan kimi, "Dəli yığıncağı" əsərində doktor Lalbyüz da bu son dərəcə ciddi məsələnin canlı rəmzləridir. Qərbin, Avropanın Şərqi, o cümlədən Azərbaycanı heç cür anlaya bilməməsi – bu gün da aktual bir mövzu olaraq qalır. Məsələ onda deyil ki, Lalbyüz ağıllısı-

dəlisi bilinməyən bir mühitə düşüb, yaxud avam arvadlar dərviş Məstəli şahın köməyilə Parisi "dağıdıb" müsyö Jordana qalib gəlirlər. Məsələ ondadır ki, iki fərqli dünyagörüşünün təması çox vaxt qarşılıqlı anlaşılmazlıq divarlarıyla üzləşir. Bu gün qloballaşma adıyla mediamızda kütləvi və deməli, ucuz amerikanlaşmanın (ABŞ-ın həqiqi böyük ədəbiyyatı, sineması, sənəti var, söhbət onlardan getmir) şahidi oluruqsa, milli əxlaqi dəyərlərimizin bayağı şoular vasitəsilə aşınmasını görürüksə, cürbəcür "izm"lər adı altında sənətə, ədəbiyyata bədii iqtidarsızlığın və istedadsızlığın sırındığını müşahidə ediriksə, doğrudan da, sual etmək istəyirsən: "Kim dali?".

Və bu sualın cavabında yalnız Mirzə Fətəlinin və Mirzə Cəlilin şərqli personajlarının deyil, müsyö Jordanın da, doktor Lalbyüzün də adları çəkilməlidir.

* * *

Yazıçının arvadı Həmidə xanım xatırlayır ki, Təbrizdə Mirzə Cəlil Məmmədquluzadə, demək olar ki, eyni vaxtda iki təklif aldı: Bakıdan və Tehrandan: "Mayın 2-də (1921-ci il) Cəlil Məmmədquluzadə Bakıdan Azrevkomdan teleqram aldı ki, o, yekdilliklə maarif komissarı seçilib, ailəsiylə birlikdə Bakıya dəvət olunur. Ələvi (yazıçının Təbriz tanışı) gəldi və Mirzə Cəlili dilə tutmağa başladı ki, getməsin, onsuz da orada eləməli iş qalmayıb, burada qalıb daha çox xeyir vermək, xalqı oyatmaq, dirçəltmək olar və s. Sonra dedi ki, Tehrandan xəbər gəlib, Cəlil Məmmədquluzadəyə təklif etmək istəyirlər ki, maarif idarələrinə rəhbərlik eləsin".

Beləliklə, taleyin qəribə hökmünə görə, eyni zamanda iki hökumət – Azərbaycan sovet hökuməti və şahənşah İran hökuməti Mirzə Cəlilə maarif naziri vəzifəsini təklif edir. Bir yandan onu elə ictimai quruluş dəvət edirdi ki, yazıçının o vaxtkı düşüncəsinə görə məhz bu quruluşda onun uğrunda ömrü boyu mübarizə apardığı amalları həyata keçirmək mümkün olacaq. O biri tərəfdən onu dəvət edən şahənşah quruluşuna qarşı da ömrü boyu barışmaz mübarizə aparmışdı. Həmidə xanım xatırlayır:

"Mirzə Cəlil mənə belə deyirdi, Bakıdan məni maarif naziri vəzifəsinə dəvət edirlər, amma mən qulluq etmək iqtidarında deyiləm. Orda xahiş edəcəm, mənə imkan versinlər ki, əvvəlki kimi yenə də "Molla Nəsrəddin" jurnalını nəşr edim. Mənim vəzifəm gülüşə layiq şeylərə gülmək, onları tənqid etməkdir. Güman edirəm ki, indi orada tam bir mətbuat azadlığı var, ən çox da məni cəlb edən budur".

Nə yazıq ki, çox az müddətdən sonra Mirzə Cəlil Sovet Azərbaycanında nə kimi "mətbuat azadlığı" olduğunu gördü. Və bir çox başqa məsələlər barədə də nə qədər yanılmış olduğunu dərk etdi.

Hər halda, 1921-ci il mayın 24-də M.C.Məmmədquluzadə böyük külfətini götürüb Təbrizdən Bakıya yola düşdü. Bakıda oxutdurmaq üçün on nəfər təbrizli uşağı da özüylə gətirirdi.

İlk gəlişində M.C.Məmmədquluzadə Azərbaycanda sovet hakimiyyətini alqışlamışdı. Bu quruluşa xidməti də mövcud olan nöqsanları tənqid etməkdə görürdü. Hələ 1922-ci ildə, yəni sovet bürokratik sisteminin tam oturuşmadığı vaxtda gələcəkdə bu sistemin hansı acı ziddiyyətlərə bais olacağını öncədən görərək yazdığı felyetonların birində belə bir səhnə var. Dəmiryol vağzalında bir kassanın qarşısında xeyli adam dayandığını, başqa açıq kassanın qabağında isə heç kəsin olmadığını görür. Səbəbini soruşanda deyirlər ki, bu ikinci kassa yüksək rütbəli dövlət məmurları üçündür. Bu yerdə Mirzə Cəlil öldürücü sarkazmla təklif edir ki, yaxşı olar, ikinci bir dəmir yolu da çəksinlər, biri adi adamlar üçün, o biri dövlət məmurları üçün.

Kommunist təkəbbürü, bürokratizm süründürməçiliyi, doqmatizm azarı, cümləpərdazlıq və s. kimi nöqsanlar Sovet hakimiyyətinin lap erkən çağlarında yazıçının iti nəzərindən yayınmamışdı. Və az sonra xoş ümidlərində yanıldığını dərk edərək, Mirzə Cəlil yarıciddi-yarızarafat məşhur sözlərini demişdi: "Qardaş, biz, axı, belə deməmişdik".

Haşiyə çıxaraq deyim ki, mən həmin bu sözləri Mirzə Cəlilin dilindən "Ağ liman" povestimə salan zaman, redaktor bunu heç cür buraxmaq istəmirdi.

Doğrudur, vətənə qayıtdığı ilk zamanlarda (güman ki, Nəriman Nərimanovun diqqəti və qayğısı sayəsində) Mirzə Cəlilə məhsuldar işləməsi, "Molla Nəsrəddin" jurnalını nəşr etməsi üçün şərait yaradılmışdı, hökumətin qərarıyla jurnala külli miqdarda pul ayrılmışdı; 1922-ci il noyabrın 2-də "Molla Nəsrəddin" in ilk sovet nömrəsi işıq üzü gördü. Qərar verilmişdi ki, "Molla Nəsrəddin" təyyarəsini düzəltmək üçün pul yığılsın. M.C.Məmmədquluzadə Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin (o vaxtkı "sovet parlamentinin") üzvlüyünə namizəd seçilmişdi. O, yeni əlifba komitəsinin üzvü idi. Azərbaycanın hökumət nümayəndə heyətinin tərkibində (nümayəndə heyətinə Ağamalıoğlu başçılıq edirdi) Krıma və Tatarıstana, Orta Asiya respublikalarına səfərə çıxmışdı. Məqsəd yeni latın əlifbasının təbliği idi.

İlk dövrlərdə M.C.Məmmədquluzadənin yaradıcılığı ictimaiyyətin diqqət mərkəzində idi. Kitabları nəşr olunurdu, o vaxtlardakı dəbə uyğun olaraq Bakıda geniş ictimai-ədəbi məhkəmə-disputlar keçirilirdi, "Ölülər"in personajları "mühakimə" olunurdu. Bu "mühakimədə" respublika Xalq Komissarları Sovetinin sədri N.Nərimanov da iştirak etmişdi.

Ancaq bütün bunlarla bərabər, yazıçının son illərini kölgələyən acı faktların üstündən keçmək də olmaz. Cürbəcür ədəbi cırtdanların ona qarşı kobud və əsassız hücumlarını yada salmamaq qeyri-mümkündür. Ömrünün son illərində onun taleyinin kədərli səhifələrini gizlətməməliyik.

Mirzə Cəlil M.F.Axundzadə haqqında essesini belə başlayır:

"Mirzə Fətəli Axundov barəsində ya çox yazmaq lazımdır, ya da heç yazmamaq lazımdır. Mirzə Fətəli Axundov barəsində ya yaxşı yazmaq lazımdır, ya heç yazmamaq lazımdır".

Bu tövsiyələr Mirzə Cəlilin özünə də aiddir. Ancaq bu iki tövsiyəyə üçüncüsünü də əlavə etmək gərəkdir: "Mirzə Cəlil Məmmədquluzadə barəsində ya həqiqəti yazmaq lazımdır, ya da heç yazmamaq lazımdır"...

Həqiqət isə ondan ibarətdir ki, ömrünün son illərində M.C.Məmmədquluzadə təqiblər, anlaşılmazlıqlar, ağır təzyiqlər şəraitində yaşayıb-yaradırdı. Onun kimi söz sərrafını yarımçıq yazıçılar dil pintiliyində təqsirləndirirdilər. Onun kimi təpədən-dırnağa vətənpərvər sənətkarı nöqsan cəhətləri şişirtməkdə suçlayırdılar. "Maarif və mədəniyyət" jurnalında N.Dubinski "qəribə bir faktı" qeyd edirdi: "Sovet Azərbaycanında liberal və azadxah "Molla Nəsrəddin" jurnalı çap olunur. Jurnalın nəşri üçün kifayət qədər pul buraxılır. Əslində isə bu, jurnal yalnız redaktorunun orqanıdır. Zənn edirik ki, buna son qoyulacaqdır".

M.C.Məmmədquluzadə qarşısında qəti tələb qoyulmuşdu: İran hökumətini və şəxsən müstəbid Rza şahı tənqidə yol verməməlidir. Qlavlitin (senzuranın) müdiri H.Terequlov Mirzə Cəlilə yazırdı ki, "Molla Nəsrəddin"də dərc olunan bütün materiallarda onun icazəsi olmalıdır.

1925-ci ildə M.C.Məmmədquluzadə M.S.Ordubadiyə məktub yazır: "Çoxdan bu fikrim vardı ki, indi yaxşı bəhanə də düşdü o fikri əmələ gətirməyə: mənim qəti qərarım budur ki, dəxi "Molla Nəsrəddin" jurnalını çıxartmaqdan bilmərrə əl çəkmək, evdə oturmaq və hökumətimizdən beş-on manat pensiya istəmək ki, elə bilirəm, ona bəlkə haqqım da ola və pensiya da olmasa, bir özgə mənbədən bir müxtəsər xərclik axtarmaq... Əgər "Molla Nəsrəddin"in nəşri hökumətə lazım olsa, heç sözüm yoxdur, özgə bir imza ilə məcmuənin nəşrinə heç müqavimət yoxdur. Hətta yaza bilsəm, sətir haqqının sahibi olaram. Amma bunu yenə deyirəm ki, bundan sonra mənim imzam məcmuədə görünsə, o vədə şikayətçi olsam, gərək heç kəs məndən inciməyə".

1926-cı ildən jurnal Cəlil Məmmədquluzadənin redaktor imzası olmadan çıxır, jurnala "redaksiya heyəti" imza atır.

M.C.Məmmədquluzadənin pensiya, bir müxtəsər xərclik istədiyi illərdə Bakıda onun dostu və silahdaşı, istedadı "Molla Nəsrəddin" səhifələrində parlayan Sabirə heykəl ucaldıldı. Abidənin təntənəli rəsmi açılışına Mirzə Cəlili çağırmağı "unutmuşdular". Yəqin ki, M.C.Məmmədquluzadə 1910-cu ildə vəfat etmiş Sabiri xatırlayaraq düşünürmüş ki, bəzən vaxtında ölmək də vacib imiş.

* * *

1923-cü ildə "Molla Nəsrəddin" gecəsi keçirilirdi. Həmidə xanım bu gecəni belə xatırlayır:

"Hamımız orada idik, lojada, ikinci yarusda oturmuşduq. Mirzə Cəlil həyəcanlı idi, nə isə düzəlmirdi, tənəffüslərdə musiqi çalınmırdı. Gecəni təşkil edənlər haradasa kefdə idilər və musiqi də onlar üçün çalırmış. İkinci hissədən sonra pərdələr qalxmadı, camaat təəccüb qalmışdı. Sən demə, artistlər oynamaqdan imtina ediblər, çünki gecənin təşkilatçıları onlara ikinci hissədən sonra pul vermək boyun olublarmış və vədlərinə xilaf çıxıblar... Əməlli-başlı biabırçılıq idi. Mirzə Cəlil hiddətlənmişdi, hamımıza dedi ki, elə bu saatca çıxaq gedək evə. Biz çıxıb getdik. Mirzə Cəlil yolda mənə dedi: "Bundan sonra heç vədə yubileyimin keçirilməsinə razılıq vermərəm".

Bu qəmli təsviri oxuyarkən Mayakovski sərgisinin RAPP-çılar tərəfindən baykot edilməsi yada düşür. Düşünürəm ki, M.C.Məmmədquluzadə və Mayakovskini yaxınlaşdıran bir çox cəhətlər var – talelərində də, ədəbi xarakterlərində də, hətta bəzi məişət cizgilərində də. Bu yaxınlıq böyük şeylərdə görünür – hər ikisi riyakarlığa, yalana nifrət edirdilər, hər ikisində güclü yumor hissi vardı, hər ikisi əsərlərində döyüşkən, dalaşqan, itidil, həyatda isə həssas, kövrək idilər. Hər ikisi inandıqları amalların nə şəkildə eybəcərləşdirildiyini görmüş və amansız xəyal qırıqlığına uğramışdılar. Bu yaxınlıq xırda şeylərdə, maraqlı məişət detallarında da görünür: Mirzə Cəlil də Mayakovski kimi ürəyinə yatmayan adama əl verməyə məcbur olandan sonra dərhal gedib əlini sabunla yuyarmış. Həmidə xanım yazır ki, "natəmiz adamları o, qoxusundan tanıyırdı".

1931-ci ildə "Molla Nəsrəddin"in nəşrinin 25 illiyi tamam oldu. Həmidə xanım soruşanda ki, neçin bu yubiley qeyd olunmur, Mirzə Cəlil belə cavab verir: "25 illiyi qeyd eləmək tezdir, Allah qoysa, 75 illiyini qeyd edərlər". Bu, kinayə idi. O, 1923-cü ildə "Molla Nəsrəddin" gecəsindəki biabırçılığı unutmamışdı.

1931-ci il yanvarın 7-də "Molla Nəsrəddin" jurnalının son nömrəsi çıxdı. Cəlil Məmmədquluzadə bu gündən sonra cəmisi bircə il yaşadı. 1932-ci il yanvarın 4-də vəfat etdi.

Ömrünün son illərində xəstəliklər, maddi sıxıntılar, ailə çətinlikləri ona çox əziyyət verirdi. Mirzə Cəlilin qızlığı Mina intihar etmişdi.

Həmidə xanım görkəmli maarifçi Əhməd bəy Cavanşirin qızı idi. Onun atasının və elə özünün də böyük xidmətlərini layiqincə qiymətləndirmək əvəzinə, Sovet hökuməti bəy qızı kimi onu bir çox məhrumiyyətlərə düçar edirdi və bu da Mirzə Cəlili çox incidirdi.

Yazıçının səhhəti pis idi. "Molla Nəsrəddin" jurnalının katibi Azərbaycan Xalq Komissarlar şurasının sədrinə yazırdı ki, Cəlil Məmmədquluzadə ağır xəstədir, kurort müalicəsinə ehtiyacı var, amma bunun üçün maddi imkanı yoxdur. Hökumət M.C.Məmmədquluzadəyə 200 manat pul və Kislovodska putyovka verir. Həmidə xanım xatırlayır:

"1930-cu ildə dekabrın axırında Mirzə Cəlil Kislovodskdan evə qayıdarkən onu müalicə edən həkim yazıçıya bağlı bir zərf verir və Bakıdakı həkiminə yetirməsini xahiş edir. Sonralar Mirzə Cəlil etiraf edib ki, Bakıyacan dözməyib, zərfi açıb məktubu oxuyub. Orada yazılıbmış ki, xəstənin işi bitib, iki aydan çox yaşamaz. "1931-ci ilin dekabrında mənə dedi: "Amma həkim düz bilməyib. O, deyən vaxtdan on ay da çox yaşayıram".

Səhhətinin xarablaşması, çeşidli mənəvi və məişət qayğılarıyla əlaqədar yorğunluq və bezginlik Mirzə Cəlilin bu dövr məktublarında aydın-açıq sezilir. Kislovodskdan Həmidə xanıma yazırdı: "Uzaq Kislovodskdan mehriban Həmidəyə salam göndərir və ona təşəkkür eləyirəm ki, mənə vaxtında iki oğul bəxş etmişdir. Onların hər ikisi bu ağır günlərimdə mənim ağıllı köməkçilərim oldular".

Başqa bir məktubunda yazırdı: "Mənə məktub yazın, amma siyasətdən yox. Həyatım onsuz da məhv olub".

Həmidə xanım xatırlayır: "Mirzə Cəlil həmişə deyərdi ki, uşaqları yaxşı yedizdirmək lazımdır, yoxsa xəstələnər və ölərlər. Amma yaxşı yedizdirməyə maddi imkanı çatmırdı, ona görə də həyəcanlanır, əzab keçirirdi, əsəbi olmuşdu. Gedib bir kömək istəməyə də razı deyildi. Ürəyində elə düşünürdü ki, onu lazımınca qiymətləndirmirlər. Biz odun ala bilmirdik. Bir dekabr axşamı qar qarışıq güclü xəzri əsirdi. Mirzə Cəlil oğlanlarının otağına girdi və oradan çıxarkən: – Çox soyuqdur, bu soyuqda başlarına bir şey girməz, gərək sobanı qalayaq, – dedi, – öz otağına gedib şkafı açdı, əlyazmalarını çıxartdı. Onları bir-bir gözdən keçirib yerə atırdı. Mən narahat oldum, yanaşdım, soruşdum ki, nə etmək istəyirsən. Dedi ki, sobanı qalamaq istəyirəm. Mən xahiş elədim ki, əlyazmalarını yandırmasın, hələ gərək ola bilərlər. Ondansa taxta bir şey axtaraq. Cavab verdi ki, yandırmalı nə mümkünsə hamısını yandırmışıq. Mən ürək ağrısı ilə onun əli ilə yazdığı səhifələrin qalaq-qalaq yığıb sobaya qoymasına və kibrit çəkməsinə baxırdım. Hiss edirdim ki, bu, çox böyük itkidir. Amma mane ola bilmirdim, o, çox əsəbi idi. Nəhayət, sobanın ağzını bağladı, yenidən oğlanlarının otağına getdi və qayıdıb: "Soba istidir" – dedi. O, məmnun idi və arxayın yıxılıb yatdı. Axırıncı dəfə sobanı qalayırdı".

Cəlil Məmmədquluzadənin mənzilində bu sobanı mən də görmüşəm, onun qarşısında ehtiramla baş əymişəm. O vaxt Mirzə Cəlilin mənzili hələ muzey deyildi. Daha doğrusu, qərar qəbul olunmuşdu, amma muzeyin açılması üçün heç bir iş görülmürdü. O vaxt bu barədə mən Moskva mətbuatında da çıxış etmişdim. Cəlil Məmmədquluzadənin mənzil-muzeyi yalnız Heydər Əliyev ikinci dəfə Azərbaycanın rəhbərliyinə gələndən sonra açıldı.

O zaman isə mən boş, qaranlıq, yarıuçuq mənzildə həmin soba qarşısında durub düşünürdüm. Düşünürdüm ki, Mirzə Cəlilin öz əlyazmaları ilə qaladığı bu soba yalnız onun oğlanlarını isitməyib. Bu sobanın istisini biz bu gün də hiss edirik, hamımız, bizim nəslin yazıçıları o sobanın hərarətilə yetişdik.

İstər Azərbaycan ədəbiyyatşünaslığında, istərsə də o vaxtkı ümumittifaq və hətta dünya ədəbi fikrində "altmışıncılar" istilahı geniş yayılmış bir anlayışdır. Adətən, bu anlayış XX əsrin 60-cı illərində yetişmiş ədəbi nəslə aid edilir.

Bu termini Azərbaycan ədəbiyyatına şamil edərkən mən dəfələrlə demişəm və yazmışam ki, 60-cı illər ədəbiyyatı yalnız bu illərdə ədəbiyyata gəlmiş yazıçıları ehtiva etmir.

60-cı illərdə SSRİ-də müəyyən ictimai-siyasi proseslərin, nisbi ideoloji yumşalmanın nəticəsində ədəbiyyatda, o cümlədən Azərbaycan ədəbiyyatında yeni bir dövr başladı və bu dövrün yaranmasında yalnız bu illərdə ədəbiyyata gələn yazarlar deyil, əvvəlki nəsillərin də ən qabaqcıl nümayəndələri həlledici rol oynadılar. Təbii ki, bu yeni ədəbiyyat yalnız 60-cı illər çərçivəsində qalmadı, yetmişinci, səksəninci illərdə ədəbiyyata gələn

istedadlı şairlər, nasirlər, tənqidçilər tərəfindən davam etdirildi. Amma 60-cı illərin ədəbi həyatına nəzər salanda daha əvvəl yaranmış ədəbi təmayüllərin yenidən dirçəlməsi də aydın nəzərə çarpır. Bu cəhətdən Mirzə Cəlil də 60-cı illərdə sanki yenidən doğuldu. Daha doğrusu, onun həqiqi varlığını dərk etməyə şərait və imkan yarandı. Əgər əvvəlki dövrlərdə M.C.Məmmədquluzadəni sovet ideoloji klişeləri içində – maarifçi-demokrat, kapitalizmin, feodalizmin, daha nə bilim, hansı "izm"in düşməni kimi təqdim edirdilərsə, 60-cı illərdə o, daha geniş miqyasları olan ədəbi və ictimai xadim kimi, daha geniş üfüqlərdə yaradan yazıçı kimi dərk edildi. Mirzə Cəlil hər hansı quruluşun, siyasi sistemin sorunları dairəsində qalmış yazıçı kimi deyil, əbədi insan problemləri müstəvisində qələm çalan böyük insanşünas kimi qavranıldı. 60-cılar nəslinə heç bir yazıçı Mirzə Cəlil qədər təsir göstərməyib. O, 60-cı illərin birinci nasiri idi desəm, sözlərimdə heç bir mübaliğə yoxdur. İsa Hüseynovdan üzü bəri bütün tanınmış yazıçılarımız Mirzə Cəlili yalnız müəllimləri kimi yox, həm də müasirləri kimi qəbul edirlər. Və inanıram ki, XXI əsrin də ən istedadlı və ən layiqli yazıçıları Mirzə Cəlil sobasının istisində qızınacaqlar.

Mənzilindəki o soba qarşısında keçirdiyim duyğulara oxşar bir hissi mən ikinci dəfə Nehrəm kəndində, Mirzə Cəlilin vaxtilə dərs dediyi məktəbin həyətində duydum. Həyətdə bir ağacın budağından zəng asılmışdı. Mənə dedilər ki, bu zəng elə böyük yazıçının zamanından qalıb və indinin özündə də şagirdləri siniflərə bu zəngi çalaraq çağırırlar. Düşündüm ki, bu zəng də yalnız o vaxtın və indinin məktəblilərini dərsə çağıran zəng deyil. Hamımızı təhsilə, savada, işığa çağıran bir zəngdir və onun səsi heç bir vaxt susmayacaq...

* * *

Həmidə xanımın xatirələri akademik memuarlar deyil, hadisələrin, faktların soyuq, biganə konspekti də deyil, ağrılı qəlbin şəhadətidir və mən bir neçə parça da gətirmək istəyirəm:

"Mirzə Cəlil fikirli və dalğın idi. Görünür, işdə nə isə xoşagəlməz bir şey olmuşdu, amma demirdi. Gecə iniltiyə oyandım: gördüm Cəlil ağır-ağır inildəyir, elə bil onu boğurlar, güclə oyatdım. O dedi, yuxu görürdüm, görürdüm ki, məni mühakimə edirlər, ittiham edib hökm verirlər ki, zirzəmiyə atsınlar. Məni zirzəmiyə atırlar. Qapını kərpiclə hörürlər, sonra isə tavanın yanındakı yeganə pəncərəni də hörməyə başlayırlar. Mən qışqırırdım ki, barı pəncərəni hörməyin, məni tamam havadan məhrum eləməyin". Yalnız bundan sonra o mənə jurnalla əlaqədar bəzi xoşagəlməz hadisələrdən danışmağa başladı".

Necə yozulasıdır bu məşum yuxu? Ömrü boyu baxdığı yeganə pəncərəni – "qəm pəncərəsini" da qapadıb, hörüb yazıçını işıqsız zülmətə qərq etmək istəyən bir quruluşun alleqorik ifadəsiydimi bu yuxu? Ya bir neçə il sonra

başlayacaq repressiyaların – Azərbaycan ziyalılarına divan tutulacaq 37-ci ilin öncədən görməsi idi? 32-ci ildə ölməsilə zirzəmilərə atılmaqdan qurtulan Mirzə Cəlilin ürəyinə dammış vahimə idimi? Bəlkə, doğrudan da, vaxtında ölmək (ölümün vaxtı varmı?) yeganə xilas yoludur...

Ömrünün son aylarında Mirzə Cəlil tez-tez ölüm haqqında düşünürdü. 1931-ci ilin son dekabr günlərində o, Həmidə xanıma deyir: "Mən qəfildən öləcəm və heç kəsə əziyyət verməyəcəm. Yanvarın 3-də arvadına deyir: "Bu gün yaman çox dəfn mərasimi gördüm. Nə yaman çox adam ölür".

Həmidə xanım xatırlayır: "...Axşam uşaqlardan heç biri evdə yox idi. Mirzə Cəlil çarpayısında dincəlirdi. Mən də yemək otağında tikiş tikirdim. O durdu, əl-üzünü yudu, oğlunun otağına keçdi, oradan kamançanı götürdü, öz yerinə qayıtdı və çalmağa başladı. Elə gözəl çalırdı ki, mən işimi bir kənara qoydum, ona qulaq asmağa başladım. Axırıncı akkordu çox təsirli götürdü, lap ürəyim ağrıdı, gözlərim yaşardı. Çalıb qurtarandan sonra ehmallıca kamançanı aparıb əvvəlki yerinə qoydu. Axırıncı dəfə onda kamança çaldı".

Yanvarın 4-də Mirzə Cəlilin halı birdən-birə xarablaşır. İynə vururlar, masaj eləyirlər, həkim çağırırlar. Cəlil Məmmədquluzadəylə birlikdə "Molla Nəsrəddin" jurnalını yaradan, sonralar 37-ci il repressiyalarının qurbanı olmuş Ömər Faiq Nemanzadə özünü yetirir.

Mirzə Cəlil: – Həkim çağırmayın, – deyib, – Midhətə zəng vurun, qoy tez gəlsin. Oğlunun iş nömrəsini də özü verib. Oğlu gəlib çıxanda artıq şüurunu itiribmiş. Son sözləri: – Midhət gəldi? – olub.

"Birdən üzündən qan çəkildi, sinəsindən son nəfəsi çıxdı və o, əbədilik susdu. Yanvarın dördü, gündüz saat üç idi".

Həmidə xanımın xatirələri bu sözlərlə bitir.

* * *

Dərin kədər içində Həmidə xanımın xatirələrini oxuyub qurtaranda birdən-birə Mirzə Cəlil Məmmədquluzadə gözlərim qarşısında bütün uca qamətilə bir daha yüksəldi, birdən-birə, elə bil, onun özünü gördüm, əyani, canlı şəkildə: kamança çalmasını da, sobanı əlyazmalarıyla qalamasını da, xoşu gəlməyən adama əl verəndən sonra gedib əllərini yumasını da. Heç bir vaxt kitablarının səhifələrindən o, bu qədər yaxın və kədərli şəkildə görünməmişdi mənə. Bu xatirələrdən onu tanıdığımız kimi, heç öz xatirələrindən də tanıya bilməzdik. Əlbəttə, M.C.Məmmədquluzadənin ölməz əsərləri olmasaydı, o, Həmidə xanımın xatirələrindən də bu qədər əzəmətli şəxsiyyət kimi görünməzdi. Onlar bir-birini tamamlayırdılar: Mirzə Cəlilin öz əsərləri, məktubları, xatirələri, bütün həyatı – və bu yazı – onun ağıllı, mədəni, savadlı və nəcib rəfiqəsinin əliylə yazılmış qəlb yaddaşı...

Və mən bir daha dərk etdim ki, Mirzə Cəlili yalnız böyük yazıçı kimi, Servantes, Balzak, Qoqol, Dostoyevski, Tolstoy, Çexov, Marsel Prust kimi

mənim üçün nəsr ustadı olan bir sənətkar kimi deyil, öz xalqına və başqa xalqlara örnək olacaq bir mütəfəkkir kimi deyil, həm də, sadəcə, yaxın, əziz, doğma bir adam kimi sevirəm.

Mən onun haqqında hörmət və ehtiramla, amma həm də məhrəm, ilıq bir nəvazişlə düşünürəm. Mən onun haqqında babam kimi, atam, qardaşım, oğlum, nəvəm kimi düşünürəm. "Qardaşım, oğlum, nəvəm" dediyim üçün məni qınamağa tələsməsinlər. Böyük yazıçılar bütün nəsillərin yaşıdırlar. M.C.Məmmədquluzadə babalarımızın, atalarımızın mənəvi yaşıdı idi. Bizim nəsil də ona öz yaşıdı kimi, bir çox problemlərimizə cavab vermiş və gələcəkdə də cavab verəcək müdrik qardaşı kimi baxır. Bizim nəsil də gedəcək, hamımız öləcəyik, amma o qalacaq və oğlumun, nəvəmin yaşıdı olacaq.

Əbədi Mirzə Cəlil bütün zamanların övladıdır, hər yeni nəslin yol yoldaşıdır. Və bizdən sonra gələn nəsillər onu təzədən kəşf edəcək, öz yaşıdları, çağdaşları kimi tanıyacaq və övladlarına bəxş edib gedəcəklər.

Bütün bunlara görə mən Mirzə Cəlil Məmmədquluzadənin – keşməkeşli ömrünü anlamaq dərdi ilə yaşamış bu böyük dühamızın xoşbəxt taleyinə sevinirəm.

ANAR

A

ABBAS Səhhət (Abbasqulu Əlabbas oğlu Mehdizadənin təxəllüsü) (1874-1918) – şair, dramaturq, nasir, tərcüməçi, həkim, müəllim. Azərb. ədəbiyyatında romantizmin görkəmli nümayəndələrindəndir. İlk təhsilini Şamaxıda almış, 1894-1900 illərdə Tehran darülfünununun tibb fakültəsində oxumuşdur. 1901 ildən Şamaxıda yaşamış, həkimlik və realnı məktəbdə müəllimlik etmişdir. Mədəni-maarif sahəsində çalışmış, M.Mahmudbəyovla birgə "Yeni məktəb" (1909) və "Türk ədəbiyyatına ilk qədəm" (1914) dərsliklərini yazmışdır. A.S.-in "Sınıq saz" (1912), "Məğrib günəşləri" (1912) adlı orijinal şeirlərdən və tərcümələrdən ibarət topluları, "Cəhalət səmərəsi, yaxud bir yetimin xoşbəxtliyi" (1914) kitabı nəşr olunmuşdur.

A.S. Azərb. ictimai fikrinin formalaşmasında və ədəbiyyatının inkişafında "Molla Nəsrəddin" jurnalının və M.-nin rolunu yüksək qiymətləndirmiş, "Qəzet nədir?" şeirində jurnalı millətin ümidi, "ağlayıb gülmək"lə xalqı qəflətdən oyadan orqan adlandırmışdır. A.S. mollanəsrəddinçi şair M.Ə.Sabirin məslək dostu olmuş, "Sabir" (1911) və "Sabirin tərcümeyi-halı" (1914) məqalələrində böyük satirikin yaradıcılığının müasir həyat məsələlərinə istiqamətlənməsində, siyasi-ictimai məzmun və kəskin satirik pafos qazanmasında "Molla Nəsrəddin"in misilsiz rolunu yüksək qiymətləndirmiş, "Molla Nəsrəddin"in Sabir ədəbi məktəbinin yaranmasındakı roluna diqqəti cəlb etmişdir.

"Molla Nəsrəddin" A.S.-in görüşlərindəki liberalizm təzahürləri ilə barışmamış, "Səhhətnamə" (1909) felyetonunda xəlqi mövqedən uzaqlaşıb, osmançılığa meyl göstərməsini, uşaq şeirlərində qəliz ərəb-fars ibarələrini işlətməsini tənqid etmişdi.

ABBASZADƏ Bayraməli Abbas oğlu (1869-1926) – mollanəsrəddinçi şair. Cənubi Azərb.-ın Sərab mahalındandır. İbtidai təhsilini mollaxanada almış, ilk satirik şeirlərini "Mirzə Gülzar", "Gülzari-Sərabi" imzaları ilə yazmışdır. XX əsrin əvvəllərində Bakıya gələrək ağır həyat keçirmiş, "Qafqaz-Merkurisi" körpüsündə hambal işləmişdir. "Molla Nəsrəddin" jurnalında ilk publisistik yazısını "Hambal" ləqəbi ilə çap etdirmişdir (1906). Cənubi Azərb. milli-azadlıq hərəkatında iştirak etmək üçün Təbrizə qayıtmış, Səttarxan hərəkatına qoşulmuşdur. Təbriz dövri mətbuatında şeirlərini dərc etdirmişdir. Məşrutə hərəkatının süqutundan sonra 1909 ilin aprelində yenidən Bakıya qayıtmış, "Molla Nəsrəddin" jurnalı ilə əməkdaşlıq etmişdir. M. jurnalın 2 avqust 1909 il tarixli, 31 sayında "Lağlağı" imzası ilə A.-nin aktual siyasi məzmundan məhrum, şahpərəst şeirini tənqid etmişdir. M. yazırdı: "Cənab Sərabi! Sənin ki, maşallah, təb-şeirin var, sənin ki, Allaha şükür, bu şeirləri çap eləməyə qəzetən var, nə olar ki, mənim də bir neçə sözümü qafiyələndirib həman qəzetədə yazaydın...".

A. "Zənbur" jurnalının 21 avqust 1909 il tarixli, 24 sayında çap etdirdiyi "Cəvabi-Molla" satirik şeirində "Molla əmi, sözlərüvü annadım" – deyə "Molla Nəsrəddin"in tənqidini səmimiyyətlə qarşılamışdır.

A. "Qızıl qələmlər" cəmiyyətinin fəal üzvü idi.

Abbas Səhhət

ABBASİ Məhəmmədlu (?-?) – ədəbiyyatşünas, publisist. Təbrizdə nəşr olunan "Vətən yolunda" qəzetində məqalələrlə çıxış etmişdir. O, "Molla Nəsrəddin" və İran" məqaləsində İran xalqlarının ağır həyatından danışır. A. "Molla Nəsrəd-

din"jurnalı və M.-nin yaradıcılığı ilə ətraflı tanış olduğundan məqalələrində də bunlardan bacarıqla istifadə etmişdir. O, E.Braunun "Tarixi-mətbuat və ədəbiyyati-İran dər dövreyi-məşrutiyyət" əsərini (T., 1958) ingilis dilindən farscaya tərcümə edərək, ona geniş şərhlər və qeydlər yazmış, orada adı çəkilən qəzet və jurnallara, M.Ə.Sabir, M. və "Molla Nəsrəddin"lə əlaqədar olan hissələrə xüsusi diqqət yetirmişdir.

O, "İran mətbuat tarixi" kitabını da fars dilinə tərcümə etmiş və ona şərhlər və qeydlər yazmışdır. Burada da A. satirik və siyasi mətbuata "Molla Nəsrəddin" jurnalının böyük təsirindən danışmışdır. A. 1945 ildə "Vətən yolunda" qəzetində "Sərdari – milli Səttarxan və M.Ə.Sabir" məqaləsində "Molla Nəsrəddin" jurnalının bu inqilabi hərəkata olan müsbət münasibətindən bəhs etmişdir. Müəllif "Molla Nəsrəddin" jurnalını Şərqin və müsəlman ölkələrinin tənqid güzgüsü adlandırmışdır.

S.Abdulla

H.Abbasov

ABBASOV Mirzəli (Əlibala) Hacabbas oğlu (1874-1943) – aktyor, rej., dramaturq. Gürc. əməkdar art. (1928). Tiflisdə Azərb. teatrının təşkilatçılarındandır. 1898 ildən səhnə fəaliyyətinə başlamışdır. Tiflis Azərb. teatrının səhnəsində M.-nin "Ölülər" tragikomediyasını tamaşaya qoymuşdur. Bir sıra pyeslərin müəllifidir.

ABBASOV Hacağa Mütəllib oğlu (1888-1975) – aktyor. Azərb.xalq art. (1932). İlk təhsilini "Rus-müsəlman" məktəbində almış, H. Ərəblinskinin teatr dərnəyinin üzvü olmuşdur (1906-1909). Petrovsk-Portda (Mahaçqalada) pedaqoji kursda oxuyarkən azərb.-lardan ibarət dram truppası yaratmış, Teymurxanşurada teatr açmışdır. 1909 ildə Bakıya qayıdıb Balaxanıda M.Ə.Sabirlə birlikdə müəllimlik etmişdir. Müsəlman Artistlər İttifaqının fəal üzvü olmuş, 1920-1937 illərdə Bakı Azad Tənqid-Təbliğ Teatrının təşkilatçılarından biri və direktoru, ADT-nın və Bakı Teatr Texnikumunun direktoru və s. vəzifələrdə çalışmışdır. A.-un ifaçılıq diapazonu geniş və çoxcəhətli idi. O, M. ilə yanaşı, N.Vəzirov, N.Nərimanov, Ə.Haqverdiyev və b. dramaturqların pyeslərində böyük ustalıqla oynamışdır.

A. bir sıra kiçik həcmli pyes, S.S.Axundov, C.Məmmədquluzadə, N.Nərimanov, M.Ə.Sabir, C.Cabbarlı və b. haqqında xatirələr yazmışdır ("Xatirələrim", B., 1968).

"Yadımda qalanlar" məqaləsində M.-ni 1906 ildən tanıdığını və "Molla Nəsrəddin" jurnalının abunəçisi olduğunu yazır. M. ilə 1916 ildə N.Vəzirovun evində görüşdüyünü, 1937 ilədək "Ölülər" pyesində Şeyx Nəsrullah rolunu dəfələrlə oynadığını fəxrlə qeyd edir.

1921 ildə Ə.Haqverdiyevin evində M.-nin təzəcə qələmə aldığı "Kamança" pyesinin qonaqlara oxunduğunu, M.-nin və A.-un da iştirak etdiyi bu məclisdə əsərin çox bəyənildiyini göstərir. A. Tənqid-Təbliğ Teatrının işinə M.-nin yaxından kömək etdiyini də yazırdı.

A.-un xatirələrində M. və "Molla Nəsrəddin"lə bağlı 1930 ilə aid belə bir fakt da var: "Əlağa Vahidlə birlikdə "Molla Nəsrəddin" jurnalının redaksiyasına, Mirzə Cəlilin yanına getmişdik... Mirzə Cəlil rəssam Əzim Əzimzadə ilə jurnal üçün şəkil və məqalə haqqında fikirləşirdi. Mirzə Cəlil üzünü Vahidə tutub dedi: "Qardaşım Vahid, yaxşı olardı ki, bu ramazan nömrəsində sənin bir şeirin olaydı". Şair o şeiri yazıb ədibə verdi".

ABDULLA Sur, Abdulla Tofiq (Abdulla Ağa Məhəmməd oğlu Məhəmmədzadənin təxəllüsü) (1882-1912) – ədəbiyyatşünas, nasir, publisist. 1898 ildən ömrünün sonunadək Gəncədə müəllimlik etmiş, 1906-1909 illərdə İstanbul un-tində oxumuşdur. İlk yazıları 1903-1904 illərdə "Şərqi-Rus" qəzetində dərc olunmuşdur. "Həyat", "İrşad", "Füyuzat", "Tərəqqi", "Həqiqət", "Məktəb" və s. orqanlarda iştirak etmişdir. Məqalələrində ictimai qüsurları tənqid edir, xalqı maarif və mədəniyyətə çağırır, ictimai, mədəni inkişafa dair təkliflər irəli sürürdü. M.Füzuli, Osmanlı ədəbiyyatı tarixi və onun görkəmli nümayəndələri, gürcü ədəbiyyatının son dövrü A.S.-un əsas tədqiqat sahəsi idi. A.S. "Şərqi-Rus" qəzetində M. ilə işləmiş, Əli Nəzmi, M.M.Axundov, Əli Razi kimi mollanəsrəddinçilərlə dostluq və əməkdaşlıq etmişdir. O, "Türk ədəbiyyatına bir nəzər" (1908) əsərini nəşr olunmaq üçün "Qeyrət" mətbəəsinə təqdim etmişdi. "Molla Nəsrəddin" jurnalı "Ədəbiyyat maraqlılarına müjdə" adlı məqaləsində bu kitab haqda geniş məlumat vermişdi (1908 il, №50). Jurnalda bu kitaba abunə haqqında elan da dərc olunmuşdu.

ABDULLA Cövdət (1869-1932) – türk şairi, jurnalist, tərcüməçi. "İttihad və tərəqqi"nin fəal üzvü. Mühacirətdə olduğu İsveçrə və Qahirədə, habelə, doğma İstanbulda onun red.-luğu ilə nəşr edilmiş "İctihad" jurnalında mütərəqqi, inqilabi məzmunlu şeirləri çap olunmuşdur. Bu əsərlər Azərb.-da da sevilə-sevilə oxunurdu. Ə.Hüseynzadə, M.Ə.Sabir, M.Hadi və b. yazıçılarımız kimi, M. də onun yaradıcılığına və özünə hörmət bəsləyirdilər. "Molla Nəsrəddin"in red. onu "alimifərzanə", şüurlu jurnalistlərdən sayırdı, "Molla Nəsrəddin"dəki "Cümə günləri" felyetonunda "məşhur" A.C.-in "Şurayi-Osmani" qəzetindəki yazısını oxumağı məsləhət bilirdi (29.7.1907).

ABDULLA Şaiq (Abdulla Mustafa oğlu Talıbzadə) (1881-1959) – yazıçı, tərcüməçi, ədəbiyyatşünas, pedaqoq, ictimai xadim. Azərb. əməkdar inc. xad. (1940). Tiflis və Xorasanda təhsil almış, 1901 ildən Bakıda müəllimlik etmişdir. Bədii yaradıcılığa qəzəllə başlamış, əsərləri 1906 ildən çap olunmuşdur. "Həyat", "İrşad", "Dəbistan", "Füyuzat", "İqbal", "Həqiqət", "Açıq söz", "Azərbaycan" və s. mətbuat orqanlarında çıxış etmişdir. 1918-1920 illərdə istiqlal mövzulu şeirləri ilə cümhuriyyət dövrü poeziyasına yeni ruh gətirmişdir. 1907-1934 illərdə pedaqoji fəaliyyətini davam etdirməklə yanaşı, bir çox proqram, dərslik və müntəxəbat hazırlamışdır. Uşaq və gənclər üçün əsərləri, "Vətən", "Eloğlu", Nizami süjetləri əsasında yazdığı "Fitnə", "Nüşabə" pyesləri, "Məktub yetişmədi", "Göbələk", "Pirin kəraməti", "Vəzifə" hekayələri, "Köç", "Dursun" povestləri, "Əsrimizin qəhrəmanları", "Araz" romanları, Şeyx Şamilin azadlıq mübarizəsinə həsr olunan "Qafqaz çiçəyi" dramı, "Ədhəm", "Qoçpolad" və s. poemaları var.

A.Ş. "Molla Nəsrəddin" jurnalına və şəxsən M.-yə diqqətlə yanaşmış, çar senzurası jurnalın nəşrini dayandıranda (1907) Stavropoldan etiraz teleqramı göndərmişdir. "Bir mələkə" şeirini Zəngəzurda baş vermiş aclığa aid "Molla Nəsrəddin"dəki məqalələrdən təsirlənərək qələmə almışdır. Jurnalda "Keçəl" imzası ilə çıxış etmişdir. Sabirin təsirilə satira və yumorlu şeirlər də yazıb. M. də onun "Nişanlı qız şeirinə maraqlı təhzil yazmışdır. A.Ş. öz ədəbi-tənqidi məqalələrində və "Xatirələr" əsərində M.-ni böyük, qüdrətli sənətçi adlandırır. "Molla Nəsrəddin" jurnalını isə "orijinal karikaturaları, məzhəkəli və mənalı tənqidləri" olan, "ictimai nöqsanlarımızı açıq və aydın şəkildə, böyük cəsarətlə tənqidə tutan" jurnal kimi dəyərləndirir, M.Ə.Sabirin böyük satirik şair kimi yetişməsində jurnalın xidmətini qeyd edirdi.

ABDULLAZADƏ Arif Əbdurahman oğlu (1940-2002) – şair, romançı, alim. Filol. e.d. (1977). ADU filol. fakültəsini bitirmişdir (1961). "Qantəmirin həyat və yaradıcılığı" mövzusunda namizədlik (1966), "Azərbaycan poeziyasında yaradıcılıq üslubları" mövzusunda doktorluq (1977) dissertasiyalarını müdafiə etmişdir. İlk bədii əsəri 1957 ildə dərc olunmuşdur. 5 romanın, 5 monoqrafiyanın və s. əsərlərin müəllifidir. M.-nin Novruzəli, Usta Zeynal, Qurbanəli bəy, İsgəndər, Hacı Həsənağa, Şeyx Nəsrullah və s. ədəbi qəhrəmanları haqqında silsiləvi şeirlər yazmışdır. Bu şeirlərdə həmin personajların poetik üslubda təhlili verilir, xarakter cizgiləri əks etdirilir.

A.Abdullazadə

Abdulla Şaiq

ABDULLAZADƏ (Əliyev) Rzaqulu Abdulla oğlu (təxəllüsü Seyfi) (1894-1937) – aktyor, rejissor, teatr xadimi. 1910 ildən teatr həvəskarları dəstəsində çalışmışdır. 1919 ildən Türkmənistanda Azərb. teatr truppasında rej. və bədii rəhbər olmuş, burada M.-nin "Ölülər" pyesinin quruluşunu vermiş (1920) və İsgəndər rolunda çıxış etmişdir. 1921 ildə İrana köçmüş, Tehranda ilk teatrın təşkilində fəal iştirak etmişdir.

ABDULLAYEV Ağaməmməd Səməd oğlu (1909-1976) – dilçi alim. Pedaqoji e.d. (1958), prof. (1960). APİ-ni bitirmiş, orta və ali məktəblərdə müəllim, kafedra müdiri, prorektor və rektor vəzifələrində işləmişdir. Azərb. dilinin tədrisi tarixi və metodikasına aid dərslik və monoqrafiyaların müəllifidir. "Azərbaycan dilinin tədrisi tarixindən" əsərində (1966) M.-nin Azərb. dilinin təmizliyi və tədrisi, ərəb əlifbasının islahı uğrunda mübarizəsi haqqında ətraflı məlumat vermişdir.

ABDULLAYEV Mikayıl Hüseyn oğlu (1921-2002) – rəssam. Azərb. əməkdar inc. xad. (1955) və xalq rəssamı (1960), SSRİ xalq rəssamı (1963). Azərb. Gözəl Sənətlər Akademiyasının prezidenti (1992 ildən). Azərb. Dövlət (1974) və C.Nehru ad. Beynəlxalq (1969) mükafatlar laureatı. Əsasən tematik tablolar ustası kimi tanın-

M.Abdullayev

mışdır. M.-nin yağlı boya ilə portretini işləmiş (1960), onun "Danabaş kəndinin əhvalatları", "Poçt qutusu", "Usta Zeynal" əsərlərinə illüstrasiyalar çəkmişdir.

İ.Ağayev

H.Ağayev

V.Adıgözəlov

"AÇIQ SÖZ" – gündəlik ictimai-siyasi və ədəbi qəzet. 1915-1918 illərdə Bakıda nəşr olunurdu. Cəmi 704 nömrəsi çıxmışdır. Naşirləri və red.-ları Məmməd Əmin və Məmməd Əli Rəsulzadələr idi. Milli-demokratik ideyaları təbliğ edir, siyasi maarifçiliyə mühüm diqqət yetirirdi. 1917 il Fevral inqilabından sonra daha çox "Müsavat" partiyasının orqanına çevrilmişdi. Qəzet M.-nin şəxsiyyətinə və yaradıcılığına ehtiramla yanaşır, ədib də öz növbəsində "A.s." ilə əməkdaşlıq edirdi. "Ölülər"in Bakıda böyük uğurla keçən ilk tamaşası haqqında S.M.Qənizadə, H.Cavid, N.Nərimanov, N.Vəzirov, Ü.Hacıbəyov, Seyid Hüseyn kimi tanınmış yazıçıların təəssüratları, M.Ə.Rəsulzadənin ("Ölülər", "Molla Nəsrəddin"), Xəlil İbrahimin məqalələri "A.s."də çap olunmuşdu. Qəzet, eyni zamanda "Ölülər"in Naxçıvan, Gəncə, Aşqabad, Daşkənd tamaşaları barəsində məlumat və ressenziyalar vermiş, M.-nin azərb. qadınlarına ünvanlanmış təşəkkür məktubunu dərc etmişdi. Mirzə Cəlilin Türküstan səfəri, onun iştirakçısı olduğu ədəbi-mədəni tədbirlər, "Molla Nəsrəddin" jurnalının yeni çapdan çıxan nömrələri, bu jurnalla bağlı ədəbi şəxsiyyətlər barəsində də qəzetin səhifələrində mütəmadi xəbər və yazılar verilirdi.

ADIGÖZƏLOV Vasif Zülfüqar oğlu (1935-2006) – bəstəkar. Azərb. xalq art. (1989), əməkdar inc. xad. (1973), Azərb. Dövlət mükafatı laureatı (1990). ADK-nı (indiki Bakı Musiqi Akademiyasını) bitirib (1959) və 1960-2006 illərdə orada pedaqoji fəaliyyət göstərib (1988 ildən prof., 1992 ildən kafedra müdiri). 1990 ildən Azərb. Bəstəkarlar İttifaqı İdarə Heyətinin birinci katibi olmuşdur (1990-2006). A. 3 simfoniyanın, 4 simfonik poemanın, 5 musiqili komediyanın, 3 oratoriyanın, 24 prelyüdün, 100-dən artıq mahnı, romans və s. əsərlərin müəllifidir. 1963 ildə M.-nin pyesi əsasında 4 pərdəli "Ölülər" operasını yazmışdır. Operanın libretto müəllifləri F.Mehdiyev və C.Hilaloğlu (şeirlər A.Aslanovun), musiqi rəhbəri və dirijor Niyazi, rej. Ş.Bədəlbəyli idi.

AĞAYEV Əjdər Əbdülhüseyn oğlu (d.1937) – pedaqoq-alim. Pedaqoji e.d. (1996), prof. (1996). Azərb. əməkdar müəllimi (2000). APİ-nin tarix-filologiya fakültəsini bitirmişdir (1960). Əsas tədqiqatları Azərb.-da məktəb və pedaqoji fikrin inkişafı məsələlərinə aiddir. "XIX əsrin sonu və XX əsrin əvvəllərində Azərbaycan pedaqoji fikrin problemlərinə dair" (1975), "XX əsrin əvvəllərində Azərbaycanda məktəb və pedaqoji fikrin inkişaf istiqamətləri" monoqrafiyaları (1982) və digər əsərlərində M.-nin və mollanəsrəddinçilərin ana dilinin təmizliyi, təlimin ana dilində aparılması uğrunda mübarizəsi, bu haqda nəzəri görüşləri təhlil olunmuşdur.

AĞAYEV İslam Məmməd oğlu (d.1932) – ədəbiyyatşünas, yazıçı, publisist. Filol. e.d. (1984). XX əsrin əvvəlləri Azərb. satirik ədəbiyyatının problemləri və şəxsiyyətləri, mətbuat tarixi, ədəbiyyatın və dövri mətbuatın elmi-nəzəri məsələlərini tədqiq edir. "Molla Nəsrəddin" jurnalı və XX əsrin əvvəlləri Azərbaycan ədəbiyyatının ideya-bədii inkişafı problemləri" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir (1984). "Satirik zənbur" jurnalı (1969), "Molla Nəsrəddin"in tarixi hünəri" (1976), "Əliqulu Qəmküsar" (1976), "Molla Nəsrəddin"in poetikası" (1985), "Əlabbas Müznib" (2000) və s. kitabların müəllifidir.

AĞAYEV Həsən bəy Məşədi Hüseyn oğlu (1875-1920) – həkim, ictimai xadim. Azərb. Xalq Cümhuriyyətinin qurucularından biri. Moskva un-tinin tibb fakültəsini bitirmişdir (1901). "Kaspi" qəzetində "Təbib" təxəllüsü ilə məqalələr dərc etdirmiş, Gəncədə rus dilində çıxan "Yujnı Kavkaz" qəzetinin red. (1911-1913), Müsəlmanlar arasında maarif yayan cəmiyyətin sədri olmuşdur. O, eyni zamanda Xudadat bəy Rəfibəyovla birlikdə "Gəncə tibb cəmiyyəti"ni qurmuşdur (1914). 1917 ilin aprelində Bakıda, həmin ilin may ayında isə Moskvada keçirilən müsəlman qurultaylarının təşkilatçılarından və fəal iştirakçılarından biri kimi "Azərbaycana muxtariyyət!" şüarı ilə çıxış etmişdir. 1918 ildə Transqafqaz Seyminin üzvü, həmin ilin dekabrında isə Azərb. Məclisi-Məbusanının (Parlament) üzvü və sədrin müavini seçilmişdir. Azərb. Cümhuriyyətinin süqutundan sonra Tiflisdə muzdlu erməni qatilləri tərəfindən öldürülmüşdür. 1906 ildə A.-in naməlum müəllifdən tərcümə etdiyi "Silk-sinif, firqə" kitabı

M.-nin "Qeyrət" mətbəəsində çap olunmuşdur. A. "Molla Nəsrəddin" jurnalı ilə əlaqə saxlamış, onun səhifələrində açıq və gizli imzalarla çıxış etmişdir.

AĞAYEV Şövqi Süleyman oğlu (1926-1975) – maarif xadimi, pedaqoq. Psixologiya e.d. (1968), prof. (1969). Azərb. Dövlət Tibb İn-tunu bitirmişdir. APİ-də dekan (1960-1962), prorektor (1962-1965), rektor (1965-1970), kafedra müdiri (1970-1975) vəzifələrində işləmişdir. A.-in elmi fəaliyyətində mollanəsrəddinçilərin psixoloji görüşlərinin tədqiqi mühüm yer tutur. O, ilk dəfə Ə.Haqverdiyevin və M.-nin psixoloji görüşlərini tədqiq etmiş, "C.Məmmədquluzadənin psixoloji mülahizələri" (1967), "Böyük yazıçının psixoloji irsi haqqında" (1967) məqalələrini yazmışdır.

AĞAMALIOĞLU Səmədağa Həsən oğlu (1867-1930) – publisist, dövlət xadimi. Vladiqafqaz hərbi progimnaziyasını bitirmişdir (1887). XIX əsrin 90-cı illərində Gəncədə yer quruluşçusu işləmiş, 1905-1907 illər inqilabında iştirak etmiş, 1918 ildə Tiflisdə yerli menşevik "Hümmət" təşkilatının "Gələcək" və "Probujdeniye" qəzetlərinin red. olmuşdur. 1918 ilin sonunda Bakıya gələrək Azərb. Xalq Cümhuriyyəti parlamentinin üzvü seçilmişdir. Azərb.-da 28 aprel çevrilişindən sonra Xalq Torpaq komissarı (1920), Azərb. SSR MİK sədrinin müavini (1921), Azərb. SSR MİK sədri, həmçinin ZSFSR MİK sədrlərindən biri (1922-1929) olmuşdur. Geniş publisistik fəaliyyət göstərirdi. 1924 ildə yaradılmış Ümumittifaq Yeni Türk Əlifbası Komitəsinin sədri olan A. Azərb.-da və Sovet Şərqinin digər resp.-larında yeni – latın əlifbasına keçilməsinə rəhbərlik etmişdir. Bu məqsədlə 1924 ilin sentyabr-oktyabr aylarında A.-nun rəhbərliyi altında Krıma, Tatarıstana və Orta Asiyaya göndərilmiş nümayəndə heyətində komissiyanın üzvü olan M. də var idi. 1923-1926 illərdə xüsusi "Molla Nəsrəddin" aeroplanı hazırlanarkən A. bu işə şəxsi maddi yardım göstərmişdi.

AĞAOĞLU (Ağayev) Əhməd bəy Mirzə Həsən bəy oğlu (1869-1939) – publisist, mütəfəkkir, pedaqoq, alim, ictimai xadim. Sankt-Peterburqda Sənaye Texnologiyası in-tuna daxil olmuş, birinci kursdan sonra oranı tərk edərək Fransaya köçmüşdür. Parisdə kolleci və Sorbonna un-tinin hüquq fakültəsini bitirmişdir. 1905-1908 illərdə Azərb.-da milli istiqlal uğrunda mübarizə hərəkatının ən fəal xadimlərindən olmuşdur. Ə.Hüseynzadə ilə "Həyat" qəzetini çıxarması (1905), sonralar "İrşad" (1905-1908) və "Tərəqqi" (1908-1909) qəzetlərinin red. olması onun ədəbi-publisistik fəaliyyətinə geniş şərait yaratmışdır. Təqib və təzyiqlərə məruz qaldığı üçün Türkiyəyə mühacirət edən A. orada məsul vəzifələrdə işləmiş, İstanbul və Ankara un-tlərinin prof.-u, "Tərcümani-həqiqət", "Gənc türk", "Hakimiyyəti-milliyyə" qəzetlərinin baş red. olmuşdur. "Molla Nəsrəddin"in nəşrə başlaması münasibətilə M.-ni təbrik etmiş, bu münasibətlə "İrşad" qəzetində "Dəbistan" və "Molla Nəsrəddin" adlı məqalə dərc etdirmişdir. A. yazırdı: "Baxın, "Molla Nəsrəddin"ə. Bu cəridə nə gözəl cəridədir. Nə qədər əql, zəka, məharət və zövq göstərir. Nəinki biz müsəlmanlar, bəlkə ən mədəni, ən mütərəqqi tayfalar böylə cəridələri ilə fəxr edərlər: onun nəqşləri və sözləri o qədər gözəl, o qədər ənənbiramiz nəqşələr və sözlərdi ki, insanın baxdıqca xoşu gəlir, baxdıqca bəsirəti artır" ("İrşad" qəzeti, 14 aprel 1906, №90).

Ə.Ağaoğlu

S.Ağamalıoğlu

AĞAZADƏ Fərhad Məşədi Rəhim oğlu (təxəllüsü Şərqli) (1880-1931) – maarif xadimi, pedaqoq, əlifba islahatçısı, mətbuat tarixçisi. Qori seminariyasını bitirmiş (1900), Xaldan (1900), Şuşa (1901-1902), Gorus (1902-1905), Gəncə (1905) məktəblərində müəllim işləmişdir. 1905 ildə pedaqoji fəaliyyətini Bakıda davam etdirmiş, "Rus-müsəlman" və "Səadət" məktəblərində çalışmışdır. Qafqaz müsəlman müəllimlərinin Bakıda keçirilən I (1906), II (1907) qurultaylarının iştirakçısı olmuş, hər iki qurultayın katibi seçilmiş, yeni dövrdə tədrisin aktual problemlərinə dair məruzələrlə çıxış etmişdir. "İkinci il" (1908; M.Mahmudbəyov, S.Əbdülrəhmanbəyov, S.Axundov, A.Talıbzadə və A.Əfəndizadə ilə) dərsliyini və "Ədəbiyyat məcmuəsi" (1912) müntəxəbatını tərtib etmişdir. "İkinci il" ilk dəfə Tiflisdə M. və Ömər Faiqin rəhbərlik etdiyi "Qeyrət" mətbəəsində çap olunmuş, "Molla Nəsrəddin" jurnalı dərsliyin nəşri haqqında xüsusi elan dərc etmişdi ("Molla Nəsrəddin", 1908, №28).

F.Ağazadə

Ə.Hüseynzadə "Yazımız, dilimiz, "İkinci il"imiz" (1909) məqaləsində "mü-

əllimlərin kitablarının bir neçə qüsurunu bəhanə eləyib... üstünə qələm çək"əndə M. "Molla Nəsrəddin" jurnalında "Zəncir" felyetonu ilə çıxış edib, A.-nin və onun müəllim həmkarlarının mövqeyini müdafiə etmişdir.

A. ana dilinin təmizliyi və ərəb əlifbasının dəyişdirilməsi məsələsində M.-nin mövqeyini müdafiə edirdi. O, "Nə üçün ərəb hərfləri türk dilinə yaramır? əsərində sosial-mədəni problemlərin həllində M.-nin və "Molla Nəsrəddin" jurnalının mövqeyini yüksək qiymətləndirərək yazırdı: "Həsən bəyin "Əkinçi" qəzetəsi "dil" bəlalarından, Ünsizadənin "Ziyayi-Qafqasiyyəsi" islahi hürf məsələsindən, Məhəmməd ağanın "Şərqi-Rus"u "qadın və xüsusən hürufat" bəhslərindən, "Molla Nəsrəddin" jurnalı isə bu bəhslərin hamısından dəfələrlə yazmışdır. "Hürufatımızın şanında" adlı məzhəkəli bir məqaləsi dərc edilmişdir ki, o da mühafizəkarların ərəb hürufatına nə dərəcədə müqəddəslik vermələrinə böyük bir sübutdur".

(F.Ağazadə "Nə üçün əcəb hürufları "Türk dilinə yaramır?". B., 1922. s.154).

Ə.Axundzadə

Ə.Axundov

AXUNDZADƏ Əbdüssəlam Axund Vəliməmməd oğlu (1843-1907) – ruhani, maarifçi alim, pedaqoq. İlk təhsilini atasından almış, Salyanda, Şamaxıda əski üsul məktəblərində oxumuşdur (1874-1887). Qori müəllimlər seminariyası Azərb. şöbəsində Azərb. dili və islam şəriəti fənninin müəllimi (1879-1894), Cənubi Qafqaz ruhani idarəsinin sədri, Şeyxülislam (1894-1907) işləmişdir. Şəriətə, din tarixinə aid 20-ədək əsərin müəllifidir. Qori seminariyasında M.-nin müəllimi olmuşdur. Seminariyada Azərb. dilinin tədrisinin keyfiyyəti M.-ni razı salmamışdır. O, sonralar yazırdı "...O vaxtlar hökumət təsis edən məktəblərin proqramında xala-xətrin qalmasın babətindən həftədə bir neçə saat türk dərsi deyilirdi... Qori seminariyasında türk dili müəllimləri məhz məvaciblərini ayın 20-də almaq şövqilə bizə dərs verirdilər... O vədələr türk müəllimlərinin artıq zəhmət çəkmələrinə mədrəsə müdirləri özləri də razı deyildilər".

AXUNDOV Ağamusa Ağası oğlu (d.1932) – ədəbiyyatşünas, dilçi, türkoloq. Filol. e.d. (1964), prof. (1967), akad. (2006). Azərb. Dövlət mükafatı laureatı (1986), əməkdar elm xad. (1990). Azərb. EA Nəsimi ad. Dilçilik İn-tunun direktorudur (1990 ildən). A. "Dil və üslub məsələləri", "Müasir Azərbaycan ədəbi dilinin fonetikası", "Şeir sənəti və dil","Torpağın köksündə tarixin izləri","Dil və mədəniyyət", "Dilin estetikası" və s. əsərlərin müəllifidir. "Dilin estetikası" (B., 1982) kitabında milli ədəbi dilimizin inkişafı tarixində M.-nin xidmətinə yüksək qiymət verilmişdir: "Sadəlik M. "bədii dilinin ən mühüm xüsusiyyətlərindən [...] xəlqiliyin başlıca tərkib hissəsi idi". Bu işdə o, M.P.Vaqif, M.F.Axundov, N.Vəzirov, Ə.Haqverdiyev yolunun mahir davamçısı kimi göstərilmişdir. A. yazır ki, Azərb.-dakı bir çox mətbuat orqanlarının xalq əsasından məhrum olan dili ədəbi dilimizin gələcək taleyi və inkişafı cəhətdən ciddi narahatlıq yaradırdı. "Zaman "Molla Nəsrəddin" jurnalının redaktoru qarşısında (...) ümumxalq əsaslı bədii dil yaratmaq, onu əsrə uyğun geniş və magistral bir yola çıxarmaq vəzifəsini də qoymuşdu". A. ədəbi dil əvəzinə M.-nin bədii dil ifadəsini təsadüfi işlətmədiyini qeyd edib, M.-nin xatiratından bu sözləri nəzərə çatdırır: "O vədə türk kütlələri üçün ədəbi dil məsələsi bizi məşğul edə bilməzdi. Çün hərənin bir məqsədi və şüarı olan kimi, bizim də şüarımız [ədəbi] dil yaratmaq deyildi".

Nəticə etibarilə mollanəsrəddinçilər və ilk növbədə Cəlil Məmmədquluzadə müəyyən normalara əsaslanan ədəbi dilimizin ümumxalq prototipini yaratmaq vəzifəsini də öz öhdəsinə götürmüşdü. Ədib həmin məqsədini... əsərlərinin dilində həyata keçirirdi. Təbii ki, bu mürəkkəb işdə bəzi nöqsan və çətinliklər də qarşıya çıxırdı. Lakin M. məqsədinə çatdı...". M.-nin bu prinsipini özünün bütün fəaliyyətində gözlədiyini göstərən A. ədibin bu sözlərini misal gətirir: "İndi qələmnən təşəxxüs satmaq vaxtı deyil. İndi müsəlman qardaşlar sizdən xəbər gözləyir ki, sadə yazı vasitəsilə müsəlman qardaşlarımıza xidmət edəsiniz".

AXUNDOV Əbdülxalıq Hacı Abdulla oğlu (1863-1951) – tibb alimi, yazıçı, ictimai xadim. Mədrəsədə oxumuş, Bakı və Tiflisdə yeni üsul məktəblərdə ərəb, fars, rus, fransız, alman dillərini öyrənmişdir. 1883-1888 illərdə Almaniyanın Erlangen şəhərinə oxumağa getmiş, burada tibb üzrə magistr dərəcəsi almışdır. 1893 ildə

Almaniyanın Halle ş.-ndəki un-tdə doktorluq elmi dərəcəsi müdafiə etmişdir. Sonralar Bakıda aptek, ilk dəfə olaraq, ruhi xəstəliklər dispanseri açmış, nəşriyyat və kitabxanalar yaratmış, geniş xeyriyyəçilik işlərilə məşğul olmuşdur. A.-un həyat və fəaliyyətində ədəbiyyat və mətbuat işləri mühüm yer tutur. A. "Əvvəli hənək, axırı dəyənək" adlı komediya yazmış, 1909-1910 illərdə "Molla Nəsrəddin" ənənələrilə "Zənbur" adlı satira jurnalını çıxarmışdır. M. "Molla Nəsrəddin" jurnalının 1907 il, 44-cü sayında A.-u həm Avropa mədəniyyətini, həm də islami dəyərləri təbliğ etməsi üstündə "Xənnas" adlı felyetonunda ikiüzlü adam kimi tənqid etmişdir. A. 1920 ildə XI ordunun Bakını işğal etməsilə əlaqədar İrana mühacirət etmişdir.

AXUNDOV İsmayıl Hüseyn oğlu (1907-1969) – rəssam. Azərb. əməkdar inc. xad. (1940). Azərb. xalq rəssamı (1960). SSRİ Dövlət mükafatı laureatı (1949). Azərb. Dövlət Rəssamlıq məktəbini (1928), Moskva Poliqrafiya İn-tunu (1932) bitirmişdir. Qrafika, dekorativ-tətbiqi sənət və teatr rəssamlığı sahəsində fəaliyyət göstərmişdir.

A. dövri mətbuatda, o cümlədən "Molla Nəsrəddin" və sonralar "Kirpi" jurnallarında rəsm və karikaturaları ilə çıxış etmiş, Sabirin ölməz "Hophopnamə"sinin 1934 il nəşrinə lakonik illüstrasiyalar çəkmişdir. Qısa müddət ərzində "Molla Nəsrəddin" jurnalı ilə əməkdaşlıq edərək Əzimzadə ənənələrindən faydalanmışdır. Jurnalın 1928 il nömrəsində dərc olunmuş "Molla Nəsrəddin" yeni əlifbaya keçir" karikaturası rəssamın uğurlu əsərlərindəndir. ADT-nda tamaşaya qoyulmuş 30-dan çox əsərin, o cümlədən M.-nin "Ölülər" pyesinin bədii tərtibatını vermişdir (1940).

AXUNDOV Məmmədsadıq Molla Ruhulla oğlu (1887-?) – ictimai xadim, jurnalist, publisist, tərcüməçi. Bakı ş.-ndə birinci "Rus-müsəlman" məktəbini (1901) və Sənət məktəbinin ikinci sinfini (1905) bitirmişdir. RSDFP "Hümmət" təşkilatının üzvü (1902) olmuş, "İrşad" qəzetində jurnalistlik və publisist fəaliyyətinə başlamış, "Tərəqqi", "Təkamül", "Yeni füyuzat", "Təzə xəbər" və s. dövri mətbuatda iştirak etmişdir. "Ümumi mənfəətli cib dəftərçəsi və müsəlmani-rusi-təqvim" düzəltmiş, "Rəhbəri-sərf" adlı (Q.R.Mirzəzadə ilə birlikdə) Azərb. dilinin qrammatikasına dair iki hissədən ibarət dərslik yazmış (1910-1917), tərcüməçiliklə məşğul olmuşdur.

M. "Bibiheybət ziyarətgahı" felyetonunda Bakı yaxınlığında yerləşən müqəddəs ocaq ətrafında baş verən müxtəlif məsələlərdən söhbət açır, A.-un "Günəş" qəzetinin müdiri" ilə "sözü bir yerə qoyub, Bibiheybət ziyarətgahını Nəcəf uşaqlarının əlindən alıb, Bakı qazisinin ixtiyarına" vermək cəhdini xatırlayır.

A.-un atası Molla Ruhulla Məmmədzadənin vəhşicəsinə öldürülməsi münasibətilə M. "Molla Nəsrəddin"də başsağlığı dərc etmişdi. A. bu yazını 1913 ildə buraxdığı "Əlhac Molla Ruhulla axundun əhvalatına dair məcmuədir" kitabına daxil etmişdi.

İ.Axundov

AXUNDOV (Axundzadə) Mirzə Məhəmməd Mirzəkərim oğlu (1875-1923) – maarif xadimi, yazıçı, tərcüməçi, ədəbiyyatşünas, teatrşünas. Mədrəsədə oxumuş, Yelizavetpol (Gəncə) gimnaziyasını bitirmişdir. Gəncə sənət məktəbində müəllim işləmişdir (1894-1908). 1908 ildə "Difai" partiyası ilə əlaqədə ittiham edilmiş, beş il müddətinə Zakaspi vilayətinə sürgün olunmuşdur. Cəza müddəti bitdikdən sonra Gəncədə pedaqoji və ədəbi fəaliyyətini davam etmişdir.

A. 19 əsrin sonunda yaradıcılığa başlamış, müxtəlif janrlarda bədii və elmi-kütləvi əsərlər yazmış, dramaturq ("Məhəbbətsizlik, yaxud ata-ananın təqsiri", "Analıq", "Hər nə əkərsən, onu biçərsən", "Yaşına-yaşına çıxdı ocaq başına", "Sonrakı peşmançılıq fayda verməz", "Sədi Vəqqas" və b.), tərcüməçi ("Vətən, yaxud silistrə"), dilçi alim-metodist ("Sərfi-türki"), teatrşünas ("Teatro nədir"), xalq ədəbiyyatı toplayıcısı ("Məclis yaraşığı") kimi məşhurlaşmışdır. "Şeyx Nizami" (1909) monoqrafiyasının müəllifidir. A. XX əsrin əvvəlində Azərb. dövri mətbuatında, "Şərqi-Rus", "Həyat", "İrşad", "Yeni həqiqət", "Günəş", "İqbal", "Açıq söz" qəzetlərində publisist məqalələrlə çıxış edir, aktual sosial-mədəni problemləri müzakirəyə qoyurdu. Onun "Molla Nəsrəddin" jurnalı ilə əlaqələri daha sıx olmuşdur. O, 1906 ildən başlayaraq jurnalda "Yoncasatan", "Mollapərəst", "Hacıkəndli", "Gəncə şairi", "Hatif", "Gözü ilə

M.F.Axundov

görən" və s. imzalarla satirik şeirlər və felyetonlar dərc etdirmişdir. A.-un sürgün olunması (1908) münasibətilə mollanəsrəddinçi şair Əli Nəzminin yazdığı "Zindan" şeiri "Molla Nəsrəddin"də dərc olunmuşdur (1908, №18). Onun Namiq Kamaldan tərcümə etdiyi "Röya" (1907) əsərini M. və Ömər Faiq "Qeyrət" mətbəəsində nəşr etmişlər.

AXUNDOV (Axundzadə) Mirzə Fətəli Mirzə Məhəmmədtağı oğlu (1812-1878) – yazıçı, mütəfəkkir, Azərb. dramaturgiyasının realist bədii nəsrinin və ədəbi tənqidinin banisi. Mollaxanada oxuyan Fətəliyə anasının əmisi Axund Hacı Ələsgər fars, ərəb dillərini, şəriət elmlərini və "Quran" oxumağı öyrədir, onu ruhani etmək istəyir. Lakin gənc Fətəli axundun arzuladığı yolla getmir, 1833 ildə Şəkidə açılan ibtidai rus məktəbinə daxil olur. Bir il orada oxuyub rus dilini öyrəndikdən sonra Axund Hacı Ələsgər onu Tiflisə gətirib, Qafqazın baş hakimi baron Rozenin dəftərxanasında Şərq dilləri üzrə mütərcim şagirdi vəzifəsinə düzəldir. Bir il sonra o, mütərcim vəzifəsinə keçirilir və ömrünün sonuna qədər Tiflisdə canişin dəftərxanasında Şərq dilləri mütərcimi vəzifəsində işləyir. 1836-1840 illərdə o, eyni zamanda şeir yaradıcılığına başlayır. Tiflis qəza məktəbində müəllimlik edir. 1837 ildə dahi rus şairi A.S.Puşkinin ölümü münasibətilə məşhur şeirini yazır.

50 illərin əvvəlindən dramaturji yaradıcılığa başlayan A. beş ilə 6 komediya ["Hekayəti-Molla İbrahimxəlil kimyagər" (1850), "Hekayəti-Müsyö Jordan həkimi-nəbatat və dərviş Məstəli şah cadukuni-məşhur" (1850), "Sərgüzəşti-vəziri-xani-Lənkəran" (1850), "Hekayəti-xırs quldurbasan" (1851), "Sərgüzəşti-mərdi-xəsis" ("Hacı Qara", 1852) və "Mürafiə vəkillərinin hekayəti" (1855)] yazaraq Azərb. və Yaxın Şərq ədəbiyyatında dramaturgiyanın təməlini qoymuşdur. 1857 ildə isə o, "Aldanmış kəvakib" (yaxud "Hekayəti-Yusif şah") povestini yazmaqla yeni tipli bədii nəsrin ilk nümunəsini yaradır. Həmin ildə A. ərəb qrafikası əsasında yeni bir əlifba layihəsi hazırlayır. Bu arzusunu müsəlman ölkələrində qəbul etdirmək məqsədilə 1863 ildə o, İstanbula gedib layihəsini Türkiyənin baş naziri Fuad paşaya təqdim edir. Baş nazirin göstərişi ilə layihə Osmanlı Elmi Cəmiyyətində müzakirə edilmiş, amma qəbul olunmamışdır.

Vətənə qayıtdıqdan sonra A. "Kəmalüddövlə məktubları" adlı bədii-fəlsəfi əsərini yazmağa başlayıb, 1865 ildə tamamlayır. 1858 ildə A. Qafqaz canişinliyinin baş tərcüməçisi vəzifəsinə keçirilmiş, 1864 ildə isə əvvəlki vəzifəsi qalmaqla hərbi qulluğa təyin olunmuş, polkovnik rütbəsinə yüksəlmişdir.

Qırx ildən artıq Qafqaz canişinliyində çalışıb Rusiya dövlətinə xidmət edən A. ömrünün sonlarında hökumət yanında etibarsız şəxs kimi günahlandırılaraq işdən çıxarılmış, bir müddət işsiz qalmışdır. Bütün ömrü keşməkeşdə, gərgin işdə və mübarizədə keçən ədibin səhhəti pisləşmiş, 1877 ilin ortalarında, ağır ürək-astma xəstəliyinə tutulmuş və 1878-ci ilin martında vəfat etmişdir.

Azərb. ədəbiyyatı tarixində görkəmli yer tutan A.-u ondan sonrakı yazıçıların böyük bir nəsli özlərinin sənət müəllimi saymışlar. M. gənc yaşlarında A.-un "Təmsilat"ı ilə tanış olmuş, "min səkkiz yüz doxsan üçüncümü-dördüncümü illərdə Naxçıvan teatr həvəskarları" tərəfindən tamaşaya qoyulmuş "Hacı Qara", "Məstəli şah", "Kimyagər", "Xan Sərabi" komediyalarında müxtəlif rollarda oynamışdır. "Səhnə ustadı Mirzə Fətəlinin nadir qələmindən törəyən ləzzətli komediya və duzlu, zərif məzhəkələri" M.-yə dərin təsir göstərmiş, yaradıcılığında demokratizmin qüvvətlənməsində həlledici rol oynamışdır. M. yaradıcılığında, mühərrirlik fəaliyyətinin bütün mərhələlərində A.-a istinad etmişdir. M. onu "ustadi-əzizimiz" adlandırır, bədii, elmi, fəlsəfi yaradıcılığı haqqında qiymətli tədqiqat məqalələri yazırdı. 1928 ildə A.-un ölümünün 50 illiyi münasibətilə o, "Mirzə Fətəli Axundov və qadın məsələsi" ("Şərq qadını" jurnalı, №3), "Mirzə Fətəli Axundov dinlər haqqında" ("Şərq qadını" №5-6) adlı iki məqalə çap etdirir. Hər iki məqalədə M. sələfinin şəxsiyyətini və xalq qarşısında xidmətlərini yüksək qiymətləndirmiş, onun ideya və əməllərinin davamçısı olduğuna görə iftixar etdiyini bildirmişdir. M. yazırdı ki, Mirzə Fətəlinin "Əl vurduğu məsələlərin hamısından qan qoxusu gəlir" ("Şərq qadını" jurnalı, B., 1928, №3).

AXUNDOV Mirzə Xosrov (1889-1960) – pedaqoq, maarifçi, şair. 1905 ildə Şuşa şəhər məktəbini bitirmiş, 1906 ildən ömrünün sonuna qədər müəllimlik etmişdir. O, "Xosrov Şaiq" təxəllüsü ilə şeirlər yazmış, M.M.Nəvvabın başçılıq etdiyi "Məclisi-fəramuşan"ın üzvü olmuşdur. Dörd yüzdən çox şeir, qoşma və bayatının müəllifidir. Müvəqqəti olaraq Şuşada yaşayan Məmmədquluzadələr ailəsinin övladlarına – Midhətə və Ənvərə dərs demişdir. 1915 ildə Həmidə xanımın Şuşada təşkil etdiyi müsamirənin fəal iştirakçılarından olmuşdur. M.-nin "Ölülər" və "Anamın kitabı" əsərlərinin üzünü köçürmüş, "Ölülər"in 1919 ildə Şuşada tamaşaya qoyulmasında iştirak etmişdir. Qarabağın tarixinə, etnoqrafiyasına dair yazıları, Qarabağda ərsəyə gələn görkəmli elm, mədəniyyət və ədəbiyyat xadimləri, həmçinin M. və Həmidə xanım haqqında xatirələri var. Xatirələrində M.-nin öz övladlarına münasibəti, din xadimləri ilə ideya münaqişəsi, gündəlik həyat və məişətdə davranışı ilə bağlı bir sıra maraqlı detallar vardır.

AXUNDOV Nazim Fərrux oğlu (1924-1994) – tənqidçi, ədəbiyyatşünas. Filol. e.d. (1967), prof. (1970). Azərb. mətbuatı tarixinə dair tədqiqatlar aparmış, "Molla Nəsrəddin" jurnalının tarixinə dair tədqiqlər" adlı doktorluq dissertasiyası müdafiə etmişdir (1967). "Molla Nəsrəddin" jurnalının nəşri tarixi" (1959), "Azərbaycanda dövri mətbuat (1832-1920), "Biblioqrafiya" (1965), "Azərbaycan satira jurnalları (1906-1920)" (1968), "Azərbaycan sovet ədəbiyyatşünaslığı" (1977) və s. əsərlərində M.-nin yaradıcılığından geniş bəhs edilir.

AXUNDOV Ruhulla Əli oğlu (1897-1938) – dövlət xadimi, publisist, alim. Mədrəsədə, realnı məktəbdə, ticarət məktəbində oxumuşdur. İngilis, fransız, fars dillərini mükəmməl bilirdi. 1916 ildən Bakı mətbəələrində korrektor və tərcüməçi işləmişdir. 1918-1919 illərdə "Bakı ətrafı fəhlə, əsgər və matros şurasının əxbarı", "Kommunist", "Hürriyyət" qəzetlərinin red. olmuşdur. Sovet hakimiyyəti illərində AK(b)P MK şöbə müdiri, AK(b)P BK katibi, "Bakinski raboçi", "Kommunist" qəzetlərinin red., 1924-1930 illərdə AK(b)P MK katibi, Azərb. SSR Xalq Maarif komissarı, Azərnəşrin direktoru olmuş, SSRİ EA-nın Azərb. filialında, AK(b)P MK yanında Partiya Tarixi İntunda işləmişdir. Resp.-da nəşriyyat və poliqrafiya işinin təşkilatçılarından olan A. yeni əlifbaya keçilməsində mühüm rol oynamışdır.

A. Mirzə Cəlilin şəxsiyyətinə və yaradıcılığına böyük hörmət bəsləyirdi. 1926 ildə Mirzə Cəlil İranla münasibətləri pozmaqda günahlandırılarkən, SSRİ Xalq Xarici İşlər komissarı, K.V.Çiçerin bunu "İranla dostluğumuzu pozmaq" səyi hesab etmişdi. A. bu məsələnin müzakirəsində çıxış edərək Mirzə Cəlili müdafiə etmiş, "Molla Nəsrəddin"in İran mütləqiyyətinə qarşı mübarizəsinin Çiçerin tərəfindən pislənilməsinin yolverilməzliyini bildirmişdir.

1938 ildə siyasi repressiyanın qurbanı olmuşdur.

AXUNDOV Süleyman Sani (Süleyman Rzaqulu bəy oğlu Axundov) (1875-1939) – pedaqoq, nasir və dramaturq. Əmək qəhrəmanı (1932). Qori müəllimlər seminariyasını qurtarmış (1894), xalq maarifi sahəsində işləmişdir. 1922-1923 illərdə Azərb. Ədib və Şairlər İttifaqının ilk sədri seçilmişdir. Milli uşaq ədəbiyyatının klassiklərindəndir. Əsərlərində yüksək mənəvi keyfiyyətlər, nəcib, işıqlı hisslər təsvir edir. İlk görkəmli əsəri "Tamahkar" (1899) komediyasıdır. Bakı Tənqid-Təbliğ Teatrının yaradılmasında (1921) və repertuarının zənginləşməsində fəal çalışmışdır. A.-un "Çərxi-fələk" pyesi ilə işə başlayan bu teatrın səhnəsində "Laçın yuvası", "Şeytan", "Şahsənəm və Gülpəri" və s. əsərləri tamaşaya qoyulmuşdur. "Qorxulu nağıllar" silsiləsindən olan əsərləri (1912-1914), "Eşq və intiqam" pyesi (1922) məşhurdur. Əsərlərinin bədii dil xüsusiyyətləri ilə A. ölməz hekayə ustaları Mirzə Cəlil, Ə.Haqverdiyev, N.Nərimanov və digər yazıçılara yaxın olub, onlar kimi ümumxalq dilinə əsaslanmış və ondan geniş istifadə etmişdir.

M.-nin Təbrizdən Bakıya qayıtması və "Molla Nəsrəddin" jurnalının çapını davam etdirməsi münasibətilə A. "Molla Nəsrəddin Bakıda" adlı bir pərdə, 4 şəkildən ibarət komediya yazmışdır (1921). Pyes Bakı Tənqid-Təbliğ teatrında müvəffəqiyyətlə oynanılmışdır. M. bu komediya haqda demişdir: "Mən sizin yaratdığınız bu canlı "Molla Nəsrəddin" teatrına aşiq

S.S.Axundov

E.Axundova

olmuşam. Mən "Molla Nəsrəddin"i kağıza yazmışdım, siz onu səhnədə canlandırdınız".

AXUNDOVA Elmira Hüseyn qızı (d. 1953) – tənqidçi, ədəbiyyatşünas, tərcüməçi, publisist. Filol. e.n. (1984). Azərb. Resp.-nın əməkdar jurnalistidir. Azərb. Yazıçılar Birliyində, Azərb. EA-nın Ədəbiyyat İn-tunda çalışmışdır. 9 bədii-publisistik kitabın müəllifidir. Yaradıcılığında siyasi publisistika, Azərb. həyatının aktual məsələləri, erməni işğalçılarının vətənimizdə törətdikləri cinayətlər, beynəlxalq ictimaiyyətin bu hadisələrə münasibəti haqqında yazılar üstün yer tutur. O, "C.Məmmədquluzadə realizmi və XIX əsrin sonu, XX əsrin əvvəllərində rus ədəbiyyatı ənənələri" (1988) monoqrafiyasında yazıçının yaradıcılığını tipoloji aspektdə, klassik rus nəsri məcrasında öyrənmiş, M. ilə Qoqol, Saltıkov-Şedrin, Çexov arasında bir sıra maraqlı paralellər aparmışdır. A. ədib barəsində rus və Azərb. dillərində bir sıra məqalələrin müəllifidir. B.Bayramovun M.-nin həyatından bəhs edən "Karvan yolu" romanını (1989), İ.Həbibbəylinin "Əsrin dühası" əsərini (1993) rus dilinə çevirmişdir. 1990-2002 illərdə "Литературная газета", "Деловой мир", "Общая газета", "Свобода"nın Azərb. üzrə müxbiri olmuşdur. Bakı Slavyan Universitetinin dosentidir. R.Rza adına Beynəlxalq ədəbiyyat fondunun vitse-prezidentidir. 2005 ildən Milli Məclisin üzvüdür. Şöhrət ordeni ilə təltif edilib (2003).

AXUNDOVA Zümrüd Qulam qızı (1912-1961) – pedaqoq. Pedaqoji e.n. (1949). Məmməd Arifin həyat yoldaşı. "Azərbaycanda qadın təhsilinin tarixindən (1900-1914)" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir (1949). Əsər XX əsrin əvvəlində Azərb.-da qız məktəblərinin açılması, onların təhsil proqramlarının tərtibi, vəzifələri, görkəmli qadın pedaqoqlar və s. məsələlər haqqında ətraflı məlumat verir; milli maarif və mədəniyyətimizin tərəqqisində Azərb. qadınlarının iştirakı zəngin faktlar və fikirlərlə işıqlandırılır. Bütün bu məsələlərin aydınlaşdırılmasında "Molla Nəsrəddin" jurnalı və mollanəsrəddinçi müəlliflərə mərkəzi yer verən A. böyük ədib M.-nin xidmətlərini layiqincə qiymətləndirmişdir.

Aleksandr II

AXUNDOĞLU Hacı Mirzə Əbuturab (1815-1910) – ilahiyyatçı alim-publisist. Əmirhacıyan kənd və Bakı şəhər məscidlərində axund olmuş, 1905-1907 illərdə "Həyat" və "İrşad" qəzetlərində İslam birliyi, ana dilinin ictimai funksiyasını təmin etmək, dini elmlərin inkişafına rəvac vermək, çar monarxiyasını müdafiə etmək və s. mövzularda məqalələr yazmış, "İslamın təfriqəsi səbəbləri" (1907) kitabını nəşr etdirmişdir.

A.-nun "Lisan bəlası" ("Həyat" qəzeti, 1906, 23 mart) məqaləsi M. tərəfindən kəskin tənqid olunmuşdur. Birinci rus inqilabı günlərində adi insani hüquqlar uğrunda döyüşlərə atılan kütləni mübarizədən çəkindirmək işinə xidmət edən "Lisan bəlası" məqaləsi M. tərəfindən xalqın azadlıq arzularına qəsd kimi qiymətləndirilmişdir. M. "Xatiratım" əsərində yazırdı: "Həyat" qəzetində Əbutürab Axund oğlunun dinməmək və danışmamağın fəziləti barəsində vəz və nəsihəti haman tarixi bir əsrdə heç kəsin xəyalına gəlməyən yersiz nəsihət idi. ...Bir belə əsrdə müsəlman camaatının ruhani rəhbəri, qəzetlər vasitəsilə camaatı dəvət edirdi nəyə? Sükut və danışmamağa... Nədir danışmamaq? Lal və kar oturub mövtə və fövtə müntəzir olmaqdır. Nə mənə azadlıq lazımdır, nə mənə hüquq lazımdır...

...Və mətbuat vadisinə təzə qədəm qoyan "Molla Nəsrəddin" Axund Əbutürabın bu məqaləsini buraxıb keçə bilməzdi". Ona görə də, A.-nun dini moizəsinin siyasi mahiyyətini açıb xalqa göstərmək üçün M. "Molla Nəsrəddin"in birinci nömrəsində "Lisan bəlası" felyetonu ilə çıxış edərək, xalq kütləsini mütiliyə, siyasi kütlüyə çağıran axundu rişxənd və kinayə hədəfinə çevirdi və baxışlarının müzür mahiyyətini açıb göstərdi.

ALEKSANDR II (1818-1881) – Rusiya imperatoru (1855-1881). I Nikolayın böyük oğlu. Siyasi görüşlərinə görə mühafizəkar olan A. ölkənin iqtisadi inkişafı, 1853-1956 illər Krım müharibəsindəki məğlubiyyət və inqilabi şəraitin təsirilə 1861 ildə təhkimçilik hüququnu ləğv etməyə, bir sıra sahələrdə burjua islahatları keçirməyə məcbur olmuşdu. Ona qarşı bir neçə dəfə sui-qəsd edilmiş, nəhayət, "Народная воля"nın üzvü İ.İ.Qrinevski tərəfindən öldürülmüşdür.

Keçmişdən danışarkən ancaq vacib hallarda siyasi hadisələri yad edən M. "Tərcümeyi-halım"da çarın öldürülməsini istehza ilə "şəhid" olması adlandırıb, bu münasibətlə Naxçıvan məscidində "icbari" təziyə məclisi keçirildiyini yazır: "Min səkkiz yüz həştad birdə ikinci Aleksandrın mücahidlər tərəfindən Peterburqda güllələnməyi mənim yadıma gəlir. On bir-on iki yaşında uşaq olardım. [...] Camaatı yığdılar məscidə və [...] mollaların biri minbər üstündə məqtul (qətl olunmuş. – *red.*) padşahın şən və şərəfindən o qədər söylədi ki, axırda özü də ağladı və camaatı da ağlatdı. Sonra mərsiyə deyildi və şəhid padşahın müsibəti şəhid imamın müsibətinə qarışıb məscidə bir vamüsibəta, vaveyla düşdü". Bu "fövqəladə" hadisə gözüaçıq yeniyetmədə belə bir qənaət yaratmışdı: "Yer üzünün Allahı" olan padşahı da öldürmək olarmış!".

"ALLAHSIZ" – 1931 ildən Bakıda nəşr edilən ateist jurnal. Azərb. Mübariz Allahsızlar İttifaqının orqanı idi. Onun səhifələrində məzmunca aşağı səviyyəli yazılar gedirdi. Əksər müəlliflər özünü ictimaiyyətə fəal dinsizlər kimi tanıtmağa çalışan şəxslər idilər. Bədxah ziyalılar və vəzifə sahibləri tərəfindən haqsız tənqid hədəfinə çevrilmiş "Molla Nəsrəddin" jurnalını əvəz etmək məqsədilə yaradılmış "A."-ın ömrü az oldu. Böyük Vətən müharibəsi başlandıqdan sonra Allahsızlar İttifaqı və onun jurnalı ləğv olundu.

ANA DİLİ – M.-nin bədii və publisist yaradıcılığında ən mühüm məsələlərdən biri. "Hər millətin özünəməxsus ana dili var ki, onun məxsusi malıdır. Ana dili millətin mənəvi diriliyidir... Ananın südü bədənin mayası olduğu kimi, ananın dili də ruhun qidasıdır. Hər kəs öz anasını və vətənini sevdiyi kimi, ana dilini də sevir". A.d.-nin təmizliyi uğrunda daima mübarizə aparmış M. onun mahiyyətini belə açıqlayır: "Biz bu dilə o səbəbdən ana dili adı qoyuruq ki, bu dildə yazı yazanda və ortalığa "ana" söhbəti gələndə biz "ananı", "ana" da yazırıq, amma qeyri yazıçılarımız... "ana" sözü əvəzinə "madər" yazırlar və həmçinin "ata" sözü əvəzinə "pədər" yazırlar. "Ananı" "madər" yazanlar və "atanı" "pədər" yazanlar, dəxi qeyri türk sözlərini də habelə səbəbsiz yerə fars və ərəb sözünə dəyişirlər". Ədibə görə A.d.-nin əsas əlamətləri sadəlik və başadüşümlülükdür: "İndi müsəlman qardaşlar sizdən xəbər gözləyir ki, sadə yazı vasitəsilə müsəlman qardaşlarımıza xidmət edəsiniz" və: "Çün hərənin bir məqsədi və şüarı olan kimi, bizim də şüarımız dil yaratmaq deyil idi, ancaq dərdi-dilimizi hal-hazırda camaat başa düşən dildə ona yetirmək idi, necə ki, yetirdik". Yenə onun sözləridir: "Biz çalışırdıq ki, yazımızı hər bir kəs asan və tezliklə başa düşsün və güman edirəm, məqsədimizə də çatdıq". A.d.-nin məktəblərdə tədrisi məsələsi də həmişə M-nin diqqət mərkəzində olmuşdur. Bu məsələyə M. bir neçə məqalə və felyeton həsr etmişdir. 1905 ildə ibtidai məktəblərdə Azərb. dilinin tədrisinə həsr etdiyi məqalədən: "Yerli dillər məsələsi çox diqqətlə işlənib həll olunmalıdır; Tatar (Azərb. – *red.*) dilinə gəldikdə isə, bu məsələ o qədər mürəkkəbləşir ki, bu barədə aylarla götür-qoy etmək, düşünmək və cild-cild kitab yazmaq lazımdır".

"ANAMIN KİTABI" – M.-nin pyesi. 1920 ildə Qarabağda yazılmış 4 məclisdə dram. M.-nin mövzu, ideya, sənətkarlıq

"Anamın kitabı" pyesindən səhnə. 1926-1927-ci illər.

cəhətdən kamil dramatik əsəridir. Əsərdə milli şüur probleminə geniş yer verilmişdir. İlk dəfə 1922 ildə Bakıda D.Bünyadzadə ad. Dram teatrında tamaşaya qoyulmuşdur (rej. A.Şərifzadə, Səməd Vahid – K.Ziya, Məmmədəli – İ.Talıblı, Gülbahar – Y.Olenskaya). 1994 ildə ADT-də yenidən tamaşaya qoyulmuşdur. Quruluşçu rej. Həsən Əbluc tamaşanın məşqlərini sona çatdırarkən qəflətən vəfat etmiş, bu işi onun qardaşı, rej. Ənvər Əbluc davam etdirmişdir (rəssam Şamil Nəcəfzadə, musiqi tərtibatçısı İsmayıl Dadaşov). Əsas rolları Safura İbrahimova (Zəhra bəyim), Rafiq Əzimov (Rüstəm bəy), Əli Nurzadə (Mirzə Məmmədəli), Əjdər Həmidov (Səməd Vahid), Bəsti Cəfərova (Gülbahar) və b. ifa etmişlər. Böyük uğurla keçən bu ideya-psixoloji tamaşa anaya, Vətənə, doğma dilə, xalq adət-ənənələrinə, xalq musiqisinə məhəbbət ruhu oyadır.

Anar

ANAR (Anar Rəsul oğlu Rzayev) (d. 1938) – nasir, dramaturq, ssenarist, rejissor, tənqidçi, ictimai xadim. Azərb. xalq yazıçısı (1998), Azərb. əməkdar inc. xad. (1976), Azərb. Dövlət mükafatı laureatı (1980), Azərb. Yazıçılar Birliyinin sədri (1991 ildən; 1987 ildən birinci katibi olmuşdur). Rəsul Rzanın oğludur. A. ədəbiyyata hekayə janrı ilə gəlmişdir. 60-cı illər ədəbi nəslin görkəmli nümayəndəsi kimi A. məişət mövzusunda yazdığı lirik-psixoloji povestləri ilə "yeni Azərbaycan nəsrini" yaradan ədiblərdəndir. O, "Ağ liman", "Dantenin yubileyi", "Macal", "Əlaqə", "Beşmərtəbəli evin altıncı mərtəbəsi", "Otel otağı", "Ağ qoç, qara qoç" kimi povest və romanların, "Şəhərin yay günləri", "Səhra yuxuları", "Təhminə və Zaur" dramlarının, Ü.Hacıbəyov və C.Məmmədquluzadə haqqında bədii filmlərin quruluşçu rej. və ssenari müəllifidir. A.-ın qələmindən tənqidi məqalələr, "Dədə Qorqud dünyası", "Nəsrin fəzası" kimi tədqiqatlar çıxmışdır. Mənsub olduğu ədəbi nəslin bir çox nümayəndələri kimi, o da M.-nin yaradıcılığı, onun ədəbi məktəbinin ənənələri və prinsipləri ilə mənən bağlı sənətkardır. A-ın əsərlərində böyük ədiblə ideya-yaradıcılıq əlaqəsi bir neçə formada özünü göstərir. M. irsinin tədqiqi, təhlili, müasirlik mövqeyindən dəyərləndirilməsi, "yeni Azərbaycan nəsri" üçün "ənənələrinin, yaradıcılıq prinsiplərinin" əhəmiyyətinin, "yeni nəsrin" sosialist realizmi ehkamlarından xilas olmasında bu ənənələrin rolu, M. əsərlərinin mövzu və motivlərindən yaradıcılıqla istifadə ilə bədii əsərlər yazmaq və nəhayət, ədibin həyat və fəaliyyətini, şəxsiyyətini, obrazını bədii əsərdə təsvir etmək – yazıçının öz sələfinin ədəbi və mənəvi irsi ilə yaradıcılıq əlaqəsinin əsas formaları və təzahürləridir. "Anlamaq dərdi" essesində A. böyük yazıçının yaradıcılığını, ədəbi-ictimai mübarizəsini, şəxsiyyətini canlandırmışdır ("Новый мир" jurnalı, 1967, №5). Bundan əlavə, onun "Molla Nəsrəddin-86" adlı yazısı vardır. Başqa yazılarında, ədəbi-tənqidi çıxışlarında da o, dəfələrlə M. irsindən, bu irsin ədəbi və ictimai dəyərindən söz açmışdır. A., eyni zamanda M. haqqında yazdığı bədii əsərlərdə onun obrazını yaratmağa təşəbbüs göstərmişdir ("Sizi deyib gəlmişəm" sənədli dramatik povesti, 1976; "Qəm pəncərəsi" telepovesti, 1976, "Nigarançılıq" televiziya tamaşası M.-nın bir neçə hekayəsi əsasında yaradılmışdır 1998). "Nəsrin fəzası" tədqiqatında (1981) A. onun yaradıcılığının müasir ədəbiyyat üçün əhəmiyyətindən, bu yaradıcılığın ədəbiyyatımızın yeni nəslinin sənət və vətəndaşlıq axtarışlarına təsirindən danışmış, nəsrin qəhrəman və üslub axtarışlarında M. ənənələrinin rolunu göstərmişdir. M.-ni "yeni Azərbaycan nəsrinin ən yaxın sələfi" adlandırmışdır. Müasir nəsr prosesi ilə M. arasında qəhrəman, üslub, bədii tendensiya və s. cəhətdən bədii-tipoloji əlamətləri müəyyənləşdirmişdir. A.-ın özünün nəsrində M. üslubu, təhkiyə tərzi çox aydın sezilir. "Molla Nəsrəddin-66" (1967), "Adamın adamı" (1974), "Sizi deyib gəlmişəm" (1984) kitabları bu cəhətdən yazıçının diqqətəlayiq əsərlərindəndir. Nəsr əsərlərində yazıçı öz sələfinin ənənələrindən, üslub və təhkiyə imkanlarından, poetikasından istifadə edərək müasir gerçəkliyin mənfi, neqativ meyllərini, hadisələrini təsvir etmişdir.

H.Araslı

ARASLI Həmid Məhəmmədtağı oğlu (1909-1983) – ədəbiyyatşünas alim. Filol. e.d. (1954), Azərb. EA akad. (1968; m. üzvü 1958), Özbəkistan və Azərb.-ın əməkdar elm xadimi. Özb. EA akad., Türk Dil Qurumunun (Türkiyə, 1957), İraq EA-nın (1972) fəxri üzvü. Klassik Azərb. ədəbiyyatına dair çoxsaylı elmi əsərlərin müəllifi. Mollanəsrəddinçilərin ilk tədqiqatçılarındandır.

A. "Azərbaycan və Hindistan xalqları arasında mədəni əlaqələrin tarixindən" məqaləsində göstərir ki, "İngilislərin Şərq ölkələrini, xüsusən Hindistanı əsarət altında saxladığını dəfələrlə ifşa edən "Molla Nəsrəddin" Hindistanda gedən azadlıq hərəkatını alqışlayır və bu ölkənin gələcəkdə öz istiqlaliyyətini bərpa edəcəyinə əmin olduğunu bildirirdi". Alim jurnalda bu mövzuda verilən kəskin siyasi karikaturadan da bəhs edir. "Ələkbər Sabir Tahirzadə" (B. 1936; Azərb. və rus dillərində) kitabçasında və "Ələkbər Tahirzadə Sabir" adlı məqaləsində ("Kommunist", 10.12.1936) A. əski feodal adətlərini, istismarçıları, mövhumatı, yalançı din xadimlərini ifşa və rüsvay edən mollanəsrəddinçilər sırasında Sabirin fəaliyyətinə xüsusi yer verir.

A.-nın "Sabir və Şərq ədəbiyyatı" məqaləsində İranda, Özbəkistanda, Tatarıstanda ilk mütərcimlərin Sabirin əsərlərini "Molla Nəsrəddin"dən" başlığı altında verdikləri nəzərə çatdırılır.

"Tarixi bir etiraf" məqaləsində A. yazır ki, 1926 ildə Bakıda I Türkoloji Qurultayda iştirak edən və Gəncədə ziyalılarla görüşən Əli bəy Hüseynzadə öz nitqlərində M. və "Molla Nəsrəddin"in "xalqa endiyi üçün xalqla bərabər yüksəldiyini" söyləmişdir.

"ARI" – həftəlik satirik jurnal. 1910 il dekabrın 18-də Bakıda nəşrə başlamış, 1911 il martın 12-də 13-cü nömrədən sonra bağlanmışdır. Red. Dadaş Bünyadzadə, naşiri Əliməmməd Əliyev idi (9-cu nömrədən sonra həm də red. olmuşdur). Jurnalda ictimai gerilik, dini fanatizm, ailə-məişət pozuntuları, çarizmin dövlət aparatındakı bürokratizmi tənqid, Yaxın Şərq ölkələrindəki aktual hadisələrdən bəhs edən yazılar çap olunurdu. "A." dil və üslub cəhətdən "Molla Nəsrəddin" ənənələrindən geniş istifadə edərək, onun ədəbi-ictimai mövqeyini müdafiə edirdi. Müəllifləri əsasən "Molla Nəsrəddin"in iştirakçıları idi. "A." jurnalında Azərb. ədəbiyyatı klassikləri – Seyid Əzim Şirvani, N.Vəzirov, dünya və Rusiya ədəbiyyatı klassikləri – V.Şekspir, Molyer, Şiller, L.N.Tolstoy, A.S.Puşkin, N.V.Qoqol və başqaları haqqında ciddi üslublu məqalələr dərc olunurdu. Teatr tamaşaları barədə də ara-bir rəylər verilirdi.

ASLANOV Elçin Muxtar oğlu (d. 1934) – rəssam. Azərb. Gözəl Sənətlər Yaradıcılıq Akademiyasının həqiqi üzvü (1991). Ə.Əzimzadə ad. Azərb. Rəssamlıq məktəbini (1953) və İ.Y.Repin ad. Sankt-Peterburq Boyakarlıq, Heykəltəraşlıq və Memarlıq İn-tunun boyakarlıq fakültəsini (1960) bitirmişdir. Kitab tərtibatı, plakat, dəzgah qrafikası, boyakarlıq və s. janrlarda əsərlər yaratmışdır. M.-nin 100 illiyi münasibətilə çəkilmiş "Sizi deyib gəlmişəm" (1965) plakatının müəllifidir. Teatr və kino rəssamlığı sahəsində də fəaliyyət göstərir. ADT-nda tamaşaya qoyulmuş "Ölülər" əsərinə bədii tərtibat vermişdir (1966). M. haqqında "Mən onu yenidən kəşf etdim" adlı məqalənin müəllifidir (1967).

ASLANOV Mirabbas Seyidağa oğlu (1923-2007) – filoloq, jurnalist. Pedaqoji e.n. (1962), Beynəlxalq Pedaqoji Akad.-nın həqiqi üzvü (1999). Ü.Hacıbəyovun həyatı və jurnalistlik fəaliyyətinin tədqiqi və təbliği ilə məşğul olmuşdur. "Üzeyir Hacıbəyov (Gənclik illəri)" (1977) və "Üzeyir Hacıbəyov – jurnalist" (1985) monoqrafiyalarında Ü.Hacıbəyov ilə "Molla Nəsrəddin" jurnalı arasında ideya-yaradıcılıq əməkdaşlığı probleminə geniş yer ayırmışdır. M.-nin pedaqoji fəaliyyəti, "Molla Nəsrəddin" jurnalında xalq maarifi, təhsil, təlim və tərbiyə məsələlərinə dair məqalələr dərc etdirmişdir.

M.Aslanov

AŞIQ MUSİQİSİ – şifahi ənənəli Azərb. musiqi mədəniyyətinin ən qədim sahələrindən biri, aşıq sənətinin mühüm tərkib hissəsi. M. incəsənətin bir çox başqa növləri kimi, musiqini də çox sevir və özü yaxşı kamança çalırdı. Azərb.-ın qədim zamanlardan bəri istər məzmun, istərsə formaca zəngin olan musiqi sənəti ona yüksək zövq verirdi. Xalqın tarixinə, mübarizəsinə, həyatı, məişəti, dil və ədəbiyyatına çox yaxın olan bu musiqidə doğma azərb.-ların yaradıcı təbiətini görürdü. Bir çox qələm dostları kimi, M. də aşıq sənətini sevmiş, el sənətkarları ilə ünsiyyətdə olmağı ömrün xoş, qiymətli anlarından hesab etmişdir. Ədibin ailə məclislərinə də dəvət etdiyi bu sənətkarlardan Gülablı kəndi aşıqları Nəcəfqulu və Abbasqulu haqqında az yazılmamışdır. Həmidə xanımın xatiratında deyilir: "Mirzə Cəlil Şərq musiqisini və aşıqları çox sevirdi. Gülablı aşıqları Nəcəfqulu və Ab-

basqulu ilə dostluq edərdi. Həmin aşıqlar qızımın ərə getməsi xəbərini eşitmiş, dəvət olunmadan özləri Tiflisə bizə gəlmişdilər". Mirzə Cəlil M.F.Axundovun yüzillik yubileyinə də aşıqları dəvət etmişdi. Aşıqlar konsertdə müvəffəqiyyətlə çalıb oxumuşdular.

Ç.Aytmatov

ATAYEV Məmmədşah Qədim oğlu (d. 1939) – teatrşünas, pedaqoq. Sənətşünaslıq namizədi (1983). ADT-da aktyor, truppa müdiri, teatr muzeyinin direktoru vəzifəsində işləmişdir (1955-1985). "C.Məmmədquluzadə əsərləri Azərbaycan səhnəsində" mövzusunda dissertasiya müdafiə etmişdir (1983). 1963 ildən dövri mətbuatda çıxış edir, 100-ə yaxın məqalənin müəllifidir. M. haqqında 10-dan çox məqalə ("C.Məmmədquluzadə və teatr", "Ölülər" SSRİ xalqları səhnəsində", "Axtarışlar və nəticələr" və s.) dərc etdirmişdir. "C.Məmmədquluzadə əsərlərinin səhnə taleyi" (1991) monoqrafiyasının müəllifidir.

H.Atakişiyev

ATAKİŞİYEV Hüseynağa Ağahüseyn oğlu (1949-2006) – rejissor, aktyor. Azərb. əməkdar inc. xad. (1983). "Qızıl Dərviş" mükafatı laureatı (1996). 1988 ildən Bakı Gənclər Teatrının bədii rəhbəri işləmişdir. S.Rəhman ad. Şəki Dram Teatrında Anarın "Sizi deyib gəlmişəm" (1982), Bakı Gənclər Teatrında M.-nin əsərləri əsasında özünün yazdığı "Qurbanəli bəy" (1990) tamaşalarının quruluşçu rej. olmuşdur.

"ATLAR DAYANDI" – M.-nin nisbətən iri həcmli (10 səhifəlik) hekayəsi. 20 səhifəlik avtoqrafı var; müəllif onun üzərində əsasən kiçik söz və ifadə düzəlişləri etmişdir. M.-nin ən son əsərlərindəndir. 1930-1931 illərdə yazıldığı ehtimal olunur. Süjet hər il dağlıq Xansaray yaylağına gedən şuşalı həkim Qəbzibəyin xarakteri və psixologiyasının açılmasından, onun ailə həyatının, at, fayton, səyahət kimi məsələlərlə bağlı düşüncələrinin işıqlandırılmasından ibarətdir. Şuşalı həkimin xasiyyətinin ən əsas cəhəti çox xoşladığı atına sevə-sevə qulluq etmək, onu "qoşquya öyrətmək"dir. Müəllif yazır ki, Qəbzibəyin sayəsində bizim "həkimə və dərmana xərcimiz çıxmayıbdır və azar da dəf olub gedibdir". Qəbzibəy "gözəl müsahibdir. Çalan, çağıran, oynayıb gülən, qonaq sevən və dostluqda xeyli sədaqətli"dır. Axır vaxtlarda onda qəribə hallar görünür: yayın istisində "Qaraqırt qəsəbəsində qalıb, [...] yaylağa getmək istəmir".

Neçə il keçir. Bir dəfə yolu Xansaraydan düşən müəllif köhnə dostuna qonaq olur. Həkimin onun şərəfinə düzəltdiyi məclisdəki qonaqlar söhbət zamanı Qəbzibəydən öyrənirlər ki, demə, neçə vaxtdır o, heç yana səfər eləmir. Səbəb bir gün faytonun atlarının Qəbzibəyin səylərinə baxmadan ayaqlarını yerə dirəyib dayanmaları olmuşdur. Hekayədəki bu epizod psixoloji "sınma"nın Qəbzibəy kimiləri nə hala saldığını çox maraqlı əhvalat və canlı bədii ifadə ilə göstərir.

AYTMATOV Çingiz (1928-2008) – qırğız yazıçısı. Qırğ. Resp. xalq yazıçısı (1968). Lenin (1963) və SSRİ Dövlət (1968) mükafatları laureatı. Qırğız və rus dillərində yazmışdır. İnsan və cəmiyyət problemi A.-un yaradıcılığının xarakterik xüsusiyyətləridir. "Üz-üzə" (1957), "Cəmilə" (1958), "Sərv boylu dilbərim" (1961), "İlk müəllim" (1962), "Əlvida, Gülsarı" (1967) və s. əsərlərin müəllifidir. M.-nin yaradıcılığı haqqında məqalələri vardır.

AZƏR Buzovnalı (Məşədi Azər Hacı Məcid oğlu İmaməliyev) (1870-1951) – şair, tərcüməçi, müəllim. Xüsusi müəllimlərdən təhsil almış, fars və ərəb dillərinə də yiyələnib, klassik Şərq poeziyasını mükəmməl öyrənmişdir. Orta məktəblərdə dərs demişdir. Yaradıcılığa heca vəznli şeirlərlə başlamış, sonralar həm də əruz vəznində qəzəllər, tarixi mövzularda poemalar, mərsiyələr yazmışdır. İri həcmli "Oğuznamə", "Çingiznamə", "Aydəmir", "Tarixi-İslam" və s. poemaların, "Rüstəm və Söhrab" librettosunun müəllifidir. "Molla Nəsrəddin"i yüksək qiymətləndirmiş, M.-nin və M.Ə.Sabirin təsirilə satirik şeirlər də yazıb, "Azər Əyyar" imzası ilə dərc etdirmişdir. "Tazə həyat" qəzetində (1907) "Molla Nəsrəddinə" adlı şeiri dərc olunmuşdur.

"AZƏRBAYCAN" – 1906-1907 illərdə Təbrizdə Azərb. və fars dillərində nəşr olunan satirik jurnal. Red. Əliqulu Səfərov, naşiri Hacağa Billuri idi. "Molla Nəsrəddin" jurnalının təsiri ilə din və xurafat əleyhinə mübarizə aparırdı.

"AZƏRBAYCAN" – 1918-1920 illərdə Azərb. Xalq Cümhuriyyəti hökumətinin nəşr etdirdiyi gündəlik siyasi-ictimai və ədəbi qəzet. 1918 il iyun ayının 1-də Gəncədə nəşrə başlamış, ilk 4 nöm-

rədən sonra Bakıda Azərb. və rus dillərində buraxılmışdır. Red.-ları Ü.Hacıbəyov, C.Hacıbəyov, Ş. Rüstəmbəyov və X.İbrahimov olmuşdur. "A." müstəqil Azərb. Cümhuriyyətinin siyasi-ictimai, iqtisadi və ədəbi həyatını geniş şəkildə işıqlandırmışdır. "A." qəzetində hökumətin fərman və qərarları, parlamentin protokolları və s. rəsmi sənədlər də dərc edilirdi. "A." qəzeti ədəbiyyat məsələlərinə, xüsusilə, poeziyaya geniş yer verirdi. Əslində, 1918-1920 illərdə Azərb.-ın yeni məzmunlu milli-azadlıq poeziyasının ən parlaq nümunələri bu qəzetdə çıxmışdır. Qəzetdə M.Ə.Rəsulzadə, Ü.Hacıbəyov, M.Hadi, Ə.Cavad, Seyid Hüseyn, A.Talıbzadə, M.Mirzəbala, M.Əbdülvahab, Əli Yusif, Ömər Faiq, F.Ağazadə və b. fəal iştirak etmişlər.

Nəşri 1920 il aprelin 28-də dayanmışdır.

"AZƏRBAYCAN" – 1945-1946 illərdə Təbrizdə Azərb. dilində nəşr olunmuş siyasi-ictimai qəzet. Azərb. Dem. Firqəsinin orqanı. Qəzetdə fars dilində də məqalə və xəbərlər dərc olunurdu. Güney Azərb.-ın istiqlal uğrunda mübarizəsini işıqlandırırdı. Görkəmli siyasi xadim və publisist M.C.Pişəvərinin məqalələri qəzetdə aparıcı yer tuturdu. Demokrat ədəbiyyatın formalaşmasında və onun görkəmli nümayəndələrinin yetişməsində qəzetin tarixi xidmətləri olmuşdur. Qəzet bütün nəşri boyu M.-nin irsindən bəhrələnmiş, ədibin hekayə və felyetonlarına səhifələrində geniş yer vermişdir. Qəzetdə, habelə, "Molla Nəsrəddin" məktəbinə, onun ayrı-ayrı nümayəndələrinin yaradıcılığına həsr edilən məqalələr də dərc olunurdu.

1946 ilin dekabrında bağlanan qəzet nəşrini 1947 ildən 1992 ilədək ölkədən xaricdə davam etdirib.

"AZƏRBAYCAN" – aylıq ədəbi-bədii və ictimai-siyasi jurnal. 1923 ildən Bakıda nəşr olunur. Azərb. Yazıçılar Birliyinin orqanıdır. Müxtəlif vaxtlarda "Maarif və mədəniyyət" (1923-1927), "İnqilab və mədəniyyət" (1928-1936; 1946-1952), "Revolyusiya və kultura" (1936-1941), "Vətən uğrunda" (1941-1946) adı ilə nəşr edilmişdir. 1953 ildən "A." adı ilə çıxır. Azərb. yazıçılarının yeni əsərlərindən çoxu ilk dəfə bu jurnalda dərc olunur. Jurnalın səhifələrində klassik Azərb. ədəbiyyatına da yer verilir. M.-nin və digər mollanəsrəddinçilərin bir sıra əsərləri, həmçinin onlar haqqında ədəbi-tənqidi, elmi-tədqiqat və publisistika materialları əsasən "A." jurnalında dərc olunmuşdur.

"AZƏRBAYCAN" – 1952 ilin aprelindən Ankarada Azərb. kültür dərnəyi tərəfindən nəşr olunan jurnal. İlk red. M.Ə.Rəsulzadə, sonralar Ə.Yataş, M.B.Məmmədzadə, Ə.V.Yurdsevər, K.Öndər, M.Kəngərli və b. olmuşlar. Hazırda iki aydan bir çıxır, imtiyaz sahibi Cəlil Ünal, baş yazarı Əhməd Qaracadır. 46 il müddətində 318 nömrəsi çıxmışdır. İstiqlal məfkurəsi, Azərbaycanın müstəqilliyi, ictimai-siyasi, fəlsəfi, ədəbi, mədəni tariximiz, siyasi mühacirət həyatı, türk və islam dünyasında vəziyyət, vətənin hər iki hissəsində cərəyan edən hadisələr və s. jurnalın diqqət verdiyi mühüm mövzulardır. "A." jurnalında "Molla Nəsrəddin" və M. yaradıcılığına xüsusi diqqət verilir. 1956 il 2-3 saylarında "Molla Nəsrəddin"in nəşrinin 50 illiyinə həsr olunmuş xüsusi məqalə dərc olunmuşdu. Məqalənin müəllifi M.B.Məmmədzadə M.-ni "Qərbi Avropa mədəniyyətindən ilham alan M.F.Axundzadənin hər hansı istibdadı rədd edən liberal-demokratik fikirlərinə və Mirzə Fətəli məktəbinin milli ənənəsinə sadiq" ədəbi şəxsiyyət kimi qiymətləndirir, "Molla Nəsrəddin" jurnalını isə "1906-dan 1921 ilə qədər hürr bir fikir orqanı" adlandırır və yazır: "Cəlil Məmmədquluzadə Bakıya gəldikdən sonra sözün tam mənası ilə aldadılmış olduğunu anlamış və bunu təkrarlamaqdan çəkinməmişdir". M.-nin Təbrizdən çağırılmasını müəllif belə izah edir: "Bolşeviklər "Molla Nəsrəddin" kimi hürr fikirli bir dərginin Cənubi Azərbaycanda intişarına təhəmmül edəməmiş, iğfal yolu ilə onu Bakıya cəlb edərək öz nəzarətlərinə almışlardı".

"AZƏRBAYCAN" – M.-nin publisist məqaləsi. 1917 ildə yazılmış, "Molla Nəsrəddin" jurnalında dərc olunmuşdur (17 noyabr 1917, №24). Bu, M. publisistikasının şah əsəri sayılmağa layiq olan qiymətli nümunədir. "A." məqaləsi milli oyanış və siyasi intibah dövrünün həqiqi manifesti, M.-nin məsləki və sənət məramının açıq-aşkar bəyannaməsidir. "A." məqaləsi Azərb. xalqının yeni əsrin başlanğıcındakı, müstəqil demokratik cümhu-



Azərbaycan Ədəbiyyatı Muzeyi.

riyyət quruculuğu ərəfəsindəki ümummilli vəzifələrinin publisist tərcümanı, carçısı, vətəndaşlıq harayının ifadəsidir: "Vətən, vətən, vətən! Dil, dil, dil! Millət, millət, millət!.. Dəxi bu dairələrdən kənar bəni-noi-bəşər üçün özgə nicat yolu yoxdur". Məqalə Azərb. ədəbiyyatında milli-mənəvi özünüdərketməyə, özünəqayıdışa çağırışın ən qüvvətli bədii-publisist əkssədası, sənət dili ilə ifadə olunmuş ən kəskin həyəcan təbilidir. O, Azərb. məmləkəti coğrafiyasının vətəndaş, ədib M.-nin mahir qələmi ilə çəkilmiş nadir publisist xəritəsidir. Məqalədəki aşağıdakı publisist parça hər bir azərb. üçün ibrətamiz dərsdir:

"Bəzi vaxt otururam və papağımı qabağıma qoyub fikrə gedirəm, xəyalata cumuram. Özümdən soruşuram ki:

– Mənim anam kimdir?

Öz-özümə də cavab verirəm ki:

– Mənim anam rəhmətlik Zəhrabanu bacı idi.

– Dilim nə dilidir?

– Azərbaycan dilidir.

– Yəni vətənim haradır?

– Azərbaycan vilayətidir.

Demək, çünki dilimin adı türk-Azərbaycan dilidir, belə məlum olur ki, vətənim də Azərbaycan vilayətidir.

– Haradır Azərbaycan?

– Azərbaycanın çox hissəsi İrandadır ki, mərkəzi ibarət olsun Təbriz şəhərindən. Qalan hissələri də Gilandan tutmuş qədim Rusiya hökuməti ilə Osmanlı hökuməti daxilindədir".

Məqalə tariximizin müxtəlif mərhələlərində Azərb.-a "rəhbərlik" etmiş, "beşikdə yad millətlərin südünü əmmiş, vətənimizdən yadırğamış və millətimizin ruhundan xəbərsiz bir para millət başçılarımıza" ciddi və düşündürücü ittihamnamə və xəbərdarlıqdır. O, Azərb.-ın bütövlüyü haqqında bədii-publisist himn kimi səslənir.

"AZƏRBAYCAN ARXİVİ" – məcmuə. Azərb. Resp. Nazirlər Kabineti yanında Baş Arxiv İdarəsinin orqanı. 1959 ildən çıxır. Jurnalın səhifələrində M. və "Molla Nəsrəddin" jurnalı ilə bağlı çoxlu tarixi sənədlər və məlumatlar çap olunmuşdur. Jurnalın 1971 il 1-ci sayında dərc olunmuş keçmiş Qafqaz canişinliyində və Çar Rusiyasının Qafqazdakı rəsmi dövlət idarələrində M.-nin jurnalistlik fəaliyyətinə başlamasının ilk dövrlərini əks etdirən sənədlər – "Molla Nəsrəddin" jurnalının nəşrinə icazə almaq üçün verdiyi ərizə, jurnalın nəşrinə icazə verilməsi haqqında şəhadətnamə, jurnalın nəşr olunması, səhifələrində kəskin materiallar verdiyi üçün onun təqibi, bağlanması, red.-larının məhkəmə məsuliyyətinə cəlb edilməsi, cərimə olunması, jurnalın müdafiəsi ilə əlaqədar oxucuların Qafqaz canişininə, digər hakimiyyət orqanlarına məktub və teleqramları və s. dərc olunmuşdur. Jurnalın 1980 il 1-ci sayında və b. saylarında dərc

olunmuş sənəd və materiallarda da M. və "Molla Nəsrəddin" jurnalı haqqında məlumatlar vardır.

AZƏRBAYCAN ƏDƏBİYYATI MUZEYİ, Azərb. Resp. MEA Nizami ad. Azərbaycan Dövlət Ədəbiyyatı Muzeyi – 1945 ildə Bakıda Nizaminin həyat və yaradıcılığını əks etdirən muzey kimi yaradılmışdır. 24 otaqdan ibarət muzeyin zallarında Azərb. ədəbiyyatının ən qədim zamanlardan müasir dövrədək inkişaf yolunu əks etdirən ədəbiyyatımızla bağlı zəngin materiallar, nadir əlyazmaları, klassiklərimizin əsərlərinə çəkilmiş illüstrasiyalar, miniatürlər və s. nümayiş olunur. Muzeydə görkəmli ədib və şairlərimizin, o cümlədən M.-nin də şəxsi əşyaları qorunub saxlanılır.

Muzey, həmçinin elmi-tədqiqat in-tudur. Burada elmi işlər aparılır, elmi konfranslar, seminarlar keçirilir, kitablar (o cümlədən M.-nin fondunun kataloqu) nəşr edilir.

AZƏRBAYCAN DÖVLƏT NƏŞRİYYATI, Azərnəşr – resp.-nın nəşriyyatlarından biri. 1924 ildə Azərb. Xalq Maarif Komissarlığının nəşriyyat şöbəsi əsasında təsis edilmişdir. Fəaliyyətinin ilk illərindən M.-nin əsərlərinin nəşri onun diqqət mərkəzində olmuşdur. Burada M.-nin komediyalarından və hekayələrindən ibarət ikicildlik "Əsərləri" (1936), "Bəlkə də qaytardılar" (hekayələr, 1927, 1928), "Ölülər" (1935), "Danabaş kəndinin əhvalatları" (1936), "Dəli yığıncağı" (1937, 1938), "Hekayələr" (1937) kitabları, sonrakı illərdə M.-nin və müasirlərinin əsərləri, Həmidə xanım Məmmədquluzadənin "Mirzə Cəlil haqqında xatirələrim" (1967, 1981), N.Axundovun "Molla Nəsrəddin" jurnalının nəşri tarixi" (1959) kitabları kütləvi tirajla çap edilmişdir. Ə.Mirəhmədovun və T.Həsənzadənin tərtib, birincinin redaktə etdiyi və müqəddimə yazdığı M.-nin 6 cildlik külliyyatı da A.D.N.-nın məhsuludur (c. 1-6, 1983-1985). Üzərində M.-nin şəkli, içərisində onun 6 cildlik "Əsərləri" haqqında məlumat verilmiş buklet (1985), "C.Məmmədquluzadə təxminən 1929-1930 illərdə" adlı 16 səhifəlik foto-albom və s. də burada çap olunmuşdur.

AZƏRBAYCAN YAZIÇILAR BİRLİYİ – könüllü ictimai təşkilat, Azərb. yazıçılarının yaradıcılıq birliyi. 1932 ildən Azərb. Yazıçılar Cəmiyyəti adı ilə yaradılmış bu təşkilat milli ədəbiyyatımızın inkişafı yolunda çalışan şair, nasir, dramaturq, tənqidçi və ədəbiyyatşünasları birləşdirir. Onun strukturuna poeziya, nəsr, dramaturgiya, tənqid bölmələri daxildir. Birliyə ümumi yığıncaq, yaxud plenumda seçilən sədr və müavinləri, sonralar həm də təftiş komissiyası rəhbərlik etmişlər. İlk sədri Ə.Haqverdiyev, sonralar T.Şahbazi, S.Şamilov, S.Rəhimov, S.Vurğun, İ.Qasımov, M.İbrahimov, M.Hüseyn, İ.Şıxlı olmuşdur. Hazırda ona 1991 ildən sədr seçilmiş Anar Rzayev rəhbərlik etməkdədir. Fəaliyyətinin bütün dövrlərində A.Y.B. milli mənəvi sərvətimizə, klassik ədəbi irsimizə və onu yaradanlara məhəbbət, hörmət və ehtiram bəsləmiş, bu məsələdə yanlış, yaxud aşkar səhv yol götürən üzvlərin doğru yol tutmalarına çalışmışdır. İttifaq və Birlik üzvlərindən qayğı, kömək və məhəbbət görmüş yazıçılar sırasında M. şərəfli yerlərdən birini tutmuşdur.

M.-nin bütün yubileylərinin ümumxalq bayramı kimi keçməsi üçün A.Y.B. tədbirlər görmüşdür. Böyük sənətkarın anadan olmasının 130 illik yubileyinə A.Y.B. yazıçıların yeni əsərləri, kitabları, publisist məqalələri, teatr tamaşaları, kinossenariləri ilə gəlmişdir.

AZƏRBAYCAN MƏDƏNİYYƏTİNİN DOSTLARI FONDU – mədəniyyət və təhsil sahələrində fəaliyyət göstərən xeyriyyə fondu. 1995 ildə yaradılmışdır. Prezidenti YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevadır. Fondun təşkilatçılığı C.M. ilə bağlı bir sıra mədəni layihələr gerçəkləşdirmişdir.

Fond "Azərbaycan-İrs" adlı jurnal nəşr edir. 1996 ildən üç dildə (azərbaycanca, rusca və ingiliscə) çap olunan jurnal Azərb. mədəniyyətinin, o cümlədən C.M. irsinin təbliği və beynəlxalq ictimaiyyətə çatdırılması yolunda mühüm nailiyyətlər qazanmışdır.

AZƏRBAYCAN MƏRKƏZİ İCRAİYYƏ KOMİTƏSİ – 1921-1938 illərdə Azərb.-da dövlət hakimiyyətinin ali qanunverici, sərəncamverici və nəzarətedici orqanı. Azərb. SSR MİK-nin ilk tərkibi 1921 ilin mayında, I Ümumazərbaycan Sovetlər qurultayında seçilmişdir. MİK respublikada dövlət və hökumət orqanlarının fəaliyyətinə ümumi rəhbərlik

Azərbaycan Milli Akademik Dram Teatrının binası.

edir, dekret və qərarlar verir, irəli sürülmüş qanun layihələrinə baxıb təsdiq edirdi. Respublikanın siyasi və ictimai həyatının ümumi normaları, dövlət büdcəsi və s. MİK-də müzakirə və təsdiq olunurdu. 1927 ilin martında keçirilən V Ümumazərbaycan Sovetlər qurultayında M. Azərb. MİK üzvlüyünə namizəd seçilmişdi. O, MİK-in həmin ilin sentyabrındakı 5-ci çağırış II sessiyasında və 1928 ilin mayında Xankəndində keçirilən 5-ci çağırış III sessiyasında çıxış etmiş, "Ümumi ibtidai təhsil komissiyasının" tərkibində çalışmışdır. 1925 ildə isə M. latın əlifbasının təbliği və bu əlifbaya keçid imkanlarını öyrənmək məqsədilə Azərb. MİK sədri S.Ağamalıoğlu ilə birlikdə Krımda, Orta Asiyada və Volqaboyunda olmuşdur.

AZƏRBAYCAN MİLLİ AKADEMİK DRAM TEATRI, ADT – respublikamızda ən böyük dram teatrı. Bakıdadır. ADT-nın tarixi 1873 il martın 10-u və aprelin 17-də H.Zərdabinin təşəbbüsü, N.Vəzirov və Ə.Adıgözəlovun fəal iştirakı ilə Bakıda tamaşası hazırlanmış "Lən-

"Ölülər" pyesindən səhnə.

kəran xanının vəziri" və "Hacı Qara" (M.F.Axundov) komediyalarının tamaşaları ilə başlanır. 1880-1890 illərdə C.Zeynalovun ev tamaşaları, "rus-müsəlman" məktəbinin müəllimləri H.Mahmudbəyovun, S.M.Qənizadə və həvəskar N.Vəliyevin yaratdığı və N.Nərimanovun, S.S.Axundovun yaxından iştirak etdiyi truppa Azərb. teatr sənətinin inkişafında mühüm rol oynamışdır. 1900 ildə həmin truppalar əsasında Ə.Haqverdiyevin rejissorluq etdiyi ilk daimi teatr truppası yaranmışdır. 1905-1907 il inqilabı Azərb.-da teatrın mütərəqqi, demokratik, realist və romantik istiqamətdə inkişafına təkan verdi. "Həmiyyət" truppası, "Balaxanı dram dərnəyi", "Nicat", "Səfa" mədəni-maarif cəmiyyətləri yarandı. "Nicat" cəmiyyəti nəzdində teatr bölməsinin təşkili (1906), qabaqcıl teatr xadimlərinin bir truppada birləşdirilməsi milli teatr sənətinin inkişafına müsbət təsir göstərdi. C.Zeynalov, H.Ərəblinski, Ə.Vəli, M.Əlvəndi, M.Hacınski, M.Əliyev, S.Ruhulla, M.Kazımovski, H.Sarabski, M.Muradov, R.Rüstəmbəyov və b. bacarıqlı aktyorların birləşdiyi bu truppada milli dramaturgiyamızın, eləcə də rus və Qərbi Avropa dramaturgiyasının ən yaxşı əsərləri, o cümlədən "Müfəttiş" (1906, N.V.Qoqol), "Qaçaqlar" (1907, F.Şiller), "Əlmənsur" (1907, H.Heyne), "Zorən təbib" (1907, J.B.Molyer), "Ağa Məhəmməd şah Qacar" (1907, Ə.Haqverdiyev), "Nadir şah" (1907, N.Nərimanov), "Yağışdan çıxdıq, yağmura düşdük" (1908, N.Vəzirov), "Otello" (1910, V.Şekspir) pyesləri tamaşaya qoyuldu. 1917 ildə Bakıda "Müsəlman artistləri ittifaqı" yaradıldı. A.Şərifzadənin rəhbərlik etdiyi bu ittifaqda dövrünün ən yaxşı aktyorları birləşərək repertuarı yeni-yeni əsərlər hesabına zənginləşdirdilər. Azərb. XKS-nin 1920 il 1 iyul tarixli qərarı ilə Bakıda Birləşmiş Dövlət Teatrı yaradıldı. 1922 ildə Azərb. Dram truppası Birləşmiş Dövlət Teatrından ayrılıb müstəqil teatr kimi fəaliyyətə başladı. 1922 il yanvar ayının 17-də M.F.Axundovun "Hacı Qara" komediyasının ilk tamaşası oldu. Həmin vaxtdan 1929 ilə kimi teatr Akademik Dram Teatrı adını daşıdı, 1929 ildən 1935 ilədək Bədaye Teatrı adı ilə fəaliyyət göstərdi, 1935 ildən 1950 ilədək Dram Teatrı adlandı. 1950 ildən sonra isə yenə Azərbaycan Dövlət Akademik Dram Teatrı adını daşıdı. 1883 ildən 1958 ilədək teatr öz tamaşalarını H.Z.Tağıyev teatrı binasında göstərmişdir; 1958 ildən isə teatr üçün xüsusi olaraq tikilmiş binaya (memarlar Q.Əlizadə və M.Mədətov) köçdü.

M.-nin "Ölülər" pyesi 1916 il aprel ayının 30-da tamaşaya qoyuldu (rej. H.Ərəblinski, Şeyx Nəsrullah – Ə.Qəmküsar, İsgəndər – M.Əliyev). 1917 ilin aprelində, 1919 ilin mayında və 1920 ilin fevralında "Ölülər" A.Şərifzadənin rej.-luğu ilə tamaşaya qoyuldu (Şeyx Nəsrullah – Məmmədəli Sidqi, İsgəndər – A.Şərifzadə, Məşədi Oruc – M.Sənani). 1922 il mayın 11-də, 1923 il yanvarın 15-də M.-nin "Anamın kitabı" əsərini də A.Şərifzadə tamaşaya qoydu (Səməd Vahid – K.Ziya, Məmmədəli – İ.Talıblı, Aslan bəy – S.Səlimbəyov, Gülbahar – Y.Olenskaya). Həmin il noyabr ayının 14-də "Ölülər" yenidən tamaşaçılara göstərildi (rej. və Hacı Həsən ağa – A.Şərifzadə. Şeyx Nəsrullah – R.Darablı, İsgəndər – Ə.Hüseynov). "Ölülər" 1924 il dekabr ayının 1-də rej. A.A.Tuqanovun quruluşunda oynanıldı (Şeyx Nəsrullah – Ə.Hüseynzadə, Hacı Həsən ağa – M.Atəmələibəyov, Şeyx Əhməd – M.Muradov). 1926 il noyabr ayının 26-da göstərilən "Ölülər" tamaşasında (rej. A.A.Tuqanov, Şeyx Nəsrullah – H.Abbasov, İsgəndər – M.Əliyev, Şeyx Əhməd – M.Mərdanov) bacarıqla çıxış etdilər. 1933 il fevralın 16-da "Ölülər" R.Darablı ilə İ.Hidayətzadənin quruluşunda oynanıldı (Şeyx Nəsrullah – İ.Hidayətzadə və A.Rzayev; İsgəndər – Ü.Rəcəb və S.Tağızadə). 1939 ilin mayında "Ölülər"i Ş.Bədəlbəyli səhnəyə çıxartdı (Şeyx Nəsrullah – K.Ziya, İsgəndər – A.Gəraybəyli). Rej. T.Kazımovun quruluşunda "Ölülər" 1966 il noyabr ayının 12-də tamaşaçılara göstərildi (Şeyx Nəsrullah – M.Dadaşov, İsgəndər – H.Turabov). 1977 ilin may ayında rej. M.Məmmədov M.-nin "Dəli yığıncağı" əsərini tamaşaya qoydu. Əsas rollarda S.Rzayev (Fazil Küleyni), H.Xanızadə (Molla Abbas), Ş.Məmmədova (Pırpız Sona), M.Şeyxzamanov (Həzrət Əşrəf) və b. çıxış etdilər.

Yazıçı Anarın M.-yə həsr etdiyi "Sizi deyib gəlmişəm" pyesi rej. M.Fərzəlibəyovun quruluşunda, rəssam S.Haqverdiyevanın bədii tərtibatı ilə oynanıldı. Rollarda H.Turabov və Ə.Qədirov (Cəlil Məm-

Azərbaycan Opera və
Balet Teatrının binası.

mədquluzadə), S.Rzayev (Xudayar bəy), V.Fətullayeva (Zeynəb), H.İsmayılov (Məmmədhəsən əmi), M.Avşarov (Kərbəlayı Cəfər) və b. çıxış etdilər. 1994 ildə H.Əbluc M.-nin "Anamın kitabı" əsərini tamaşaya qoydu. Əsas rollarda S.İbrahimova (Zəhrabəyim), R.Əzimov (Rüstəm bəy), Ə.Nurzadə və İ.Əsgərov (Mirzə Məhəmmədəli), Ə.Həmidov (Səməd Vahid), S.Xəlilova və İ.Həsənova (Zivər xanım), B.Cəfərova və L.Mustafayeva (Gülbahar) və b. çıxış etdilər.

AZƏRBAYCAN OPERA VƏ BALET TEATRI, Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı – resp.-nın ən böyük musiqili teatrı. Bakıdadır. Azərb. milli opera teatrının tarixi Ü.Hacıbəyovun 1908 il yanvarın 12 (25)-də tamaşaya qoyulmuş "Leyli və Məcnun" operasından başlanır. XX əsrin əvvəllərində Ü.Hacıbəyovun "Şeyx Sənan" (1909), "Rüstəm və Söhrab" (1910), "Şah Abbas və Xurşidbanu" (1911), "Əsli və Kərəm" (1912), Z.Hacıbəyovun "Aşıq Qərib" (1916), M.Maqomayevin "Şah İsmayıl" (1919) operaları tamaşaya qoyulmuşdur. Bu tamaşaların hazırlanmasında Ü.Hacıbəyov, M.Maqomayev, rej. H.Ərəblinski, aktyor-müğənnilərdən H.Sarabski, H.Terequlov, Ə.Ağdamski, M.Əliyev, tarzən Q.Pirimovun böyük xidməti olmuşdur.

Azərb.-da Sovet hakimiyyəti qurulduqdan sonra Azərb. SSR XKS-nin 1 iyul 1920 il tarixli qərarı ilə Birləşmiş Dövlət Teatrı yaradıldı. 1924 ildən opera truppası bu teatrdan ayrılaraq müstəqil opera və balet teatrı (Azərb. və rus bölmələri ilə) oldu. 1959 ildən Akademik Opera və Balet Teatrı adlanır. Teatr inqilabdan əvvəlki tamaşaları təkmilləşdirməklə yanaşı, yeni milli operalar yaradılması sahəsində də çalışır, repertuarı ənənəvi klassik və müasir opera tamaşaları ilə zənginləşdirir. 1963 ildə bəstəkar V.Adıgözəlovun tamaşaya qoyulan "Ölülər" operası da bu qəbildən olub, teatrın yaradıcılıq uğurlarındandır (libretto müəllifləri F.Mehdiyev və C.Hilaloğlu, şeirlərin müəllifi A.Aslanov, rej. Ş.Bədəlbəyli, İsgəndər – L.İmanov, Şeyx Nəsrullah – A.Bünyadzadə, Şeyx Əhməd – F.Mehdiyev).

AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT ARXİVİ – 1930 ildə Mərkəzi Dövlət Arxivinin İnqilab tarixi şöbəsi əsasında yaradılmışdır. Arxivdə 1917 ildən bəri Azərb. tarixini özündə əks etdirən sənədlər saxlanılır. Arxivdə mühafizə olunan Azərb. Mərkəzi İcraiyyə Komitəsi (Az.MİK), Azərb. SSR Xalq Komissarları Soveti (XKS), Azərb. SSR Xalq Maarif Komissarlığı (XMK) və digər idarələrin arxiv fondlarında M.-nin həyat və fəaliyyəti ilə bağlı çoxlu sənədlər vardır. Onların arasında M.-nin 1907 ildə Şuşa qəzasının Kəhrizli kəndində Həmidə xanım tərəfindən təşkil edilmiş xalq məktəbinin yanındakı dağıdılmış kitabxananın yenidən bərpa edilməsi haqqında Xalq Maarif Komissarlığına 1921 il 2 iyul tarixli məktubu və bu haqda Xalq Maarif komissarı D.Bünyadzadənin göstərişi, Sovet hakimiyyəti illərində "Molla Nəsrəddin" jurnalının nəşri ilə bağlı materiallar, Az. MİK-in üzvlüyünə namizəd kimi öz əli ilə doldurduğu anket, Az.MİK-in üzvlüyünə namizəd kimi Azərb.-ın müxtəlif şəhərlərində (Bakı, Lənkəran, Xankəndi) keçirilmiş sessiyalarda iştirakı və çıxışlarına aid materiallar, Az.MİK yanında Yeni Əlifba komitəsinin üzvü təyin edilməsi, həmin komitənin üzvü kimi MİK-in sədri S.Ağamalı oğlunun başçılıq etdiyi nümayəndə heyəti ilə birlikdə yeni əlifbanı təbliğ

üçün Krıma, Volqaboyuna və Orta Asiya respublikalarına ezam edilməsi haqqında rəsmi sənədlər; təqaüd təyin edilməsi haqqında 1928 ilin martında Xalq İctimai Təminat Komissarlığına ərizəsi, bu haqda yazışmalar və fərdi təqaüd təyin edilməsi haqqında Azərb. SSR XKS-in 1928 il 4 aprel tarixli qərarı, "Molla Nəsrəddin" jurnalının nəşrə başlamasının 25 illiyinin tamam olması haqqında 1931 il fevralın 3-də Az.MİK-ə yazdığı məktubu; ədəbiyyat, teatr işi və s. sahələrdə yaradılan müxtəlif komissiyalara üzv olması və onlardakı fəaliyyəti haqqında məlumatlar, "Yeni yol" qəzeti nəşrinin onilliyi münasibətilə onun ilk red. M.-nin adının Bakı məktəblərindən və küçələrindən birinə verilməsi haqqında Az.MİK Rəyasət Heyətinin 1929 il 13 oktyabr tarixli qərarı və b. sənədlər saxlanılır. Arxivdə, habelə, M.-nin ömür-gün yoldaşı, məsləkdaşı Həmidə xanımın əmlakı müsadirə olunmaqla sürgün edilməsi haqqında sənədlər də vardır.

AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT ƏDƏBİYYAT VƏ İNCƏSƏNƏT ARXİVİ, S.Mümtaz ad. – Respublika Nazirlər Sovetinin 1965 il 17 iyul tarixli qərarı ilə yaradılmış, 1966 ilin yanvarından fəaliyyətə başlamışdır. 1996 ildə arxivə Salman Mümtazın adı verilmişdir. Hazırda arxivdə 700-dən çox ədəbiyyat və incəsənət xadiminin şəxsi və 40-dan yuxarı idarə fondu qorunub saxlanılır. Bu fondlarda M.-nin özünə, "Molla Nəsrəddin" jurnalına, mollanəsrəddinçilərə aid çoxlu sənədlər, "Molla Nəsrəddin" jurnalının tam komplektləri, Mirzə Cəlil, onun məsləkdaşları, ailə üzvlərinə aid çoxlu məktublar, məqalələr, monoqrafiyalar, xatirələr, fotoşəkillər və s. vardır. Bu sənədlər arasında Mirzə Cəlilin Qurbanəli Şərifova və onun oğlu Əziz Şərifə yazdığı məktubların avtoqraflarını xüsusilə qeyd etmək lazımdır. Arxivdə M.-nin əsərlərinin nəşrini, səhnə təcəssümünü əks etdirən çoxlu sənədlər, fotoşəkillər, afişalar, proqramlar və s., habelə M.-nin Qori müəllimlər seminariyasında oxumasına aid Gürcüstan Maarif Muzeyində saxlanılan sənədlərin mikrofoto surətləri də vardır.

AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT KİNO-FOTO SƏNƏDLƏRİ ARXİVİ – 1930 ildə Oktyabr İnqilabı Arxivinin foto-kino şöbəsi kimi yaradılmış, 1943 ildə isə müstəqil dövlət arxivinə çevrilmişdir. Xalqımızın ictimai, siyasi və mədəni həyatının salnaməsinin kino və foto səhifələrini əks etdirən bu arxivdə M.-nin həyat və fəaliyyətini, onun əsərlərinin səhnə təcəssümünü əks etdirən çoxlu foto və kino sənədləri də qorunub saxlanılır. Arxivdəki fotoşəkillər arasında Mirzə Cəlilin fərdi, ailə üzvləri, qələm yoldaşları və məslək dostları ilə birlikdə fotoşəkilləri və s. vardır. Arxivdə M.-nin həyat və fəaliyyəti haqqındakı sənədli kino-filmin, ədibin anadan olmasının 100 illik yubileyi ilə əlaqədar keçirilmiş təntənəli gecənin, "Molla Nəsrəddin" jurnalının müxtəlif yubileyləri münasibətilə keçirilmiş gecələrin kino lentləri saxlanılır. Arxivdə habelə görkəmli səhnə xadimlərinin ifasında M.-nin müxtəlif əsərlərinin tamaşalarından ayrı-ayrı səhnələri əks etdirən kino lentləri də vardır.

AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT SİYASİ PARTİYALAR VƏ İCTİMAİ HƏRƏKATLAR ARXİVİ – 1991 ildə keçmiş Respublika Partiya Tarixi Arxivinin əsasında yaradılmışdır. Arxivdə resp.-mızın ərazisində fəaliyyət göstərmiş partiyaların, o cümlədən Azərb. KP və onun yerli təşkilatlarının sənədləri qorunub saxlanılır. Arxivdə M. və onun "Molla Nəsrəddin" jurnalının nəşri ilə bağlı çoxlu sənədlər də vardır. Onların arasında "Molla Nəsrəddin" jurnalının Bakıda nəşri ilə bağlı AK(b)P MK Rəyasət heyəti və katibliyinin qərarları, 1926 ilin aprelində İran hökumətinə və xüsusilə Rza şaha qarşı mövqeyini yumşaltmaq barədə jurnalın red.-na xəbərdarlıq edilməsi haqqında AK(b)P MK Rəyasət heyətinin qərarı, ədibin həyat yoldaşı Həmidə xanım Cavanşirin əmlakı müsadirə edilərək özünün sürgün edilməsi haqqında qərarla əlaqədar M.-nin ərizəsi, onun haqqında yazışmalar və ərizənin AK(b)P MK katibliyində müzakirəsi, "Molla Nəsrəddin" jurnalını din əleyhinə "Allahsız" adlı satirik jurnala çevirib, M.-ni red.-luqdan uzaqlaşdıraraq jurnala yeni red. təyin edilməsi və redaksiya heyətinin dəyişdirilməsi haqqında AK(b)P MK katibliyinin 1931 il 14 aprel tarixli qərarı, vəfatı və dəfninin təşkili ilə bağlı AK(b)P MK katibliyinin 1932 il 5 yanvar tarixli qərarı və s. vardır.

M.-nin vəfatı və dəfni ilə əlaqədar qəbul olunmuş qərarda göstərilirdi ki, "mətbuatda onun (M.-nin – *red.*) ədəbiyyat, din əleyhinə və satira yaradıcılığı sahəsindəki fəaliyyətinin müsbət cəhətlərilə yanaşı, nöqsan cəhətləri də əks etdirilsin". Arxivdə Yeni Əlifba Komitəsində, ədəbiyyat sahəsində təşkil edilmiş komissiyalarda fəaliyyəti və s. haqqında sənədlərdə də M.-yə aid məlumatlar vardır.

AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT TARİX ARXİVİ – 1930 ildə Mərkəzi Dövlət Arxivinin qədim tarix şöbəsi əsasında yaradılmışdır. Arxivdə Azərb. tarixinin 19 əsr və 20 əsrin əvvəllərinə aid sənədlər qorunub saxlanılır. Arxivdə saxlanılan sənədlər arasında M., "Molla Nəsrəddin" jurnalı və mollanəsrəddinçilər haqqında da məlumatlar vardır. 1917 ilin sentyabrında M. məktubla Qafqaz tədris dairəsi komissarlığına müraciət edərək, "Molla Nəsrəddin" jurnalını və özünün ayrıca kitabça şəklində nəşr olunmuş hekayələrini Azərb. məktəblərində oxu vəsaiti kimi yaymağı xahiş edir. Mirzə Cəlilin məktubu, "Molla Nəsrəddin" jurnalını və M.-nin beş hekayəsini ("Poçt qutusu", "Usta Zeynal", "Qurbanəli bəy", "İranda hüriyyət" və s.) məktəb kitabxanaları üçün almaq haqqında Qafqaz Təhsil dairəsi komissarı vəzifəsini ifa edən H.Şahtaxtinskinin sərəncamı arxivdədir. "Molla Nəsrəddin" jurnalının Bakı və Yelizavetpol quberniyalarında yayılması üzərində nəzarət, "Ölülər" əsərinin tamaşaya qoyulmasına icazə verilməsi, habelə, "Molla Nəsrəddin" jurnalının nəşri ilə bağlı Gürcüstan arxivlərində olan sənədlərin mikrofoto surətləri və s. sənədlər də burada saxlanılır.



Azərbaycan Mıllı Elmlər Akademiyası Rəyasət Heyətinin binası.

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ NİZAMİ ad. ƏDƏBİYYAT İNSTİTUTU – Azərb.-da ədəbiyyatşünaslığın elmi mərkəzi. 1932 ildən SSRİ EA Zaqafqaziya Filialının Azərb. şöbəsində, 1935 ildən SSRİ EA Azərb. Filialında fəaliyyət göstərmiş dil və ədəbiyyat şöbələri əsasında 1936 ildə yaradılmışdır. 1945 ilədək Dil və Ədəbiyyat İn-tu, sonra isə Ədəbiyyat İn-tu adlanmışdır (1950-1969 illərdə Dilçilik İn-tu ilə birləşdirilmişdir). Burada ədəbiyyat tarixinin müxtəlif məsələləri, ədəbiyyat nəzəriyyəsi ədəbi proses, klassik və müasir Azərb. şair və yazıçılarının yaradıcılığı tədqiq edilir. İn-t ədəbiyyat tarixinə aid bir sıra fundamental əsərlər çap etdirmişdir. İn-t tərəfindən Azərb. klassiklərinin, o cümlədən M.-nin çoxcildli əsərləri (3 cilddə, 1966-1967; 6 cilddə, 1983-1985 və s.), yaradıcılığı və müasirləri haqqında bir çox kitablar nəşr olunmuşdur. İn-t aspirantura və doktorantura xəttilə (habelə, bu istiqamətlərdə qiyabi yolla) yüksək ixtisaslı alimlər hazırlamaqdadır. Onların bir çoxu Azərb.-da və başqa ölkələrdə işləməkdədirlər.

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ M.FÜZULİ ad. ƏLYAZMALAR İNSTİTUTU – Azərb. və Şərq ölkələrinə aid qədim, nadir əlyazmalar saxlanılan və tədqiq edilən elmi müəssisə. 1924 ildə keçirilən Diyarşünaslıq qurultayında Azərb. əlyazmalarının və qədim çap kitablarının məhv edilməsinin qarşısını almaq və yazılı mənbələrimizi bir yerdə cəmləmək məqsədilə Azərb.-ı Tədqiq və Tətəbbö Cəmiyyəti (Az. TTC) nəzdində xüsusi şöbəsi olan elmi kitabxana yaradılması qərara alınmış, 1929 il oktyabrın 22-də Az. TTC Azərb. Dövlət Elmi-Tədqiqat İn-tuna çevriləndən sonra yazılı irsimizin toplanması işi daha da genişləndirilmişdir. Sonralar bu qurum Azərb. EA Nizami ad. Dil və Ədəbiyyat İn-tunun və Nizami ad. Azərb. Ədəbiyyatı Muzeyinin bir şöbəsi kimi fəaliyyət göstərmişdir. Azərb. SSR Nazirlər Sovetinin 1950 il 12 oktyabr tarixli 1410 №-li qərarı ilə Azərb. SSR EA yanında Resp. Əlyazma-

Azərbaycan Xalq Cümhuriyyətinin üzvləri.

lar Fondu təsis edilmiş, 1986 ildə fondun bazasında Azərb. EA Əlyazmalar İn-tu təşkil edilmişdir. Hazırda in-tun "qızıl fond"unda 12 minə qədər əlyazma kitabı (40 minə yaxın əsər nüsxəsi), 10 mindən artıq qədim çap kitabı, 2700 dövri mətbuat nüsxəsi, təqr. 1000 arxeoqrafik sənəd və b. materiallar saxlanılır. Materialların ümumi sayı 50 mini ötmüşdür. Azərb. xalqının minillik elm və mədəniyyət tarixinə aid əsasən ərəb, fars və türk dillərində yazılmış mənbələr in-t xəzinəsinin əsasını təşkil edir. 19 əsr – 20 əsrin birinci yarısı Azərb. elm və mədəniyyət xadimlərinin 20 minə yaxın şəxsi materialları in-tun kolleksiyasında xüsusi yer tutur. 32 şəxsiyyətin arxivi içərisində Mirzə Cəlilə məxsus materiallar öz zənginliyi ilə diqqəti cəlb edir. M.-nin şəxsi arxivinin bizə gəlib çatmış hissəsi burada mühafizə edilir. 595 materialdan ibarət sənədlər in-ta 1942 ildə verilmişdir.

Sənədlər arasında ədibin əlyazmaları – pyesləri, povest və hekayələri, felyeton və məqalələri, tərcümeyi-hal və xatirələri, şəxsiyyətinə aid materiallar-şəxsi sənəd və vəsiqələri, ərizələri, təliqələri, "Molla Nəsrəddin" jurnalının nəşri ilə əlaqədar yazıları xüsusi yer tutur, ictimai-publisistik və ədəbi fəaliyyətini öyrənmək üçün dəyərli mənbə təşkil edir. Ailə sənədləri, Həmidə xanımın xatirələri, məktubları, yazışmaları və s. xüsusi fondda qorunur.

AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ – 1918 il mayın 28-dən 1920 il aprelin 28-dək fəaliyyət göstərmiş müstəqil Azərbaycan dövləti. Milli Şuranın elan etdiyi Misaqi-Milli – İstiqlal Bəyannaməsi ilə qurulmuşdur. Müsəlman Şərqində ilk demokratik respublikadır. Paytaxtı əvvəlcə Gəncə, 1918 ilin sentyabrından isə Bakı idi. 1918 il dekabrın 7-də Azərb. Məclisi-Məbusanı – Parlamenti fəaliyyətə başlamışdır. Hökumətin ilk qərarlarından biri Azərb. türkcəsinin dövlət dili elan edilməsi haqqında idi. Dövlət idarəçiliyi aparatının və ordunun yaradılması, bank-maliyyə fəaliyyəti və mədəni quruculuq sahələrində bir sıra işlər görülmüşdür. Xarici təzyiqlərə və daxili çətinliklərə baxmayaraq bu dövrdə ölkədə milli ruh güclənmiş, ədəbiyyatda vətənpərvərlik və milli təəssübkeşlik hissləri nəzərə çarpacaq dərəcədə artmışdır. Bir sıra tanınmış ziyalılar AXC ilə tərəddüdsüz əməkdaşlıq yolunu tutmuşdular. 1920 il yanvarın 12-də Versal konfransı Azərb.-ın müstəqilliyini de-fakto tanısa da, həmin ilin aprelindəki bolşevik işğalı nəticəsində bu müstəqilliyə zorakı yolla son qoyulmuşdur.

AXC hakimiyyəti dövründə M. əsasən Qarabağda – Şuşa, Kəhrizli və Ağdamda yaşamış, burada bir tərəfdən etnik zəmində baş verən münaqişələrin qarşısını almağa çalışmış, həmçinin Həmidə xanımla birlikdə əhalinin kasıb təbəqələrinə, xüsusən, qaçqınlara maddi və mənəvi

yardım göstərmək işlərində fəal iştirak etmişdir. Ədibin yaradıcılığında xüsusi yer tutan "Kamançа" (1919) və "Anamın kitabı" (1920) pyesləri bu dövrdə yaranmışdır. Xüsusilə, ikinci əsərdə yenicə milli dövlətini quran Azərb.-ın üzləşdiyi mənəvi-ideoloji çətinliklər öz dolğun bədii əksini tapmışdır. M. Cümhuriyyətin bir sıra liderlərini, xüsusən, M.Ə.Rəsulzadəni yaxşı tanıyırdı. Təsadüfi deyil ki, "Molla Nəsrəddin" ədəbi məktəbinin Ə.Haqverdiyev, R.Nəcəfov, Ö.F.Nemanzadə kimi nümayəndələri yeni milli hökumətlə əməkdaşlıq yolunu tutaraq, müxtəlif məsul vəzifələrdə təmsil olunmuşdular. M.-nin AXC hökuməti ilə əməkdaşlığını, onun 1919 il iyunun 18-də Həmidə xanımla birlikdə hökumətə göndərdiyi teleqram təsdiq edir. Həmin teleqramda onlar Kür və Araz çaylarını keçmiş Gavur arx vasitəsilə birləşdirməklə 1,5 mln. desyatin torpağı suvarmaq və bununla da, 50000 qaçqının güzəranını yaxşılaşdırmaq ideyasını irəli sürür, bu məqsədlə Ə.Cavanşirdən qalan bütün layihələri və smeta sənədlərini hökumətə təqdim etməyə hazır olduqlarını bildirirdilər. "Əziz vətənə olan məhəbbətimiz naminə biz də öz səsimizi bu vacib və gecikdirilməsi rəva olmayan məsələnin tezliklə həll edilməsinə qoşuruq" – sözləri ilə M. əslində, milli hökumətə öz münasibətini ifadə etmişdir.

AZƏRBAYCANI TƏDQİQ VƏ TƏTƏBBÖ CƏMİYYƏTİ, ATTC – Azərb.-ın təbii sərvətlərini, iqtisadiyyatını, fəlsəfəsini, incəsənətini və s. öyrənən cəmiyyət. Azərb.-nın ilk elmi-tədqiqat müəssisəsi kimi N.Nərimanovun təşəbbüsü ilə 1923 ildə yaradılmışdır. Cəmiyyətə M.-nin məslək dostu, SSRİ EA Diyarşünaslıq Bürosunun müxbir üzvü Ə.Haqverdiyev rəhbərlik edirdi. ATTC-nin tarix-etnoqrafiya, iqtisadiyyat, təbiətşünaslıq və türkologiya bölmələrinin min nəfərdən çox üzvü var idi. 1923-1928 illərdə ATTC-nin fəal yardımı ilə Azərb. tarixinə, dilinə, mədəniyyətinə, arxeologiyasına və s. həsr edilmiş 50-dən çox kitab və kitabça buraxılmışdı. Xalq Maarif Komissarlığının 2 yanvar 1924 il qərarı ilə M. cəmiyyətin həqiqi üzvü təyin olunmuşdu. O, ATTC-nin 1924 ildə Bakıda keçirilən I Ümumazərb. ölkəşünaslıq qurultayında iştirak etmişdi. 1929 ildə ATTC-nin bazasında Azərb. Dövlət Elmi Tədqiqat İn-tu yaradılmışdı. ATTC 1945 ildə təsis edilən Azərb. EA-nın əsas nüvəsini təşkil etmişdir.

"AZƏRBAYCANFİLM", C.Cabbarlı ad. "Azərbaycanfilm" kinostudiyası – 1923 ildə yaradılmışdır. Bakıdadır. 1923-1926 illərdə Azərbaycan Foto-Kino İdarəsi (AFKİ), sonralar "Azdövlətkino" (1926-1930), "Azərkino" (1930-1933), "Azfilm" (1933), "Azdövlətkinosənayesi" (1934), "Azərfilm" (1935-1940), "Bakı kinostudiyası" (1941-1959) adlanmışdır. 1961 ildən indiki adını daşıyır. Hələ əsrin əvvəllərində Azərb.-da tammetrajlı bədii ("Neft və milyonlar səltənətində", 1916, "Arşın mal alan", 1917) və qısametrajlı filmlər çəkilmişdir.

Azərb. kinosunda M.-nin yaradıcılığına ilk dəfə 1931 ildə müraciət olunmuşdur. C.Cabbarlı "Ölülər" əsasında ssenari yazmış, əsərə əlavə obrazlar daxil etmişdi. Lakin film çəkilməmişdir. 1986 ildə Anar öz ssenarisi əsasında M.-nin həyat və yaradıcılığından bəhs edən "Qəm pəncərəsi" bədii filmini çəkmişdir. 1992 ildə rej. T.Tağızadə M.-nin "Ölülər" əsəri əsasında öz ssenarisi ilə "O dünyadan salam" bədii filmini yaratmışdır.

AZƏRİ ƏLİ (1900-1966) – müəllim, yazıçı, həvəskar artist. M.-nin rej.-luğu ilə Təbrizdə səhnəyə qoyulmuş "Ölülər" əsərində Şeyx Nəsrullah rolunu oynamışdır (1921). M. ilə birlikdə Bakıya gəlmiş, burada yaşamış, BDU-nun şərqşünaslıq fakültəsində dərs demişdir. Onun "Yaşıl bir yarpaq" əsəri (Bakı, 1966) M.-nin həyatının Təbriz dövrü haqqında qiymətli mənbələrindəndir.

"AZİATİK REYÜ" – Londonda ingiliscə nəşr olunan jurnal. Şərq xalqlarının, o cümlədən azərb.-ların mədəniyyəti haqqında maraqlı yazılar verirdi. Jurnalın 1931 il 26-cı sayında "Molla Nəsrəddin" jurnalından bəhs olunmuş, M.Ə.Sabirin, Ömər Faiqin və M.-nin fəaliyyətinə dair ətraflı məlumat verilmişdir.

B

BABAYEV Adil Qafar oğlu (1925-1977) – şair, dramaturq, jurnalist, sənətşünas, mütərcim. "Şərqin qapısı" (Naxçıvan), "Sovet Gürcüstanı" (Tiflis), "Kommunist", "İnqilab və mədəniyyət", "Ədəbiyyat və incəsənət" (Bakı) redaksiyalarında 30 ildən artıq fəaliyyət göstərmiş, sonra Yazıçılar İttifaqında bədii tərcümə üzrə məsləhətçi işləmişdir. O, bir sıra görkəmli artist haqqında kitabların müəllifidir. V.Şekspir, V.Vişnevski, N.Dumbadze və b. yazıçılardan çoxlu tərcümə etmişdir. 1970-1977 illərdə ADT-da ədəbi hissə müdiri işləyən B.-in "Ölülər" və "Dəli yığıncağı" pyeslərinin tamaşaya qoyulmasında əməyi var. M.-nin jurnalistlik fəaliyyəti haqqında "Senzora cavab" (1967) adlı şeir yazmışdır.

BABAYEV Əlişdan Məşədi Baba oğlu (1860-1934) – M.-nin dayısı, şair. Naxçıvanda yaşamış, uzun illər M. ilə məktubla əlaqə saxlamış, bir-birindən hal-əhval tutmuşlar. Dayı məktublarında qohum-əqrəba və Naxçıvandakı məişət haqqında bacıoğlusuna xəbərlər yazırdı. B.-in göndərdiyi meyvə tinglərini ədib Kəhrizli bağında əkib yaxşı məhsul yığmışdı. 1926 ildə Naxçıvan və Ordubad tərəflərdəki zəlzələ haqqında qəzet xəbərlərini çox təşvişlə oxuyan ədib B.-ə böyük narahatlıq keçirdiyini bildirirdi.

BABAYEV Vəli Allahverdi oğlu (1945-1989) – rejissor. Azərb. əməkdar art. (1974). Azərb. Teatr İn-tunu (indiki Azərb. Mədəniyyət və İncəsənət Un-ti) bitirmişdir (1966). 1974-1976 illərdə M. Qorki ad. Moskva Akad. Bədaye Teatrında təcrübə keçmişdir. 1966-1989 illərdə C.Məmmədquluzadə ad. Naxçıvan Dövlət Musiqili Dram Teatrında quruluşçu rej. (1974-1982 illərdə baş rej.) işləmiş, M.-nin "Ölülər" (1975, 1981) və "Dəli yığıncağı" (1977) əsərlərini tamaşaya qoymuşdur.

BABAYEV Nurəddin Həsən oğlu (1922-1991) – yazıçı-jurnalist. Filol. e.n., prof., əməkdar mədəniyyət işçisi. ADU-da (indiki BDU) jurnalistika şöbəsinin yaradıcılarından biri, jurnalistika fakültəsinin ilk dekanı, "Elmi əsərlər"in "Jurnalistika" seriyasının ilk məsul red. olmuşdur. "Azərbaycan sovet ədəbiyyatında oçerk janrı" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. 30-a yaxın bədii, publisistik, elmi əsərin müəllifidir. Əsərləri keçmiş sovet respublikalarında, bir sıra xarici ölkələrdə nəşr edilmişdir. "Mübariz janr", "Oçerk sənətkarlığı", "Elə yaz ki..." kitablarında Azərb. demokratik jurnalistikası nümayəndələrinin, o cümlədən M.-nin sənət ənənələrini təbliğ etmişdir.

A.Babayev



N.Babayev

"BABAYİ-ƏMİR" – həftəlik ədəbi və ictimai-siyasi satirik jurnal. 1915 il aprelin 21-dən 1916 il oktyabrın 17-dək Bakıda nəşr edilmişdir. Red. Əlabbas Müznib, naşiri onun qardaşı Əbülfəz Mütəllibоğlu olmuşdur. Cəmi 65 nömrəsi çıxmışdır. "B.-Ə."ə "Molla Nəsrəddin" jurnalının təsiri olmuşdur. 26-31-ci nömrələri üçün Əzim Əzimzadə rəngli rəsmlər çəkmişdir (26-cı nömrəsinədək şəkilsiz çap olunurdu). "B.-Ə." əməkdaşları sırasında M.S.Ordubadi, Əli Nəzmi, Seyid Hüseyn, Ə.Vahid, B.Abbaszadə (Hambal), H.İ.Qasımov və b. vardı. Sələfi "Molla Nəsrəddin" kimi, "B.-Ə."də də felyeton, satirik şeir və s. janrlardan istifadə edilirdi. "B.-Ə." səhifələrində mədəniyyət məsələləri, satqın ziyalılar, dini fanatizm əleyhinə mübarizə və s. mövzularda yazılara, rəsmlərə geniş yer verilirdi. Yazıları əsasən şeirlərdən ibarət idi. "Zərərli istiqamətinə görə" nəşri dayandırılmışdır.

"BAQQAL MƏŞƏDİ RƏHİM" – M.-nin əsəri. 1920-ci illərdə Bakıda yazılmış məzəli və düşündürücü yumoristik hekayədir. Baqqal Məşədi Rəhim Təbrizin "Usta-şəyird" bazarındakı dükanını yığışdırıb Bakıya köçür, dəniz kənarında baqqal dükanı açır və orada Molla əmi ilə görüşür. Şadlığından, məhəbbətin çoxluğundan az qala uşaq kimi ağlamaq istəyən Məşədi tez əl-ayağa düşür, dükanındakı mətadan – alana, anton alması və xurmadan "kağız torbaya" doldurub çəkməyə başlayır. Müəllif yazır: "Söz yox, [...] mən buraya alış-verişə gəlməmişdim"... Bu şeyləri – Mazandaran püstəsini, Gəncə pendirini, Rəşt düyüsünü almağa nə meylim vardı, nə də cibimdə ona görə pulum vardı".

Hekayənin süjeti kimi, üslubu da orijinaldır: Məşədi "o şivə ilə ki, başlamışdı..."; "altıma kürsü qoydu"; "cibimdə yavana da yoxdur"; "mən heç başa düşə bilmirəm ki, bu nə işdir"... Sonluqda hambalın sözləri də məzəlidir: "Molla əmi, maşallah, [...] bu gün qonaqlıq eləyirsən?". Ədib yazır: "Mən burada hambaldan çox utandım [...] səbəbi bu idi ki, köhnə bir türk yazıçısı bu halətdə və bu dəqiqə "bir qarınqulu məşədiyə oxşayırdım. Hekayənin sonu – ədib Məşədi Rəhimə borcunu sonralar iki dəfəyə ödəyir.

Bağırxan

BAĞIROV Quşdan Əmikişi oğlu (1933-1994) – dilşünas alim, filol. e.n. (1967).

Naxçıvan ikiillik müəllimlər in-tunu (1952) və APİ-ni (1960) bitirmişdir. Şahbuz kənd orta məktəbində müəllim (1952-1955), APİ-də metodist (1955-1960), baş müəllim və dosent vəzifələrində işləmişdir. "Azərbaycan dilinin danışıq dili üslubu" monoqrafiyasında M. əsərlərinin dil və üslub xüsusiyyətlərini təhlil etmişdir.

BAĞIROV Məşədi Ələsgər (1868-1943) – naxçıvanlı tacir. 1904 ildə dostu Mirzə Cəlilin məsləhətilə Tiflisə köçmüş, burada maarifpərvər xeyriyyəçi kimi tanınmışdır. Varonsov küçəsindəki dükanında şirniyyatla bərabər, kitab, dəftər, yazı ləvazimatı satmış, pulu olmayan kasıbları məccani yola salmışdır. B.-un dükanı Tiflisdəki azərb. ziyalıların tez-tez gəlib-getdikləri, qızğın söhbət etdikləri bir yer idi. Burada M., Ömər Faiq, Ə.Haqverdiyev, Q.Şərifzadə, E.Sultanov, H.Cavid, Ə.Qəmküsar, R.Nəcəfov da çox olardılar. B.-un M.-yə və Ömər Faiqə "Qeyrət" mətbəəsini almaq üçün böyük məbləğdə borc verdiyi məlumdur. Oğlu Hidayət Bağırov "Bakı" qəzetindəki xatiratında qeyd edir ki, "Molla Nəsrəddin" nəşr olunduğu zaman M. jurnalın hər nömrəsindən bir nüsxə (söz yox ki, pulsuz) atama göndərirmiş. 1932 ildə Bakıya köçdüyümüz zaman da atam "Molla Nəsrəddin"in bir neçə komplektini gətirmişdi..." (14.2.1966). Xatiratda M.-nin bu sözləri misal gətirilir: "Məşədi yoldaşımı hədsiz təşəkkürlə yad edirəm. [...] O qədər ki, maarifə və maarif yolunda xərc qoymağa həvəsi vardı, az bir qeyri məşədidə də bir belə həvəs ola bilər. [...] "Qeyrət" mətbəəsinin möhkəmlənməyi yolunda da və pansionumuzun (1904 ildə Tiflisdə məktəb şagirdləri üçün açdıqları pansionun – *red.*) davamı yolunda da onun xeyli xərci çıxdı və bunlar hamısı onun üçün nəticədə zərərdən başqa bir özgə şey olmadı".

BAĞIRXAN (1861-1916) – Təbriz üsyanının (1908-1909) rəhbərlərindən biri. Yoxsulluq üzündən təhsil ala bilməmiş, az müddət molla yanında oxumuşdur. Uşaqlıqdan bənnalıq etmiş, sonralar dövlət idarələrində maliyyə məmuru (bu çağdan onun adına "xan" sözü əlavə edilmişdir), yüzbaşı vəzifələrində çalışmışdır. Bu vəzifələrdə rastlaşdığı sosial həyatın çətinlikləri onu dövlət idarələrindən uzaqlaşdırmışdır. B. əhali arasında dərin nüfuzuna görə Xiyaban məhəlləsinin məsulu (ağsaqqalı) seçilmiş, 1905-1911 illər məşrutə inqilabının ilk səsləri Təbrizdə də eşidildikdə, o, bir neçə yüz atlı mücahid dəstəsinin başında inqilabda iştirak etmişdir. Təbrizin müdafiəsi zamanı oynadığı mühüm rola görə "Salari milli" kimi şöhrət tapan B. Səttarxanla yaxın dostluq etmişdir. Səttarxan B.-ın təşkilatçılıq və döyüş bacarığını yüksək qiymətləndirirdi. 1910 ildə Səttarxanla Tehrana gedən B. da paytaxtda ev dustağı kimi qalmış, 1916 ildə isə qurulmuş fitnə nəticəsində öldürülmüşdür. M. və "Molla Nəsrəddin" jurnalı Səttarxan hərəkatına dərin rəğbət bəsləyir, məqalələrində hərəkatın rəhbərlərini alqışlayırdı.

BAĞÇABAN (Mirzə Cabbar Əsgərzadənin təxəllüsü) (1885-1965) – müəllim, mollanəsrəddinçi şair, jurnalist, "Molla Nəsrəddin", "Tuti", "Məzəli" və s. jurnallarda "Anaş qurbağa", "Məhkəmə pişiyi", "Hacı Leylək", "Noxtasız" imzaları ilə sa-

Bakı şəhərindən bir görünüş.

tirik şeirlər və məqalələr dərc etdirmişdir. Əsərlərində mövzu, məzmun və üslubca M.-nin, Sabirin və Ə.Nəzminin təsiri hiss olunur. "Molla əmi" şeirini M.-yə həsr etmişdir. 1912 ildə İrəvanda "Lək-lək" satirik jurnalını nəşr etməyə başlamışdır. 1920 ildə İrana köçmüş, 1932 ildə Tehranda karlar və lallar məktəbi, sonralar isə karları və lalları himayə cəmiyyəti yaratmışdır. B. bir çox ədəbi-bədii və elmi əsərin müəllifidir.

BAKI – AZƏRB. RESP.-NIN PAYTAXTI. İri sənaye, elm və mədəniyyət mərkəzi. Mühüm nəql. qovşağı. M. inqilabdan əvvəl dəfələrlə qısa müddətdə burada yaşamışdır. 1916 ildə "Ölülər" pyesinin ilk tamaşası böyük uğurla B.-da H.Z.Tağıyevin teatrında göstərilmişdir. Lakin buna baxmayaraq Mirzə Cəlil B.-da fəaliyyət göstərən ziyalılarla o qədər də yaxın ünsiyyətdə deyildi. "Molla Nəsrəddin" jurnalının nəşrinə başlayarkən M. bilirdi ki, mərkəzi hökumət türkçülük və islamçılıq meyllərindən ehtiyat edərək, B.-da Azərb. dilində qəzet, ya jurnal çıxarmağa icazə vermir, buna ciddi maneələr törədir, qadağalar qoyur. Odur ki, o, "Molla Nəsrəddin"in nəşrinə B.-da deyil, Tiflisdə başladı. M. bu fikirdə idi ki, "Bakıda "Molla Nəsrəddin" yazmaq olmaz". Bununla belə, ədib jurnalın iqtisadi cəhətdən böhran keçirdiyi məqamlarda B.-nın "pul köməkliyinə" ümid bağlayırdı. Hətta M.-nin fikrincə, Birinci Dünya müharibəsinin maliyyə çətinlikləri törətdiyi dövrdə Bakıdan köməklik olmazsa, jurnalı nəşr etmək mümkün olmazdı.

M.-nin B. ilə sıx münasibətləri 1920 ildən sonra başladı. 1921 il aprelin 30-da Ə.Qarayevin adından vurulmuş teleqramla Mirzə Cəlil B.-ya dəvət olunurdu. Teleqramda deyilirdi ki, B.-ya köçməyin bütün xərcləri Azərbaycan İnqilab Komitəsi öz öhdəsinə götürür. Bu teleqramdan sonra qısa müddətdə zəruri hazırlıq işləri aparan M. may ayının 24-də onun görüşünə gəlmiş dörd yüz nəfərə yaxın həmfikri ilə sağollaşdıqdan sonra, Culfa-İrəvan-Tiflis dəmiryolu ilə B.-ya yola düş-

Bakı şəhəri.

Bakının panoramı.

dü. B. ilə bağlı gələcək planlarında M. əvvəldən tanıdığı N.Nərimanov, S.Ağamalıoğlu, R.Axundov və b.-nın qayğı və köməkliyinə ümid bəsləyirdi. 1921 il iyunun 4-də M. böyük ümid və arzularla B.-ya döndü. Lakin rəsmi dəvət olunmasına baxmayaraq B. vağzalında onları heç kəs qarşılamadı. İlk günlər M.-nin ailə üzvləri və onunla birgə B.-ya gəlmiş 8 nəfər cənublu, M.-nin ifadəsilə desək, "qaraçı köçü kimi" bir evin şüşəbəndində yaşayırdı. Nəhayət, M. Azərb. Xalq Komissarları Şurasının sədri N.Nərimanovun qəbuluna getdikdən sonra Poçt (indiki S.Tağızadə) küçəsindəki 64 saylı binada beşotaqlı mənzil alıb, ailəsini, az sonra isə "Molla Nəsrəddin" jurnalı redaksiyasını orada yerləşdirdi. Bununla da, M.-nin həyat və fəaliyyətinin B. dövrü başlandı.

M.-nin B.-ya gəlişi ziyalılar tərəfindən böyük sevinclə qarşılandı. S.S.Axundovun "Molla Nəsrəddin Bakıda" pyesində M.-nin Vətənə dönüşünün ictimai-ədəbi mühitdəki əks-sədası təsvir olunur.

Artıq 1921 il iyunun 27-də M. Xalq Maarif Komissarlığının incəsənət şöbəsinə məsul vəzifəyə dəvət edildi. O, 1921-1928 illərdə B.-nın ictimai-ədəbi mühitində çoxcəhətli və məhsuldar fəaliyyət göstərmişdir. M. Azərb.-ı Tədqiq və Tətəbbö Cəmiyyətinə (1924), Yeni Əlifba Komitəsinə (1924), Mərkəzi İstilah Komissiyonuna (1924), Azərb. mətbuatının 50 illik yubileyini keçirən təşkilat komitəsinə (1926) üzv seçilmiş, Azərb. müəllimlərinin I qurultayında (1925) və Türkoloji qurultayda (1926) yaxından iştirak etmişdir. 1927 ildə M. Azərb.-nın V Sovetlər qurultayında Azərb. Mərkəzi İcraiyyə Komitəsi üzvlüyünə namizəd seçildi. 1922 il sentyabrın 11-də M. "Yeni yol" qəzetinə red. təyin edildi və bu vəzifədə 1924 il yanvarın 1-dək işlədi. Bundan sonra o, red. heyətinin üzvü kimi fəaliyyət göstərirdi.

1922 ilin noyabrından Mirzə Cəlil fəaliyyəti yenidən bərpa olunan "Molla Nəsrəddin" jurnalına red.-luğu da davam etdirmişdi. 1922 il mayın 11-də B.-da Dram teatrında M.-nin "Anamın kitabı" pyesi ilk dəfə oynanıldı və bundan sonra teatrın repertuarında müəyyən yer tutdu. 1923 il mayın 11-də Azərb. hökuməti tərəfindən M.-nin şərəfinə "Molla Nəsrəddin" gecəsi təşkil olunmuşdu. Elə həmin ilin noyabrında M.-nin "Konsulun arvadı" hekayəsi səhnələşdirilərək "Tənqid və təbliğ" teatrında oynanılmış, lakin müvəffəqiyyət qazanmamışdı.

Getdikcə B.-da M.-yə qarşı münasibət dəyişirdi. O, sıxıntılara, mənəvi terrora məruz qalırdı. Ədibin həyatının 1929-1932 illərə aid son dövrü haqsızlıq, çaşqınlıq, diqqətsizlik, laqeydliklə əhatə olunmuşdu. M. "milli xırda burjua ədəbiyyatı nümayəndəsi" kimi qələmə verilməyə başlanmışdı. "Molla Nəsrəddin" jurnalının dili, ideya istiqaməti haqsız tənqidlərə məruz qalırdı. Hətta bu dövrdə "Molla Nəsrəddin"in bədii tərtibatçısı Ə.Əzimzadə də istedadsız rəssam hesab edilirdi. Nəhayət, 1931 ildə cəmi 3 sayı çıxdıqdan sonra "Molla Nəsrəddin" jurnalı həmişəlik bağlandı. M. özünün əsl mübarizə silahı və xitabət kürsüsündən məhrum edildi. Bu dövrdə yazıçının maddi vəziyyətinin ağır-

laşması da ona mənfi təsir göstərmişdi. Keçirdiyi sarsıntılar nəticəsində M.-nin səhhəti getdikcə ağırlaşdı və 1932 il yanvarın 4-də böyük ədib vəfat etdi. O, B.-da Fəxri Xiyabanda dəfn edilmişdir.

B.-nın mərkəzi küçələrindən biri M.-nin şərəfinə adlandırılmışdır. Nizami ad. Ədəbiyyat muzeyinin fasadında M.-nin abidəsi ucaldılmışdır. B.-da böyük ədibin 1922-1932 illərdə yaşadığı binada (S.Tağızadə küç., 56) onun ev-muzeyi yaradılmışdır.

"BAKU" – 1902-1918 illərdə qısa fasilələrlə Bakıda rus dilində nəşr olunmuş ictimai-siyasi gündəlik qəzet. 3786 nömrəsi çıxmışdır. Əsasən neft sənayeçiləri və ticarət burjuaziyasının mənafeyinin müdafiəçisi idi. "B."-nun səhifələrində şəhərin mədəni həyatına geniş yer ayrılır, azərb. jurnalist və publisistlərin məqalələri, habelə, Azərb. ədəbiyyatı və mədəniyyətindəki yeniliklər barəsində xəbərlər çap olunurdu. "B." öz səhifələrində "Molla Nəsrəddin"in yeni nömrələri barəsində məlumat verir, jurnalın fanatizmə qarşı mübarizəsini, sadə və anlaşıqlı dil siyasətini alqışlayır, müsəlmanların, xüsusən də, iranlı fəhlələrin ictimai-siyasi şüurunun formalaşmasında onun rolunu qeyd edirdi. 1913 ildə "Baku" H.Minasazovun tərcüməsində M.-nin "Poçt qutusu" hekayəsini dərc etmişdi. "B."-nun nömrələrində "Molla Nəsrəddin"dən alınmış felyetonlara, habelə, karikaturaların şərhinə də təsadüf olunur. "Molla Nəsrəddin"in bağlanma təhlükəsi meydana çıxdıqda (1908) "B." 22 nəfər azərb. tələbənin imzaladığı etiraz məktubunu dərc etmişdi. "Molla"nın əhəmiyyətini gözdən salmaq bütün yer kürəsində yaşayan müsəlmanlar üçün insafsızlıqdır" – deyən tələbələr "müsəlman demokratiyasına" layiqincə xidmət edən "Molla Nəsrəddin"ə uzun ömür arzulayırdılar.

BAYRAMOV Bayram Salman oğlu (1918-1994) – nasir. Azərb. xalq yazıçısı (1984). Bədii yaradıcılığa 1950 ildən başlamış, müasir mövzulu hekayə, povest və romanlar yazmışdır. Əsərlərində mənəvi-əxlaqi problemlər, günümüzün adamları, onların qayğılarının təsviri üstünlük təşkil edir. "Xəzinə", "Bəlalı sevgim", "Arakəsmələr", "Fəhlə qardaş" və s. romanları, M. və Həmidə xanımın həyatından bəhs edən "Karvan yolu" tarixi romanının müəllifidir (1986). Romanda onların 1907-1920 illər arasındakı həyatı işıqlandırılır. Əsərin yazılmasında mövcud tarixi qaynaqlardan, məmmədquluzadəşünasların tədqiqatlarından geniş istifadə edilmişdir. Müəllif M. və Həmidə xanımla yanaşı, Əhməd bəy Cavanşir, Ömər Faiq, Kərim bəy Mehmandarov, Sofya xanım Şahtaxtinskaya və b. tarixi şəxsiyyətlərin obrazlarını yaratmışdır. Əsas diqqət M. və Həmidə Məmmədquluzadələrin mənəvi birliyinə, onların maarif və ictimai tərəqqi uğrunda mübarizələrinə, mürəkkəb ailə münasibətlərinə yönəldilmişdir. Müəllif əsəri çoxcildli epopeya şəklində nəzərdə tutsa da, onun yalnız bir cildini tamamlaya bilmişdir.

BAYRAMOV Fərman Aslan oğlu (d. 1935) – biblioqraf, ədəbiyyatşünas. Filol. e.n. (1971). ADU-nu bitirmişdir (1960). M.F.Axundov ad. Azərb. Dövlət Kitabxanasında baş metodist və şöbə müdiri vəzifələrində çalışmışdır (1960-1969). 1970 ildən ADU-da işləyir. "Cəlil Məmmədquluzadənin ədəbi irsinin nəşri tarixi və yazıçı haqqında biblioqrafiya" adlı dissertasiya müdafiə etmişdir. M.-yə aid çoxlu elmi, publisist məqalə və xronikanın, o cümlədən "C.Məmmədquluzadə" adlı əsərin (1966), "C.Məmmədquluzadənin bəzi gizli imzaları", "C.Məmmədquluzadənin əsərləri dünya xalqları dillərində", "İmza: Mığ-Mığa" və s. məqalələrin müəllifidir.

BEHBUDOV (Cavanşir) Mustafa bəy (1842-1917) – şair, publisist. Əhməd bəy Cavanşirin və Qasım bəy Zakirin qohumu. Şuşa şəhər rus məktəbini bitirmiş, Xankəndində hökumət divanxanasında qulluq etmişdir. Həmidə xanım 1906 ildə onun vasitəsilə qiyabi surətdə M.-ni tanımış, B.-un təkidi ilə "Molla Nəsrəddin" jurnalına abunə yazılmışdır. B. ilk dəfə M. ilə 1907 ildə Həmidə xanımın ailə mülkündə – Kəhrizlidə görüşüb tanış olmuşdur. Son dərəcə hazırcavab və söhbətcil adam olan, baməzə xarakteri və güclü yumor hissi ilə seçilən B.-la M. arasında ilk gündən xoş münasibət yaranmışdı. Həmin münasibət Həmidə xanımın "Xatirələrində" öz əksini tapmışdır. Tiflisdə M.-nin red.-luğu ilə Azərb. dilində jurnalın nəşrə başladığını Həmidə xanıma ilk dəfə xəbər verib, onun puluna Kəhrizliyə "Molla Nəsrəddin"in gətirilməsinə

kömək etmişdir. B. "Molla Nəsrəddin" jurnalını Qarabağda təbliğ edir və ona abunə yazdırmaq işi ilə məşğul olurdu. Jurnalda "Süpürgəsaqqal" təxəllüsü ilə çıxış edirdi. "İrşad" qəzetində jurnalı təqdir edən "Molla Nəsrəddin əmiyə" adlı məqaləsi (1907, №23) çıxmışdı. Bütövlükdə jurnalın ideya istiqamətini bəyənən B. onun dinə münasibətdə ifratçılıqdan çəkinməsi fikrinin tərəfdarı idi.

BEHBUDOV Vaqif Qulam oğlu (d. 1938) – kino rejissoru və operatoru. Azərb. əməkdar inc. xad. (1989). Azərb. Dövlət mükafatı laureatı (1990). Sankt-Peterburq Kino Mühəndisləri İn-tunu bitirmişdir (1960). 1962 ildən Azərb. Teleradio Verilişləri Şirkətində fəaliyyət göstərir (1965 ildən rej.-operator). 1978-1987 illərdə "Azərbaycantelefilm"in baş red. olmuşdur. 1989 ildə M.-nin "Qurbanəli bəy" hekayəsini televiziya üçün ekranlaşdırmışdır.

BENNİQSEN Aleksandr (?-?) – mühacir rus alimi, jurnalistika tarixçisi. Prof. Parisdə çıxan "Rusiya və Sovet İttifaqı üzrə dəftərlər" jurnalının əməkdaşı. Çar Rusiyasında yaşayan müsəlman xalqlarının tarixinə, məişətinə, mətbuatına dair bir sıra əsərlərin müəllifidir. Bu qiymətli məqalələrdə "Əkinçi", "Ziya", "Kəşkül" və b. qəzetlərdən bəhs edən alim "Molla Nəsrəddin" jurnalı üzərində xüsusi dayanır, onun ideya istiqaməti, tematikası, əməkdaşları haqqında fikirlər irəli sürür. B. oxucularını N.Nərimanov, Ə.Haqverdiyev, Ə.Nəzmi və M. ilə tanış edir, M.Ə.Sabirin "Molla Nəsrəddin" səhifələrində dərc olunmuş şeirlərinin beynəlxalq əhəmiyyətini göstərir, "Molla Nəsrəddin" jurnalının "Qarışqa", "Top" kimi bir sıra müsəlman satira nəşrlərinə ideya təsirindən danışır.

Ş.Bədəlbəyli

BƏDƏLBƏYLİ Şəmsi Bədəl bəy oğlu (1911-1986) – rejissor. Azərb. xalq art. (1964). ADT-da (1932-1942) rej. assistenti və rej., Azərb. Musiqili Komediya teatrında (1943-1949, 1956-1961, 1963-1974) bədii rəhbər və direktor, 1974-1976 illərdə Azərb. Dövlət Filarmoniyasında direktor və bədii rəhbər vəzifələrində işləmişdir. 1940 ildə ADT səhnəsində M.-nin "Ölülər" pyesinin quruluşçu rej.-u olmuşdur. Kinofilmlərdə çəkilmişdir.

"BƏHLUL" – həftəlik rəsmli jurnal. 1907 il mayın 19-da Ələsgər Əliyevin red.-luğu, Seyid Hüseynin əməkdaşlığı ilə Bakıda nəşrə başlamış, 9 nömrə çıxdıqdan sonra noyabrın 4-də bağlanmışdır. "Molla Nəsrəddin" ənənələrini davam edən bu jurnalda ictimai gerilik, dini-fanatizm, ailə və məişətdəki vaxtı keçmiş adət-ənənələr, dövlət idarəçiliyindəki nöqsanlar, varlı-kasıb münasibətləri, fəhlələrin siyasi mübarizəsi, kəndçilərlə ittifaqı, İran və Türkiyədə baş verən milli oyanışla bağlı hadisələr sadə xalq dilində, satirik üslubda oxucuya çatdırılırdı. "B."-un zəngin ədəbi-bədii tərtibatı var idi. Burada satirik şeirlər, felyetonlar, "Bilməli xəbərlər", "Teleqraf xəbərləri", "Lüğət", "Tapmaca" və b. satirik başlıqlar altında yazılar dərc edilirdi. M.Ə.Sabirin "Təraneyi-əsilanə", "Bəzi yerlərdə təsadüf olunur aşa, ətə", "Mən belə əsrarı qana bilmirəm" satiraları ilk dəfə bu jurnalda çıxmışdır. Jurnalda Ə.Əliyev ("Bəhlul"), Ə.Razi ("Düdük"), M.H.Zeynalov ("Dərdmənd) kimi müəlliflər yaxından iştirak edirdilər. "B." öz səhifələrində "Molla Nəsrəddin"ə rəğbət ifadə edən bir sıra yazılar və şəkillər vermişdi. Jurnalda rəsmləri Y.Y.Hamberq, S.B.Cəlilbəyov və Ə.Əzimzadə çəkirdilər.

BƏHMƏN Mirzə Qacar, Əbdüssəməd Bəhaüddövlə (1811-1884) – tarixçi. İran şahı Fətəli şah Qacarın nəvəsi. 1841 ildən Cənubi Azərb.-ın hakimi olmuş, devrildikdən sonra, 1848 ildə Tiflisə gələrək rus təbəəliyini qəbul etmişdir. 1851 ildə daimi yaşamaq üçün Şuşaya köçmüşdür. B. M. dövrünün ziyalı şəxslərindən idi. Onun "Təzkireyi-Məhəmməd şahi" (1834) və "Şükürnameyi-Şahənşahi" (1871) adlı tarixi əsərləri məşhurdur. B. M.-nin zəngin kitabxanası varmış. Şuşaya gələrkən o, özü ilə 95 dəvə yükü həcmində kitabxanasını da gətiribmiş.

M. "Vətən məhəbbəti" felyetonunda və "Şeir bülbülləri" hekayəsində B.M.-nin adını çəkmişdir. Birinci əsərdə B.M.-nin övladlarının erməni-müsəlman münaqişəsi zamanı Şuşa faciəsinə biganə münasibəti tənqid olunur: "...mərhum Bəhmən Mirzə 1884-cü ildə vəfat edəndən sonra onun oğlanları başladılar yavaş-yavaş Qarabağdan hərə bir yana köçməyə, çünki Şuşa şəhərində elə bir ləzzət yoxdur ki, insan orada qalsın, lakin Şuşa qalası ürək sıxan şəhərlərin ürək sıxanıdır" ("Molla Nəsrəddin", 4 avqust, 1906, №18). Müasir həyati əhə-

miyyətini itirən, ərəb-fars sözlərindən və tərkiblərindən tərtib edilən epiqon şeirlə onun aludəçilərinin tənqidinə həsr olunan "Şeir bülbülləri" hekayəsində isə B.M.-nin adı belə xatırlanır: "Bu kitab şahzadə Bəhmən Mirzənin kitablarındandı və rəvayət eləyirlər ki, şahzadə İrandan Qarabağa qaçanda bu kitabı qoltuq cibində saxlayırmış. İki il bundan irəli bir dəllala mən xəlvətcə bir qədər pul vermişdim ki, əgər bu kitabı tapıb gətirsə, ona bir mahud çuxa da verim. Qoçaq kitabı gətirdi və çuxanı da məndən aldı". (Əsərləri, I c., s. 232).

"BƏLKƏ DƏ QAYTARDILAR" – M.-nin satirik hekayəsi. Təxm. 1923 ildə yazılıb. Azərb.-ın mülkədar, bəy və tacirlərinin sovet dövründə düşdükləri acınacaqlı vəziyyətdən bəhs edir. Bir gün məşhur artist Balaqədəş ədibi bulvarda onların yanına aparıb, Molla Nəsrəddin əmi adı ilə təqdim edəndən sonra orada əyləşənlər barədə də məlumat verir. Məlum olur ki, "bir-iki il bundan qabaq hərəsi bir neçə milyona pul deməyən" bu kişiləri Şura hökuməti indi... papiros puluna möhtac eləyibdir. Biri bakılı Hacı Həsəndir ki, inqilabdan əvvəl "14 karvansarası və 137 tikilisi vardı ki, indi hökumət hamısını əlindən alıb, [...] gündəlik ruzisinə həsrət qoyub". Onun yanında oturan sabunçulu Umudbəyovdur ki, "ildə yarım milyon tək bircə neftdən mədaxili olardı". Üçüncüsü "məşhur milyonçu və un taciri Tələfxanbəyovdur ki, [...] Rusiyanın hər bir böyük şəhərində atasının böyük-böyük dəyirmanları vardı". Dördüncüsü, "Gəncə mülkədarı Hacı Sultandır ki, Nikolay vaxtında nər-nər nərildəyərdi". Bu xarakteristikadan sonrakı hissədə Molla əmi təzə tanışlarının bir-birindən gülünc gümanlarını, Sovet Xarici İşlər komissarı G.V.Çiçerin, ingilis siyasi xadimi C.N.Kerzon, Bakı milyonçusu Musa Nağıyev haqqında sözlərini sadalayıb bunların necə əsassız şayiə olduğunu öldürücü satira atəşinə tutur.

Hekayə bu sözlərlə bitir: "İndi ...ziyafət məclisində və hər bir toyda və qonaqlıqda sazəndə və nəvazəndələr çalırlar, xanəndələr də oxuyurlar: Bəlkə də qaytardılar, bəlkə də qaytardılar. Cavanlar da çıtmıq çırtırlar". M-nin 1927-ci ildə "Bəlkə də qaytardılar" adlı hekayələr toplusu nəşr olunmuşdur.

"BƏSİRƏT" – 1914-1920 illərdə Bakıda çıxan kütləvi qəzet. Red. H.İ.Qasımov idi. Əməkdaşları sırasında M.Ə.Rəsulzadə, N.Nərimanov, Ə.Hüseynzadə, M.Hadi, A.Səhhət, S.Hüseyn (Kazımoğlu), M.B.Məmmədzadə və b. vardı. Demokratik mətbuata, xüsusilə, "Molla Nəsrəddin" jurnalına dair müsbət məzmunlu məqalələr çap edirdi. 16 aprel 1916 il, 91-ci sayında deyilir: "Bu gün Qafqaziya mətbuatına dair tarix yazılacaq olursa, heç şübhəsiz, haman tarixin parlaq səhifələrindən birini "Molla Nəsrəddin" məcmuəsi işğal edəcəkdir. Cəsarətlə demək istərdik ki, "Molla Nəsrəddin" məcmuəsinin Qafqaz müsəlmanlarına etmiş olduğu xidməti başqa qəzetlər edə bilməmişdir. [...] elə sadə nəşr edilirdi ki, onu müxtəsər bir savadı olan şəxs də oxuyub, jurnalın dediyini düşünürdü. İkincisi, haman məcmuə acı-acı həqiqətləri duzlu ibarələrlə deyib, camaatın tənviri-əfkarına çalışmışdır. [...] ömründə əliflə beyi bilməyən şəxslər belə məcmuəni əlinə alır, onun çəkdiyi mənidar şəkillərinə baxır, oradan ibrət alırdı". İ.Qasprinski bu məqaləni öz "Tərcüman" qəzetində eynilə çap etmişdir.

BIXOV (?-?) – 20 əsrin əvvəllərində Tiflisdə mətbəə və litoqrafiya sahibi. İlk nömrələrindən başlayaraq "Molla Nəsrəddin" jurnalının şəkil və karikaturaları B.-un litoqrafiyasında çap olunmuşdur. 1912 ilin martından isə jurnalın şəkilləri həm də Keladzenin litoqrafiyasında çap olunurdu. Kəhrizlidə yaşayan Mirzə Cəlil M.Ə.Sidqiyə yazdığı məktublarda dəfələrlə şəkillərin çapı üçün B.-a veriləcək haqqı gecikdirməməyi, vaxtında ödəməyi tövsiyə edirdi.

BOQOSLOVSKİ Yevgeni Alekseyeviç (?-?) – müəllim, senzor. 1854 ildə Peterburq un-tini bitirmiş, Kuban və Tiflis gimnaziyalarında dərs demişdir. 1902 ildən Şuşa realnı məktəbində, 1904 ilin avqustundan Bakı III Aleksandr kişi gimnaziyasında müəllimlik etmişdir. 1905 ilin fevralında Bakıda mətbuat işləri müfəttişliyi yaradılır və B. müfəttiş-senzor işləyir. 1912 ilədək həmin vəzifədə demokratik və inqilabi fikrə qarşı mübarizə aparmışdır. O, Bakı mətbuatı haqqında bir sıra kitabların müəllifidir. M. haqlı olaraq yazırdı: "Kim idi sansorlar? Elə bədbəxtliyin bir böyüyü də bu idi ki, bizim o vaxtın mətbuatının bir düşməni hö-

kumət qanun və qərardadları ola-ola, o biri düşmənləri də Kişmişov kimi sansorlar idi".

BRAUN Eduard (Edvard) (1862-1926) – ingilis şərqşünas alimi. Əsərlərində Azərb. ədəbiyyatı və mətbuatı, yazıçı və alimləri haqda çox bəhs etmişdir. Londondakı iranlılar cəmiyyətində "İran mətbuatı və jurnalistika"sı mövzusunda mühazirəsində azərb. türkcə danışan İran əhalisi arasında yayılan 4 mətbuat orqanının adını çəkir: "Bunlar "İrşad", "Həyat", "Şərqi-Rus" və "Molla Nəsrəddin"dən ibarətdir. Xüsusilə, sonuncu öz boyalı və diqqətəlayiq siyasi karikaturaları ilə başqalarından fərqlənir. O, məşrutədən (1911 ildən – *red.*) sonra Rusiyada çap olunan [...] yumorist jurnallar üçün nümunə idi".

D.Bünyadzadə

B. "İran mətbuatı və ədəbiyyatı tarixi"nin ingiliscə nəşrinə müqəddiməsində yazır: "Tiflisdə türkcə çap olunan "Molla Nəsrəddin" satirik jurnalı mətbuatın əlifba föhrüstünə daxil edilməmişdir. Lakin bu jurnalın İrandakı nüfuz və təsiri o qədər böyükdür ki, onun gülməli şəkillərinin qiymət və əhəmiyyəti o dərəcədə mühümdür ki, mən onlardan altısını o dövrün ən parlaq nümunələrindən olmaq üzrə bu kitaba daxil etmişəm" (7 aprel 1914).

BUVA Lüsyön (?-?) – fransız şərqşünası, filoloq. 19 əsrin axırı – 20 əsrin əvvəllərində Azərb. mədəniyyətinin öyrənilməsi, nəşri, təbliği sahəsində çox çalışmış, "Revü dü Mond müsülman" və "Jurnal Aziatik" jurnallarında Azərb. dili, ədəbiyyatı, jurnalistikası, əlifbası haqqında məqalələr, rəsmlər nəşr etdirmişdir. Fotoşəkilləri, əsərlərinin tərcüməsi çap olunan belə şəxsiyyətlər arasında A.Bakıxanov, M.F.Axundov, M.Şahtaxtinski, M.Ə.Sabir, N.Nərimanov və b. vardır. Belə materiallardan biri "Molla Nəsrəddin" jurnalı, onun red.-u M. və müəllifləri haqqındadır.

M.Bürcəliyev

"BUZ". M.-nin yazdığı hekayə. İlk dəfə 1926 il iyunun 18-də "Yeni yol" qəzetində çap olunmuş realist əsərdir. "Mən on yaşında, ya bəlkə bir qədər də artıq olardım" sözləri ilə başlanması, "mən" sözünün çox işlənməsi avtobioqrafik hekayə olduğu barədə təsəvvür doğurur. Süjet uşağın qızdırmalı xalası üçün böyüklər tərəfindən təcili buz almağa göndərilməsi və yolda "küçə yoldaşı" Şirəlinin həyətdəki qoca iti onun üstünə küşkürməsi, uşaqların bərk dalaşması, "kələm yarpağına bükülü buzun" istidən əriyib kiçilməsi və xəstənin bir neçə gün sonra vəfatı kimi sırf həyati əhvalat üzərində qurulmuşdur. Hekayənin axırında fəlsəfi çalarlı mühakimələr verilir. "Bircə şey [...] indiyə kimi məni gahdan bir narahat etməkdədir. Nədir o? Onun adı "buzdur". Bu sözlərdən sonra M. buzla əlaqədar düşüncələrini verir: "Buz əhvalatı mənə hər bir yeri düşəndə dərd olur [...] ölümcül azarlı xalamı bir qəpiklik buza həsrət qoymağım yadıma düşür". Realist, bir qədər də komik üslubda başlanan hekayə beləcə qəmli, sentimental ruhla tamamlanır.

BÜNYADZADƏ Dadaş Xoca bəy oğlu (1888-1938) – sovet partiya və dövlət xadimi, jurnalist, müəllim. Bakıda və Tiflisdə gizli partiya işi aparmış, dəfələrlə həbs edilmişdir. B. "Molla Nəsrəddin" jurnalının təsirilə 1910-1911 illərdə Bakıda çıxan "Arı" satirik jurnalının red. və əsas müəlliflərindən biri idi. 1912 illərdə "Bakı həyatı" jurnalında və s. mətbuat orqanlarında işləmişdir. 1917-1918 illərdə "Hümmət" təşkilatının Bakı qəza Kəndli Deputatlar Sovetinin işində fəal iştirak etmişdir. Bakı kommunasının süqutundan sonra Həştərxana gedərək partiya işini davam etdirmiş, tatar dilində çıxan "Tartış" ("Mübarizə") qəzetinin red. olmuşdur. Azərb.-da Sovet hakimiyyəti qurulduqdan sonra bir sıra rəhbər vəzifələrdə çalışmışdır. Siyasi repressiyanın qurbanı olmuşdur.

"BÜRHANİ-TƏRƏQQİ" – həftədə üç dəfə Həştərxanda çıxan qəzet (1906-1911). Naşiri və red. Mustafa Lütfi İsmayılov (Şirvanski), o Həştərxandan köçdükdən sonra (avqust, 1906) isə Məhəmməd Hadi, naşiri Zakir Xocayev idi. Mövzu müxtəlifliyi, məsələlərin qoyuluşu, məzmunu və əhatə dairəsi Bakıda nəşr olunan "Həyat", "İrşad" qəzetlərini xatırladırdı.

BÜRCƏLİYEV Məmməd İsmayıl oğlu (1914-1994) – aktyor, rejissor. Azərb. xalq art. (1958). 1953 ildən C.Cabbarlı ad. Gəncə Dövlət Dram Teatrında işləmişdir. Yumor ustası olan B. bir sıra xarakterik obrazlar yaratmışdır. Teatrın səhnəsində bir çox əsəri, o cümlədən 1958 ildə M.-nin "Ölülər" əsərini tamaşaya qoymuşdur. Filmlərə çəkilmişdir.

CABBARLI Cəfər Qafar oğlu (1899-1934) – yazıçı, rejissor, ssenarist. Azərb. əməkdar inc. xad. (1932). Bədii yaradıcılığa 1915 ildən lirik və satirik şeirlər, hekayə və dram əsərləri yazmaqla başlamışdır. 1915-1916 illərdə C. ideya və üslubca "Molla Nəsrəddin" jurnalına yaxın olan "Babayi-Əmir" jurnalında satirik şeirlərlə çıxış etmişdir. O, "Vəfalı Səriyyə, yaxud göz yaşı içində gülüş" (1915), "Solğun çiçəklər" (1917), "Nəsrəddin şah" (1916-1918), "Ədirnənin fəthi" (1918), "Aydın" (1919), "Oqtay Eloğlu" (1922), "Od gəlini" (1928), "Sevil" (1928), "Almaz" (1931) və s. pyeslərin, bir çox hekayələrin müəllifidir. 1925 ildən tez-tez satirik şeir və publisistik məqalələri ilə "Molla Nəsrəddin" jurnalında çıxış edirdi. "Molla Nəsrəddin"dəki əsərləri, əsasən, "Sancaq" imzası ilə dərc olunurdu. C.-nın satiralarının bir çoxu mənzum felyeton təsiri bağışlayırdı. Onun "Nə vaxt əl çəkəcəklər" məqaləsi isə publisistik felyeton janrında yazılmışdır. 1929 ildə M.-nin "Ölülər" pyesi əsasında kino ssenarisi yazmışdır. C. məqalə və ressenziyalarında "Ölülər"in ədəbi mövqeyi və tamaşaları haqqında danışmışdır. C. bir sıra tamaşaların və bədii filmlərin rej. olmuşdur. Əsərləri xarici dillərə tərcümə edilmişdir.

CAVANŞİR Allahyar Əliş bəy oğlu (1910-1970) – Həmidə xanımın əmisi nəvəsi, mühəndis. Məmmədquluzadələr ailəsinə çox yaxın olmuşdur. M. və ailəsi haqqında qiymətli xatiratı var. Ədib barədə yazır: "Elə bil təbiət onu əlsiz-ayaqsızlara, yetim-yesirə, xüsusilə, uşaqlara, gənclərə hami və pərəstar yaratmışdı". Xatiratda müəllimliyinin Mirzə Cəlilin xarakterinə, təbiətinə təsirindən, bacısı uşaqlarını tərbiyələndirib böyütməkdə rolundan danışılır və bunun səbəbləri aydınlaşdırılır: "...əsl səbəb böyük yazıçının son dərəcə insanpərvər, qayğıkeş, müdrik bir adam olması idi. Məişətdə, ailə həyatında sadəlik tərəfdarı olub, dəbdəbə və zinətdən xoşu gəlməzdi. [...] Mən ömrümdə bu qədər az danışan ikinci bir adam görməmişəm" ("Bakı" axşam qəzeti, 1966.2.21). Mirzə Cəlilin ailəsində böyümüş, yaxud onlarla yaxınlıq etmiş adamların müəyyənləşdirilməsində, onlardan müsahibələr alınmasında C.-in tədqiqatçılara böyük köməyi olmuşdur.

C.Cabbarlı

CAVANŞİR Əhməd bəy Cəfərqulu bəy oğlu (1828-1903) – şair, publisist, mütərcim, tarixşünas, hərbi xadim. H.Məmmədquluzadə-Cavanşirin atası. 1843-1848 illərdə Peterburqda Pavel hərbi məktəbində oxumuşdur. 1853-1854 illərdə Krım müharibəsində iştirak edərək şücaətinə görə orden və medallarla təltif olunmuşdur. 1854 ildə istefaya çıxır. Vətəninə qayıdıb əvvəl mirablıq edir, suvarma işləri ilə mükəmməl tanış olur, susuz yerlərə arx çəkilməsi işini təşkil edir. 70-ci illərdə Qarabağ "bəy komissiyası"nın işinə cəlb olunur. 80-ci illərdən ömrünün axırınadək Kəhrizlidə yaşayır, bir çox ictimai-faydalı işlərlə, ədəbi və elmi yaradıcılıqla məşğul olur, kənd təsərrüfatında çalışır.

70-ci illərdən "Kavkaz" qəzetində yazılar dərc etdirməyə başlayır. İlk məqalələri Qarabağda suvarma işlərindən bəhs edirdi. Sonra Azərb. tarixi, ədəbiyyatı, folkloru haqqında elmi əsərləri, biblioqrafik məqalələri çap olunurdu. 90-cı illərdə məqalələrinin çoxunu "Новое обозрение" qəzetində çap etdirirdi. Kəhrizlidə və Xankəndində dövrünə görə çox zəngin şəxsi kitabxana yaratmışdı. Qızı Həmidə

xanımın yazdığına görə, C. "öz kitablarını hələ keçən əsrin 40-cı illərindən toplamağa başlamışdı".

Mükəmməl bildiyi rus, fars və fransız dilləri vasitəsilə dünya klassiklərinin əsərlərilə, Şərq, xüsusilə, Azərb. tarixinə dair elmi mənbələrlə dərindən tanış olmuşdu. 19 əsr Azərb. tarixşünaslığına dair bir neçə elmi əsər yazmışdı. "1747-ci ildən 1805-ci ilə qədər Qarabağ xanlığının siyasi vəziyyətinə dair" əsəri rus dilində nəşr edilmişdir. Azərb.-da rus və Qərb klassik ədəbiyyatının təbliği və tərcüməsi sahəsində xeyli iş görmüşdür. 1906 ildə orijinal və tərcümələrdən ibarət bədii əsərləri isə Həmidə xanımın səyi sayəsində Tiflisdə "Qeyrət" mətbəəsində "Asari-Əhməd bəy" adı ilə buraxılmışdır. "Azərbaycan zərbül-məsəlləri" adlı dördcildlik bir əsər yazdığı da rəvayət olunur.

CAVANŞİR Hüseyn ağa Hidayət ağa oğlu (1856-1924) – şair. Qarabağ hakimi İbrahimxəlil xan Cavanşirin törəmələrindən, şair və ictimai xadim, general-mayor Cəfərqulu xan Cavanşirin nəvəsidir. İri torpaq sahibi olmuşdur. C. millətini, el-obasını sevən vətənpərvər və mütərəqqi ruhlu bir ziyalı olmuş, elmə, təhsilə, incəsənətə böyük fikir vermiş, Cəbrayıl qəzasının mədəniyyəti, maarifi və iqtisadiyyatının inkişafında müstəsna xidmət göstərmişdir. O, vaxtaşırı ədəbi və musiqili məclislər keçirər, şeir, sənət həvəskarlarını bura dəvət edər, yeri gələndə onlara maddi köməyini də əsirgəməzdi. 1920 ildə M. Həmidə xanımla İrana gedərkən, C. onları qarşılamış, təhlükəsizliklərini təmin edərək Arazın o tayına keçirmişdir. Əsl ziyalı və mətbuat vurğunu olan C. "Molla Nəsrəddin"in daim abunəçisi olmuş, jurnalın bir sıra nömrələrinin çap olunmasına maddi köməklik göstərmiş və əhali arasında yayılmasına çalışmışdır.

CAVİD Salamullah (?-?) – iranlı ziyalı, həkim. Bir çox məqalə və kitabların müəllifidir. Məqalələrində "Molla Nəsrəddin"dən, onun geniş xalq kütləsi tərəfindən sevilməsindən, ictimai şüura və azadlıq hərəkatına böyük təsirindən danışılır, jurnalın İranda çoxlu oxucuları, pərəstişkarları olduğunu qeyd edir. C.-in Tehranda nəşr olunan "Unudulmuş fədakarlar" kitabında "Molla Nəsrəddin"in təsiri ilə "Suri-İsrafil", "Yeni İran", "Ədalət", "Adəmiyyət", "Müsavat" və b. bir çox qəzet və jurnalların nəşrə başlaması göstərilir. İran xalqlarının azadlıq uğrunda apardığı mübarizədə C. də fəal iştirak etmişdir. Onun "İran məşrutə hərəkatı və dünya azadixahlarının rolu" kitabında XIX əsrin sonu – XX əsrin əvvəllərində İran fəhlə və kəndlilərinin ağır və acınacaqlı vəziyyətindən, Səttar xanın apardığı milli azadlıq mübarizəsindən ətraflı danışılır.

CƏBİYEV Həbib Pircan oğlu (1898-1938) – ictimai xadim, publisist. Gənc yaşlarından inqilabi hərəkata qoşulmuş, 1919 ilin əvvəllərində Balaxanıda "Hümmət" təşkilatının katibi seçilmiş, Gəncə, Qazax, Tovuz və b. yerlərdə siyasi iş aparmışdır. 1920 ilin fevralında AK(b)P I qurultayına nümayəndə seçilən C. apreldə XI ordunu qarşılamaq üçün Dərbəndə göndərilir. 1920 ilin mayında C. Şamxor, Qazax, Tovuz qəzalarında fövqəladə komissar olur. Bir müddət Balaxanı rayon PK-də işləyir. 1921 ilin mart-aprel aylarında "Azərbaycan füqərası" qəzetinin red., 1922-1923 illərdə Moskvada çıxan "Qızıl Şərq" jurnalının məsul katibi, 1923-1927 və 1929-1930 illərdə "Kommunist" qəzetinin red., 1927-1929 illərdə AK(b)P MK-nın şöbə müdiri işləmişdir. "Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti"nin yaradıcılarından və idarə heyəti üzvlərindən biri idi. 1924 ilin sentyabrında Bakıda I Ümumittifaq türkoloji qurultayının keçirilməsində xüsusi rolu olmuşdur. Qurultayda C.-in təklifi ilə ədəbi dil məsələsinə dair xüsusi komissiya yaradılmışdır.

C. "Molla Nəsrəddin" jurnalına və onun naşiri M.-yə xüsusi hörmət bəsləyir, hər cür köməklik göstərirdi. Bakıda "Molla Nəsrəddin" jurnalı redaksiyasının və kollektivinin təşkilinə, jurnalın nəşri və yayılmasına lazımi əməli yardım və rəhbərlik etmişdir. 1925 ildə M.-nin ayrıca kitabça halında nəşr olunmuş "Ölülər" pyesinə ön söz yazmışdır.

1930 ildən ömrünün sonuna kimi Moskvada məsul sovet və partiya işlərində çalışmışdır.

CƏFƏR Xəndan (Cəfər Zeynal oğlu Hacıyevin təxəllüsü) (1910-1961) – ədəbiyyatşünas, tənqidçi, şair. Filol. e.d. (1948), prof. (1949). Gəncə Pedaqoji Texnikumunu (1925), APİ-nin dil və ədəbiyyat fakültəsini (1929) bitirmişdir. ADU-da filol. fakültəsinin dekanı (1947-1949),

C.Xəndan

rektor (1950-1954), Azərb. ədəbiyyatı tarixi kafedrasının müdiri (1952-1961) olmuşdur. XX əsr Azərb. ədəbiyyatına, XX əsr Cənubi Azərb. demokratik ədəbiyyatına dair əsərlərin, "Ədəbiyyat nəzəriyyəsi" (1948, 1958) kitabının, orta və ali məktəb dərsliklərinin müəllifidir. Onun Mirzə Cəlil, M.Ə.Sabir haqqında monoqrafik tədqiqləri ("Sabir" (1940), "Molla Nəsrəddin" (1956), "Şairin həyatı" (1961), "Sabir yaradıcılığının sənətkarlıq xüsusiyyətləri" (1962), Ə.Haqverdiyev, M.Möcüz, Ə.Nəzmi, Ə.Qəmküsar və b. mollanəsrəddinçilər haqqında portret oçerk və məqalələri vardır. "XX əsr Azərbaycan ədəbiyyatı tarixi" (1955) kitabında verilmiş ayrıca oçerkdə M.-nin həyat və yaradıcılığından bəhs olunur. Kitabın "Demokratik mətbuat və onun burjua mətbuatı ilə mübarizəsi" fəslində isə "Molla Nəsrəddin" jurnalının yaranma tarixi, ideya mövqeyi, sənətkarlıq maneraları tədqiq edilmişdir.

CƏFƏRZADƏ Əzizə Məmməd qızı (1921-2003) – yazıçı, ədəbiyyatşünas. Filol. e.d. (1970), prof. (1974). İlk hekayəsi 1937 ildə çap olunmuşdur. "Aləmdə səsim var mənim", "Vətənə qayıt", "Yad et məni", "Bakı-1501" romanlarının və s. müəllifidir. "Yad et məni" romanında XX əsr Azərb. klassikləri M.Ə.Sabirlə A.Səhhətin dostluğu, onların "Molla Nəsrəddin" jurnalı və M. ilə ideya-yaradıcılıq əlaqəsi məhəbbətlə təsvir olunur. XIX əsr Azərb. ədəbiyyatına, aşıq şeirinə dair tədqiqləri var. 1988 ildə "Ədəbiyyat və incəsənət" qəzetində qadınların taleyindən bəhs edən C. bu barədə Mirzə Cəlilin böyük arzularını misal gətirib yazırdı ki, ədibin fikrincə, artıq indi vəzifə "azadlığını rəsmi surətdə almış [...] qadına evdə analıq, cəmiyyətdə vətəndaşlıq hüququnu dərk etdirmək lazımdır; onun savadsızlığını ləğv etmək, onu ictimai əməyə cəlb etmək", ona "qara çadranın zülmətindən" qurtarması uğrunda mübarizə aparmaq lazımdır.

CƏFƏRZADƏ Əli İsgəndər Hacıbaba oğlu (1875-1941) – maarif xadimi, pedaqoq, naşir, metodist. Məhəllə məktəbində oxumuş, "rus-müsəlman" məktəbini bitirmişdir. N.Nərimanov qiraətxanasının müdiri (1895-1898), 2-ci "rus-müsəlman" və 2-ci dərəcəli şəhər məktəbində Azərb. dili müəllimi (1898-1920), "Nəşri-maarif" cəmiyyətində (1906-1918) katib, Azərb. SSR Xalq Maarif Komissarlığında dərslik komissiyasının üzvü, "Azərnəşr"də uşaq ədəbiyyatı şöbəsinin müdiri (1920-1932) işləmişdir. "Dəbistan" (1906-1908) və "Maarif" (1923) jurnallarının naşiri və red. olmuşdur. M. ilə ilk dəfə 1906 ilin sonu, 1907 ilin əvvəllərində Tiflisdə görüşmüşdür. 1907 il yanvarın 1-də C.Məmmədquluzadə, S.M.Qənizadə, Q.Şərifzadə, Həmzətbəy Qəbulov-Şirvanski və İ.Ə.Cəfərzadənin təsvir olunduğu məşhur fotoşəkil çəkilmişdir. C.-nin "Dəbistan" jurnalına böyük rəğbət bəsləyən Mirzə Cəlil vaxtaşırı onun fəaliyyətinə münasibət bildirmiş, haqqında "Dəbistan" adı altında iki felyeton yazaraq, əhalinin jurnala biganə münasibətini tənqid etmişdir. M. "Tohid" felyetonunda Azərb. dilinin inkişafına xidmət edən mühərrirlər sırasında C.-nin də adını çəkmişdir.

CƏFƏROV Cəfər Haşım oğlu (1914-1973) – ictimai xadim, tənqidçi, ədəbiyyatşünas, teatrşünas. Sənətşünaslıq doktoru (1961), prof. (1963), Azərb. EA m. üzvü (1962). Azərb. əməkdar inc. xad. (1972). A. Bubnov ad. Moskva Pedaqoji İn-tunu bitirmişdir (1937). Azərb. KP MK-nın şöbə müdiri (1951-1953), EA-nın Memarlıq və İncəsənət İn-tunun teatr və kino şöbəsinin müdiri (1959-1973), Azərb. KP MK ideoloji katibi (1967-1971) və s. vəzifələrdə çalışmışdır. Tənqidçi kimi yaradıcılığa 30-cu illərin axırlarında başlamışdır. Klassik və müasir Azərb. ədəbiyyatına, dünya ədəbiyyatına həsr olunmuş məqalələrin, tədqiqlərin müəllifidir. Lakin C. daha çox dramaturgiya və teatr tənqidçisi, milli teatr tarixinin tədqiqatçısıdır. "M.F.Axundovun dramaturgiyası" (1953), "C.Cabbarlı" (1960), "M.F.Axundov" (1962), "V.Şekspir" (1964), "Azərbaycanda estetik fikir tarixindən" (M.Qasımovla birgə; 1964) və s. kitabları çapdan çıxmışdır. Milli teatr tarixinə, müasir teatr proseslərinə və məsələlərinə həsr olunmuş "Azərbaycan dram teatrı tarixi" (1953, 1959, 1974), "Azərbaycan sovet dram teatrı" (1968) kimi fundamental tədqiqatları vardır. M.-nin yaradıcılığı ilə, əsas etibarilə dramaturgiyası ilə maraqlanması da onun bu tədqiqat istiqaməti ilə əlaqədardır. Onun bir çox pyeslərinin, xüsusilə, "Ölülər" komediyasının tamaşa tarixindən, səhnə təcəssümündən, bunların milli teatrın təşəkkülün-

C.Cəfərov

Ə.Cəfərzadə

dəki rolundan və əhəmiyyətindən bəhs etmişdir. "Ölülər" komediyasının səhnə tarixi onun əsərlərində əsas yer tutur. Hələ "Azərbaycan dramaturgiyası" məqaləsində (1940) tənqidçi, İsgəndər surətini təhlil edir, obrazın faciəvi mahiyyətini aydınlaşdırır, onu geridə qalmış adamların mühitində "ağıllı adamın faciəsinin klassik, bədii cəhətdən ümumiləşdirilmiş obrazı" kimi səciyyələndirirdi.

İsgəndər surətinin daha geniş və əhatəli təhlilini isə sonrakı tədqiqlərində, xüsusilə, "Azərbaycan dram teatrı" əsərində vermişdir. C. komediyanın 1916 və 1932 illərdəki tamaşalarını ən əsas cəhətləri ilə təhlil edərək, xüsusilə, ilk tamaşada pyesin səhnə yozumunu, interpretasiyasını açır, bu istiqamətdə teatrın ciddi axtarışlarını qiymətləndirir. Müəllif göstərir ki, İsgəndər faciəvi bir surət olsa da, qətiyyən passiv, həyatdan küskün qəhrəman deyildir, əksinə, tənqidçinin fikrincə, o, "öz imkanları daxilində aktivdir". C. pyesin, o cümlədən onun qəhrəmanı İsgəndər obrazının dərin bədii-fəlsəfi və psixoloji-sosial təhlilini 1966 ildə rej. T.Kazımovun yaratdığı tamaşa münasibətilə yazdığı məqalələrdə ("Ölülər" tamaşası haqqında", 1967; "Teatrda müasirlik", 1967) vermişdir. Komediyanın yeni səhnə təcəssümünün müvəffəqiyyətli çıxmasının səbəbini onun ideya-fəlsəfi mahiyyətinin, xüsusilə, baş qəhrəmanın əsas ideyasının rej. tərəfindən düzgün dərk olunmasında, müasirliyinin açılmasında görmüşdür. Tənqidçi göstərirdi ki, yeni tamaşada komediya yalnız din əleyhinə yazılmış bir əsər kimi yox, daha ciddi fəlsəfi planda şərh edilmiş, bədii konfliktin mahiyyəti "avamlıqla tərəqqinin, ölü şüurla diri şüurun, ətalətlə hərəkətin mübarizəsində axtarılıb tapılmış və bu səpkidə də, izah edilmişdir. Məhz buna görə də, tənqidçi komediyanı "bəşəri bir faciə kimi" səciyyələndirmişdir.

CƏLİLABAD (1967 ilədək Astraxanbazar) – Azərb. Resp.-da şəhər (1952 ildən). Cəlilabad r-nunun mərkəzi. Cənubi Muğan düzündə, Mişar çayı sahilində, Bakıdan 215 km məsafədədir. M.-nin şərəfinə adlandırılmışdır.

"CƏM" – siyasi və ədəbi-yumoristik həftəlik jurnal. 28 noyabr 1910 – 6 oktyabr 1912 illərdə 43 nömrəsi, 10 dekabr 1927 – 2 may 1929 illərdə isə 49 nömrəsi (cəmi 92 nömrə) çıxmışdır. 77 nömrəsi ərəb əlifbası ilə, 15 nömrəsi isə latın əlifbası ilə çap olunmuşdur. Əvvəllər türk və fransız dillərində, 1927 ildən təkcə türk dilində nəşr edilmişdir. Sahibi və məsul müdiri Cəmil (Cəm), baş red. Rafiq Xalid (Karay) olmuşdur. 16 səhifəlik idi. Dövrün ictimai nöqsanlarını kəskin tənqid edən jurnalda əsasən yumoristik şeirlər, hekayələr, felyetonlar və karikaturalar dərc olunurdu.

"Anamın kitabı" pyesindən səhnə. 1926-1927-ci illər.

Ç

ÇAKƏR Molla Mahmud (1871-1933) – M.-nin naxçıvanlı müasirlərindəndir. Klassik üslubda şeirlər yazmış, Naxçıvan teatrında aktyorluqla məşğul olmuşdur. "Sabirin yadigarına ithaf" şeirinin müəllifidir. Ruhanilik etdiyi də məlumdur. Mirzə Cəlil, Əliqulu Qəmküsar və "Molla Nəsrəddin" jurnalında Ç.-in aktyorluq işini təqdir etmiş, şeirlərindəki epiqonçuluğa, fəaliyyətindəki mövhumatçılığa tənqidi münasibət bəsləmişlər.

ÇANDAR Krişan, Krişan Çandar (1913-1977) – hind yazıçısı. Mütərəqqi Hindistan yazıçıları cəmiyyətinin baş katibi olmuşdur. "Tarlalar oyanır" povesti (1951), "Fırtına salxımları" (1954), "Məcburiyyət" (1958) romanları və "Ulağın sərgüzəştləri" (1958-1965) satirik trilogiyasında aktual ictimai problemlər, zəhmətkeş kəndli həyatı əksini tapmışdır. M.-nin 100 illik yubileyinin qonağı olmuş, mətbuatda məqalələri nəşr edilmişdir. "Əsl inqilabçı ədib" məqaləsində Ç.K. "bu gözəl sənətkar haqqında ürək sözlərini" söyləyə bildiyi üçün özünü xoşbəxt sayır. O, M.-ni Azərb. ədəbiyyatına yenilik gətirən, feodal təmayülündən demokratizmə, sonra da sosial məzmununa qədər böyük bir yol keçən yazıçı hesab edir. Ç.K.-a görə, M. Azərb.-da təkcə ədəbiyyat və incəsənət tarixində deyil, həm də ictimai həyat tarixində yeni səhifə açmışdır. "Onun yaradıcılığı təkcə özünün doğma Azərbaycan xalqı üçün deyil, həm də Asiyanın bütün xalqları üçün, xüsusən, bu gün öz azadlıq və milli istiqlaliyyəti uğrunda mübarizə aparan xalqlar üçün misilsiz əhəmiyyətə malikdir" ("Bakı" qəzeti, 1967, 5 iyun). Bu sözləri və bütün əsərləri aydın göstərir ki, Ç.K. və M. yaradıcılıqları, xüsusilə, onların satirik irsi arasında səsləşən xəlqi xüsusiyyətlər vardır.

"ÇAY DƏSTGAHI" – M.-nin 1889 ildə qələmə aldığı ilk, bir pərdəlik, alleqorik, mənzum pyes. Həm ideya-məzmun, həm də sənətkarlıq baxımından zəif olan bu əsər M.-nin yaradıcılıq istiqaməti, demokratizmi, tənqidi realist ədəbiyyata, satira və yumora olan meyl və

Çandar Krişanın əsərlərindən rəsmlər.

Y.Çəmənzəminli

A.Çernyayevski

G.Çiçerin

B.Çobanzadə

rəğbəti haqqında təsəvvür yaratmaq baxımından qiymətlidir. Əsərdəki nökər Əli obrazından başqa, qalan alleqorik obrazlar – çay dəstgahına lazım olan əşyalardır: Samovar, Padnos, Çaynik, Stəkan, Nəlbəki, Qaşıq və s. Əsərdəki bu obrazlar şəxsləndirilmədiyi üçün tam, tutumlu alleqorik obrazlar səviyyəsinə ucala bilməmişdir. Əsərdə nökər Əlinin taleyi sərt ictimai təbəqə və ziddiyyətlər fonunda əks etdirilmişdir. M.-nin sonrakı yaradıcılığında bunu dövrün hökmran əxlaq zorakılığının tənqidi əvəz edir. Əsərlərinin mövzu dairəsi genişlənir, ideya məzmunu zənginləşir, sənətkarlığı ona şöhrət gətirən "Ölülər" və "Dəli yığıncağı" əsərlərinin ucalığına yüksəlir, gülüşünün qüdrəti "Molla Nəsrəddin"i yaradır və yaşadır.

ÇERNYAYEVSKİ Aleksey Osipoviç (1840-1894) – Azərb. maarifçisi, pedaqoq-metodist. Şamaxıda ali dördsinifli məktəbdə oxumuşdur (1854-1857). Əmək fəaliyyətinə kənd poçtunda başlamış, müəllimlik etmiş, 1866 ildə Mərəzə k.-də ilk xalq məktəbi yaratmışdır. Bakı quberniyası – Dağıstan vilayəti xalq məktəblərinin direktor köməkçisi (1876), Kuban xalq məktəblərinin direktor müavini (1876-1879), Qori (Zaqafqaziya) müəllimlər seminariyası Azərb. şöbəsinin ilk müfəttişi (1879-1893) vəzifələrində işləmişdir.

K.D.Uşinskinin mütərəqqi pedaqoji ideyalarının Azərb.-da ilk davamçılarından biri, Şərqdə səs (sövti) üsulu ilə yazılmış ilk "Vətən dili" (I hissə, 1882; II hissə, 1888 ildə – S.Vəlibəyovla birlikdə), "Rus dili" (1883) dərsliklərinin müəllifidir. Azərb.-da ziyalı (xüsusən, müəllim) kadrlarının (F.Köçərli, R.Əfəndiyev, M.Mahmudbəyov, T.Bayraməlibəyov, Ə.Xəlilov, S.S.Axundov, C.Məmmədquluzadə, N.Nərimanov və b.) hazırlanmasında xidməti olmuşdur. O, Azərb. dilində "Fikir" adlı qəzet nəşr etməyə təşəbbüs göstərmişdir (1894). M. ilk dəfə Ç. ilə 1879 ildə Naxçıvanda görüşmüş, 1882-1887 illərdə isə Qori seminariyasında onun idarə etdiyi Azərb. şöbəsində oxumuşdur.

M.-nin dünyagörüşünün formalaşmasında Ç. həlledici rol oynamışdır. M. "Abrin və kilab" felyetonunda bu haqda məlumat vermişdir. Mirzə Cəlil Ç.-yə böyük məhəbbət bəsləmişdir. Həmidə xanımın verdiyi məlumata görə, ədib "Çernyayevski və onun arvadını çox sevir, onlara dərin hörmət bəsləyir, şəkillərini özündə saxlayırdı".

ÇƏMƏNZƏMİNLİ Yusif Vəzir (Yusif Mirbaba oğlu Vəzirovun təxəllüsləri) (1887-1943) – yazıçı, alim. İbtidai və orta təhsilini Şuşa və Bakı realnı məktəblərində almışdır. Kiyev un-tinin hüquq fakültəsini bitirmişdir (1915). İlk yazısı "Molla Nəsrəddin" jurnalının 1906 il 24-cü sayında dərc olunmuşdur. Onun kiçik, yığcam və lakonik hekayələrində Mirzə Cəlil və Sabir satirasının güclü təsiri hiss olunurdu. Ç. yazdığı hekayələri "Qanlı göz yaşları", "Həyat səhifələri", "Cənnətin qəbzi" adlı kitablarda çap etdirmişdir. "Cənnətin qəbzi" ədəbiyyatımızda klassik hekayə nümunəsi kimi böyük şöhrət qazanmışdır. Əsər M. tərəfindən təqdir edilmişdir. Ç. eyni zamanda karikaturalar da çəkərək ara-sıra "Molla Nəsrəddin" jurnalında çap etdirirdi. Ç. 1919-1925 illərdə İstanbul və Parisdə yaşamışdır. 1926 ildə Vətənə qayıtmış, bədii və elmi yaradıcılıqla məşğul olmuşdur. "Qızlar bulağı" və "Qan içində" adlı məşhur romanlarını yazmışdır.

ÇİÇERİN Georgi Vasilyeviç (1872-1936) – sovet dövlət xadimi. Peterburq un-tini bitirmiş (1896), 1904 ildə Almaniyaya mühacirət etmişdir. 1917 ildə Rusiyaya qayıdan Ç.-in siyasi görüşləri və fəaliyyəti ziddiyyətli idi. Oktyabr inqilabından sonra bolşevizm mövqeyinə keçmişdir. 1918 ildən RSFSR, 1923-30 illərdə SSRİ Xalq Xarici İşlər komissarı olmuşdur. İnqilabi hərəkata, beynəlxalq münasibətlər və mədəniyyət tarixinə, mətbuata dair əsərləri və çıxışları var. 20-ci illərdə dəfələrlə Bakıda olmuş, 4-cü Azərb. Sovetlər qurultayında, Azərb. MİK, AHİŞ, Bakı Soveti plenumlarında iştirak etmiş, nitqlər söyləmişdir. O, Azərb. mədəniyyəti və mətbuatı məsələlərindən danışarkən əsassız tənqidə də yol verirdi. Belə çıxışları Azərb. hökumətinin və ziyalıların, xüsusilə, C.Məmmədquluzadə, R.Axundov və b. ciddi etirazına səbəb olmuşdu. Xalq Komissarlar Şurasının sədri D.Bünyadzadə onun belə tənqidlərinə cavab vermişdi.

ÇOBANZADƏ Bəkir Vahab oğlu (1893-1938) – Krım-tatar və Azərb. dilçisi, ədəbiyyatşünas, müəllim, şair. Filol.

e.d. (1920). 1909-1914 illərdə İstanbulun "Sultani" liseyində oxumuş, 1918 ildə Budapeşt un-tini bitirmişdir. Macarıstan Sovet Resp.-nın (1919) qurulmasında fəal iştirak etmişdir. Budapeşt və Lozanna untlərinin (1919-1920), Krım un-tinin (1922 ildən), ADU-nun (1924-1930) prof., SSRİ EA Zaqafqaziya Filialı Azərb. Şöbəsinin (1932 ildən), SSRİ EA Azərb. Filialının (1935 ildən) həqiqi üzvü, Paris Dilçilik Cəmiyyətinin (1935 ildən) üzvü olmuşdur. Türkdilli xalqların ədəbiyyat və folkloruna, dil tarixinə dair əsərləri və Azərb.-da elmi kadrlar hazırlanmasında görkəmli xidmətləri var. 1924 il sentyabrın 7-dən oktyabrın 20-dək M. və digər ziyalılarla birlikdə Azərb. MİK-nin sədri S.Ağamalıoğlunun başçılıq etdiyi nümayəndə heyətinin tərkibində Krıma, Tatarıstan və Orta Asiyaya gedərək, latın hürufatının türk xalqlarının vahid əlifbasına çevrilməsinə səy göstərmişdir. "Azəri ədəbiyyatının yeni dövrü. Nasionalizmdən internasionalizmə" (B., 1930) əsərində 1905 il inqilabından sonra Azərbaycanda yaranan "Füyuzat" və "Molla Nəsrəddin" ədəbi məktəblərinin sosial və ədəbi problemlərə münasibəti haqqında məlumat verir və belə bir nəticəyə gəlirdi: "Molla Nəsrəddin" ədəbiyyatçılar qrupu dildə Azərbaycan ləhcəsinə dayanmaqla bərabər, öz ədəbi proqramlarında "Füyuzat" və "Şəlalə"çilərdən çox irəli getmişlərdir". Mollanəsrəddinçilərin ədəbiyyata gətirdikləri yenilikləri xüsusi qeyd edən Ç. fikirlərini sübuta yetirmək üçün Sabir şeirlərini, M.-nin "Ölülər" komediyasını təhlil edir. Mollanəsrəddinçilərin "Şeyx Nəsrullah Şeyx Əhmədləri və onların minlərcə prototiplərini tapıb məsxərə" etdiklərini qeyd edən Ç. "Qərb və Şərq elm və fənlərini özündə birləşdirən "şeyxlərin qəramatına inanan", "müsəlman əqidələrindən zərrə qədər ayrılmamış" Əli bəy və Heydər ağa obrazlarını təhlil edir və belə hesab edirdi ki, "bunların da "Ölülərdən" olduğunu göstərməklə Cəlil Məmmədquluzadə öz vaxtının islahatçılarından bir addım daha irəli getmiş olur". "Türk qrameri" (B., 1930, F.Ağazadə ilə birlikdə) və s. kitabların müəllifidir. Şəxsiyyətə pərəstiş dövründə faciəli surətdə məhv edilmişdir.

"Ölülər" pyesi Azərbaycan Dövlət Dram Teatrının səhnəsində. 1932-1933-cü illər.

DADAŞOV Ağaəli Abbasəli oğlu (1906-1973) – rejissor. Azərb. əməkdar art. (1959). Bakı Teatr Texnikumunda oxumuş (1926-1928), A.V.Lunaçarski ad. Moskva Dövlət Teatr Sənəti İn-tunu bitirmişdir (1935). ADT-nda işləmiş, Gəncə Dram Teatrında "Ölülər" tamaşasını hazırlamışdır (1939). 1940 illərdən başlayaraq Azərb. Dövlət Musiqili Komediya Teatrı və Ağdaş Dövlət Dram Teatrında bədii rəhbər, "Azərbaycanfilm" kinostudiyasında, Azərb. Dövlət Gənc Tamaşaçılar Teatrında rej. işləmişdir. 1956 ildən Azərb. televiziyasında 100-dən artıq televiziya verilişi və tamaşası (o cümlədən M.-nin əsərlərini) hazırlamışdır.

M.Dadaşov

DADAŞOV Məlik Yusif oğlu (1924-1996) – teatr və kino aktyoru. Azərb. xalq art. (1974). Azərb. Dövlət mükafatı laureatı (1986). 1950 ildə Azərb. İncəsənət İn-tunu bitirmişdir. 1950 ildən ömrünün sonunadək (1960-1965, 1988-1993 illərdə fasilələrlə) ADT-də çıxış etmiş, burada "Ölülər" tamaşasında Şeyx Nəsrullah obrazını böyük ustalıqla yaratmışdır. 1988-93 illərdə S.Vurğun ad. Azərb. Dövlət Rus Dram Teatrının aktyoru (1990 ildən həm də direktoru) olmuşdur. Komediya və dram janrında müxtəlif səciyyəli xarakter obrazlar yaratmışdır. Filmlərə çəkilmiş, 1960 ildən pedaqoji fəaliyyət göstərmişdir. M.-nin "Ölülər" pyesi əsasında çəkilmiş "O dünyadan salam" (1992, rej. T.Tağızadə) bədii filmində Şeyx Nəsrullah rolunu ifa etmişdir.

S.Dağlı

DAĞLI (Seyfəddin Əliağa oğlu Abbasovun təxəllüsü) (1921-1983) – nasir, dramaturq, publisist. Tələbə vaxtından "Kommunist" qəzeti redaksiyasında çalışmış, məsul katibliyə qədər yüksəlmişdir. 1941-1956 illərdə ordu mətbuatında

M.Dadaşov M.-nin "Ölülər" əsərində Şeyx Nəsrullah rolunda.

əməkdaşlıq etmiş, 1956-1959 illərdə Azərb. Radio Komitəsində baş red. olmuşdur. 1959-1976 illərdə "Kirpi" satirik jurnalının məsul red. işləmişdir. "Dəniz kəşfiyyatçısı" adlı ilk oçerklər məcmuəsi 1948 ildə çıxmışdır. "Bahar oğlu" romanı Cəfər Cabbarlıya həsr olunmuşdur. O, "Göyçək oğlan", "Vergülağa və Absətəli", "İpək gülü", "Aldada bilməzsən" kimi satirik hekayə və povestlərin müəllifidir.

Müxtəlif janrlarda yazan D. üçün ədəbi gülüş ən əsas, ən xoş üsul olmuşdur. O, bu işdə mollanəsrəddinçi satirikləri öz ustadı sayır və bununla haqlı fəxr edirdi. "Kirpi" jurnalında işlədiyi illərdə D. milli jurnalistikamızda M. ənənələrinin davamı və inkişafı məsələsinə xüsusi diqqət yetirmişdir.

"DANABAŞ KƏNDİNİN ƏHVALATLARI" – M.-nin 1894 ildə yazdığı "Eşşəyin itməkliyi" və "Danabaş kəndinin

məktəbi" əsərlərinin ümumi adı. Tədqiqatçıların əksəriyyətinin fikrinə görə, M. bu ad altında silsilə əsərlər yazmağı nəzərdə tutubmuş. Həmin əsərlər "D.k.ə." ümumi ad – sərlövhə altında birləşəcəkmiş. Onlardan biri ("Eşşəyin itməkliyi") yazılmış, ikincisi ("Danabaş kəndinin məktəbi") yarımçıq qalmışdır. "D.k.ə." adı isə "Eşşəyin itməkliyi" üzərində qalmış, bu povest "D.k.ə." adı ilə məşhurlaşmışdır. Əsər ilk dəfə yazıçının ölümündən sonra ayrıca kitabça kimi dərc olunmuş (1936), sonralar ədibin müxtəlif kitablarına, o cümlədən "Əsərləri" (1936), üçcildlik və altıcildlik "Əsərləri"nin I cildinə (1966, 1983) daxil edilmişdir. Əsərin sərlövhəsindən sonra kiçik bir remarka ("Nağıl edibdi lağlağı Sadıq. Yazıya götürübdü qəzetçi Xəlil") və Sokratın sözlərindən epiqraf verilib: "Qəlbimdən gələn səs mənə çox zadlar öyrədir. Haman səs pak və təmiz insafımın səsidir ki, hamıda o insaf var. Hər kəs guş-huş ilə onun buyurduğuna qulaq asıb, əmrinə əməl eləsə, çox sirlərdən agah olub, çox şeylər bilər. Sokrat". Üç hissədən ibarət olan "D.k.ə." "Bir yüngülvari müqəddimə" ilə başlanır. Xəlilin dilindən söylənən bu müqəddimədə Danabaş kəndinin iki sakini – qoltuqçu Xəlillə baqqal Sadığın şəxsiyyəti təqdim edilir. Hər kəsə bir ayama-ləqəb qoşulan Danabaşda Xəlilə savadlı olduğu üçün "qəzetçi", Sadığa isə çox və məzəli danışdığına görə "lağlağı" ləqəbi qoyublar. İki ildən bəri dostluq edən bu 30 yaşlı şəxslərin arasında belə bir söhbət olur:

"– Xəlil əmoğlu, mənim bir arzum var.

Dedim:

– Qardaşım, nədir arzun?

Dedi:

– Əmoğlu, mən artıq əfsus eləyirəm ki, biz ölüb gedəcəyik, amma bu gözəl əhvalatlar yaddan çıxacaqlar.

Dedim:

– Əmoğlu, heç ürəyini sıxma, mən əhvalatları götürərəm yazıya və bir kitab bağlayıb adını qoyaram "Danabaş...". Biz ölüb gedərik, mən vəsiyyət elərəm ki, mən öləndə məni nə Kərbəlaya aparsınlar, nə də mənə ehsan versinlər... Mən vəsiyyət elərəm ki, var-yoxumu satıb pul eləsinlər və yazdığım əhvalatları versinlər çapa və kitabları müftə paylasınlar onabuna.

Bu sözləri mən dedim qurtardım və Sadıq cəld yerindən durub gəldi və məni bərk qucaqladı, o üzümdən, bu üzümdən öpdü və ağlaya-ağlaya dedi:

– Əmoğlu, mənim arzum məhz bu idi. Bunu sən əmələ gətirdin, Allah səni hər iki dünyada həsrət qoymasın.

Sonra hər nə Sadığın fikrinə gələrdi, hər bir yaxşı xəbərlər, əhvalatlar eşidərdi, ya qeyri bir mətləb yadına düşərdi, əlüstü gəlib məni tapardı. Mən çıxardardım dəftəri, götürərdim qələmi və yazardım...".

Beləliklə, "D.k.ə." qələmə alınma səbəbi və şəraiti aydınlaşır. Bundan sonra povestin əsas hissəsi – "Eşşəyin itməkliyi" nağıl olunur. Bu hissədə "D.k.ə."-da Xudayar bəyin özbaşına idarə üsulu, Məhəmmədhəsən əmi və Zeynəbin başına gələn əhvalatlar, onların müsibətləri göstərilir. Povest "Xitamə" adlanan hissə ilə tamamlanır.

"DANABAŞ KƏNDİNİN MƏKTƏBİ" – M.-nin dram əsəri. 1921 ildə yazılmışdır. Pyesdə XIX əsrin axırlarında Azərb. həyatının ictimai-mədəni mənzərəsini əks etdirən hadisələr təsvir olunur. Burada sənətkarın adi məişət hadisələrində böyük ictimai problemləri əks etdirmək istedadı aydın nəzərə çarpır. Azərb.-ın kəndlərinin birində – Danabaş kəndində məmurların ilk baxışda yaxşı bir niyyət kimi görünən məktəb açmaq ideyası ilə yerli əhalinin bu hadisəyə mənfi münasibəti arasındakı ziddiyyət komik konfliktin əsasında dayanır. Burada həm məmurların öz hakimlik və müstəmləkəçilik fikirlərini həyata keçirmək cəhdləri, həm də kəndlilərin nadanlığı, mənəvi ölülüyü bədii şəkildə ifadə olunmuşdur.

Əsərdə mənəvi geriliyin əsas səbəbi bir tərəfdən əsrlərdən bəri davam edən

"Danabaş kəndinin məktəbi" tamaşasından səhnə.

"Danabaş kəndinin məktəbi" tamaşasından səhnələr.

R.Darabli



Ç.Darvin

feodal əxlaqının təsiri ilə izah olunursa, digər tərəfdən çarizmin yerlərdə yeridilən mənfur ruslaşdırma siyasəti nəticəsində əhalidə xof və nigarançılığın əmələ gəlməsi ilə izah edilir. Bu ideyanı janrın tələbləri mövqeyindən açmaq üçün dramaturq maraqlı komik vasitələrdən istifadə edərək yüksək bədii keyfiyyətlərə malik bir komediya yaratmışdır. Pyesdə ictimai-əxlaqi ideyanı komik vəziyyətlərdə açmaq üsulu üstünlük təşkil edir. Başqa komediyalarında olduğu kimi, bu əsərdə də müəllif "kütləvi obraz" vasitəsindən istifadə etməklə dövrün, mühitin mənzərəsini əks etdirə bilmiş və bu ümumi obrazlarda xalqın düşdüyü vəziyyətin səbəblərini aydınlaşdırmışdır.

Pyes dəfələrlə tamaşaya qoyulmuş və tamaşaçıların rəğbətini qazanmışdır.

DARABLI (Hüseynov) Rza Nəcəfəli oğlu (1883-1942) – aktyor, rejissor. Azərb. əməkdar art. (1933). Səhnəyə 1915 ildə gəlmiş, komik rolların ifaçısı kimi məşhurlaşmışdır. 1929 ildən ADT-da aktyor və rej. işləmişdir. M.-nin "Ölülər" əsərinin tamaşasına quruluş vermiş (1933) və bu tamaşada Məşədi Oruc rolunu oynamışdır. Bakı Türk İşçi Teatrında da rej.-luq etmiş, kinofilmlərə çəkilmişdir.

DARVİN Çarlz Robert (1809-1882) – ingilis təbiətşünası. Təbii seçmə yolu ilə heyvan və bitki növlərinin əmələ gəlməsi haqqında təkamül təliminin və Yer kürəsində üzvi aləmin materialist təkamülü

nəzəriyyəsinin – darvinizmin banisidir. D. Kembric un-tini bitirmiş, 1831-1836 illərdə "Biql" gəmisi heyətində dünya səyahətinə çıxmış, heyvan və bitkilər üzərində elmi müşahidələr apararaq ilk elmi əsərlərini yazmışdır. O göstərirdi ki, təkamül prosesinin əsas səbəbi təbii seçmə, yəni yaşayış mühitinə daha çox uyğunlaşan fərdlərin sağ qalmasıdır.

Darvin və onun təbiət fəlsəfəsi, insanın mənşəyinə dair elmi təlimi M. və digər mollanəsrəddinçilər tərəfindən yüksək qiymətləndirilərək dini, idealist nəzəriyyələrə qarşı qoyulurdu. Məsələn, M. "Unudulmuş elmlər" məqaləsində yazır: "Professor Makovelski fəxr edir ki, Rusiya Akademiyasının üzvlərinin biri də məşhur Darvin imiş". ("Molla Nəsrəddin" jurnalı, 1925, 12.9. №37).

DAŞ BASMASI, litoqrafiya – rənglə örtülmüş yastı çap formasındakı şəklin təzyiq altında bilavasitə köçürülməsindən (surətin alınmasından) ibarət çap üsulu. Çap forması hamar (qələm və ya fırça ilə çəkilmiş rəsmin surətini almaq üçün), yaxud dənəvər səthli (litoqrafiya karandaşı ilə çəkilmiş rəsmin surətini almaq üçün) əhəngdaşından ibarətdir. Daşın üzərində yağlı tuş (qələm, yaxud fırça ilə), yaxud litoqrafiya karandaşı ilə rəsm çəkilir, sonra o, kimyəvi turşunun təsiri ilə işlənir. Turşu daşın tuş, yaxud karandaş dəyməyən yerlərini aparır və onun səthində qabarıq rəsm qalır. Formanın üzərindəki tuş silindikdən sonra rəsmə xüsusi mətbəə rəngi çəkilir və təsvir kağıza köçürülür. Bir çap formasından çoxlu rəsm çıxarmaq mümkündür. Bu üsulu 1798 ildə Almaniyada A.Zenefelder icad etmişdir. Azərb.-da bu üsuldan XIX əsrdən başlayaraq istifadə edilmişdir. "Molla Nəsrəddin" jurnalının karikaturaları da bu üsulla çap olunurdu.

DAVATDAROV Müzəffər İbrahim bəy oğlu (1900-1959) – Həmidə Məmmədquluzadənin ilk nikahdan olan oğlu. Tiflisdə realnı məktəbi bitirmişdir. Sovet hakimiyyəti illərində Bakıda yaşamışdır. Müxtəlif təşkilatlarda mühasib işləmişdir. M.-nin qızı Münəvvər ilə ailə qurmuş, sonradan ayrılmışlar. M.-nin xatirə əşyalarının, sənədlərinin və əlyazmalarının qorunub saxlanmasında xidməti olmuşdur.

DAVUDOVA Mərziyə Yusif qızı (1901-1962) – aktrisa. SSRİ xalq art. (1949). SSRİ Dövlət mükafatı laureatı (1948). Səhnə fəaliyyətinə 1917 ildə Həştərxanda başlamışdır. H.Ərəblinskinin dəvəti ilə Bakıya gəlmiş, 1920 ildən Birləşmiş Dövlət Teatrının (indiki ADT) səhnəsində çıxış etmişdir. Geniş yaradıcılıq diapazonuna malik olan D. müxtəlif xarakterli rolları eyni ustalıqla oynamışdır. C.Məmmədquluzadə, H.Cavid, C.Cabbarlı, M.İbrahimov, S.Vurğun, Ə.Məmmədxanlı kimi dramaturqların əsərlərində səhnə həlli baxımından maraqlı, orijinal obrazlar yaratmışdı. Qərb və rus klassik dramaturgiyasının, xüsusən, Şekspir və Ostrovskinin qadın personajları D.-nın təfsirində öz uğurlu səhnə təcəssümlərini tapmışlar. Dərin realizm, lirik-romantik xarakterlərə meyl, psixoloji dəqiqlik və həssaslıq onun yaradıcılığı üçün səciyyəvidir. D. 1956-1962 illərdə Azərb. Teatr Cəmiyyətinə rəhbərlik etmiş, ölkəmizdə teatr sənətinin inkişafına bir təşkilatçı kimi də öz töhfəsini vermişdir.

M.Davudova

DEHXUDA Mirzə Əliəkbər xan Xanbaba xan oğlu Qəzvini (1889-1956) – İran yazıçısı, alim, ictimai xadim. Təhsilini Tehranda siyasi mədrəsədə almışdır. D. 1907-1908 illərdə Tehranda Mirzə Cahangir xan Şirazi və Mirzə Qasım xan Təbrizi ilə yaxından tanış olaraq birlikdə "Suri-İsrafil" qəzetini təsis edirlər. O, "Molla Nəsrəddin" jurnalını oxumuş, M.-nin yaradıcılığı ilə yaxından tanış olmuşdur. "Molla Nəsrəddin" jurnalı D.-nın ictimai-siyasi görüşlərinin və yaradıcılıq üslubunun formalaşmasına güclü təsir göstərmişdir. D. "Suri-İsrafil" satirik qəzetinin "Çərənd və pərənd" satira şöbəsinə rəhbərlik edərək ən tutarlı satirik şeir və felyetonlarını orada dərc etdirirdi. D. müasir İran ədəbiyyatında satiranın banisi kimi tanınmışdır. O, "Atalar sözü və zərbülməsəllər" (4 cilddə) kitabının, 50 cildlik böyük ensiklopedik "Lüğətnamə"nin müəllifidir.

"DƏBİSTAN" – Azərbaycan dilində ilk uşaq jurnalı. 1906-1908 illərdə Bakıda nəşr olunmuşdur. "Dəbistan"ın 1906-cı il 1-15-ci sayları Məhəmmədhəsən Əfəndizadə və Əli İsgəndər Cəfərzadənin naşirliyi və mühərrirliyi ilə çıxmışdır. Həmin ilin 7 dekabrından etibarən jurnal Ə.İ.Cə-

fərzadə tərəfindən nəşr edilmişdir. "Dəbistanın məqsədi" öz hallarına dair gülməli və ibrətamiz hekayələr və mənzumələr" vasitəsilə millət balalarının "əql, zehn, əxlaqi-həsənə və hissiyyatların oyandırıb günbəgün tərəqqi etmələrinə səbəb" olduqdan və onlardan "zəhmətkeş, xadimi-din və millətpərəst və vətənpərvər cavanlar yetirmək"dən ibarət idi. Jurnala iki ayda bir dəfə əlavə "Valideynə məxsus vərəqə" çap olunurdu. Dəbistanda H.Zərdabi, S.M.Qənizadə, H.Ağayev, M.Hadi, A.Səhhət, A.Şaiq, S.Əbdülrəhmanbəyov, M.Əfəndizadə, M.H.Qüdsi, İ.T.Musayev və b. iştirak edirdilər. "Molla Nəsrəddin"lə "Dəbistan" arasında ideya yaxınlığı vardı. Bu, cəmiyyəti yenidən qurmaq və yeni tipli vətəndaş tərbiyə etmək uğrunda mübarizədə təzahür edirdi. M. "Dəbistan" felyetonunda və digər yazılarında jurnalın uşaq mütaliəsində rolunu yüksək qiymətləndirir, valideynlərin ona biganə münasibətindən və abunəçilərinin azlığından təəssüflənirdi.

DƏCCAL – bir neçə mənalı sözdür: islamiyyətdə qiyamət günü zühur edəcək əfsanəvi şəxs; xristianlarda İsa peyğəmbərin düşməni və s. Rəvayətə görə, guya D. uzaq bir dəniz sahilində qayaya zəncirlənmişdir; o, insanları aldadıb, Məkkə və Mədinə istisna olmaqla, bütün yer üzündə hökmranlıq edəcəkdir.

D. haqqında rəvayət və əfsanələr Azərb. klassik ədəbiyyatında, xüsusilə, "Molla Nəsrəddin" jurnalında dərc olunmuş əsərlərdə satirik planda istifadə olunmuşdur. M.Ə.Sabir, Ə.Haqverdiyev, Y.V.Çəmənzəminli və M. dəfələrlə D., Dəccalabad surətlərinə müraciət etmişlər.

"Dəli yığıncağı" əsərindən səhnə.

"DƏLİ YIĞINCAĞI" – M.-nin pyesi. Dünya ədəbiyyatındakı orijinal tragikomik pyeslərdən biri. M. əsəri 1927 ildə Bakıda yazmışdır. Özünün ideya-məzmun xüsusiyyətləri, hadisələri, obrazları ilə pyes şərti, simvolik xarakterdədir. Əsas məsələ Şimali və Cənubi Azərb., İran və bəzi b. Şərq ölkələrində davam edib gələn dini mövhumat və xurafatın cürətli, kəsərli ifşasıdır. Əsərdə süjet, kompozisiya, hadisələr komik, insanların çoxu gülünc, əsasən təəssüf, qəzəb və nifrət oyadıcıdır. Buradakı "farmasyonluq" da real tarixi məsələdir.

Komediyadakı Dəli Molla Abbasın proobrazları 19 əsr Naxçıvan farmasyonlarından Kərbəlayı Abbas və Abbas Vəzirovdur; farmasyon Rüstəm də xaraktercə, ruhən onlara yaxındır. Süjetdə əsas məsələlər özünü xalqa möhtərəm bir şəxsiyyət kimi göstərən Fazil Məhəmmədin, habelə, Hacı Xudaverdi, Haci Cəfər və s. köhnəpərəst, əxlaq düşkünlərinin boğazdan yuxarı dua vird etmələrinin, Mehdi Sahibəzzaman və başqalarının işdəklərinin əsl həqiqətdə "dəlilik"dən qeyri bir şey olmadığını tamaşaçıya çatdırmaq, onu ayıq salmaq, oyatmaqdır.

Bu tiplərin səciyyəvi sifətlərindən biri vaxtilə M.F.Axundovun "Kəmalüddövlə məktubları"nda ifşa olunan möcüzə və "xəvariqat"dır. Molla Abbasın camaatı başına yığıb "həzrətin tumanbağısına lağ etməsi" haqqında hacılardan birinin şikayətində və başqa bir hacının "qurban olum həzrətin tumanına da, tumanbağısına da!" sözlərində M.-nin dini xurafata qəhqəhəsi öldürücü bir halda meydana çıxır.

Bir sıra Şərq təriqətlərində olduğu kimi, farmasyonlar da Fazil Məclisi, Məhəmməd Yəqub Küleyni təki "üləmaya", "İxtiyarat", "Üsuli-kafi" kimi sxolastik kitablara gülür, "imamın zühurunun söhbətində [...] mayallaq aşır, "atabir, anabir qardaşlarının əxlaqsızlığını, öz qardaşı arvadı ilə "cimdik-cimdik" oynadıqlarını görüb hiddət və nifrətlə qəhqəhə qoparırlar.

M. bu acı və gülünc həqiqətləri ürəyinin müsibətdən, biabırçılıqdan partlamaq dərəcəsinə gəldiyi bir vəziyyətdə qələmə alıb təsvir etmişdir. O, göstərmiş-

Азәрбајчан ССР Мәдәнијјәт Назирлији

М. Әзизбәјов адына
Ленин ордени və Гырмызы
Әмәк Бајрағы ордени
Азәрбајчан Дөвләт Академик
ДРАМ ТЕАТРЫ

БУКУН

Чәлил МӘММӘДГУЛУЗӘДӘ

ДӘЛИ ЈЫҒЫНЧАҒЫ

Ики һиссәли фачиәви комедија

Гурулуңчу режиссор — Мејди МӘММӘДОВ
(ССРИ хәлг артисти)

Режиссор — Мәммәдкамал КАЗЫМОВ

Рәссам — Елчин МӘММӘДОВ

Бәстәкар — Чаһанкир ЧАЛЫШКЫРОВ
(Азәрб.ССР хәлг артисти. ССРИ Дөвләт мүкафаты лауреаты)

1977—1978-чи илләр мөвсүмү



Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında
səhnəyə qoyulmuş **"Dəli yığıncağı"** əsərindən səhnələr.

Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında
səhnəyə qoyulmuş **"Dəli yığıncağı"** əsərindən səhnələr.

dir ki, "dılğır" adlandırdıqları həmvətənlərinin ehtiyac və dərdlərinə göz yuman, laqeyd qalan, yerli xalqla onun ana dilində danışa bilməyən hakimlərin "millətçiliyi" də, Lalbyüz kimi əcnəbi həkimlərin mənəvi yoxsulluğu, vaizlərin ölüm havası çalan moizələri də pyesin Abbas, Sona, Rüstəm kimi qeyrətli, sevimli, yazıq qəhrəmanlarını dözülməz dərdə düçar etmişdir.

Beləliklə, əsərdə "dəlilik" mövzusu dərindən açılır; mənfi surətlərin nəzərində "dəlilik" hesab olunan "farmasyonluq" – mövcud həyata biganəlik, ən son nəticədə cəmiyyətə, təbiətə tənqidi münasibət bəsləyən ağıllı, namuslu adamların faciəli taleyinin qeyri-adi təzahürü kimi mənalandırmağı tələb edir və bəraət qazanır. "Ölülər"də olduğu kimi, burada da ədibin gəldiyi nəticə bu idi ki, "dəli"lərin əslində ağıllı, "ağıllılar"ın isə əslində dəli olduğunu düşünmək lazım gəlir. M. özünün klassik yaradıcılıq ənənələrinə sadiq qalıb, yeni dövrdə onları sənətin yeni dili, yeni qanunları ilə təcəssüm etdirmişdi.

"D.y." pyesi dəfələrlə Azərb. teatrlarında tamaşaya qoyulmuşdur.

"DƏLLƏK" – M.-nin ilk mətbu hekayələrindən biri. "Molla Nəsrəddin" jurnalının 1906, 7 və 14 aprel tarixli 1 və 2-ci saylarında "Lağlağı" imzası ilə çap olunmuşdur. Yazıçı olduqca yığcam süjet ətrafında müsəlman məişətinin səciyyəvi mənzərəsini yarada bilir. "Sadıq kişinin on yaşında oğlu Məmmədvəlinin gözlərinin ağrıması" bəlkə də elə böyük hadisə deyil. Lakin müəllif buradaca bunu ümumiləşdirir: vaxtilə Kərbəlayı Qasımın oğlu Əhmədin gözləri ağrıyanda necə ki, burun qanadan otla burnunu qanatmışdılar, indi də elə edirlər. Qan kəsilmək bilməyəndə Sadıq kişi əlacı dəllək Usta Hüseyndə axtarır. Dəllək müştərini əldən buraxmayıb, Sadıq kişini başının tükünü uzatmaqla Allah qəzəbinə gəlməkdə günahlandırır. Həqiqətən də, başını qırxdırıb evə qayıdanda Sadıq kişi oğlunun burnunun qanının kəsildiyini görür. Beləliklə, çevik ümumiləşdirmələr hesabına iki səhifəlik bir hekayədə M. müsəlmanın nəinki məişətini səciyyəviliyində açıb-göstərir, eləcə də həyat tərzinə, dünyagörüşünə nüfuz edir. Hekayə ağrılı yumorla qələmə alınmışdır.

"DİN VƏ MƏİŞƏT" – (1906-1917) Orenburqda tatar dilində nəşr olunmuş jurnal. Tatar burjuaziyasının, mürtəce və monarxist ruhanilərin fanatik qütbünün orqanı. Birinci nömrəsi 1906 il dekabrın 31-də "Dünya və məişət" adı altında çıxmış, sonrakı nömrələr "Din və məişət" adlandırılmışdır. Naşiri Molla Vəli Hüseynov, red. müəzzin Z.Xayrulin olmuşdur. Dini klerikalizm mövqeyində duran jurnal yeni və mütərəqqi ideyaların əleyhinə ardıcıl mübarizə aparırdı. Jurnal mütərəqqi tatar ziyalılarının aramsız tənqidinə hədəf olmuşdu. Din və məişətin məzmunsuzluğu "Molla Nəsrəddin" jurnalının ardıcıl tənqid hədəflərindən idi. M. "Qənimət" felyetonunda yazırdı: "...Orenburq tatarlarının içində qəribə şairlər törəyib. Məsələn, ayıb olmasın, "Din və məişət" jurnalının birinci nömrəsində "Səddiqül Əmini" imzası ilə bir şair yazır:

Əzimətsən, əzimətsən, əzimət,
Yaşa, ey möhtərəm, "Din və məişət".
Qənimətsən, qənimətsən, qənimət,
Yaşa, ey möhtərəm, "Din və məişət".

Pəh, pəh, pəh! Hələ bu cür şairləri görə-görə "Hophop" da, "Əbu Nəsr Şeybani" də və "Məşədi Sijimqulu" da deyirlər ki, biz də şairik".

Belə şeirləri gülünc və onların məfkurəvi istiqamətini zərərli hesab edən M. yazırdı: "Mən qorxuram, bəzi qəlbi qara cavanlarımız inanmayalar ki, iyirminci əsrimizin içində "Din və məişət" kimi falnamələrə "Səddinqül Əmini" kimi axmaqlar... uşaq oyuncağı mədhnamələr yazalar". "Əbyat" adlı başqa bir yazıda M. "D. və m."-dən imam Səid bən Şərafəddin adlı birisinin qatmaqarışıq ibarələrdən tərtib olunmuş məzmunsuz şeirini misal gətirərək yazırdı: "Başını piyləyim!.. Ay belə şair" ("Molla Nəsrəddin" jurnalı, 1910, №13).

DORŞ Konstantin İvanoviç (?-?) – rəssam. 1924 ildə Azərb. Dövlət Rəssamlıq məktəbini bitirmiş, satirik qrafika, plakat janrlarında mətbuat səhifələrində çıxış etmiş, "Molla Nəsrəddin" jurnalında rəsmləri dərc olunmuşdur. Xalq rəssamı Ə.Əzimzadənin yaradıcılıq fəaliyyətinin 20 illiyi münasibətilə "Molla Nəsrəddin" jurnalının 1927 il 19-cu nömrəsində dərc olunmuş yoldaşlıq şarjı rəssamın ən uğurlu əsərlərindəndir. Həmin rəsmdə Əzim-

zadə onun satirik fırçasının hədəfi olan mənfi personajların əhatəsində təsvir olunmuşdur. Sonralar D. "Azərnəşr"də bədii red. işləmiş, bir sıra plakatlar çəkmişdir. M. 1927 il 7 may tarixli "Xalq rəssamı və əziz yoldaş möhtərəm Əzimzadəyə" adlı məktubunda D.-un adını qeyd etmişdir.

DRAM – bədii ədəbiyyatın növlərindən biri. D.-da bitkin xarakterlər, obrazlar və tiplər öz əməllərini, ehtiras və duyğularını canlı hərəkət ilə özləri müstəqil surətdə göstərirlər. D. səhnə üçündür, canlı hərəkət və danışıq (dialoq, monoloq, ricət və s.) onun əsas ifadə vasitəsidir. D.-da müəllif yalnız məkan və zamanın, mətnə verilən izahatların, obrazların qısa səciyyəsinin izahında özünü göstərir. D.-da tiplər və xarakterlər özünün aydın, mükəmməl epik kəskinliyi və müəyyənliyi ilə, hisslərin və hərəkətlərin əsas konflikt ətrafında sərrast cəmləşməsi ilə seçilir. D. cəmiyyət həyatının kəskin, dramatik və həyəcanlı məqamlarını, xarakterlərin xüsusi müəyyənliklə təzahür etdiyi olduqca kəskin münaqişəli anları yaratmağa meyllə izah olunur. D.-da baş verən hərəkətlərin və xarakterlərin mübarizəsinin yekunu və tamamlanmasından hasil olan konfliktin mahiyyəti D.-ın bir neçə şəklə ayrılmasını şərtləndirir: D.-ın özü, faciə, komediya, fars, vodevil və s. D. dramatik janrın digər növlərindən təməlində daha mürəkkəb, şaxəli və kəskin konfliktin dayanması ilə fərqlənir. Burada qəhrəmanlar arasında daha gərgin və sürəkli, inadkar mübarizə baş verir. D. təkcə şifahi təsvir vasitələri ilə deyil, aktyor ifaçılığı, dekorasiya və tərtibatda da xüsusi fərdiləşdirmə ilə seçilir.

Şərqdə D.-ın çiçəklənmə dövrü 19 əsr – 20 əsrin əvvəllərinə təsadüf edir. Yaxın və Orta Şərqdə klassik yazılı D.-ın banisi M.F.Axundovdur. Daha sonralar N.Vəzirov, Ə.Haqverdiyev, N.Nərimanov, H.Cavid, C.Cabbarlı və həmçinin də M. realist və romantik Azərb. dramaturgiyasını inkişaf etdirdilər. N.Vəzirovun "Keçmişdə qaçaqlar", M.-nin "Anamın kitabı", Hüseyn Cavidin "Peyğəmbər", "Topal Teymur" pyesləri D.-a nümunə ola bilər.

DRAMATURGİYA, M. yaradıcılığında Azərb. ədəbiyyatı tarixində görkəmli publisist, nasir olduğu kimi, həm də M.F.Axundov sənətinin və ideallarının layiqli davamçısı olan dramaturqdur. M. əsasən komediyanəvisdir, milli komediyanın "Ölülər" kimi klassik nümunəsi, "Dəli yığıncağı", "Danabaş kəndinin məktəbi", "Kişmiş oyunu" və s. komediyaların, "Anamın kitabı" və "Kamança" dramlarının müəllifidir. M.-nin bir mütəfəkkir yazıçı kimi yetişib formalaşmasında dünya klassiklərinin çox böyük rolu şəksizdir. Dünya D.-sının klassik nümunələrini və özünə çağdaş olan zamanın dramatik irsini M. dərindən öyrənmişdi. Mirzə Cəlil cəmiyyət və insanın tale və müqəddəratı ilə bağlı olan, tərəqqi və kamilliyə çağıran böyük bəşəri problemləri əks etdirən dramatik əsərləri yüksək qiymətləndirirdi. Onun əsərlərində bir çox bədii və elmi fikir klassiklərinin adları çəkilib, onlara istinad olunsa da, onun D. sahəsində xüsusi bir şövqlə bəhs açdığı, qiymətləndirdiyi yazıçılar N.V.Qoqol və M.F.Axundovdur. Hər iki sənətkar haqqındakı məqalələrində fikirlərini çox yığcam və xəsisliklə bildirsə də, burada ədibin D.-ya münasibətinin əsas cizgilərini və ana xəttini anlamaq mümkündür.

M.-nin Qoqol haqqında ilk aforizmi belədir: "...məzhəkənəvislikdə bu şəxsə bərabər Rusiyada hələ bir kəs tapılmayıb; bəllidir ki, Qoqolun xidməti rus mətbuatına və rus millətinə o dərəcədə olub ki, mərhumun doğulmağının yüzilliyini Rusiyada kəndlərdə də mujiklər eşidiblər". Bu sərrast ifadə olunmuş aforizmdən çıxan birinci məna budur ki, Qoqol adi dramaturq deyil, bu sənətin zirvəsinə yüksələn klassikdir. İkinci məna ondan ibarətdir ki, yazıçının böyüklüyü öz xalqına, onun mənəvi və idrakı tərəqqisinə nə dərəcədə xidmət etməsilə ölçülür. M. Qoqolun yüksək sənətkarlığını tamaşaçı və oxucuların qəlbinə və hisslərinə hakim ola bilmək bacarığında görür.

"...Məqalə sahiblərimiz... Qoqolun barəsində yazdıqları məqalənin başında gərək bir belə "xəbərdarlıq" eləyəydilər ki, ey müsəlman qardaşlar, yüz il bundan qabaq Rusiyada bir şəxs anadan olub və rus məmurlarının barəsində elə bir komediya yazıb ki, onu indi də adam oxuyanda elə bilir ki, Naxçıvana, Şuşaya və bütün Qafqaz kəndlərinə və balaca şəhərlərə hökumət tərəfindən "revizor" gəlir".

M.F.Axundov haqqında məqaləsində isə birinci əlamətdar fikir odur ki, "...Mirzə Fətəli dramnəvislikdə şöhrət qazanmışdı". M. bu şöhrətin əsas səbəblərini onun səhnə əsərlərinin ictimai həyata, insanların şüur və idrakına qüvvətli təsir göstərməsində görərək yazırdı ki, "...Bir belə cəhalət zülməti içində, bir belə qaranlıq əsrdə Mirzə Fətəlinin komediyaları o təsiri bağışladı ki, mütəəssib və nadan müsəlman camaatı bir ovqat Mirzənin üstünə föhşlərlə ...cürbəcür tənələrlə hücum etməyə başladılar". M. Mirzə Fətəlini milli D.-nın banisi adlandırmaqla bildirir ki, onun əsərləri milli səhnə ilə bərabər "...sair mütəməddin millətlərin səhnələrini də zinətləndirməyə qabil ola bilərdilər".

M.F.Axundov D.-sının əsas keyfiyyətlərini yaziçı milli qeyrətdə, həyatı obyektiv və realistcəsinə əks etməsində, yenilikçilikdə, əlahiddə olaraq Azərb. qadınını səhnəyə bütün ləyaqəti ilə gətirməsində görür və deyir ki,... "...müsəlman bəndələrini heyrətə gətirən, mat və məəttəl qoyan bir nəfər gözəl müsəlman gəlinidir (Sona xanım) ki, burada adam kimi danışır... Tək bircə "Kimyagər"dən başqa, Mirzə Fətəlinin beş fəqərə komediyalarında türk qadını iştirak edir". "Mirzə Fətəlinin komediyalarının qadın tipləri əsrin məişətindən götürülmüş fotoqraf şəkilləri kimidir. Əsərlərdə təsvir olunan qadınların övza və ətvarı o məişətin qadın sifətlərinin bir canlı nümunəsidir. Orada qadınlar bir duru aynada görsənən kimi görsənirlər. ...Bir surətdə ki, bu əsərlər məişətin aynasıdır, təbiidir ki, burada biz qadınların yaxşı sifətləri ilə pisini də, müsbət sifətləri ilə mənfisini də görə biləcəyik. ...Burada biz görürük ki, bu qadınların cümləsi fitri qabiliyyət və gözəlliklərin heç birindən məhrum deyillər: səlamət, cürət, dilavərlik, səbat – cümləsi bunlarda mövcuddur...".

M. müəyyən məqamlarda yeri düşdükcə dünya klassik dramaturqları kimi, N.Vəzirov, Ə.Haqverdiyev kimi, milli dramaturqları da qiymətləndirir və onlardan bəhs edir.

DUBİNSKİ İ. (?-?) – sovet dövlət məmuru, ateist. 20-ci illərin axırlarında Azərb. Resp.-ı "Allahsızlar ittifaqı"nın sədri. 1925 ildən sonra ateizm tədbirlərinə rəvac verən D. "Molla Nəsrəddin" jurnalının və M.-nin bu sahədəki fəaliyyətindən narazı qalır, əleyhinə fitnəkar iş aparırdı. M. 1928 ildə "Molla Nəsrəddin"də,"Tiryək" felyetonunda yazmışdı: "Mübahisə məclislərinin birində məlun Allahsızlar cəmiyyətinin nümayəndəsi Dubinskidən mən bir "bicəngə" söz eşitdim: "Tiryək". Həmin natiq sözünü o yerə gətirib çıxartdı ki, dünyada cəmi dinlər bir tiryəkə oxşayır...". Resp. partiya təşkilatındakı bəzi rəhbər işçilər "Molla Nəsrəddin"in 20 illiyini keçirməyə mane olduqları kimi, M.-nin "Allahsızlar ittifaqı" haqqında satirik tənqidlərini, MK-yə məktublarını bəyənmədiklərinə görə D.-yə havadarlıq etdilər. Nəticədə ədib ağır xəstələndi, D. və onun havadarları isə "Molla Nəsrəddin" əvəzinə "Allahsız" jurnalını çıxarmağa başladılar.

DURNOVO Pyotr Nikolayeviç (1845-1915) – rus dövlət xadimi. Hərbi-ədliyyə akad.-nı bitirmişdir (1872). Ədliyyə Nazirliyində fəaliyyətə başlamış, polis departamentinin direktoru, senator olmuşdur. 1905-1906 illərdə Daxili İşlər naziri idi. 1905 il inqilabçılarına qarşı qəddar cəza tədbirləri həyata keçirmişdi. 1906 ildə eserlər onun ölümü haqda hökm vermiş, lakin hökm yerinə yetirilməmişdi. M. "Bakılılara" felyetonunda ("Molla Nəsrəddin", 1906, 19 may, №7) prikaşşiklərin, xozeynlərin zülmləri, fəhlələri çox işlədib az məvacib vermələri haqqında məktubu, "Həyat" və "İrşad" qəzetlərində fəhlə "aristokratiyası" nümayəndələrinin mövcud ziddiyyətləri ört-basdır etmək cəhdləri ilə əlaqədar dərin bir istehza ilə yazırdı: "...sizin də yoldaşlarınız başlayacaqlar... sübuta yetirməyə ki, Molla əmi səhv edib: bizim xozeynlər cavan, mərd, insandust, rəhmli, kəramətli, bizim halımıza yanan və bizləri öz övladı kimi səmimiqəlbdən istəyən və Vittedən və Durnovodan artıq hürriyyət tərəfdarıdırlar".

Elçin

ELÇİN (Elçin İlyas oğlu Əfəndiyev) (d. 1943) – yazıçı, ədəbiyyatşünas, tənqidçi-publisist, ictimai xadim. Filol. e.d. (1998), Azərb. xalq yazıçısı (1998), Azərb. əməkdar inc. xad. (1985). 1975-1987 illərdə Azərb. Yazıçılar Birliyinin katibi olmuşdur. "Vətən" cəmiyyətinin sədri (1987 ildən), Azərb. Resp. Baş nazirinin müavinidir (1993 ildən). Ciddi sosial-mənəvi problemlərə həsr olunmuş roman, povest və hekayələrin, səhnə əsərlərinin, eləcə də monoqrafiyaların, ədəbi-tənqidi məqalələrin, esse və publisist yazıların müəllifidir. Elmi fəaliyyətində 20 əsrin əvvəllərindəki Azərb. ədəbi-mədəni və ictimai-siyasi mühitinin tədqiqi ilə bağlı məsələlər mühüm yer tutur. M.-nın qələm və əqidə dostları Ö.F.Nemanzadə, N.Nərimanov, Ü.Hacıbəyov, M.Ə.Rəsulzadə, Ə.Haqverdiyev və b. haqqında məqalə və kitabçalar yazmışdır. Bu yazılarda M. yaradıcılığının da bir sıra məsələləri öz əksini tapmışdır. O, A.Hacıyevin "Tiflis ədəbi mühiti", Ə.Mirəhmədovun "Azərbaycan Molla Nəsrəddini" kitablarına yazdığı geniş ressenziyalarda da məmmədquluzadəşünaslığın bir sıra ciddi problemlərinə toxunmuşdur. "Molla Nəsrəddin" jurnalının 1-ci nömrəsinin fotofaksimilə nəşri münasibətilə yazılmış "Molla Nəsrəddin" işığı" məqaləsinin müəllifidir. M. irsinin öyrənilməsi prosesində ədibin ictimai qayəsi, vətəndaşlıq mövqeyi, milli təəssübkeşlik duyğusu E.-in tədqiqatlarında ön plana çəkilmişdir.

L.Eradze

ERADZE Leyla Uşanqovna (1930-1998) – gürcü ədəbiyyatşünas alimi, tərcüməçi. Filol. e.d. (1990), Azərb. əməkdar mədəniyyət xadimi, İ.Maçabeli ad. Gürcüstan Dövlət mükafatı laureatı. 1995 ildən Gürcüstan Resp.-nın Azərb. Resp.-ndakı səfirliyində 1-ci katib işləmiş, Gürcüstanın Azərb.-la mədəni və elmi əlaqələri məsələləri ilə məşğul olmuşdur. 30-a yaxın poetik və nəsr əsərini Azərb. dilindən gürcü dilinə tərcümə etmişdir. Gürcüstan-Azərb. ədəbi əlaqələrinə aid 2 monoqrafiyanın, 100-ə qədər məqalənin müəllifidir. Əsərlərində Qori seminariyasını bitirmiş, bir müddət Tiflisdə yaşayıb-yaratmış M.-dən də bəhs olunmuşdur. E. həmçinin ədibin "Eşşəyin itməkliyi" əsərini gürcü dilinə tərcümə etmişdir.

"EŞŞƏYİN İTMƏKLİYİ" – M.-nin povesti. 1894 ildə yazılmışdır. "Danabaş kəndinin əhvalatları" silsiləsinin əsas hissəsi. Mövzusu XIX əsr Azərb. kənd həyatından alınan bu əsərdə M. cəmiyyətdəki ictimai bərabərsizliyin, qanunsuzluğun və özbaşınalığın törətdiyi faciələri təsvir etmişdir. Əsərin mərkəzində Xudayar bəy surəti dayanır, baş verən bütün faciələrin, bəla və bədbəxtliklərin baisi kimi təsvir olunur. Əsilsiz-nəcabətsiz, yalançı, ikiüzlü, xudbin və zalım olan bu adam dostu Kərbəlayı Heydər öləndən sonra onun var-dövlətinə sahib olmaq üçün dul qalmış qadını Zeynəbi almaq fikrinə düşür. Vəzifəsindən istifadə edərək bundan ötrü o, çox tədbirlərə əl atır. Şəhərə gedib, Məhəmmədhəsən əminin eşşəyini satır, onun puluna aldığı qəndi və çayı qazıya rüşvət verib Zeynəbin kəbinini özünə kəsdirir və onu məcburi surətdə evinə gətirdir. Altı ay müddətində Zeynəbin bütün var-yoxunu zorla əlindən alıb, özünü və uşaqlarını ac-yalavac qoyur.

Povestdə Azərb. qadınlarının hüquqsuzluğunun təsvirinə geniş yer verilmişdir. Yazıçı Zeynəb və Şərəfin simasında onların acınacaqlı, faciəli yaşayış tərzini əks etdirir.

"E.i." povestində yazıçının rəğbətlə təsvir etdiyi surətlərdən biri də Məhəmmədhəsən əmidir. Ədib onun simasında zorakılıq və ədalətsizlik üzərində qurulan cəmiyyətdə məzlum insanların faciəsini əks etdirir. Kərbəlaya getmək, "çahardeh məsumun qəbirlərini ziyarət etmək" eşqilə yaşayan Məhəmmədhəsən əminin minib ziyarətə getmək üçün aldığı ulağını kənd-xuda satdığından arzusuna çata bilmir.

Əsərdə köməksiz insanların faciəsinə səbəb olan güclü bir ictimai qüvvə – ruhanilər yalançı, ikiüzlü və fırıldaqçı qazının simasında sənətkarlıqla göstərilir. M. onun eybəcərliyini öz danışığı və hərəkətləri vasitəsilə açıb göstərir.

Yüksək insani fikirlər və ideyalar təbliğ edən "E.i." povesti öz bədii keyfiyyətləri baxımından da seçilən sənət əsəridir. Surətlərin bitkinliyi, təhkiyə aydınlığı, obrazların fərdiləşdirilməsi, süjet ardıcıllığı, aydın və səlis dili bu əsərin başlıca məziyyətləridir.

ETNOQRAFİYA MƏSƏLƏLƏRİ – M.-ni həm də etnoqraf adlandırıb, yaradıcılığını xalqımızın məişət mədəniyyətinin, adət-ənənələrinin öyrənilməsi üçün mənbə saymaq olar. Ədibin xüsusi etnoqrafik əsəri olmasa da, onun qələmindən çıxan hər bir yazıda azərb.-ların adət-ənənəsi, ailə-məişəti, həyat tərzi, fanatizmə qarşı mübarizəsi, nəhayət, elmə, təhsilə, mədəniyyətə yiyələnmək haqqında çağırışla rastlaşırıq. Xalqının geriliyini dövrün ictimai quruluşunda görən M. ondan qurtarmağın yolunu da əhalinin təhsilə, elmə, mədəniyyətə yiyələnməsində axtarır, vətəndaşları buna səfərbər olmağa çağırırdı. Zəngin təbii ehtiyatları olan Azərb.-ın geriliyinə mənən yanan M. yazırdı: "Şam çırağı yanan zaman get bir müsəlman məmləkətinə tamaşa elə: küçələr qaranlıq, evlər sakit! Bircə bayquş .səsi gəlir". Dini fanatizmin xalq məişətinin bütün sahələrində hökm sürdüyünə acıyan ədib, Allaha yalvarmaqla yağış çağıranlara deyirdi: "Bir para yerlərdə camaat müsəllaya çıxıb, Allahdan yağış istəyir. Və bu da məlum olub ki, Allah-təala müsəllaya çıxanların duasını qəbul etməyib, heç bir yana yağış göndərməyib... Özüm neçə-neçə dəfə həmin müsəllaya çıxanlara tamaşa eləmişəm. Amma təkcə bircə dəfə də olmayıb ki, müsəllaya çıxanlara Allahın rəhmi gəlsin və onlara yağış göndərsin". Ədib daha sonra yazırdı ki, "Biz istəyirik ibadətimizi Allaha sataq və əvəzində yağış alaq... bu ibadət olmadı... bu oldu alışveriş!.. İbadətin yağışa dəxli yoxdur".

M. irsində qadın azadlığı, onun həyatda və ailədə yeri məsələləri də xüsusi əhəmiyyət kəsb edir. M. ailə məişətində azyaşlı qızların yaşlı kişilərə zorla ərə verilməsi kimi mənfi adətləri "Molla Nəsrəddin" jurnalında damğalayırdı. Çadraya bürünmək, yaşınmaq kimi adətlərin dinlə əlaqəsinin olmadığını açıqlayan ədib yazırdı ki, biz "Quran"da üz açmağı qadağan və haram edən açıq bir ayə və işarə görmürük. Çadranın qadın mənəviyyatında heç bir rol oynamadığını deyən ədib yazır ki, çadra qədim vəhşi zəmanələrin yadigarıdır. Ailədə qadınların hüquqsuzluğunun əsas səbəbini onların dünyagörüşlərinin məhdudluğu ilə izah edən M. bundan xilas olmanın yolunu qızların oxumasında görür və yazırdı: "Elə ki, qızlarınız elmli və tərbiyəli olub, öz qədirlərini bildilər, onda özləri bilərlər ki, necə rəftar eləsinlər".

M.-nin əsərlərində məhərrəmlik mərasimində baş yarmaq, zəncir vurmaq, şəbeh çıxarmaq kimi adətlərin islamın şəriət qayda-qanununda olmadığı göstərilməklə yanaşı, qazi və mollaların "müsəlmançılıq ibarətdir baş yarmaqdan və mollalara sitayiş etməkdən" təlimini yaymaları da qeyd edilir. Bunun əksinə olaraq, M. yazırdı ki, ən böyük ibadət, ən birinci din və vətənpərvərlik vətənə kömək etməkdir. Bundan həm Allah, həm də həzrət Hüseyn razı qalar. Yoxsa, Tiflisin, Bakının küçələrində qışqıra-qışqıra gəzib, yalandan başımızı cızıb bir az qan axıtmaq Hüseyn övladına və Rüstəm nəslinə yaraşan igidlik deyil. Bu gün Kərbəla meydanı Azərb. meydanıdır.

Novruz bayramlarına münasibətini bildirən M. yazır ki, Novruz bayramı çox yaxşı bayramdır, ancaq ikicə eybi olmaya – böyük xərci və nəhayət, zəhməti. Bayram süfrəsinin neçə yüz manata başa gəlməsi, bayram paltarının tikilməsi, qonaq getmək və qarşılamaq xərcləri onun əsasən varlılar tərəfindən qeyd edilməsinə imkan verir. Buna görə də, ədib onu varlıların bayramı adlandırırdı.

Gətirdiyimiz faktlar M.-nin xalq məişəti ilə bağlı olduğunu təsdiq edir. Ədib maarifin inkişafı ilə məişətimizdəki kəm-

kəsirlərin tədricən aradan çıxacağına inanırdı. Xüsusilə, cəmiyyətdə və ailədə qadınların kişilərlə bərabər hüquqa malik olmalarını arzu edən ədib, onun həyata keçdiyinin şahidi olduqda yazırdı: "İndi gəldik çıxdıq bu günlərə: indi dəxi arvad qeyrəti çəkən "qeyrətli" qoçular puç olublar". Bu ədibin arzularının real təntənəsi idi.

EYHAM – ələ salmaq məqsədilə sözün öz mənasının tam əksinə işlədilməsindən yaranan məcaz. Bədii əsərlərin, xüsusən satirik və yumorlu əsərlərin dilində çox istifadə edilən bədii ifadə vasitəsi. M.-nin əsərlərinin dilində çox işlənir:

"Şeyx Nəsrullah (İsgəndərə): – Belə məlum olur ki, sizin dərsiniz bu ağaların (Heydər ağaya və Əli bəyə işarə edir) dərsindən azdır ki, bir mənsəbə çata bilməmisiniz.

İsgəndər: – Bəli, bəli, bunlar elm dəryasıdır; indi də ki, inşallah, siz cənabdan da ölü diriltmək elmini öyrənərlər, onda daha lap alim olarlar".

E. üstüörtülü, ikimənalı söz və ya ifadə vasitəsilə də yaradıla bilir: "Millət ləfzi İranda yoxdur. Nə qədər ki, camaat içində dolandım, "millət" sözünü nə eşitdim, nə də bir kitabda gördüm. O yerdə ki, lüğət kitabında gərək yazılaydı "millət" – orada "millət" əvəzinə yazılıb "şəxs". O yerdə ki, söz düşəndə gərək "millət" sözü danışıla – orada "şəxs" ləfzi istemal olunur".

EZOP DİLİ – qədim yunan təmsilçisi Ezopun adı ilə bağlı dil vasitəsi. Senzorun qadağan etdiyi müəyyən ideyanın, hadisənin, adın çeşidli dil vasitələri ilə gizli şəkildə ifadəsi. Sonralar asanlıqla anlaşılan məcazlar sistemi.

XX əsr Azərb. satirik ədəbiyyatında, xüsusilə, təmsil və komediyada kəskin, mübariz, müxalifətçi fikir və düşüncəni örtülü, pərdəli şəkildə, məcazi yolla vermək mənası daşımışdır. "Molla Nəsrəddin" jurnalının müəllifləri və M. özü ondan geniş surətdə faydalanmışlar. Xüsusən təxəllüslərdən "Molla Nəsrəddin", "Hophop", "Cırcırama", "Məşədi Sijimqulu", "Cüvəllağı", "Hərdəmxəyal" və s. imzalarını Mirzə Cəlil, Sabir, Əli Nəzmi, Qəmküsar, Ordubadi E.d. üsulu ilə seçmişdilər. E.d. məcazlar sistemi olduğundan kinayə və tərizlər üzərində də qurula bilir: "Müsəlman milləti çox ağıllı millətdir. Çünki bu millətdən başqa heç bir özgə millət behiştin yolunu tapa bilmir. Tutaq ki, avropalılar teleqraf, telefon və radio icad edirlər. Amma zəmani ki, onlar behiştin yolunu tapa bilmirlər, daha onlar necə müsəlmanlardan ağıllı ola bilərlər? Əlbəttə, ola bilməzlər". M.-nin "Ölülər" əsərində İsgəndərin replikalarında da tez-tez E.d.-nə müraciət edilir.

"Ölülər" pyesi Azərbaycan Dövlət Dram Teatrının səhnəsində. 1932-1933-cü illər.

Ə

H.Əbdülhəq

ƏBDÜLHƏQ Hamid Tarhan (1852-1937) – türk şairi, dramaturq. Türk ədəbiyyatında romantizmin banilərindəndir. Ziyalı ailəsində doğulmuşdur. Təhsilini İstanbul, Paris və Tehranda almış, fransız, fars, ərəb dillərini və ədəbiyyatlarını öyrənmişdir. Bir müddət xarici ölkələrdə diplomatik vəzifələrdə çalışmış, Böyük Millət Məclisinin deputatı olmuşdur. Ə.H.T. türk ədəbiyyatında mənzum dramın yaradıcısıdır. Vətən məhəbbətinin və azadlıq ideyalarının tərənnümü yaradıcılığında mühüm yer tutur. Tarixi və müasir mövzuda yazdığı "Azadlıq", "Hind qızı", "Nəstəran", "Əşbər" və b. əsərlərində ingilis imperializminə, sultan istibdadına qarşı xalq qəzəbi və nifrəti əks olunmuşdur. Ə.H.T. milli azadlıq ideyaları, dildə yenilik, sadəlik tərəfdarı olması ilə M., habelə, M.Ə.Sabir və digər Azərb. yazıçılarının dərin rəğbətini qazanmışdır. Ə.H.T.-ın yaradıcılığı hələ inqilabdan əvvəl Azərb.-da öyrənilməyə başlanılmış, 1927 ildə onun "Hind qızı" pyesi Azərb. səhnəsində tamaşaya qoyulmuşdu.

ƏBDÜLHƏMİD II (1842-1918) – Türkiyə sultanı (1876-1909). İstanbulda gənc türk ziyalı və məmurlarının yaratdığı "Yeni Osmanlılar" cəmiyyəti ilə əlaqədə olan Midhəd paşanın təzyiqi altında 1876 ildə konstitusiya vermiş, lakin az sonra onun əsasında çağırılmış parlamenti buraxmış və ölkədə "zülm" rejimi yaratmışdır. M.-nin yazdığı kimi "özünü bütün müsəlmanların xəlifəsi", "Allahın yer üzərində kölgəsi" sayan sultan Ə. qəddarlığına görə "qanlı sultan" ləqəbini almışdır. Türkiyədə baş verən Gənc türklər inqilabı nəticəsində 1908 ildə Ə. 1876 il konstitusiyasını bərpa etməyə məcbur olur. Lakin 1909 ildə əksinqilabi çevriliş etməyə cəhd göstərdiyindən taxtdan salınaraq həbs edilmiş, həbsxanada ölmüşdür.

M.-nin əsərlərində və "Molla Nəsrəddin" jurnalında ən çox tənqid və ifşa olunan Şərq müstəbidlərindən biri və bəlkə də birincisi Ə. idi. Sultan Ə.-i ifşa etmək üçün jurnal müxtəlif ədəbi janr və formalardan – felyeton, satirik şeir, karikatura, teleqraf xəbərləri, tapmaca, sual-cavab, taziyanə və s.-dən istifadə etmişdir. Jurnalın 1907 ildə ilk dəfə bağlanmasına səbəb də məhz Ə. haqqında verilmiş karikaturalar olmuşdur. Qafqazda nəşr olunan demokratik yönlü mətbuatın Türkiyəyə aparılması üzərində ciddi senzura nəzarəti qoyulmasına baxmayaraq "Molla Nəsrəddin" jurnalı Osmanlıda geniş yayılır və ölkədə baş verən siyasi hadisələr səhifələrində geniş işıqlandırılırdı. Türkiyənin Tiflisdəki baş konsulu Feyzi bəyin red.-a dəfələrlə xəbərdarlıq etməsinə baxmayaraq jurnal sultanın ifşası işini davam etdirirdi. Feyzi bəy Tiflisdəki çar hakim dairələrinə "Molla Nəsrəddin"dən rəsmən şikayət etmiş, nəticədə Tiflis müvəqqəti general-qubernatoru N.Timofeyevin sərəncamı ilə jurnal "son dərəcə zərərli istiqamətinə görə" bütün hərbi vəziyyət dövründə bağlanmışdır. Amma bu tədbirlərin heç biri M-ni öz yolundan döndərə bilməmişdir və o, sultanı axıra qədər ifşa etməkdə davam etmişdir. "Əbdülhəmid" adlı felyetonda Mirzə Cəlil yazırdı: "Pəs bu haman Əbdülhəmiddir ki, bir vəqt onun şəklini çəkəndə konsul Feyzi bəy bizim üstümüzə Rusiya hökumətinə şikayət vermişdi... İndi məlum olur ki, yer üzünə nə qədər hakim, şah və sultan gəlib-gediblər Əbdülhəmid kimi millət və dövlətinə düşmən heç biri olmayıbdır". (1911, 31 dekabr, №47).



Ə.Əbluc

H.Əbluc

ƏBLUC Ənvər Abbasqulu oğlu (d. 1947) – rejissor. H.Əblucun qardaşı. Moskva Kinematoqrafiya İn-tunun rej.-luq fakültəsini bitirmişdir (1972). Bir sıra bədii filmlərin rej.-dur. Ə. həyatdan vaxtsız getmiş qardaşı H.Əblucun başladığı işi davam etdirərək, M.-nin "Anamın kitabı" pyesini ADT-nin səhnəsində tamaşaya qoymuşdur (1994).

ƏBLUC Həsən Abbasqulu oğlu (1942-1994) – aktyor, rejissor. Azərb. İncəsənət İn-tunun aktyorluq fakültəsini bitirmişdir (1965). Azərb. Gənc Tamaşaçılar Teatrında, ADT-da yaddaqalan obrazlar yaratmış, bir sıra əsərləri tamaşaya qoymuşdur. Filmlərə çəkilmişdir. Bədii



qiraət ustası kimi məşhur idi. M.-nin "Anamın kitabı" pyesini ADT səhnəsində tamaşaya hazırlayırdı. Qəfil ölüm bu işi yarımçıq qoydu.

ƏBÜLHƏSƏN xan Musa oğlu (təxəllüsü İqbali Azər) (1870-1971) – Cənubi Azərb. xanəndəsi. Gənc yaşlarından istedadlı sənətkar kimi tanınmışdır. Əvvəllər İran şahzadəsi Məhəmmədəli xanla dostluq edən Ə.x. sonralar saraydan qovularaq Tiflisə köçür. Burada o, M. ilə tanış olur. Xanəndənin ağır vəziyyətindən pərişan olan ədib onun yenidən musiqiyə qayıtmasına kömək edir. "Kəyan" jurnalı yazırdı ki, bir gün Ə.x.-ın səsini eşidən M. gəlib əllərini onun başına çəkir və deyir: "Sənin ki, belə hünərin var, [...] bir rəsmi ziyafətdə iştiraka mənim üçün bilet göndəriblər, mən sənin üçün də bilet tapdıraram və orada gəlib oxuyarsan". Həmin ziyafətdə Ə.x.-ın səsini eşidən "Mayster Boys" qrammafon valları şirkətinin nümayəndəsinin köməyi ilə o, işə düzəlir. 1914 ildə Ə.x.-ın səsi Tiflisdə vala yazılır.

Ə.x. Cənubi Azərb.-da milli teatrın, orkestrin yaranmasında, bir sıra mədəni islahatların keçirilməsində fəal iştirak etmişdir.

ƏDƏBİ MƏKTƏB – bir neçə mənada işlədilir: ədəbi cərəyan; fikir, ruh, əqidə, üslub və ədəbi meyarlara münasibət baxımından oxşarlıq; bədii-estetik dəyərlər sistemi və s. Geniş mənada Ə.m. – ədəbi era, ədəbi mərhələ, ədəbi örnəklərin çoxsaylı davamçılarının yetişməsi, bu məktəbin bədii, estetik qanunlarının formalaşması və inkişafı deməkdir. Xalqların bütöv ədəbi irsinə bir məktəb kimi baxıldığı da məlumdur. Məsələn, yunan ədəbi məktəbi, fars şeir məktəbi, yapon lirika məktəbi, fransız roman məktəbi. Metodların məktəbə çevrilməsi və ya məktəb kimi şərh olunması Ə.m. anlayışını daha da genişləndirir. Məsələn, romantizm məktəbi, realizm məktəbi, sürrealizm məktəbi, klassizm məktəbi və s.

Bəzən müəyyən janrın üstünlüyü ilə müşayiət olunan dövr həmin janrın adı ilə səciyyələndirilir. Bir janrın özünün məktəbə çevrildiyi dövrlər də olur. Məsələn, Azərb. qəzəl məktəbi, aşıq məktəbi və s. Ə.m.-lər çox vaxt öz yaradıcılarının adını daşıyır. Ə.m. böyük təsir gücü olan böyük ədəbi şəxsiyyətlər, dahilər tərəfindən yaradılır. Məsələn, Nizami Gəncəvi məktəbi yüz illər boyu Şərqdə yaşayıb davam etdirilmişdir; bu Ə.m.-in təmsilçiləri Nizami mövzularında onlarla "Leyli və Məcnun"lar, "Fərhad və Şirin"lər, "Yeddi gözəl"lər yazmışlar.

Ə.m.-lər bəzən bir neçə dil arealında yaşaya bilər. Məsələn, Nizami "Xəmsə"si farsca yaranıb, Nəvai ondan təsirlənsə də, öz "Xəmsə"sini türk-cığatay dilində yazmışdır.

Azərb. tarixində bir neçə böyük Ə.m. yaranmışdır. Epik-poetik janrda Nizami məktəbi, vəhdəti-vücud, hürufizm nəzəriyyəsinə söykənən Nəsimi məktəbi, Füzulinin bu gün də yaşayan böyük sənət məktəbi, Vaqif məktəbi, M.F.Axundzadənin dramaturji məktəbi, "Əkinçi" məktəbi, Sabir məktəbi, Cəlil

Məmmədquluzadə – "Molla Nəsrəddin" məktəbi və s.

25 il ərzində nəşr edilmiş "Molla Nəsrəddin" jurnalı ilə M. təkcə Azərb.-da yox, bütün Şərqdə geniş şöhrət qazanmış, onun çoxsaylı davamçıları yetişmişdir. Bu məktəbin ənənələri çağdaş satirik ədəbiyyatımızda və mətbuatımızda da yaşayır. Mirzə Cəlilin nəsr yaradıcılığı ədəbiyyatımızda yeni bir dövrün, yeni nəsr məktəbinin başlanğıcı olmuşdur.

ƏDƏBİ TƏNQİD – ədəbiyyatşünaslığın əsas sahələrindən biri. Ədəbiyyat tarixi və ədəbiyyat nəzəriyyəsi ilə birlikdə, Ə.t.-in başlıca vəzifəsi ədəbiyyatı öyrənmək, onun təhlilini vermək, ideya-bədii cəhətdən dəyərləndirməkdir. Lakin ədəbiyyat tarixindən və ədəbiyyat nəzəriyyəsindən fərqli olaraq, Ə.t. əsasən cari ədəbiyyatı öyrənir, yeni yaranmış əsərləri təhlil edir. Buna görə də, əsərlərə, bütövlükdə ədəbiyyata müasirlik baxımından yanaşmaq və qiymətləndirmək Ə.t.-in ümdə xüsusiyyətlərindən və vəzifələrindən sayılır. Ə.t.-in vəzifəsini yalnız müasir, yeni yazılmış əsərlərin təhlili ilə məhdudlaşdırmaq da, olmaz. Bəzən artıq ədəbiyyat tarixinə daxil olmuş klassik əsərlər də Ə.t.-in predmetinə çevrilə bilir. Professional tənqidçilərlə yanaşı, yazıçılar da tənqiddən istifadə yolu ilə öz dövrlərinin ədəbiyyatına, ədəbi prosesinə münasibətlərini, ədəbiyyatın ictimai vəzifəsinə, cəmiyyətin həyatında roluna baxışlarını ifadə edirlər. Ə.t.-in belə növü adətən yazıçı tənqidi adlanır. M.-nin ədəbi fəaliyyətində də tənqidin yeri və mövqeyi bu cəhətdən bir çox xüsusiyyətlərə malikdir. Onun yaradıcılığında felyeton əsas etibarilə Ə.t.-in özünəməxsus janrı kimi çıxış edir. Onun "Abrin və kilab", "Xanımlara", "Mikroblar", "Mətbəə", "Nişanlı bir qız", "Zina", "Mədfən" felyetonlarında dövrün ədəbi məsələlərinə və hadisələrinə, ədəbiyyatın xalqın milli tərəqqisində rolu problemlərinə toxunulmuşdur. Məsələn, 1911 ildə "Molla Nəsrəddin" jurnalında dərc etdiyi bir felyetonunda ("Heç bilirikmi?") M. "Mirzə Fətəli kimdir?" sualını qoyur və bu sualı özünəməxsus üslubda izah edərək göstərirdi ki, o, Şərq aləmində ilk dəfə komediya yazıbdır, özü də "Avropanın molyerlərindən, Rusiyanın qoqollarından pis yazmayıb" və buna görə də, o, bizim üçün "dəxi də artıq hörmətlərə layiqdir". M. felyetonda qoyduğu məsələni daha da dərinləşdirərək yazırdı ki, "Mirzə Fətəli Axundov o kəsdir ki, dünyada... əvvəlinci dəfə müsəlman övrətini teatr səhnələrinə çıxardıb". M.-nin felyetonlarında ədəbiyyat, yazıçıların yaradıcılığı, ayrı-ayrı əsərlər ədibin müəyyən inqilabi-demokratik və estetik görüşlərinin ifadəsi üçün bir vasitəyə çevrilirdi. "Qoqol", "Teatr", "Nişanlı qız" və s. felyetonları bu cəhətdən olduqca səciyyəvidir. M. ədəbi-estetik görüşlərini, köhnəlmiş ənənələrə, ədəbi-estetik zövqlərə münasibətini bədii formada da ifadə etməyi üstün tuturdu ki, bu da yazıçı tənqidinə xas bir xüsusiyyətdir. Məsələn, "Şeir bülbülləri" əslində qısa, lakin mənalı bir hekayədir. Ancaq bu hekayənin əsasını yazıçının epiqonçu, köhnə şeirə, şeir xəstəliyinə həsr olunmuş acı, kəskin tənqidi təşkil edir. Belə bir xüsusiyyəti ədibin "Proletar şairi" hekayəsində də görmək mümkündür. M. eyni zamanda xalis tənqid janrında məqalələr də yazmışdır. Onun "M.F.Axundov və qadın məsələsi", "M.F.Axundov dinlər haqqında", "Məşədi Sijimqulu", "Kefsiz" məqalələri belə tənqidin nümunələrindəndir. "Qələmin müqəddəs borcu xalqın xoşbəxtliyinə xidmət etməkdir" – M.-nin tənqidində ifadə olunmuş əsas ədəbi-estetik qayə bundan ibarətdir. O, buna görə də, ədibin görüşlərinin hansı formada və janrda təzahür etməsindən asılı olmayaraq, Ə.t. də böyük yazıçının yaradıcılığının tərkib hissəsidir.

ƏDƏBİYYAT MUZEYİ, bax: Azərbaycan Ədəbiyyatı Muzeyi.

"ƏDƏBİYYAT CƏMİYYƏTİ" – ədəbi təşkilat. 1925 ilin fevralında Bakıda yaradılmışdır. Cəmiyyətə Ə.Haqverdiyev, S.S.Axundov, Abdulla Şaiq, Hüseyn Cavid, Səməd Mənsur və b. görkəmli sənətkarlarla yanaşı, M. də daxil idi. Klassik ədəbi irsin öyrənilməsi, resp.-dakı yazıçıların birləşdirilməsi baxımından müəyyən işlər görməsinə baxmayaraq, cəmiyyət müasir ədəbiyyat məsələləri ilə zəif məşğul olur, gənc ədiblərin qayğısına az qalırdı. Buna görə də "Ə.c." və 1925 ildə təşkil olunmuş "Gənc qızıl qələmlər" cəmiyyəti 1926 ilin noyabrında birləşdirildi və "Qızıl qələmlər" ittifaqı yaradıldı.

Ş.Əfəndizadə

ƏFƏNDİZADƏ Şəfiqə Məhəmmədəmin qızı (1882-1959) – Azərb.-nın ilk maarifpərvər qadınlarından biri, publisist, yazıçı, müəllim. Mətbuatda xalqı maariflənməyə çağıran, uşaqların tərbiyələnməsindən və qadın azadlığından bəhs edən məqalə və hekayələrlə çıxış etmişdir. "Ölülər" pyesinin tamaşası haqqında "Yeni iqbal" qəzetində Ə.-nin "Ölülər" haqqında bir müsahibə" adlı məqaləsi çap olunmuşdu (1916, 17 may). "Şərq qadını" jurnalının red. heyətinin üzvü idi.

ƏFƏNDİYEV Məmmədsadıq Mirzəəhməd oğlu (1902-1942) – teatr tənqidçisi, pedaqoq. Bakı Türk İşçi Teatrının direktoru (1925-1929) olmuşdur. Repertuarda müasir mövzulara böyük əhəmiyyət verməklə bərabər, M.-nin simasında "türk dramnəvislərinin ən gözəl və ləyaqətlisini" görürdü. Onun qənaətinə görə ədibin dramaturji "əsərləri mütaliə üçün ədəbi üsulda yazılmamış, bəlkə səhnə və quruluş üçün yaradılmışdır". Onun rəhbərlik etdiyi dövrdə Bakı Türk İşçi Teatrı M.-nin "Anamın kitabı" və "Ölülər" pyeslərini alıb "üzərində ciddi işlədikdən sonra tamaşaya qoydu" (yanvar, 1927).

R.Əfqanlı

ƏFQANLI (Cəfərzadə) Rza Rüstəm oğlu (1899-1973) – aktyor. Azərb. xalq art. (1943), SSRİ Dövlət mükafatı laureatı (1949). ADT-da (1923-1926), (1935-1961), Aşqabad Dövlət Azərb. Musiqili Teatrında (1934-35), Sumqayıt Dövlət Dram Teatrında (1962-1973) işləmişdir. Bir çox klassik səhnə əsərlərində baş rollarda oynamışdır. Kinofilmlərdə çəkilmişdir. Ə.-nın fəaliyyətində M.-nin əsərləri və onların əsasında yaradılmış telefilmlər, radio verilişləri mühüm yer tutmuşdur. Bunlardan bəzilərində o, ədibin surətini yaradır, "Ölülər" pyesində isə Hacı Həsən ağa obrazını ifa edirdi. O, "Ədibin obrazını yaradırkən..." məqaləsində (1967) yazırdı: "1956 və 1965 illərdə məni kinoya Cəlil Məmmədquluzadə rolunda çəkilməyə dəvət etdilər. Çoxlarının şəxsən tanıdıqları, hər gün ünsiyyətdə olduqları, dostluq etdikləri bir adamın obrazını yaratmaq asan deyil (...). Yanlış bir cizgi, qondarma bir hərəkət hər şeyi korlaya bilər. Və camaat deyər: "Yox, bu bizim Mirzə Cəlil deyil". Ə. ədiblə görüşləri barədə yazır: "Mirzə Cəlilin adı mənim üçün əzizdir. Mən onu həyatda çox görmüşəm (...) 1925-ci ilin ortalarında "Ölülər" komediyasını tamaşaya hazırlayırdıq. Mən Hacı Həsən rolunu məşq edirdim. Sevimli ədibimiz tez-tez teatra gəlir, bizimlə səmimi söhbət edir, dəyərli məsləhətlər verirdi". Ə. bu fikirdə olmuşdur ki, "ədəbiyyatımızın heç bir nümayəndəsi xalqının ağır dərdi üçün (...) onun qədər acı göz yaşları axıtmamışdır. Mən Cəlil Məmmədquluzadə obrazını belə görürəm və belə də canlandırmağa çalışmışam". Artist böyük ədibin insanlarla ünsiyyət və danışığının səciyyəvi bir tərəfi haqqında da bəhs edir: "Müsahibini səbirlə dinlədikdən sonra ona aramla cavab verir və bəzi sözləri təkrar edirdi. "Bəli, bəli", "neynək, neynək", "yaxşı, yaxşı" kimi sözləri o, tez-tez işlədirdi".

ƏHMƏD Kamal (1874-1924) – türk şairi, mühərrir. "Səbah" qəzetində və "Sərvəti-fünun" jurnalında işləmiş, sonralar Misirdə "Doğru söz" qəzetinin təsisçisi və red. olmuşdur. H.Z.Tağıyevin dəvəti ilə 1906 ildə Bakıya gəlmiş, "Füyuzat" jurnalında fəal əməkdaşlıq etmişdir. 1906-11 illərdə Bakıda Balaxanıdakı "Nəşri-maarif" məktəbində işləmişdir. Məktəbdə müəllimlik edən M.Ə.Sabirlə aralarında ixtilaf yaranmışdır. M.Ə.Sabirə münasibətini pisləyən mollanəsrəddinçilər digər məsələlərdə Ə.K.-a təcrübəli müəllim, məşhur ədib və sahibqələm, ... vətənpərəst" kimi ehtiram bəsləmişlər. 1910-1911 illərdə Əlipaşa Hüseynzadənin nəşr etdiyi "Yeni füyuzat" məcmuəsi onun baş red.-luğu ilə çıxmışdır.

1911-ci ilin martında Bakıda panislamizm təbliğatında təqsirləndirilərək həbs edilmiş, istintaqdan sonra Rusiya imperiyası ərazisindən çıxarılmaq haqqında hökm çıxarılmış və osmanlı dövlətinin Batum konsuluna verilmişdir.

İstanbulda futbol məktəbinin müdiri işləmişdir.

ƏHMƏDOV Baxış Kərbəlayi Əhməd oğlu (1874-1929) – maarifpərvər ziyalı, xeyriyyəçi, "Kustar-Neft" ittifaqı idarə heyətinin fəxri üzvü (1914) və işlər müdiri (1924), "Nəşri-maarif" cəmiyyətinin Balaxanıdakı məktəbinin vəkili idi. 1910-1911 illərdə həmin məktəbdə işləmiş, M.Ə.Sabirlə dostluq etmiş və onu qərəzli hücumlardan qorumuşdur. "Günəş" qəzetində "Adsız məktublara cavab" və "Oxucularımıza" adlı Sabiri müdafiə edən yazılarla çıxış etmişdir (1910). Balaxanı mək-

təbi yanında "Nur" adlı qiraətxana açmışdır (fevral, 1911). Bir neçə neft quyusu vardı.

ƏHMƏDOV Teymur Əkbər oğlu (d. 1930) – ədəbiyyatşünas, jurnalist. Filol. e.d. (1988), prof. (1989). ADU-nun (indiki BDU) filol. fakültəsini bitirmişdir (1954). "Ata yurdu" (1989), "Vətən səsi" (1990-91), "Vətən həsrəti" (1992-1993), "Yeni fikir" (1994-1995) qəzetlərində baş red., "Elturan" jurnalında məsul red. olmuşdur. 1996 ildən "Respublika" qəzetinin baş red.-dur. "Dostluq və səadət carçısı – C.Məmmədquluzadə" (1967), "Dostluq duyğuları" (1979), "Nəriman Nərimanovun dramaturgiyası" (1971), "Nəriman Nərimanovun yaradıcılıq yolu" (1990) və s. əsərlərində M.-nin həyat və yaradıcılığından da bəhs edilir. "Azərbaycan yazıçıları" ensiklopedik məlumat kitabında (1995) M. haqqında məqalənin müəllifidir.

"ƏKİNÇİ" – Azərb.-da ilk milli qəzet. 1875-1877 illərdə Bakıda (iki həftədən bir) nəşr olunmuşdur. Banisi və red. böyük maarifçi-demokrat Həsən bəy Zərdabi idi. Tərəqqipərvər ideya istiqaməti, zəngin məzmun və mövzu dairəsi "Ə".-ni Rusiyada yaşayan türkdilli xalqlar üçün örnək etmişdi. Qəzetin ətrafında M.F.Axundov, N.Vəzirov, S.Ə.Şirvani, Əsgər ağa Gorani Əhsənül-Qəlaid, Həsən Əlqədiri, Axund Əhməd Səlyani, M.Əlizadə və b. qabaqcıl yazıçılar, xadimlər toplanmışdı. Çar senzurası tərəfindən təqib olunan "Ə."-nin nəşri 1877 ilin sentyabrında (56 №-dən sonra) dayandırılmışdır. M. "Əkinçi"dən öyrənir, onun ən yaxşı ənənələrini davam etdirir, "Molla Nəsrəddin"də onun barəsində hörmətlə bəhs edirdi. Qəzetin 50 illiyi yubileyində M. komissiyanın üzvü kimi fəaliyyət göstərmişdir.

ƏLQƏDARİ Mirzə Həsən Hacı Abdulla oğlu (1834-1910) – Dağıstan tarixçisi, şair, maarifçi. Milliyyətcə ləzgidir. Balakəndə doğulmuş, sonralar ailəsi ilə birlikdə Dağıstanın Əlqədar auluna köçmüşdür. Klassik müsəlman təhsili almış, ərəb, fars və türk dillərini mükəmməl öyrənmişdir. Dövlət idarələrində işləmiş, 12 ildən çox Cənubi Tabasaranın naibi olmuşdur. Həyatının son iyirmi ilini pedaqoji işə həsr etmişdir. 1903 ildə Bakıda çap olunan "Asari-Dağıstan" əsəri Ə.-ni tarixçi-alim kimi tanıtmışdır. Dağıstan tarixindən bəhs edən bu əsər A.Bakıxanovun "Gülüstani-İrəm"indən istifadə yolu ilə Azərb. dilində yazılmışdır. Ə. "Məmnun" təxəllüsü ilə Azərb. və ərəb dillərində şeirlər də yazmışdır. F.Köçərli "Azərbaycan ədəbiyyatı" kitabında Ə.-dən Azərb. şairi kimi bəhs etmişdir. H.Zərdabi, M. və digər Azərb. ziyalıları ilə dostluq əlaqələri saxlayan Ə. "Əkinçi" qəzetində şeir və məqalələr çap etdirmiş, "Molla Nəsrəddin" jurnalının ilk nömrələrini Dağıstana aparıb təbliğ etmişdir. XX əsr Azərb. mətbuatının "Şərqi-Rus" və "Molla Nəsrəddin" kimi nümunələrində də yazıları çıxırdı.

T.Əhmədov

"ƏQRƏB" – Bakıda nəşr edilmiş satirik jurnal. 8 səhifədən ibarət olan "Ə."in 1923 ildə 6, 1924 ildə 2 nömrəsi nəşr olunmuşdur. Jurnalda nəzm və nəsrlə həm satirik, həm də yumoristik yazılar, karikaturalar verilirdi. "Ə."-in red. Həsən Rəhmanov, rəssamı Əzim Əzimzadə idi. "Ə." imzalı baş məqaləsindən jurnalın bəzi əsas vəzifələri, dil, üslub xüsusiyyətləri etibarilə "Molla Nəsrəddin"dən öyrənməyə çalışdığı görünürdü.

ƏLƏKBƏRLİ Məmmədkazım Ələkbər oğlu (1905-1938) – ədəbiyyatşünas, jurnalist, filosof. APİ-ni bitirmiş (1927), "Qızıl Gəncə" jurnalının (1927), "Dağıstan füqərası" (Mahaçqala) qəzetinin və "Maarif yolu" jurnalının red. (1928-1930) olmuşdur. Məqalələrində milli ədəbiyyatımızın inkişafı məsələləri, ayrı-ayrı yazıçılar, ədəbi təşkilatlar, görkəmli ədəbi əsərlər və s. bəhs olunur. "Molla Nəsrəddin", Mirzə Cəlil, M.Ə.Sabir, Ə.Haqverdiyev, M. və b. mollanəsrəddinçilər haqqında tədqiqat aparan Ə. "Ağlar-güləyən haqqında" silsilə məqaləsində M.Ə.Sabirin inqilabçı satirik kimi formalaşmasında "Molla Nəsrəddin"in rolundan bəhs etmişdir. O yazırdı: "Molla Nəsrəddin" Sabirə yaraşırdı. Sabir də "Molla Nəsrəddin"ə. Bunlar bir-birini bəzəyir və tamamlayırlardı.

ƏLƏKBƏROV Ələsgər Hacağa oğlu (1910-1963) – aktyor. SSRİ xalq art. (1961). 1924 ildən Əbilov ad. klubda həvəskar aktyor kimi fəaliyyətə başlamışdır. 1927-1930 illərdə Bakı Teatr Texnikumunda oxumuş, eyni zamanda Bakı Türk İşçi Teatrında çıxış etmişdir. Bu səhnədə o, digər rollarla yanaşı, M.-nin "Ölülər" pyesində Hacı Baxşəli rolunda da çıxış etmişdir. Ə. 1930-1933 illərdə Tiflis Azərb.

Ə.Ələkbərov

Ə.Nazim

Teatrı və Gəncə Dram Teatrında, 1933 ildən ömrünün sonunadək ADT-nda fəaliyyət göstərmiş, müxtəlif xarakterli, rəngarəng obrazlar yaratmışdır. Ə.-un yaradıcılığı Azərb. teatrının inkişafında mühüm rol oynamışdır. Ə. həmçinin Azərb. kinosu tarixində xüsusi yer tutmuş görkəmli kino aktyorlarından idi.

ƏLƏSGƏROV Süleyman Ağababa oğlu (1913-1999) – aktyor. Azərb. xalq art. (1982). 1936 ildən ömrünün sonunadək Azərb. Dövlət Gənc Tamaşaçılar Teatrında işləmiş, bir sıra müxtəlif xarakterli, yaddaqalan obrazlar yaratmışdır. M.-nin 1983 ildə səhnəyə qoyulmuş "Danabaş kəndinin məktəbi" pyesində yüzbaşı rolunda ustalıqla çıxış etmişdir.

ƏLƏVİ Əbülfət (?-?) – Cənubi Azərb. ziyalısı, ictimai xadim. Əslən Dərbənddəndir. M. ailəsinin Təbrizdə yaşadığı dövrdə şəhər valisinin müşaviri idi. İstanbul un-tinin hüquq fakültəsini bitirmişdir. Şərq və Qərb mədəniyyətinə dərin bələdliyi və mütərəqqi ictimai baxışları ilə seçilirdi. 1919 ildə Təbrizdə "Ələviyyə" adlı yeni tipli məktəb təşkil etmişdir. "Molla Nəsrəddin" jurnalının Təbrizdə yenidən nəşrə başlamasında Ə.-nin mühüm rolu olmuşdur. O, M.-ni Təbriz valisi ilə görüşdürmüş, baş məqalələri farsca olmaq şərtilə jurnalın Azərb. türkcəsi ilə nəşrinə icazə almışdır. Farsca baş məqalələri Ə. özü yazmışdır. O, M.-nin "Ölülər" və "Anamın kitabı" pyesləri ilə tanış olmuş, hər iki əsəri bəyənmiş, lakin ikincini daha yüksək qiymətləndirmişdir. Ə.-nin təşəbbüsü və fəal yardımı ilə 1921 ilin aprelində "Ölülər" Təbrizdə tamaşaya qoyulmuşdur. Həmidə xanımın yazdığına görə o, "Anamın kitabı"nın da Təbriz səhnəsində oynanmasına çalışmışdır. M.-nin həmişəlik Təbrizdə qalmasını istəyən Ə. buna təkid etmişdir. Onun fikrincə, "Molla Nəsrəddin" jurnalı geriliyin və cəhalətin hökm sürdüyü Cənubi Azərb.-a daha çox fayda gətirə bilərdi.

ƏLİ Məhzun (Əli Hacı Zeynalabdin oğlu Rəhimovun təxəllüsü) (1886-1934) – mollanəsrəddinçi şair. M.Ə.Sabirə bənzətmə halında şeirlər yazmışdır. Əsərləri "Molla Nəsrəddin", "Məzəli", "Babayi - Əmir" jurnallarında, "İqbal" qəzetində və s. mətbuat orqanlarında dərc edilmişdir. "Asudə yaşa, ləzzət ilə...", "Müştəbeh olma..." kimi şeirləri satirik bənzətmələrdir. "Məhzun", "Yetim cücə", "Həmişəki" kimi gizli imzalarla çap olunan bu əsərlərdə zalım vəzifə sahibləri, cahil, yalançı mövhumatçılar, qumarbazlar rüsvay edilirdi. Sabirin ölümünə həsr etdiyi təsirli şeirdə onun əsərlərinin tezliklə kitabça halında nəşrini arzulayırdı.

ƏLİ Nazim (Ələkbər Mahmud oğlu Mahmudzadənin təxəllüsü) (1906-1941) – tənqidçi, ədəbiyyatşünas. Leninqrad Şərqşünaslıq İn-tunda oxumuş, Kommunist Akademiyasının aspiranturasını bitirmişdir. Yaradıcılığa şeirlə başlamış, 1920-ci illərin ortalarından tənqid və ədəbiyyatşünaslıq sahəsində də ardıcıl çalışmışdır. Onun tədqiqatlarında ədəbi irs problemi əsas nəzəri və tarixi məsələlərdən birini təşkil edirdi. Bununla əlaqədar olaraq M.-nin yaradıcılığına, onun milli ədəbi prosesin inkişafında, realizmin ədəbiyyatımızda daha da dərinləşməsi sahəsindəki roluna və s. məsələlərə toxunmuş, bunları dövrün ədəbi-estetik nəzəri-metodoloji səviyyəsindən izah etməyə çalışmışdır. M.-nin vəfatı münasibətilə məqalə yazmış (1932) və burada onu "inqilabi cığırdaş" adlandırmaqla bərabər, həm də qeyd etmişdir ki, M. "Azərbaycan ədəbiyyatında böyük bir inqilabi mövqeyə malikdir". Ə. N. ədibə həsr olunmuş ilk monoqrafiyanın müəllifidir (1936). Ə. N.-in 1930-cu illərdə mətbuatda dərc edilmiş məqalələri də ("Molla Nəsrəddinin yaradıcılığı", "Realist, satirik və sənətkar", "Molla Nəsrəddinin realizmi, gülüşü və "Ölülər" haqqında", "Böyük realist, böyük satirik, böyük sənətkar" və s.) həmin monoqrafiyanın ayrı-ayrı parçalarıdır. Tənqidçi M. yaradıcılığını dövrlərə təsnif etmiş, əsərlərinin mövzu və tip aləmini, yaradıcılığının sosial problematikasını, realizminin, gülüşünün ideya və estetik təbiətini, xüsusiyyətlərini göstərmiş, bədii dilini xalq məişət dili kimi səciyyələndirmişdir. Ədibin yaradıcılığını tədqiq edərək bu nəticəyə gəlmişdir ki, milli gerçəkliyin geridə qalmış cəhətləri bu yaradıcılıqda ən kəskin və sərt şəkildə tənqid və ifşa edilmiş, buna görə də yazıçının əsas bədii idrak silahı "yumor, sarkazm, satirik gülüşdür", bu gülüşün isə bir xüsusiyyəti "göz yaşları ilə yoğrulmuş acı bir gülüş olmasıdır". Tənqidçinin müşahidəsinə görə yazıçının əsərləri, xüsusilə, "Ölülər", "Anamın kitabı", "Dəli yı-

ğıncağı" pyesləri tənqid və ifşa ilə yanaşı, "dərin lirikaya, oxucunu təsvir olunan varlıqdan çıxarıb, təmiz bir aləmə yüksəldən lirikaya və hətta ... bir romantikaya malikdir". Ə. N. göstərirdi ki, M. sənəti realist sənətdir və bu realizm "əsas etibarilə tənqidi realizmdir".

ƏLİ Nəzmi (Əli Məhəmməd oğlu Məmmədzadənin təxəllüsü) (1878-1946) – şair. XX əsr realist Azərb. ədəbiyyatının, "Molla Nəsrəddin" ədəbi məktəbinin görkəmli nümayəndələrindən, M.Ə.Sabirin istedadlı davamçılarındandır. İlk şeirlərini, məqalə və felyetonlarını M.-nin əməkdaşı və müvəqqəti red. olduğu "Şərqi-Rus" qəzetində dərc etdirmiş (1904), XX əsrin əvvəlində "Molla Nəsrəddin", "Bəhlul", "Məzəli", "Kəlniyət", "Tuti", "Babayi-Əmir" jurnallarında, "Tərəqqi", "Məlumat", "Yeni İrşad", "İqbal" və s. qəzetlərdə iştirak etmişdir.

Ə.N. "Molla Nəsrəddin" jurnalının əsas müəlliflərindən olmuş, "Əlidəyənəkli", "Qanacaqsız", "Məşədi Sijimqulu", "Kefsiz" və s. imzalarla felyetonlar və satirik-yumoristik şeirlər dərc etdirmişdir. Ə.N. "Molla Nəsrəddin" ədəbi məktəbi mövqeyindən əsrin inqilabi-demokratik ideyalarını, cəmiyyətin sağlam əsaslar üzrə inkişafını təbliğ etmiş, xalqın zülm və istibdadın təzyiqindən qurtarması yolunda maneəyə çevrilən hakim dairələri, ruhaniləri, bəyləri, xanları kəskin tənqid etmişdir.

Ə.N.-nin bir şair kimi vətəndaşlıq cəsarətini yüksək qiymətləndirən M. onu "ikinci Sabirimiz" adlandırmışdır. M. şairin "Sijimqulunamə" (1927) şeirlər toplusuna yazdığı "Məşədi Sijimqulu "Kefsiz" adlı müqəddimədə deyirdi: "Mövzuda və məzmunda müştərək olmalarından savayı, "Molla Nəsrəddin"ə müxtəs bu iki ləzzətli şairi kəlamın məzə və şirinliyi barəsində biz həmişə bir-birinə oxşatmışıq. Və lakin bu da cümləyə məlumdur ki, Sabir heç kəsə yox, bəlkə Sijimqulu Sabirə oxşayıbdır və güman edirəm ki, bir belə təşbihə iftixar da edibdir".

Ə.N.-nin bir şair kimi yetişməsində, siyasi-ictimai mövzular aləminə gəlməsində, istedadını xalqın xidmətinə verməsində "Molla Nəsrəddin"in rolunu yüksək qiymətləndirərək yazırdı: "Mübaliğə olmasın, deyə bilərəm ki, əgər "Molla Nəsrəddin" məcmuəsi olmasaydı, əziz şairimiz Sabir də bu qədər məşhur ola bilməzdi. Mən isə ya heç şair ola bilməzdim, ya şair olsam da, bir növhə və mərsiyə şairi olmaqdan irəli gedə bilməzdim. "Molla Nəsrəddin"in bizim boynumuzda çox böyük haqqı vardır". Ə.N. "Molla Nəsrəddin"i "parlaq ulduz"a bənzədir və "millətin parlaq günü" adlandırırdı. Hakim dairələr və tüfeyli təbəqələr tərəfindən "Molla Nəsrəddin"ə qarşı çevrilmiş hər bir təzyiqi və onun fəaliyyətini dayandırmasını Ə.N. həmişə qəzəblə qarşılamış, onun mövqeyini cəsarətlə müdafiə etmişdir ("Qorxuram", "Molla Nəsrəddin", "Molla Nəsrəddin"ə, "Etmə", "Üstündən", "Olma", "Müxatibim", "Molla Nəsrəddin"dir, "Xəbər", "Molla, coşub-daşmağını qoy nəmə" və s.). Ə.N. satiralarının bir silsiləsini "Molla Nəsrəddin"ə müraciətlə yazmış, xalq düşmənlərini jurnalda ifşa etməklə hədələmişdir.

"Keçmiş günlər" adlı mənzum xatirəsində M.-yə geniş yer ayırmış, müəllimini yüksək qiymətləndirmiş, əlaqə və dostluqlarının tarixi haqqında ətraflı məlumat vermişdir.

ƏLİ Razi (Əli Məşədi Yəhya oğlu Şəmsizadənin təxəllüsü) (1888-1938) – şair, publisist, ictimai xadim. Mollaxanada təhsil almış, XX əsrin əvvəllərində Azərb.-dakı siyasi-ictimai hərəkatın təsiri altında ədəbi fəaliyyətə başlamışdır. Yaradıcılığına "Molla Nəsrəddin" jurnalı və M.Ə.Sabir güclü təsir göstərmişdir. "Molla Nəsrəddin" və başqa satira jurnallarında "Dabanı çatdax xala", "Heyvərə", "Bambılı", "Düdük" və b. imzalarla günün ictimai nöqsanlarından, əsasən qadınların ağır həyat tərzindən bəhs edən satiralar dərc etdirmişdir. Əsərləri "Dabanı çatdax xala və heyvərə" (Gəncə, 1912) və "Dabanı çatdax xala" (Bakı, 1936) kitablarında toplanmışdır. Ə.R. həm də lirik şair kimi fəaliyyət göstərmiş, bu əsərləri 1908, 1909 illərdə Gəncədə çap edilmiş "Nalələrim" və "Fəğanlarım" kitablarında çıxmışdır. Lirik-romantik şeirlərində əsasən Şimali Azərb.-da və İran Azərb.-ındakı soydaşlarının çar və şah istibdadı altında əzilməsindən bəhs edilir. 1918-1920 illərdə "Müsavat" partiyasına daxil olmuş, milli təhlükəsizlik orqanlarında çalışmışdır. Sovet hakimiyyəti illərində "Yeni Gəncə" qəzetinin red. olmuşdur. Şəxsiyyətə pərəstiş dövründə həbs edilmiş və güllələnmişdir.

Ə.Nəzmi

Əli Səbri

F.Əlixanova

E.Əlibəyzadə

X.Əlimirzəyev

ƏLİ Səbri (Əli Camal oğlu Qasımovun təxəllüsü) (1892-1983) – nasir, publisist, tərcüməçi. Qori müəllimlər seminariyasını bitirmiş, Bakıda pedaqoji fəaliyyət göstərmiş, "Yeni yol" qəzetində işləmişdir. ADU-nun filol. fakültəsini bitirdikdən sonra "Maarif işçisi" jurnalının red. olmuş, ali məktəblərdə dərs demişdir. "Molla Nəsrəddin" jurnalında "Daqyanuszadə" imzası ilə satiralar çap etdirmişdir. O, 1910 ildə Yasnaya Polyanaya L.N.Tolstoyun görüşünə getmiş, ədibin və b. rus yazıçılarının bir neçə əsərini ana dilinə çevirmişdir. Azərb. ədəbiyyatından ruscaya tərcümələri də var. Ə.S. xarici ədəbiyyatda "Molla Nəsrəddin" haqqında rəylər, Ə.Qəmküsarın qətli və s. kimi mövzularda məqalələrin müəllifidir. 1938-1948 illərdə sürgündə olan Ə.S. vətənə qayıdandan sonra "Azərnəşr"də red., Yazıçılar İttifaqında ədəbi fondun sədri işləmişdir. 1962 ildə M.-nin qızı Münəvvər xəstələnəndə ona dayaq olan ədib yazırdı: "Siz mənim böyük müəllimim, dostum və xeyirxahımın canlı təcəssümüsünüz. [...] Gələcək nəsillər Sizin mərhum atanızın xatirəsinə indikindən çox artıq ehtiram bəsləyəcəkdir; mən böyük Mirzə Cəlilin "Danabaş kəndinin əhvalatları"nda qəmli taleyinə göz yaşı tökdüyü doğma kəndimizi daim xatırlayıram".

ƏLİBƏYZADƏ Elməddin Məhəmməd oğlu (d. 1925) – ədəbiyyatşünas, dilçi. Filol. e.d. (1988), prof. ADU-nun filol. fakültəsini bitirmişdir (1949). 1953 ildə "Azərbaycan dilinin təmizliyi və saflığı uğrunda mübarizədə C.Məmmədquluzadənin rolu" mövzusunda namizədlik, 1988 ildə "18-20 əsrlər Azərbaycan ədəbi dilinin inkişafının əsas istiqamətləri" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. Ə. Azərb. ədəbiyyatı, dili, yazı mədəniyyəti və tarixinə dair 200-ə qədər elmi məqalənin, "Ədəbi şəxsiyyət və dil" (1982), "Qədim dünyamızın ulu kitabı" (1996), "Ana kitabələr" (1996) və s. elmi əsərlərin müəllifidir. Tədqiqlərində M.-nin və "Molla Nəsrəddin" jurnalının Azərb. dilinin saflığı, təmizliyi uğrunda mübarizəsini əvəzolunmaz xidmət kimi işıqlandırmışdır.

ƏLİBƏYOV Mustafa bəy Mirzə Cabbar bəy oğlu (1872-1942) – hüquqşünas, naşir, dramaturq, publisist. Şəki şəhər məktəbini, Tiflis gimnaziyasını bitirmiş, Bakıda müstəntiq dilmancı, dava vəkili işləmişdir. 1905 ildən ədəbi yaradıcılıqla məşğul olmuşdur. XX əsrin 10-cu illərində "Nicat" qəzetində Ə.-un milyoner H.Z.Tağıyevin himayəsinə sığınmaq məqsədilə onun türməsini tərifləməsi, "İşıq" jurnalında (1911, №23) və ümumiyyətlə, monarxistliyi tənqid edilmişdir. Ə.-un hakim dairələr, varlı və imtiyazlı şəxslərə mədhiyyə yazması, tərif deməsi faktı ilə barışmayan M. "Mustafa bəy Əlibəyov" felyetonunu yazaraq "Nicat"ın "vəkil-yazıçının ünvanına dediyi "Böyük ağıl, Mazandaran dahisi, Darabizan məşhuru, Çəmbərəkənd professoru, Zıx ədəbiyyatçısı" istehzasını bəyənmiş, sənətkar şəxsiyyətinin əyilməzliyini müdafiə edərək yazırdı: "De, de, de, mən ölüm, de! De ki, ay Allah bəndəsi, əsl müsəlman qardaş, ay həmişə gah Allah-təala dərgahında, gah böyüklər qabağında beli ikiqat duran qardaş, ay dünyanın iki qəpiklik mənfəətindən və şöhrətindən ötrü Hacı Zeynalabdinlərin çəkmələrini vaqsılıyan advokat cənabları!

Ay biçarə müsəlman, niyə dinc durmursan ki, sırtıq oğlu sırtıqlar səni qəzetlərdə biabır eləsinlər?".

ƏLİXANOVA Firuzə Məmmədqulu qızı (1917-1994) – aktrisa. Azərb. xalq art. (1974). 1932 ildən C.Məmmədquluzadə ad. Naxçıvan Dövlət Musiqili Dram Teatrında fəaliyyət göstərmiş, həm dram tamaşalarında, həm də opera və musiqili komediyalarda oynamışdır. M.-nin "Anamın kitabı" əsərində Zəhrabəyim rolunda çıxış etmişdir (1989).

ƏLİMİRZƏYEV Xalid Əlimirzə oğlu (d. 1932) – tənqidçi, ədəbiyyatşünas, yazıçı. Filol. e.d. (1972), prof. (1974). ADU-nun filol. fakültəsini bitirmişdir (1956). Bir müddət orta məktəbdə müəllim işləmişdir. BDU-nun "Azərbaycan ədəbiyyatı tarixi" kafedrasının professorudur. "Cəlil Məmmədquluzadənin ədəbi-tənqidi görüşləri" mövzusunda namizədlik (1964), "Cəlil Məmmədquluzadənin dramaturgiyası" mövzusunda doktorluq dissertasiyası (1972) müdafiə etmişdir. Ə.-in bir çox hekayə, oçerk və publisistik yazıları dövri mətbuatda çap olunmuş, "Səadət sorağında" adlı pyesi ADT-da tamaşaya qoyulmuşdur. Ə.-in elmi fəaliyyətində M. və onun yaratdığı "Molla Nəsrəddin"

Heydər Əlirza oğlu Əliyev

ədəbi məktəbi nümayəndələrinin yaradıcılığına aid tədqiqat işləri daha mühüm yer tutur. Bu mövzuya həsr olunmuş 40-dan çox məqalənin, "Cəlil Məmmədquluzadənin dramaturgiyası" (1972), "Problemlər və xarakterlər dramaturgiyası" (1979), "C.Məmmədquluzadənin ədəbi-tənqidi görüşləri" (1991) və s. əsərlərin müəllifidir.

ƏLİOĞLU Məsud (Məsud Əli oğlu Vəliyevin təxəllüsü) (1928-1973) – ədəbiyyatşünas, tənqidçi. Filol. e.d. (1968), prof. ADU-nun (indiki BDU) filol. fakültəsini bitirmişdir (1951). Əsasən, XX əsr Azərb. ədəbiyyatının və tənqidinin inkişafı məsələlərini tədqiq edirdi. O, M.-nin, habelə Nizami, Füzuli, M.Ə.Sabir, S.S.Axundov, C.Cabbarlı, Hüseyn Cavid və b. yazıçıların həyat və yaradıcılığı haqqında cari ədəbi prosesə həsr olunmuş ədəbi-tənqidi məqalə və monoqrafiyaların müəllifidir. "Cəlil Məmmədquluzadənin dramaturgiyası" (1954), "Məslək qardaşları" (1966), "Cəlil Məmmədquluzadənin dramaturgiyasında sənətkarlıq" (1974) və s. əsərlərində M.-nin dünyagörüşü və sənətkarlığını tədqiq edərkən Ə. yazıçının əsərlərindəki qüvvətli, dərin ifşaçılığı yüksək qiymətləndirmiş, ədibin dramaturgiyasındakı faciəviliyin mahiyyətini açıb göstərmişdir.

ƏLİYEV Heydər Əlirza oğlu (10.05.1923 – 12.12.2003) – Azərb. Resp.-nın Prezidenti (1993-2003), Yeni Azərb. Partiyasının sədri (1992-2003), dünya azərbaycanlılarının ümummilli lideri, müstəqil Azərb. dövlətçiliyinin qurucusu, azərbaycançılıq fəlsəfəsinin banisi.

Ə. Azərbaycana rəhbərlik etməyə başladığı ilk dövrdən etibarən Bakıda Mədəniyyət və Ədəbiyyat günlərinin keçirilməsi, görkəmli ədəbi şəxsiyyətlərin xatirə ev-muzeylərinin açılması və yubileylərin qeyd olunması ənənə halını almış, bu isə milli özünüdərkin yüksəlişini təmin edərək, xalqın tarixi yaddaşının özünə qaytarılması və qəlbində uzun illərdən bəri sıxılıb qalmış milli dövlətçilik ideyalarının gerçəkləşməsi üçün zəmin yaratmışdır.

Milli mədəniyyət klassiklərinin geniş miqyasda, beynəlxalq aləmdə tanınmalarında, onların ehtiramla yad olunmalarında müstəsna rol oynayan Ə.-ə görə, "tarixi şəxsiyyətlərin yubileylərinin keçirilməsi, bir tərəfdən, onların xalq qarşısında, millət qarşısında xidmətlərinə verilən qiymətdir... Digər tərəfdən, belə yubileylərin keçirilməsi xalqın, millətin zənginliyini nümayiş etdirir. Eyni zamanda bu yubileylər xalqın, millətin daha da yüksəlməsinə kömək edir". Bu baxımdan Azərb. tarixinin yetirdiyi böyük ədəbi şəxsiyyətlərin abidəyə çevrilməsi xalqın milli varlığına, milli-mənəvi duyğuların güclənməsinə son dərəcə müsbət təsir göstərmişdir.

Həm doğma Azərbaycan xalqının, həm də başqa xalqların mənəvi dəyərlərinə hörmətlə yanaşan Ə. müxtəlif illərdə ədəbiyyatla və mədəniyyətlə bağlı fikir və mülahizələr söyləmişdir. Azərbaycana rəhbərlik etdiyi illərdə Ə. respublika yazıçılarının bütün qurultaylarının iştirakçısı olmuş, yüksək elmi-nəzəri səviyyəli çıxışları və ədəbi prosesə dair birbirindən maraqlı təhlilləri ilə iştirakçıların xatirində dərin izlər qoymuşdur.

Müstəqillik dövründə Azərb.-ın böyük şəxsiyyətlərinin, milli mədəniyyətin görkəmli nümayəndələrinin zəngin irsinin azərbaycançılıq fəlsəfəsi baxımından yenidən öyrənilməsi və təbliği ön plana çəkilmişdir. Ə.-in imzaladığı fərman və sərəncamlar, o cümlədən M.-nin 125 illik yubileyinin qeyd olunması bu sahədə aparılan siyasətin aydın təzahürləridir.

Azərbaycanın intellektual potensialının bünövrəsində milli ədəbiyyatı və mədəniyyəti görən Ə.-dən ötrü bu milli-mənəvi sərvət, eyni zamanda müstəqil dövlətimizin əsasını təşkil etmişdir. Çıxışlarının birində Ə. qeyd etmişdir ki, insanlara ədəbiyyat qədər, mədəniyyət nümunələri qədər güclü təsir edən, yəni insanların mənəviyyatına, əxlaqına, tərbiyəsinə, fikirlərinin formalaşmasına bu qədər güclü təsir göstərən başqa bir vasitə yoxdur... Bizim ədəbiyyatımız, doğrudan da, xalqımızda, millətimizdə milli ruhu oyadıbdır, milli əhval-ruhiyyəni canlandırıbdır, milli dirçəliş prosesini gücləndirib. Məhz bunların nəticəsində bizdə milli psixologiya, milli ideologiya formalaşmağa başlayıbdır. Bəlkə bu, milli psixologiya, milli ideologiya indi böyük bir sistem şəklində deyil... Ancaq indi bunları toplayıb sistemləşdirib formalaşdırmaq üçün bizim böyük sərvətimiz var. O sərvət də bizim mədəniyyətimizdə olan fikirlər, çox dəyərli sözlərdir".

Ə. deyirdi ki, Azərbaycanda yazıçı daim böyük hörmətə layiq olubdur. Bu, bizim tarixi ənənəmizdir, əcdadlarımızdan bizə gəlib çatmış gözəl bir xüsusiyyətdir. Bu da təsadüfi deyil... Biz tariximizin qədim dövrlərini xatırlayarkən, yaxud onları dünyaya geniş çatdırmaq istəyərkən, birinci növbədə və bəzən də yalnız mədəniyyətimizə, mədəniyyət, ədəbiyyat xadimlərinin yaratdığı əsərlərə, tarixi-memarlıq abidələrimizə və böyük şairlərimizin, mütəfəkkirlərimizin yazdığı əsərlərə istinad edirik... Eyni zamanda dünya, bəşər qarşısında bunlarla fəxr edirik, öyünürük... Çünki bu böyük insanlar nəinki bizim xalqımızı, bütün bəşəriyyəti, bəşər tarixini zənginləşdirən əsərlər yazmışlar".

Ə.-in şəxsiyyətinə və yaradıcılığına böyük diqqəqlə yanaşdığı klassik Azərbaycan yazıçılarından biri M.-dir. Hələ 1981-ci ildə, Ə. Azərb. KP MK-nın birinci katibi olarkən onun təşəbbüsü ilə Bakıda böyük sənətkarın ev-muzeyinin yaradılması haqqında qərar qəbul edilmişdi. Əlamətdar haldır ki, ev-muzeyini açmaq şərəfi aradan 13 il keçəndən sonra yenə də Ə.-ə nəsib olmuşdur.

1994-cü ildə M.-nin anadan olmasının 125 illiyi respublikamızda geniş qeyd olunmuş, ölkə başçısı istər ev-muzeyinin açılışında, istərsə də təntənəli yubiley gecəsində iştirak edərək M. şəxsiyyətinə və yaradıcılığına, ümumiyyətlə, klassik Azərbaycan ədəbiyyatının və mədəniyyətinin problemlərinə dair dəyərli nitqlər söyləmişdir.

Həmin ilin dekabrında M.-nin ev-muzeyinin fəxri qonaqlar kitabına yazdığı ürək sözlərində Ə. bu yeni mədəniyyət ocağını yalnız böyük yazıçının xatirəsinə göstərilən ehtiram kimi deyil, həm də xalqımızın gələcək mədəni-mənəvi yüksəlişinə təkan verən bir mədəniyyət və mənəviyyat mərkəzi kimi dəyərləndirirdi: "Bu gün Azərbaycanın həyatında böyük bir hadisə baş verir. Azərbaycan xalqının böyük yazıçısı, maarifçisi, ictimai xadimi Cəlil Məmmədquluzadənin ev-muzeyi açılır. Bakı şəhərində yeni mədəniyyət ocağı, Mirzə Cəlil ocağı fəaliyyətə başlayır. Bu, Cəlil Məmmədquluzadənin yaradıcılığına, onun ədəbi-mədəni irsinə, xalqımızın tarixinə əvəzsiz xidmətlərinə verilən yüksək qiymətin rəmzidir. Şübhə yoxdur ki, muzey Mirzə Cəlil dühasının təbliğinə faydalı xidmət edəcəkdir. Xalqımızın mənəvi saflaşmaq yolunda, müstəqillik yolunda mübarizəsinə kömək edəcəkdir."

M.-nin şəxsiyyəti və yaradıcılığı Ə. üçün ən əvvəl müasirliyi, heç zaman öz aktuallığı və təravətini itirməməsi ilə səciyyəvidir. Ə.-in nəzərində Mirzə Cəlil bizim ən canlı müasirimizdir, təkcə dünənimiz deyil, həm də sabahımızdır. Ə. Azərbaycan xalqının öz azadlığı, müstəqilliyi uğrunda apardığı mübarizəni də Mirzə Cəlilsiz təsəvvür etmirdi.

Ə. 1994-cü il dekabrın 28-də Respublika sarayında M.-nin anadan olmasının 125 illiyi ilə bağlı keçirilən təntənəli gecədə böyük ədibin XX əsr Azərbaycan ədəbiyyatı və ictimai fikri tarixindəki yerini və rolunu yüksək dəqiqlik, professionallıq və elmi dərinliklə qiymətləndirərək deyirdi: "Cəlil Məmmədquluzadə Azərbaycan tarixində görkəmli yer tutmuş dahi insan, yazıçı, publisist, filosof, mütəfəkkir, xalqımızın mədəniyyətini çox zənginləşdirmiş bir şəxsiyyətdir. O, ədəbiyyatımızın, mədəniyyətimizin klassikidir. Eyni zamanda o, bizim müasirimizdir, o, bu gün də bizimlədir, bizim sıralarımızdadır. Bizimlə bərabər Azərbaycanın müstəqilliyinə sevinir və bizimlə bərabər

Azərbaycan Respublikasının daim müstəqil dövlət olması uğrunda öz yaradıcılığı ilə çalışmaqdadır... Cəlil Məmmədquluzadə bu gün ... bizim üçün mənəviyyat mənbəyidir, mənəvi dayaqdır. O, bizə ilham verir, bizə güc verir, sürətlə irəli getməkdə, xalqımızı bugünkü vəziyyətdən çıxarmaqda bizə kömək edir".

Bu mülahizələr bir tərəfdən Ə.-in Mirzə Cəlil irsinə böyük məhəbbətini, digər tərəfdən isə onun həmin ədəbi-mənəvi xəzinəyə yüksək professionallıqla, xalqın və dövlətin mövqeyindən yanaşdığını göstərir.

Ə. öz çıxışında M. irsinin hələ kifayət qədər öyrənilmədiyini, daha doğrusu, dəyişən zaman və şərait daxilində onun yaradıcılığına yeni müraciətin zəruriliyi fikrini vurğulamışdır. Doğrudan da, Azərb. ədəbiyyatının digər klassikləri ilə müqayisədə ölməz Molla Nəsrəddinin irsi daha çox müstəqillik əqidəsi və təfəkkürü ilə öyrənilməyə möhtacdır. Çünki sovet rejimi şəraitində onun bir çox əsərləri öz həqiqi qiymətini almamış, yaxud toxunduğu bir sıra vacib mətləblər məhz hakim ideologiyanın şərtlərinə uyğun gəlmədiyi üçün diqqətdən kənarda qalmışdır. Bu mənada hər yeni nəsil M. yaradıcılığından bəhrələnmək imkanına malikdir.

Ə. obrazlı şəkildə böyük Mirzə Cəlilin yaradıcılığını dibi görünməyən bir dəryaya bənzədərək deyirdi: "Doğrudur, Cəlil Məmmədquluzadə yaradıcılığı elə bir dəryadır ki, o dəryanın dibinə gedib çatmaq, hamısını əhatə etmək mümkün deyildir. Güman edirəm ki, hələ bir neçə nəsil Azərbaycan tarixçisi, ədəbiyyatşünası, siyasətşünası, alimi Cəlil Məmmədquluzadə xəzinəsini, yaradıcılığını araşdıracaq, onu tədqiq edərək yeni-yeni kəşflər edəcəkdir. Cəlil Məmmədquluzadə yaradıcılığı Azərbaycan mənəviyyatını, mədəniyyətini, ədəbiyyatını dünyaya nümayiş etdirən və xalqımızın nəyə qadir olduğunu göstərən böyük bir sərvətdir".

M.-ni və onun yaratdığı mollanəsrəddinçilər ədəbi məktəbini Ə.-ə sevdirən başlıca cəhət böyük sənətkarın milli oyanış və milli özünüdərk ideyalarına ardıcıl xidməti olmuşdur. Ə. göstərirdi ki, "Cəlil Məmmədquluzadə öz yaradıcılığı ilə, əsərləri ilə, publisistikası ilə, böyük mətbuatçılıq fəaliyyəti ilə Azərbaycan xalqının milli oyanışında, milli dirçəlişində əvəzsiz rol oynamışdır. Xalqımızın milli şüurunun formalaşmasında məhz "Molla Nəsrəddin" jurnalının və Mirzə Cəlilin fəaliyyətinin rolu misilsizdir".

Ə. özünün M. haqqında mülahizələrində milli mətbuatımızın korifeyi olan "Molla Nəsrəddin" jurnalına xüsusi yer ayırmışdır. Böyük demokrat ədibi Ə.-ə yaxınlaşdıran, doğmalaşdıran başqa bir cəhət yazıçının həm də görkəmli ictimai xadim olması, heç vaxt ictimai-siyasi proseslərdən, xalqın taleyi ilə bağlı məsələlərdən kənarda qalmaması idi. Ə.-dən ötrü Azərb. mədəniyyətinin bütün klassikləri kimi, M. də, ilk növbədə, məhz vətənə, torpağa bağlılığı, milli azadlıq və müstəqillik ideallarına sonsuz sədaqəti ilə qiymətli və əzizdir.

M. hətta Azərb.-da ilk müstəqil milli respublikanın qurulduğu 1918-ci ildə ifrat ideallaşdırma yolu tutmamış, əksinə, hadisələrə açıq nəzərlə yanaşmışdır. Azərb. xalqının milli şüurunun formalaşdırılması və qorunmasında ədəbiyyat və mədəniyyət nümayəndələrinin bir çox mərhələlərdə həm də siyasi xadimlərin vəzifələrini öz üzərlərinə götürmələri baxımından istisna təşkil etməyən M. Azərb. Xalq Cümhuriyyətinin rəhbər xadimləri sırasında yer almasa da, müstəqillik ideyalarının formalaşmasında, bu ideyaların beyinlərdə və şüurlarda özünə yer tapmasında müstəsna xidmətlər göstərmişdir. Ə. haqlı olaraq qeyd edir ki, "... ona görə də biz Cəlil Məmmədquluzadəyə, sadəcə, bir ədəbiyyatçı kimi, yazıçı kimi, publisist kimi yox, böyük siyasətçi kimi yanaşmalıyıq. Cəlil Məmmədquluzadə öz yaradıcılığı ilə Azərbaycanın ictimai-siyasi həyatının inkişafında, milli ruhun yüksəlməsində böyük rol oynamışdır. Bu, təkcə ədəbiyyat deyil, təkcə mədəniyyət deyil, bu, siyasətdə böyük xidmətdir, ictimai həyatımızda böyük xidmətdir".

Azərb. dili məsələsinə həmişə xüsusi həssaslıqla yanaşan, müstəqillik dövründə isə onun dövlət dili kimi inkişaf etdirilməsini və tətbiq dairəsinin genişləndirilməsini azərbaycançılıq məsələsi səviyyəsinə qaldıran Ə.-in diqqətindən ana dilinin inkişafında M. və davamçılarının tutduqları ardıcıl mövqe də yayınmamışdır: "Cəlil Məmmədquluzadənin fəaliyyətindəki ən dəyərli cəhətlərdən biri də Azərbaycan xalqının dilinin inkişafı üçün

göstərdiyi xidmətlərdir. Ədibin ana dilinə – Azərbaycan dilinə böyük diqqəti, ana dilini təbliğ etməsi və ana dilinin, Azərb. dilinin hər yerdə hökm sürməsinə dair fikirləri, yazıları o vaxt üçün çox vacib idi, bu gün üçün də çox aktualdır" – deyən Ə.-in Mirzə Cəlilin dili barəsindəki bu mülahizələri, eyni zamanda ölkə prezidentinin özünün də ana dilinə münasibəti üzərinə işıq salır. Təsadüfi deyil ki, digər klassik yazıçı və şairlərimizlə bir sırada M. irsi də Azərb. dili anlayışına yenidən vətəndaşlıq hüququ qazandırmaq prosesində Ə.-in arxalandığı mənbələrdən biri olmuşdur.

Ə. özünün müxtəlif məruzə və nitqlərində, müsahibə və söhbətlərində gənc, müstəqil Azərb. Respublikasının milli ideologiyasını yaratmağın zəruriliyi barəsində danışmışdır. Ə.-in fikrincə, bu ideologiya, ilk növbədə, Azərb. xalqının əsrlər boyu yaratdığı mənəvi sərvətlərə əsaslanmalı, xalqın mədəniyyət və mənəviyyatını, dini, etik və estetik dəyərlərini, keçdiyi tarixi inkişaf yolunu özündə əks etdirməlidir. Ə. klassik yazıçılarımızın yaradıcılığını milli ideologiyanın bünövrəsi hesab etmiş və yeni dövlət quruculuğunda, xüsusən mədəni quruculuqda onların irsindən yaradıcı şəkildə istifadəni zəruri saymışdır. Bu baxımdan Ə.-in fikrincə, yeni milli ideologiyanın yaradıcıları, ilk növbədə, dahi sənətkar M.-nin ədəbi-ictimai irsinə müraciət etməlidirlər: "Cəlil Məmmədquluzadənin yaradıcılığında Azərbaycanın bütün milli xüsusiyyətləri, eyni zamanda ümumbəşəri dəyərləri əks etdirən fikirlər bizim milli ideologiyanın əsasıdır və həmin ideologiyanın yaranması üçün böyük bir vasitədir, böyük bir sərvətdir. O dövrdə həm milliliyə bağlı olmaq, həm də dünyəvi, ümumbəşəri dəyərləri qiymətləndirmək, onları öz yaradıcılığında əks etdirmək və xalqımızın ümumi səviyyəsini qaldırmaq cəhdləri böyük vətəndaşlıq cəsarəti idi, böyük xidmətdir və bunu biz daim qiymətləndirməliyik. Ona görə də, Cəlil Məmmədquluzadənin yaradıcılığı, əsərləri bu gün bizim milli ideologiyanın formalaşmasında, yaranmasında və onun konsepsiyasının elmi şəkildə hazırlanmasına çox kömək edə bilər və çox kömək edəcəkdir".

Ə. böyük yazıçının yubiley gecəsində söylədiyi geniş və əhatəli nitqində onun ədəbiyyat tariximizdəki mövqeyini, yaradıcılığında qaldırdığı fikir və ideyaların vüsətini dəyərləndirməklə bir sırada, M.-nin ayrı-ayrı əsərləri haqqında da diqqətəlayiq mülahizələr söyləmiş, bu əsərləri müasirliyin problemləri baxımından təhlil etmişdir. "Anamın kitabı" pyesini "Azərbaycan üçün çox dahiyanə əsər" adlandıran Ə. istər pyesin yazıldığı dövrdəki, istərsə də bizim günlərdəki ictimai-siyasi şəraiti və Azərb.-nın geosiyasi mövqeyini müqayisəli şəkildə gözdən keçirərək pyesdəki fikir və ideyaların, xarakter və personajların müəyyən qeyd-şərtlərlə bu gün də aktual olduğu qənaətinə gəlir.

Mirzə Cəlilin şah əsəri – "Ölülər" tragikomediyası da, Ə.-in fikrincə, yalnız özünün yüksək bədii məziyyətlərinə, tarixi əhəmiyyətinə görə deyil, həm də müasirliklə sıx bağlanmasına görə ədəbiyyat tariximizdə mühüm yer tutur. "Ölülər"i dünya ədəbiyyatında analoqu olmayan əsər sayan Ə. çox doğru qeyd edir ki, məhz bu tragikomediya "Cəlil Məmmədquluzadənin həm nə qədər böyük filosof, psixoloq olduğunu göstərir, həm də onun yalnız özünəməxsus yaradıcılığını, özünəməxsus fitri istedadını əks etdirir. "Ölülər" əsəri ölməz əsərdir. O, yazıldığı vaxt da lazım idi, o, bizə bu gün də lazımdır".

Ə.-in əsərlə bağlı başqa bir diqqətəlayiq fikri də "Ölülər"in uzun illər ədəbiyyatşünaslıqda və ictimai fikirdə yalnız din əleyhinə yazılan əsər kimi qələmə verilməsi və təbliğ edilməsinə qarşı çıxmasıdır. Ə. qeyd edir ki, "Biz indi öz dinimizə qayıtmışıq. Din mənəvi mənbələrimizdən biridir. İslam dininin, Qurani-Kərimin Azərbaycan xalqı üçün açdığı yol davam edəcək və biz get-gedə dinimizin hər yerdə özünə layiq yer tutmasına imkan yaradacağıq. Ancaq biz Cəlil Məmmədquluzadənin "Ölülər" əsərindən bu gün də bəhrələnməliyik. Çünki bu gün də dini təhrif edənlər, dindən öz məqsədləri üçün istifadə edənlər, dindən istifadə edərək xalqımızı cəhalətə uğratmağa çalışanlar az deyil. Mirzə Cəlil isə belələri ilə o vaxt mübarizə aparıbdır və "Ölülər" əsəri ilə bizə bu vəsiyyəti edibdir. Biz də onun vəsiyyətini yerinə yetirməliyik".

Ə.-in fikrincə, müasir mərhələdə mənəvi tərbiyə baxımından M.-nin "Ölülər" əsəri müstəsna əhəmiyyətə malikdir. M. yaradıcılığının müasir dövr üçün əhəmiyyəti üzərində ayrıca dayanan Ə. müasir yazıçılardan öz böyük sələflərinin ənənələrini davam etdirməyi, cəmiyyətdə baş verən proseslərə vətəndaşlıq və millət təəssübkeşliyi mövqeyindən yanaşmağı tələb edirdi.

Azərb. jurnalistikasında "Molla Nəsrəddin" ənənələrindən danışan Ə. bu lazımlı ənənələrin sovet hakimiyyəti illərində davam etdirilmədiyini təəssüf hissi ilə xatırlatmışdır. O, xüsusən "Molla Nəsrəddin"in xələfi və davamçısı kimi düşünülmüş "Kirpi" satirik jurnalının öz böyük müəlliminin işini layiqincə davam etdirə bilmədiyini, mövzu xırdaçılığına, ifrat məişətçiliyə yuvarlandığını qeyd etmişdir.

M. irsini müasir axtarışlar səviyyəsində geniş təhlil edən Ə., eyni zamanda bu istiqamətdə aparılan tədqiqatların arasıkəsilməz xarakter daşıması haqqında da tövsiyələrini vermiş, arzularını bildirmişdir. Ə.-ə görə, hər yeni nəsil bu canlı klassikin şəxsiyyətinə və yaradıcılığına öz prizmasından baxmağı bacarmalıdır. Ən başlıcası isə Azərb. xalqının öz milli dövlətini qurması, özünün yeni mənəvi sərvətlərini yaratması prosesində digər klassiklərlə birlikdə Mirzə Cəlilin də zəngin ədəbi irsindən faydalanmaq zəruridir: "Cəlil Məmmədquluzadədən, onun yaradıcılığından biz daha faydalı istifadə etməliyik... Bugünkü gənc nəsli onunla yaxından tanış etmək lazımdır. Bizim bu gənc nəslimiz indi ... Cəlil Məmmədquluzadənin əsərləri ilə, yaradıcılığı ilə nə qədər yaxından tanış olsa, o qədər də bizim dövlətçilik işlərimiz asan gedər".

M.-nin "Cümhuriyyət elə bir hökumətə deyirlər ki, orada məmləkətin idarəsi camaatın, xalqın öz öhdəsində və ixtiyarındadır və vicdan azadlığı, yığıncaq azadlığı, birlik azadlığı, söz azadlığı, siyasi firqələr düzəltmək azadlığı, şəxsiyyət azadlığı, qanun qarşısında bərabərlik, seçki üsulunda həmrəylik, bərabərlik və müstəqillik, gizli səsvermə prinsipləri cümhuriyyət quruluşunda əsas olmalıdır" – fikrini xatırladan Ə. bu sözlərin müəllifini Azərb.-ın müasir tarixindəki böyük demokratlardan biri adlandırır. "Onun yazılarında cümhuriyyət anlayışı bu gün bizim quracağımız demokratik hüquqi dövlət prinsipləri ilə səsləşir" – deyən və yazıçı-jurnalist M. kimi ictimai-siyasi xadim M.-nin də bizim müasirimiz olduğunu nəzərə çarpdıran Ə. yalnız ədəbi-estetik mülahizələrdə deyil, yeni cəmiyyət quruculuğu prosesində də Mirzə Cəlilə, onun həmişəyaşar ədəbi irsinə arxalanmağı zəruri sayır.

"Molla Nəsrəddin" jurnalının on iki cildlik faksimile nəşrinin hazırlanması, Bakıda M.-nin abidəsinin ucaldılması, onun ev-muzeyinin yeni eksponatlarla zənginləşdirilməsi, ölməz dramaturji irsi əsasında yeni tamaşalar qoyulması kimi məsələlər də Ə.-i daim yaxından maraqlandırmışdır.

M. şəxsiyyəti və irsi Ə.-dən ötrü ədəbiyyatın və xalqın təkcə keçmişini, dünənini öyrənmək üçün deyil, həm də onun sabahına, gələcəyinə işıq salmaq üçün qüdrətli vasitədir. Ə. digər klassik yazıçılarımızla yanaşı, həmçinin Mirzə Cəlilin yaradıcılığında keçmişlə bu günü birləşdirən xüsusiyyətləri böyük ustalıqla müşahidə etmişdir ki, bu da ilk növbədə, onun klassik ədəbi irsə dərin bələdliyindən və güclü müasirlik duyğusundan irəli gəlir.

ƏLİYEV Hüseyn Əlirza oğlu (1911-1991) – rəssam. Azərb. xalq rəssamı (1982). Bakı Rəssamlıq Texnikumunu bitirmiş (1932), Leninqrad Boyakarlıq, Memarlıq və Heykəltəraşlıq İn-tunda oxumuşdur (1932-1935). Yaradıcılığında portret və mənzərələr mühüm yer tutur. Ə. 1922-1931 illərdə "Molla Nəsrəddin" jurnalı ilə əməkdaşlıq etmiş, onun bir sıra karikaturaları jurnalın səhifələrində çap olunmuşdur.

H.Əliyev

ƏLİYEV Hüseynqulu Əli oğlu (d. 1949) – heykəltəraş, teatr rəssamı, qrafik. Naxçıvan MR-nın əməkdar inc. xad. (1988), Azərb. əməkdar rəssamı (1999). Ə.Əzimzadə ad. Rəssamlıq Məktəbini (1975), Ə.Hüseynzadə ad. Azərb. Dövlət İncəsənət Un-tinin rəssamlıq fakültəsini (1982) bitirmişdir. C.Məmmədquluzadə ad. Naxçıvan Dövlət Musiqili Dram Teatrının baş rəssamı (1994 ildən), Naxçıvan Dövlət Un-tinin kafedra müdiridir. M.-nin portreti (1990), "C.Məmmədquluzadə və H.Cavid" (1990), "C.Məmmədquluzadə oğlu Midhətlə" (1990), "C.Məmmədqulu-

zadənin oğlu Ənvərin ailə üzvlərinin portreti" (1994), "Qurbanəli bəy" hekayəsi mövzusunda barelyef (1989), M.-nin "Saqqallı uşaq" (1989), "Konsulun arvadı" (1989) əsərlərinə illüstrasiyalar, M.-nin büstü (1985) və s. hazırlamışdır. Naxçıvan Dövlət Musiqili Dram Teatrı üçün "Ölülər" tamaşasının geyim eskizlərini (1988-1989) çəkmişdir.

N.Əliyev

ƏLİYEV İbad (?-?) – senzor. Çar hakimiyyətinin milli mətbuata, o cümlədən "Molla Nəsrəddin"ə qarşı yeritdiyi təqib, təzyiq siyasətini 1920 illərdə Sovet Azərb.-nın Dövlət Mətbuat Müvəkkilliyində davam etdirən senzorlardan biri. İşlədiyi müvəkkillikdə "Molla Nəsrəddin" redaksiyasının hazırladığı bir sıra yazıları və rəsmləri öcəşmə yolu ilə ixtisar edir, onların tam mətninin nəşrini çətinləşdirir, yaxud nabordan çıxarırdı. Məs., 1923-1926 illərdə "Molla Nəsrəddin" jurnalının səhifələrindən bir neçəsində mətn və şəkil yerlərinin ağ qaldığı bunu sübut edir.

M.Əliyev

ƏLİYEV Mirzağa Əli oğlu (1883-1954) – aktyor. SSRİ xalq art. (1949). SSRİ Dövlət Mükafatı laureatı (1943, 1948). İlk təhsilini mollaxanada almış, Bakıda "Rus-müsəlman" məktəbini bitirmişdir. Səhnəyə ilk dəfə 1901 ildə çıxmışdır. 1906-1907 illərdə "Həmiyyət" teatr truppasının rəhbəri və aktyoru olmuş, 1907-1912 illərdə "Nicat" cəmiyyətinin teatr truppasında çıxışlar etmiş, 1912 ildə mütərəqqi ictimai fəaliyyətinə görə Həştərxana sürgün olunmuşdur. 1916 ilin aprelində Bakıda tamaşaya qoyulmuş "Ölülər" komediyasındakı İsgəndər rolu Ə.-in yaratdığı klassik obrazlar silsiləsinə daxildir. Ə. "Xatirələrim" əsərində C.Məmmədquluzadə ilə görüşləri, İsgəndər obrazı üzərində işi haqqında məlumat verir. İsgəndərin "naxçıvanlı bir vəkil" prototipini axtarıb tapmaq məqsədilə Naxçıvana getməsi haqqında Ə.-in söhbətini dinləyən M. demişdir: "Dostum, Naxçıvana getməyinə sözüm yoxdur... Ancaq Kefli İsgəndəri oynamaq üçün müəyyən bir adamı təqlid etmək səhvdir. Çünki mən çoxlu elə vəkillər müşahidə etmiş, onları ümumiləşdirmiş və öz Kefli İsgəndərimi yaratmışam" (Əliyev M. Xatirələrim. B., 1974, s. 32). Ə. 1924 ildən ömrünün sonunadək ADT-nda fəaliyyət göstərmişdir. Ə. fitri komediya istedadına, milli koloritə, ifadəli yumora və zəngin səhnə nüanslarına malik aktyor idi. Kinofilmlərə çəkilmişdir.

M.Əliyev "Kefli İsgəndər" rolunda

ƏLİYEV Nazir Kərim oğlu (1946-1997) – aktyor. Azərb. əməkdar art. (1981). Azərb. Dövlət İncəsənət Un-tini bitirdikdən sonra (1968), Sumqayıt və Naxçıvan teatrlarında, 1975 ildən isə Lənkəran Dövlət Dram Teatrında işləmişdir. Bu teatrın səhnəsində M.-nin "Ölülər" əsərində Şeyx Nəsrullah obrazını böyük müvəffəqiyyətlə oynamışdır (1991).

ƏLİYEV Nahad Məmmədbağır oğlu (1942-2003) – jurnalist, redaktor. Azərb. əməkdar inc. xad. (1989). ADU-nu (indiki BDU) bitirmişdir (1964). 1966-1993 illərdə "Azərb. Ensiklopediyası" Baş redaksiyasında işləmişdir. 10 cildlik ASE-nin bədii tərtibatında xidmətləri var. ASE I cildinin bədii tərtibatına görə "Kitab sənəti" Ümumittifaq müsabiqəsinin diplomunu almışdır (1975). 1994-2003 "Azərbaycan" nəşriyyatının baş red. işləmişdir. Şərqdə ilk şəxsiyyət ensiklopediyası – "Üzeyir Hacıbəyov ensiklopediyası"nın elmi-redaksiya şurası sədrinin birinci müavini olmuşdur (1996), "Cəlil Məmmədquluzadə ensiklopediyası" elmi-redaksiya şurasının üzvü olmuşdur.

ƏLİYEVA Ətayə Qulam qızı (1918-1995) – aktrisa. Azərb. əməkdar art. (1964). İrəvan, Gəncə teatrlarında və ADT-nda çalışmışdır. Gəncə Dövlət Dram Teatrında səhnəyə qoyulmuş "Ölülər" pyesində (1939) Kəblə Fatma, ADT-da səhnəyə qoyulmuş "Dəli yığıncağı" pyesində (1978) Məşədi Zeynəb rollarında böyük müvəffəqiyyətlə çıxış etmişdir.

ƏLİYEVA (Cavanşir) Qəmər Əliş bəy qızı (1903-1988) – Həmidə xanım Məmmədquluzadənin əmisi nəvəsi, Münəvvər Məmmədquluzadənin yaxın rəfiqəsi. Bir müddət M.-nin ailəsində yaşamışdır. 1920 ildə M.-nin ailəsi ilə Təbrizə köçmüşdür. 1930 ildə M.-nin bacısı oğlu Teymurla ailə qurmuşdur. M. haqqında yazdığı xatirələrdə Təbrizdə keçirdikləri günlər, orada "Molla Nəsrəddin" jurnalının nəşri, Bakıya qayıtmaları, M.-nin son günləri haqda qiymətli təfərrüat vardır.

ƏLİYEVA Leyla (1900-1991) – M.-lərin ailəsinə yaxın olmuş qadın. Gənc yaşlarından Həmidə xanımın Kəhrizli kəndində açdığı toxuculuq emalatxanasında çalışmışdır. M.-nin ailəsi ilə yenidən Təbrizə köçmüş, 1921 ildə qayıtdıqdan sonra da həmin emalatxanada işləmiş və Şuşada məktəbdə oxumuşdur. Çadrasını atması qarafikirli adamları acıqlandırır, "Molla Nəsrəddin" jurnalında onunla yerli axundun karikaturası verilməndən sonra vəziyyəti daha da pisləşir. O, Xankəndinə köçüb, xəstəxanada tibb bacısı işləyir. Burada da bir qəssab caninin bıçağı ilə yaralanır. Ə. bir məqaləsində yazmışdır: "Təzəcə sağalmışdım ki, Mirzə Cəlil mənə yol pulu göndərib Bakıya çağırdı. Ədibin köməyilə Bakıda tibb məktəbində oxumağa və onun ailəsində yaşamağa başladım. Ədib mənim kimi bir neçə cavana əsl mənada atalıq edirdi, üst-başımızın töküldüyünü görüb nazir Ayna Sultanovadan xahiş elədi ki, mənə yardım göstərsin". M. sonralar onu "Şərq qadını" jurnalında işə düzəltmişdir.

ƏLİYEVA Zemfira Məmmədəli qızı (1941-1995) – aktrisa. Azərb. xalq art. (1982). Gəncə, Naxçıvan teatrlarında və ADT-da işləmiş, müxtəlif xarakterli obrazlar yaratmışdır. M.-nin C.Məmmədquluzadə ad. Naxçıvan Dövlət Musiqili Dram Teatrının səhnəsində tamaşaya qoyulmuş "Dəli yığıncağı" əsərində Pırpız Sona obrazını böyük ustalıqla yaratmışdır (1976). Kinofilmlərə çəkilmişdir.

ƏLİZADƏ Məmmədtağı Əbdülsəməd oğlu (Məhəmmədtağı Əlizadə Şirvani) (1858-1918) – maarifçi ziyalı. Tiflisdə ruhani məktəbini bitirmiş, 1874-1877 illərdə Bakıda realnı gimnaziyada oxumuşdur. Ərəb, fars, rus, fransız və alman dillərini bilən Ə. "Əkinçi" qəzetinə maarif və mədəniyyəti təbliğ edən məqalələr yazmış, H.Zərdabi və N.Vəzirov kimi demokratik fikirli ziyalılarla dostluq etmişdir. 1878 ildə Moskvada Petrovski-Razumovski Əkinçilik Akademiyasına daxil olan Ə. gizli "İmdadiyyə" təşkilatının yaradılmasında mühüm rol oynamış və N.Vəzirovdan sonra ona rəhbərlik etmişdir. Akademiyanı bitirdikdən sonra (1883) Peterburqda Maliyyə Nazirliyində işləmişdir. O, Almaniya və Fransaya səyahət etmiş, həmin ölkələrin maarifi, iqtisadiyyatı və mədəni həyatı barədə məlumat toplamışdır. Sileziyanın iqtisadiyyatı haqqında alman dilində əsər yazıb nəşr etdirmişdir. Mütərəqqi fikirlərinə görə 1888 ildə işdən azad edilmiş, Azərb.-a qayıtmışdır. 1906 ildə I Dövlət Dumasına üzv seçilmişdir. Ömrünün sonunadək dövri mətbuatda demokratik ruhlu məqalələrlə çıxış edən Ə. "Molla Nəsrəddin" jurnalı və onun görkəmli müəlliflərinin dərin məzmunlu yazıları ilə maraqlanırdı. M.-nin hörmət bəslədiyi ziyalılardan idi.

Ə.Əliyeva

ƏLİZADƏ-MİRƏHMƏDOVA Dilara Əziz qızı (d. 1947) – ədəbiyyatşünas. Filol. e.n. (1979), Azərb. İnşaat Mühəndisləri İn-tunun dosenti (1982). "Cəlil Məmmədquluzadə əsərlərinin rus dilinə tərcüməsi" mövzusunda dissertasiya müdafiə etmişdir. İtaliyada rus dilindən dərs demişdir (1982). Humanitar fakültə tələbələri üçün elmi-metodik vəsait yazılması və redaktəsi sahəsində çalışır. "Cəlil Məmmədquluzadə əsərlərinin rus dilinə tərcüməsi" adlı tədqiqatında ədibin Qori müəllimlər seminariyasında təhsil alması, müəllimliyi, bədii əsərlərinin rus dilinə tərcüməsi məsələləri, leksik, morfoloji, sintaktik xüsusiyyətləri, xalq dilindən qüvvət alması və s. məsələlər işıqlandırılır.

D.Əlizadə-Mirəhmədova

ƏMİN Abid (Seyfulla Mütəllib oğlu Əhmədovun təxəllüsü) (1898-1937) – yazıçı, ədəbiyyatşünas, tərcüməçi. Yaradıcılığa gənc yaşlarından başlamış, İstanbul-

da Ali Müəllimlər İn-tunu və un-tin tarix-filol. fakültəsini bitirmişdir. Şeir, hekayə, məqalə və tərcümələri "Məktəb", "Molla Nəsrəddin", "Babayi-Əmir", "Kəlniyət" jurnallarında, "İqbal", "Yeni iqbal" və s. qəzetlərdə müxtəlif imzalarla ("Qozqurab bəy" və s.) dərc olunmuşdur. Ə.A. Azərb. ədəbiyyatının tədqiqi ilə məşğul olmuş, "Füzulinin tədqiq edilməmiş bir əsəri" (1927), "Ali məktəblərdə Azərbaycan ədəbiyyatı" (1927) və s. məqalələrin, "Mirzə Şəfi" (1933), "M.F.Axundovun elmi-ədəbi görüşləri" (1933) monoqrafiyalarının və bir çox elmi əsərlərin müəllifidir.

ƏMİROV Sabir Nəbi oğlu (d. 1926) – ədəbiyyatşünas, jurnalist. Filol. e.d. (2002). ADU-nun (indiki BDU) filol. fakültəsini bitirmişdir (1953). "C.Məmmədquluzadənin felyetonları" mövzusunda namizədlik dissertasiyasını müdafiə etmişdir (1967). Bu əsərdə ədibin felyetonları və ümumiyyətlə, Azərb. ədəbiyyatında felyeton janrının təkamülü ilk dəfə olaraq tədqiq-təhlil edilmiş və elmi qiymətini tapmışdır. M. və "Molla Nəsrəddin" jurnalı haqqında bir sıra məqalələrin ("C.Məmmədquluzadə felyetonlarının forma xüsusiyyətləri", "C.Məmmədquluzadə gülüşünün xüsusiyyətləri", "C.Məmmədquluzadə felyetonlarının satirik obrazları", "C.Məmmədquluzadə felyetonlarında İran mövzusu" və s.) müəllifidir.

A.Əmrahoğlu

Z.Əsgərli

ƏMRAHOĞLU Arif (Arif Əmrahoğlu Məmmədov) (d. 1955) – ədəbiyyatşünas, filologiya elmləri namizədi (1984), Azərbaycan Yazıçılar Birliyinin katibi (1987), Bakı Dövlət Universitetinin dosenti. "Nəsrin poetikası" monoqrafiyasında C.Məmmədquluzadənin povest və hekayələrinin təhkiyəsi, "Epik sözün bədii gücü" kitabına toplanmış məqalələrdə stereotip davranış normaları və obraz yaradıcılığı problemi təhlil olunmuşdur. C.Məmmədquluzadə haqqında ayrıca məqalələr ("C.Məmmədquluzadənin "Qurbanəli bəy" hekayəsində "Millilik və obraz yaradıcılığı", "Kolyaska" və Qurbanəli bəy", "Yaşayan məbəd ünvana – dərd Mirzəsi" və s.) yazmış, əksər elmi-nəzəri məqalələrində C.Məmmədquluzadə irsini təhlilə cəlb etmişdir.

"ƏR" – M.-nin dram əsəri. 1930 ildə tamamlanmışdır. 4 pərdəlik bu pyes 20-ci illərin ikinci yarısında Azərb.-da gedən mürəkkəb ictimai prosesləri, yeni mühitin doğurduğu vahimə və çaşqınlığı, mənəvi boşluq və ümidsizlik meyllərini əks etdirir. Pyesdə məharətlə düşünülmüş "ər axtarışı" motivi ailə mühiti ilə cəmiyyət həyatını əlaqələndirən "açar" funksiyasını uğurla yerinə yetirir. Firqə namizədi, darülfünun tələbəsi, yenilikçi Cahangir və onun köhnə fikirli ailəsinin həyatı yeni cəmiyyət quruculuğundakı mövcud çətinlikləri, gerçəkliyin dərkolunma prosesinin özünəməxsusluğunu, insan, mühit və zaman münasibətlərini aydınlaşdırmağa imkan verir. Cahangirin simasında mövcud cəmiyyətə ümid bəsləyən yenilikçi cavanların ümumiləşmiş obrazı yaradılmışdır. Əsərdəki prof. Mirzə Ərvahallahxan 20-ci illərdə ali məktəblərdə çalışan, cəmiyyət quruculuğundan çox elm öyrətməyə üstünlük verən yaşlı müəllimlərin həyatı və düşüncələrini özündə cəmləşdirir. Mürşid dayı surətinin timsalında sanki qarşıdan gələn 37-ci ilin vahiməli, səksəkəli ab-havası göz önünə gətirilmişdir. Azad bəy surəti isə milli, müstəqil, demokratik dövlət quruculuğuna çağırışın carçısı kimi təqdim olunur.

Bütövlükdə M. bu pyesi ilə Azərb. cəmiyyətini dəyişdirməyə, yaxud qurub möhkəmləndirməyə qadir olan, xalqın öz içərisindən çıxmış layiqli bir ərə, başçıya möhtac olduğu ideyasını irəli sürmüşdür. Yazıçının fikrincə, ailə qurmaqda olduğu kimi, cəmiyyət quruculuğunda da əri – başçını millət özü seçməlidir. Əsəri akademik İ.Həbibbəyli Azərb. EA Əlyazmaları İn-tunun arxivindən tapıb aşkara çıxarmışdır. Pyes kitab halında nəşr olunmuşdur (1990).

ƏSGƏRZADƏ Mirzə Cabbar, bax: Bağçaban.

ƏSGƏRLİ Zaman Şükür oğlu (d. 1953) – ədəbiyyatşünas, tənqidçi. Filol. e.d. (1992). APİ-nin (indiki APU) filol. fakültəsini bitirmişdir (1974). "Azərbaycan faciəsinin poetikası" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir (1992). XIX-XX əsrlər Azərb. ədəbiyyatının nəzəri məsələləri və poetika problemlərinə dair məqalələrin, N.Vəzirovun "Müsibəti-Fəxrəddin" faciəsi" (1998) monoqrafiyalarının və dərsliklərin müəllifidir. "Klassiki yenidən tədqiq edərkən", "Mirzə Cəlilə layiq" məqalələri M.-nin həyat və fəaliyyətindən bəhs edən kitab-

lara həsr olunmuşdur. Doktorluq dissertasiyasında M.-nin "Kamançа" pyesindən geniş bəhs etmiş, əsərin poetika-struktur keyfiyyətlərini təhlil edib yüksək dəyərləndirmişdir.

ƏSGƏROV Bürcəli Veysəl oğlu (d. 1933) – aktyor. Azərb. əməkdar art. (1980). ADT-nda fəaliyyət göstərir. Müasir və klassik əsərlərdə müxtəlif səpkili rollar yaratmışdır. M.-nin "Ölülər" pyesində Hacı Həsən ağa (1966), "Dəli yığıncağı" əsərində Hacı Məhəmməd Əli (1977) rollarını bacarıqla oynamışdır.

"ƏTRAF ŞƏHƏRLƏRİN HƏYATI" – M.-nin məqaləsi. 12 oktyabr 1917 il tarixli "Vozrojdeniye" qəzetində "C.Məmmədquluzadə. Şuşa uyezdi. Kəhrizli kəndi" imzalı bu məqalədə Fevral inqilabından sonra, Tiflisdə olduğu kimi, Yelizavetpol qubernіyasının Şuşa və Cavanşir qəzalarında da adam öldürmək və qarətçiliyin davam etdiyi qeyd olunur. Habelə məhkəmələrdə çar hakimlərinin yenə də iş başında qaldıqları, cinayət hadisələrinə laqeyd münasibət bəsləndiyi göstərilir.

ƏVƏZ Sadıq (Əbülfəz Əli oğlu Sadıqovun təxəllüsü) (1898-1956) – yazıçı, jurnalist, tərcüməçi. Əmək fəaliyyətinə müəllimliklə başlamış, sonralar jurnalistika sahəsində çalışmış, "Şərq qapısı" qəzetinin (1926-1927), "Molla Nəsrəddin"in xələfi "Kirpi" jurnalının (1952-1956) red. olmuşdur. Oçerk və hekayələrin, "Mingəçevir" romanının, bir çox satirik əsərlərin müəllifidir. Sofokl, Esxil, L.N.Tolstoy, E.Zolya, M.Y.Lermontov və b.-nın əsərlərini tərcümə etmişdir. Tədqiqatlarda M.-nin "Ölülər", "Usta Zeynal", "Anamın kitabı" əsərlərinin Təbriz teatr səhnəsində oynadığı mühüm rol yüksək qiymətləndirilir.

ƏZİMZADƏ Əzim Aslan oğlu (1880-1943) – rəssam. Azərb. xalq art. (1927). Əmək Qəhrəmanı (1927). Azərb. təsviri sənətində tənqidi realizmin və realist qrafika sənətinin banisi. Xüsusi rəssamlıq təhsili almamışdır. Satirik qrafika, illüstrasiya, siyasi plakat, tarixi-inqilabi və məişət janrlarında, həmçinin teatr-dekorasiya sənəti sahəsində fəaliyyət göstərmişdir. 1906 ildən "Molla Nəsrəddin" jurnalında satirik rəsmləri və siyasi karikaturaları ilə çıxış etmişdir ("Millət dərdi çəkməkdən əriyib çöpə dönmüş müsəlman dövlətlisi", "Cənab Vitte" və s.). Sonralar Bakıda çıxan satirik jurnallar ("Zənbur", "Kəlniyət", "Baraban", "Məzəli", "Tuti", "Babayi-Əmir") üçün karikatura və yumoristik rəsmlər işləmişdir. M.Ə.Sabirin "Hophopnamə"sinə illüstrasiyalar çəkmiş (1914), teatr tamaşalarına tərtibat və geyim eskizləri vermişdir. 1922-1931 illərdə "Molla Nəsrəddin"in baş rəssamı olmuş, jurnalın səhifələrində 1200-dən çox karikaturası verilmişdir. Bu karikaturaların əksəriyyəti mədəni inqilab, savadsızlığın ləğvi, qadın azadlığı, mövhumatın tənqidi və s. mövzularda idi. "Molla Nəsrəddin" jurnalı Ə. yaradıcılığını ideya-bədii cəhətdən istiqamətləndirmiş, onun satirik obrazlar diapazonunu müəyyənləşdirmişdir. Bu illər ərzində Ə. həmçinin M.-nin, M.Ə.Sabirin və b. əsərlərinə bədii tərtibat vermiş, illüstrasiyalar çəkmişdir. Rəssamın 30-cu illərdə yaratdığı əsərlər arasında məşhur "Yüz tip" silsilə rəsmləri, M.-nin "Ölülər" pyesinə və bir sıra b. yazıçıların əsərlərinə geyim eskizləri mühüm yer tutur. 1922 ildən ömrünün sonunadək Azərb. Rəssamlıq Məktəbində dərs demişdir.

ƏZİMOV Rafiq Əşrəf oğlu (d. 1938) – aktyor. Azərb. xalq art. (2000). Azərb. Mədəniyyət və İncəsənət Un-tini bitirmişdir (1962). Həmin ildən ADT-nin aktyorudur. Burada M.-nin "Dəli yığıncağı" əsərinin tamaşasında Həmzad Qurban obrazını məharətlə yaratmışdır (1978). Bir sıra bədii filmlərə və televiziya tamaşalarına çəkilmişdir.

ƏYLİSLİ Əkrəm (Əkrəm Nəcəf oğlu Naibovun təxəllüsü; d. 1937) – yazıçı. Azərb. xalq yazıçısı (1998). Milli Məclisin üzvü. Bir çox povest və hekayələrin müəllifidir. Bir sıra pyesləri resp. teatrlarında tamaşaya qoyulmuşdur.

M.-nin şəxsiyyəti və əsərləri haqqında "Qiymətli qafiyələr" (1978), "Şeytan tələsi" (1992), "Kökdən düşmüş kamançа" (1992) pyesləri, "Besstraşiye" (M., 1989; M.-nin seç. əsərlərinə son söz), "Çənlibeldən domsovetəcən və tərsinə" (1997), "Qoca Mirzə Cəlil, dostum Rafiq Tağı və kolxozun at tövləsində yazıçılar qurultayı" (1996) və b. məqalə və oçerkləri vardır. Ə.-nin bir sıra müsahibə və ədəbi söhbətlərində də M.-nin həyatı, şəxsiyyəti və əsərlərindən bəhs edilir.

B.Əsgərov

Əvəz Sadıq

R.Əzimov

Ə.Əylisli

Ə.Əzimzadə

Əziz Nesin

ƏZİZ Nesin (Mahmud Nüsrətin təxəllüsü) (1915-1995) – türk yazıçısı, publisist, ictimai və siyasi satira ustası. Hekayələrində Türkiyə həyatının sosial ziddiyyətləri, burjua istismarı və həyat tərzi, dini təəssübkeşlik və cəhalət ifşa olunur. Ə.N.-in müsbət qəhrəmanları kiçik məmur, sənətkar və işsiz yoxsullardır. O, çoxlu orijinal hekayə, pyes, roman, satirik nağıl və felyetonun müəllifidir. Əsərləri dünya xalqları dillərinə, habelə Azərb. dilinə tərcümə olunmuşdur. İki dəfə Bakıya gəlmiş, M.-nin 100 illik yubileyində iştirak etmişdir. M.-yə həsr etdiyi "Dahi yumor ustası" məqaləsində Ə.N. böyük ədibin yalnız öz mühitinin problemləri ilə kifayətlənməyib, dünya hadisələri haqqında da yazdığını göstərmişdir: "O, yaşadığı zəmanənin Türkiyəsi ilə də yaxından maraqlanıbdır, nəşr etdiyi "Molla Nəsrəddin" jurnalında müstəbid sultan Əbdülhəmid ifşa olunur". M. və "Molla Nəsrəddin" jurnalının hələ Türkiyədə layiqincə tanınmadığını təəssüflə qeyd edən Ə.N. inamla yazırdı ki, ölkələrimiz arasındakı münasibətlər möhkəmləndikcə mədəni əlaqələrimiz də qüvvətlənəcəkdir.

Əziz Şərif

M. və Sabir irsinin Türkiyə üçün aktual əhəmiyyətindən danışan Ə.N. onların satirasındakı "boynu yoğunlar"ın Türkiyədə də olduğunu qeyd edirdi.

Ə.N. "Poçt qutusu"nu bolqarcaya çevirtdirib, Sofiyada "Народный молодеж" ("Xalq gəncliyi") jurnalında nəşr etdirmişdir.

R.Əzizbəyli

ƏZİZ Şərif (Əziz Qurbanəli oğlu Şərifov) (1895-1988) – ədəbiyyatşünas, tərcüməçi. Filol. e.d. (1956), Moskva Dövlət Un-tinin prof. (1962), Azərb. əməkdar elm xad. (1963). Moskva Kommersiya intunda oxumuş (1915-1917), M. Qorki ad. Ədəbiyyat İn-tunu bitirmişdir (1943). İlk yazısı 11 yaşında "Molla Nəsrəddin" jurnalında dərc edilmişdir. 20-30-cu illərdə Tiflisdə mətbuat və nəşriyyat sahəsində çalışmış, sonralar Tbilisi Müəllimlər İntunda dərs demiş, SSRİ EA Şərqşünaslıq və M. Qorki ad. Dünya Ədəbiyyatı İn-tlarında baş elmi işçi olmuşdur. XIX-XX əsrlər Azərb. ədəbiyyatına, ədəbi əlaqələrə, teatra və tərcümə sənətinə dair sanballı tədqiqlərin, tənqidi əsərlərin müəllifidir. M.F.Axundov, N.Vəzirov, M.Ə.Sabir, Ə.Haqverdiyev, C.Cabbarlı, M.İbrahimov və b.-nın əsərlərini rus dilinə, bir sıra rus yazıçılarının əsərlərini Azərb. dilinə tərcümə etmişdir.

M-nin doğulduğu yeri, həyatının bir sıra məqamlarını da Ə.Ş. dəqiqləşdirmiş, naməlum əsərlərini aşkarlamışdır. Ə.Ş. uzun illər M. haqqında apardığı araşdırmalar və topladığı məlumatlar əsasında 1956 ildə "Cəlil Məmmədquluzadənin həyat və yaradıcılığının birinci dövrü (1865-1906)" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir. Ə.Ş. ömrünün sonunadək M. və onun məsləkdaşları, "Molla Nəsrəddin" jurnalı haqqında tədqiqlərini davam etmişdir. "Keçmiş günlərdən" (1986), "Tapıntılar" (1987) və s. əsərlərin, "Sabir və "Molla Nəsrəddin" jurnalı", "Yenə bir mollanəsrəddinçi haqqında", "Cəlil Məmmədquluzadə haqqında yeni materiallar", "C.Məmmədquluzadənin mühiti" (1894-1903) və s. məqalələrin müəllifidir. Uşaqlıqdan M. ilə tanışlığı, "Molla Nəsrəddin" jurnalının redaksiyasında onunla tez-tez görüşməsi, Həmidə xanımla, övladları, dostları ilə tanışlığı, məktublaşmaları ona tədqiqat işlərində xeyli köməklik edirdi.

M.-nin 100 illik yubileyində Bakıda keçirilən təntənəli yığıncaqda Ə.Ş. çıxış edərək, böyük ədibin həyat və yaradıcılığının öyrənilməsi sahəsində yeni işlərdən və qarşıdakı vəzifələrdən danışmışdır.

ƏZİZBƏYLİ Ramiz Hacıağa oğlu (d. 1948) – aktyor, kino rejissoru, ssenarist. Azərb. əməkdar art. (2000). 1987 ildə M.-nin eyniadlı hekayəsi əsasında çəkdiyi "Pirverdinin xoruzu" qısametrajlı filmi böyük uğur qazanmışdır. Film Kiyevdə gənc kinematoqrafçıların 19-cu beynəlxalq kino festivalında "Ən yaxşı rejissor işinə görə" mükafatını (1988), Almaniyada qısametrajlı filmlər festivalının xüsusi mükafatını almışdır.

FELYETON – bədii-publisistik ədəbiyyat və qəzet-jurnal janrı. Həm nəsr, həm də şeirlə yazılan F.-da həyatın mənfi, yaramaz cəhətləri tənqid edilir və lağa qoyulur. F.-un ilk dəfə meydana çıxdığı Fransada vaxtilə teatr və ədəbiyyat aləmindəki nöqsanlı hadisələrə dair məzəli və kəskin tənqidi məqalələr F. adlanırdı. Bu anlayış ilk dəfə 1800 ildə meydana çıxmışdır: J.L.Joffrua həftəlik fransız mətbuat orqanı "Jurnal de Deba"nın bir "podval"ını xətlə ayırıb, ona "F." adı vermişdi. F. ustaları sırasında dünya ədəbiyyatının H.Heyne, O.Balzak, A.Düma, Ç.Dikkens kimi böyük simaları vardır.

Azərb. ədəbiyyatında F. 20 əsrin əvvəllərində, "Molla Nəsrəddin" jurnalının fəaliyyəti sayəsində inkişaf etməyə və sürətlə yayılmağa başlamışdır; onun ən yaxşı nümunələrini nəsrdə N.Nərimanov, Ü.Hacıbəyov, Ə.Haqverdiyev, habelə M., şeirdə isə M.Ə.Sabir, Ə.Nəzmi, M.Ə.Möcüz, Ə.Qəmküsar və b. yaratmışlar.

FEYZULLAYEVA Aida Hənifə qızı (d. 1939) – ədəbiyyatşünas, mətbuat tarixçisi. Filol. e.d. (1995). M.F.Axundov ad. Rus dili və Ədəbiyyatı İn-tunu bitirmişdir. "XIX əsrin axırı – XX əsrin əvvəlində Azərbaycan yazıçıları və rus ədəbi-ictimai mühiti" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir (1994). Elmi fəaliyyətində yeni dövr Azərb. yazıçılarının rus və Qərb ədəbiyyatı ilə əlaqələri, milli maarifçilik ideyaları və s. problemlər əsas yer tutur. M.-nin "Poçt qutusu" hekayəsinin tərcümələri haqqında tədqiqatında bu əsərin rus dilinə çevrilməsi tarixi, müəllifin özünün, mütərcimlərdən H.Minasazov, Ə.Şərif, H.Məmmədquluzadə – Cavanşirin və b. tərcümələri təhlil olunub qiymətləndirilir.

FƏQİR (Hacağa Məhəmmədağa oğlu Ordubadinin təxəllüsü) (1836-1886) – şair. M.S.Ordubadinin atası. "Əncüməni-şüəra" ədəbi məclisinin rəhbəri olmuşdur. Əsərlərində ədalətsizliyi, fırıldaqçı din xadimlərini, rüşvətxor çar məmurlarını satira atəşinə tutduğu üçün təqibə məruz qalmış, bir müddət Türküstanda və İranda yaşamağa məcbur olmuşdur.

M. onun yaradıcılığına yüksək qiymət vermiş, F.-in əsərlərinin gözəl və lətif şeiriyyətə, özünün isə zəngin təxəyyülə malik olduğunu söyləmişdir. F.-in "Kürdün çul satması" satirası "Fatı" başlığı ilə "Molla Nəsrəddin" jurnalının 1907 il 10 sentyabr tarixli 34-cü sayında dərc edilmiş və böyük hay-küyə səbəb olaraq, az qala jurnalın qapanmasına gətirib çıxaracaqmış. Vəziyyətin kəskinləşdiyini görən M. həmin il dekabrın 23-də "Molla Nəsrəddin" jurnalının 48-ci sayında və dekabrın 25-də rusdilli "Zakavkazye" qəzetində izahat dərc edərək şeirin 20 il əvvəl vəfat etmiş F. tərəfindən yazıldığını və İrəvan qubernatoru Tizenhauzenə heç bir aidiyyəti olmadığını bildirmişdir. Lakin bu izahatlara baxmayaraq 1908 ilin martında qubernator Tizenhauzenin M. əleyhinə qaldırdığı istintaq işinə baxılmış və iş Tiflis dairə məhkəməsi tərəfindən xətm edilmişdir.

FƏRZƏLİBƏYOV Mərahim Fərzəli oğlu (d. 1949) – rejissor. Azərb. əməkdar inc. xad. (1982). Azərb. xalq art. (2000). Leninqrad Dövlət Teatr, Musiqi və Kinematoqrafiya İn-tunun rej. fakültəsini bitirmişdir (1975). Qroznı (1975-1977), Sumqayıt (1977-1981) teatrlarında işləmişdir. 1981 ildən ADT-da quruluşçu rej. kimi fəaliyyət göstərir. 30-a yaxın tamaşaya quruluş vermişdir. 1982 ildə Anarın M.-nin

əsərləri əsasında yazdığı "Sizi deyib gəlmişəm" pyesini tamaşaya qoymuşdur.

"FÜYUZAT" – həftəlik ictimai-siyasi, ədəbi-tənqidi jurnal. 1906 il noyabrın 1-dən 1907 il noyabrın 1-dək Bakıda Azərb. dilində nəşr edilmişdir. Cəmi 32 nömrəsi çıxmışdır. Red. Ə.Hüseynzadə, naşiri H.Z.Tağıyev idi.

"F."-la Ə.Kamal, M.Hadi, S.Səlmasi, M.Ə.Rəsulzadə, M.Ə.Sabir, H.Cavid, A.Sur, A.Səhhət, A.Şaiq, İ.T.Musayev, Ə.Müznib, Ə.X.Cənnəti, H.S.Ayvazov və b. əməkdaşlıq edirdilər. Jurnalda klassik irs – milli və dünya ədəbiyyatına dair tədqiqat xarakterli məqalələr, ictimai-siyasi və publisistik yazılar, tərcümə materialları, poeziya və nəsr, mənsur şeirlər, dramaturgiya nümunələri, elmi-fənni əsərlər dərc olunurdu.

Füyuzatçılarla mollanəsrəddinçilər sovet dövründə ideya-siyasi rəqiblər kimi tanıdılsalar da, əslində, qarşılıqlı əlaqədə olan tərəf-müqabillər idilər. Onlar vahid milli-mədəni intibah yaratmaq arzusu ilə yaşayırdılar. Hər iki jurnal klassik irsdən, dünyəvi dəyərlərdən bəhrələnməyi faydalı sayırdı. "Molla Nəsrəddin" satira məktəbi yaradır, inqilabi-demokratik düşüncəyə, ümumxalq həyatının yüksəldilməsinə çalışır, "F." romantik sənət məktəbini formalaşdırır, maarifçiliyin təkamülünə, demokratizmin yayılmasına meydan açırdı. Müxtəlifliyin birliyini təmsil edən füyuzatçılarla mollanəsrəddinçilər xəlqilik prinsiplərini bütöv Azərb. mədəniyyəti və mentalitetinin inkişafına tabe tuturdular.

"Molla Nəsrəddin"lə "F." jurnalı arasındakı ideya, üslub, bədii ifadə, lüğət fondu və b. fərqlər onların red.-ları arasındakı qarşılıqlı münasibətə ciddi maneə törədə bilməmişdi. Düzdür, M. jurnalındakı bəzi felyeton, məqalə və rəsmlərdə "F."la "Molla Nəsrəddin" arasındakı fikir və üslub fərqindən yazırdı; hətta bəzi ədəbi materiallarını tənqid də edirdi ("Xanımlar" felyetonu); amma bu rəsmlər və yazılar nəzakət və hörmət dairəsindən çıxmırdı. Ə.Hüseynzadə ilə C.Məmmədquluzadə, M.Ə.Sabirlə "F."ın fəal şairi M.Hadi arasındakı fikir ayrılıqları həmişə qarşılıqlı səmimiyyət ruhunda olurdu.

FÜZULİ Məhəmməd Süleyman oğlu (1494-1556) – şair, mütəfəkkir. Azərb., fars və ərəb dillərində yazmışdır. Şəxsi



mütaliəsi sayəsində orta əsr elmləri (məntiq, tibb, nücum, riyazi və humanitar elmlər), xüsusən dini-fəlsəfi cərəyanları, klassik ərəb, fars, özbək, türk və farsdilli hind ədəbiyyatını öyrənmişdir. "Bəngü Badə", "Ənis ül-qəlb", "Yeddi cam", "Səhhət və Mərəz", "Rindü Zahid", "Şikayətnamə" və s. ədəbi-bədii, fəlsəfi və elmi əsərlərin müəllifidir. Təkcə Azərb. və ümumtürk ədəbiyyatının deyil, dünya poeziyasının nadir incilərindən olan "Leyli və Məcnun" poeması F. sənətinin zirvəsidir. F. Azərb. ədəbi-bədii dilinin yaradıcılarındandır. O, türkdilli xalqların poeziyasına qüvvətli təsir göstərmiş, ədəbi məktəb yaratmışdır.

M. hələ seminariyada təhsil alarkən F.-nin əsərlərini mütaliə etmişdir. F.-nin bədii irsinin satirik şeirin təkamül və inkişafına ciddi təkan verdiyini dəfələrlə qeyd edən M., 1925 il mayın 22-də "Molla Nəsrəddin" jurnalının 21-ci sayındakı baş məqalədə yazırdı: "Rəhmətlik Füzuli "Molla Nəsrəddin"in birinci nömrəsindən başlayıb, bu günə qədər məcmuəmizdə iştirak etmiş və şeirlər yazmışdır". Mollanəsrəddinçilər, xüsusilə, M.Ə.Sabir, Ə.Nəzmi, Ə.Qəmküsar, Ə.Məhzun, S.Mümtaz dəfələrlə öz əsərlərində F. yaradıcılığına müraciət edir, onun lirik qəzəllərinə bəzi əlavələr etməklə ciddi satirik məqsədlərə nail olurdular.

"GƏNC TÜRKLƏR" – 1908 il "Gənc türklər" inqilabına rəhbərlik etmiş "İttihad və tərəqqi" siyasi təşkilatının üzvləri. 1889 ildə İstanbulda hərbi tibb məktəbinin beş tələbəsi "İttihadi-Osmaniyyə" adı ilə gizli siyasi təşkilatın əsasını qoydular. Həmin ildə Əhməd Rza bəy də Parisdə öz həmfikirlərinin qrupunu yaratdı və "Məşvərət" qəzetini nəşr etməyə başladı. Tezliklə İstanbul və Paris qrupları arasında əlaqə bərpa edildi və Səlanikdə yaradılan gizli təşkilat "İttihad və tərəqqi cəmiyyəti" adlandırıldı. Cəmiyyət ölkədəki bütün inqilabçıları təşkilatlandırmağa başladı. Cəmiyyətin başlıca məqsədi Türkiyədə sultan II Əbdülhəmid rejimini devirməkdən və onun 1876 ildə ləğv etdiyi konstitusiyanı bərpa etməkdən ibarət idi. II Əbdülhəmidin əleyhdarlarını xaricdə, sonra isə Türkiyənin özündə "G.t." ("Jöntürklər") adlandırdılar. "G.t." əslində 1865 ildə ziyalılar tərəfindən gizli yaradılan və 1867 ildə Avropaya qaçmaq zorunda qalan "Yeni osmanlılar"ın davamçıları idilər. 1908 ildə baş verən "G.t." inqilabı nəticəsində sultan məclis çağırmaq və konstitusiyanın bərpası haqqında fərman verməyə məcbur edildi. 1909 il aprelin 13-də sultanın tərəfdarları hərbi çevriliş edib hakimiyyəti ələ keçirdilərsə də, aprelin 27-də II Əbdülhəmid devrildi, hakimiyyət "G.t."-in əlinə keçdi. 1918 ildə Türkiyənin Birinci Dünya müharibəsində məğlubiyyəti "G.t."-in hakimiyyətinə son qoydu.

GƏNCƏ DRAM TEATRI, C.Cabbarlı ad. Gəncə Dövlət Dram Teatrı – XI əsrin axırlarından Gəncədə həvəskar teatr truppaları M.F.Axundovun, N.Vəzirovun, N.Kamalın, Ə.Haqverdiyevin, N.Nərimanovun pyeslərini oynamış və böyük müvəffəqiyyət qazanmışdılar. Hələ 1917 ilin fevralında Forerin klubunda M.-nin "Ölülər" pyesi tamaşaya qoyulmuşdu. Şeyx Nəsrullah rolunda Ə.Nəcəfov (Qəmküsar), İsgəndər rolunda M.A.Əliyev çıxış edirdilər. 1920 illərdə H.Ərəblinski ad. Həmkarlar klubu nəzdində dram dərnəyi yaradıldı. Bakı Türk İşçi Teatrının bütün kollektivi ilə Gəncəyə köçürülməsinin şəhərdə professional teatr sənətinin yaranmasında və inkişafında mühüm rolu olmuşdur.

Teatr Gəncəyə köçdüyü elə ilk illərdən başlayaraq M.-nin "Ölülər" komediyasını repertuara daxil etdi. 1933-1934 il mövsümündə "Ölülər" A.M.Şərifzadənin rej.-luğu ilə tamaşaya qoyuldu. Rollarda A.M.Şərifzadə və A.S.Gəraybəyli (İsgəndər), K.Ziya (Şeyx Nəsrullah), İ.Əfəndiyev (Şeyx Əhməd), Ə.Dadaşlı (Məşədi Oruc), B.Şəkinskaya (Nazlı), İ.Talıblı (Hacı Həsən ağa), M.Yermakova (Kərbəlayi Fatma xanım) və b. çıxış etmişdilər. Həmin tamaşa 1936 ildə rej. Ə.Sultanov tərəfindən bərpa edilib repertuara salındı. 1939 ildə isə rej. İ.Əfəndiyev "Ölülər"i yeni quruluşda Gəncə teatrı səhnəsinə çıxartdı. Teatrın aktyorlarından İ.Talıblı (Şeyx Nəsrullah), Ə.Yusifzadə (Hacı Həsən ağa), Seyidzadə (Şeyx Əhməd), S.Tağızadə (İsgəndər), Ə.Dadaşlı (Məşədi Oruc), M.Şeyxzamanov (Hacı Baxşəli) və b. tamaşada müvəffəqiyyətlə çıxış etmişdilər.

G.D.T.-nın qabaqcıl aktyorlarından olan Ə.Seyfi ilə M.Bürcəliyev 1957 ildə "Ölülər"in yeni quruluşda tamaşasını hazırladılar. Bu tamaşada olduqca gözəl və bacarıqlı aktyor ansamblı var idi. İ.Talıblı ilə Ə.Yusifzadə – Şeyx Nəsrullah, Ə.Abbasov – İsgəndər, Ə.Seyfi – Şeyx Əhməd,

A.Gəraybəyli "Dəli yığıncağı" pyesində Hacı Mədinə rolunda.

S.Həsənzadə – Hacı Həsən ağa, M.Bürcəliyev – Hacı Baxşəli, M.Avşarov – Məşədi Oruc, A.Məmmədov – Mirbağır ağa, M.Davudov – Mirzə Hüseyn, S.Mustafayeva – Nazlı və b. tutarlı surətlər yaratmışdılar. G.D.T. 1958 ildə Bakı qastrolu zamanı M.-nin "Ölülər" komediyasını tamaşaçılara göstərmişdi.

A.Gəraybəyli

GƏRAYBƏYLİ (Gəraybəyov) Ağasadıq Ağəli oğlu (1897-1988) – aktyor. Azərb. xalq art. (1940). 1910-1912 illərdə Bakıda H.Ərəblinskinin rəhbərlik etdiyi həvəskar dram dərnəyində, "Nicat" və "Səfa" xeyriyyə cəmiyyətlərinin, Ü.Hacıbəyov qardaşlarının teatr truppalarında çıxış etmişdir. G. 1921-1933 illərdə Bakı Azad Tənqid-Təbliğ Teatrının (sonralar Bakı Türk İşçi Teatrı) və ADT-nın aktyoru olmuş, bir sıra yadda qalan səhnə obrazları, o cümlədən M.-nin "Ölülər" pyesində İsgəndər, "Anamın kitabı" pyesində Rüstəm bəy surətlərini böyük müvəffəqiyyətlə yaratmışdır. 1933 ildən ömrünün sonunadək ADT-da çalışmışdır. Kinofilmlərə çəkilmiş, "Poçt qutusu" televiziya filmində xan rolunu böyük ustalıqla yaratmışdır.

GİLANİ Seyid Əşrəf (1872-1934) – İran jurnalisti, tərcüməçi, şair. Seyid Əşrəf Nasim adı ilə də tanınırdı. M.-nin, Sabirin və "Molla Nəsrəddin" jurnalının təsiri ilə yetişən şairlərdəndir. Sabirin şeirlərini fars dilinə tərcümə etmiş, onlara bənzətmələr də yazmışdır. Sabirin arxasınca gedib, onu təqlid etdiyinə görə G.-nin əsərlərində İran xalqlarının real həyatı əks olunmuşdur. Sabirin İranda sürətlə tanınıb məşhurlaşmasında G.-nin rolu az olmamışdır. 1907-1912 illərdə Rəşt ş.-də ictimai-siyasi "Nəsimi-Şimal" qəzetinin red. olmuşdur. Bu qəzetdə o, "Molla Nəsrəddin" jurnalına və molla-nəsrəddinçilərə daim yüksək qiymət verirdi. G.-nin nəşr etdirdiyi bu qəzet İranın qabaqcıl ictimai və siyasi fikrində yüksək yer tuturdu.

GİZLİ İMZA – gizli imzalı və imzasız əsərlər dünya xalqları ədəbiyyatının bütün dövrlərində olmuşdur. Bu əsərlərin yazılma tarixi və müəllifinin müəyyənləşdirilməsi elmi ədəbiyyatda atribusiya, evristika, psevdonomastika, yaxud psevdonimika terminləri ilə adlandırılır. Azərb. ədəbiyyatında G.i. və imzasız əsərlərin yaranma tarixi dilimizin ilk söz yaradıcılığından başlanır. Azərb. mətbuatında 1905 il inqilabından sonra sürətlə inkişaf edən dövri mətbuatda minlərlə G.i. və imzasız əsərlər yaranmışdır. Tədqiqatlarda bəzən eyni mənada işlədilən "təxəllüs"lə G.i.-nı fərqləndirən cəhətlər var. Təxəllüs ciddi, poetik, şairanə məzmun daşıyır, şairin yaradıcılığının ümumi ruhu ilə həmahəng olur, dəyişkən olmur, qəzəl və qəsidələrin son beytində, qoşmaların son bəndində qeyd olunur: (Nizami, Xaqani, Füzuli, Vazeh, Vaqif, Vurğun, Müşfiq və s.).

G.i. əsasən satirik məzmun daşıyır, təxəllüsdən fərqli olaraq, bir müəllif bəzən yüzdən artıq G.i.-ya müraciət etməli olur. G.i.-nın müəllifi yalnız redaksiyaya məlum olur, sirr kimi qorunur. Dövrün, ictimai quruluşun tələbi ilə əlaqədar bunun bir çox səbəbi olur. Senzordan, din xadimlərindən, ətraf mühitdən qorunan, ədəbi uğursuzluqdan, inamsızlıqdan qorxan, eyni dövrdə zidd istiqamətli 2 mətbuat orqanında çıxış edən, əsas peşəsi yazıçılıq olmayan, ədəbi oğurluq, şəxsiqərəzlik edən G.i.-ya müraciət edir. Xoşagələn imzadan yeni formada istifadə etmək və eyni imzadan uzaqlaşmaq G.i.-nın ço-

xalma səbəblərindəndir. Mövzuya müvafiq imzaya müraciət etmək isə daha çox oxucuda ilk baxımdan qarşıya qoyulan məsələyə psixoloji hazırlıq məqsədi güdür. G.i.-nın yaranma üsulları müxtəlifdir. "Molla Nəsrəddin" jurnalında diqqəti cəlb edən əsas G.i.-lar məzmunları etibarilə qohum imzalar olub, dünya, eləcə də Azərb. ədəbiyyatı tarixindəki "ağıllı dəlilər" silsiləsinə mənsub heronim imzalardır – "Molla Nəsrəddin", "Lağlağı", "Dəli", "Hərdəmxəyal", "Dəmdəməki", "Qızdırmalı" və s. Satirik mətbuatda heyvan adları ilə bağlı zoonimlər – "Eşşək arısı", "Anaş qurbağa", "Zəli"; quş adları ilə bağlı ornitonimlər – "Bülbül", "Bayquş", "Sağsağan"; rütbə, vəzifə bildirən titlonimlər – "Leytenant", "Nişançı"; coğrafi adlarla bağlı yaranan geonimlər – "Bakılı", "Danabaşlı", "Zansolli"; meyvə-tərəvəz, bitki məzmunlu fitonimlər – "Qaratikan", "Qozqurab", "Dombalan"; riyazi rəqəmlərlə yaranan sıfronimlər – "Bir", "İki", "Üç"; durğu işarələrindən yaranan stiqmonim – "?", "...", "."; müəllifin milliyyətini təmsil edən etnonimlər – "Müsəlman", "Tatarin", "Gavur" və s. Qadın adını seçən kişi imzaları – psevdoqinimlər ("Tükəzban cici", "Dabanı çatdax xala"), kişi adından alınmış qadın imzaları – psevdoondronimlər G.i.-nın yaranma üsulları sırasındadır.

Mətbuat tariximizdəki G.i.-nın böyük bir qismi "Molla Nəsrəddin" jurnalında yaşamaq hüququ qazanmışdır. Təkcə 1906-1907 illərdə jurnalda 300-dək gizli imza işlənmişdir. Bəzən bir müəllifin 100-dən artıq G.i.-sı, bəzən bir imzanın 5-6 müəllifi, çox hallarda isə bir G.i. ilə onlarla əsər çap olunmuşdur. M. 120-dən artıq G.i.-ya müraciət etmişdir. Bunlar heronim, müştərək, daimi, mövzudan alınan və s. imzalardır. M.-nin çox müraciət etdiyi – "Molla Nəsrəddin", "Lağlağı", "Dəli", "Hərdəmxəyal", "Dəmdəməki" və s. imzalar həm də müştərəkdir. Həmən imzalardan Ömər Faiq, Ə.Haqverdiyev, M.S.Ordubadi və b. da istifadə etmişlər.

GÖYƏRÇİN XANIM (Gövhər Əhməd qızı Qazıyevanın təxəllüsü) (1887-1960) – Azərb.-ın ilk professional aktrisası. 1907 ildə Tiflis Azərb. teatr truppasında çıxışlarına görə mürtəce qüvvələr tərəfindən təqib edildiyindən "G." təxəllüsünü götürməyə məcbur olmuşdu. Həmidə xanımla tanış idi. "Molla Nəsrəddin" jurnalı G. haqqında yazılar vermiş (1912, №5), nömrələrindən birinin üz qabığında (1911, №20) Avropa libasında şəklini dərc etmişdir. Tanınmış aktyor M.A.Əliyev Tiflis qastrolu (1910) zamanı onunla tanış olmuş və ailə qurmuşdur. Ü.Hacıbəyovun "Leyli və Məcnun", "O olmasın, bu olsun", Z.Hacıbəyovun "Əlli yaşında cavan" və s. əsərlərində iştirak etmişdir. G. sonralar Bakıya köçərək bir müddət H.Ərəblinski, H.Sarabski, A.M.Şərifzadə, S.Ruhulla, M.Sənani kimi sənətkarlarla çiyin-çiyinə işləmişdir. Səhnəni tərk etdikdən sonra G.Varşavada Müqəddəs Sofiya mamalıq məktəbində təhsil alıb, Bakıya qayıdaraq həkim işləmişdir. Ömrünün son illərini İranda yaşamış və orada vəfat etmişdir.

GÜLBAHAR – "Anamın kitabı" pyesinin mərkəzi surətlərindən biri. M. rəmzi mahiyyət daşıyan əsərdə G. obrazına aparıcı mövqe, Vətənin sabahı xəttini həvalə edir. G. hərəsi üzünü bir ölkəyə tutmuş üç qardaşın yeganə bacısıdır. Süjet də məhz onunla qardaşları arasında konflikt üzərində qurulmuşdur. Ana Vətəni təmsil edən Zəhrabəyim əsər boyu Rusiyapərəst, İranpərəst və Türkiyəpərəst qardaşlardan qızını kimə vermək, rəmzi qatda Vətənin sabahını hara bağlamaq sualına cavab almaq istəyir. G.-a qardaşlarının nə danışdıqları dil, nə oxuduqları kitablar, nə də məramları aydın deyil. Təsadüfi deyil ki, G. bircə Vətənin sadə adamlarının – çobanların dilini anlayır, onları başa düşür. O, pyesin sonunda bir-birini başa düşməyən qardaşların kitablarını yandırır və ancaq "ananın kitabı"na bağlanmağı təlqin edir. Beləliklə, G. surəti süjetin əsasında durduğu kimi, müəllif ideyasının ifadəsində də həlledici fiqurdur.

"GÜNƏŞ" – ictimai-siyasi, ədəbi və iqtisadi qəzet. 1910-1911 illərdə Bakıda nəşr olunmuşdur. Cəmi 121 nömrəsi çıxmışdır. Naşiri Orucov qardaşları, baş redaktoru Əhməd Kamal olmuşdur. Qəzetdə Ə.Ağayev, M.Ə.Sabir, axund Yusif və Abdulla Şaiq Talıbzadələr, Molla Ruhulla Məmmədzadə, Qafur Rəşad, Abdulla Divanbəyoğlu və b. mütərəqqi fikirli ziyalılar yaxından iştirak edirdilər. "G."də türk və islam birliyi ideyaları ardıcıl təbliğ olunurdu. Qəzet "Molla Nəsrəddin" jurnalını "millətimiz üçün faydalı, qiymətli bir ayi-

neyi-ibrət" adlandırır, eyni zamanda onu ehtiyatlı olmağa çağırırdı ki, "qərəzi-şəxsi sahibləri onu özlərinə aləti-intiqam edib öz heysiyyətindən düşürməsinlər". "G."də M.T.Ərəszadənin "Molla Nəsrəddin"lə polemika aparan məqalələri dərc olunmuşdu; amma bu məqalələr ümumən, mətbuat etikası tələblərindən kənara çıxmırdı. Dövrün digər mətbuat orqanları kimi, "G." də öz səhifələrində "Molla Nəsrəddin"lə bağlı hadisələri – jurnalın yayılmasını, nəşrinin müvəqqəti dayandırılmasını, yenidən nəşrə başlamasını və s. işıqlandırırdı.

GÜRCÜ NƏŞRİYYAT ŞİRKƏTİ – XX əsrin əvvəllərində Tiflisdə fəaliyyət göstərmiş ən iri nəşriyyatlardan biri. 1909 ilin iyulunadək M.-nin özünə məxsus "Qeyrət" mətbəəsində çap olunan "Molla Nəsrəddin" jurnalı həmin tarixdən 1917 ilin fevralınadək G.n.ş.-nin mətbəəsində çap olunmuşdur. 1913 ilin yanvarından isə jurnalın mətni "Şərq" mətbəəsində yığılır, G.n.ş.-nin mətbəəsində isə çap edilirdi. Jurnalın şəkil və karikaturaları Bıxovun litoqrafiyasında hazırlanırdı. 1913 ildə "Molla Nəsrəddin" jurnalının 16-cı sayında İran inqilabçılarına divan tutulması səhnəsini əks etdirən şəkil dərc olunur. Həmin nömrədə jurnalın naşir və məsul red.-nun imzalarının verilmədiyinə və həmin nömrədəki karikaturalar baxılmaq üçün əvvəlcədən Mətbuat işləri üzrə Tiflis Komitəsinə təqdim edilmədiyinə görə, komitənin qərarı ilə jurnalın bu nömrəsi həbs olunur, G.n.ş. mətbəəsinin müdiri A.Cabadari məhkəmə məsuliyyətinə cəlb edilir. Elə həmin ilin sentyabrında Tiflis şəhər 2-ci dairə sülh məhkəməsi A.Cabadarini 50 manat məbləğində cərimə etmək, ödəyə bilməyəcəyi halda isə 10 günlük həbs etmək haqqında hökm çıxarır.

GÜRCÜSTAN DÖVLƏT TARİX ARXİVİ – 1921 ildə Gürcüstan ərazisində fəaliyyət göstərmiş idarə arxivlərinin əsasında yaradılmış tarix arxivi. 1939 ildə Gürcüstan Resp. Mərkəzi Dövlət Tarix Arxivinə çevrilmişdir. Bu arxivdə 1917 ilədək Tiflisdə fəaliyyət göstərmiş Rusiya imperiyasının Qafqaz regionu üzrə inzibati-idarə orqanlarının da sənədləri qorunub saxlanılır. Arxivdə saxlanılan Qafqaz canişini dəftərxanasının, Rusiya Xarici İşlər Nazirliyinin Qafqaz canişini yanında sərhəd məsələləri üzrə məmurunun, Tiflis qubernatoru dəftərxanasının, Tiflis məhkəmə palatasının, Tiflis dairə məhkəməsinin, Tiflis qubernyası jandarm idarəsinin, Mətbuat işləri üzrə Tiflis komitəsinin və s. idarələrin arxiv fondlarının sənədləri arasında M. və "Molla Nəsrəddin"jurnalı haqqında çoxlu sənədlər qalmışdır. Arxivdə Mirzə Cəlilin xidməti fəaliyyəti haqqında verilmiş şəhadətnamə və məlumatlar, "Şərqi-Rus" qəzetinə müvəqqəti red. təyin edilməsi, M.Şahtaxtlının mətbəəsini satın alması, "Molla Nəsrəddin" jurnalının nəşri üçün icazə verilməsi haqqında şəhadətnamələr, "Novruz" qəzetini və "Molla Nəsrəddin" jurnalını nəşr etmək üçün xahişnamələr, jurnalın nəşri, təqibi, bağlanması, məhkəmə məsuliyyətinə cəlb edilməsi, mühakiməsi və s. haqqında çoxlu tarixi sənədlər qorunub saxlanılır.

GÜRCÜSTAN XALQ MAARİF MUZEYİ – Tbilisidədir. Zaqafqaziyada maarif tarixinə dair ən dəyərli mənbələrdən olan bu muzeydə Qori müəllimlər seminariyasının da sənədləri qorunub saxlanılır. Sənədlər arasında burada təhsil almış Azərb.-ın digər görkəmli şəxsiyyətləri ilə yanaşı, M.-nin də seminariyaya qəbulu və orada oxuması haqqında çoxlu sənədlər vardır. Bunların arasında Mirzə Cəlilin atası Məmmədqulu Məşədi Hüseynqulu oğlunun 1882 il iyunun 21-də oğlunun Qori müəllimlər seminariyasına qəbul edilməsi haqqında direktorun adına ərizəsi, Mirzə Cəlilin doğum tarixi haqqında qəza polis idarəsi tərəfindən verilmiş vəsiqə və ruhani idarəsinin şəhadətnaməsi, seminarist Cəlilin dərsə davamiyyəti və təhsil zamanı aldığı qiymətlər haqqında cədvəllər, 1886-1887 tədris ilində seminariyanı bitirərək "İbtidai xalq məktəblərində müəllimlik adına layiq görülməsi" haqqında məlumat və digər sənədlər də vardır. Qori seminariyasında təhsil almış azərb. tələbələr, o cümlədən M. haqqındakı həmin sənədlərin mikrofoto surətləri Azərb. Resp. Dövlət Ədəbiyyat və İncəsənət Arxivində saxlanılır.

H

HACI Məcid əfəndi Mustafa əfəndi oğlu (1844-1908) – ruhani xadim, ilahiyyatçı alim, müdərris. Cənubi Qafqaz mədrəsələrində oxumuş və dövrünün görkəmli üləmalarından dərs almışdır. Göyçay qəzası Diyallı prixod mollası (1874-1889), Bakı quberniyası Sünni məclisinin sədri (1889-1908) işləmişdir. H.M.ə. şəxsiyyətinin Şirvan əhalisi arasında yaratdığı pərəstiş, doğurduğu fanatizm, mətbuatda haqqında gedən dəbdəbəli məqalələr "Molla Nəsrəddin" jurnalında M. və Ömər Faiqin əsas tənqid hədəflərindən olmuşdur. M. "Zarafat" felyetonunda ("Molla Nəsrəddin", 1907, №16) Şamaxı deputatı Nəcəf Yəhya oğlunu və "İrşad" qəzetinin red. Əhməd bəy Ağayevi, "Təəssüf" felyetonunda ("Molla Nəsrəddin", 1908, №13) M.Ə.Sabiri ruhani atanın əsl simasını görə bilmədiklərinə görə tənqid edirdi. M. "İrşad" qəzetində Ə.Ağayevin H.M.ə.-ni "ustadi-kamil", "məlazül-möminin", "məlcəül-müslimin" kimi dəbdəbəli ifadələrlə səciyyələndirməsi haqqında yazırdı: "Bu işlərin hamısını adam mülahizə eləyəndə adamın yadına, məsələn, Zəngəzur acları düşür. Sonra adam öz-özünə deyir ki, dəxi niyə ürəyimi sıxıram? Şamaxıda ki "məlcəül-müslimin" var, dəxi niyə ürəyimi sıxıram? Sonra adamın yadına əcnəbi millətlərin ayağının altında payimal olan və yavaş-yavaş mətruk olmağa üz qoyan müsəlman millətləri düşür, yenə adam deyir ki, niyə qüssə eləyirəm, Şamaxıda Hacı Məcid əfəndi kimi "pənahgahımız" var" ("Molla Nəsrəddin", 1907, №16). Sabirin onun ölümünü "batıbdır kəşti-millət, qopub tufanımız" kimi qiymətləndirməsi M.-də acı istehza doğurmuşdu. O, Sabirin məqaləsinə və şeirinə işarə edərək yazırdı: "Ey vay: bu il cəmi müsəlmanlar üçün müsibət ilidir" ("Molla Nəsrəddin", 1908, №13).

HACI Sadıq (?-?) – Qarabağ taciri. Tanınmış şairlər Məşədi Nəsir Lövhinin və Məşədi Əyyub Bakinin atası. M.-nin və "Molla Nəsrəddin" jurnalının Qarabağda alovlu təbliğatçısı olmuş, Mirzə Cəlillə və Həmidə xanımla müntəzəm əlaqə saxlamışdır.

M. ailəsi ilə Şuşaya gələrkən bir neçə il istirahətlərini H.S.-ın evində keçirmişlər. Həmidə xanım ev sahibinin icazəsi ilə işsiz və yoxsul qadınları işlə təmin etmək üçün bu evdə dəzgahlar quraşdırmış və toxuculuq emalatxanası yaratmışdı. Mirzə Cəlil "Ölülər" və "Anamın kitabı" əsərlərini H.S.-ın evində yaşayarkən tamamlamışdır.

HACIBABABƏYOV Hüseynağa Soltan oğlu (1898-1972) – müğənni (lirik tenor). Azərb. xalq art. (1938). Azərb. Dövlət Konservatoriyasını bitirmişdir (1928). 1910 ildən "Nicat" cəmiyyətinin nəzdindəki xorda oxumuş, 1913 ildən "Səfa" cəmiyyəti dram truppasının tamaşalarında çıxış etmişdir. 1916 il H.-un həyatında əlamətdar il olur. Mirzağa Əliyev ona xəbər verir ki, Mirzə Cəlil gəlib, "Ölülər" adında pyes gətirmişdir. H. xatırlayırdı: "O zaman tamaşalarda bütün qadın rollarını kişilər oynayırdılar. Mən, demək olar, əsasən, qadın rollarında çıxış edirdim". Hazırlanan tamaşada da H.-a Nazlı rolu tapşırılır. M.-nin özü məşqlərə gəlir, ifaçılara xeyirli məsləhətlər, göstərişlər verirdi. İlk tamaşada H. Nazlı rolunu müvəffəqiyyətlə ifa etmişdir.

H. 1920-60 illərdə AOBT-nın solisti olmuş, Azərb. və Qərbi Avropa bəstəkarlarının operalarında uğurla çıxış etmişdir.

H.Hacıbabəyov

C.Ə.Hacıbəyli

HACIBƏYLİ Ceyhun bəy Əbdülhüseyn oğlu (1891-1962) – ictimai xadim, dilçi, tarixçi, jurnalist, tərcüməçi. Ü.Hacı-

bəyovun kiçik qardaşı. İbtidai təhsilini Şuşa "Rus-müsəlman" məktəbində almış, orta təhsilini Bakıda tamamlamışdır. Milyonçu M.Muxtarovun vəsaiti ilə Peterburq un-tinin hüquq fakültəsinə daxil olmuş (1909), bir il orada oxuduqdan sonra Parisə gedib, məşhur Sorbonna un-tində oxumuşdur. 1916 ildə təhsilini başa vurub Bakıya qayıdan H., əsasən, mühərrirliklə məşğul olmuşdur. Azərb. Xalq Cümhuriyyəti (1918-1920) hökuməti tərəfindən Paris sülh konfransına göndərilən nümayəndə heyətinin tərkibində xaricə yola düşənədək "Azərbaycan" qəzetinin red. olmuşdur. 1920 il 28 aprel bolşevik çevrilişindən sonra Vətənə qayıda bilməmiş, Fransada yaşamışdır.

H. gənclik çağlarından Bakıda "Proqres" (rusca), "İrşad", "Tərəqqi", "Kaspi" və s. qəzetlərlə əməkdaşlıq etmişdir. Paris, London və Münhendə yazıb, Bakıya göndərdiyi məqalələrində milli mədəniyyətin qızğın təbliğatçısı kimi çıxış edirdi. H.-nin dialektologiya, iqtisadiyyat, beynəlxalq münasibətlər və s. aid tədqiqatları bir neçə dildə çap olunmuşdur. Elmi əsərlərində H. sovet varlığının antidemokratik mahiyyətini göstərirdi.

Maarifçi-realist H. bədii yaradıcılığında, "Hacı Kərim" əsərində, satirik və yumoristik hekayələrində "Molla Nəsrəddin" ədəbi məktəbinə, Mirzə Cəlil və Sabir realizminə çox yaxın sənətkar idi.

HACIBƏYOV Üzeyir Əbdülhüseyn oğlu (1885-1948) – bəstəkar, musiqişünas alim, publisist, dramaturq, pedaqoq və ictimai xadim. Çağdaş Azərbaycan peşəkar musiqi sənətinin və milli operasının banisi. SSRİ xalq art. (1938), Azərb. EA akad. (1945), prof. (1940), Dövlət mükafatı laureatı (1941, 1946), Azərb. Bəstəkarlar İttifaqının sədri (1938-1948), Azərb. Dövlət Konservatoriyasının rektoru (1926-1929, 1939-1948), Azərb. EA İncəsənət İn-tunun direktoru (1945-1948). İlk təhsilini Şuşada "Rus-müsəlman" məktəbində almışdır. Qori müəllimlər seminariyasını bitirmişdir. Musiqi zövqü və tərbiyəsi, xalq yaradıcılığına dərindən bələdliyi ilə fərqlənən bir ailədə böyüməsi, Şuşanın zəngin musiqi-ifaçılıq ənənələri, meydan tamaşalarında, bayram mərasimlərində iştirakı və bunlara dərin marağı H.-un gələcəkdə peşəkar, yaradıcı musiqi ustadı kimi yetişməsində böyük rol oynamışdır.

H. 1904 ildə seminariyada təhsilini tamamlayıb, Hadrut kəndində müəllim işləyir, 1905 ildə Bakıya gəlib, "İrşad" redaksiyasında əməkdaşlıq etmiş, Bibiheybətdə və "Səadət" məktəbində dərs demişdir. "Molla Nəsrəddin" jurnalı nəşrə başlayarkən H. Mirzə Cəlili təbrik etmiş, bu münasibətlə məqalə dərc etdirmişdir.

1908 ildə "Leyli və Məcnun" operası ilə böyük sənətə daxil olan H. 1909-1915 illərdə bir-birinin ardınca "Şeyx Sənan" (1909), "Rüstəm və Söhrab" (1910), "Şah Abbas və Xurşidbanu" (1912), "Əsli və Kərəm" (1912), "Harun və Leyla"(1915) muğam operalarını bəstələmişdir. H. Azərb.-da musiqili komediya janrının banisidir. O, "Ər və arvad" (1910), "O olmasın, bu olsun" (1911), "Arşın mal alan" (1913) musiqili komediyalarını yaratmışdır.

Yaradıcılığa publisistika ilə başlayan, öz tənqidi-satirik yazıları ilə mollanəsrəddinçilər ədəbi məktəbinin görkəmli simasına çevrilən H. "Kaspi", "Həyat", "İrşad", "Tərəqqi", "Həqiqət", "İqbal", "Yeni iqbal" qəzetlərində, "Molla Nəsrəddin" jurnalında dövrün ictimai-siyasi ziddiyyətlərinə, nöqsanlarına qarşı, eyni zamanda maarifçilik məsələlərinə dair kəskin, sərrast, sənətkarlıq cəhətdən kamil tənqidi məqalə və felyetonlar, satirik miniatürlər dərc etdirmişdir. H. publisistik yaradıcılığının xarakterinə görə "Molla Nəsrəddin"

ədəbi məktəbinə yaxın olan yazıçılardandır. O, mollanəsrəddinsayağı satirik publisistikanın əsl yaradıcılarından biridir. H. "Molla Nəsrəddin"də az iştirak etsə də, digər mətbuat orqanlarında çap olunan felyeton və məqalələrində jurnalın mübariz publisistika ənənələrini davam etdirirdi. Onun məşhur "Molla Nəsrəddin" pamfletində, "Molla Nəsrəddin"ə cavab" məqaləsində, "Vladiqafqaz camaatına bir də açıq məktub"unda jurnalın fəal vətəndaşlıq mövqeyi müdafiə olunmuşdur.

Bir mollanəsrəddinçi kimi jurnalın idealı və məramnaməsi H.-un ruhuna çox yaxın idi. Sosial problemlərin həlli yollarına münasibətdə onlar eyni mövqedən çıxış edirdilər. Şən, oynaq, məzəli komizm, mənfi tiplər qrupunu bütün varlığı ilə sarsıdan satira mollanəsrəddinçilər kimi onun da istifadə etdiyi vasitələrdəndir. Operalarında yüksək mənəvi idealları, bəşəri dəyərləri mənalandıran, onları canlı musiqi ilə səsləndirən H. musiqili komediyalarında əsasən gerilik və nadanlığı, fanatizmi, qəddarlıq və zorakılığı maarifçilik mövqeyindən tənqid edirdi. H. – "Ölülər" "Molla Nəsrəddin" kimi baltanı dibdən vuran əsərdir" – aforizmi ilə bu ədəbi məktəbə ideya bağlılığını və satirasının həyati gücünü çox sərrast ifadə etmişdir.

H. vaxtilə "Tərəqqi", "Həqiqət", "Yeni iqbal" qəzetləri ilə başladığı redaktorluq işini Azərb. Xalq Cümhuriyyəti dövründə "Azərbaycan" qəzetində davam etdirir və qızğın publisist yaradıcılıqla məşğul olur. Sovetləşmədən sonra publisistikanı dayandıran H. bu illərdə əsasən musiqi yaradıcılığı və elmi-tədqiqat işləri ilə məşğul olur, 1936 ildə məşhur "Koroğlu" operasını bəstələyir. O, 200-ə yaxın nəzəri, elmi, musiqi əsərinin, çoxsaylı felyeton və məqalənin müəllifidir.

Zülfüqar, Ceyhun və Üzeyir Hacıbəyov qardaşları.

HACIYEV Abbas Məhəmməd oğlu (d. 1933) – ədəbiyyatşünas, tənqidçi, pedaqoq. Filol. e.d. (1970), prof. (1972). ADU-nun "Azərbaycan və dünya ədəbiyyatı" kafedrasının müəllimi. ADU-nun filologiya fakültəsini bitirmişdir. Elmi fəaliyyətində XX əsrin əvvəlində və Sovet hakimiyyəti illərində ədəbiyyatın inkişafı, mətbuat və teatr məsələlərinin tədqiqi əsas yer tutur. "Tiflis ədəbi mühiti" (1980) monoqrafiyasında "Molla Nəsrəddin" və M.-nin Tiflis ədəbi mühiti ilə əlaqəsi təhlil olunur. "Tiflis Azərbaycan teatrı" (1984) monoqrafiyasında, "Ədəbiy-



A.Hacıyev



Ü.Hacıbəyov həyat yoldaşı Məleykə xanımla. 1946.

T.Hacıyev

M.Hacınski

S.Hacıyeva

M.Hadi

yat nəzəriyyəsi" (1996) və "Ədəbiyyatşünaslığın əsasları" (1999) dərsliklərində M. yaradıcılığından da bəhs olunur.

HACIYEV Əmir Səhliəli oğlu (1899-1972) – rəssam, qrafik. Azərb. əməkdar inc. xad. (1943). Azərb. yazıçılarının bir çox əsərlərinə illüstrasiyalar yaratmışdır. Böyük Vətən müharibəsi (1941-1945) illərində təşviqat plakatları çəkmişdir. M.-nin "Poçt qutusu" hekayəsinə çəkdiyi illüstrasiya (1960) H.-in ən yaxşı işlərindəndir.

HACIYEV Tofiq İsmayıl oğlu (d. 1936) – Azərb. MEA-nın müxbir üzvü filoloq-dilşünas. Filol. e.d. (1969), prof. (1971). Azərb. əməkdar elm xad. (1999), Türkiyə Dil Qurumunun həqiqi üzvü (1995). BDU-nun türkologiya kafedrasının müdiri (1985 ildən). ADU-nun (indiki BDU) filol. fakültəsini bitirmişdir (1958).

H. Azərb. ədəbi dili tarixinin görkəmli araşdırıcılarındandır. "XX əsrin əvvəllərində Azərbaycan ədəbi dili" mövzusunda doktorluq dissertasiyasının, "Sabir: qaynaqlar və sələflər" (1980),"Şeirimiz, nəsrimiz, ədəbi dilimiz" (1990) və s. kitabların, ali məktəblər üçün "Azərbaycan ədəbi dili tarixi" (1976), "XX əsrin əvvəllərində Azərbaycan ədəbi dili tarixi" (1977), "Azərbaycan dili tarixi" (1983, K. Vəliyevlə), "Azərbaycan ədəbi dili tarixi" (II hissə, 1987) və s. dərsliklərin müəllifidir. H.-in bir çox əsərlərində mollanəsrəddinçi yazıçıların, o cümlədən M.-nin dil və üslub sənətkarlığından bəhs edilir. O, "Sizi deyib gəlmişəm..." (1966), "C.Məmmədquluzadənin dili və üslubu haqqında" (1966), "Satirik üslubda xüsusi adların işlənmə xüsusiyyətləri" (1966), "M.Ə.Sabirin üslubunda "Molla Nəsrəddin formaları" (1967), "İnqilabi-satirik üslubda Ezop dili" (1967) məqalələrində, həmçinin "Satira dili" (1975), "Molla Nəsrəddin"in dili və üslubu" (1983) və b. kitablarında M.-nin bədii dil sənətkarlığından bəhs etmişdir.

HACIYEVA Sona Salman qızı (1907-1979) – aktrisa. Azərb. xalq art. (1949). Ə.Ə.Məmmədovanın qızı. Səhnə fəaliyyətinə 1921 ildə Bakı Azad Tənqid-Təbliğ Teatrında başlamış, 1923 ildən ADT-nın aktrisası olmuş, 1927 ilədək, eyni zamanda opera və musiqili komediyalarda müvəffəqiyyətlə çıxış etmişdir. H. deyirdi: "Mən Mirzə Cəlili görməmişəm, o böyük insanla heç vaxt ünsiyyətdə olmamışam. [...] Amma bir cəhətdən özümü xoşbəxt sayıram ki, mən onun əsərlərində iştirak edən ilk qadın aktrisalardan biriyəm. [...] "Ölülər" tamaşası hazırlanırdı. Anam Kəblə Fatma rolunda, mən isə Nazlı rolunda çıxış etdim. Bu mənim ilk müstəqil və maraqlı rollarımdan biri idi. Sonralar da mən başqa rollarda oynamışam. Amma Abbas Mirzə Şərifzadə, Mirzağa Əliyev, İsmayıl Hidayətzadə kimi sənətkarlarla birlikdə iştirak etdiyim həmin tamaşanı heç vaxt yaddan çıxara bilmərəm" (Ədibin 100 illiyi qarşısında "Bakı" axşam qəzeti redaksiyasında keçirilmiş görüşdəki nitqindən). Kinofilmlərə çəkilmişdir.

HACINSKİ Mehdi bəy Süleyman oğlu (1879-1941) – jurnalist, yazıçı, publisist, tərcüməçi, teatr xadimi, aktyor. "Rus-müsəlman" məktəbini Pedaqoji in-tu bitirmiş, türk dili kurslarında, "Xalq təsərrüfatı" jurnalında, "Nicat" və "Səfa" xeyriyyə cəmiyyətlərində, Naxçıvan MSSR Ali İqtisadi Şurasında və Bakı Tənqid-Təbliğ Teatrında işləmişdir. Yaradıcılığa "Kaspi" redaksiyasında Şərq şöbəsinin müdiri vəzifəsində başlamışdı. "Kaspi", "Baku", "Molla Nəsrəddin", "Zənbur", "Həyat", "İrşad", "Tərəqqi", "Məlumat", "İqbal", "Yeni iqbal", "Açıq söz" və s. mətbuat orqanlarında müxtəlif imzalarla iştirak etmişdir. F.Şillerin "Qaçaqlar", H.Heynenin "Əlmənsur", Fonvizinin "Nadan övlad" pyeslərini uğurla ana dilinə çevirmişdir. Aktyorluq istedadı sayəsində bir sıra rolları ustalıqla ifa etmişdir.

Sabirin vəfatı münasibəti ilə yazdığı "Satirik şair" məqaləsində şairin satirik istedadının parlamasında "Molla Nəsrəddin" jurnalının rolundan, Məmmədquluzadənin ona qayğısından, xəstələnərkən "halına laqeyd qalmamasından", "xəstəxanadan çıxarıb evinə aparıb maddi və mənəvi yardım göstərməsindən" bəhs edirdi.

"Nicat" qəzetində "Hop-hop" imzası ilə "Molla Nəsrəddin" sütunlarını bəzəyən "milli şairimiz"in vəfatını dərin kədərlə bildirmişdi. H.-nin lirik və satirik şeirləri haqqında "Cəlil Məmmədquluzadənin Xatirə fondu" adlı kataloqda məlumat verilir.

HADİ Məhəmməd (Ağaməhəmməd Hacı .Əbdülsəlim oğlunun təxəllüsü) (1879-1920) – şair, jurnalist, tərcüməçi. Azərb. ədəbiyyatında romantizmin gör-

kəmli nümayəndəsi. Şamaxıda dini təhsil almış, ərəb, fars dillərini, Şərq ədəbiyyatı, tarixi və fəlsəfəsini öyrənmişdir. M.Ə.Sabir, A.Səhhət, S.M.Qənizadə və b. ilə dostluq etmişdir. Şamaxı zəlzələsindən (1902) sonra Kürdəmirə köçmüş, orada məktəb açmışdır. 1905 ildən Həştərxanda çıxan "Bürhani-tərəqqi" qəzetində əməkdaşlıq etmiş, bir müddət bu qəzetin red. olmuşdur. Bakıda "Həyat" qəzeti, "Füyuzat" jurnalı redaksiyalarında işləmiş, "Tazə həyat", "Həqiqət", "İttifaq", "Tərəqqi", "İqbal" və s. mətbuat orqanlarında fəaliyyət göstərmişdir. 1911-1914 illərdə İstanbulda yaşamış, "Tənin", "Sərvəti-fünun" redaksiyalarında işləmişdir. İstibdad əleyhinə şeirlərinə görə Saloniki ş.-nə (Yunanıstan) sürgün edilmişdir. Birinci Dünya müharibəsi illərində azərb.-lardan ibarət müsəlman alayı tərkibində baş ruhani kimi iştirak etmişdir. H.-nin "Firdövsi-ilhamat", "Eşqi-möhtəşəm", "Əlvahi-intibah" kimi kitablarında milli azadlıq, intibah, tərəqqi ideyaları ifadə olunmuşdur. Bu əsərlər həm də hadisələrə romantik münasibətdən doğan dərin bədbinlik ruhundadır.

"Molla Nəsrəddin" jurnalının nəşrini ürəkdən alqışlayan H. "Molla əminin" ideyaları və satirik üslubuna müvafiq əsərlər də yaratmışdır. 1907 ilin iyununda mürtəce dairələr – qəzetlər, din xadimləri, jurnalistlər "Molla Nəsrəddin"ə hücum edib, onun bağlanmasını tələb etdikləri zaman H. jurnala müraciətlə həmrəylik şeiri yazıb, "İrşad"da çap etdirmişdi. Mirzə Cəlil, M.Ə.Sabir və b. mollanəsrəddinçilər də H.-ni, onun dərin poetik irsini, vətənpərvər poeziyasını yüksək qiymətləndirmişlər. M.-nin H.-yə böyük hörməti onun "Cəfəngiyyat" felyetonunda və s. məqalələrində aşkar hiss olunur. Bununla bərabər, mollanəsrəddinçilərlə H. arasında dövrün inqilabi hadisələrinin idrak, təsvir və tərənnümündə özünəməxsus orijinal, fərqli, hətta ziddiyyətli cəhətlər də nəzərə çarpırdı.

HAQVERDİYEV Əbdürrəhim bəy Əsəd bəy oğlu (1870-1933) – nasir, dramaturq, tərcüməçi, pedaqoq, ictimai xadim. Azərb. əməkdar inc. xad. (1928). M.-nin ideya silahdaşı və dostu. "Molla Nəsrəddin" jurnalının fəal əməkdaşlarından biri. Orta təhsilini Şuşa və Tiflis realnı məktəblərində almışdır. 1891 ildə Peterburq Yol Mühəndisləri İn-tuna daxil olmuş, lakin bitirməmişdir. Peterburq un-tinin Şərq fakültəsində azad müdavim sifəti ilə mühazirələr dinləmişdir. 1899 ildə Şuşaya qayıtmış, 1901 ildə Bakıya köçüb, "Rus-müsəlman" məktəbində müəllim işləmişdir. 1906 ildə Yelizavetpol quberniyasından Rusiya Dövlət Dumasına deputat seçilmişdir. Duma bağlandıqdan sonra Qafqaza dönən H. Bakıda Kür-Xəzər gəmiçiliyi idarəsində müfəttiş (1907-1911), Ağdamda yetimlər evinin müdiri (1911-1916), Tiflisdə şəhərlər ittifaqının Qafqaz şöbəsi "Əxbarı" jurnalının redaktoru (1917), Borçalıda komissar (1918), Dağıstanda Azərb. DR-nın səfiri işləmişdir. Azərb.-da Aprel çevrilişindən sonra H. maarif komissarlığında incəsənət şöbəsinin müdiri, ADU-da müəllim (1922-1925), Azərb. Tədqiq və Tətəbbö Cəmiyyətinin sədr müavini və sədri (1923-1925) olmuşdur.

H. bədii yaradıcılığa 19 əsrin 90-cı illərində başlamış, "Yeyərsən qaz ətini, görərsən ləzzətini" (1892), "Dağılan tifaq" (1896), "Bəxtsiz cavan" (1900), "Pəri cadu" (1901), "Ağa Məhəmməd şah Qacar" (1907), "Ağac kölgəsində" (1921), "Köhnə duman" (1927) və s. dramatik, "Cəhənnəm məktubları" (1906), "Marallarım" (1910-1927), "Şeyx Şəban" (1915), "Mirzə Səfər" (1918) və b. nəsr əsərlərini, M.F.Axundov, M.Qorki, milli teatrın tarixi və ədəbi dil haqqında elmi-kütləvi məqalələrini yazmış, A.Çexovdan, M.Qorkidən, Şillerdən, Zolyadan tərcümələr etmişdir.

"Molla Nəsrəddin" H. yaradıcılığının inkişafında kəskin satirik-yumoristik pafos, dərin ictimai məndəricə qazanmasında müstəsna rol oynamışdır. H.-in C.Məmmədquluzadə ilə ilk tanışlığı 1887 ildə Şuşada olmuşdur. Ədib "Molla Nəsrəddin haqqında xatiratım" əsərində yazır: "Mirzə Cəlil ilə birinci dəfə mən Şuşa realnı məktəbin yuxarı siniflərində oxuduğum zaman tanış olmuşdum. Yay fəslində üç nəfər İrəvan müəllimi Şuşa müəllimlərinə qonaq gəlmişdilər; bunların birisi Cəlil Məmmədquluzadə idi. Onunla yavıq tanış olmağım 1906-cı sənəsinin noyabr ayında müyəssər oldu". Həmin ilin may ayında "Molla Nəsrəddin" jurnalının birinci sayının Şuşada "şəhər əhalisi arasında bir bomba tək partladığının" şahidi olan H. noyabr ayında Peterburqdan Tiflisə gəlib,

Ə.Ə.Haqverdiyev

məcmuənin red. ilə görüşmüş, 1907 ildən isə "Molla Nəsrəddin"in səhifələrində "Ceyranəli", "Xortdan", "Həkimi-Nunisəğir", "Lağlağı", "Mozalan", "Süpürgəsaqqal" imzaları ilə hekayə və felyetonlar dərc etdirmişdir. Ədibin "Cəhənnəm məktubları", "Mozalan bəyin səyahətnaməsi" əsərləri, "Marallarım" adlı silsilə hekayələri ilk dəfə "Molla Nəsrəddin"də çap olunmuşdur.

M.-ni yaxından tanıyan H. onu belə səciyyələndirir: "Mirzə Cəlil zatən az danışan, böyük məclislərdən qaçan, yığıncaq xoşlamayan, təklik sevən bir şəxs idi. Bununla bahəm, düşmənlə də görüşüb, bir az söhbət etdikdən sonra düşmənin ürəyini ələ alıb, özünə şərik etməz idisə də, jurnal düşmənliyindən çəkindirirdi... Mirzə Cəlil dost qazanmaqda, ziyalıları işə çəkməkdə məharət yetirmişdi. Yazmaq istedadı olanlara və mövzu qarşısında məəttəl qalanlara mövzu verməkdə yədi-beyzası var idi. Guya ki, mövzuları cibindən çıxardırdı".

H.-in M. ilə dostluğu və jurnalla əməkdaşlığı getdikcə möhkəmlənmiş, özünün dediyi kimi,"axır günədək" davam etmişdir. M. 1927 ilin yanvarında H.-in ədəbi fəaliyyətinin 35 illiyinə həsr olunmuş təntənəli yığıncaqda çıxış edərək, onun "Molla Nəsrəddin"dəki xidmətlərini belə dəyərləndirmişdi: "Ə.Haqverdiyev hər şeydən qabaq "Molla Nəsrəddin" məcmuəsinin ibtidasından ta bu vaxta qədər məcmuənin ən yavuq əməkdaşlarından və məsləhətçisi dərəcəsində yoldaşlarından hesab olunur" ("Molla Nəsrəddin", 1927, 22 yanvar, №4).

HAFİZ Şəmsəddin Məhəmməd Şirazi (təqr. 1325-1389) – fars şairi. Nadir yaddaşına görə "Hafiz" (Quranı əzbər bilən) ləqəbini qazanmış və bu adla məşhur olmuşdur. Onun əsərləri, xüsusilə, qəzəlləri orta çağlar farsdilli lirik poeziyanın ən yüksək zirvəsidir. İranda indiyədək ən çox sevilən və dəyərləndirilən lirik şairdir. Qəzəllərinin başlıca mövzusu mey və məhəbbət, təbiət təsvirləridir. H. Nizami Gəncəvinin və Övhədi Marağayinin yaradıcılığından bəhrələnmişdir. Nizaminin Şərq şeirinə gətirdiyi saqinamə və müğənninamə janrlarını ayrıca məsnəvi kimi işləmişdir.

H.-in əsərləri dünyanın bir çox dillərinə tərcümə edilmiş, Azərb.-da da geniş yayılmışdır, bəzi şeirləri M.Ə.Sabir və M. Hadi tərəfindən Azərb. dilinə tərcümə edilmişdir. Seçilmiş şeirləri Bakıda çap olunmuş bir çox poetik məcmuələrdə, müntəxabatlarda verilmişdir. Azərb.-da tərtib edilmiş qədim əlyazma toplularında H.-in əsərlərindən nümunələr də çoxdur.

H. şeirini sevən və mütaliə edən M. münasib məqamlarda onlardan istifadə etmişdir. Lirik şeirlərinə satirik parodiyalar yazmaqla jurnalın tənqid obyektlərini sərrast ifşa edirdi. "Məktub" felyetonunda "Çoxluca pul qazanıb, əmri-məişətini xoşluqla keçirmək" üçün tələş edən Həştərxan müftisinin vətənə və xalqa düşmən simasını H.-in lirik misralarına satirik pafos aşılamaqla ("Çera dərdi-vətən xordən, nə xordən nano halvara") açıb göstərmişdi. M.Ə.Sabirin Azərbaycan kəndlisinin ağır həyat tərzini təsvir edən və "Molla Nəsrəddin" jurnalında çap olunan "Mahi-Kənanın batıb, ey piri-kənan qəm yemə" satirası Hafizin "Ümmidi-vəsli-canan, yaxud qəm yemə" lirik şeirinə nəzirə idi.

"HAMBALLAR" – M.-nin hekayəsi. 20-ci illərdə yazılmışdır. Əsərdə deyilir ki, yoldaşlarımın köməyilə Bakıda üç otaq tapdım, lakin otaqların üçü də boş idi. Tanış idarələrdən birinin vəsadəti ilə bəzi şeylər (kitab şkafı, stol, stul və s.) alınanda hambal çağırmaq lazım gəldi. Bir hambal əvəzinə bir dəstə hambal bizi bürüdü. Bunların hamısı İrəvan kürdləri idi. 15-20 hambala uzaqda duran hamballar da qoşuldular. Bir şkafın hər ayağından və qapısından bir hambal yapışıb, bizdən ünvan soruşmadan yola düzəldilər, verilən məsləhətə məhəl qoymadıqlarından dəlilli və isbatlı sözlərin heç biri onlara təsir eləmədi. Bu qədər hambala veriləcək pulun dərdindən xəlvətcə bir həyətə girib beş-on dəqiqə burada ləngiyəndən sonra hambalları başımızdan edib gəldik çıxdıq bulvara. Dincəlib evə qayıtdıq və sabahısı gün bizə lazım olan şeylərin bəzilərini ondan-bundan və bir parasını pulla Quba meydanından aldıq, lakin küçədə hambal görəndə [...] ehtiyatı əldən vermədik.

"Bolşevik inqilabının Bakıda ikinci ili"nin (1921) bəzi ağrılı səhifələrini tənqid edən ədib yazır ki, küçələrinin adı Bolşoy Morskoy, Torqovi, Krasnovodski... olan, evlərinin çoxunda gəlmələr yaşayan, idarələrində əsasən özgələr çalışan

Bakının hambalları da əslən azərb. deyillər və heç kəsdən qorxmurlar.

Bunlar Vətənin dərdlərinə çarə axtarmaq eşqi ilə döyünən bir ürək sahibinin nişan verdiyi mübarizə hədəflərindən bir neçəsidir.

HƏBİBBƏYLİ İsa Əkbər oğlu (d.1949) – ədəbiyyatşünas. Filol.e.d. (1995), prof., Azərb. əməkdar elm xadimi (1999). Türkiyə Cümhuriyyəti Atatürk Kültür, Dil və Tarix Yüksək Qurumunun m.üzvü (1999), Azərb. MEA-nın akad. (2003), Nyu-York Elmlər Akademiyasının (2001) və BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının (2006) həqiqi üzvüdür. APİ-nin Naxçıvan filialını bitirmişdir (1971), 1975 ildən Naxçıvan Dövlət Un-tində müəllim, baş müəllim olmuş, un-t tələbə elmi cəmiyyətinin sədri, elmi işlər üzrə prorektor vəzifələrini daşımışdır. Hazırda NDU-nun rektorudur (1996 ildən). 1995 ildə "Cəlil Məmmədquluzadə: mühiti və müasirləri" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. M.-nin "Ər", "Lənət" və "Oyunbazlar" adlı üç dram əsərini, 176 felyetonunu, 35 məqaləsini, 2 tərcüməsini, 9 məktubunu, 14 şerini aşkara çıxartmış, çap etdirmişdir. Ədibin uzun illər naməlum qalan, xarici ölkələrdə yaşayan nəvə-nəticələrini axtarıb tapmış, mətbuatda onlar haqqında məlumat vermişdir. M.-yə və müasirlərinə dair Fransada, Azərbaycanda, Türkiyədə, Rusiyada, Pakistanda və İranda çap olunmuş bir çox kitabların və elmi məqalələrin müəllifidir. Böyük ədibin Bakıda, Nehrəmdə və Baş Noraşendəki ev-muzeylərinin yaradılmasında yaxından iştirak etmişdir. Naxçıvan Dram teatrında oynanılan "Çay dəstgahı", "Kişmiş oyunu" və "Kamança" tamaşalarının məsləhətçisi olmuşdur. Yazıçının "Əsərləri"nin 4 cildliyinin (B., 2004) tərtibçisi, müqəddimə və izahların müəllifidir. Ədibin nəsil şəcərəsini və həyat yolunu əks etdirən albomunu (Azərb. və rus dillərində) hazırlayıb çap etdirmişdir. NDU-da M.-yə və "Molla Nəsrəddin" jurnalına həsr olunmuş xüsusi kurslar təşkil etmişdir.

Azərbaycan Respublikası Milli Məclisinin üzvüdür (2005-ci ildən).

"HƏBLÜLMƏTİN" – ictimai, siyasi həftəlik qəzet. 19 əsrin sonu, 20 əsrin əvvəllərində Kəlküttədə (Hindistan) fars dilində İran mühacirləri tərəfindən nəşr edilmişdir. Qəzetin red. Seyid Cəmaləddin Kaşani idi. Qəzetin nəşri 1907 ildən Seyid Həsən Kaşaninin (Seyid Cəmaləddin Kaşaninin qardaşı) red.-luğu ilə Tehranda davam etdirilmişdir.

"H." 19 əsrin 90 illərində Qafqaz müsəlmanları, o cümlədən Naxçıvan ziyalıları arasında geniş yayılmışdır. M.-nin məslək və əqidə dostu M.T.Sidqi onun vəkili, daimi oxucusu və müəlliflərindən olmuşdur. M.Sidqinin məktəbində "H." müntəzəm oxunmuşdur. M. "Qaaqa konfransının nəticələri haqqında" məqaləsində "Həblülmətinin" Avropa imperialistlərinin sülh çağırışlarının arxasında Şərqi müstəmləkəyə çevirmək niyyətlərini tənqid etməsini bəyənmişdir. Ədib "H."-in Avropa və Amerikada həyat tərzinin daim artmaqda olduğu, onun ehtiyaclarının "hərbi qüvvə və ona xas olan bütün atributlar vasitəsilə əldə edilə biləcəyi" haqqında fikrini nəzərə xüsusi olaraq çatdırırdı (C.Məmmədquluzadə. Əsərləri. Altı cilddə. VI c., Bakı, 1985, səh. 21).

İ.Həbibbəyli

HƏSƏNZADƏ İsmayıl Həqqi (1882-1944) – mürəttib, jurnalist, aktyor. 1910 illərə qədər "Molla Nəsrəddin" jurnalının mürəttibi olmuşdur. Tiflisdə "Ölülər" pyesinin tamaşalarını təşkil edənlərdən olub, özü də xırda rollarda oynayırdı. Bir müddət kiçik mətbəə açıb, sifarişlər nəşr etmişdir. Mirzə Cəlil Təbrizə köçəndə, jurnalın hürufat və kağızlarını saxlamağı ona tapşırmışdı. 1928 ildə "Xatiratım" əsəri üzərində işləməyə başlayan ədib, molla-nəsrəddinçi müxbir və yazıçılar haqqında

İsa Həbibbəyli C.Məmmədquluzadənin nəvəsi Mehri xanım Ənvər qızı Səqqətaiya və Ramiz Abutalıbov ilə. Paris, 12 dekabr 1998-ci il.

T.Həsənzadə

İ.Hidayətzadə

ona suallı məktub göndərmiş, H. cavab vermişdi. Q. Məmmədli bu yazışmadakı bəzi qeyri-dəqiqliyi təshih etmişdir.

HƏSƏNZADƏ Turan Vahab oğlu (d. 1926) – mətnşünas-ədəbiyyatşünas. Filol. e.n. (1972). ADU-nun şərqşünaslıq fakültəsini bitirmişdir (1950). 1961 ildən Azərb. EA Nizami ad. Ədəbiyyat İntunun mətnşünaslıq şöbəsində işləyir. "Molla Nəsrəddin" jurnalının tədqiqi və M.-nin "Əsərləri"nin tərtibi ilə məşğul olmuşdur. "Molla Nəsrəddin" jurnalında İran və Cənubi Azərbaycan həyatının inikası" (1906-1921) mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. "C.Məmmədquluzadənin Cənub səfəri və "Molla Nəsrəddin" jurnalının Təbrizdə nəşri" monoqrafiyasının (1991), M. və "Molla Nəsrəddin" haqqında elmi məqalələrin müəllifidir. M.-nin üçcildlik (1966-1967) və altıcildlik (1983-1985) "Əsərləri"nin tərtibi və nəşrində iştirak etmişdir.

HƏSƏNOV Vaqif İbrahim oğlu (d. 1949) – rejissor. Azərb. əməkdar inc. xad. (1989), "Qızıl Dərviş" mükafatı laureatı (1994). "Yuğ" teatrının bədii rəhbəridir. 1980 ildə Azərb. Musiqili Komediya Teatrında C.Səlimovanın librettosu əsasında "Danabaş kəndinin əhvalatları" əsərini tamaşaya qoymuşdur.

HƏSƏNOV Cahangir Həsən oğlu (1880-1965) – mətbəə maşinisti. "Molla Nəsrəddin" jurnalının birinci nömrəsini çap etmişdir. İbtidai təhsilini Tiflis ş.-də aldıqdan sonra, bir müddət mətbəələrdə fəhlə, mürəttib şagirdi işləmişdir. Çapçılıq sənətinə yiyələnmişdir. 1906 ildə Tiflisdə "Molla Nəsrəddin" jurnalı çap olunmağa başlarkən orada daimi xidmətə girir. O zamandan M. ilə sıx əməkdaşlıq edərək fəaliyyətini "Molla Nəsrəddin"lə bağlayır. M. yazırdı: "– Hə, ya Allah, Cahangir yoldaş! Hı, ya Allah, fəhlə yoldaşlar!.. Ya Allah, hərrə görək!.. Yazıq fəhlələr yoruldular... İşdən çıxıb getdilər. Qaldıq biz üçümüz: Mən, Ömər Faiq və Cahangir yoldaş. Biz işdən çıxanda "Molla Nəsrəddin"in birinci nömrəsi min ədəd basılıb tamam oldu" (Məmmədquluzadə əsərləri, VI c. səh. 179-182). Rusiyada fevral inqilabından sonra H. Bakıya köçür. Burada "Novruz" adlı kiçik bir mətbəə düzəldib, müxtəlif əsərlər, reklamlar, afişalar çap edir. Sovet hakimiyyəti qurulduqdan sonra ömrünün axırınadək 26 Bakı komissarı ad. mətbəədə işləmişdir.

"HƏYAT" – gündəlik ictimai-siyasi, iqtisadi və ədəbi qəzet. Bakıda "Kaspi" mətbəəsində Azərb. dilində nəşr edilirdi. İlk nömrəsi 1905 il iyunun 7-də, sonuncusu 1906 il sentyabrın 3-də (cəmi 325 nömrə) çıxmışdır. Naşiri Ə.Topçubaşov, red.-ları Ə.Ağaoğlu və Ə.Hüseynzadə (1906 ildən, 102-ci nömrədən sonra təkcə Ə.Hüseynzadə) olmuşlar. Azərb.-nın mütərəqqi fikirli, demokratik ziyalılarının, o cümlədən M.-nin bir sıra məqalələri – "Məmmədqulubəyin tərcümeyi-halı" (1905, №72), "Tiflis müsəlmanlarının hürriyyət namına şənlikləri" (1905, №96), "Binəsiblər" (M.Ə.Rəsulzadənin tərcüməsində; 1905, №109) və s. bu qəzetdə dərc olunmuşdur. M. "H."-ın birillik yubileyini teleqramla təbrik etmişdi.

HİDAYƏTZADƏ İsmayıl Hüseyn oğlu (1901-1951) – aktyor, rejissor, teatr xadimi. Azərb. xalq art. (1938). Səhnə fəaliyyətinə 1917 ildə peşəkar milli teatr kollektivlərinin tamaşalarından başlamışdır. 1920 ildən Birləşmiş Dövlət Teatrının (indiki ADT) dram truppasında aktyorluq etmişdir. M.-nin "Ölülər" komediyasında Şeyx Nəsrullah rolunu məharətlə ifa etmişdir.

H. həm də görkəmli rej. idi. Onun aktyorluq yaradıcılığı ilə rej.-luğu arasında üzvi vəhdət var idi. Bitkin, dolğun obrazlar yaradan H., rej. kimi də bədii mükəmməlliyə səy göstərmişdir. O, 1937 ildən ömrünün sonunadək AOBT-da baş rej. vəzifəsində çalışmışdır. Kinofilmlərə çəkilmişdir.

HÜSEYNZADƏ Ələkbər Hüseyn oğlu (1887-1967) – aktyor. Azərb. əməkdar art. (1957), SSRİ Dövlət mükafatı laureatı (1946). Səhnə fəaliyyətinə 1908 ildən başlamış, 1909 ildən H. Ərəblinskinin rej. olduğu bir çox tamaşaların, 1915-1916 illərdə isə Azərb. artistlərinin Aşqabad qastrollarının fəal iştirakçısı olmuşdur. H. bir müddət Aşqabad teatrında aktyorluq və rej.-luq etmişdir (1916-1930; fasilələrlə), Burada məharətlə ifa etdiyi Hacı Həsən ağa ("Ölülər") obrazı onun yaradıcılığında mühüm yer tutur. Bir çox quruluşlarda Şeyx Nəsrullah rolunu da oynamışdır. H. xatirələrində "Ölülər"in sənətkarlıq xüsusiyyətləri, səhnə təcəssümü, bədii tərtiba-

tı və s. haqqında yazmışdır. 1924 ildə mətbuatda H.-nin Şeyx Nəsrullah rolunda tamaşaçıları düşündürmək əvəzinə, hər bəhanə ilə olur-olsun, qəhqəhələr qopармağa çalışdığı tənqid olunmuşdu ("Kommunist" qəzeti, 03.12.1924).

HÜSEYNZADƏ Əli bəy Hüseyn bəy oğlu (1864-1940) – yazıçı, jurnalist, müəllim, rəssam, həkim, tərcüməçi, ictimai xadim. Tiflis klassik gimnaziyasını bitirmiş (1885), Peterburq un-tinin fizika-riyaziyyat fakültəsində oxumuş, bir müddət inqilabi tələbə hərəkatına qoşulmuşdur. 1895 ildə İstanbulda ali hərbi tibb məktəbini qurtarmış, 1900 ildə prof. köməkçisi olmuş, bədii və tibbə dair əsərlər yazmışdır. "İttihad və tərəqqi" firqəsinin əsasını qoyanlardan və fəal xadimlərindən idi. 1904 ildə Bakıya gəlib, "Həyat" qəzetinin red.-larından biri, "Kaspi" qəzetinin müvəqqəti red.-u, "Füyuzat" jurnalının red.-u olmuşdur. Bakıda "Səadət" xeyriyyə cəmiyyətinin məktəbində müdir (1908-1909) işləmişdir. "Molla Nəsrəddin"in nəşrə başlaması münasibətilə M.-ni təbrik etmiş, bu haqda məqalə dərc etdirmişdi. Gənc türklər inqilabından sonra o, Türkiyəyə qayıtmış (1910), İstanbul un-tinin prof.-u olmuşdur.

Uzun zaman H. mətbuatda, habelə əməli işində Azərb. dili və ədəbiyyatına "yuxarıdan" baxdığına, bunu ədəbi və pedaqoji fəaliyyətində də büruzə verdiyinə görə bir çox Azərb. yazıçı, alim və müəllimləri tərəfindən "Molla Nəsrəddin" jurnalında və başqa mətbuatda tənqid olunurdu. 1910 ildə Bakıdan köçüb getdiyi vaxt onun görüşlərində artıq dönüş yaranmaqda idi. Bu zaman o, "Molla Nəsrəddin" jurnalının nəşrini, mollanəsrəddinçilərin sadə dildə yazmasını mühüm yenilik saymağa, Azərb. dili və ədəbiyyatı barədə düzgün elmi mülahizələr söyləməyə və yazmağa başlamışdı. M. xatiratında yazır: Əli bəy Türkiyəyə köçəndə "Tiflisə gəldi ki, buradan Batuma getsin. [...] idarəmizə də təşrif gətirdi. Xoş-beş... Möhtərəm ədibimiz mənə belə dedi: "Yaxşı yazırsınız". Mən Əli bəyə ərz etdim ki, onun tək bir şəxsdən eşidilən bu sözü mən "Havayı" danışılan sözlər cərgəsinə qoya bilmərəm. Çünki Əli bəy Hüseynzadə kimi bir yazı ustadı mən tək bir cavan yazıçıya yazı barəsində dediyi sözü mən ciddi bir söz hesab edəm gərək. Əli bəy dediyi sözü təkrar və təsdiq etdi və [...] başını aşağı salıb guya öz-özünə genə dedi: "Açıq yazmağı da bacarmaq lazımdır" (C.Məmmədquluzadə. Əsərləri, VI cild, s. 163).

H. 1926 ildə Bakıda keçirilən I Ümumittifaq Türkoloji qurultayında iştirak etmiş, o vaxtkı çıxışlarında və mətbuatdakı yazılarında, xüsusilə, həmin il Bakıda çap olunmuş "Qərbin iki dastanında türk" adlı yığcam bədii-elmi monoqrafiyasında onu çoxdan düşündirən tarixi konsepsiya və fikirləri işıqlandırmışdı.

Əli bəy Hüseynzadə

HÜSEYNZADƏ Lətif (1903-2008) – ədəbiyyatşünas, müəllim. Naxçıvanda Dövlət İkiillik Müəllimlər İn-tunda, İrəvan Dövlət Pedaqoji İnstitutunda dərs demişdir. Bakı və Naxçıvan arxivlərində M. və "Molla Nəsrəddin" jurnalı haqqında çoxlu material toplamışdır. "Naxçıvan teatrı tarixindən" (1950), "Qoqol və C.Məmmədquluzadə" (1952), "Molla Nəsrəddin" jurnalı" (1954), "Darülfandan başlanan dostluq" (1967) və s. tədqiqat işlərinin müəllifidir.

L.Hüseynzadə

HÜSEYNOV Əhəd Məmmədəli oğlu (1920-1973) – pedaqoq, ədəbiyyatşünas, tənqidçi. Filol. e.n. (1961), Döv. Marneuli pedaqoji məktəbini bitirib (1937), müəllim işləmişdir. 1940 ildə ADU-nun filol. fakültəsinə daxil olmuş, oranı bitirdikdən sonra mətbuat orqanlarında və ali məktəblərdə fəaliyyət göstərmişdir. Klassik və müasir ədəbiyyatın müxtəlif məsələləri haqqında tədqiqat aparmışdır. M.-nin yaradıcılığına həsr olunmuş "Böyük sənətin sirləri" ("Azərbaycan" jurnalı, 1972, №3), ədibin yumoru haqqında "Gülüş əyləndirir, gülüş düşündürür" ("Ulduz" jurnalı, 1972, №2), M.-nin yaradıcılığında polemika-mübahisə üsulunun tədqiqinə dair "Polemika ustası" (ADU-nun "Elmi əsərləri", "Jurnalistika" seriyası. 1972, №2) və s. müəllifidir. Cəlil Məmmədquluzadə publisistikasının sənətkarlıq xüsusiyyətləri" monoqrafiyası ("Sənət yanğısı" B., 1979) isə M. felyetonlarının dil, üslub və sənətkarlıq məsələlərinə həsr olunmuş orijinal tədqiqatdır.

HÜSEYNOV Firidun Cəlal oğlu (1933-1986) – ədəbiyyatşünas, pedaqoq. Filol. e.d. (1978), prof. (1979). Naxçıvan Dövlət İkiillik Müəllimlər İn-tunu, ADU-nun filol. fakültəsini (1959) bitirmişdir. ADU-da Azərbaycan ədəbiyyatı tarixi kafedrasında prof., filologiya fakül-

F.Hüseynov

Ş.Hüseynov

S.Hüseynova

təsində dekan işləmişdir. "Molla Nəsrəddin" satirik ədəbi məktəbi H. araşdırmalarının əsas obyektidir. "Əli Nəzminin həyatı və yaradıcılığı" mövzusunda namizədlik (1964), "Cəlil Məmmədquluzadə nəsrində əsas problemlər" (1978) mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir, "Əli Nəzmi" (1970), "Adi əhvalatlarda böyük həqiqətlər" (1977), "Satirik gülüşün qüdrəti" (1982), "Molla Nəsrəddin" və mollanəsrəddinçilər" (1986) monoqrafiyalarının və məqalə toplularının, "Molla Nəsrəddin jurnalı", "İdeya-bədii körpü", "C.Məmmədquluzadənin bədii nəsrində ziyalı surətləri", "C.Məmmədquluzadə L.N.Tolstoy haqqında", "Aydınlığa doğru", "İntibah carçısı" və s. məqalələrin müəllifidir. Mollanəsrəddinçi şair Əli Nəzminin "Seçilmiş əsərləri"ni (1979) nəşr etdirmişdir. Mollanəsrəddinçilərin əsas yer tutduğu "XX əsr Azərbaycan ədəbiyyatı" dərsliyinin (prof. Mir Cəlalla birgə) müəllifidir.

HÜSEYNOV Şirnəmməd Ağamməd oğlu (d. 1924) – jurnalist, mətbuat tarixçisi. Tarix e.n. (1954), prof. (1988), Azərb. əməkdar jurnalisti (1988). H.Zərdabi (1987), Y.Məmmədəliyev (1993) və Azərbaycan Kültür Dərnəyi (Ankara, 1994) mükafatları laureatı. 1954 ildən ADU-da baş müəllim, dos., jurnalistika fakültəsinin dekanı, mətbuat tarixi kafedrasının müdiri vəzifələrində işləmişdir. Azərb. mətbuatı tarixi, jurnalistika nəzəriyyəsi, beynəlxalq jurnalistika sahəsində tədqiqatçıdır. İki hissədən ibarət "Jurnalistika məsələləri" (1966, 1972), "Çoxmillətli sovet jurnalistikası" (1972, 1975) kitablarının müəlliflərindəndir. İki hissədən ibarət "Azərbaycan bolşevik mətbuatı" (1981, 1983), "Azərbaycan dilində ilk sosial-demokrat nəşrləri" (1987) dərs vəsaitlərinin, "Həqiqət və ədalət carçısı" monoqrafiyasının (1988), "Müstəqilliyin çətin yolu. Biz hara gedirik?" (1996) məqalələr toplusunun müəllifidir. H.-un tədqiqlərində və mühazirələrində "Molla Nəsrəddin" və M. irsi mühüm yer tutur. Son illərdə M. irsinə yeni baxışla yazdığı məqalələrdən "Əsrin əvvəli, əsrin axırı, nə dəyişib, nə qalıb?", "Tarixdən gələn səslər", "Bizə qorodovoy yox, həqiqi azadlıq lazımdır", "Əsl ziyalı çağırışı nümunəsi", "Qaranlıqda", "Açıq söz", "Molla Nəsrəddin" və "Arşın mal alan", "Molla Nəsrəddin" və "Bakı nefti", "M.F.Axundovun yubileyi, Mirzə Cəlilin yuxusu" və s. məqalələrini göstərmək olar.

HÜSEYNOVA Sofya Həsən qızı (d. 1926) – aktrisa. Azərb. xalq art. (1982). 1942 ildən C.Məmmədquluzadə ad. Naxçıvan Dövlət Musiqili Dram Teatrında çıxış edib. Müxtəlif janrlarda maraqlı səhnə obrazları yaratmışdır. M.-nin "Anamın kitabı" pyesində Zəhrabəyim obrazını böyük müvəffəqiyyətlə yaratmışdır (1992).

"Dəli yığıncağı" Azərbaycan Dövlət Akademik Dram Teatrının səhnəsində, 1978 il.

X

"XA! XA! XA!" – tatar yumor jurnalı. 1906 ildə Krımın Baxçasaray ş.-də nəşr olunmuşdur. Jurnalın 1-ci sayında yazılmışdı: "Sahib və naşiri İsmayıl bəy Qasprinski, rəhbəri Xacə Nəsrəddindir". Tiflisdə M.-nin red.-luğu ilə "Molla Nəsrəddin" adlı türk satirik jurnalının nəşrinə hazırlıq getdiyindən xəbər tutan İ.Qasprinski, "Molla Nəsrəddin"i qabaqlamaq məqsədilə qəhrəmanı Xoca Nəsrəddin olan həftəlik satirik jurnalının nəşrinə başlamışdı. Jurnalda yazıların və rəsmlərin mövzusu tatarların həyatından alınır, mollanəsrəddinvarı olmasına xüsusi fikir verilirdi. Jurnal "Molla Nəsrəddin"dən 6 gün əvvəl çıxmasına baxmayaraq (1906 il, 1 aprel) beş sayından sonra nəşrini dayandırmağa məcbur oldu. Lakin bu, iki red. arasındakı səmimi dostluq və həmkarlıq münasibətlərinə xələl gətirmədi. İ.Qasprinski "Molla Nəsrəddin"i "Tərcüman"da ardıcıl surətdə təbliğ etmiş, ayrı-ayrı yazılarını və rəsmlərini təkrar dərc edib yaymışdı.

XALIQOV Qəzənfər Ələkbər oğlu (1898-1981) – rəssam. Azərb. xalq rəssamı (1973). Azərb. Dövlət Rəssamlıq Texnikumunu bitirmişdir (1928). Boyakarlıq, qrafika və teatr rəssamlığı sahəsində fəaliyyət göstərmişdir. M.-nin təşəbbüsü ilə 1928 ildə "Molla Nəsrəddin" jurnalında işə dəvət olunmuş, 1930 ilədək orada satirik rəsmləri ilə çıxış etmişdir. 1930-cu illərdən başlayaraq, boyakarlıq əsərləri, plakatlar və kitablara illüstrasiyalar çəkmişdir. Nizaminin 800 illiyi ilə əlaqədar dahi şairin portretini yaratmışdır.

XANIZADƏ Hamlet Bəbir oğlu (1941-1990) – aktyor. Azərb. əməkdar art. (1982). Azərb. Dövlət mükafatı laureatı (1984). Azərb. Dövlət İncəsənət İnstunu bitirmişdir (1965). 1964 ildən ömrünün sonunadək ADT-da fəaliyyət göstərmişdir. Mürəkkəb xarakterli obrazların mahir ifaçısı idi. M.-nin ADT səhnəsində tamaşaya qoyulmuş "Dəli yığıncağı" (1978) əsərində Molla Abbas rolunu böyük müvəffəqiyyətlə yaratmışdır. Kino aktyoru kimi də tanınmışdır.

Q.Xalıqov

"XANIN TƏSBEHİ" – M.-nin hekayəsi. İlk dəfə "Kommunist" qəzetində dərc olunmuşdur (1923, 16 mart, № 61). Həyat materialı ilə sənətkar təxəyyülünün vəhdətindən yaranmış qısa, lakonik, dərin məzmunlu, ideya-siyasi kəsəri, təsir qüvvəsi olan məziyyətlərinə görə M.-nin Cənubi Azərb. həyatından bəhs edən nəsr əsərləri içərisində seçilir. Təsbeh, ölkəni fərraşlar, darğalar vasitəsilə idarə edən Nəzərəli xanın əlində soyğunçuluq vasitəsidir. Xanın təsbehi rəiyyətin malını əlindən almaq, hətta xalqın namusuna əl uzatmaq vasitəsidir: xanın qoca vəziri istədiyi qadını bu təsbehin xofu, Nəzərəli xanın qorxunc nüfuzu ilə özünə siğə edə bilir.

H.Xanızadə "Dəli yığıncağı" pyesində Molla Abbas rolunda.

Təsbeh öz gücünü məmləkətin cəlladı olan xandan, xanın arxasındakı hakim təbəqədən, ictimai quruluşdan alır. Hekayənin tənqid, ifşa və gülüş hədəfi həmin ictimai mühitdir. Əsərdə ölkənin həyatı, məişəti, xalqın dərd və ələmi, adət və ənənəsi, təfəkkür tərzi, qadınların faciəli həyatının təsviri ön planda verilmişdir.

"XATİRATIM" – M.-nin əsəri. Bitməmiş bu əsərin M.-nin ömrünün axır illərində yazıldığı güman olunur. Belə ki, ədib burada bütün həyatını, fəaliyyət illərini deyil, yalnız "Molla Nəsrəddin"in 1-ci nömrəsinin çapdan çıxmasına qədərki dövrü əhatə edə bilmişdir. Yazıçı xatirələrini son dərəcə mənalı və məşhur sözlərlə başlayır: "Gözümü ömrümdə birinci dəfə açan kimi dünyanı qaranlıq görmüşəm. Bu qaranlıqda ilk dəfə eşitdiklərim bunlardır: "Allahü əkbər! Allahü əkbər!" Beləliklə, elə ilk cümlədən yazıçı memuarının sanki istiqamətini, mövzu və problem aləmini, hansı dövrdən, hansı şəraitdən söz açacağını hiss etdirmiş olur. Böyük əziyyətli, mübarizə və məhrumiyyətlərlə dolu bir ömür yaşamış ədib, onun başlanğıcına, xarakterinin, yazıçı və vətəndaş taleyinin formalaşdığı, fəaliyyətə başladığı dövrə qayıdır, həyat və mübarizə təcrübəsi, zamanın hadisələri işığında yaşanmış həyatı, illəri bir daha gözü önünə gətirir, dünyagörüşü və yaddaşı işığında mühitini, əhatə olunduğu adamları; onların düşüncə və məişət tərzini, ruhi aləmini təhlil, Naxçıvan, İrəvan və Tiflisdə keçən illəri, buralardakı ədəbi və jurnalistik fəaliyyətini təsvir edir. O da çox səciyyəvidir ki, əsərdə yazıçı boya-başa çatdığı, dünyagörüşünün formalaşdığı, yetkinləşdiyi mühiti, aləmi, məişəti "qaranlıq" adlandırır, real həyati və tarixi faktlar, hadisələr, təfərrüatlar vasitəsilə bu qaranlıq mühitin və zamanın bir növ obrazını yaradır, ümumiləşmiş mənzərəsini canlandırır. Əsərin çox mühüm bir hissəsini ədibin uşaqlıq və ilk gəncliyinin keçdiyi Naxçıvan mühitinin təsviri təşkil edir. Bu mühit ədibin təsvirində tipikləşir, orada bütün Şərq təcəssüm olunur.

Bu mühitdə adamlar din və şəriətin dəyişməz qanunları ilə yaşayır, vaxtlarının çox hissəsini "namaz qılmağa" sərf edirlər. Əsərin çox mühüm, spesifik cəhəti odur ki, yazıçı mühitin bütün bu həqiqətlərini konkret və əyani şəkildə təsvir edərək, onları öz yazıçı idealı işığında ümumiləşdirir. Beləliklə, ədib bir növ yaradıcılığında əks etdiyi həyatı, "qaranlıq əsr"in həqiqətlərini, insan faciələrini yazıçılıq fikrinə təsir göstərən bir mənbə kimi mənalandırır. Bu mənada "X". ədibin həyatını öyrənməklə bərabər, həm də ədibin estetik idealını öyrənmək üçün qiymətli bir mənbədir. İlk hekayələri barədə fikirləri, "Şərqi-Rus" qəzetində fəaliyyəti, onun naşirinin taleyi barədə mülahizələri və qənaətləri bu cəhətdən əsərin son dərəcə qiymətli və mənalı səhifələridir. Əsərin əsas bir hissəsi ədibin "Molla Nəsrəddin"ə doğru yolunu, jurnalın nəşri ilə əlaqədar axtarışlarını əks etdirir. Yazıçı qeyd edir ki, "bizim qabağımızda dağ kimi duran istibdad, Şərq istibdadı və Şərq qaranlığı idi, şah və sultan istibdadı idi və şəriət zülməti idi", cəmiyyətin, mühitin "həşərat ünsürləri" idi. Ədibin bunlara qarşı mübarizə ehtirası, döyüş qətiyyəti onu "Molla Nəsrəddin" meydanına gətirib çıxarmışdır. Əsərdəki "Molla Nəsrəddin"i təbiət özü yaratdı, zəmanə özü yaratdı" kəlamı da bu həqiqətin təsdiqidir. Eyni zamanda yazıçının jurnalın ilk nömrəsi barədə ətraflı məlumatı, onun məzmunu, quruluşu və s. faktiki informasiyalar da əsərin həyati mündəricəsini zənginləşdirir, onun sənədlilik başlanğıcını gücləndirir. Beləliklə, "X."-ın mövzusunun genişliyi və ideyasının dərinliyi, bədii strukturunun və formasının özünəməxsusluğunun orijinallığı etibarilə, sadəcə, memuar hesab edilə bilməz; onun janrını avtobioqrafik povest kimi təyin etmək daha düzgün və dəqiq olardı. Burada müəllifin, onun fərdi "mən"inin əsərin əsas qəhrəmanı rolunda çıxış etdiyini iqrar etmək mümkündür.

XEYRİYYƏ CƏMİYYƏTLƏRİ, H. və C.Məmmədquluzadələrin Tiflisin xeyriyyə cəmiyyətlərində iştirakı. 1905 ildə Həmidə xanım mərhum atası Əhməd bəy Cavanşirin mənzum əsərlərdən ibarət əlyazmasını kitab halında nəşr etdirmək üçün Tiflisə gedib rəfiqəsi Sofiya xanım Şahtaxtinskaya ilə məsləhətləşir. Onlar şəhərdə "Qeyrət" adlı mətbəə açıb, naşirliyə başlamış M.-yə müraciət edirlər. Ədib əlyazmanı nəzərdən keçirib bəyənir və 240 manata 1000 nüsxə çap etməyə söz verir. M., eyni zamanda xanımlarla katib olduğu xeyriyyə cəmiyyəti barədə söhbət edib, onlara da belə bir cəmiyyət

təşkil etmələrini məsləhət görür. Qadınlar işə başlayır, siyahı tutur, M.F.Axundovun nəvəsi Mələksima xanımla görüşüb, bu işə başçılıq və kömək göstərməsini xahiş edirlər. Mələksima xanım məmnuniyyətlə razılıq verir və böyük salonunu yığıncaq üçün verəcəyini bildirir, onları anası Nisə xanımla da tanış edir. Beləliklə, Tiflisdə Müsəlman Qadınlarının Xeyriyyə Cəmiyyəti yaranır.

XX əsrin əvvəllərindən Bakıda sənayenin inkişafı mütərəqqi və liberal ziyalıların təşəbbüsü ilə yeni xeyriyyə cəmiyyətlərinin təşkilinə səbəb olmuşdu: "Nəşri-maarif" "Nicat", "Səfa" və b. Mətbuat xeyriyyə cəmiyyətlərinin məktəblər açmaq, klublar, kitabxanalar yaratmaq istiqamətində işinə müsbət qiymət verirdi. Bir qismi var-dövlət sahibinə çevrilən xeyriyyəçilər arasında ziddiyyət və toqquşma da olurdu ki, M., "Molla Nəsrəddin" jurnalı və digər mətbuat orqanları həmin hadisələri də işıqlandırır, yol verilmiş nöqsanları tənqid edirdilər.

XƏLİLOV Əliməmməd (1862-1896) – M.-nin maarifçi müasiri. 1881 ildə Qori seminariyasını bitirib, Naxçıvan şəhər məktəbinə təyinat almış, burada M.-yə bir il dərs demişdir. M.-nin Qoridə oxumağa istiqamətləndirilməsində onun xüsusi rolu vardır. X. 1885-1888 illərdə Baş Noraşen zemstvo məktəbinin müdiri olmuş, M.-nin Uluxanlıdan Baş Noraşen məktəbinə dəyişilməsinə ciddi səy göstərmiş, məqsədinə nail olmuşdur. X. Naxçıvan teatrının əsas yaradıcılarından biridir. Evinin böyük zalını tamaşa göstərmək üçün yerli teatr həvəskarlarına vermişdi. M. ilə birlikdə bu teatrda aktyorluq etmiş, bəzən rej. olmuşdur. O, "Kavkaz" qəzetinin Naxçıvan üzrə müvəkkili vəzifəsini yerinə yetirmiş, mətbuatda məqalələrlə çıxış etmişdir.

XƏLİLOV Sadıq (1864-1905) – M.-nin maarifçi müasiri. 1882-1886 illərdə İrəvan müəllimlər seminariyasında oxumuşdur. Yengicə icma məktəbində, Nehrəm normal məktəbində, Naxçıvan şəhər məktəbində (1901-1905) ikinci müəllim, müəllim və nəzarətçi (müdir) vəzifələrində çalışmışdır. 1890-1892 illərdə M. ilə birlikdə 2 il 8 ay Nehrəm məktəbində pedaqoji fəaliyyətlə məşğul olmuş, onunla eyni evdə kirayənişin qalmış, dostlaşmışdır. Onlar Nehrəmdə müəllimlik etməklə bərabər, Naxçıvan teatrında da birgə fəal iştirak etmişlər. 1894 ildə atasını itirən X. Naxçıvan ş.-də valideynlərinə məxsus təsərrüfatı idarə etmək məqsədilə Yengicə məktəbindəki vəzifəsini Nehrəm məktəbinin müdiri M. ilə dəyişmək qərarına gəlmişdi. Yazışmanın 4-5 ay davam etməsinə baxmayaraq məsələ müsbət həll olunmamışdır. Sonralar M. onun adını "Danabaş kəndinin əhvalatları" silsiləsindəki lağlağı Sadığa, soyadını isə qəzetçi Xəlilə vermişdir.

XİYABANİ Şeyx Məhəmməd Hacı Əbdülhəmid oğlu (1879/80-1920) – İranda, Cənubi Azərb.-da görkəmli inqilabçı, publisist, istedadlı natiq. Təhsil illərində dünyəvi elmlərlə yanaşı, dini elmlərə də yiyələnmiş, rus, fransız dillərini öyrənmiş, müxtəlif peşələrdə çalışmışdır. 1905-1911 illər məşrutə inqilabı dövründə X. hərəkatın fəal iştirakçısı və başçılarından biri olur, siyasi təbliğat məqsədilə Təbriz məscidlərindən birində pişnamazlıq edir (adının əvvəlindəki "Şeyx" sözü buradandır). 1908-1909 illər Təbriz üsyanı zamanı yaşadığı Xiyaban məhəlləsində barrikada vuruşlarında qəhrəmanlığı ona Xiyabani adını qazandırır. 1909 ildə İranın Milli Məclisinə nümayəndə seçilir. O, Tehranda İran Demokrat Partiyasına (İDP) daxil olur. İnqilab yatırıldıqdan sonra Rusiyaya gedən X. 1914 ildə Təbrizə qayıtmış, müxtəlif peşələrdə işləmiş, gizli siyasi fəaliyyət göstərmişdir. X. İDP-nin Azərb. Əyalət Komitəsinin 1917 il avqust konfransından sonra müstəqil ADP kimi fəaliyyətində, 1920 il aprelin 7-də Təbrizdə üsyanın təşkilində və Milli Hökumətin yaradılmasında olduqca böyük rol oynamışdır. X.-nin alovlu nitqləri və iti jurnalist qələmi, xüsusilə bu gün də öz təsir qüvvəsini saxlayan məşhur "Azərbaycan və Azərbaycan demokratiyası" məqaləsi azərb.-lara yüksək vətənsevərlik hisslərinin aşılanmasında müstəsna əhəmiyyətə malik olmuşdur.

Ş.Xiyabani

1917 ilin mayında X. Tiflisə gəldiyi zaman adındakı "Şeyx" sözünə gülən mollanəsrəddinçilərin ötəri haqsız tənqidinə məruz qalsa da, M. və həmfikirləri onun şəxsiyyətini yüksək qiymətləndirirdilər. 1920 il sentyabrın 7-də ailəsi ilə birlikdə Təbrizə gələn M. ertəsi gün Milli Hökumətin başçısı X. ilə görüşmüş və X. "Molla Nəsrəddin"in nəşrinə kömək

vəd etmişdi. Lakin Tehran hökumətinin üsyançılar üzərinə hücumu nəticəsində X. sentyabrın 14-də öldürüldü.

Mirzə Cəlil demokratların məğlubiyyətinə, X.-nin vəhşicəsinə öldürülməsinə dərindən kədərlənmişdi. 1925 ildə "Molla Nəsrəddin"in 42-ci sayında "İran işləri" başlığı ilə çap olunmuş məqalədə M., vaxtilə Təbrizdə deyə bilmədiklərini ürək ağrısı ilə yazırdı: "Bir yada salın şanlı və şərəfli günlərimizi ki, beş il bundan qabaq İranın müstəqil Azərbaycanını bir saatın içində dağıtdınız, ...Şeyx Məhəmməd kimi cümhuriyyətpərəst mücahidi şəhid etdiniz".

XUDAYAR BƏY – M.-nin ilk nəsr əsəri – "Eşşəyin itməkliyi" (1894) povestinin personajı. Azərb. ədəbiyyatında yadda qalan qüvvətli mənfi xarakter. M.-nin tənqid hədəfi – qanun və şəriət pərdəsi altında qoluzorluluq edən dövlət məmurlarından biri. Azərb. qadınına məxsus ismət, həya, vəfa, sədaqət, dözüm, təbiilik və səmimilik rəmzi Zeynəbin tam əksi olan, rəiyyəti zoğal ağacının zoru ilə idarə edən, zahiri də daxili qədər çirkin, yalançı, ikiüzlü, tamahkar, əzazil, harın, xəsis, hiyləgər, mühafizəkar bir şəxs. Ədib İslam dininin və hakim feodal əxlaqının qadına münasibətini Şərqdə dəbdə olan siğə azarına tutulmuş, dostunun dul qadınına sahiblənmək istəyən Xudayar bəyin dili ilə aydın, mənalı eyhamlarla verir: "Anan arvaddı, amma atan kişi idi. Arvadın pirinə nəhlət. Arvadın dini, imanı, məzhəbi olmaz. Arvad nə bilir məzhəb nədir".

XULUFLU Vəli Məmmədhüseyn oğlu (1894-1939) – pedaqoq, folklorçu-alim, tarixçi, ictimai xadim. Prof. (1931). 1917 ildə Gəncədə müəllimlər kursunu bitirmiş, müəllimlik etmişdir. 1922-29 illərdə Ümumittifaq Yeni Türk Əlifbası Komitəsinin təlimatçısı, "Bakinski raboçi" nəşriyyatının və "Azərnəşr"in red.-u olmuşdur. Yeni əlifbanın təbliğində fəal iştirak edən M. 1924 ildə X. ilə birlikdə S.Ağamalıoğlunun başçılıq etdiyi nümayəndə heyətinin tərkibində latın əlifbasının türk xalqlarının vahid əlifbasına çevrilməsini təbliğ etmək məqsədilə ay yarım müddətdə Krım, Tatarıstan və Orta Asiyada olmuşlar. 1929 ildən elmi fəaliyyətlə məşğul olmuş X. orta əsrlər tarixinə dair bir sıra əsərlər yazmış, şifahi xalq ədəbiyyatı nümunələrinin toplanması və nəşri sahəsində fəaliyyət göstərmişdir.

"Ölülər" Azərbaycan Dövlət Dram Teatrının səhnəsində, 1933-1934-cü illər.

İ

İBRAHİM Azəri (İbrahim Ağasəlim oğlu Atakişiyevin təxəllüsü) (1897-1969) – teatr və kino aktyoru. İlk dəfə 1914 ildə Tağıyev teatrında ("Müsəlman dram artistləri"nin heyətində) səhnəyə çıxmışdır. Sonralar bir sıra tamaşalarda, o cümlədən M.-nin "Ölülər" pyesində Hacı Baxşəli kimi yaddaqalan obraz yaratmışdır. Gəncə, Şəki, Quba və s. rayon teatrlarında, ADT-nda, Aşqabad, İrəvan, Tiflis Azərb. teatrlarında və "Azərbaycanfilm" kinostudiyasında fəaliyyət göstərmişdir.

İBRAHİMOV Əbdürrəşid (1857-?) – tatar mühərriri. İlk təhsilini Kazanda Kaşkara mədrəsəsində almışdır. Orenburq ruhani idarəsinin qazisi olmuşdur. 1905-1906 illərdə "Ümum Rusiya müsəlmanlar ittifaqı"nın əsas yaradıcılarından idi. İ. 1898 ildə Peterburqda "Mirat" (1900-1905) adlı məcmuə, 1905 ildə "Ülfət" (1906-1907) qəzetini nəşr etmişdir. "Ülfət" ilk nömrəsindən Rusiya müsəlmanlarını dini zəmində muxtariyyət federasiyasında birləşməyə çağırmışdır. O, Çin, Yaponiya və s. Şərq ölkələrində olmuş, eyni siyasi proqramla çıxış etmişdir. 1907-1908 illərdə onun "Nicat" və "Çoban yıldızı" kitabları çar senzurası tərəfindən qadağan edilir. 1913 ildə İstanbulda İ.-un red.-luğu ilə "İslam dünyası" adlı məcmuə nəşr olunmuşdur. Azərbaycan dilində nəşr olunan "Şərqi-Rus" (Tiflis; 1903-1905) və "Həyat" qəzetlərinə məqalələr yazırdı. M. "Qəzetlərdən" felyetonunda İ.-un Yaponiyada İslam dinini yaymaq cəhdlərini və yaponların buna qane olmaları haqqında heç bir məntiqə söykənməyən fikirlərini istehza hədəfinə çevirərək yazırdı: "Bəyanül-həqq" qəzetinin müxbiri Molla Əbdülrəşid İbrahimov... Tokio şəhərindən İstanbulda çıxan "Siratül müstəqim" məcmuəsinə yazır ki, "Mən Yaponiyada hər məclisdə hər gün nitqlər söyləyirəm". Ə.İbrahimovun panislamist görüşləri, islam dinini Yaponiyada yaymaq haqqında məqalələri M.-nin əsas tənqid hədəfi idi. "Bu xəbəri möhtərəm "Tərcüman" qəzeti yazıb, axırda soruşur ki, aya, görən Molla Əbdürrəşid bu nitqləri ingilis dilində söyləyir, yainki yapon dilində? ...Əbdürrəşid nə ingiliscə bilir, nə yaponca və nə firəngcə... Lakin Molla Əbdürrəşidin əhvalatı özgədir: bu cənab nitqlərini türk dilində söyləyir və yaponiyalılara da mollanın nitqinin məzmununu bilmək lazım deyil, onlara Molla Əbdürrəşidin məhz uzun saqqalı və ağ əmmaməsi xoş gəlir" ("Molla Nəsrəddin" jurnalı, 1909, 7 iyun, №23).

İBRAHİMOV Mirzə Əjdər oğlu (1911-1993) – yazıçı, dramaturq, ədəbiyyatşünas-alim, tənqidçi, ictimai xadim. Azərb. xalq yazıçısı (1961), Azərb. EA akad. (1945), SSRİ (1950) və Azərb. (1965) Dövlət mükafatları, Beynəlxalq Nehru mükafatı (1979) laureatı. Xalq həyatının mühüm dövrlərini əks etdirən dram əsərləri ("Həyat", "Məhəbbət", "Közərən ocaqlar" dramları, "Kəndçi qızı", "Yaxşı adam" komediyaları), romanlar ("Gələcək gün", "Böyük dayaq", "Pərvanə"), povest, hekayə və şeirlər yazmışdır. İ. ədəbiyyat tarixinə, bədii yaradıcılığın nəzəri problemlərinə, ədəbi əlaqələrə dair monoqrafiyaların, məqalələrin, publisistik əsərlərin müəllifidir.

M.İbrahimov

M.-yə həsr edilmiş "Böyük demokrat" (1939, 1957), "Böyük satira ustası" (1966) monoqrafiyaları yazıçının ədəbiyyatşünaslıq sahəsində ən yaxşı tədqiqat əsərlərindən idi.

Hər iki monoqrafiyada, eləcə də "Yazıçı, jurnalist, müəllim", "Şirin arzular, acı gülüşlər..." məqalələrində böyük ədibin

N.İbrahimov

həyat və yaradıcılığının ən diqqətəlayiq məsələləri, faktları inandırıcı əksini tapmışdır.

İBRAHİMOV Nazim Sadıq oğlu (d. 1935) – naşir, jurnalist, ictimai xadim. Bakı şəhərinin Yasamal (keçmiş Oktyabr) rayonu partiya komitəsinin I katibi (1971-1980), Azərb. Dövlət Nəşriyyat, Poliqrafiya və Kitab Ticarəti Komitəsinin (Mətbuat və İnformasiya Nazirliyi) sədri (1980-1988), "Azərbaycan Ensiklopediyası" Nəşriyyat-Poliqrafiya Birliyinin baş direktoru (1991-1992), "Azərbaycan" nəşriyyatının baş direktoru (1993-2005), 2006-cı ildən Azərb. Yazıçılar birliyinin katibidir, elmi tədqiqatla məşğul olmuşdur (e.n.-dir). İ. 10 cildlik Azərb. Ensiklopediyasının Baş redaksiya heyətinin və Üzeyir Hacıbəyovun 100 və 110 illik yubileylərinin keçirilməsi üzrə dövlət komissiyalarının üzvü idi. Bir sıra kitabların müəllifi və tərtibçisidir. "Natəvan" operasının librettosunun müəllifi, Azərbaycan dilində (kiril qrafikası ilə, 1996), rus dilində (2003) çapdan çıxmış "Üzeyir Hacıbəyov ensiklopediyası"nın hazırlanmasının təşəbbüsçüsü və baş redaktoru.

"Cəlil Məmmədquluzadə ensiklopediyası"nın hazırlanmasının təşəbbüsçüsü, elmi-redaksiya şurasının sədri və orada gedən bir sıra məqalələrin müəllifidir.

"Humay" mükafatına layiq görülmüşdür (2000).

İBRAHİMOV – Eynullayev Sənətulla (1881-?). Simbrek tatarı – naşir, jurnalist, publisist, tərcüməçi, tənqidçi. İlk məqalələrini Bakıda çıxan "Tərəqqi" (1908-1909) qəzetində dərc etdirmişdir. "Məlumat" (1911), "Yeni İrşad" (1911-1912) qəzetlərinin redaksiyalarında işləmişdir. 1912-1913 illərdə müstəqil "İqbal" qəzetinin naşiri və baş mühərriri olmuş, onun imzası ilə 459 nömrə çıxmışdır. Hərbi xidmətə çağırıldığına görə redaksiyanı müvəqqəti tərk etmişdir. Mükəlləfiyyət başa çatdıqdan sonra "İqbal", "Yeni iqbal", "Açıq söz" qəzetlərində əməkdaşlıq etmişdir.

İ.-un publisistikasının mövzu dairəsi genişdir. O, rus çarizminin imperiyanın qeyri-rus xalqlarına mənfi münasibətini, mədəni tərəqqi nişanələrini boğmaq, yerli əhalini köçürməklə, onların torpaqlarını zəbt etmək siyasətini tənqid etmiş, müsəlman-türk xalqlarının maarifini, ədəbiyyatını, iqtisadiyyatını dirçəltmək və birliyini yaratmaq uğrunda mübarizə aparmışdır. İ. XX əsrin 10-cu illərində ana dilinin milli müstəqilliyi və təmizliyi, ədəbiyyatın xəlqiliyi məsələləri ətrafında gedən müzakirələrdə "Molla Nəsrəddin"in mövqeyini bəyənib müdafiə etmiş ("İqbal", 1913, 25 avqust, №436), hakim dairələr tərəfindən müsadirə edildiyindən jurnalın 16-cı sayının oxuculara çatmamasının səbəblərini aydınlaşdıran red.-un məktubunu dərc etmiş ("İqbal", 1913, 2 iyul, №314), Cənubi Qafqaz pambıqçılarının Tiflisdə keçirilən yığıncağında "Kəhrizli kəndinin mülkədarlarından Xanım Cavanşirin (Həmidə xanım Məmmədquluzadənin – *red.*) çıxışının xülasəsini vermişdir ("İqbal", 1912, 11 noyabr, №208).

"İKİ ALMA" – M.-nin hekayəsi. 20-ci illərdə yazılmışdır. Yazıçının son dərəcə psixoloji ustalıqla işlənmiş, uşaqlar və böyüklər dünyasının dərinlərinə varan əsərlərindəndir. Hekayədə əsas qayə – ibrətamizlikdən əlavə daha bir qat – fəlsəfi yozumun işarə və hərflərinə də rast gəlirik. Buna yazıçı uşaq psixologiyasına, habelə, dilin incəliklərinə nüfuz etməklə nail olur. Əsərdə semantika – məna vurğusu hadisələrin təsvirində situasiyalarla müxtəlif nisbətlərə girərək müəllif mətləbinin zənginliyini açıqlayır; ədib hər yerdə "alma" (meyvə) və "almaq" (fel) sözlərini diqqət mərkəzində saxlamaqla fikri əsas məqsədin açılmasına yönəldir. Konfet istədiyi halda, atasının ona aldığı iki almanı uşaq necə könülsüz qəbul edirsə, könüllü şəkildə, həvəslə dilənçiyə verdiyi almadan böyük sevinc duyur. Əsər boyu filosofların söylədiklərini köməyinə çağıran təhkiyəçi-qəhrəman gerçəkdə "almaq"dan daha çox, "vermək", "bağışlamaq" əməlinin üstünlüyünə şahid olur. Yazıçı "uşaq təbiəti" qarşısında pedaqojinin, süni mədəniyyət dərslərinin, "filosofiya aləmi"nin acizliyi – "iki (qiymət) alma"sını məxsusi vurğulayır.

"İKİ QARDAŞ" – M.-nin hekayəsi. 1920 illərdə yazılmışdır. İlk dəfə yazıçının "Bəlkə də qaytardılar" (1927) kitabında çap edilmişdir. Hekayədə təsvir olunan əhvalat fonunda ədib mehribanlıq, səmimiyyət və məhəbbət ideyalarını təbliğ edir. Gürcüstan yaylaqlarının birindən Tiflisə tərəf yola düşən səmişin qatarının vaqonlarının birinin qapısı ağzında iki kişi-

nin bir-birindən çox mehribanlıqla ayrıldığını müşahidə edən ədib (hekayəçi) gürcü yoldaşlardan öyrənir ki, həmin iki şəxs doğma qardaşdırlar və onları "öpüşdürən qardaş məhəbbətidir". Bu məlumat ədibi kədərləndirir: "Burada mən qəmgin oldum... Nə səbəbə qəmgin oldum, bunu daha söyləmək istəmirəm".

Bəs yazıçını qəmləndirən, onun söyləmək istəmədiyi nədir? Öz həmvətənlərinin bir-birinə soyuq münasibəti! Müsəlman qardaşın mehrsizliyi! Dünyaya bir atanın belindən, bir ananın bətnindən gəlib, eyni ocağın istisinə qızınmış övladların ədavəti, düşmənçiliyi! Nəhayət, islam millətləri arasında qardaşlıq məhəbbətinin yoxluğu! Hekayənin mətnaltı mənası belədir.

"İKİ ƏR" – M.-nin hekayəsi. İlk dəfə "Şərq qadını" jurnalında (1927 il, №10-11) çap olunmuşdur. Qadın azadlığı mövzusundadır. Bu mövzu M.-nin inqilabdan əvvəl və sonrakı yaradıcılığında geniş yer tutur. Məhz inqilabdan sonra qadınlara verilən azadlığa və hüquq bərabərliyinə sevinən M. bu hekayədə qadının inqilabdan əvvəlki faciəli həyatını təsvir etməklə yanaşı, fanatiklərə, şəriət ehkamlarına ağır satirik zərbələr vurur. Hekayədə M. dini fanatizmin insanı nə hala gətirib çıxardığını, əslində əxlaqsızlığı qanuniləşdirdiyini, qeyrət və namus hisslərini kütləşdirdiyini məharətlə qələmə almışdır. Arvadı Şərəbanı ilə insan kimi dolana bilməyən, üç dəfə talağını verdikdən sonra, onunla yenə barışmaq istəyən mövhumatçı Hacı Ramazan şəriətin bu yolda yaratdığı məneələrlə üzləşir, lakin bu sədləri aşmaq fikrinə düşmür və arvadının müvəqqəti olaraq başqa birisinə ərə getməsinə razı olur. Bu işdə o, şəriəti də aldatmaq istəyir, lakin din xadimləri nəinki Hacının düşündüyü qədər rəhmdil deyillər, eyni zamanda bu yolda onu müxtəlif maneələrlə üzləşdirirlər. Ən nəhayət, arvadını bir neçə aydan sonra geri ala bilən Hacı Ramazan surətini gülüş hədəfi edən M., eyni zamanda başına gətirilən bütün bu işgəncələrə dözən və dini ehkamlara görə heç bir hüququ olmayan qadınların halına acıyaraq dövrünün mövhumatçılarını satira atəşinə tutur.

"İKİNCİ İL" – ibtidai məktəblərin ikinci sinifləri üçün dərslik. Qafqaz müəllimlərinin Bakıda çağırılmış ikinci qurultayının (1907) qərarı ilə M.Mahmudbəyzadə, S.Əbdülrəhmanbəyzadə, S.Axundzadə, F.Ağazadə, A.Talıbzadə, A.Əfəndizadə tərəfindən yazılmış və Tiflisdə M. və Ömər Faiqin "Qeyrət" mətbəəsində çap olunmuşdur. Səsli üsul əsasında hazırlanmış dərsliyə 113 hekayə və şeir daxil idi. Kitabda Qafqaz müsəlmanlarının həyatını, məişətini əks etdirən 50 illüstrasiya verilmişdir. Dərslik haqqında "Molla Nəsrəddin" jurnalında xüsusi elan dərc edilmiş və təbliğ olunmuşdur. Dərslik haqqında Əli bəy Hüseynzadə "Yazımız, dilimiz, "İkinci il"imiz" adlı tənqidi məqalə ilə ("Tərəqqi" qəzeti, 1909, 9, 10 fevral, №31, 32) çıxış edərkən M. dərsliyi müdafiə etmiş və "Zəncir" felyetonunda tənqidçinin mülahizələrinə cavab vermişdir.

"İQBAL" – 1912 ilin martından 1915 ilin aprelinədək Bakıda nəşr olunan gündəlik ictimai-ədəbi və siyasi-iqtisadi qəzet. Müxtəlif illərdə Sənətulla Eynullayev – İbrahimov, Seyid Hüseyn, Məmməd Əli Əbdüləziz oğlu və Məhəmməd Əmin Rəsulzadənin naşirliyi və baş mühərrirliyi ilə çap olunmuşdur. "İ." Avropa imperializminin Yaxın və Orta Şərq ölkələrində törətdiyi təxribatlara, çarizmin ucqarlarda müstəmləkəçilik, ruslaşdırma siyasətinə, Azərb. dilinin müstəqilliyini inkar edib, İstanbul şivəsi əsasında ədəbi dil və ədəbiyyat yaratmaq istəyənlərə qarşı mübarizədə "Molla Nəsrəddin" jurnalının və M.-nin mövqeyində durmuş, azərbaycançılıq ideyalarını müdafiə etmişdir. F.Köçərlinin "Molla Nəsrəddin"də dərc olunmuş "Ana dili" məqaləsi "İ."-da geniş müzakirə edilmiş, türk xalqları, o cümlədən azərb.-lar üçün İstanbul şivəsi əsasında ümumi ədəbi dil yaratmaq ideyasının müəllifləri İ.Qasprinski, Türk ibn Yafəs və Ə.İbrahimovun mövqeləri tənqid olunmuşdur. "İ."-da "Molla Nəsrəddin" jurnalının 1912 ildə bağlanması, onu yenidən nəşr etmək üçün M.-nin Nəcəfov qardaşları ilə danışıq aparması (1912, 15 avqust, №87), "Molla Nəsrəddin"in "təzədən nəşr olunması" barədə şayiə olan "xəbərlərin doğru olmadığı", naşirin "məcmuəni qeyrilərinin ixtiyarına verilməsinə" razı olmaması, müdir və naşirin "uzun müddətə Tiflisdən səfər etməsi" (1912, 29 iyul) haqqında "Baku" və "Kaspi" qəzetlərindən götürülmüş xəbərlər, 1913 ildə "Molla Nəsrəd-

din" idarəsindən" başlığı altında "idarəni təftiş etdikdən sonra" 16-cı nömrənin "müsadirə edilməsi, "Genə dəxi məhkəmeyi-ədliyyədən alınıb" müştərilərə göndəriləcəyi, jurnalın tədricən çıxacağı haqqında "İdarəyə məktubu" (1913, 2 iyun, №314) dərc olunmuşdur.

Qəzetdə M.-nin hekayələrinin xəlqi mündəricəsi yüksək qiymətləndirilir (1913, 4 noyabr, №496), ədibin qadın azadlığı uğrunda mübarizəsi xüsusi təqdir olunurdu (1913, 13 noyabr, №504).

İLMİNSKİ Nikolay İvanoviç (1822-1891) – rus türkoloqu, pedaqoq, prof. Kazan Ruhani Akademiyasını bitirmiş, Müəllimlər seminariyasının direktoru olmuşdur. Şərqşünaslığa dair əsərlər yazmış, "Baburnamə" və s. türk yazılı abidələrini nəşr etdirmişdir. Çarizmin zorla ruslaşdırma və xristianlaşdırma siyasətinin tərəfdarı və qatı təbliğatçısı olduğuna görə tərəqqipərvər ziyalılar tərəfindən kəskin tənqid olunurdu. "Molla Nəsrəddin" jurnalı, xüsusilə M., onun şovinist fəaliyyətini satirik üslubda ifşa etmişdir.



L.İmanov

İMANOV Lütfiyar Müslüm oğlu (1928-2008) – müğənni (lirik-dramatik tenor). SSRİ xalq art. (1977). Moskvada Böyük Teatrda (1965) və Milanda "La Skala" teatrında (1975) təcrübə keçmişdir. 1959-1991 illərdə AOBT-nın solisti olmuş, sonralar İzmir Opera və Balet teatrında işləmişdir. 1963 ildə M.-nin "Ölülər" pyesi əsasında bəstəkar V.Adıgözəlovun yazdığı eyniadlı operada İsgəndər rolunu böyük müvəffəqiyyətlə ifa etmişdir.

"İNQİLAB VƏ MƏDƏNİYYƏT" – "Azərbaycan" jurnalının 1928-1936 və 1946-1952 illərdə adı.

İRAN İNQİLABI (1905-1911) – feodalizm və imperializm əleyhinə baş vermiş burjua inqilabı. Mürtəce feodal dəstələri və onlara kömək göstərən imperialistlər ilə yenicə yaranmış milli burjuaziya, ruhanilər, kəndlilər, sənətkarlar və fəhlələr arasındakı ziddiyyətlərin kəskinləşməsi nəticəsində baş vermişdi. 1905-1907 illər rus inqilabı İranın siyasi həyatına güclü təsir göstərmiş və İ.i.-nın başlanmasını sürətləndirmişdi. İ.i. 1905 ilin dekabrında Tehran, Təbriz, Kirman, Şiraz və Məşhəddə istibdada qarşı nümayişlərlə başlandı. Siyasi təşkilatlar, silahlı mücahid dəstələri və əncümənlər yarandı. İ.i.-nın təsiri ilə 1906 ilin dekabrında İran konstitusiyasının birinci hissəsi qəbul edildi. Lakin 1908 ildə Məhəmmədəli şahın əksinqilabi çevrilişindən sonra konstitusiya ləğv olundu. 1908-1909 illərdə İ.i. vətəndaş müharibəsinə çevrildi və inqilabın mərkəzi Cənubi Azərb.-a keçdi. İnqilabi hərəkata başçılıq edən Səttarxan və Bağırxanın rəhbərliyi ilə Cənubi Azərb.-da bir sıra demokratik tədbirlər həyata keçirildi.

Azərb.-ın mütərəqqi fikirli ziyalıları İ.i.-na rəğbət bəsləyir və onun qələbəsini arzulayırdılar. Hələ İ.i. ərəfəsində M. İran fəhlələrinin ağır vəziyyətindən bəhs edən "Binəsiblər" və "Xeyir-dua" məqalələrini rus dilində nəşr olunan "Кавказский рабочий листок" qəzetində çap etdirmişdi (1905 il, №3, 13). O, "Molla Nəsrəddin" jurnalının səhifələrində də Cənubi Azərb. əhalisinin ictimai dərdlərinə böyük yer vermişdi. 1908 ildə Səttarxan fədailərinin parlaq qələbəsi molla-nəsrəddinçilərin böyük sevincinə səbəb oldu. Jurnalın 40-cı sayında M. dərin sevincini "Yaşa, Səttarxan!" sözləri ilə ifadə etdi. İlk nömrələrindən başlayaraq "Molla Nəsrəddin"də İ.i.-na dair çox əhəmiyyətli məqalələr dərc edildiyinə

L.İmanov "Ölülər" tamaşasında Kefli İsgəndər rolunda bəstəkar V.Adıgözəlovla məşq zamanı.

görə jurnalın İrana keçirilməsi və orada oxunulması qadağan olunmuşdu. Lakin buna baxmayaraq "Molla Nəsrəddin" İ.i.-nın gedişində böyük rol oynamışdır. Jurnal inqilabın mahiyyətini düzgün başa düşür və inqilabçıların amansız mübarizəyə hazırlanmasını vacib sayırdı. Jurnalın İ.i.-ndan danışan bütün materiallarında əsas tənqid hədəfi çar Rusiyası və ingilis imperialistlərinin köməyinə arxalanan Məhəmmədəli şah idi.

1911 ilin dekabrında Tehranda əksinqilabi çevrilişdən sonra İ.i. məğlubiyyətə uğradı. "Molla Nəsrəddin" inqilabın məğlubolma səbəblərini göstərdi və qeyd etdi ki, İran xalqının apardığı bu mübarizə nəticəsiz, səmərəsiz qalmayacaqdır. "Molla Nəsrəddin" özünün ifşaedici satirasını İran mütləqiyyətinə, əksinqilabçı qüvvələrə, xüsusilə, imperialist quldurlarının azğın, xalqa zidd siyasətinin ifşa edilməsinə doğru yönəldirdi. Jurnal İran xalqlarının yalnız bu günü ilə deyil, gələcək müqəddəratı ilə də çox yaxından maraqlanırdı. Bu barədə jurnalın səhifələrində tez-tez satirik şeirlər, felyetonlar, sual-cavablar, elanlar və s., bəzən də çox təsirli karikaturalar verilirdi. Abbas Səhhətin "Sabirin də asarı... İran məşrutəsinə... Bir ordudan ziyadə xidmət etmişdir" fikri M.-ə və bütün mollanəsrəddinçilərə aiddir.

"İRANDA HÜRRİYYƏT" – M.-nin yazdığı hekayə. 1906 ildə yazılmış bu hekayə M.-nin nəsr əsərləri arasında özəl yer tutur. 1906 ilin dekabrında Tiflisdə, "Qeyrət" mətbəəsində eyniadlı kitabda dərc edilmişdir. Kitabda rəssam O.İ.Şmerlinqin üç illüstrasiyası vardır.

Əsərin qəhrəmanı İrandan Qafqaza çörək qazanmaq üçün gələn məzlum fəhlə Kərbəlayi Məmmədəlidir. Vətənində arvad-uşağı qalsa da, o, burada yenidən evlənir. Hekayədə eybəcər siğə adəti – arvadı ola-ola yenidən evlənmə hadisəsi ifşa edilsə də, müəllifin əsas məqsədi Azərb.-da və İranda xalqın öz azadlığına biganəliyini diqqət mərkəzinə çəkməkdir. Dünya xalqlarının azadlıq və demokratiya uğrunda mübarizəyə qalxdığı bir vaxtda Şərqdə hürriyyət yalnız pay, əşya kimi dərk edilirsə, bu, faciələrin nə qədər dərin olduğunu göstərir. Kərbəlayi Məmmədəli məhz bu təfəkkürlə İranda hürriyyət paylandığını eşidən kimi anasına məktub yazdırır ki, onun hürriyyət payını özünə, Qafqaza göndərsinlər.

Hekayə müəllifin öldürücü, lakin sakit, gizli gülüşünün böyüklüyünü, ciddiliyini və kəsərini əks etdirir. Qəhrəmanın faciəsi hekayədə bir neçə paralel xətt üzrə göstərilir: Məktub yazdırmaq səhnəsi, siğə, evlənmək ənənələri və nəhayət, ən normal insan hüquqlarının dərk edilməməsi. Bu hekayə ədibin "Poçt qutusu", "Kişmiş oyunu", "Qurbanəli bəy" adlı məşhur əsərləri ilə birgə dünya ədəbiyyatında novella janrının ən dəyərli və klassik nümunələrindən sayılmalıdır.

"İRANE-NOU" ("Yeni İran") – XX əsrin əvvəllərində Tehranda tipoqrafiyada M.Ə.Rəsulzadənin redaktorluğu ilə farsca nəşr olunan sosial-demokrat məsləkli qəzet. Məhəmməd Əli Tehrani adlı bir müəllifin "Təcəddüdi-aləmi-İslam" adlı məqaləsində müsəlman Şərqinin, xüsusilə, İranın dövlət qanunlarının Qərbi Avropa, Napoleon Bonapart qanunlarından üstün olması fikri "Molla Nəsrəddin"də kəskin tənqid edilmişdir. Ağıllı məsləhətləri ilə azadxahlara kömək eləmək əvəzinə cahil mülahizələr irəli sürən müəllif M. tərəfindən kəskin tənqid olunmuşdur: "Yaz! Yaz, qardaşım, yaz! Həmədanda, Zəncanda, Gilanda və İsfəhanda nə biləcəklər ki, Napoleon nədir, təməddün nədir? Bir gün [...] qəzetin gedib çıxar Napoleonun vətəninə, yainki Yaponiya cəzirəsinə, orada qəzetinin felyetonunu oxuyub [...] deyərlər: "Qadam ürəyinə, söz danışan!" (1909, 4.10, № 40).

İRƏVAN – tarixi Azərb. şəhəri, 1828 ilədək İrəvan xanlığının mərkəzi. 1849 ildən İrəvan qubernıyasının mərkəzi olmuşdur. Ardıcıl ermənileşdirmə siyasətinə baxmayaraq XX əsrin əvvəllərinə qədər əhalisinin mühüm bir qismini etnik azərb.-lar təşkil edirdi. M. 1897-1899 və 1901-1903 illərdə İrəvanda yaşamışdı. Əvvəlcə İrəvan qəza polis idarəsində tərcüməçi olmuş, sonra isə müstəqil vəkil kimi fəaliyyət göstərmişdi. O, azərb. əhalisinin mənafeyini qorumağa çalışır, şəhərin maarif və mədəni həyatında iştirak edirdi. İrəvanda yaşadığı müddətdə ədib yenidən yaradıcılığa qayıdaraq "Kaspi" və "Kavkaz" qəzetlərində ilk publisist məqalələrini dərc etdirmiş, 1894 ildə bitirdiyi "Danabaş kəndinin əhvalatları" silsiləsini çapa hazırlamışdı. O, "Poçt qutusu" və "Yan tütəyi" hekayələrini də İ.-da qələmə almışdır. M. azərb. əhalinin əlindən zorla

alınan Dəlmə bağları haqqında da məsələ qaldırmış, əxlaqsızlıq yuvalarının şəhərin müsəlman məhəlləsindən köçürülməsi üçün qubernatora müraciət hazırlamış və buna yerli əhalinin imzalarını toplamışdı. Ədib İ.-da sonuncu dəfə 1929 ildə, Zaqafqaziya yazıçılarının dəstəsi ilə birlikdə olmuşdu.

İRƏVAN AZƏRBAYCAN TEATRI, C.Cabbarlı ad. İrəvan Dövlət Azərbaycan Dram Teatrı – İrəvanda Azərb. teatrının tarixi 1882 ildə gimnaziya müəllimlərinin iştirakı ilə oynanılmış "Tamahkarlıq düşmən qazanır" pyesinin tamaşasından başlanır. 1886 ildə Qori seminariyasının məzunu F.Köçərli M.F.Axundovun "Müsyö Jordan və Dərviş Məstəli şah" komediyasının tamaşasını təşkil edir. İnqilabdan əvvəl burada həvəskarlar tərəfindən bir sıra əsərlər, o cümlədən M.-nin "Ölülər" pyesi tamaşaya qoyulmuşdur. 1918 ildə daşnakların təzyiqi altında teatrın üzvləri vətəni tərk etməyə məcbur oldular. 1922 ildə İrəvana qayıdan teatr 1928 ildə Dövlət Dram Teatrı statusunu aldı. Teatrda Yunis Nuri, Ə.Rzayev, Ə.Yusifzadə, Q.Həqqi, R.Şeyxzadə, Ə.Süleymanov, İ.Dağıstanlı, Yusif Ziya və b. sənətkarlar çıxış edirdilər. Teatrın baş rej. B.Qələndərli idi. XX əsrin 30-40-cı illərində "Ölülər" pyesi yenidən böyük müvəffəqiyyətlə səhnəyə qoyuldu. 1935 ildə teatra C.Cabbarlının adı verildi. 1948 ildə teatr Basarkeçərə köçürülərək 1967 ilədək xalq teatrı kimi fəaliyyət göstərdi. 1967 ildə hökumətin qərarı ilə İ.A.t. yenidən bərpa edildi. 1988 ildə Ermənistan ərazisindəki bütün azərb.-lar öz ata-baba torpaqlarından vəhşicəsinə qovularkən, teatr da Bakıya köçürüldü və 1989 ildən teatr-studiya şəklində öz fəaliyyətini davam etdirir.

"İRŞAD" – siyasi, ədəbi, elmi, iqtisadi, ictimai qəzet. 1906 il dekabrın 17-dən 1908 il iyunun 25-dək Bakıda Azərb. dilində nəşr olunmuşdur. Müdiri və sahibi imtiyazı Əhməd bəy Ağayev (Ağaoğlu), naşiri isə İsa bəy Aşurbəyli idi. Azərb. mətbuatı tarixində şərəfli yer tutan "Molla Nəsrəddin" jurnalının ilk sayları dünyaya gəldiyi zaman "İ." böyük fərəhlə yazmışdı: "Baxın "Molla Nəsrəddin"ə. Bu cəridə nə gözəl cəridədir. Nə qədər ağıl, zəka, məharət və zövq göstərir. Nəinki biz müsəlmanlar, bəlkə, ən mədəni, ən mütərəqqi tayfalar, belə, cəridələri ilə fəxr edə bilərlər." "Molla Nəsrəddin" jurnalı 1907 il iyunun 8-də Tiflis general-qubernatorunun əmrilə bağlandığı zaman "İ." Ömər Faiqin "Molla Nəsrəddin" bağlandı" məqaləsini dərc etmişdi. 1908 ilin fevralında Ömər Faiqin həbsi və M.-nin öldürüləcəyi barədə şayiələr yayılması ilə əlaqədar "İ." irticaçı qüvvələrə kəskin cavab vermişdi: "Siz iki nəfər məmmədquluzadələrin, nemanzadələrin ölümü ilə elə bilirsiniz ki, "Molla Nəsrəddin"i öldürəcəksiniz?.. Bunu biliniz ki, "Molla Nəsrəddin"i öldürmək olsa da, mollanəsrəddinçiliyi öldürmək olmaz".

"Molla Nəsrəddin" "İ."-ın ardıcıl davamını arzulayırdı. Jurnal "İ."-ın məsləkini, izlədiyi məqsədi, millətinin tərəqqisi yolunda səylərini, ümumiyyətlə, onun fəaliyyətini yüksək qiymətləndirirdi. 1907 ildə "İ." maliyyə çətinliyi nəticəsində nəşrini müvəqqəti saxladığı zaman tərəqqipərvər ziyalıların xalqa müraciətlə yazdıqları "Müsəlman ürəfa və danişməndlərinə xitabnamə"ni "Molla Nəsrəddin" dərc etmişdi. Jurnalda "İ."-ın bağlanması ilə əlaqədar bir neçə karikatura da verilmişdir.

İSFAHANLI (Hüseynzadə) İbrahim Hüseyn oğlu (1897-1967) – aktyor, rejissor, teatr xadimi. Gürc. xalq art. (1938). Səhnə fəaliyyətinə 1912 ildə Tiflisdə Azərb. teatr truppasında başlamışdır. 1922-1947 illərdə Tiflis Azərb. Teatrında aktyor, rej., bədii rəhbər kimi fəaliyyət göstərmişdir. İ.-nın yaradıcılığı üçün yüksək temperament və ehtiraslılıq səciyyəvi idi. 1927 ildə M.-nin "Ölülər" tamaşasının quruluşunu vermiş və böyük müvəffəqiyyətlə İsgəndər obrazını yaratmışdır. Sonralar Şeyx Nəsrullah rolunda da çıxış edirdi. Tiflis Azərb. teatrı bağlanıldıqdan sonra (1947) Gürcüstan və Azərb. rayonlarındakı bir sıra teatrlara rəhbərlik etmişdir.

İSGƏNDƏR – M.-nin "Ölülər" pyesində müsbət baş qəhrəman. Xarakterinin əsas cəhətlərini Kefli İ. öz monoloq və dialoqları ilə ətraflı işıqlandırıb açır.

Fırıldaqçılarla, hiyləgərlərlə, yazı-pozudan uzaq cahil adamlarla əhatə olunmaq İ.-in özünü, sevimli bacısı Nazlını, ailəsini, qardaşını, qohum-əqrəbasını olmazın dərd-bəlaya giriftar etmişdir. İ. zülmət içində parlayan nur çələngi timsalındadır. Başına gələnlər onu təhsilini başa vurub, ağıllı, bacarıqlı bir ziyalı kimi xalqa gün

ağlamağa, zalımları, cahilləri layiq olduqları cəzaya çatdırmağa qoymur. Qeyrətli cavan ürəyini parçalayan dərdlərdən acı, odlu fəryadlar qoparır.

İ. doğma xalqının dərdlərini görüb üsyankarlıq dərəcəsinə çatdığı kimi, camaata "hap-gopla" dərs vermək yolu tutan Şeyx Nəsrullah və Şeyx Əhmədlərin cinayətkarlığını da açıqdan-açığa deməyə uzun zaman cəsarət etmirdi. "Ölülər dünyasının" qəhrəmanı Şeyx Nəsrullahın dini təlimi fırıldaq vasitəsinə, "quldurçuluq tüfənginə" çevirdiyi İ. tərəfindən faş ediləndə, rəzalət bütün həddi-hüdudu aşıb onun ailəsini də bədbəxtliyə sürüyəndə, nəhayət, cəmiyyətin büsbütün dözülməzliyini söyləmək, xalqı ayıltmaq zamanı çatır. İ. belə də edir.

"Canlı" ölülərin yeganə xilaskarı İ.-in ən kəskin, ən dolğun ifşaçı monoloqu xalqın ayılmağa başlamasına, Şeyx Nəsrullahları məhv etmək barədə düşünməsinə səbəb olur. İ.-in bu monoloqu – ağlın üsyanıdır, cəmiyyətin sabahından xəbər verməkdir. O deyir: "Ey mənim gözəl bacım Nazlı!.. Bax, həyətdə gün çıxıb: sən ki, o günü görməyəcəksən, nəyə lazımdır onun işığı! Çöldə otlar göyərib, ağaclar çiçək açıb; amma nəyə lazımdır sənsiz o çiçəklər, o çəmənlər?!" İ. ürəkdən sevdiyi, halına yandığı balaca qardaşı Cəlalı da eyni həssaslıqla dindirir: "Cəlal, Cəlal, indi sən məndən qaçırsan; deyirsən ki, mən kefliyəm; amma and olsun qara ağac pirinə ki, sən də mənim kimi dərs oxuyub qurtarandan sonra, başlayacaqsan İsgəndər dadaşın kimi küplərin dibində yatmağa".

Prof. Mir Cəlal yazır ki, "bunlar keçmişi və gələcəyi görüb düşünən, xalqın, gəncliyin – yeni nəslin taleyi və dərdləri ilə yaşayan, iztirablar çəkən [...] bir adamın sözləridir [...]. Doğrudur, İ. gələcəyi, inkişafı dürüst görə bilmir. Bilmir ki, Cəlal "dərs oxuyub qurtaranda" vəziyyət dəyişiləcək, "dadaşı" kimi aciz olmayacaqdır. [...] İ.-i... dərdlər "sərxoş" etmişdir. O, hər bir həssas adamda dərdlərini unutmaq ehtiyacı olduğunu gözəl anlayır". ("Azərbaycan ədəbiyyatı tarixi", üç cilddə, II cild, Bakı, 1960, s. 568).

İ. kəskin və cəsarətli tənqid qabiliyyətinə malik olan mütərəqqi bir şəxs idi. Onun görüşlərindəki, hərəkətlərindəki məhdudluq ictimai mühit ilə, aldığı tərbiyə ilə şərtlənmişdir.

İSMAYILOV Kərim bəy (?-?) – M.-nin maarifçi müasiri. 1890 ildə Qori müəllimlər seminariyasını bitirmişdir. Böyük Vedi məktəbində müəllim və nəzarətçi işləmiş, Qafqaz Təhsil Dairəsinin 15 sentyabr 1892 il tarixli sərəncamı ilə Nehrəm məktəbinə dəyişdirilmişdir. M.-nin müdir olduğu bu məktəbdə o, 1894 il avqustun 20-dək işləmişdir. İ. bu müddətdə "Nehrəm kəndi" adlı məqalə yazıb, "Qafqaz ölkəsi və tayfalarının təsviri üçün materiallar məcmuəsi"ndə (SMOMPK, Tiflis, 1900, s. 192-201) çap etdirmişdir. Məqalədə M.-nin Tiflisdəki "Ekker" firmasından Nehrəmə dəmir kotan gətirtməsi mütərəqqi hadisə kimi dəyərləndirilmişdir. İ. 1893 il noyabrın 22-də Naxçıvan şəhərində keçirilən İrəvan quberniyası xalq məktəbləri müəllimlərinin sahə qurultayında M. ilə birlikdə iştirak və çıxış etmişdir. "Hesab məcmuəsi" dərsliyinin müəllifidir. Onun "Molla Nəsrəddin" jurnalında iştirak etməsi də ehtimal olunur.

İSMAYILOV Hacı Məcid oğlu (d. 1944) – aktyor. Azərb. Dövlət mükafatı laureatı (1979). Azərb. xalq art. (2000). Azərb. Dövlət İncəsənət İn-tunu (indiki Azərb. Mədəniyyət və İncəsənət Un-ti) bitirmişdir. 1969 ildən H. Ərəblinski ad. Sumqayıt Dövlət Dram Teatrında işləmişdir. 1970 ildən ADT-nın aktyorudur. M.-nin "Ölülər" komediyasının tamaşasında



H.İsmayılov



H.İsmayılov Hacı Kazım rolunda.

Hacı Kazım, "Dəli yığıncağı"nda Hacı Cəfər rollarını məharətlə yaratmışdır. Kinofilmlərə çəkilmişdir.

İSRAFİLBƏYLİ (İsrafilov) Hüseyn Əsgər oğlu (d. 1928) – ədəbiyyatşünas. Filol. e.d. (1988). H.Zərdabi ad. Pedaqoji İn-tun dil-ədəbiyyat fakültəsini bitirmişdir. "C.Məmmədquluzadənin "Ölülər" pyesi" mövzusunda namizədlik dissertasiyasında əsərin ideya-bədii mənbələri, onun yaranmasında ictimai şəraitin rolu, mövzu, konflikt və janr xüsusiyyətləri, əsas obrazları, səhnə tarixi və b. məsələlər araşdırılmışdır. İlk dəfə olaraq əsəri tragikomediya kimi təhlilə çəkmişdir. Dissertasiya 1967 ildə monoqrafiya halında çap olunmuşdur. İ.-un "Azərb. dramaturgiyasının inkişafı problemləri" adlı doktorluq dissertasiyasında (1988) N.Vəzirov, Ə.Haqverdiyev, N.Nərimanov, H.Cavid və b. dramaturqların əsərləri ilə yanaşı, M.-nin "Kamança", "Dəli yığıncağı", "Danabaş kəndinin məktəbi", "Anamın kitabı" kimi pyesləri də tədqiq edilir.

"İSTİQLAL" – 1932-1934 illərdə Azərb. mühacirlərinin Almaniyanın Münhen şəhərində Azərb. dilində nəşr etdirdiyi ictimai-siyasi qəzet. Red. M.Ə.Rəsulzadə idi. SSRİ-də və ümumən dünyada baş verən ictimai-siyasi məsələlərin işıqlandırılması ilə yanaşı, Azərb. maarifi, ədəbiyyatı və incəsənəti haqqında sanballı məqalələr də verilirdi. Qəzetin 1932 il 20 fevral tarixli dördüncü sayında "Molla Nəsrəddin" müəssisi vəfat etdi" başlıqlı yazı verilmişdi. Burada M.-nin və "Molla Nəsrəddin"in Azərb.-ın ictimai fikir tarixindəki roluna yüksək qiymət verilmiş, jurnalın təkcə Azərb.-da deyil, bütün müsəlman aləmində sevilərək oxunduğu qeyd olunmuşdu. Məqalədə Sovet hakimiyyəti illərində "Molla Nəsrəddin" jurnalı üzərində ciddi senzura nəzarəti qoyulduğu, nisbətən sönük çıxdığı, hətta bolşevik hakimiyyəti tərəfindən adının dəyişdirilib "Allahsız" qoyulduğu, Mirzə Cəlilin isə onun red.-luğundan uzaqlaşdırıldığı qeyd olunur və bütün bunlara baxmayaraq "Molla Nəsrəddin" jurnalı komplektlərinin "zamanın siyasi, ictimai, iqtisadi və mədəni həyatını tədqiq üçün zəngin bir mənbə" olduğu göstərilirdi.

"İŞIQ" – Azərbaycanda ilk qadın jurnalı. 1911-1912 illərdə Bakıda nəşr olunmuşdur. Cəmisi 68 nömrəsi çıxmışdır. Red. Xədicə xanım Əlibəyova, naşiri Mustafa bəy Əlibəyov idi. Jurnalda elmi-pedaqoji, ədəbi-bədii yazılar, evdarlığa və təbabətə dair məqalələr üstünlük təşkil edirdi. Qadınların azadlığa çıxarılmasını, onların maarifə, mədəniyyətə, tərəqqiyə qovuşdurulmasını özünün əsas vəzifəsi elan etsə də, bütün bu məsələlərə münasibətdə qeyri-ardıcıl, ziddiyyətli mövqe tuturdu. Qadın azadlığı, ictimai-siyasi hadisələrə baxış, dil problemləri, islam birliyi ideyası və s. məsələlərlə bağlı "İ." jurnalı ilə "Molla Nəsrəddin" arasında kəskin ixtilaf və barışmazlıq mövcud olmuşdur. Bütün bu məsələlər M.-nin "İ." və "Mustafa bəy Əlibəyov" felyetonlarında öz əksini tapmışdır. Eyni zamanda "Molla Nəsrəddin"in 1911 ildə çıxmış 18-ci nömrəsində Xədicə xanım Əlibəyovanın karikaturası verilmiş, habelə "Məhkəmə pişiyi" (Cabbar Əskərzadə) və "Kefsiz"in (Əli Nəzmi) "İ." əleyhinə satirik şeirləri çap olunmuşdur. Bu şeirlərdə "İ." qadın azadlığının əleyhdarı, cəhalət tərəfdarı kimi səciyyələndirilir, onun red.-unun və naşirinin güclülər qarşısında itaətkarlığı və məddahlığı ifşa olunurdu. "İ."ın səhifələrində isə Mustafa bəy Əlibəyov, Əli Fəhmi Cəfərzadə və b. öz məqalələrində "Molla Nəsrəddin" jurnalını mövqeyini dəyişməkdə, qərəzkarlıq etməkdə, iftira və böhtanlar yağdırmaqda təqsirləndirirdilər. Xədicə xanım Əlibəyova "Molla Nəsrəddin"ə cavab" məqaləsində (28 may, 1911 il) açıq təhqirə keçərək yazırdı: "Cənab Molla! Müsəlmanın "Qurani-məcid"inin hökmünə və milli işlərinin ziddinə qarışıb əl atmağı nə sizə, nə də sizin kimi bitərbiyə və bivicdanlara heç məsləhət görmürük". Həmin dövrün ictimai və əxlaqi-mənəvi cəhətdən fərqli mövqelərdə dayanan mətbuat orqanlarına xas olan bu qarşıdurma 1911 ilin ortalarında səngisə də, "Molla Nəsrəddin" ilə "İ." arasındakı ideya barışmazlığı sonuncunun öz nəşrini dayandırmasına qədər davam etmişdir.



JUKOVA Mariya Afanasyevna (1893-1966) – Məmmədquluzadələr ailəsində böyümüş, təhsil və tərbiyə almış qadın. Tiflis, Kəhrizli və Bakıda Münəvvər xanımın yaxın rəfiqəsi, gimnaziya yoldaşı olmuşdur. J. 1917 ildə imtahan verib kənd müəllimi adı almış, Həmidə xanım və M.-nin açdıqları Kəhrizli məktəbində dərs demişdir. Həmin il Məmmədquluzadələr ailəsi onu cehizlə ərə vermişdir. Müəllimlikdən əvvəl tibb bacısı, mühasib vəzifələrində də işləmiş, ömrünün son illərini Sumqayıtda yaşamışdır. "Bakı" qəzetində çap olunmuş "Ədibin evində keçirdiyim günlər" başlıqlı xatirələrində Həmidə xanım və Mirzə Cəlilin onu doğma qızları ilə oxutdurub böyütdüklərini minnətdarlıqla təsvir edir. J. ədibin "uşaqlarla münasibətində çox ciddi, tələbkar, intizam və qanun-qayda xoşlayan" olduğunu yazır. O, "Molla Nəsrəddin" jurnalı yolunda hər işi həvəslə gördüyünü qeyd edərək səmimiyyətlə bildirirdi: "Mirzə bizdə jurnala hədsiz məhəbbət oyatmışdı".

JURNALİSTİKA – kütləvi informasiya vasitələrində ədəbi-publisistik fəaliyyət, bütövlükdə kütləvi informasiya vasitələri sistemi. J. cəmiyyətin optimal fəaliyyəti və inkişafı üçün zəruri olan aktual, operativ, ümumi əhəmiyyətli, sosial yönümlü informasiyanı kütləvi auditoriyaya çatdırır, J. mətbuat azadlığı və cəmiyyət qarşısında hüquqi, mənəvi məsuliyyət, habelə peşə məsuliyyəti əsasında, oxucu, tamaşaçı, dinləyici auditoriyasının tələbatına və maraqlarına müvafiq olaraq fəaliyyət göstərilməsini nəzərdə tutur.

Azərb.-da J. sisteminin əsası "Əkinçi" (1875-1877) qəzeti ilə qoyulmuş, Ünsizadə qardaşları Hacı Səid, Cəlal Kamal tərəfindən inkişaf etdirilmişdir. XX əsrin əvvəllərində qəzetlərin və qismən də jurnalların kütləvi informasiya vasitələrinə çevrilməsi prosesi sürətlənmişdir. Azərb.-da J.-nın təşəkkülü və inkişafında H.Zərdabinin, C.Ünsizadənin, M.Şahtaxtinskinin, Ə.Hüseynzadənin, Ə.Ağayevin, M.-nin, habelə Ö.F.Nemanzadə, Ü.Hacıbəyov, H.Vəzirov, M.Ə.Rəsulzadə, O.Orucov, Q.R.Mirzəzadə, Seyid Hüseyn, Ə.İ.Cəfərzadə, M.Mahmudbəyov, Ə.Müznib və b.-nın müstəsna xidmətləri olmuşdur.

"Molla Nəsrəddin"in nəşri ilə onun adını daşıyan ədəbi-satirik-publisistik məktəbin əsası qoyulmuşdur. M.Ə.Sabir, Ə.Haqverdiyev, F.Köçərli, Ə.Nəzmi, M.S.Ordubadi, Ə.Qəmküsar, M.Axundov, Əli Razi, Ə.Əzimzadə və başqa sənətkarlar jurnalın fəal müəllifləri idilər. Azərb.-nın ictimai-mədəni həyatında geriliyin, dini mövhumatın, qadın hüquqsuzluğunun, çar mütləqiyyətinin, qonşu İran və Türkiyədə istibdad rejimlərinin, beynəlxalq imperializmin Şərqdə təcavüzkar siyasətinin satirik vasitələrlə tənqidi və ifşası "Molla Nəsrəddin"in tematikasını təşkil etmişdir. "Molla Nəsrəddin" və onun əməkdaşları üç əzəli mövzuya – vətən, millət, dil mövzularına – bütün fəaliyyətləri boyu əsas diqqət yetirmişlər. M. "Hər bir qələmin müqəddəs vəzifəsi"ni "birinci növbədə millətin xoşbəxtliyi yolunda xidmət etməkdə" görürdü.

1906 ildən başlayaraq "Molla Nəsrəddin" öz oxucularına milli J.-nın əhəmiyyəti, onun çətinlikləri, mürəkkəb mövzular aləmi, hədsiz xərci və s. məsələlər barədə ətraflı məlumat verir, "haqq sözə Molla Nəsrəddinin canı qurban" deyir, ümumiyyətlə, haqpərəst mətbuata dayaq, köməkçi olmağa çağırırdı. M. vaxtaşırı dövri nəşrlərə münasibət bildirir, fəaliyyətlərinin müsbət cəhətlərini təqdir et-

məklə yanaşı, ideya sapıntılarını da tənqid edir, onlara vətənin və xalqın mənafeyi mövqeyindən düzgün istiqamət verirdi ("Cavab. Əhməd bəy Ağayev cənablarına", "Rəhbər", "İrşad", "Tərcüman"ın fitvası", "Dəbistan" və s.).

M. hər bir jurnalist və naşir üçün məslələk bütövlüyünü, əqidə saflığını, məqsəd aydınlığını başlıca şərt hesab edirdi. M. yazırdı: "Biz belə qanırıq ki, xəyal, fikir və əqidə düzəlməsə, fel heç vaxt düzəlməz, o səbəbə ki, ikinci birincilərə tabedir. Ondan ötrü ki, "vabəstədir xəyalına əfalı hər kəsin" ("Molla Nəsrəddin", 1907, № 36).

M.-nin jurnalistikaya dair proqram səciyyəli "Məslək", "Məsləkimiz", "Cavabımız" felyetonlarında ifadə olunmuş fikirləri sovet dövründə də öz qüvvəsində qalmışdır; üstəlik ədibin özü və qələm dostları iyirminci illərin tələblərinə müvafiq müddəalar, mülahizələr də irəli sürürdü. Bu baxımdan M.-nin "Mətbuat bayramı, yaxud tacgüzarlıq" (1927), "Şura mətbuatı" (1929) kimi əsərləri çox səciyyəvidir.

"Molla Nəsrəddin"in həcminin yarısını təşkil edən, mətnlərdə irəli sürülmüş fikirlərin davamı, inkişafı və özünəməxsus şərhi olan illüstrasiyalar (karikaturalar) Azərb. J.-sının tarixində yeni dövr açmış və onu xeyli zənginləşdirmişdir. M. və jurnalın fəal əməkdaşları J.-ya forma rəngarəngliyi və janr əlvanlığı gətirmiş, satirik dialoq, satirik lüğət və digər yeni formalardan istifadə etmiş, felyeton, məqalə, baş məqalə, pamflet, məktub, açıq məktub, xülasə, resenziya, xəbər və digər janrlarda əsl publisistika nümunələri yaratmışlar. "Molla Nəsrəddin" jurnalı Azərb.-da, Rusiyanın türk xalqları arasında, İran və Türkiyədə təkcə satirik J.-nın deyil, bütövlükdə jurnalist və publisist sənətinin inkişafına və təkmilləşməsinə güclü təkan vermişdir.

Qızım, dəxi bəsdir, maşallah, yekəlibsən, ərə getməlisən, oxumağın vaxtı keçdi.

KALYAGİNA Tamara Georgiyevna (1922-2002) – müasir rus yazıçısı, tərcüməçi. Azərb. ədəbiyyatı nümunələrini ruscaya çevirmək üçün Azərb. dilini öyrənmiş, M.-ni uğurla tərcümə etmişdir: "Danabaş kəndinin əhvalatları" silsiləsini, 28 hekayəsini ("Poçt qutusu", "Kişmiş oyunu", "Usta Zeynal", "İranda hürriyyət", "Rus qızı" və s.), üç pyesini ("Danabaş kəndinin məktəbi", "Dəli yığıncağı", "Ölülər").

K.-nın tərcümələri 1989-cu ildə Moskvada "Художественнайа литература" nəşriyyatında "Сборище сумошедших" adı altında kitab halında nəşr olunmuşdur. Kitaba Yazıçı Ə.Əylisli söz ardı yazmışdır. K. İ.Həbibbəyliyə 20 iyun 1991 il tarixli məktubunda belə bir dahinin irsinin ruscaya kifayət qədər tərcümə olunub nəşr edilməməsinə təəssüfünü bildirərək yazır: "Mənə çox xoşdur ki, Siz mənim Məmmədquluzadəni tərcümə etmək sahəsində işimi yüksək qiymətləndirmisiniz. Mən öz tərcüməmi heç də etalon saymır, elə bilirəm ki, vaxt gələcək daha kamil tərcümələr meydana çıxacaqdır. [...] Əsas məsələ budur ki, mən onun əsərinin məğzini verə bilmişəm".

"KAMANÇA" – M.-nin bir pərdəlik pyesi. 1920 ildə Şuşada yazılmışdır. Janrına görə faciə olan bu əsərin mövzusu 1918-1920 illərdə Qarabağda baş vermiş erməni-müsəlman qırğınından götürülmüşdür. Əsərin mərkəzi surəti Qəhrəman yüzbaşıdır. Ədib onun simasında cəsur, qorxmaz, mərd bir azərb. surəti yaratmışdır. Dostları ermənilər tərəfindən öldürüldüyündən Qəhrəman yüzbaşı çox qayğılı və qəmgindir. Qəhrəman yüzbaşının qəlbində bir-birinə qarşı duran iki hiss, iki duyğu, iki niyyət çarpışır. Öldürülmüş dostlarının intiqamını almaq, düşmənin tökdüyü nahaq qanların əvəzini çıxmaq istəyir. Eyni zamanda o, yüksək humanist hisslərlə yaşayan, milli ədavətə təəssüflənən, gördüyü qırğınlardan bezikən saf ürəkli bir insandır.

Pyesdəki erməni Baxşı sadə sənət adamı – kamançaçıdır. Toydan qayıdarkən azərb.-lar tərəfindən tutulduğunu görüb, qorxusundan titrəyir, yazıq-yazıq ağlayır. Ömrünün sona çatdığını düşünən Baxşı Qəhrəman yüzbaşının göstərişi ilə kamançada "Rast" və "Segah-zabul" havalarını çalır. Təsirli musiqi Qəhrəman yüzbaşının qəzəbini soyudur, insani duyğularını coşdurur: "...yüzbaşı birdən durur ayağa, qəməsini qınından çıxardır və acıqlı, ucadan Baxşıya deyir: – Adə, erməni, tez kəmənçəni yığışdır, itil get buradan!.. Çıx get!".

Əsərin bu şəkildə qurtarması onun humanist mahiyyətini daha da qüvvətləndirir. M.Ə.Rəsulzadə "Anamın kitabı" və "K." pyeslərini "milli ruhun keşiyində duran əsərlər səviyyəsində" hesab edirdi.

KARİKATURA (italyanca yükləmək, şişirtmək) – ictimai-siyasi və məişət mövzularında satirik, yaxud yumoristik rəsm. K.-da hər hansı bir hadisəni, yaxud şəxsi tənqid və ifşa etmək, onu lağa qoymaq məqsədilə obyektiv mənfi xüsusiyyətlər, eləcə də xarakterik cəhətlər, sifətlər şarj və qrotesk vasitələrilə daha qabarıq, canlı nəzərə çatdırılır. K. təsviri sənətdə satiranın ən geniş yayılmış formalarındandır. Qrafika vasitələri ilə işlənilən K.-da çox vaxt müşayiətedici mətn böyük əhəmiyyət kəsb edir.

Azərb.-da K.-nın ilk əlamətlərinə orta əsr rəssamlarının (Kamal Təbrizi və b.) yaradıcılığında təsadüf edilir. Müstəqil janr kimi XX əsrin əvvəllərində rus satirik qrafikası və "Molla Nəsrəddin" jurnalının ideya-bədii təsiri nəticəsində yaranmışdır. Mollanəsrəddinçi rəssamlar Ə.Əzimzadə,



"Kamança" pyesindən səhnə.

O.Şmerlinq, İ.Rotter, B.Telinqater (Beno), X.Musayev və b.-nın bu sahədə mühüm xidməti olmuşdur. Azərb. rəssamlarından Q.Xalıqov, İ.Axundov, K.Kazımzadə, Nəcəfqulu və b. milli karikaturanın tanınmış yaradıcılarıdır. 1952 ildə "Kirpi" jurnalının nəşri ilə K.-nın mövzu dairəsi daha da genişlənmişdir.

"KASPİ" – ictimai-siyasi, sosial-iqtisadi və ədəbi qəzet. 1881 ilin yanvarından 1919 ilin martınadək Bakıda rus dilində nəşr olunmuşdur. V.V.Kuzminin red.-luğu ilə fəaliyyətə başlayan qəzetin ilk 28 nömrəsi həftədə 2 dəfə, 1881 ilin iyulundan həftədə 3 dəfə, 1884 ilin yanvarından isə gündəlik çıxmışdır. Sonralar qəzetə müxtəlif illərdə Y.Startsev, N.Svinkin, N.Sokolinski, K.Karyagin, M.Şahtaxtinski, Ə.M.Topçubaşov, H.Zərdabi, Ə.Hüseynzadə və b. red.-luq etmişlər. 19 əsrin 90-cı illərdə Azərb.-nın demokratik düşüncəli bir çox qabaqcıl yazıçı-publisistləri – Ə.Ağayev, Ə.Topçubaşov, M.Mahmudbəyov, N.Nərimanov, S.M. Qənizadə, M.Şahtaxtinski, T.Bayraməlibəyov, F.Köçərli, H.Zərdabi, C.Həcıbəyli, M.Hacinski və b. qəzetin səhifələrində mütərəqqi ideyalarla çıxış etmiş, maarifi, qadın azadlığını və s. təbliğ etmişlər. 1902 ildə "K."-nin 58-ci sayında M.-nin İrəvan azərb.-nın hüquqlarının müdafiəsinə həsr olunmuş məqaləsi dərc olunmuşdu. 1916 ildə M.-nin "Ölülər" pyesinin ilk tamaşasını müsbət bir hal kimi qarşılayan "K." yazırdı: "Ölülər" – xalqımızın həyatının, onun avamlığını istismar edən əmmaməlilər sayəsində toxunulmaz qalmış qaranlıq tərəflərini işıqlandıran ilk cəsarətli cəhddir. Tamaşaçılar bizim ağrılı yerlərimizi bu cür amansızlıqla açıb göstərmiş müəllifin ideyasını başa düşə bildilər. [...] Yeni pyes çox yaxşı sübut etdi ki, "Opera dramı məhv etdi" deyən bəzi müsəlmanlarımız nə qədər haqsızdırlar. "Ölülər" pyesi göstərdi ki, müsəlman səhnəsində operanın yaranması ilə tamaşaçıların dram əsərlərinə həvəsi heç də itməmişdir" ("K.", 1916, №282).

"Molla Nəsrəddin"in səhifələrindən.

Millət necə tarac olur-olsun, nə işim var?!
Düşmənlərə möhtac olur-olsun, nə işim var?!

Laylay, bala, laylay,
Yat, qal dala, laylay!

Nədir olur bu cocuqlar, əyan, bu boyda-bu boyda?
Hara gedir bu yazıqlar, aman, bu boyda-bu boyda?

Ev madam, mənzil madam, balkon madam, bulvar madam!
Müxtəsər əqlim çaşıb, ey dad-bidad, Ərdəbil!

Rədd ol qapıdan, ağlama zar-zar, dilənçi!
Vaqqıldama bayquş kimi, ibdar, dilənçi!

Oğul mənimdir əgər, oxutmuram, əl çəkin!
Eyləməyin dəngəsər, oxutmuram, əl çəkin!

Ə.Əzimzadənin "Molla Nəsrəddin" satirik şeir məktəbinin görkəmli nümayəndəsi **M.Ə.Sabirin** əsərlərinə çəkdiyi karikaturalardan.

"KAVKAZSKİ RABOÇİ LİSTOK" – Qafqazda rusca çıxan ilk gündəlik sosial-demokrat qəzeti. 1905 il noyabrın 20-dən (dekabrın 3-dən) həmin il dekabrın 14 (27)-dək Tiflisdə nəşr olunmuşdur. Tirajı 15-17 min idi. Axırıncı iki nömrəsi (16 və 17) Gəncədə "Yelizavetpolski vestnik" adı ilə çıxmışdır. M. də redaksiya ilə əməkdaşlıq edib. "K.r.l."-un 24 noyabr (7 dekabr) tarixli 3-cü sayında "Məmmədquluzadə" imzası ilə "Обездоленные", 9 (22) dekabr tarixli 13-cü sayında isə "Напутствийе" sərlövhəli məqalələri dərc olunub. Bakıda çıxan gündəlik "Həyat" qəzetinin 1905 il 29 noyabr tarixli 109-cu sayında M.-nin "K.r.l." qəzetində dərc olunmuş birinci məqaləsi "Binəsiblər" kimi tərcümə edilərək dərc olunmuşdur. Mütərcimi M.Ə.Rəsulzadə idi. Məqaləyə belə bir qısa giriş verilmişdir: "İctimaiyyun-ammiyyun" firqəsinə mənsub "Qafqaz fəhlə vərəqəsi" ünvanlı qəzetədə Məhəmmədquluzadə cənablarının fövqdə adlanmış mütəəssir məqaləsini oxuduq. Bu binəsiblər nəhayətdə çoxdur". Məqalənin sonunda rusca mətnində olduğu kimi "axırı var" sözləri yazılmışdır.

T.Kazımov

M.-nin tədqiqatçılarından Əziz Şərif 1944 il dekabrın 13-də "Kommunist" qəzetində "Cəlil Məmmədquluzadənin bolşevik mətbuatında iştirakı" sərlövhəli məqaləsində adı çəkilən məqalələrə ilk dəfə rast gəlindiyini yazır. O, birinci məqaləni "Məzlumlar", ikincisini "Gedin, yaxşı yol" kimi tərcümə etmişdir. Belə görünür ki, "Həyat"dakı tərcümədən xəbəri yox imiş. Ə.Mirəhmədov isə "Azərbaycan Molla Nəsrəddini" əsərində adı çəkilən məqalələrdən birincinin "Həyat"da "Binəsiblər" kimi tərcümə edilərək dərc edildiyini yazmış, lakin məlum səbəblər üzündən mütərcimini göstərməmişdir. İkinci məqalə "Xeyir-dua" kimi tərcümə edilmişdir.

Kazım Ziya

KAZIM Ziya (Kazım Cəfər oğlu Kazımzadənin təxəllüsü) (1896-1956) – aktyor, pedaqoq. Azərb. xalq art. (1943). SSRİ Dövlət mükafatı laureatı (1948). 1916 ildən Bakıda professional aktyor kimi fəaliyyətə başlamışdır. ADT (1922-1923), Bakı Türk İşçi Teatrı (1927-1932), İrəvan və Tiflis Azərb. teatrlarında (1936-1938) işləmişdir. Bu dövrdə yaratdığı obrazlar içərisində Şeyx Nəsrullah ("Ölülər") və Səməd Vahid ("Anamın kitabı") və b. rollar ona şöhrət qazandırmışdır. 1938 ildən K.Z.-nın səhnə yaradıcılığı ADT ilə bağlıdır. Bədii qiraət ustası kimi də tanınmışdır. Bakı Teatr Texnikumunda və Azərb. Teatr İn-tunda dərs demişdir. Kinoda çəkilmişdir.

KAZIMOV Rüstəm Qənbər oğlu (1879-1943) – aktyor. Azərb. əməkdar art. (1931). İlk dəfə səhnəyə 1902 ildə gəlmiş, H.Ərəblinskinin rej.-luğu ilə hazırlanmış bir sıra tamaşalarda çıxış etmişdir. 1911 ildə onun benefisi münasibəti ilə göstərilmiş Rza Zakinin "Köhnə Türkiyə" və Q.R.Şərifovun "Molla Nəsrəddin" tamaşalarında Səlim bəy, Əhəd rollarında çıxış etmişdir. O, "Türk aktyorları ittifaqı" (1917), "Hacıbəyov qardaşları truppası"nın (1916) üzvü olmuşdur. M.-nin "Ölülər" və "Anamın kitabı" pyeslərinin tamaşalarında böyük müvəffəqiyyətlə oynamışdır. M. aktyorun səhnə fəaliyyətinin 25 illik yubileyində (1927) iştirak edərək onun yaradıcılığı haqda danışmışdır.

KAZIMOV Tofiq Səməd Mənsur oğlu (1923-1980) – rejissor. Əməkdar inc. xad. (1961). M.F.Axundov ad. resp. mükafatı laureatı (1965). Azərb. xalq art. (1974). Bakı Teatr Texnikumunu (1942) və Dövlət Teatr Sənəti İn-tunu (Moskva, 1950) bitirmişdir. 1952 ildən (1957-1964 illərdə fasilələrlə) ADT-da rej., 1964 ildən isə baş rej. olmuşdur.

K.-un rejissorluq fəaliyyətində realizm, müasirlik üstün cəhətdir. O, tamaşaya qoyduğu əsərin səhnə həlli üzərində dərindən düşünürdü. V.Şekspir, V.Hüqo, M.F.Axundov, Nazım Hikmət, İ.Əfəndiyev, Anar və b. dramaturqların əsərlərinə verdiyi quruluşlar buna sübutdur. "Ölülər" ölməzdir" məqaləsində o yazırdı: "Rejissorluq təcrübəmdə mən bir neçə dramaturgiya klassikinin səhnə həlli məsələsi ilə məşğul olmuşam. Hər dəfə də bu və ya digər əsər qarşımda müşkül bir səhnə problemi kimi durmuşdur [...]. Cəlil Məmmədquluzadənin "Ölülər" əsəri isə qarşımda bir tapmaca kimi, bir səhnə sirri kimi dururdu". "Ölülər" pyesini K. 1966 ildə tamaşaya qoydu və bu quruluş Azərb. teatr tarixində mühüm hadisə kimi qiymətləndirildi.

Teatrda rej.-luğun nəzəri və əməli məsələlərinə dair düşüncələrində K. bu sənətdəki novatorluğun sirlərini aydınlaşdırmağa, tamaşaya qoyulan hər pyesin əsl

mahiyyətini və müasir əhəmiyyətini açmağın vacib olduğunu göstərməyə çalışırdı. O, M.-nin "Dəli yığıncağı" komediyasını da bu estetik, həyati prinsiplər zəminində tamaşaya qoymağa hazırlaşırdı; vaxtsız ölüm buna imkan vermədi. Həmin əsəri onun həmkarı Mehdi Məmmədov tamaşaya qoydu.

KAZIMOVSKİ Rauf Mirmahmud oğlu (1928-1976) – rejissor. 1952 ildə Azərb. Mədəniyyət və İncəsənət Un-tini bitirmişdir. Həmin ildən Azərb. radiosunda redaktor-rejissor, 1956 ildən isə televiziya verilişlərinin quruluşçu rej. olmuşdur. M.-nin "Ölülər" komediyasının radio-tamaşasının və "Poçt qutusu" hekayəsi əsasında çəkilmiş televiziya filminin rej.-dur.

KELKEJE Ş.L. (?-?) – müasir fransız jurnalisti, mətbuat tarixi mütəxəssisi. Paris Un-tinin əməkdaşı. SSRİ müsəlman xalqlarının mədəniyyəti, ədəbiyyatı və mətbuatı haqqında elmi əsərlərin müəllifidir. Prof. A. Benniqsenlə birlikdə Sovet İttifaqındakı müsəlmanların mədəniyyəti haqqında tədqiqat işi ilə tanınır. "Rusiya və Sovet İttifaqı üzrə dəftərlər" jurnalında "1920-ci ilə qədər Rusiyanın müsəlman xalqlarının dövri mətbuatı" adlı biblioqrafik oçerki dərc olunmuşdur. Oçerkdə Azərb., Orta Asiya və Volqaboyu xalqlarının inqilaba qədərki mətbuat orqanları barədə qısa xülasə verilir. Müəllif "Molla Nəsrəddin" satirik jurnalı üzərində ayrıca dayanır, mülahizələrində Azərb. tədqiqatçıları Mirzə İbrahimov, Əziz Mirəhmədov, Əziz Şərif və b.-larına istinad edir.

KERBABAYEV Berdı Muradoviç (1894-1974) – türkmən yazıçısı, dramaturq, ictimai xadim. Türkmənistanın xalq yazıçısı (1967), Türkmənistan EA-nın akad. (1951). SSRİ Dövlət mükafatı laureatı (1948, 1951). "Qəti addım", "Nebitdağ", "Qayğısız Atabay" romanlarının, "Vətən məhəbbəti", "Qardaşlar", "Məxtumqulu" pyeslərinin, bir sıra poema və povestlərin, ədəbi-tənqidi məqalələrin müəllifidir. A.S.Puşkin, L.N.Tolstoy, M.Qorki, M.İbrahimov və b.-nın əsərlərini tərcümə etmişdir.

K. Azərb. ədəbiyyatı klassiklərindən, "Molla Nəsrəddin" jurnalından, C.Məmmədquluzadə, M.Ə.Sabir, Ə.Haqverdiyev və başqa mollanəsrəddinçilərin yaradıcılığından təsirlənmiş, öyrənmiş türkmən klassiki idi. Bunu K.-in nəsrində və ədəbi-tənqidi əsərlərində görmək mümkündür.

KƏHRİZLİ – Azərb. Resp. Ağcabədi r-nunda kənd. Əhməd bəy Cavanşirin ailə mülkü olmuş və irsən qızı Həmidə xanıma keçmişdir. M. ilə Həmidə xanımın nikahı 1907 ilin iyununda bu kənddə kəsilmişdir. O vaxtdan ədib, demək olar ki, hər il K.-də olmuş, 1914-1920 illərdə isə burada nisbətən uzun müddət yaşamışdır. Həmidə xanımın yazdığına görə o, "Ölülər" əsərindəki Kefli İsgəndərin prototipi ilə – qonşu Hüsülü kəndində yaşayan "Kefli İsgəndər" ləqəbli şəxslə də burada tanış olub, onun bir çox cizgilərini öz qəhrəmanına vermişdir. M. "Anamın kitabı" əsərini K.-də tamamlamış, onun üzərində işləyərkən Həmidə xanım vasitəsilə Şuşadan, şahzadə Bəhmən Mirzənin kitabxanasından alınan lüğətlərdən istifadə etmişdir. "Molla Nəsrəddin" jurnalındakı bir sıra felyeton və karikaturaların da mövzusu K. ilə bağlıdır. M. və Həmidə xanımın 1908 ildə K.-də açdıqları məktəbdə 30 oğlan və 10 qız təhsil alırdı. Məktəbin bütün xərclərini Məmmədquluzadələr ödəyirdilər. Ədib, eyni zamanda bu məktəbdə dərs deyirdi. O, kənd həyatını çox sevir, kənd təsərrüfatı işləri ilə böyük həvəslə məşğul olur, sadə kənd adamları ilə ünsiyyətdən xüsusi zövq alırdı. Aclıq və quraqlıq illərində kənd sakinlərinə maddi və tibbi yardım göstərilməsində də Həmidə xanım və Cəlil Məmmədquluzadələrin xidmətləri olmuşdur. Mirzə Cəlilin kiçik qardaşı Ələkbər 1922 ildə K.-də vəfat etmiş və burada dəfn olunmuşdur. Vaxtilə M.-nin əkdiyi çinarlar və onun adı ilə bağlı olan məktəb binası indi də mühafizə edilir.

B.Kerbabayev

KƏNGƏRLİ Bəhruz (Şamil) Şirəli bəy oğlu (1892-1922) – rəssam, boyakar və qrafik. Tiflisdə Qafqaz İncəsənəti Təşviq Cəmiyyətinin nəzdindəki Boyakarlıq və Heykəltəraşlıq Məktəbində oxumuşdur (1910-1915). Azərb. incəsənətində realist dəzgah boyakarlığının təşəkkülü, portret və mənzərənin müstəqil janr kimi formalaşması K.-nin adı ilə bağlıdır. O, 1917 ilin may ayında Naxçıvan teatr həvəskarları tərəfindən R.Təhmasibin rej.-luğu ilə tamaşaya qoyulmuş "Ölülər" tamaşasının bədii tərtibatını vermiş və geyim eskizlərini çəkmişdir.

B.Kəngərli

P.Kəngərli

M.Kəngərli

KƏNGƏRLİ Əsəd ağa (?-1907) – hüquqşünas, dil və ədəbiyyat həvəskarı. M.-nin dostu. Fars dilinin yaxşı bilicisi. "Şərqi-Rus" qəzetində M.T.Sidqi haqqında ilk məlumatı o vermişdir. 1905 ildə "Həyat" qəzetində Azərb. dilinin müasir vəziyyəti və inkişaf yolu, lüğət fondu, alınma terminlər haqqında məqalə dərc etdirmişdir. Ə.Hüseynzadə bu məqalə barədə tənqid yazmışdır.

KƏNGƏRLİ Məmmədqulu bəy Şəfi ağa oğlu (1864-1905) – zabit, hüquqşünas, maarifpərvər, bibliofil, ictimai xadim. M.-nin yaxın qohumu və dostu idi. Tiflisdə kadet korpusunu, Peterburqda Mixaylov Ali Topçuluq məktəbini qurtarmışdır (1884). 1893 ildə ştabs-kapitan rütbəsində istefaya çıxıb vəkillik imtahanı vermiş, Naxçıvan və İrəvanda həmyerlilərinin hüquqlarını müdafiə etmişdir. 1901-1902 illərdə dostunun evində qalan M. vəkillik edir, onun 300 cildlik kitabxanasında hüquqşünaslığa dair ədəbiyyatı oxuyub ekstern imtahana hazırlaşırdı. Ədib K.-nin bacısı Nazlı (Zeynəbağa xanım – *red.*) xanımla da bu zaman evlənmişdir.

M.-nin yaxından köməyi ilə K. 1903 ildə İrəvanda Azərb. dilində orta təhsilli qız məktəbi açmışdı. Müsəlmanların dini, milli ehtiyaclarını hökumətə bildirmək və onların xaçpərəstlərlə bərabərhüquqlu sayılmalarına nail olmaq üçün 1904 ildə Peterburqa getmiş üç nəfərlik nümayəndə heyətinə K. də daxil idi. Onlar paytaxtda yüksək vəzifəli şəxslərlə görüşmüş, həmyerlilərinin ərizəsini Qafqaz canişini Voronsov-Daşkova çatdırmışdılar. 1905 ilin kəskin millətlərarası münasibətləri ərəfəsində belə ciddi problemləri qaldırmaq böyük cəsarət tələb edirdi. K.-nin isə bu problemləri bütün kəskinliyi ilə qaldıra bilməsi erməni millətçilərini dərindən narahat etmişdi. Tərəqqipərvər fəaliyyətinə, maarifçi xidmətlərinə və vətənpərvərliyinə görə erməni millətçiləri tərəfindən hədələnən K. İrəvanı tərk etməyə məcbur olmuş, bacısı oğlu Heydərlə Tiflisə gedib, oradan da Parisə köçməyi qət edir. O deyirdi: "Vətənim, millətim heç vaxt yadımdan çıxmayacaqdır. Xidmət yer ilən deyil, insanın özü ilədir". Lakin yola düşməzdən az əvvəl K. Batumda erməni daşnakları tərəfindən öldürüldü. M. dostu haqqında Peterburq, Tiflis və b. şəhərlərin mətbuatında matəm yazıları çap etdirmişdi. Mərhumun cənazəsi M. tərəfindən Tiflisə gətirilərək, 1904-cü ilin əvvəlində vəfat etmiş bacısı Nazlı xanımın yanında dəfn olunmuşdur. Dəfn mərasiminin əsas təşkilatçısı M. idi.

KƏNGƏRLİ Pakizə Əsgər ağa qızı (1912-1986) – müəllimə. M.-nin bacısı Səkinə xanım Məmmədquliyevanın qızı. M.-nin qızı Münəvvərlə birgə böyümüş, ədibin ailəsi ilə Bakı, Kəhrizli, Şuşa və Turşsuda olmuşdur. Uzun illər "Molla Nəsrəddin" jurnalının abunəçilərə göndərilməsinə kömək etmiş. Zaqatala pedaqoji texnikumunu bitirib, uzun müddət Naxçıvanda müəllim işləmişdir. Naxçıvanda çıxan "Şərq qapısı" qəzetində dayısı, dayısının ailəsi, özünün "Molla Nəsrəddin" redaksiyasındakı fəaliyyəti, uşaqlara qayğısı, tələbkarlığı və s. haqda dolğun məzmunlu xatirələri nəşr edilmişdir. Xatirələrində ədibin Xan Şuşinski, Bülbül, Qurban Pirimov kimi sənətkarlarla görüşləri, məharətlə kamançada çaldığı barədə də danışılır. K. Naxçıvanda səhnəyə qoyulmuş "Ölülər", "Anamın kitabı" və s. tamaşalarda kiçik rollar oynamışdır.

KƏNGƏRLİ Teymur Əsgər ağa oğlu (1907-1944) – M.-nin bacısı Səkinə xanım Məmmədquliyevanın oğlu. Naxçıvanda ibtidai məktəb, Bakıda Yeyinti Sənayesi Texnikumunu bitirmişdir. K. Bakıda və Təbrizdə M.-nin, Kəhrizli kəndindəki malikanədə Həmidə xanımın yaxın köməkçisi olmuşdur. O, M.-lər ailəsinin doğma üzvü sayılırdı. Sonralar Bakıda ət kombinatında texnoloq işləmişdir. Həmidə xanımın qohumu Qəmər Əliyeva ilə ailə qurmuşdu. Böyük Vətən müharibəsində həlak olmuşdur.

KƏRİMOV İnqilab Saleh oğlu (d. 1931) – teatrşünas, tənqidçi. Sənətşünaslıq doktoru (1988). Prof. (1989). Azərb. İncəsənət İn-tunu (indiki Mədəniyyət və İncəsənət Un-tini) bitirmişdir (1953). 1957 ildən Azərb. EA Memarlıq və İncəsənət İn-tunda işləyir (1985 ildən teatr və kino şöbəsinin müdiridir). Azərb. teatrının tarixi, yaradıcılıq problemləri, inkişaf yolu, aktyor və rej. yaradıcılığı, müqtədir səhnə xadimlərinin sənət yolu və s. məsələləri tədqiq edir. 15 monoqrafiyanın, 80-dən çox elmi məqalənin müəllifidir. Rus, gürcü, tacik, türkmən, özbək və fransız dramaturqlarının 12 pyesini tərcümə etmişdir. M.-nin yaradıcılığından bəhs edən

bir çox məqalələrin ("Cəlil Məmmədquluzadə və teatr", "Tiflis Azərbaycan teatrının tarixindən", "Ölülər"in ilk tamaşası haqqında" və s.) müəllifidir. "Azərbaycan teatrının yaranması və inkişafı" (B., 1991) monoqrafiyasında M.-yə aid xüsusi hissə var. 1975-1990 illərdə Azərb. Televiziyası ilə "Cəlil Məmmədquluzadə və teatr" silsilə verilişləri aparmışdır.

KƏSRƏVİ Seyid Əhməd (1890-1946) – İran tarixçisi. Milliyyətcə azərb.-dır. Tehran un-tində təhsil almışdır. Pəhləvilərin hakimiyyətə gəlməsindən (1926) sonra paniranizm və azərb.-ları farslaşdırmaq siyasətinin tərəfdarlarından biri kimi çıxış etməyə başlamışdır. Hakim rejimin sifarişi ilə yazılan və təkmilləşdirilmiş nəşri 1937 ildə çıxan "Azəri, yaxud Azərbaycanın əski dili" kitabında K. azərb.-ların türkləşmiş fars olmaları ideyasını əsaslandırmağa çalışırdı. K. "Molla Nəsrəddin" jurnalını ardıcıl izləmiş, xüsusilə də, Məşrutə inqilabı haqqında jurnalda dərc olunmuş materiallardan öz tədqiqatlarında istifadə etmişdir. Onun "Tarixi-məşruteyi-İran" adlı çoxcildli əsərində "Molla Nəsrəddin"in İranda ictimai-siyasi fikrin formalaşmasına təsiri qeyd edilir. "Molla Nəsrəddin" o jurnallardandır ki, onun adı gərək tarixdə qalsın" – deyən, M.-nin çap etdiyi satirik məcmuəni yüksək qiymətləndirən K. jurnalın İranda yayılmasının qarşısını almaq üçün şah rejiminin göstərdiyi səmərəsiz cəhdlərdən, hətta bu məqsədlə M.Ə.Talıbovun məqalələr yazmasından, Nəcəf müctəhidləri tərəfindən xüsusi fitvanın hazırlanmasından, lakin bütün bu qadağa və təkfirlərə baxmayaraq, "Molla Nəsrəddin"in İranda öz populyarlığını və təsiredici gücünü qoruyub saxladığından ətraflı söz açmışdır.

"KƏŞKÜL" – ictimai, siyasi, ədəbi jurnal və qəzet. 1883-1891 illərdə [1883 ilin yanvarından aylıq jurnal (7 nömrə), 1883 il dekabrın 23-dən isə həftəlik qəzet kimi] Tiflisdə nəşr edilmişdir. Cəmi 123 nömrəsi çıxmışdı. Naşiri və red. C.Ünsizadə idi. Əvvəllər Azərb., 1888 ildən isə Azərb. və fars dillərində nəşr olunmuşdur. Bəzən ərəb dilində də məqalələr dərc olunmuşdur. "K." cəmiyyətdəki nöqsanları, mövhumat və fanatizmi tənqid edərək, millətə inkişaf yolunu göstərən publisistik məqalələr, ədəbi felyetonlar, bədii əsərlər çap edirdi. "K."-də Azərb. dili və mədəniyyətinə, ədəbiyyat, incəsənət, elm, maarif və s. məsələlərə dair məqalələr də verilirdi. "K."-də H.Zərdabi, S.Ə.Şirvani, F.Köçərli, K.Kəngərli, Müşfiq, M.R.Daniş və b. çıxış edirdilər. Azərb. jurnalistikasında satiranın ilk nümunələri məhz "K." səhifələrində dərc olunmuşdur. Hələ zəif halda olan bu satira sonralar "Molla Nəsrəddin" jurnalında ən yüksək zirvəyə çatdırıldı. "K." 1891 ilin oktyabrında Qafqaz Senzura Komitəsi tərəfindən bağlanılmışdır. M. "Batdağ" felyetonunda "K".-un naşiri və baş redaktoru Cəlal Ünsizadənin adını çəkmişdir.

KİRMANŞAHLI Mir Seyfəddin (1892-1933) – aktyor, rejissor, teatr xadimi. 1908 ildə Tiflisə gələrək teatr təhsilini əvvəl burada, sonra isə Moskva Teatr Texnikumunda almışdır. K. yaradıcılığının çiçəklənmə dövrü Tiflis Azərb. teatrı ilə bağlıdır. O, burada bir sıra əsərləri tamaşaya qoymuş, həmçinin aktyor kimi çıxış etmişdir. M.-nin "Ölülər" pyesindəki İsgəndər obrazı onun ən müvəffəqiyyətli rollarındandır. 20-ci illərdə K. Bakı Azad Tənqid-Təbliğ Teatrında, ADT-nda aktyor və rej. kimi fəaliyyət göstərmiş, Bakı Teatr Texnikumunda dərs demişdir. Kinoya çəkilmişdir. 1930 ildə İrana qayıdaraq, Təbrizdə "Ariyan" truppasının rəhbəri olmuş, Tehranda "Cameyi-Bərbət" və "Nəkisa teatrı"nda işləmişdir. K.-ın yaradıcılığı İran və Cənubi Azərb. teatrı tarixində əhəmiyyətli yer tutur.

M.Kirmanşahlı

"KİRPİ" – satira və yumor jurnalı. 1952-ci il iyulun 15-dən Bakı şəhərində nəşr edilir. İlk red. yazıçı-jurnalist Əvəz Sadıq olmuşdur. Müasir həyatımızda "Molla Nəsrəddin" jurnalının ənənələrini davam etdirən "K." cəmiyyətin inkişafına maneçilik törədən ünsürləri, hər cür antipodları, ölkəmizin düşmənlərini kəskin tənqid atəşinə tutur, ifşa edir.

"KİŞMİŞ OYUNU" – M.-nin 1892 ildə yazdığı pyes. Sonralar ədib mövzunu yenidən işləyərək hekayəyə çevirmiş və çap etdirmişdir. Mövzu və forma etibarilə pyes xalq oyunlarını xatırladır. Mövzusu Bərgüşad kəndlilərinin həyatından götürülmüşdür. Həm nəsr, həm pyes variantlarında nağıl, folklor təsiri güclüdür. İrandan gəlmiş arzu edilməyən qonaqları başdan etmək üçün uydurulan karvan çapmaq əhvalatı, bu işdən xəbəri olan qonaqlardan yalançı şübhələnmə və bu yolla onla-

rın qaçırılması əhvalatı müxtəlif variantlarda Qafqaz kəndlərində bu gün də danışılır. Bu süjet o dövrdə Arazın o tayı ilə bu tayı arasındakı münasibətləri, əxlaqı, inkişaf səviyyəsini, avam sayılan kəndlilərin çevik təfəkküründü göstərmək baxımından misilsiz ədəbi imkan yaratmışdır.

"KİŞMİŞ OYUNU" – M.-nin hekayəsi. Bu mövzuda M. hələ gənclik illərində Nehrəm kəndində müəllim işlərkən eyniadlı birpərdəli pyes yazmışdı. "K. o." hekayəsini isə ilk dəfə "Şərqi-Rus" qəzetinin 1903 il 12 iyun tarixli sayında dərc etdirmişdir. Xalq lətifəsi, qaravəlli təsiri bağışlayan hekayədə, əslində, yazıçı bir kənd əhvalatı zəminində ciddi mətləblərdən söz açır. Bir tərəfdən, cəddini qazanc mənbəyinə çevirmiş İran seyidləri ifrata varmış müsəlmanlar kimi təqdim olunur, digər tərəfdən Arazın bu tayındakı "Zurnalı" kəndi tənbeh etməyi bacaran müdrik əhalisi ilə təmsil olunur. Seyidlərin müftə müsəlman həmrəyliyinə güvənməsi kəndin icma birliyi, milli yaşayış təbiiliyi zəminində "oyuna düşüb" cəzasını alır. Mirzə Cəlil güldürməklə bahəm, düşündürməyə çalışır.

"KOMMUNİST" – Azərb. dilində gündəlik ictimai-siyasi qəzet. 1919-1991 illərdə Bakıda nəşr olunmuşdur. Azərb. KP MK-nın, Azərb. SSR Ali Soveti və Azərb. SSR Nazirlər Sovetinin orqanı idi. Red.-ları R.Axundov, H.Cəbiyev, B.A.Talıblı, A.Yusifzadə, Əli Vəliyev, İ.Nəzərov, A.Rzayev, T.Rüstəmov və b. olmuşdur. Azərb. xalqının 70 ildə keçdiyi inkişaf yolu, sənaye, kənd təsərrüfatı, elm, mədəniyyət və ədəbiyyat sahəsində qazanılan uğurlar və qarşıya çıxan aktual problemlər qəzetdə əksini tapmışdır. Qəzet M.-nin şəxsiyyətinə və yaradıcılığına ardıcıl şəkildə diqqət göstərmişdir. Xüsusən 20 illərdə ədibin əsərlərinin nəşri və tamaşası, "Molla Nəsrəddin" jurnalının yeni çıxan nömrələri, M.-nin ədəbi-ictimai və jurnalistlik fəaliyyəti barəsində "K."-də çoxsaylı materiallar çap olunurdu. Müxtəlif illərdə qəzet M.İbrahimov, M.Arif, M.Cəfər, C.Xəndan, Ə.Şərif, Ə.Mirəhmədov və başqa tanınmış ədəbiyyatşünasların M. haqqında məqalələrini çap etmişdir. M.-nin tərcümeyi-halı və fəaliyyəti ilə bağlı əhəmiyyətli tarixlər qəzetin səhifələrində geniş işıqlandırılmışdır.

"KONSULUN ARVADI" – M.-nin hekayəsi. İlk dəfə Bakıda "Yeni yol" qəzetində (1926, 1 yanvar, №1) "Müəllim" sərlövhəsilə çıxmış, həmin il "Molla Nəsrəddin" nəşriyyatı tərəfindən ayrıca kitabça halında "Konsulun arvadı, yaxud iki müəllim" adı altında çap olunmuş, sonralar ədibin bir sıra hekayə məcmuələrinə, "Seçilmiş əsərləri"nə və "Əsərləri"nə daxil edilmişdir. Qadın əsarətinə qarşı etiraz motivləri ilə dolu olan yığcam məişət novellasıdır. Hekayənin mövzusu İran despotlarının həyatından götürülmüşdür. Ədib açıq-aşkar deməsə də, onun əsas tənqid hədəflərindən biri din və şəriətdə mövcud siğə məsələsidir. Belə ki, əsərin qəhrəmanı arvadı vəfat etmiş konsul Həzrət Xəllaqül-Məmalik bunu böyük bir itki hesab etmir, onun üçün nəinki kədərlənmir, hətta yanına başsağlığı verməyə gələnlərə hiddətlənərək – "ay cəhənnəmə vəfat edib, gora vəfat edib!" – deyərək övrəti olmuş qadına hörmətsizliyini ifadə edir. Bütün bunlar ondan irəli gəlirdi ki, şəriətə görə hər bir kişi siğə vasitəsilə bir neçə arvad saxlaya bilərdi. Ölən qadın da belə siğələrdən biridir. Odur ki, belə qadını itirmək böyük bir kədər doğurmurdu. M. qadına qarşı olan bu qeyri-insani münasibəti, haqsızlığı yaradıcılığı boyu bir çox əsərlərində qələmə almışdır.

"KOYAŞ" – 1910-cu illərdə mahir özbək satiriklərinin iştirakı ilə nəşr olunan jurnal. Yaradıcıları "Molla Nəsrəddin" jurnalını çox bəyənib, yazılarında ondan ustalıqla istifadəyə çalışmışlar. 1913 ilin əvvəllərində "K." özbəklər arasında maarifə meylin artmasından "Turkestanski kuryer" qəzetinin təşvişə düşdüyünü qeyd edir və "Molla Nəsrəddin"in 1911 il 14-cü sayındakı "Biz" felyetonundan misal gətirərək yazırdı: "Bunları oxuyarkən "Molla Nəsrəddin" jurnalı özünün başı əmmaməli, əli dəyənəkli Molla Nəsrəddini ilə gəlib durur göz qabağında, insanın xatirinə "bax...a... özbəklərə (sartlara). Bizim qəzetlər, yazıçılar, hekayəçilər onları nə qədər tərifləyirlər. "Onlar çox yaxşı adamlardır" sözləri gəlir. Xudaya, rus millətçiləri bizim azsavadlı olmağımızdan bu qədər qorxurlar. Əgər biz, doğrudan da, tərəqqi etsək, nə edərlər?!" ("K.", 1 yanvar 1913, №13).

KOZMA PRUTKOV – XIX əsrin 50-60-cı illərində birgə çıxış etmiş rus yazıçıları A.K.Tolstoyun, A.M. və V.M.Jemçujnikov qardaşlarının kollektiv ədəbi təxəllüsü. Onların K.P. adı altında dərc etdirdikləri parodiyalar, siyasi satiraları dövrün ədəbi həyatında mühüm rol oynayırdı. K.P. yazırdı ki, "baş əyməklik və ikiqat olmaq hər bir millətlərə nisbət müsəlmanların içində çox adətdir". Onun sözünü təsdiqləmək üçün M. müsəlmanın bu dözülməz keyfiyyətini "Quli-biyabanlar" felyetonunda ifşa edərək yazır: ..."Bizlərdə dövlətlilərə baş əymək və ikiqat olmaq qorxudan deyil", yəni bu yaltaqlıqdan və qul olmaqdandır, çünki Qarabağ və Zəngəzurda əhalinin acından öldüyü halda bu "quli-biyabanlar" baxmayaraq ki, onlara baş əydiyi dövlətlilər heç vaxt aclara yardım etməyiblər, onların qarşısında ikiqat olub daim yaltaqlanırlar. Özgə millətlər içində belə şey yoxdu. Amma bizlərdə tərsinədir".

KÖÇƏRLİ Firudin bəy Əhmədağa oğlu (1863-1920) – publisist, tənqidçi, ədəbiyyatşünas, pedaqoq və ictimai xadim; ilk milli ədəbiyyat tarixinin müəllifi. Ədəbi-tənqidi fəaliyyətə 1895-ci ildə Qori müəllimlər seminariyasına Azərb. dili və şəriət müəllimi təyin olunduqdan sonra, "Azərbaycan komediyaları" (1895) məqaləsi ilə başlamış, rus dilində qələmə aldığı ilk ədəbiyyat tariximiz – "Azərbaycan türklərinin ədəbiyyatı" (1903) kitabı isə onun adını məşhurlaşdırmışdır. K. dövrünün nüfuzlu tənqidçisi kimi tanınmış, ədəbi tənqidi və publisist yazılarla "Tərcüman", "Kəşkül", "Şərqi-Rus", "Həyat", "İrşad", "Tərəqqi", "Molla Nəsrəddin", "Dəbistan", "Rəhbər", "Haqq yolu", "Səda", "İqbal", "Yeni iqbal", "Yeni İrşad", habelə "Kaspi", "Новое обозрение", "Kavkaz", "Петроградские ведомости", "Тифлисский листок", "Закавказье" və s. mətbuat orqanlarında çıxış etmişdir. Azərbaycan dilində yazdığı fundamental, üç cildlik "Azərbaycan türklərinin ədəbiyyatı" əsərini 1908 ildə tamamlamış, "M.F.Axundov" (1911) və "Balalara hədiyyə" (1912) kitablarını nəşr etdirmişdir.

Dövrünün açıq fikirli ziyalılarından olan K. "Molla Nəsrəddin" jurnalının rolu və əhəmiyyətini ilk olaraq görüb-qiymətləndirənlərdən olmuş, jurnalın üç aylıq fəaliyyətini şərh edən, önəmini vurğulayan, alqışlayan məqalə ilə "Тифлисский листок" qəzetində çıxış etmişdir (13 iyul, 1906). F.Köçərli həmişə "Molla Nəsrəddin"in dostları sırasında olmuş, jurnalın yeritdiyi siyasətə şərik çıxmış, mədəni ictimaiyyəti onu müdafiə etməyə çağırmışdır.

K. Mirzə Cəlilin yazıçılıq istedadını yüksək qiymətləndirmiş, ədibin 1906 ildə çıxmış "Usta Zeynal" hekayəsi haqda ayrıca məqalə ilə çıxış etmişdir ("Знание" qəzeti, 23 noyabr 1906). Əsəri realist məziyyətlərinə görə bəyənib təhlil edən tənqidçi "mədəni ziyalılarımızın nəzərini cəlb etməyə tam layiq" olan hekayəni dövri mətbuatın sükutla qarşılamasına təəccübünü bildirmişdir.

K. "Molla Nəsrəddin"də ciddi məqalələrlə çıxış etmişdir. Ədibin "Ana dili" məqaləsi M.-nin ideya-estetik meyarları ilə tam səsləşir.

KÖÇƏRLİ Firudin Qasım oğlu (1920-2005) – fəlsəfəşünas. Fəlsəfə e.d. (1966), prof. (1967), Azərb. EA akademiki (1976). Azərb. əməkdar elm xadimi (1989). ADU-nun tarix fakültəsinin fəlsəfə şöbəsini (1950) bitirmişdir. 1953-1958 illərdə ADU-da müəllim, 1958-1967 illərdə Azərb. SSR EA Fəlsəfə bölməsinin rəhbəri, 1967-1985 illərdə Fəlsəfə və Hüquq İn-tunun direktoru işləmişdir.

F.Ə.Köçərli

Elmi tədqiqatının əsas hissəsi fəlsəfə, ictimai-siyasi fikrin inkişaf tarixi, mədəniyyətşünaslıq və məsələlərlə bağlıdır. N.Nərimanov və Ü.Hacıbəyov haqqında monoqrafik tədqiqatları vardır. M.-nin siyasi-fəlsəfi görüşləri haqqında "Cəlil Məmmədquluzadənin dünyagörüşündə fəlsəfə və sosiologiya məsələləri" (1966), "Görkəmli inqilabçı demokrat" (1967), "Mübariz ateist" (1967), "Cəlil Məmmədquluzadənin inqilabi demokratizmi" (1967), "İctimai-siyasi və sosioloji görüşləri" (1974) məqalələrinin müəllifidir.

F.Q.Köçərli

Siyasi görüşləri baxımından M.-ni inqilabi-demokrat kimi səciyyələndirən K. "Molla Nəsrəddin" jurnalı haqqında yazır: "Azərbaycan mədəniyyəti tarixində ən əlamətdar hadisələrdən olan bu jurnal inqilabi-demokratik cəbhənin mərkəzi, onun əsl tribunası idi... "Molla Nəsrəddin" jurnalı ...orta əsr qalıqlarını, feodalizm quruluşunu yox etmək və demokratik respublika qurmaq vəzifəsini qarşıya qoymuşdu".

KÖPRÜLÜZADƏ Mehmet Fuad (1890-1966) – türk filoloqu, tarixçi, publisist. Türkiyə Demokrat Partiyasının ya-

radıcılarından biri (1946). Türkiyənin xarici işlər naziri olmuşdur (1950-1957). Türk ədəbiyyatına, dili və tarixinə dair "Türk ədəbiyyatında ilk mütəsəvviflər" (1918), "Türk ədəbiyyatı tarixi" (1928), "Türk saz şairləri" (1940-1941), "Azəri ədəbiyyatına aid tədqiqlər" (1926) və s. qiymətli əsərlərin, çoxlu elmi məqalənin müəllifidir. 1926 ildə Bakıda keçirilən Ümumittifaq türkoloji qurultayında iştirak etmişdir. Məhəmməd Füzuliyə həsr etdiyi əsərlər diqqətəlayiqdir. Azərb. ədəbiyyatşünasları K.-nin "Divani-lüğatit-türk" monoqrafiyasını yüksək qiymətləndirmişlər.

KRILOV İvan Andreyeviç (1769-1844) – rus yazıçısı, təmsilçi, jurnalist. Peterburq EA akad. (1841). Yaradıcılığa gənc yaşlarından başlamış, komediyalarında paytaxt dvoryanlarının əxlaq düşkünlüyünü kəskin tənqid etmişdir. 1809 ildə ilk təmsil kitabı nəşr olunmuşdur. Xəlqiliyi və demokratizmi sayəsində K. yaradıcılığı rus təmsilinin zirvəsi səviyyəsinə yüksəlmişdir.

İ.Krılov

M.K. ədəbi irsini sevə-sevə oxumuş, ona bədii publisistikasında müraciət etmiş, təmsillərinin motivləri əsasında "Molla Nəsrəddin"də illüstrasiyalar dərc etmişdir.

M. "Abirin və kilab" (1906), felyetonunda K.-un təmsilləri ilə təhsil illərində tanış olduğunu xatırlayır. K. təmsillərinin xəlqi keyfiyyətlərini və demokratizmini yüksək qiymətləndirən M. "Yolçular və itlər" əsərinin ruscadan türkcəyə qəliz ərəb-fars tərkibləri ilə tərcümə edilməsi faktı ilə barışmır. "Türk qəzetlərinin biri"nin yazıçısının "Прохожие и собаки" ("Yolçular və itlər") təmsilini" "Abirin və kilab" adı altında tərcümə etməsini tənqid edərək yazırdı: "...Krılov təmsillərini sadə rus dilində yazıb ki, rus milləti yaxşı başa düşsün. Əgər Krılov bilsəydi ki, türklər onun təmsillərini türk dilinə tərcümə edəndə yolçulara "abirin" və itlərə "kilab" adı qoyacaqlar, yəqin ki, Krılov da təmsillərini firəng, yaxud nemsə dilində yazardı" ("Molla Nəsrəddin" jurnalı, 1906, 25 avqust, №21).



"Molla Nəsrəddin" jurnalının üz qabıqlarından biri. Rəssam: O.İ.Şlinq

QAFQAZ TƏHSİL DAİRƏSİ KOMİSSARLIĞINA MƏKTUB – Qafqaz məktəblərinin milliləşdirilməsi ilə əlaqədar olaraq ana dilində müvafiq oxu materialı yaratmaq zəruriyyətinin meydana çıxdığını nəzərə alan M. Qafqaz Təhsil Dairəsi Komissarlığına 1917 il sentyabrın 28-də ərizə yazaraq "Molla Nəsrəddin"i müsəlman uşaqlarının oxuduğu bütün məktəblərə göndərilməsini tövsiyə etmişdir. Ərizədə o da göstərilir ki, Yelizavetpol xalq məktəbləri müdiriyyəti inqilabdan əvvəl məktəblərə göndərilmək üçün "Molla Nəsrəddin" jurnalına 118 nüsxə abunə yazılmışdı. Ədib özünün "Poçt qutusu", "Usta Zeynal", "Qurbanəli bəy", "İranda hürriyyət", "Nigarançılıq" hekayələrinin də məktəblərdə oxunmasını məsləhət görmüşdü.

Komissarlığın sədri əvəzi H.Şahtaxtinskinin M.-nin ərizəsi üzərində yazdığı dərkənar mətbəədə çap edilib, Zaqafqaziya kişi və qadın təhsil müəssisələrinə və idarə rəislərinə göndərilmişdir. H.Şahtaxtinskinin imzası ilə yazılmış həmən məktubda göstərilir ki, Tbilisidə nəşr edilən "Molla Nəsrəddin" müsəlman jurnalları içərisində ən yaxşısı olduğu üçün onu məktəb kitabxanalarına abunə yazdırsınlar. Çox arzu olunur ki, jurnalın red.-unun əsərləri də orada və ibtidai məktəb kitabxanaları üçün alınsın. Dərkənarla birlikdə M.-nin məktubu da rusca çap edilib təliqə ilə qoşulu surətdə məktəblərə göndərilmişdi.

QANTƏMİR (Qafur Sədi oğlu Əfəndiyevin təxəllüsü) (1889-1944) – yazıçı, müəllim, həkim. İstanbul un-tinin tarix-filologiya fakültəsini (1914), ADU-nun tibb fakültəsini (1929) bitirmişdir. 1914-1920 illərdə yeni tipli məktəblərin açılmasında iştirak etmiş, humanitar fənlərdən dərs demişdir. Mətbuatda pedaqoji məqalələri çap olunub. O, Abbas Səhhətlə dostluq etmiş, Sabirlə tanış olmuş, bir müddət məktublaşmışlar. "Molla Nəsrəddin" jurnalının fəal oxucularından olub, onun təbliği və yayılmasında yaxından iştirak etmişdir. Bədii yaradıcılığa 1920 illərin ortalarından başlamış, qələmini əsasən satira janrında sınamışdır. "Ağıl dəryası" (1930), "Şarlatanlar" (1934) və "Kolxozıstan" (1935) kitablarının müəllifidir. "Buğda quyusu", "Hacı Qambay", "Mirzə Aves", "Vəsiyyət", "Zeynəb Tükəzbanova", "Nisə xala" və s. hekayələri oxucular tərəfindən rəğbətlə qarşılanmışdır. Satirik əsərlərində "Molla Nəsrəddin" ədəbi məktəbinin, onun yaradıcısı M.-nin təsiri hiss edilir. Adı "Molla Nəsrəddin" ədəbi məktəbinin davamçıları sırasında çəkilir.

Qantəmir

QARABAĞLI Əlyar Məmməd oğlu (1901-1969) – pedaqoq. M.-nin əleyhdarlarından biri. 1929 ildə dövlət tərəfindən M.-yə qarşı münasibət pisləşmişdi. Dövri mətbuatda M.-ni "milli xırda burjua ədəbiyyatı nümayəndəsi" kimi qələmə verməyə başladılar. Q.-nın mətbuatdakı çıxışları daha kəskin xarakter daşıyırdı. 1929 il noyabrın 18-də "Kommunist" qəzetində çap olunmuş məqaləsində deyilirdi: "Fəqət Məmmədquluzadə yoldaşın indiki mühitin tələbatını təmində aciz olduğunu da danmaq olmaz. Bunu "Molla Nəsrəddin"in son illər ədəbi həyatındakı durğunluq da təsdiq edir. Söz birdir. Məcmuə şəkil, bədii, ictimai cəhətdən, başqa sözlə, üzlü-astarlı dəyişdirilməlidir".

Bu kimi haqsız çıxışların nəticəsi olaraq, tezliklə "Molla Nəsrəddin" jurnalı həmişəlik bağlandı.

QARAYEV Əliheydər Ağakərim oğlu (1896-1938) – sovet partiya və dövlət xadimi, jurnalist. Şamaxıda mollaxanada, sonra realnı məktəbdə oxumuş, bir müddət

Ə.Qarayev

Y.Qarayev

Bakıda "Rus-müsəlman" məktəbində dərs demişdir. 1916 ildə Don (indiki Novoçerkassk) Politexnik İn-tuna daxil olmuş, tələbələrin inqilabi hərəkatına qoşulmuşdur. 1917 ildə Tiflisdə menşevik "Hümmət" təşkilatına daxil olmuş, 1918 ilin dekabrında Bakıya gələrək, Bakı Fəhlə Konfransının sədri (1919), RK(b)P Bakı Komitəsinin üzvü, 1919-1920 illərdə "Bakı Fəhlə Konfransının əxbarı", "Zəhmət sədası", "Azərbaycan füqərası", "Füqəra sədası" və s. qəzetlərin, "Tartan-partan" və "Məşəl" jurnallarının red. olmuşdur. Azərb.-da Sovet hakimiyyəti qurulduqdan sonra Azərb. Müvəqqəti İnqilab Komitəsinin üzvü, Bakı Müvəqqəti İnqilab Komitəsinin sədri, Xalq Əmək komissarı, Bakı Sovetinin sədri və s. vəzifələrdə işləmişdir. M.-ni satira sahəsində ustadı sayırdı. "Tartan-partan" jurnalında (1918) Ə.Haqverdiyevin "Mirzə Səfər" kimi satirik hekayəsi nəşr olunmuşdur. "Molla Nəsrəddin" jurnalının fəaliyyətinə kömək edən xadimlərdən idi. M.-nin Təbrizdən Bakıya qayıtmasının təşəbbüskarlarındandır.

QARAYEV Yasin Mikayıl oğlu (d. 1946) – aktyor. Azərb. əməkdar art. (1991). Prezident mükafatı (2006). Azərb. xalq art. (2006). Azərb. Dövlət İncəsənət İn-tunun musiqili komediya aktyorluğu fakültəsini bitirmişdir (1973). 1974 ildən Azərb. Dövlət Gənc Tamaşaçılar Teatrında işləyir. Bir çox mürəkkəb rolları, o cümlədən M.-nin "Danabaş kəndinin məktəbi" tamaşasında Əsəd rolunu müvəffəqiyyətlə yaratmışdır.

Y.Qarayev

1998-ci ildə M.-nin əsərləri əsasında çəkilmiş "Nigarançılıq" film-tamaşasında Məşədi Qulam rolunda çəkilmişdir.

Y.Qarayev "Nigarançılıq" film-tamaşasında Məşədi Qulam rolunda.

QARAYEV Yaşar Vahid oğlu (1936-2000) – tənqidçi, ədəbiyyatşünas. Filol. e.d. (1980), prof. (1985). Azərb. əməkdar elm xad. (1982). ADU-nun filol. fakültəsini bitirmişdir (1958). Əmək fəaliyyətinə 1959 ildə Azərb. EA Nizami ad. Ədəbiyyat İn-tunda baş laborant kimi başlamış, kiçik elmi işçi, böyük elmi işçi, şöbə müdiri, elmi işlər üzrə direktor müavini, 1987 ildən həmin in-tun direktoru işləmişdir. XIX-XX əsrlər Azərb. ədəbiyyatının problemləri, M.F.Axundov, N.Vəzirov, C.Məmmədquluzadə, M.Ə.Sabir, H.Cavid, C.Cabbarlı kimi klassik, İ.Əfəndiyev, S.Rəhman, M.İbrahimov, Anar, Y.Səmədoğlu və b. çağdaş yazıçıların bədii metod, üslub və sənətkarlıq məsələlərini tədqiq edib. Azərb. ədəbiyyatında faciə janrı, realizmin tip və mərhələ təsnifi, H.Cavidin həyat və fəaliyyətinə dair monoqrafik tədqiqatları vardır. M.-nin yaradıcılıq metodunun konseptual araşdırılması onun adı ilə bağlıdır. Bu məsələyə həsr etdiyi "C.Məmmədquluzadənin yaradıcılıq metodu" (1974) adlı xüsusi məqaləsindən başqa, "Realizm: sənət və həqiqət" (1980), "Azərbaycan realizminin mərhələləri" (rus dilində, 1983) kitablarında da M.-nin bədii yaradıcılıq metodu tədqiq edilmişdir. O yazır: "XX əsr Azərbaycan bədii fikrində yeni realist ədəbi metodun başçısı və böyük nümayəndəsi Cəlil Məmmədquluzadədir. Ümumən Azərbaycan realizmi... Mirzə Cəlildən yüksək zirvə tanımır. Bizim milli realizm tariximizdə "Molla Nəsrəddin" ədəbi məktəbinin rolu və mövqeyi klassik bir ictimai satira üslubu ilə yanaşı, həm də mükəmməl, müasir bir tənqidi realizm məktəbi ilə müəyyən olunur... Onun gülüşü və yumoru, pyes, hekayə və felyetonları hamısı birlikdə bizim cəmiyyətdə və məişətdə ciddi tarixi bir rol oynadı... Ədibin "müsəlman qardaşlara" üz tutub söylədiklərini bütünlüklə Şərq eşitdi! Yeni əsrdə Azərbaycan millətinin formalaşması və intibahı dövrünün ən böyük yazıçısı Mirzə Cəlil oldu!".

"Nəsrin və səhnənin ağrı yaddaşı – Cəlil Məmmədquluzadə" (1994) adlı başqa bir məqaləsində Q. yazıçının ədəbiyyat tarixində mövqeyini belə müəyyənləşdirir: "Bizim ədəbiyyatda ağlın dastanına zirvə – Nizamidir; eşqin və qəmin faciəsinə meyar – Füzulidir; qeyrətin ağrısına, namus yanğısına timsal – Sabirdir; həm

eşq, həm ağıl, həm də qeyrət üçün borcun, cavabdehliyin ölçüsünə əmsal – Cəlil Məmmədquluzadədir!..".

Q.-in Mirzə Cəlil haqqında tədqiqatları elmi təhlillərin orijinallığı, ümumiləşdirmələrin güclü olması ilə seçilir.

QARAYEV Məmməd (1888-1913) – maarifçi, publisist. Qori müəllimlər seminariyasını bitirmiş (1907), təyinatla Şuşa qəzasının Malıbəyli kəndindəki "Rus-müsəlman" məktəbinə müdir göndərilmiş, 1910 ildə bu kənddə Qarabağda ilk qız məktəbini açmışdır. Q. dövri mətbuatda "Odinoki", "Tamaşaçı" və "Məmməd Qarayev (Qazaxlı)" imzaları ilə hekayələr, publisistik yazılar dərc etdirirdi.

1910 ildə M. və Həmidə xanım Q.-in qonağı olmuş, onun dərs dediyi hər iki məktəbdə şagirdlərlə görüşmüşlər. Q.-in təşəbbüsü ilə qız məktəbinin şagirdləri, üzərində Molla Nəsrəddinin surətini toxuduqları xalçanı M.-yə hədiyyə vermişlər. Həmin il bir neçə ay sonra "Molla Nəsrəddin" jurnalının 32-ci sayındakı "İki adam" felyetonunda M. belə yazmışdır: "Qarabağda iki adam var ki, dinc oturmurlar ki, müsəlmanlar düz yolları ilə getsinlər: biri müəllim Məmməd Qarayevdir ki, fikri-zikrini qoyub qız uşaqlarını oxutmağa, biri də Malıbəyli Məşədi Nəcəfqulu oğludur ki, babalı deyənin boynuna, belə deyirlər ki, bu kişi öz əli ilə yapışır qızların əlindən və çəkə-çəkə aparır Qarayevin dağılmış məktəbinə. Allah mərdimazara lənət eləsin!".

QARAGÖZOV Mahmud Nədim (?-?) – jurnalist, publisist. 1911 il avqustun 13-də "Nicat" qəzetindəki "İran vüquatı barəsində" məqaləsində çoxlu ərəb və fars sözləri işlətmişdi. M. "Mustafa bəy Əlibəyov" felyetonunda Q.-u qəliz yazı üsuluna görə tənqid etmişdir ("Molla Nəsrəddin" jurnalı, 1911, №28). "Məqaləyə o qədər acı bibər salıb ki, insan oxuyanda gözlərindən yaş gəlir". Q. tənqidi haqlı sayır "Nicat"da dərc etdirdiyi "Molla Nəsrəddin"ə başlıqlı məktubda yazırdı: "Əfəndi! Atmış olduğunuz daş [...] ilə bəndə hasil olan təbəddülatı izahdan acizəm [...]. Haqqımda olan etirazları qardaşcasına [...]. nəsihət kimi qəbul edirəm"[...]. Məqaləmdən almış olduğunuz cümlələri oxuyunca onların həm anlaşılmaz bir dərəcədə qəliz və həm də uzun olduğunu özüm dəxi təsdiq etdim".

QASIMZADƏ Əsgərxan (?-?) – təbrizli ziyalı, müxbir. M.-nin ailəsi ilə Təbrizdə tanış olmuş, "Molla Nəsrəddin"in nəşrinə kömək etmişdir. 1921 ildə ədibin ailəsi ilə birlikdə Bakıya gəlib, 1928 ilə kimi burada yaşamış, sonra Təbrizə köçmüşdür. Mətbuatda "Azərvənd" təxəllüsü ilə yazırdı. 1944 ildə M. haqqında xatirələrini yazıb, Təbrizdə çıxan "Vətən yolunda" qəzetində "Sadə insan" başlığı ilə nəşr etdirmişdir.

M.Qarayev

QASIMZADƏ Feyzulla Səməd oğlu (1898-1976) – pedaqoq, ədəbiyyatşünas. Filol. e.d. (1956), prof. (1957), Azərb. əməkdar elm. xad. (1958), Azərb. EA-nın həqiqi üzvü (1967). İlk təhsilini mollaxanada və Mərdəkan kənd ibtidai məktəbində almış, sonra Bakı şəhər ali-ibtidai məktəbini bitirmişdir (1916). APİ-də (1923-1925), ADU-nun şərqşünaslıq fakültəsində (1926-1929) oxumuşdur. Əmək fəaliyyətinə 1916 ildə Bakıda "Kazyonnaya palata" müəssisəsində başlamış, Göyçay qəzasının Qaziyan və Bakının Mərdəkan kənd ibtidai məktəblərində müdir, ana dili və ədəbiyyat müəllimi işləmişdir. Bir müddət Qala-Mərdəkan Rayon Maarif İdarəsində təhsil-tərbiyə şöbəsinin müdiri olmuş (1920), 2-ci dərəcəli Bakı şəhər məktəbində (1922-1929), Bakı Pedaqoji Texnikumunda (1928-1929) dil və ədəbiyyat müəllimi, Xalq Maarif Komissarlığında metodist-təlimatçı (1931-1938) işləmişdir. 30-cu illərin sonlarından APİ-nin Azərb. ədəbiyyatı tarixi kafedrasında assistent, dosent, müdir, ADU-nun Azərb. ədəbiyyatı tarixi kafedrasında dosent, müdir, prof. vəzifələrində çalışmışdır.

F.Qasımzadə

Q. 19 əsr Azərb. ədəbiyyatı tarixinin ən görkəmli tədqiqatçılarındandır. M.-nin ədəbi sələfləri və müasirləri olan A.A.Bakıxanov, M.F.Axundov, N.Vəzirov, habelə tənqidi realizm metodu haqqında monoqrafik tədqiqatları vardır. Ən sanballı əsəri "XIX əsr Azərb. ədəbiyyatı tarixi" (1956, 1966, 1974) kitabıdır. Dərslikdə ədəbi fəaliyyətə XIX əsrin sonlarında başlamış sənətkarların, o cümlədən M.-nin dünyagörüşünün formalaşmasına təsir göstərən ictimai amillər təhlil olunur. Q. Mirzə Cəlili M.F.Axundov ədəbi məktəbinin davamçıları sırasına daxil edərək yazır: "Azərbaycanda N.Vəzirov, Ə.Haqverdiyev, C.Məmmədquluzadə... və başqa yazıçılar... Axundov məktəbinin şagird və xələfləri olmuşlar". Kitabın son səhifələrində Q. "XX əsr ədəbiyyatının nəhəng simaları olan Mirzə Ələkbər Sabirin və Cəlil Məmmədquluzadənin yetişməsi üçün

zəmin yaratmış" dövrü – XIX əsrin 90-cı illərini, bu dövrdə yetişmiş sənətkarların yaradıcılıq metodunu səciyyələndirərək yazır: "90-cı illər Axundov ədəbi məktəbinin ən qızğın fəaliyyət dövrünü təşkil edir. Bu illərdə Axundovun... realist ənənələri N.Vəzirov, Ə.Haqverdiyev, N.Nərimanov, C.Məmmədquluzadə, S.S.Axundov və başqaları tərəfindən inkişaf etdirilərək yeni mərhələyə yüksəldilmişdir. Bu yazıçıların əsərlərindəki tənqidi realizm ictimai-satirik məzmunu, ifşaçı xarakteri ilə tamamilə yeni mahiyyət daşıyan bir realizm idi". Q. "Azərbaycan mətbuatı tarixindən" məqaləsində "Molla Nəsrəddin" və onun təsiri altında nəşr olunan satirik mətbuatdan bəhs etmişdir ("Azərbaycanı öyrənmə yolu" jurnalı, 1931, №2-3, səh. 59-73).

Q. həmçinin pedaqoji fəaliyyətində, xüsusilə, ali məktəblərdə tələbələrə oxuduğu mühazirələrdə M. irsinin təhlilinə geniş yer ayırırdı.

QASIMOV Məmməd (1925-1986) – teatr rəssamı. Nax. MR-nın əməkdar inc. xad. C.Məmmədquluzadə ad. Naxçıvan Dövlət Musiqili Dram Teatrının baş rəssamı idi. M.-nin "Ölülər" tragikomediyasının (1943) və "Anamın kitabı" dramının (1966) bədii tərtibatını vermişdir.

QASIMOV Muxtar Rüstəm oğlu (1911-1965) – tarixşünas, maarif işçisi, Tarix e.d. (1965). MDU-nun tarix fakültəsini (1942) bitirmiş, SSRİ XİN Diplomatiya məktəbində oxumuşdur. AK(b)P MK-nın Siyasi maarif evində işləmiş, Bakı partiya məktəbində dərs demiş, AK(b)P MK-da xalq təhsili şöbəsinin, APİ-də Sov. İKP tarixi kafedrasının müdiri olmuşdur. 1952 ildə "Molla Nəsrəddin" jurnalında ictimai-siyasi ideyalar (1906-1917-ci illər)" mövzusunda namizədlik, 1965 ildə "Mübariz inqilabi-satirik "Molla Nəsrəddin" jurnalı və onun ictimai-siyasi istiqamətləri (1906-1931-ci illər)" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir. Çoxillik tədqiqatında alim bu qənaətə gəlir ki, "Molla Nəsrəddin" jurnalını öz dövrünün ictimai-siyasi hadisələri, Azərb. və b. Şərq ölkələrinin həyatı haqqında bir ədəbi-bədii ensiklopediya adlandırmaq olar: "Mənəvi mədəniyyətimizin tarixi ilə məşğul olan tarixçilərimizin, filosoflarımızın, iqtisadçılarımızın, ədəbiyyatçılarımızın və rəssamlarımızın hər biri "Molla Nəsrəddin" jurnalında öz sahəsinə aid zəngin material tapa bilər".

İ.Qasprinski

M. və "Molla Nəsrəddin" jurnalı haqda araşdırmaları Q.-un dövri mətbuatda nəşr olunmuş bir sıra məqalələrində və 1960 ildə çıxmış "Mübariz inqilabi-demokratik "Molla Nəsrəddin" jurnalı" kitabında da öz əksini tapmışdır.

QASIMOV Hacı İbrahim Hacı Mahmud oğlu (1886-1936) – jurnalist, publisist, yazıçı, teatr tənqidçisi, tərcüməçi. "Tazə həyat", "Məlumat", "İqdam", "İqbal", "Yeni iqbal" qəzetlərinin əməkdaşı, "Kəmiyyət" jurnalının və "Bəsirət" qəzetinin red. olmuşdur. Ədəbiyyat və teatr sənətinə aid tənqidi məqalələr, sosial məsələlərə dair publisistik əsərlər və felyetonlar yazmışdır. Mirzə Cəlil, M.Ə.Sabir, M. Hadi və b., habelə "Molla Nəsrəddin" jurnalı, maarif və təhsil, qadın azadlığı haqqında məqalələri var. 1913 ildə "İqbal" qəzetində "Amerika qadınları və bizimkilər" məqaləsində yazmışdı: "Qafqasiyada ildə bir-iki dəfə müsəlman qadınlarının əhvalı haqqında bəhs açılıb, qəzetlərdə uzun mütaliələr dərc edilmiş, söylənmişdir. Ən əvvəl bu yaranın közünü Tiflisdə müntəşir "Molla Nəsrəddin" məcmuəsi qoparmağa başladı [...]. Keçənlərdə bu jurnalın qapadılmasını da həmin övrət məsələsinə istinad edirlər".

QASIMOVA Elmira Kamil qızı (d. 1944) – mətnşünas, psevdonomastika mütəxəssisi. Filol. e.n. (1984). 1969 ildən Azərb. EA Nizami ad. Ədəbiyyat İn-unda "Molla Nəsrəddin" jurnalının təkrar nəşrinin tərtibçilərindəndir. "Cəlil Məmmədquluzadənin gizli imzaları" mövzusunda namiz. dissertasiyası müdafiə etmişdir (1984). Mətbuatda "Molla Nəsrəddin" jurnalındakı gizli imzaların, imzasız əsərlərin tədqiqi və s. ilə bağlı elmi-publisist yazılarla çıxış edir. 1988 ildən "Molla Nəsrəddin-88" satirik radio jurnalının müəlliflərindəndir. Satirik yazılarını "Dəli", "Ağıllı dəli", "Xalis dəli", "Mollabacı" və s. imzalarla dərc etdirir.

QASPRİNSKİ İsmayıl bəy Mustafa ağa oğlu (1851-1914) – Krım tatarlarının ictimai xadimi, maarif islahatçısı, naşir, alim, nasir, publisist, mütərcim. İlk təhsilini evdə xüsusi müəllimlərdən almış, Simferopol gimnaziyasında, Voronej ibtidai hərbi, Moskva orta hərbi məktəbində, Paris Şərq dilləri məktəbində oxumuşdur. Bağçasarayda Zəncirli mədrəsəsində, Yaltanın Dərəkay kənd məktəbində rus dili müəllimi (1867-1871), Parisdə "Aşey" reklam agent-

liyində məmur, İ.A.Turgenevin katibi (1871-1875), Bağçasaray şəhər bələdiyyə idarəsinin rəisi (1878-1883) işləmişdir. 1883 ildən "Tərcüman" qəzetinin nəşrinə icazə almış və ömrünün sonunadək naşir və red. kimi orada fəaliyyət göstərmişdir. Rusiya müsəlmanlarının birliyini təmin edən "dildə, fikirdə, işdə birlik" ideyasını təbliğ etmiş, "Rusiya müsəlmanlığı" (1881), "Xoceyi-sibyan" (1884), "İslamlara dair nizamlar və imtiyazlar" (1885), "Məişət müharibəsi" (1886), "Qiriəti-türki" (1894), "Miraati-cədid" (1901), "Darül Rahat müsəlmanları" (1906) və s. əsərlərini yazmışdır.

M. ilə Q.-nin əlaqələri zəngin və rəngarəng olmuşdur. Bütün azərb. ziyalıları kimi M. də "Tərcüman"a və onun naşirinin fəaliyyətinə rəğbət bəsləmişdir. "Molla Nəsrəddin" nəşrə başladıqdan sonra Q. onun fəaliyyətini "Tərcüman" vasitəsilə Rusiya müsəlmanları arasında təbliğ etmiş, onu "bir qaç boyalı gözəl rəsmlər ilə təzyin", "millətimiz arasında bəzi suyiadət və hərəkat haqqında xeyli tənqidanə yazılmış lətifə və fəqərələrdən" ibarət məcmuə kimi təqdim etmiş, "bizim bu qism yeni ədəbiyyatımız dəxi tədricən intişar edərək millət arasında rəğbət bulub fayda gətirməsi"nə ümid bəsləmişdir.

Q. "Tərcüman"da dərc etdiyi xüsusi icmallarda "Molla Nəsrəddin"ə xüsusi yer ayırır, onun gülüşünün səciyyəsini izah edib aydınlaşdırmağa çalışırdı. İcmalların birində yazırdı: "Bizim Tiflisin "Molla Nəsrəddin"i ədibanə ağlayır və mənalımənalı söylənir, uyumuş başları iynə ilə sancır". "Molla Nəsrəddin"də gedən yazılara və karikaturalara "Tərcüman" səhifələrində vaxtaşırı yer verilirdi.

Q. 1908 ildə M.-yə məktub göndərərək ondan Qahirədə nəşr etmək istədiyi "Əl-Nihad" jurnalında "Molla Nəsrəddin" materiallarından istifadə etməsinə icazə verməsini xahiş etmişdi.

Mirzə Cəlil Q.-nin Rusiya müsəlmanları arasında xidmətlərini yüksək qiymətləndirir, eyni zamanda görüşlərinin məhdud cəhətlərini də tənqid edirdi ("Tərcümanın fitvası").

QAYIBOV Mirzə Hüseyn Əfəndi (1830-1917) – maarifpərvər din xadimi, ədəbiyyatşünas, publisist. Ərəb və fars dillərini mükəmməl öyrənmiş, mədrəsədə dərs demişdir. Zaqafqaziya müftisi Məhəmməd əfəndinin köməyilə Tiflisdə müsəlman ruhani idarəsinə münşi (katib), sonra isə mədrəsəyə şəriət müəllimi təyin edilmişdir. Dövrünün görkəmli maarifpərvərləri M.F.Axundov və İlya Çavçavadze ilə dostluq etmişdir. Qori müəllimlər seminariyasında bir müddət dərs demişdir. O, 1881 ildə müəllimlikdən azad olunub Zaqafqaziya müftisi təyin edilir, ömrünün sonunadək bu vəzifədə işləyir. M.F.Axundovun məsləhəti ilə tərtib etdiyi "Azərbaycanda məşhur olan şüəranın əşarına məcmuədir" adlı dörd cildlik əlyazması milli ədəbiyyat tarixinin öyrənilməsində qiymətli qaynaqdır. Bu məcmuədə XVIII-XIX əsrlərdə yaşamış Azərb. şairlərinin əsərlərindən nümunələr toplanmışdır.

QAYNULLİN Mühəmməd Xayrulloviç (1903-?) – tatar ədəbiyyatşünası. Filol. e.d., prof. Tatarıstanın əməkdar elm xad. "Kayum Nasıri" (1945), "Kayum Nasıri və tatarlar arasında maarifçilik hərəkatı" (1955), "XX əsr tatar ədəbiyyatı" (1957-1975), "Tatar ədəbiyyatı və publisistikası", "Tukay-tənqidçi" və s. monoqrafiyaların müəllifidir. 1966 ildə M.-nin 100 illiyi yubileyində fəal iştirak etmiş, ədib haqqında "Minnətdarlıq" başlıqlı məqalə yazmışdır. ("Kommunist" qəzeti). O qeyd edir ki, "Dünya ədəbiyyatına dühalar bəxş etmiş azərbaycanlıların bu bayramı bizim üçün də çox əzizdir. ...Tatar xalqı tarix boyu Azərb. xalqı ilə sıx ünsiyyətdə olmuşdur. C.Məmmədquluzadə böyük alim Mirzə Kazım bəyin, məşhur ədib və dövlət xadimi N.Nərimanovun, tatar klassiki Q. Tukayın xalqlarımız arasındakı çoxcəhətli əlaqə və dostluq yolunda gördükləri işin ən fəal davamçısı, iştirakçısıdır. Mirzə Cəlilin "Molla Nəsrəddin" jurnalı Tatarıstana gəlib çatdığı ilk gündən bütün zəhmətkeşlərin ürəklərində yurd salmışdı. Bu jurnal tez-tez öz səhifələrində tatar xalqının həyat və mənşəyi haqqında yazılar verirdi, jurnalın bizdə çoxlu müxbiri var idi". "Tatar ədəbiyyatı və publisistikası" əsərində tatar mətbuatının "Molla Nəsrəddin" jurnalını müdafiə etməsi haqqında danışır.

QAZIYEV Məmməd bəy (1867-1909) – müəllim. M.-nin maarifçi müasiri. İrəvan müəllimlər seminariyasını bitirmiş (1886), Uluxanlı normal məktəbinə ikinci müəllim təyin olunmuşdur. Xəstəliyinə görə 1887 ildə vəzifəsindən azad edilmişdir. 1888 ildən Baş Noraşen ikisinifli məktəbinin müdiri kimi fəaliyyət göstərmişdir.

M.H.Qayıbov

Bu məktəbdə o, M. ilə birlikdə pedaqoji fəaliyyətlə məşğul olmuşdur. Onların birgə səyi, Baş Noraşen məktəbində müəllimlərin və şagirdlərin iştirakı ilə tamaşa hazırlanıb göstərilmiş, əldə edilən 40 manat vəsait isə yoxsul şagirdlər üçün sərf edilmişdir. Bu nəcib işinə görə Qafqaz Təhsil Dairəsinin rəisi Q.-ə yazılı təşəkkür vermişdir. Q. 1896 ildən ömrünün sonunadək Uluxanlı məktəbində nəzarətçi kimi çalışmışdır. Maarif sahəsindəki xidmətlərinə görə üçüncü dərəcəli Müqəddəs Anna ordeni ilə təltif olunmuşdur.

Qəmküsar

QƏBULOV Şirvanski Həmzət bəy Həbibulla oğlu (1884-1912) – maarif xadimi, publisist. Stavropol gimnaziyasını və Kiyev hərbi məktəbini bitirmişdir. "Zakavkazye" (Tiflis) qəzetində müsəlman şöbəsinin müdiri işləmişdir. Ədəbiyyat, maarif, mədəniyyət, dil, qadın azadlığı və xalqlar dostluğuna dair məqalələri var. Mirzə Cəlil, Ömər Faiq, H.Minasazov və b. demokratik ziyalılarla yaxından əlaqə saxlamışdır. M.F.Axundovun anadan olmasının 100 illik yubileyinin keçirilməsinin (1911) təşəbbüsçülərindən və təşkilatçılarından olmuş, bununla əlaqədar yazdığı məqalələr Rusiyanın bir çox qəzetlərində və Parisdə çıxan "Revyü dü Mond müsülman" jurnalında dərc edilmişdir. "Növbəti vəzifələrimiz", "Mirzə Fətəli Axundov" və s. məqalələri məşhurdur. Azərb. ədəbiyyatı və mədəniyyətinin inkişafında xidmətləri vardır.

F.Qədri

QƏDRİ Fatma Qədir qızı (1907-1968) – aktrisa. Azərb. xalq art. (1943). Bakı Teatr Texnikumunu və Azərb. Pedaqoji İnstitutunu bitirmişdir (1926). Səhnə fəaliyyətinə 1927 ildə Bakı Türk İşçi Teatrında başlamış, burada M.-nin "Anamın kitabı" pyesində Gülbahar rolunda çıxış etmişdir. 1932-1935 illərdə Bakı Rus Dram Teatrında, 1935 ildən sonra ADT-nda çalışmışdır. Onun yüksək professionallıqla yaratdığı səhnə obrazları Azərb. teatr sənətinin tarixində əhəmiyyətli yer tutur. 1933 ildən pedaqoji fəaliyyət göstərmişdir.

QƏLƏNDƏRLİ Baxşı Həsən oğlu (1903-1985) – teatr rejissoru. Azərb. əməkdar inc. xad. 1934-1951 illərdə C.Cabbarlı ad. İrəvan Dövlət Dram Teatrında işləmiş, 1964 ildən C.Məmmədquluzadə ad. Naxçıvan Dövlət Musiqili Dram Teatrında baş rej. vəzifəsində çalışmışdır. 1966 ildə o, M.-nin "Anamın kitabı" dramının quruluşçu rej. olmuşdur.

"QƏM PƏNCƏRƏSİ" – iki seriyalı, 13 hissəli, rəngli, səsli, genişekranlı bədii film. 1987 ildə "Azərbaycanfilm" kinostudiyasında istehsal edilmişdir. Ssenari müəllifi və quruluşçu rej. Anar, operator Hüseyn Mehdiyev, rəssamlar Elbəy Rzaquliyev, Rafiq Nəsirov, bəstəkar Cavanşir Quliyev, səs operatoru Tatyana Kərimovadır. Film M.-nin həyat yolunun müxtəlif mərhələlərini, həmçinin onun əsərlərindən parçaları ekranda canlandırır. Rollarda çəkiliblər: H.Turabov (Mirzə Cəlil), E.Şabanova (Həmidə xanım), H.Məmmədov (Məmmədhəsən əmi), Ş.Yusifova (İzzət), V.Həsənov (Xudayar bəy), M.Fərzəlibəyov (müəllim Həsənov), Səyavuş Aslan (Karapet), L.Şıxlinskaya (Zeynəb), F.Manafov (İsgəndər), N.Zeynalova (Səkinə), Yaşar Nuriyev (Kərbəlayı Cəfər) və b.

QƏMKÜSAR (Əliqulu Ələkbər oğlu Nəcəfovun təxəllüsü) (1880-1919) – şair, publisist, jurnalist. Yaradıcılığa 1904 ildə "Şərqi-Rus" qəzetində başlamış, 1906 ildən "Molla Nəsrəddin" jurnalında "Cüvəllağı", "Cüvvəllağı bəy", "Sarsaqqulu bəy" imzaları ilə iştirak etmişdir. 1913-1917 illərdə "Molla Nəsrəddin" jurnalının ikinci müdiri və baş red. olmuşdur. Məqalələrində dini fanatizm, cəhalət, qadın hüquqsuzluğu, çarizmin müstəmləkə siyasəti, İran, Türkiyə istibdadı kəskin tənqid edilirdi. "Molla Nəsrəddin" jurnalının millətçi burjua mətbuatına qarşı, dilin, yazının sadəliyi və xəlqiliyi uğrunda mübarizəsində fəal iştirak etmişdi. Mirzə Cəlil, M.Ə.Sabir, Əli Nəzmi və digər mollanəsrəddinçilərlə şəxsi əqidə dostluğu etmişdir. 1916 ildə M.-nin "Ölülər" komediyasının Bakıda, Daşkənddə və Petrovski-Portda (indiki Mahaçqala), 1917 ildə Tiflisdə və Gəncədə tamaşaya qoyulmasında fəal iştirak etmiş, Şeyx Nəsrullah rolunun ilk ifaçısı olmuşdur. Tiflisdə qaragüruhçular tərəfindən öldürülmüşdür.

QƏNBƏROV Nəsrulla (1901-1988) – müəllim. "Molla Nəsrəddin" jurnalının müxbiri. 1924 ildə Astraxanbazara (indiki Cəlilabad – *red.*) gedən M. müəllimlərlə keçirdiyi iclasda maariflənmənin əhəmiyyətindən, bir nəfər də olsa uşağın məktəbdən kənar qalmaması lüzumundan danışır, "uşaqların millətin, xalqın gələcəyi olmasını" xüsusi qeyd edirdi. İclasdan sonra qonaq Q.-a "bir dəstə zərf verib, "maarifə, mədəniyyətə əngəl törədən məsələlərdən yazmağı və üzərində ünvanı çap olunmuş"

yerə, "Molla Nəsrəddin" redaksiyasına göndərməyi xahiş edir. Sonralar Q. xatırlayırdı: "1925-ci ildən "Molla Nəsrəddin"ə yazmağa başladım. Ta 1930-cu ilədək məcmuədə "Sancaq", "Qarmıyarıq", "Uzaq görən", "Qənbərli" imzaları ilə məqalələrim çıxdı". Həmin il Bakıda keçirilən I Müəllimlər qurultayında Q. Mirzə Cəlillə görüşür, qəzet üçün şəkillərini çəkirlər. M. 1928 il 18 sentyabr tarixli məktubunda Q.-dan Lənkəran mollaları və məscidlərinin sayı, fəaliyyəti, mollaxanalarda verilən dərs və s. barədə məlumat toplayıb redaksiyaya yazmağı xahiş etmişdi. M. 1930 il oktyabrın 20-də Q.-a yazdığı məktubunu "bundan sonra da məni gah-gah yad-bud etməyinə ümidvaram. Sağ ol, əzizim. Çox yaşa. Cəlil" sözləri ilə qurtarmışdı.

QƏNİZADƏ Sultanməcid Hacı Murtuzəli oğlu (1866-1937) – maarif xadimi, pedaqoq, yazıçı, mütərcim, filoloq alim. Şamaxıda "Məclis" məktəbində və şəhər məktəbində oxumuş (1872-1882), Tiflisdə Aleksandrov Müəllimlər İn-tunu (1887) bitirmişdir. M.Mahmudbəyovla Bakıda ilk "Rus-müsəlman" məktəbini təşkil edərək, ona rəhbərlik (1887-1891) etmiş, Bakı şəhəri ikinci "Rus-müsəlman" məktəbi"nin müdiri olmuşdur (1892-1905). 1905-1908 illərdə Qori müəllimlər seminariyasının Azərb. şöbəsində müfəttiş, 1908-17 illərdə Bakı qub. və Dağıstan vil. xalq məktəblərinin 2-ci rayonu üzrə müfəttiş, 1917-1918 illərdə Bakı qub. və Dağıstan vil. xalq məktəblərinin naziri olmuşdur. Q. Azərb. XC parlamentinin üzvü idi. Azərb.-da ana dilində məktəblər açılması, dərsliklər yazılması, milli mətbuat və teatrın inkişafında Q.-nin xidmətləri var. Q. bir sıra lüğət və dərsliklərin, "Qönçə xanım" pyesinin (1891), nəsr əsərlərinin, publisistik və pedaqoji məqalələrin müəllifidir.

Q.-nin M. ilə əlaqələri XIX əsrin 90-cı illərindən başlanmışdır. M. 1905 ildə yazdığı "Yeni ibtidai məktəblərdə Azərbaycan dili" məqaləsində Q.-nin adını çəkmişdir. Onların şəxsi tanışlığı isə 1905 ilin axırlarında başlamışdır. Qoridə seminariya tələbələri üçün "Övraqi-tərbiyə" adlı jurnal nəşr etməyə təşəbbüs qaldıran Q. Tiflisdə M. ilə görüşmüş, jurnalı "Qeyrət" mətbəəsində nəşr etdirmək üçün müqavilə bağlamışdır. M.Ə.Sabirlə "Molla Nəsrəddin" redaksiyası arasında əlaqəni də Q. yaratmışdır. Q. 1911 ildə "Molla Nəsrəddin" jurnalında "Şeyda" imzası ilə bir bəhri-təvil dərc etdirmişdir.

"QƏSSAB" – M.-nin əsəri. İlk dəfə Bakıda "Kommunist" qəzetində (4 mart, 1923, №51) çap olunmuşdur. Qadın əsarətinə qarşı etiraz motivləri ilə dolu məişət əsəridir. Hekayədə qızının taleyini öz istədiyi kimi həll edən bir atanın timsalında M. azərb. qadının ailədə çıxılmaz vəziyyətini göstərmişdir. Onun hissləri heç kimi maraqlandırmır, o, pula, mala satılır. Qısa süjetli bu hekayədə Məşədi Məmmədəlinin xarakteri çox məharətlə açılır. Qızını qəssab Şamilə verən Məşədi Məmmədəli qəssabın göndərdiyi ətin yağlı-yavanlığından asılı olaraq, ona verdiyi vədi tez-tez dəyişir. Hekayə Məşədi Məmmədəlinin bu hərəkətinin artıq müalicəsi olmayan azara çevrildiyi qənaətilə bitir. Məşədi Məmmədəlinin xarakteri səciyyəvi boyalarla, bitkin yaradılmışdır.

"QEYRƏT" – Tiflisdə mətbəə-nəşriyyat. M. və Ömər Faiq tərəfindən 1905 ilin yazında yaradılmışdır. Naxçıvanlı tacir Məşədi Ələsgər Bağırov mətbəənin təşkilinə ciddi maliyə yardımı göstərmişdir. 20 əsrin ilk Azərb. mətbəə-nəşriyyatı olan "Q." ictimai-siyasi və dini kitablar, bədii əsərlər, pedaqoji ədəbiyyat, intibahnamələr, vərəqələr və təqvimlər nəşr edirdi. Nəşriyyatda, həmçinin rus, ərəb, fars dillərində çap işləri görülmüş, tərcümə əsərləri

S.Qənizadə

Tiflisdə **"Qeyrət"** mətbəəsinin binası.

də nəşr olunmuşdur. "Q." mətbəə-nəşriyyatında ictimai-siyasi ədəbiyyatın və bədii əsərlərin çapı üstünlük təşkil etmişdir. Yeni tipli Azərb. ədəbiyyatının ən dəyərli bədii nümunələri "Q." nəşriyyatının nəşrləri vasitəsilə geniş oxucu təbəqələrinə çatdırılmışdır. M.-nin "Poçt qutusu" (1905), "Usta Zeynal", "İranda hürriyyət" (1906), "Qurbanəli bəy" (1907) hekayələri "Q." mətbəəsində kitab halında çapdan çıxmış, onu orijinal və ciddi bir yazıçı kimi tanıtmışdır. "Q." mətbəəsində nəşr olunmuş Mirzə Cəlil, Ə.Hüseynzadə, Ö.F.Nemanzadə və Əbuturab Axund oğlunun məqalələrindən ibarət "Bizə hansı elmlər lazımdır" kitabında dini və dünyəvi elmlərin müasir həyatda rolu məsələsi müzakirəyə qoyulmuşdu. "Molla Nəsrəddin" jurnalı 1911 ilədək "Q." mətbəə-nəşriyyatında çap edilmişdir. "Q." 1911 ildə öz funksiyasını genişləndirərək çap şirkətinə çevrilmiş, lakin fəaliyyətini davam etdirmək imkanlarını itirdiyi üçün bağlanmışdır.

N.Qoqol

QOQOL Nikolay Vasilyeviç (1809-1852) – rus yazıçısı. "Dikanika yaxınlığındakı xutorda axşamlar", "Viy", "Taras Bulba", "Şinel" povestlərinin, "Müfəttiş" komediyasının, "Ölü canlar" roman-poemasının və s. əsərlərin müəllifidir. Əsərlərində feodal-patriarxal həyat tərzi tənqid olunmuş, "kiçik adamlar"ın acı taleyi təsvir edilmişdir. Q.-un yaradıcılığı M.F.Axundov, N.Nərimanov, Ə.Haqverdiyev, C.Məmmədquluzadə və b. Azərb. yazıçılarının ictimai-ədəbi görüşlərinə təsir göstərmişdir. Azərb. ədəbiyyatı, dramaturgiyası və publisistikasında Q.-un satirik gülüşündən istifadə edilmişdir. Yazıçının "Müfəttiş" və "Evlənmə" komediyaları dəfələrlə Azərb. səhnəsində tamaşaya qoyulmuşdur. Q.-un 100 illiyi münasibətilə "Molla Nəsrəddin" jurnalında M.-nin "Qoqol" məqaləsi çap olunmuşdur.

QOLOŞAPOV V.N. (?-1906) – rus generalı. 1906 ildə erməni-müsəlman münaqişəsini nizama salmaq üçün Şuşaya general-qubernator təyin edilmişdi. 1906 ilin yanvarında hər iki icmanın nümayəndələrini qəbul edən Q. konflikti sülh yolu ilə həll edəcəyinə söz versə də, tezliklə qatı ermənipərəst mövqe tutaraq şəhərin azərb. əhalisinə qarşı terror və məcburi köçürmə tədbirlərini həyata keçirmişdi. Q.-un geri çağrılması barəsində Qafqaz şeyxülislamının canişinə xahişi nəticəsiz qalmışdı. Ona bildirilmişdi ki, Q. geri çağrılmayacaq və münaqişə başa çatana qədər cəza tədbirləri davam edəcəkdir. Əhməd Ağayevin başçılığı ilə 1905 ildə yaradılmış "Difai" partiyası azərb. əhaliyə hədsiz zülümlərinə görə Q.-u terror yolu ilə aradan götürmək barəsində qərar qəbul etmişdi. Qərarın icrası "Difai"nin Şuşa təşkilatının üzvü Hüsü Əli oğluna tapşırılmışdı. O, 1906 ilin noyabrında tapşırığa əməl edərək Tiflisdə Q.-u qətlə yetirmiş, "Difai" partiyası isə verdiyi bəyanatla bu terror aktını öz üzərinə götürmüşdü. M.-nin "Molla Nəsrəddin" jurnalının 1906 ilin 17 və 18-ci saylarında dərc etdirdiyi "Qoloşapova" və "Qoloşapovun geri çağrılması" felyetonlarında rus generalının azərb. əhaliyə düşmən münasibətindən və Qafqazın müsəlman liderlərinin onu Şuşadan uzaqlaşdırmağa göstərdikləri uğursuz cəhddən söz açılırdı. Hər iki felyetonda imperiyanın yürütdüyü ayrıseçkilik siyasətinin mahiyyəti göstərilir, eyni zamanda azərb.-lar arasında birliyin və həmrəyliyin olmamasından bəhs edilirdi. İkinci felyeton Sabirin məşhur "Etdi bu fələk hər kəsə bir tövr yamanlıq" misrası ilə başlayan satirası ilə qurtarır.

QORİ SEMİNARİYASI, Zaqafqaziya müəllimlər seminariyası – Zaqafqaziyanın, əsasən yerli əhalisindən ibtidai məktəb müəllimi hazırlayan orta pedaqoji təhsil müəssisəsi. 1876 ildə (Azərb. şöbəsi 1879 ildə) Gürcüstanın Qori ş.-ndə açılmış, 1918 ilədək fəaliyyət göstərmişdir. Seminariya Cənubi Qafqaz xalqlarının, o cümlədən Azərb. xalqının mədəni inkişafında mühüm rol oynamışdır. Azərb.-nın bir sıra görkəmli maarif, mədəniyyət, elm, ədəbiyyat və incəsənət xadimləri (C.Məmmədquluzadə, S.Vəlibəyov, F.Köçərli, R.Əfəndizadə, Ü.Hacıbəyov, M.Maqomayev, M.Mahmudbəyov, N.Nərimanov, S.S.Axundov, Y.Qasımov, Ə.Seyidov və b.) Q.s.-nın məzunu olmuşlar.

M.-nin mənəvi təkamülündə, dünyagörüşünün formalaşmasında Q.s.-nın müstəsna əhəmiyyəti vardır. Burada keçən təhsil illəri (1882-1887) M.-nin təlim-tərbiyəsində, gələcək müəllimlik fəaliyyətində və yazıçılıq taleyində mühüm rol oynamışdır. M. təhsil illərində seminariyada keçirilən bütün ədəbi-mədəni tədbirlərdə fəal iştirak edirdi. Onun seminariyanın kitabxanası ilə əlaqələri, rus və dünya ədəbiyyatının klassik nümunələrini müta-

liə etməsi də dünyagörüşünün formalaşmasına əhəmiyyətli təsir göstərmişdir.

Q.s.-nın ictimai-maarifçi mühiti M.-ni yaxın gələcəkdə ciddi, səmərəli və məhsuldar ədəbi-pedaqoji fəaliyyətə hazırlayan əsas məktəb olmuşdur. Təhsil illərində M. müxtəlif millətlərin nümayəndələri olan mütərəqqi pedaqoqlardan dərs almış, onların ədəbi-maarifçi, pedaqoji-metodiki görüşlərindən faydalanmışdır. Seminariyanı bitirərkən o, artıq öz mülahizələrini Azərb. və rus dillərində sərbəst ifadə etmək imkanına, müstəqil fikir yürütmək qabiliyyətinə yiyələnmiş ziyalı bir gənc idi. Bu dövrdə o, Zaqafqaziyanın bir sıra görkəmli ziyalıları ilə yaxınlaşmışdı.

1887 ildə seminariyanı müvəffəqiyyətlə bitirən M. İrəvan qubernıyasının Uluxanlı kənd məktəbinə təyinat almışdır.

"QOŞA BALINC" – M.-nin hekayəsi. 1926 ildə qələmə alınmışdır. Bir çox son hekayələrində olduğu kimi, burada da yazıçı avtobioqrafik motivlərdən bəhrələnmişdir. Bacısı Səkinənin qızı Pakizəni "Zaqatala ünas darülmüəllimatına" qoymaq məqsədilə iki gün Zaqatalada olmuş yazıçı, sonradan səfər əhvalatını özünəxas üslubda duzlu-məzəli hekayəyə çevirmişdir.

İdeya-mətləbi əxlaqi qənaət əldə etməkdən ibarət olan hekayə təhkiyəçi-qəhrəmanın incə müşahidələrlə zəngin söyləmində çoxqatlı, çoxmənzərəli şəkildə təzahür tapır. Şəhərin gerçəkləri və özəl həyatı, erməni və müsəlman xarakterləri, psixologiyası, "fərasəti" Mirzə Cəlil nəsrinə xas satirik kinayə, zərif yumor, incə psixologizm, ironiya və özünəironiya işığında təsvir olunur. "Q. b." rəmzi obrazdır və bu obraz vasitəsilə yazıçı XX əsr nəsrinin maraq dairəsinə daxil olan daha bir qata nüfuz edir, şüuraltı prosesləri izləyir.

QOTUA Parfen Aleksandroviç (1872-1936) – jurnalist, publisist, tərcüməçi, yazıçı-dramaturq, maarifçi, ictimai xadim, "Возрожденийе" qəzetinin redaktoru. C.Məmmədquluzadə, S.M.Qənizadə və H.Minasazov ilə yaxın dostluq etmişdir. Odessa un-tinin tarix-filoloji fakültəsini bitirmişdir (1897). Bir müddət Vladiqafqazda realnı məktəbdə müəllimlik etmiş və orada "Gürcü cəmiyyəti"nin sədri olmuşdur. 1905 ildə "Возрожденийе" qəzeti nəşrə başlamışdır (M. bu qəzetdə müsəlman şöbəsinin müdiri idi). "Возрожденийе" qəzeti qapandıqdan sonra 1906 ilin mart-aprel aylarında "Вестник возрождения" qəzetinin naşiri, həmin ilin 20 dekabrından başlayaraq "Закавказье" qəzetinin red. olmuşdur. Mətbuatda "Knyaz Kavkazski", "Amiran", "Feliks", "Toni", "Mustafa" və s. gizli imzalarla çıxış etmişdir. 1913 ildə Tiflis şəhər dumasının üzvü seçilmiş, yoxsulların mənafeyini müdafiə etmişdir.

QULİYEV Qabil Əzizulla oğlu (d. 1949) – aktyor. Azərb. əməkdar art. (1979). Ə.Hüseynzadə ad. Azərb. Mədəniyyət və İncəsənət Un-tinin aktyorluq fakültəsini bitirmişdir (1972). Həmin ildən N.Vəzirov ad. Lənkəran Dövlət Dram Teatrının aktyorudur. Q. burada M.-nin "Ölülər" komediyasında İsgəndər rolunda müvəffəqiyyətlə çıxış etmişdir (1992).

QULİYEV Qorxmaz Həzi oğlu (d. 1941) – ədəbiyyat tarixçisi. Azərb. Dövlət Dillər İn-tunun fransız dili fakültəsini bitirmişdir (1970). Filol. e.d. (1990), prof. (1992). "Azərbaycan ədəbiyyatının poetikası" (1992) monoqrafiyasında M.-nin "Ölülər", "Dəli yığıncağı", "Poçt qutusu" əsərləri təhlil olunmuşdur. "Statistikadan dinamikaya" adlı məqaləsində Azərb. ədəbiyyatında fərdi daxili xarakterin ilk dəfə M.-nin yaradıcılığında meydana gəldiyini dəlillər və elmi təhlil yolu ilə sübut edir.

"Dəlidən doğru xəbər" (1999) kitabındakı "Absurd teatr. Məmmədquluzadənin "Dəli yığıncağı" faciəvi komediyası Ö.İoneskonun "Kərgədanlar" komik faciəsi işığında" məqaləsində M.-nin yaradıcılığı 50-ci illərdə təşəkkül tapmış və bu gün Avropa dramaturgiyasında aparıcı meyllərdən biri olan absurd teatr konsepsiyası kontekstində araşdırılır.

QULİYEV Mustafa Zəkəriyyə oğlu (1893-1938) – dövlət xadimi, tənqidçi, publisist. Kiyev un-tində təhsil almış (1913-1918), tələbə ikən inqilabi hərəkata qoşulmuş, RK(b)P Kiyev Komitəsi müsəlman bölməsinin sədri seçilmişdi. Sovet dövründə bir sıra məsul vəzifələrdə işləmiş, 1922-1928 illərdə xalq maarif komissarı olmuşdur. Azərb.-da yeni tipli estetik fikrin və ədəbi tənqidin formalaşmasında müəyyən xidmətləri vardır. Klassik və müasir Azərb. ədəbiyyatına dair bir sıra məqalələrin müəllifidir. "Maarif və mədəniyyət" (1923-1926), "İnqilab və mədəniyyət" (1929-1931) jurnallarının red. kimi mövcud ədəbi prosesdə yaxından iştirak etmişdir. Azərb. sovet tənqidi və ədəbiy-

M.Quliyev

yatşünaslığının ilk nümunələrindən biri olan "Oktyabr və türk ədəbiyyatı" kitabında (1930) "Molla Nəsrəddin" jurnalının fəaliyyətinə və M.-nin ədəbi irsinə ümumən obyektiv qiymət vermiş, onu milli dramaturgiyada M.F.Axundov ənənələrini davam etdirən realist sənətkar kimi səciyyələndirmişdir. "İnqilab və mədəniyyət" jurnalının Q.-in redaktəsi altında çıxmış nömrələrində M.-nin yaradıcılığına dair əsasən obyektiv ruhlu məqalələr dərc edilmiş, o, "türk ədəbiyyatının Qoqolu" və "satiranı bizdə hər kəsdən daha sənətkarana yazan" ədib kimi qiymətləndirilmişdir.

Siyasi represiyanın qurbanı olmuşdur.

C.Quliyev

QULİYEV Cavanşir Rəhim oğlu (d. 1950) – bəstəkar. Azərb. əməkdar inc. xad. (1992). ADK-nı bitirmiş, (1975), 4 simfoniyanın, mindən çox mahnının müəllifidir. "Topal Teymur" (1983), "İtgin gəlin" (1993), "Dodaqdan qəlbə" (1997) televiziya tamaşa və filmlərinə, "Şəhərin yay günləri" (1983), "Fəryad" (1984), "Meşədə konsert" (1990), "Özümüzü kəsən qılınc" (1998) və s. kimi teatr tamaşalarına musiqi bəstələmişdir. M. əsərlərinə yazılan musiqi Q. yaradıcılığında xüsusi yer tutur. 1980-90 illərdə resp.-nın müxtəlif teatrlarında tamaşaya qoyulan, televiziyada göstərilən "Kamança", "Nigarançılıq", "Qəm pəncərəsi", "Sizi deyib gəlmişəm", "Anamın kitabı" tamaşa və filmlərin musiqisini bəstələmişdir. Bu musiqi konkret dövrlərin səciyyəvi kolorit cizgiləri, milli özünəməxsusluğu və müasirlik ruhu ilə diqqəti cəlb edir. İstedadının səciyyəvi cəhətlərindən biri də eyni əsərə (məs. "Sizi deyib gəlmişəm") Bakı, Sumqayıt, Şəki teatrları üçün müxtəlif və müstəqil musiqilər bəstələməsidir.

QULUBƏYOV Mirzə Sadıq (1823-?) – müəllim, teatr təşkilatçısı. 1852 ildə Naxçıvan şəhər qəza məktəbini bitirərək, ibtidai məktəblərdə ana dili və şəriət müəllimi diplomu alıb, ömrünün sonunadək Naxçıvan şəhər ibtidai məktəbində dərs demişdir. M.-nin müəllimi olmuşdur. Naxçıvan teatrının ilk təşkilatçılarındandır. 1887 il sentyabrın 2-də Naxçıvanda M.F.Axundovun "Molla İbrahim Xəlil kimyagər" dramı onun Naxçıvan qəza rəisinə göndərdiyi vəsatət əsasında tamaşaya qoyulmuşdur. M.-nin baş rolda oynadığı həmin tamaşada Q. suflyorluq etmişdi.

"QURBANƏLİ BƏY" – M.-nin hekayəsi. 1907 ildə yazılmış, ilk dəfə "Qeyrət" mətbəəsində kitabça kimi çap olunmuş, sonralar ədibin müxtəlif kitablarına daxil edilmişdir. Mövzusu Azərb. mülkədarlarının həyatından alınmış bu hekayənin baş qəhrəmanı Qurbanəli bəydir. Ədib onun simasında lovğa, yaltaq, ikiüzlü və yalançı adamların xüsusiyyətlərini ümumiləşdirmişdir.

Qurbanəli bəy Qapazlı kəndinin mülkədarıdır. Ancaq hekayədə onun mülkədarlıq işi və qayğıları yox, xarakterinin səciyyəvi cəhətləri göstərilir. Qurbanəli bəy özündən böyüklər – vəzifəlilər qarşısında nökər, özündən kiçiklər yanında isə ağadır; təkcə pristav və naçalnikin deyil, onların arvadlarının da qabağında baş əyir, əsl "nəzakət" sahibi olur, özünə tabe adamlarla isə kobud rəftar edir.

M. Qurbanəli bəyin yaltaq və lovğa təbiətini, onun mənəvi yoxsulluğunu və nadanlığını pristavın arvadının ad günü münasibətilə keçirilən ziyafətdəki hərəkətləri vasitəsilə açır. O, pristavın xanımının sağlığına stəkanla araq içəndən sonra keflənərək naçalnikə deyir: "Naçalnik ağa, içirəm mən bu stəkanı sizin sağlığınıza. Allah da buna şahiddir ki, nə qədər bizim vilayətə naçalniklər gəlib gedib, mən onların heç birini o qədər istəməmişəm. Naçalnik ağa, sən bizim başımızın sahibisən. Nə qədər bizim mahalda camaat var, onlar hamısı sənin yolunda başlarından keçərlər. Mən özüm sənin yolunda oda girərəm. Qurban sənə mənim canım. Nə qədər ki, mən sağam, nökərəm sənə". Eyni sözləri eyni yaltaqlıqla o, əfsərin və onun xanımının da ünvanına söyləyir.

Belə xoş, mehriban, eyni zamanda qorxaq və yaltaq danışığın əksinə olaraq, Qurbanəli bəy öz nökəri Kərbəlayı Qasıma, aşpaz Əliyə, qaravaş Gülpəriyə müraciət edəndə tamamilə dəyişir; kəskin, qürrəli və kobud olur.

Qurbanəli bəyin yaltaqlığı və nadanlığı onun sağlığına qonaqların badə qaldırdığı epizodda daha aydın görünür. "Xanımlar bir-bir stəkanlarını uzadıb" bəyin stəkanına vuranda o, "şadlığından az qalır özündən getsin" və "stəkanı yuxarı qalxızıb" deyir: "Ağalar və xanımlar! Siz ki, mənim sağlığıma içdiniz, qurban olsun sizə mənim canım. Mən ölənə kimi bu günü yadımdan çıxarmanam... Mən lap əriyib yerə girirəm ki, bu qədər xanım mənim sağlığıma içsin... Mən bu xanımla-

Hamlet Qurbanov "Dəli yığıncağı" pyesində doktor Lalbyüz rolunda.

rın ayağının torpağı da ola bilmənəm. Vallah, billah, atamın goru haqqı sabah bizə qonaq gəlməsəniz, mən özümü öldürərəm. Mən istəyirəm sizə qulluq eləyim. Mən istəyirəm sizə nökərçilik eləyim... Qurban olsun sizə mənim canım".

İçkinin təsirindən tamam keflənmiş Qurbanəli bəy ağaları və xanımları öz evinə qonaq çağırdığını tamam unudaraq, bu haqda heç kəsə heç nə demədən sərxoş halda yıxılıb yatır. Səhəri gün qonaqların təşrif gətirdiyini biləndə vəziyyətdən çıxmaq üçün qaçıb tövlədə, at axurunda gizlənir və bu hərəkəti ilə daha gülünc bir vəziyyətə düşür. Qonaqlar dünən onun tərifləyiyi atlarına baxmaq üçün tövləyə girib, Qurbanəli bəyin axurda gizləndiyini görürlər.

Beləliklə, "Q." hekayəsində M. yaltaq və yalançı adamın düşdüyü gülünc vəziyyətləri son dərəcə təbii və təsirli bədii boyalarla açıb göstərmişdir. Burada hadisələrlə surətlər bir-birini sənətkarlıqla tamamlayır. "Q." təkcə M. yaradıcılığının deyil, bütövlükdə Azərb. hekayəçiliyinin gözəl nümunələrindən biridir.

QURBANƏLİ BƏY – "Qurbanəli bəy" hekayəsinin qəhrəmanı. Q.b. surəti M.-nin realist tiplər qalereyasına canlı, dolğun bədii surət kimi daxil olmuşdur. Yeni dövr Azərb. ədəbiyyatında ilk dəfə idi ki, pristav arvadının ad günündə bu lovğa və yaltaq, zalım və yekəbaş bəyin təkcə özünün deyil, bütün mənsub olduğu zümrənin çar hakimləri qarşısında nökərçiliyi bu cür kəskin, ən başlıcası isə açıq satirik ifadə yolu ilə göstərilirdi: "...nə qədər ki, Mixail Petroviç bizim mahalda deyildi, bizim kəndlilər də bədbəxt idilər, mən də bədbəxt idim". Lakin Q.b. özündən böyüklər qarşısında yaltaq olduğu qədər, özündən kiçiklərə qarşı da qəddar, kobud və zülmkardır.

QURBANOV Əli Mirzəli oğlu (1898-1962) – aktyor. Azərb. xalq art. (1940). Aktyorluq fəaliyyətinə 1914 ildə Tiflisdə teatr həvəskarları truppasında başlamışdır. Tiflis Azərb. teatrında M.-nin "Ölülər" komediyasının tamaşasında Hacı Həsən və Hacı Baxşəli rollarında çıxış etmişdir. 1925 ildən ADT-nın aktyoru olmuş və burada da Hacı Baxşəli (1926) və Hacı Həsən (1933) obrazlarını böyük müvəffəqiyyətlə yaratmışdır. Filmlərə çəkilmişdir.

Ə.Qurbanov

QURBANOV Hamlet Ağadadaş oğlu (1938-1995) – aktyor. Azərb. əməkdar art. (1982). Azərb. Dövlət İncəsənət İn-tunu (indiki Mədəniyyət və İncəsənət Un-ti) bitirmişdir (1961). 1961-1992 illərdə ADT-nda yaddaqalan obrazlar yaratmışdır. M.-nin "Dəli yığıncağı" pyesində doktor Lalbyüz rolunda müvəffəqiyyətlə çıxış etmişdir (1978). Azərb. Televiziyasının hazırladığı bir sıra tamaşalara və "Azərbaycanfilm"in istehsal etdiyi filmlərə çəkilmişdir.

"QUZU" – M.-nin ən populyar hekayələrindən biri. 1914 ildə qələmə alınmışdır. Mirzə Cəlil nəsri üçün ən səciyyəvi mövzu – milli həyat, ictimai-zümrəvi mahiyyət və mənzərələr yığcam bir süjet zəminində təqdim olunur. Kəblə Məmmədhüseyn kirvəsinin sovqat göndərdiyi arıq bir quzunu nəinki kəsib ailəsi ilə birgə yeyir, həm də guya qonşusu Əziz xana hədiyyə etdiyi bu quzunun əvəzində üç dəfə haqq da alır. Yazıçı hiyləgər, tədbirli, kələkbaz Kəblə Məmmədhüseyn və əhlikef, təşəxxüslü, ədabaz Əziz xanın simasında nəinki milli tühafların özümlü xarakterini yaradır, həm də tüfeyli həyat tərzi keçirən zümrələrin fonunda milli həyatın tipik mənzərəsinə də nəzər yetirir. Təhkiyə oynaqlığı, təfərrüatlara diqqət, müşahidə və təfsilatın dəqiqliyi, xarakterin daxili aləminə ilgili işlənməsi, təsvirin görümlüyü hekayəyə canlılıq, vizuallıq gətirir. Yazıçı Anar hekayənin süjetindən televiziya üçün yazdığı "Nigarançılıq" əsərində istifadə etmişdir.

L

"LAL" – M.-nin kiçik pyesi. 1922 ildə yazılmışdır. Obrazlarından heç biri danışmayan, müəllif tərəfindən "teatr üçün bir pərdə" adlandırılan kiçik psixoloji pyesdir. Burada şəhərin küçəsində, divarın dibində, havanın soyuq vaxtı, günortaya bir az qalmış ağlaşan iki sahibsiz uşağa cəmiyyətin müxtəlif təbəqələrinin münasibəti açıqlanmışdır. M., dram əsərindən çox kiçik ssenarini xatırladan bu səhnəcikdə müəyyən imkanlara malik olan intelligent, tacir və müsəlman çinovniki ilə müqayisədə lal kişinin həssaslıq və qayğıkeşliyini ictimai mühitə nümunə kimi təqdim etmişdir.

"LƏNƏT" – M.-nin yazdığı bir pərdəli kiçik səhnəcik. Əsər təqr. 1922 ildə qələmə alınmışdır. Səhnəciyi ilk dəfə olaraq Azərb. EA Əlyazmalar İn-tunun arxivindən ədəbiyyatşünas İ. Həbibbəyli aşkara çıxarmış və çap etdirmişdir. Arxivdə M.-nin "L." və "Oyunbazlar" səhnəciklərinin adı dəyişik qeydə alınmış, nəşr prosesində həmin yanlışlıq aradan qaldırılmamışdır. "L." səhnəciyində sovet hakimiyyətinin qurulduğu ilk illərdə ictimai quruluşda yaranmış dəyişikliyin doğurduğu tərəddüd və böhran əks etdirilmişdir. Səhnəcikdə Arazın o tayından gəlmiş Molla Qüdrətəli ilə şura kəndlisi, qoca əkinçi Cəfəralının mükamiləsi əsasında, yeni meydana çıxmış ateist baxışlara münasibət ifadə olunmuşdur.

LƏNKƏRAN Dram Teatrı, N.Vəzirov ad. Lənkəran Dövlət Dram Teatrı – 19 əsrin ortalarından Lənkəranda həvəskar tamaşalar göstərilmiş, 1905 ildə H.Ərəblinskinin iştirakı ilə N.Vəzirovun "Müsibəti-Fəxrəddin" pyesi oynanılmışdır. 30-cu illərdən xalq teatrı kimi fəaliyyət göstərmişdir. İlk bədii rəhbəri S.Səlimbəyov, direktoru və rej. Ə.Quliyev olmuşlar. 1948 ildə bağlanan teatr 1973 ildən Dövlət dram teatrı kimi fəaliyyət göstərir. 1991 ildə M.-nin "Ölülər" əsəri böyük müvəffəqiyyətlə tamaşaya qoyulmuşdu (quruluşçu rej. Baba Rzayev, Şeyx Nəsrullah rolunda Nazir Əliyev). Tamaşa dəfələrlə resp. televiziyası ilə nümayiş etdirilmişdir. 1994 ildə "Danabaş kəndinin məktəbi" pyesi (quruluşçu rej. H.Əsgərov) tamaşaya qoyulmuşdur.

LORDKİPANİDZE Otar (?-?) – gürcü ədəbiyyatşünas alimi. Filol. e.d., prof., Gürcüstan EA Ş.Rustaveli ad. Gürcü Ədəbiyyatı Tarixi İn-tunun baş elmi işçisi. M.-nin 100 illik yubileyində iştirak edən alim "Əziz ad" başlıqlı məqaləsində yazmışdır ki, xatirəsi gürcü xalqı üçün çox əziz və qiymətli olan "Mirzə Cəlil yalnız mənsub olduğu xalqın deyil, bütün xalqların xoşbəxt gələcəyi uğrunda fədakarcasına mübarizə aparırdı". Böyük ədibin "Molla Nəsrəddin" jurnalındakı publisistikası, habelə bədii əsərlərinin gürcülərin ana dilinə də tərcümə olunub yayılmasını çox təbii sayan L. yazırdı ki, M.-nin "Ölülər" pyesi hələ 1927 ildə gürcücə nəşr edilmişdir. Gürcü oxucular M.-nin "Seçilmiş əsərləri"ni də öz ana dillərində oxuyurlar.

LÜĞƏT – "Molla Nəsrəddin" jurnalında tez-tez istifadə olunan satira, tənqid, ifşa formalarından biri. M.-nin həftəlik satira-yumor "Molla Nəsrəddin"i nəşr etmək haqqında Tiflis qubernatoruna verdiyi ərizədə jurnalın bölmələri belə müəyyənləşdirilmişdi: söhbət, zarafat, felyeton, yumoristik şeir, satirik hekayə, lətifə, poçt qutusu, məzəli elan, fərdi elan, karikatura, şəkillər və s. Lüğət bölməsi jurnalın nəşri zamanı yaranmışdır. Rus, Avropa kəlmələrinin, öz sözlərimizin satirik, Ezop dili ilə "izahı" son dərəcə tutarlı və gözəl bir ədəbi janra çevrilmişdi. Bu janr Mirzə Cəlilin bir neçə kəlmədə ciddi ictimai-siyasi məsələlərə toxunmaq qabiliyyətini göstərirdi. Lüğət bölməsi həm də Mirzə Cəlilin söz üzərində işləmək, sözü duymaq istedadının möcüzəsi idi. Onun dühası dil materiallarından istifadə və sözü mənalandırmaq qabiliyyətində də üzə çıxırdı.

"MAARİF VƏ MƏDƏNİYYƏT" – "Azərbaycan" jurnalının 1923-1927 illərdə adı.

MAHMUDBƏYOV Mahmud bəy Polad bəy oğlu (1863-1923) – maarif xadimi, pedaqoq, naşir. Şamaxı şəhər məktəbində oxumuş (1870-1879), Qori müəllimlər seminariyasını bitirmişdir (1883). İrəvan-Yelizavetpol qubernıyasının ibtidai məktəblərində müəllimlik etmiş (1883-1896), 1897-1918 illərdə Bakıda "Rus-müsəlman" məktəblərində müəllim və müdir olmuşdur. "Birinci il" (1907), "İkinci il" (1908; S.Əbdürəhmanbəyzadə, S.Axundzadə və b. ilə birgə), "Yeni məktəb" (1909; Abbas Səhhətlə birgə), "Türk ədəbiyyatına ilk qədəm" (1914; Abbas Səhhətlə birgə) dərsliklərinin, "İmlamız" (1911) kitabının müəllifidir. O, Azərb.-da K.D.Uşinskinin ardıcıllarından olmuş, ana dilinin saflığı, milli ədəbiyyatın dirçəlişi uğrunda mübarizə aparmışdır. M. "Rəhbər" (1906-1907), "Maarif" (1921, S.M.Qənizadə və Ə.İ.Cəfərzadə ilə) jurnallarının naşiri və red. olmuşdur. Məmmədquluzadə ilə seminariyada təhsil illərindən tanış idi. "İkinci il" ilk dəfə 1908 ildə Tiflisdə Məmmədquluzadənin "Qeyrət" mətbəəsində nəşr olunmuşdur. "Molla Nəsrəddin" jurnalı xüsusi elan dərc etmiş, kitabı, mövzuları Qafqaz müsəlmanlarının həyatından alınmış milli dərslik kimi səciyyələndirmişdir. Məmmədquluzadə "Zəncir" felyetonunda "İkinci il" dərsliyini Əli bəy Hüseynzadənin hücumlarından qorumuşdur. "Yeni məktəb" dərsliyi isə "Molla Nəsrəddin" jurnalında "Səhhətnamə" adlı məqalədə tənqid olunmuşdur. Məmmədquluzadə "Rəhbər" jurnalının nəşri münasibətilə eyniadda məqalə yazmışdır.

MAKOVELSKİ Aleksandr Osipoviç (1884-1969) – filosof. SSRİ EA m. üzvü (1946), Azərb. EA akad. (1949), Kazan un-tinin prof. (1918 ildən), Bakı un-tinin və digər ali məktəblərin prof., Azərb. EA Fəlsəfə İn-tunun dir. (1945-1950), böyük elmi işçisi olmuşdur. M. fəlsəfə tarixi, dialektik və tarixi materializm, məntiq və məntiq tarixi, pedaqogika, psixologiya sahəsində əsaslı tədqiqat aparmışdır. Azərb.-ın fəlsəfə tarixinə dair əsərlərində zərdüştilik, məzdəkilik, sufilik, Avesta, Nizami və onun Şərqdə yeri, 19 əsr ictimai və fəlsəfi fikri (M.Ş.Vazeh, M.F.Axundov və b.) kimi məsələləri əhatəli şəkildə tədqiq etmişdir. C.Məmmədquluzadə "Unudulmuş elmlər" ("Molla Nəsrəddin" jurnalı 1925, 12 sentyabr, №37) məqaləsində M.-nin Rusiya Elmlər Akademiyasının iki yüz illik yubileyi təntənəsindəki çıxışından bəşəriyyətin tərəqqisinə heç bir fayda gətirməyən dini-sxolastik şərq elmləri və onun Tehran İmam Cüməsi, Fazil Dərbəndi, "Nəcəfül-Əşrəfin fazilləri" kimi nümayəndələrinin fəaliyyətini tənqid etmək və əsərlərinin gərəksizliyini göstərmək üçün istifadə etmişdir.

MAQOMAYEV Müslüm (Əbdülmüslüm) Məhəmməd oğlu (1883-1937) – bəstəkar, dirijor, ict. xadim. Azərb. əməkdar inc. xad. (1936). Qroznıda dəmirçiliklə məşğul olan atası nəslən Azərb.-ın Qax r-nundan idi. Qroznıda ikinci dərəcəli şəhər məktəbini bitirdikdən sonra, Qori müəllimlər seminariyasında oxumuşdur (1899-1904). Təhsil illərində musiqiyə böyük maraq göstərmiş, burada ilk əsərlərini bəstələmiş, Ü.Hacıbəyovla tanış olmuşdur. Seminariyanı bitirdikdən sonra Şimali Qafqazda və Lənkəranda müəllimlik etmiş (1905-1911), 1911 ildə Bakıya köçmüş, Ü.Hacıbəyovun ən yaxın silahdaşı olmuşdur. Sabunçuda müəllim işləmişdir. 1912 ildən ömrünün sonunadək opera tamaşalarına dirijorluq etmişdir. 1920 ildən

M.Maqomayev

sonra Azərb. SSR Xalq Maarif Komissarlığı İncəsənət şöbəsinin və Azərb. Radio Verilişləri İdarəsinin musiqi şöbəsinin müdiri, AOBT-nın direktoru, bədii rəhbəri və baş dirijoru olmuşdur. M.-in "Şah İsmayıl" (1916) və "Nərgiz" (1935) əsərləri Azərb. opera sənətinin inkişafında əhəmiyyətli yer tutmuşdur. Musiqinin müxtəlif janrlarında dəyərli əsərlər yaratmışdır. Dram tamaşalarına, o cümlədən Məmmədquluzadənin "Ölülər" əsərinə musiqi bəstələmişdir.

Z.Marağayi

MARAĞAYİ Zeynalabdin Əli oğlu (1838-1910) – yazıçı, maarifçi. Mədrəsədə təhsil almış, ərəb, fars dillərini mükəmməl öyrənmişdir. Gəmc yaşlarında Kutaisi və Yaltada yaşamış, rus dilini öyrənmiş, rus və Qərbi Avropa ədəbiyyatı ilə yaxından tanış olmuşdur. M.F.Axundovun elmi, fəlsəfi, ədəbi irsinə dərin rəğbət bəsləmişdir. 3 cildlik "İbrahim bəyin səyahətnaməsi" (farsca; 1897, 1906-09) romanının müəllifidir. Romanda İranın mütləqiyyət rejimi, sosial bərabərsizlik, feodal-patriarxal qayda-qanunları, xan, bəy, məmur zülmü kəskin tənqid olunur. M. ölkənin iqtisadi asılılıqdan qurtuluş yolunu milli sənayenin yaradılmasında görürdü. Roman Azərb., İran, Türkiyə, Hindistan, Misir və b. ölkələrdə böyük şöhrət qazanmış, İstanbul, Kəlküttə və Qahirədə dəfələrlə nəşr edilmişdir. Azərb. dilində roman ilk dəfə Kərbəlayi Vəli Mikayılovun tərcüməsində (1911) nəşr olunmuşdu. Məmmədquluzadə bu əsəri yüksək qiymətləndirmiş, özünün "İran konsulları", "Həmşəri", "Hansı elmlər lazım", "İran fəhlələrinin pulu hara gedir" və digər felyetonlarında romandan ustalıqla istifadə etmişdir.

Mehdi Hüseyn

MEHDİ Hüseyn (Mehdi Əli oğlu Hüseynovun təxəllüsü) (1909-1965) – nasir, dramaturq, tənqidçi, ict. xadim. SSRİ Dövlət mükafatı laureatı (1950). Azərb. xalq yazıçısı (1964). ADU-nun tarix fakültəsini (1931) və Moskvada Dövlət Kinematoqrafiya İn-tunun kinossenariçilər kursunu (1938) bitirmişdir. Ədəbi fəaliyyətə 20-ci illərin ortalarında başlamışdır. Azərb.-da yeni tipli ədəbi təşkilatların təşəkkülündə fəal iştirak etmiş, Azərb. Proletar Yazıçılar Cəmiyyətinin, Azərb. Yazıçılar İttifaqının rəhbərlərindən olmuşdur. Povest və romanların ("Kin", "Daşqın", "Abşeron", "Səhər", "Yeraltı çaylar dənizə axır" və s.), tarixi və müasir mövzuda dram əsərlərinin ("İntizar", "Nizami", "Cavanşir", "Alov") müəllifidir. M.H. tənqid və publisistika sahəsində də fəaliyyət göstərmişdir. Onun klassik ədəbi irsə münasibət məsələsinə, milli ədəbi təcrübəyə və ənənəyə həsr olunmuş məqalələri dərin elmi-nəzəri səviyyəsi ilə seçilir. Azərb. ədəbiyyatının əsas inkişaf qanunauyğunluqlarından danışarkən o, bu prosesdə Məmmədquluzadə yaradıcılığının rolunu, onun ədəbi məktəbinin əhəmiyyətini göstərmişdir. Hələ 30-cu illərdə, o, "Ədəbi döyüşlər" kitabında (1932) Məmmədquluzadənin yaradıcılığına toxunur, onun ədəbiyyatda demokratik meyllərin inkişafında rolunu qiymətləndirməyə çalışırdı. Lakin o, kitabında marksist tənqidin sosioloji metodologiyasının təsirinə qapılaraq Məmmədquluzadəni "demokratik-xırda burjua ədəbi cərəyanına" mənsub yazıçı adlandırır, əsərlərində "xırda burjua ünsürləri" olduğunu qeyd edirdi. Buna baxmayaraq o, eyni zamanda Mirzə Cəlilin "Azərbaycan ədəbiyyatında böyük inqilabi rol oynadığını" da göstərirdi. Sonrakı illərdə yazdığı məqalələrdə isə o, Məmmədquluzadə yaradıcılığını daha dərindən və obyektiv qiymətləndirir, onun 20 əsr ədəbiyyatındakı yerini, ədəbiyyatda, milli bədii təfəkkürdə realizmin dərinləşməsində və aparıcı mövqe tutmasında nəsrinin, dramaturgiyasının, publisistikasının rolunu göstərirdi. "Dahi sənətkar" (1941), "Düşündürən sənətkar" (1947) məqalələri bu cəhətdən diqqətə layiqdir. M.H. məqalələrində ədibin realizminin, xüsusilə, satirasının "böyük ideallara" xidmət etdiyini yazır, dramaturgiyasını "böyük fikirlər, canlı xarakterlər dramaturgiyası" adlandırır, "Ölülər" komediyasını isə "dərin fəlsəfi komediya" kimi səciyyələndirirdi. Məmmədquluzadənin yaradıcılığı ətrafında müzakirələrdə də, bu irsin ideya əsaslarının qiymətləndirilməsi ilə bağlı mübahisələrdə də M.H. yaxından iştirak etmişdir. O, ədibin "inqilabi demokratizmini" şübhə altına alanları kəskin tənqid etmiş, belə meylləri bütövlükdə milli ədəbi irsə yanlış münasibətin ifadəsi saymışdır. M.H. məqalələrində, həmçinin yeni, müasir Azərb. nəsrinin, yeni milli romanın yaranmasında Mirzə Cəlil ənənələrinin misilsiz rolunu da dönə-dönə qeyd etmişdir. Bu ənənələri qiymətləndi-

rərək o, "biz, Azərbaycan sovet nasirləri, Cəlil Məmmədquluzadənin "Poçt qutusu"ndan çıxmışıq" məşhur aforizmində çox mühüm bir ədəbi həqiqətin ifadə olunduğunu yazırdı. Tənqidçi "Azərbaycan romanı haqqında" adlı məqaləsində müasir nəsrin keçdiyi yolu səciyyələndirərək, Məmmədquluzadə nəsrinin bu prosesdə oynadığı müsbət rolu xüsusi qiymətləndirmişdir.

MEHDİYEV Ələkbər İmamqulu oğlu (1885-?) – Nehrəm kəndinin sakini. 1892 ilin əvvəlində Nehrəmdə Məmmədquluzadənin şagirdi olmuşdur. 86 yaşında ikən "Azərbaycan gəncləri" qəzetində müəllimi barədə xatirələrini dərc etdirmişdir: "... Mirzə Cəlil müəllimin uca boyu, enli kürəyi, iri, yaraşıqlı, həm də qayğılı gözləri, xoş üzü indiki kimi yadımdadır. O, məni bir ata kimi qarşıladı.[...] Biləndə ki, atam, anam yoxdur, qaşlarını çatıb fikrə getdi, başını ağır-ağır buladı". Sonra Mirzə Cəlil ona təzə paltar, ayaqqabı, dəftər, qələm alıb vermişdi. M. xatırlayırdı ki, Mirzə Cəlil "yetim-yesirin hamısına əl tutur, kömək edirdi". Onun evlərə gedib uşaqları məktəbə gətirdiyini də şagirdlər görürdülər. Bunun nəticəsidir ki, çox keçmədən məktəbdə şagirdlərin sayı 40-ı keçir. Sonra 8 qız da məktəbə gəlir. 1921 ildə M. öz müəllimi ilə Təbrizdə görüşmüş və Mirzə Cəlil ona "Molla Nəsrəddin" jurnalının Təbrizdə çıxan nüsxələrindən vermişdi.

MEHMANDAROV Kərim bəy (Əbdülkərim Mustafa bəy oğlu) (1854-1929) – terapevt, cərrah, ict. xadim. 1877 ildə Peterburq Tibb-Cərrahiyyə Akademiyasını bitirmiş, Peterburq hərbi hospitalında və Poltava quberniyasında həkim işləmişdir. 1883 ildə Azərb.-a qayıdaraq, ömrünün sonuna qədər Şuşada yaşayan M. həkimlik fəaliyyətini davam etdirməklə bərabər, xeyriyyəçilik sahəsində də çalışmış, şəhərin ictimai və mədəni həyatında yaxından iştirak etmişdir. O, ilin müəyyən qismini Kəhrizlidə və Şuşada keçirən Məmmədquluzadələr ailəsinin ev həkimi olmuşdur. M. Həmidə xanımın atası Əhməd bəy Cavanşirin yaxın dostlarından biri idi. Elə buna görə də ailə həyatı qurmaq istəyən Həmidə xanım məsləhət üçün ona müraciət etmişdi. "Mirzə Cəlil nadir istedad sahibidir, onun çox böyük gələcəyi var" – deyə bu izdivaca tərəfdar çıxan M., eyni zamanda Həmidə xanıma "Mirzə Cəlili qorumağı və çox şeyi ona bağışlamağı" tövsiyə etmişdi. Məmmədquluzadə ilə ilk dəfə 1907 ildə Kəhrizlidə tanış olan M. onun jurnalını ardıcıl izləyir və yüksək qiymətləndirirdi. "Molla Nəsrəddin" jurnalının 1907 il 24-cü sayında dərc olunan "Qırx beş min manat haradadır?" felyetonunun mövzusunu da ədibə M. vermişdi. Felyetonda aclar üçün toplanan ianələrin mənimsənilməsindən söhbət gedirdi. Həmidə xanımın xatirələrindən məlum olur ki, onlar Təbrizdə olarkən, M. Mirzə Cəlilə məktub yazıb, ailəsi ilə Bakıya qayıtmasını məsləhət görmüşdür.

MENŞİKOV M.O. (1859-1919) – jurnalist. Rusiyada və onun xaricində çox tanınan, çox yayılan gündəlik burjua orqanı "Новое время" qəzetinin (1868-1917) müəlliflərindən biri. Demokratik dairələrdə "Иудушка" (satqın, xain) ləqəbi ilə məşhur idi. Azərb. mətbuatında, o cümlədən "Molla Nəsrəddin" jurnalında adı pisliyə çəkilirdi.

MƏHƏMMƏDƏLİ ŞAH (1872-1925) – İran şahı (1907-1909). Qacar sülaləsindəndir. Xalq kütlələrinin inqilabi hərəkatının təsiri ilə 1906 ildə İran tarixində ilk dəfə konstitusiyalı monarxiya quruluşu yaratmaq və məclis çağırmaq haqqında fərman verməyə məcbur olmuş Müzəfərəddin şahın oğludur. Vəliəhdlik müddətində inqilabi hərəkata, konstitusiyaya və məclisə qarşı mürtəce mövqe tutan Məhəmmədəli Mirzə atası öldükdən sonra hakimiyyətə keçir və 1908 il iyunun 23-də əksinqilabi çevriliş edərək məclisi qovur. 1909 ilin iyulunda Tehranı ələ keçirən fədai və mücahid dəstələri tərəfindən taxtdan salınan M.ş. ölkədən qovulur. Əvvəlcə Rusiyada, sonra isə Avropada yaşayan M.ş. bir neçə dəfə İrana qayıdaraq əksinqilabi çevriliş cəhdləri etmişdirsə də, məqsədi baş tutmamışdır. "Molla Nəsrəddin" jurnalında ən çox ifşa olunan Şərq müstəbidlərindən biridir. M.ş-ı ifşa etmək üçün jurnal karikatura, felyeton, satirik şeir, taziyanə, teleqraf xəbəri, tapmaca, sual-cavab və başqa ədəbi formalardan geniş istifadə etmişdir. C.Məmmədquluzadənin felyetonlarında, M.Ə.Sabir və Əli Nəzminin satirik şeirlərində "Boynuyoğun", "Quldurbaşı", "Məmmədəli", "Məndəli", "Mədəli" və s. adlarla rüsvay edilmişdir. Jurnal nəşrə başladığı ilk gün-

K.Mehmandarov

dən elə bir nömrəsi yox idi ki, orada hələ o vaxt vəliəhd kimi Təbriz hakimi olan Məhəmmədəli Mirzə və onu əhatə edən digər İran müstəbidləri və din xadimləri satira atəşinə tutulmasın. Ona görə də jurnalın İrana aparılması qadağan olunur, red.-unun ölümünə fitva verilir və İranda onun tərəfdarları ciddi təqib olunurdular. Gürcüstan arxivlərində saxlanılan çoxlu rəsmi sənədlər sübut edir ki, M.ş-ı ifşa etdiyi və İran inqilabçıları ilə əlaqə saxladığı üçün "Molla Nəsrəddin" Qafqazdakı çar hakimiyyət orqanları və senzura tərəfindən daim nəzarət altında saxlanılmış, onun red.-una dəfələrlə xəbərdarlıq edilmişdir.

MƏHƏMMƏDZADƏ Molla Ruhulla Molla Məhəmməd oğlu (1850-1912) – görkəmli ictimai xadim, ruhani alim, pedaqoq, şair, publisist, tərcüməçi. Bakı qub.-nın Novxanı, Zabrat kəndlərində ibtidai, İranın Rəşt, Qəzvin və Tehran şəh.-lərində ali ruhani təhsili almışdır. Novxanıda molla (1878), Həştərxanda qazi (1879-1891), Bakıda prixod mollası (1892-1896), "Rus-müsəlman" məktəbində şəriət müəllimi (1896-1912) işləmişdir. M. Bakıda xeyriyyə cəmiyyətlərinin işində iştirak etmiş, "Həblülmətin" (Kəlküttə), "Məlumat" (İstanbul), "Şərqi-Rus" (Tiflis), "Həyat", "İrşad", "Tərəqqi", "Təkamül", "Dəbistan", "Füyuzat", "Həqiqət", "Yeni həqiqət", "Günəş", "İşıq" (Bakı) kimi dövri mətbuat orqanlarında "M.R." kriptonomu, "Molla Məhəmmədzadə" imzası ilə müxtəlif sosial problemlərə dair məqalələr dərc etdirmişdir. M. farsca və türkcə şeirlərin, "Risaleyi-Rəzuyə", "Töhfeyi-nisvan", "Hidayətül-zallin", "Ərvahi-əlvəsəqi" və s. əsərlərin müəllifidir. "İngilis xanımı" (Meynard Feliks), "Sərgüzəşti-yetiman" (Asəf Mirzə İsmayıl) tərcümələrinin müəllifidir.

M.-nin 1912-ci ilin yanvarında vəhşicəsinə qətlə yetirilməsi əhalinin bütün təbəqələrini sarsıtmış, haqqında qəzəb və təəssüf ifadə edən çoxlu məqalələr yazılmışdır. M.-nin "Öz əqidəsi, məsləki yolunda mücahidatı", cəhalət və zəlalətə qarşı "bixof" mübarizəsi, "əqidəsində möhkəm və sabit qədəm" olması C.Məmmədquluzadənin diqqətini cəlb etmiş, haqqında "Molla Nəsrəddin"də qara haşiyə içində "Axund Hacı Molla Ruhulla" başlığı altında başsağlığı məktubu dərc etmişdir. Orada deyilirdi: "Gərək güman olunmaya idi ki, yer üzündə elə bir alçaq adam tapıla bilər ki, 55 yaşında möhtərəm bir alimi namaz qıldığı yerdə qətlə yetirməyi rəva görə. Bəli, tapıldı bir belə adam və yanvarın 16-da Bakıda Axund Hacı Molla Ruhullahı güllələyib öldürdü. Əgər millətimizin yolunda mərhumun heç bir xidməti olmasaydı, genə onun ölməyinə təəssüf etmək olardı. Amma ruznamələrdə axundun nə qədər camaat üçün çalışdığını oxuyub, nəhayət dərəcədə qəmgin olduq".

"MƏKTƏB" – uşaqlara məxsus şəkilli ədəbi, elmi jurnal. Bakıda Azərb. dilində iki həftədə bir dəfə nəşr olunmuşdur. İlk nömrəsi 1911 il noyabrın 29-da, sonuncusu 1920 il martın 21-də (cəmi 95 nömrə) çıxmışdır. 1-ci nömrədə mühərrirlərin "idarədən" və N.Nərimanovun "Əziz balalar!" başlığı ilə uşaqlara müraciəti verilmişdir. Jurnalda müxtəlif janrlarda orijinal bədii əsərlər, rus, Qərb və Şərq ədəbiyyatından təbdil və tərcümələr, tarixə, ədəbiyyata, coğrafiyaya, təbiətə, texnikaya və s. dair rəngarəng materiallar dərc olunurdu. Red.-ları Qafur Rəşad (həm də naşiri) və Ə.T. Əfəndizadə idi. "Məktəb"in çoxsaylı müəllif heyəti əsasən müəllimlərdən ibarət idi. Bunların arasında S.S.Axundov, A.Şaiq, A.Səhhət, H.Cavid, R.Əfəndizadə, Ə.Səttar, Ş.Əfəndizadə, Ə.Cavad, A.İsrafilbəyli, Ə.Mustafayev, Ə.Fəhmi və b. var idi. C.Məmmədquluzadə "Molla Nəsrəddin" jurnalında "M."-in maarifə, məktəbə, müəllimə, başqa bu kimi mövzulara dair yazılarını, şeirlərini, şəkillərini yüksək qiymətləndirirdi.

MƏKTUB – Şərq ədəbiyyatında məktub şəklində yazılan əsər. XX əsrə qədər "Məktubat", "Münşəat" adlanırdı. Mənzum və publisist janrlarda olub, müəyyən bir şəxsə müraciət formasında yaradılırdı. Keçmişdə bu forma çox işlənirdi, indi isə ona az təsadüf olunur. "Molla Nəsrəddin" redaksiyası jurnalın elə ilk günlərindən başlamış, yerlərdən çoxlu M. alırdı. Bu M.-lar mollanəsrəddinçilərin tənqidlərinə qiymət verməklə bərabər, satiriklərə yeni-yeni məsələləri xatırladır, konkret hadisə və şəxslər barədə məlumat verir, eybəcər faktlara diqqət cəlb edirdi. Belə M.-lar Qafqazın şəhər və kəndlərindən, İran, Türkiyə, Volqaboyu, Orta Asiya və başqa ölkələrdən gəlirdi. Onların çoxunu jurna-

lın müxbirləri, fəal oxucuları, sadə adamlar, yazıçılar, jurnalistlər və b. yazıb göndərirdilər. C.Məmmədquluzadə bu M. göndərənlərə ehtiramını ifadə edərək yazmışdır ki, "Molla Nəsrəddin" bizə göndərilən çox qiymətli məktublar əsasında yazılıb çap olunur. Yalnız yaradıcı qüvvələrin bir-birindən gözəl, bir-birindən mənalı məktubları sayəsində "Molla Nəsrəddin" qısa zaman ərzində öz "müsəlman qardaşları"nın ağıllı, xeyirxah, qorxmaz, etibarlı məsləhətçi və yolgöstərəni olmuşdur. Bununla yanaşı, M. məktub göndərənlərə ciddi tələbkarlıqla yanaşır, informasiyaların səhihliyinə və obyektivliyinə xüsusi diqqət yetirirdi. Şəxsi qərəzli hisslərinə uyub adamlar haqqında jurnala yalan məlumat göndərənləri amansız tənqidə məruz qoyurdu. Bu baxımdan jurnalda İrəvan müxbirinin məktubu əsasında dərc olunmuş "İp" felyetonu ilə əlaqədar münaqişə çox səciyyəvidir ("Molla Nəsrəddin" jurnalı, 1909, №9, 11).

Prof. Ə.Mirəhmədov yazmışdır: "Şəxsi məktublaşmalar, məqalələr, satirik elanlar, mətbuat icmalları və "Poçt qutusu"ndakı yığcam tənqidi qeydləri, məsləhətləri vasitəsilə jurnal istər peşəkar satiriklərlə, istərsə də yerlərdəki müxbirlər, müəllif və müvəkkillərlə böyük təlimatverici iş aparırdı. Bunu [..] "Molla Nəsrəddin"də görkəmli xidmətləri olan Əli Nəzminin Molla əmiyə müraciətlə yazdığı şeir çox aşkar sübut edir: "Sən yazırsan mənə, ay Molla ki, əşar yazım, Şəhrimizdə nə əməl, iş, nə xəbər var, yazım..." ("Molla Nəsrəddin", on iki cilddə, I cild (1906-1907), B., Elm, 1986, s. 7).

MƏLİKOV Rəhim bəy Mehrəli oğlu (1886-1936) – fizik, riyaziyyatçı, publisist. Prof. (1935). H.Zərdabinin qardaşı oğlu. Bakı realnı məktəbini (1906) və Kazan un-tinin fizika-riyaziyyat fakültəsini bitirmişdir (1912). Qroznı, Maykop və Pyatiqorsk ş.-lərində ali kurslarda fizika və riyaziyyatdan dərs demişdir. Bir müddət Tiflisdə yaşayan M. burada pedaqoji fəaliyyətini daha da genişləndirmiş, ictimaiyyətin diqqətini cəlb etmişdir. Kazanda tələbə ikən "Molla Nəsrəddin"lə əlaqə yaradan M. orada "Bayquş" imzası ilə müxbir məktublarını dərc etdirir. Tiflisdə yaşadığı dövrdə Məmmədquluzadə və b. azərb. ziyalılarla ünsiyyətdə olmuş, qadın azadlığı məsələsi ətrafında "Molla Nəsrəddin"lə "Təzə həyat" qəzeti arasında mübahisə başlanarkən M. Cəlil Məmmədquluzadənin mövqeyini müdafiə etmiş, şəriət ehkamlarına istinad edən Haşım bəy Vəzirovu kəskin tənqidə məruz qoymuşdur. 1923 ildə Bakıya dəvət olunaraq API-yə fizika müəllimi təyin edilmişdir. Sonralar Bakının bir sıra in-tlarında, texnikum və məktəblərində işləmiş, API-nin fizika kafedrasının müdiri (1930-1936) olmuşdur. İlk dəfə Azərb. dilində istilik fizikasından dərslik yazmış (nəşr olunmamışdır), fizika və riyaziyyata dair terminlər lüğəti tərtib etmişdir. Ədəbi tənqidlə məşğul olmuş, Azərb. ədəbiyyatından rus dilinə tərcümələr etmişdir. M.-un Azərb.-da xalq maarifinin inkişafında xidməti vardır.

R.Məlikov

MƏLİKOV Süleyman Dadaş oğlu (1899-1969) – jurnalist, tərcüməçi, redaktor. Azərb. əməkdar mədəniyyət işçisi (1967). "Zəhmət", "Kommunist" qəzetlərində, "Şərq qadını", "Maarif və mədəniyyət", "Qızıl qələm" və s. jurnallarda işləmiş, "Molla Nəsrəddin" jurnalının məsul katibi, "Kirpi" jurnalının red. heyətinin üzvü olmuşdur. "Molla Nəsrəddin"də çalışarkən onun nəşri məsələləri ilə məşğul olmuş, jurnalda publisistik məqalələr dərc etdirmişdir. M. yaradıcılığında ciddi siyasi pafosu, prinsipial tənqidi satirik və yumorlu üslubla birləşdirmişdi. "Qəmişqulu", "Əbülhaq" imzalı yazıları 1924-1925 illərdə "Kommunist" qəzetində və "Molla Nəsrəddin" jurnalında, "Qıraxdanbaxan" imzaları ilə məqalələri 1922 ildə "Zəhmət" qəzetində çıxmışdır. Mətbuatda Məmmədquluzadə haqqında bir neçə məqaləsi, xatirələri çap olunmuşdur. "Cəfər Cabbarlı haqqında xatirələr"ində (B., 1969) yeri gəldikcə "Molla Nəsrəddin" jurnalından da söz açmışdır.

MƏMMƏD ARİF (tam adı və soyadı Məmməd Arif Məhərrəm oğlu Dadaşzadə) (1904-1975) – ədəbiyyatşünas, tənqidçi, pedaqoq, ict. xadim. Filol. e.d. (1955), prof. (1955), Azərb. EA akad. (1958), əməkdar elm xadimi (1960). Azərb. Dövlət mükafatı laureatı (1974). ADU-nun Şərq fakültəsini bitirmişdir (1930). Azərb. Maarif nazirinin müavini, ADU-nun rus ədəbiyyatı kafedrasının müdiri (1932-1938), Azərb. EA Nizami ad. Ədəbiyyat və Dil İn-tunun direktoru (1939-1950; 1957-1959), Resp. EA ict.

Məmməd Arif

Məmməd Əkbər

elmlər bölməsinin akademik-katibi (1959), EA-nın vitse-prezidenti (1960-1975), Terminologiya komitəsinin sədri (1957 ildən) olmuşdur.

M.A. Azərb. ədəbiyyatşünaslığı və ədəbi tənqidinin təşəkkülündə və inkişafında mühüm xidmət göstərmişdir. Bir neçə çoxcildli kitabın – 2 cildlik "Müxtəsər Azərbaycan ədəbiyyatı tarixi" (1943-1944); 3 cildlik "Azərbaycan ədəbiyyatı tarixi" (1957-1960); 2 cildlik "Azərbaycan sovet ədəbiyyatı tarixi" (1967); "Azərbaycan sovet ədəbiyyatı tarixinin oçerki" (M., 1963) – müəlliflərindən və baş red.-larından olmuşdur. "Cəfər Cabbarlının yaradıcılıq yolu" (1956), "Səməd Vurğunun dramaturgiyası" (1964), "Əsrin oğlu" (1979), "Azərbaycan ədəbiyyatı" (rusca, 1979) və s. kitabları müasir filoloji elmin nailiyyətlərindəndir.

Məmməd Cəfər

M.A. ədəbi fəaliyyətə 1923 ildə "Molla Nəsrəddin" jurnalında çap etdirdiyi "Bədgümanam", "Belə getsə düzələr", "Elan", "Mərsiyə xəbərləri" felyetonları ilə başlamışdır. O, Azərb. klassikləri C.Məmmədquluzadə, M.Ə.Sabir, C.Cabbarlı və b. haqqında tədqiqat əsərləri, məqalələr, oçerklər çap etdirmişdir. "Sabir və Şərq xalqlarının milli azadlıq hərəkatı" məqaləsində yazmışdır ki, "Molla Nəsrəddin"i zəmanə özü yaratdığı kimi, Sabiri də zəmanə özü yaradıb, "Molla Nəsrəddin"ə yoldaş və silahdaş vermişdi" ("Azərbaycan", 1962, №5).

"Dil və üslub" məqaləsində alim ("Ədəbi-tənqidi məqalələr", B., 1958) C.Məmmədquluzadə, Ə.Haqverdiyev, A.Səhhət, A.Şaiq, M.S.Ordubadi və b.-dan bəhs edir. O, "Sabir və Şərq xalqlarının milli azadlıq hərəkatı" (1962), "Xalq üçün yanan ürək" (C.Məmmədquluzadənin 100 illiyi münasibətilə; 1966), "Ölülər və İsgəndər" (1967), "Alovlu ürək" (C.Məmmədquluzadə haqqında; (1967) kimi elmi-tədqiqat məqalələri çap etdirmişdir.

M. A.-in "XX əsr və sovet ədəbiyyatı" (orta məktəbin X sinfi üçün. B., 1946; C.Xəndanla birlikdə), "Müasir ədəbiyyat" (orta məktəbin X sinfi üçün. B., 1948; C.Xəndanla birlikdə) və s. dərsliklərində də C.Məmmədquluzadə, M.Ə.Sabir, A.Səhhət, Ə.Haqverdiyev, C.Cabbarlı, M.S.Ordubadi və b. yazıçıların həyat və yaradıcılığı haqda ayrı-ayrı bioqrafik oçerklər verilmişdir.

M.Məmmədquluzadə

MƏMMƏD Əkbər Həmzə oğlu (1909-1974) – nasir, publisist, tərcüməçi. Naxçıvan pedaqoji texnikumunu bitirmişdir. 1942 ildə İranda "Sərbazi-sorx" ("Qızıl əsgər") qəzetində işləmiş, sonra ordu sıralarına çağırılaraq Cənub cəbhəsində döyüşən orduda iştirak etmişdir. 1924 ildən "Yeni fikir" qəzetində yazıları, "Molla Nəsrəddin", "Kommunist", "Yeni yol" və b. orqanlarda hekayə, oçerk, xatirə və s. əsərləri dərc olunmuşdur. 1944 ildən "Ədəbiyyat qəzeti"nin məsul katibi idi. Cəlil Məmmədquluzadə, "Molla Nəsrəddin" jurnalı, mollanəsrəddinçi yazıçılar, M.S.Ordubadi, Ə.Vahid və b. haqqında məqalə və xatirələrin müəllifidir.

MƏMMƏD Cəfər (tam adı və soyadı Məmməd Cəfər Zeynalabdin oğlu Cəfərov) (1909-1992) – ədəbiyyatşünas, tənqidçi, ict. xadim. Filol. e.d. (1962), prof. (1963), Azərb. EA akad. (1976). Azərb. Dövlət mükafatı laureatı. Uşaqkən valideynlərini itirmiş, 12 yaşından Naxçıvanda fəhləlik etmiş və oxumuşdur. APİ-ni bitirmişdir. 1935-1959 illərdə APİ və ADU-da müəllim, dekan, kafedra müdiri, "Ədəbiyyat qəzeti"nin red., Azərb. Yazıçılar İttifaqı tənqid və ədəbiyyatşünaslıq bölməsinin müdiri olmuş, Azərb. EA Nizami ad. Ədəbiyyat İn-tunda şöbə müdiri (1959-1981), həmin in-tun direktoru (1980-1981), Azərb. EA Ədəbiyyat, Dil və İncəsənət bölməsinin akademik katibi (1981-1992) vəzifələrində işləmişdir. M.C. Azərb. yazıçılarının yaradıcılığı haqda ədəbi tənqidi məqalələrin, Azərb. ədəbiyyatının tarixi və nəzəriyyəsinə həsr olunmuş əsərlərin [o cümlədən "Cəlil Məmmədquluzadə" (1966)], rus ədəbiyyatına, Azərb.-rus ədəbi əlaqələrinə dair tədqiqat və dərsliklərin, aktual ədəbi, estetik və pedaqoji problemlərə aid kitabların müəllifi, 3 cildlik "Azərbaycan ədəbiyyatı tarixi"nin (1957-1960), 2 cildlik "Azərbaycan sovet ədəbiyyatı tarixi"nin (1967) müəlliflərindən biridir. M.C. bədii yaradıcılıqla da məşğul olurdu. C.Məmmədquluzadə haqqında bir neçə dərin məzmunlu oçerk, məqalə, esse yazan M.C.-in bu əsərlərinin hamısında ədibə böyük məhəbbət və ciddi filoloji mühakimə vardır.

MƏMMƏDQULU Məşədi Hüseynqulu oğlu (?-1905) – C.Məmmədquluzadənin atası. 19 əsrin 40 illərində Naxçıvan şəhərində dünyaya gəlmişdir. Heç bir

məktəbdə təhsil almadan müstəqil olaraq ərəb əlifbasını, dini qanun-qaydanı, şəriəti öyrənmişdir. Təxminən 1860 ildə Sara Məşədi Baba qızı ilə evlənmişdir. Bu nikahdan beş övlad – Yusif, Cəlil, Ələkbər, Səkinə və Xəlil Məmmədquliyevlər dünyaya gəlmişdir. M. İmam Rza ziyarətinə getmiş, məşədi rütbəsi qazanmışdır. Bir müddət Naxçıvan duz mədənlərində gözətçi vəzifəsində işləmiş, Şəhab məhəlləsində kiçik dükan açmışdır. M. tanınmış ziyalılardan Q.Şərifzadə, M.T.Sidqi, M.C.Şürbi və başqaları ilə yaxınlıq etmişdir. Cəlilə və qardaşlarına əvvəlcə mollaxana təhsili verməsi, sonra onları şəhər məktəbinə qoyması, rusca təhsil verməsi, qızı Səkinəni oxutdurması onun açıqgörüşlü şəxs olduğunu göstərir. C.Məmmədquluzadənin müəllimlik sənətinə yiyələnməsi üçün 3 dəfə (10 iyul 1880, 20 iyun 1881 və 21 iyun 1882 illərdə) Qori müəllimlər seminariyasının, bir dəfə (28 noybar 1881 ildə) İrəvan seminariyasının müdiriyyətinə ərizə ilə müraciət etməsi, digər övladlarının savad alması, peşəyə yiyələnməsi üçün ardıcıl təşəbbüs göstərməsi də onun yenilik duyğularından xəbər verir.

MƏMMƏDQULİYEV Yusif Məmmədqulu oğlu (1863-1904) – C.Məmmədquluzadənin böyük qardaşıdır. Naxçıvanda mollaxanada oxumuş, ibtidai təhsil almışdır. 1881 ildə İrəvan Müəllimlər Seminariyasına daxil olmaq üçün ərizə vermiş, sonra ailənin maddi vəziyyətini nəzərə alaraq bu niyyətindən əl çəkmişdir. O, saatsazlıq sənətinə yiyələnmiş, atasına və qardaşlarına maddi köməklik göstərmişdir. Məşhədə ziyarətə getmişdi.

Fars dilini yaxşı öyrənən M. Şərq ədəbiyyatını dərindən mütaliə edir, şeir yazırdı. C.Məmmədquluzadənin elm və təhsilə həvəsləndirilməsində, onun bədii zövqünün və mütaliə vərdişlərinin formalaşmasında M.-in xüsusi rolu vardır. Ağır xəstə olduğundan Mirzə Cəlil daim ondan nigaran idi. Naxçıvan ş.-ndə vərəm xəstəliyindən vəfat edərək orada da dəfn olunmuşdur.

MƏMMƏDQULİYEVA Səkinə Məmmədqulu qızı (1881-1918) – C.Məmmədquluzadənin bacısı. C.Məmmədquluzadə S.-ni 1893 ildə Nehrəmdə təşkil etdiyi məktəbdə oxutmuşdur. 1900 ildə Məmmədqulu bəy Kəngərli (1864-1905) ilə ailə qurmuşdur. Bir il sonra ondan ayrılmış, ikinci dəfə Əsgər Kəngərliyə ərə getmişdir. Bu nikahdan Səkinə xanımın oğlanları – Teymur və Cəlal, qızı Pakizə dünyaya gəlmişdir.

MƏMMƏDQULUZADƏ Ələkbər Məmmədqulu oğlu (1872-1922) – C.Məmmədquluzadənin qardaşı. Naxçıvanda təhsil almışdır. Kiçik məhəllə dükanında atası Məmmədqulu kişiyə yardımçı olmuş, Naxçıvan teatrında iştirak etmişdir. Yaxşı səsi olduğundan tamaşalarda avazla oxumaq tələb olunan rolları ona həvalə edirdilər. M.F.Axundovun "Hekayəti müsyö Jordan həkimi nəbatət və dərviş Məstəli şah cadukuni məşhuri" komediyasında Məstəli şah rolunu oynamışdır.

M. İran Məşrutə hərəkatında (1905-1911) Səttarxanın (1867-1914) yaxın silahdaşı olmuşdur. Müasirləri onu "ən məşhur Təbriz mücahidlərindən biri" ("Tərəqqi" qəzeti, 11 may, 1909, № 101) kimi təqdim etmişdir. Hətta ayaqlarına qandal salınmış Ələkbər Təbrizdən Naxçıvana gətirildiyi zaman, yolda fransız səyyahı bu prosesi görüb onun kim olduğunu soruşmuş, adını dəftərinə yazıb, şəklini çəkmişdir". (Həmidə Məmmədquluzadə Mirzə Cəlil haqqında xatirələrim. B., 1967, s. 46-47.). İrəvan dairə məhkəməsinin hökmü ilə 1911 il mayın 28-də bütün hüquqlardan məhrum edilməklə il-yarım həbsə məhkum olunmuşdu.

C.Məmmədquluzadənin atası **Məşədi Məmmədqulu** C.M.-nin qızı Münəvvərlə (1902).

C.Məmmədquluzadə qardaşını 10 aydan sonra həbsdən azad etdirə bilmişdi. Şeyx Məhəmməd Xiyabaninin (1886-1920) başçılıq etdiyi hərəkatda və Azadıstan dövlətinin təşkilində M. fəal iştirak edirdi. O, Xiyabaninin əsas tərəfdarlarından biri kimi 1920 ildə bir neçə ay Təbrizdə həbsxanada saxlanmışdı.

M. "Molla Nəsrəddin" jurnalının 1921 ildə Təbrizdə nəşrini davam etdirməsinin təşəbbüskarlarından biridir. O, Cənubi Azərb.-da jurnalı yayan abunə müvəkkillərinə başçılıq edirdi. Sovet dövründə M. Kəhrizlidə yaşamış, Həmidə xanıma məxsus təsərrüfatın idarə olunmasına kömək etmişdir. Kəhrizlidə dünyasını dəyişmiş və bu kənddə dəfn olunmuşdur.

Ə.Məmmədquluzadə

MƏMMƏDQULUZADƏ Ənvər Cəlil oğlu (1911-1979) – C.Məmmədquluzadənin oğlu. Uşaqlıq illəri Tiflisdə və Kəhrizlidə keçmiş, 1920-1921 illərdə ailə üzvləri ilə birlikdə Təbrizdə yaşamışdır. Sonra Bakıya qayıtmış, təqr. 1939 ildə Azərb. Tibb in-tunu bitirmiş, həmin in-tun əczaçılıq kafedrasında işləmişdir. 1940-1941 illərdə o, həm də poçt müdiri vəzifəsində çalışmışdır. Məhin Hüseyn qızı Dadipurla evlənmiş, 1940 ildə Mehri adlı qızı dünyaya gəlmişdir (hazırda anası ilə birlikdə Parisdə yaşayır). Ənvər və Məhin xanım Böyük Vətən müharibəsi illərində həkim kimi ordu sıralarına çağırılmış və sovet qoşunlarının tərkibində İrana getmişlər. Bir ildən sonra onların nikahı pozulmuş, Ənvər burada ikinci dəfə polyak qızı, onunla bir xəstəxanada işləyən tibb bacısı Zofya Bahrinovskaya (1922-1979) ilə evlənmişdir. Bu nikahdan övladları – Midhət (d. 1944), Nizhət (d. 1948), Teymur (1949-1994), İren (d. 1951) Cavanşirilər dünyaya gəlmişlər. Fars və alman dillərini öyrənən M. İrandan Vətənə qayıtmamış, Cavanşiri soyadını qəbul edərək Rəştdə, Əhvazda və Tehranda həkim işləmiş, şəxsi klinika sahibi olmuşdur. O, müxtəlif yollarla Bakıya məktublar göndərir, Həmidə xanımın qohumları ilə əlaqə saxlayırdı.

M.Məmmədquluzadə

Filol. e.d., prof. İsa Həbibbəyli uzun axtarışdan sonra Mirzə Cəlilin nəslinin davamçılarını tapmış, 1992 il yanvarın 25-də Tehranda ədibin nəvələri ilə görüşmüşdür.

M.Məmmədquluzadə

MƏMMƏDQULUZADƏ Münəvvər Cəlil qızı (1897-1965) – C.Məmmədquluzadənin Həlimə xanımla nikahından olan qızı. Bir yaşına çatmamış anası vəfat etmiş, onu babası Məmmədqulu kişi və nənəsi Sara xanım böyütmüşlər. 1905 ildə atası onu Tiflisə apararaq təhsili ilə məşğul olmuşdur. Burada M. qız gimnaziyasını bitirmişdir. 1918 ildə Həmidə xanım onu özünün razılığı ilə Tiflisdə İran konsulluğunda işləyən zabit İdris xana ərə vermişdi. Bundan narazı qalan Mirzə Cəlil hətta qızının toyunda da iştirak etməmişdi. Az sonra ərindən ayrılan Münəvvər xanım atasının ailəsinə qayıtmış və Məmmədquluzadələrin Cənubi Azərb.-a səfəri zamanı onlarla birlikdə Təbrizə köçmüşdü. 1921 ildə o da Bakıya qayıtmışdır. Burada tibb məktəbini bitirən Münəvvər xanım tezliklə Həmidə xanımın birinci nikahdan olan oğlu Müzəffər Davatdarovla ailə qurmuş və Kürdəmirə köçmüşdür. Mirzə Cəlil onlarla müntəzəm məktublaşır, xahişlərinə həvəslə əməl edir, Münəvvər xanımın tibb bacısı işlədiyi dövrdə ona gərək olan tibbi ləvazimatı alıb göndərirdi. Bu nikahdan da övladı olmayan M., atası vəfat etdikdən sonra ərindən ayrılaraq Naxçıvana qayıtmış, vaxtilə atasının müəllimlik etdiyi Nehrəm kəndində məskən salaraq səhiyyə sahəsində çalışmış, müəllimlik etmişdir. 1964 ildə Bakıya köçmüşdür. 1965 ildə, xəstəykən, ədəbiyyatşünas-alim Ə.Mirəhmədova atası haqqında xatirələrini danışmağa başlamış, lakin tezliklə vəfat etdiyindən xatirələr yarımçıq qalmışdır. Münəvvər xanımın dedikləri 1966 il martın 19-da "Bakı" qəzetində "O mənə həm atalıq, həm də analıq elədi" adı altında dərc olunmuşdur.

MƏMMƏDQULUZADƏ Xəlil (?-?) – C.Məmmədquluzadənin kiçik qardaşı, Məmmədqulu Məşədi Hüseynqulu oğlunun sonbeşiyi. Bir yaşında dünyasını dəyişmişdir.

MƏMMƏDQULUZADƏ Midhət Cəlil oğlu (1908-1932) – C.Məmmədquluzadənin oğlu. Tiflisdə anadan olmuşdur. M.Əzizbəyov ad. Azərb. Dövlət Politexnik İn-tunun Hidrotexniki tikintilər fakültəsində oxumuş (1928-1931), su inşaatı mühəndisi ixtisası qazanmışdır. Azərb. Dövlət Plan Komitəsində çalışmış, Mingəçevir SES-inin layihəsini hazırlayan komissiyanın elmi katibi olmuşdur. Dövlət Plan Komitəsinin kollegiya üzvü seçilmişdir. Mühəndis Rzazadə ilə birlikdə "Bakinski raboçi" qəzetində Mingəçevir SES-i haqqında ilk məqaləni dərc etdirmişdir.



Cəlil Məmmədqulu oğlu
MƏMMƏDQULUZADƏ

Mirzə Cəlil oğlu Midhəti "sonsuz məhəbbətlə" (Həmidə xanım) sevmiş, onun təhsilinə və inkişafına daim qayğı göstərmişdir. Midhət Bakıda vəfat etmiş, Çəmbərəkənd qəbiristanlığında dəfn olunmuşdu. Sonralar həmin məzarıstan köçürülərkən cənazəsinin qalıqları atasının Fəxri xiyabandakı qəbrinin yanında torpağa tapşırılmışdır.

C.Məmmədquluzadə

MƏMMƏDQULUZADƏ Cəlil Məmmədqulu oğlu (ədəbi təxəllüsü Molla Nəsrəddin; 22(10).2.1869, Naxçıvan ş. – 4.1.1932, Bakı) – böyük Azərb. mütəfəkkir yazıçısı, pedaqoq, jurnalist, ictimai xadim, tərcüməçi, naşir. Bir neçə il mollaxanada oxuduqdan sonra Naxçıvan şəhər məktəbində təhsil almış, Qori müəllimlər seminariyasını qurtarmış (1887), ibtidai məktəb müəllimi ixtisasını qazanmışdır. O, İrəvan quberniyasının Uluxanlı normal məktəbinə təyinat almış, burada 3 ay 17 gün (8 sentyabr – 25 dekabr 1887 il) pedaqoji işlə məşğul olmuşdur. Cavan xalq müəllimi əvvəllər ona Naxçıvan şəhər məktəbində dərs demiş, Qori seminariyasının məzunu Əliməmməd Xəlilovun təşəbbüsü ilə müdirlik etdiyi Baş Noraşen ikisinifli zemstvo məktəbinə dəyişilmiş, 2 il 19 gün (13 yanvar 1890 iləd ək) bu məktəbdə ana dili, rus dili və coğrafiya fənlərini tədris etmiş, şagirdlərinin xalqın daha çox ehtiyac hiss etdiyi peşələrə hazırlanması və istiqamətləndirilməsinə ciddi fikir vermişdir. Gələcək ədibin ilk qələm təcrübəsi olan "Çay dəstgahı" alleqorik mənzum dramı da (1889) Baş Noraşendə yazılmışdır.

M. 15 yanvar 1890 ildən 1897 ilin iyun ayınadək Nehrəm normal məktəbinin nəzarətçisi vəzifəsini daşımışdır. Bu illərdə Nehrəm ibtidai məktəbində şagirdlərin sayı 40 nəfərə çatdırılmışdır. M.-nin səyi nəticəsində məktəbdə qız sinfi təşkil olunmuş (1893), bacısı Səkinə Məmmədquliyeva da daxil olmaqla həmin sinifdə 8 nəfər azərb. qız təhsilə cəlb olunmuşdur. İrəvan-Yelizavetpol quberniyası Xalq Məktəbləri direktorluğu müsəlman qızları arasında savadı yaymaq üçün göstərdiyi qayğıkeşliyə görə onu yazılı təşəkkürə layiq görmüşdür. Bundan başqa, M. ərəb əlifbasını sadələşdirmək və ya latın qrafikasına keçmək üçün təşəbbüs göstərmiş, bu məqsədlə Peterburqa gedərək "Новое время" qəzetinin red.

C.Məmmədquluzadənin Naxçıvan şəhərində heykəli. Heykəltəraş **M.Mirqasımov**, 1974.

A.S.Suvorinlə görüşmüşdür (1895). M. Nehrəm məktəbində diyarşünaslıq muzeyi yaratmağa nail olmuş (1896), kənd camaatının əməyini yüngülləşdirmək məqsədilə Tiflisdən ucqar əyalət kəndinə "Ekker" şirkətinin istehsalı olan dəmir kotan gətirtmişdir. Həmçinin o, qonşuluqdakı Bulqan hərbi hissəsi həkiminin köməyi ilə "yerli iqlimi və təbiəti öyrənməyə" səy göstərmişdir.

M. 1893 il noyabrın 22-də Naxçıvan şəhərində çağrılmış İrəvan quberniyası xalq müəllimlərinin sahə qurultayında iştirak və çıxış etmiş, əməli təkliflər irəli sürmüşdür. Pedaqoji fəaliyyətinin Nehrəm dövründə o, Sadıq Xəlilov, Kərim bəy İsmayılov, Tağı bəy Səfiyev, Mirzə Ələkbər Süleymanov, Molla Məmmədqulu Qazıyev, Kərbəlayı Cəfəralı Adıgözəlov və b. maarifçi ziyalılarla birlikdə pedaqoji fəaliyyətini və maarifçilik sahəsində işini davam etdirmişdir.

1894 ildə o, "Danabaş kəndinin əhvalatları" əsərini yazmış, Naxçıvan teatr həvəskarları ilə M.F.Axundovun "Hekayəti-Müsyo Jordan həkimi-nəbatət və dərviş

Məstəli Şah cadukuni-məşhur" komediyasında baş rolda oynamışdır.

1895 ildə M. Nehrəm kəndində Həlimə Nağı qızı ilə evlənir, övladı Münəvvər doğulandan sonra (1897) qadın vəfat edir. M. 1897 ilin iyununda ərizəsinə əsasən Nehrəm normal məktəbinin nəzarətçisi vəzifəsindən azad olunur. Ədib pedaqoji işdən uzaqlaşıb, fəaliyyətini hüquq-inzibati idarələrində davam edir. O, 1897-1901 illərdə İrəvan qəza polis idarəsində tərcüməçi, dəftərxana xidmətçisi, Naxçıvan şəhər pristavının köməkçisi, Naxçıvanın şəhər polismeystrinin aşağı rütbəli köməkçisi vəzifələrini yerinə yetirir. Lakin polis idarələrində xidmət M.-ni razı salmır. O, "advokat olmaq eşqinə" düşür və özünü "ədliyyə idarələrinə" verir. İrəvana köçüb, 1901-1903 illərdə dava vəkili işləyir.

M. hüquq elminə, bütövlükdə hüquqşünaslığa, xüsusilə onun praktiki sahələrinə böyük maraq göstərirdi. Azərb. dilini bilən hüquqşünas-vəkillərin olmamasından məhkəmələrdə əzab çəkən xalqın hüquqlarını qorumaq məqsədilə Mirzə Cəlil keçən əsrin 90-cı illərində Naxçıvanda tanınmış hüquqşünas M. Kəngərlinin rəhbərliyi altında hüquq elminin əsaslarını öyrənməyə başlayır və məhkəmələrdə vəkillik fəaliyyətinə hazırlaşırdı. Məktublarının birində M. yazırdı: "Yolumu hüquq orqanlarına yönəltmişəm... Vəkil olmaq qərarına gəlmişəm... Bunun üçün mülki qanunları və başqa hüquqi ədəbiyyatı öyrənməyə başlamışam". V.P.Litvinov – Falinskinin Azərb. EA Əlyazmaları İn-tunda saxlanılan "Qüvvədə olan Rusiya qanunlarına əsasən fəhlələrin şikəst olmalarında və ölümlərində müəssisə sahiblərinin məsuliyyəti" ("Ответственность предпринимателей за увечья и смерти рабочих по действующим в России законам", СПб, 1900) kitabının səhifələrindəki qeydlərindən məlum olur ki, Mirzə Cəlilin diqqətini torpaq mübahisələri, özünümüdafiə məsələləri, şikəstlik almış fəhlələrin əmək qabiliyyətini itirmələri üçün məsuliyyət və s. problemlər cəlb etmişdir. O, apardığı işlərlə bərabər, İrəvana gəlmiş görkəmli vəkillərin çıxışlarını dinləmiş və onlarla fikir mübadiləsi aparmışdır. Torpaq, kəhrizlər ətrafındakı mübahisələr üzrə onun məhkəmədə müdafiəçi kimi çıxışlarının mətni İrəvan dövlət arxivində saxlanılır.

Bu illərdə ikinci dəfə 1900 ildə dostu M. Kəngərlinin bacısı Nazlı xanımla (əsl adı Zeynəbağa xanımdır – *red.*) evlənən M. onu da tezlikə (1904 ildə) itirir.

1902 ildən ədib İrəvanda publisist fəaliyyətinə başlayır. "Kaspi" qəzetində "İrəvan" və "İrəvan müxbirimizdən" başlığı altında ilk yazılarını dərc etdirir. 1903 ildə xəstə arvadını Tiflisə aparan M. burada M. Şahtaxtlı ilə görüşür. "Poçt qutusu" hekayəsini oxuyan alim-jurnalist ona "Şərqi-Rus" qəzetində əməkdaşlıq etməyi təklif edir. "Şərqi-Rus" (1903-1905) qəzetinin əməkdaşı, sonra müvəqqəti red. olur. Burada ədibin "Poçt qutusu", "Kişmiş oyunu" hekayələri, "Zəhmət, ölüm və naxoşluq", "Arvad" adlı tərcümələri və bir sıra məqalələri ("Getdi cahandan həzrəti Sidqi", "Ədəbiyyat") dərc olunur. Qəzet bağlanandan sonra M. onun mətbəəsini Ömər Faiqin və tacir M.Ə.Bağırzadənin maddi vəsaiti ilə alıb, "Qeyrət" mətbəə-nəşriyyatını yaradır (1905).

1905-1906 illərdən etibarən M. naşirlik fəaliyyəti ilə bərabər, xalq hərəkatına qoşulur. Müsəlman cəmiyyəti xeyriyyəsinin işində fəal iştirak edir, şifahi təbliğatla da məşğul olur. "Kaspi" qəzeti 28 mart 1907 il sayında onun bir tribun yazıçı olduğunu qeyd edib göstərir ki, M. martın 23-də Tiflis şəhərində xalq un-tində 500 nəfərə qədər dinləyici qarşısında

"Molla Nəsrəddin"in səhifələrində.

Его Превосходительству
Господину Тифлисскому Губернатору.

Проживающаго в Тифлисе
Приютская ул. № 18)
Джамала Мамед-Кули-Заде.

Прошение.

Имею честь покорнейше просить ваше Превосходительство разрешить мне издавать в городе Тифлисе на татарском языке в собственной моей типографии под моим редакторством сатирико-юмористический журнал под названием „Молла Насреддин" (ныне известный в мусульманской литературе легендарным шута), по следующей программе:

1) Разговоры
2) Остроты
3) Фельетоны
4) Юмористические стихи.
5) _____ телеграммы.
6) Сатирические рассказы
7) Анекдоты.
8) Почтовый ящик.
9) Юмористические объявления
10) Частныя объявления
11) Карикатуры и иллюстрации.

Подписная цена: на год-пять рублей, в месяцев - три рубля, 3 месяца - два рубля. Отдельный номер - пятнадцать копеек.

При этом я считаю нужным доложить Вашему Превосходительству что в 1904-м году выпустив в качестве редактора газеты „Шарки-Рус", и затем прошлого года Наместником Его Величества на Кавказе разрешено мне издавать в Тифлисе газету „Новруз", но ни издания этой газеты ввиду некоторых соображений я тогда не осуществил.

Джамал Мамед-Кули-Заде

Свидетельство за № 374 о выдаче свидетельства на право издания Джамал Мамед-Кули-Заде

21 февраля 1906 года.
Т. Тифлис.

M-nin 1906-cı il fevralın 21-də **"Molla Nəsrəddin"** jurnalının nəşrinə aid Tiflis Qubernatoruna müraciətinin faksmilesi.

məruzə etmişdir. Mövzu "İngiltərədə xalq universitetinin işi" idi. Ədib öz məruzəsində, ümumiyyətlə, belə un-tlərin yaranma tarixi, onların apardığı təlim-tərbiyə işlərinin məqsəd və vəzifələri haqqında danışmışdır. Sonra o, bu ölkədə təlimin dini xarakter daşıdığını və bunun xalqa faydası olmadığını xüsusi qeyd etmişdir. Qəzet yazır ki, məruzə diqqət və hərarətlə qarşılanmışdır.

M.-nin müxtəlif münasibətlərlə Azərb.-ın ayrı-ayrı şəhərlərində, Orta Asiya və Həştərxanda belə çıxışlar etdiyinə dair məlumatlar vardır. Cənubi Azərb. ziyalısı Ə. Şəbüstəri xatirələrində M.-nin 1920 ildə Təbrizin Mir Fəttah küçəsindəki klubda dəfələrlə məruzə və nitqlər etdiyini yazmışdır.

İnqilabi hərəkatın, demokratik ideologiyanın təsirilə bir müddət "Həyat", "Kaspi", "Кавказский рабочий листок", "Возрождение" kimi orqanlarda iştirak edən, "Poçt qutusu", "Usta Zeynal", "İranda hürriyyət" və s. hekayələrini kitab halında nəşr edən M., dostu Ömər Faiqlə birlikdə ilk Azərb. satira jurnalı "Molla Nəsrəddin"in bünövrəsini qoyur (7 aprel 1906), onun red., naşiri və ən fəal müəllifi olur. M. və Ömər Faiq M.Ə.Sabir, Ə.Haqverdiyev, Ə.Nəzmi, M.S.Ordubadi, Ü.Hacıbəyov, Ə.Qəmküsar və b. ilə milli ədəbiyyat və jurnalistikada mübariz mollanəsrəddinçilər cərəyanını, ədəbiyyatda tənqidi realnı məktəbini yaradırlar. "Molla Nəsrəddin" ilk gündən geniş əhali kütləsi arasında qeyri-adi şöhrət qazandı. O, müxtəlif təbəqələrin diqqətini özünə cəlb etdi. Redaksiya çoxlu təbrik, razılıq məktubu və teleqramı alırdı. Lakin eyni zamanda mühafizəkar, qaragüruhçu şəxslərdən təhqir yazıları da gəlirdi, hətta M.-ni öldürmək üçün Tiflisə adam da göndərilmişdi. Qətl baş tutmur, ədib isə bundan sonra silah gəzdirməyə məcbur olur.

Mollanəsrəddinçilər jurnalın təsir gücünü artırmaq və oxunaqlı etmək üçün yeni-yeni mövzular, süjetlər, bədii formalar, satirik üsullar tapmaq üçün daim axtarışlar edirdilər. Bu işdə əsas müəlliflər məsləhətləşməyə, müzakirəyə xüsusi fikir verirdilər. Ə.Haqverdiyev yazır ki, bir dəfə cəm olub məsləhətləşirdik. Mirzə Cəlil üzünü bizə tutub dedi: "Gəlin biz Mozalanı gəzdirək, ancaq səyahətnaməsini öz aramızda bölüşdürək. Hər kəs onu görüb

bildiyi yerə aparıb səyahət etdirsin. Oxuyanlar güman etsinlər ki, həqiqətən bu adam gəlib bu yerləri görüb, bu felyetonları yazmışdır". Jurnalda çap olunan "Mozalan bəyin səyahətnaməsi" seriyası belə yarandı. Müəllifləri Ə.Haqverdiyev, Q.Şərifzadə, S.Mümtaz və b. idi.

Buna görə M. yazırdı: "Molla Nəsrəddin" tək bir nəfər müəllifin əsəri deyil, "Molla Nəsrəddin" bir neçə mənim əziz yoldaşlarımın qələmlərinin əsərinin məcmuəsidir ki, mən də onların ancaq ağsaqqal yoldaşıyam ("Kommunist" qəzeti, 1924, 14 mart, №60).

M. XX əsrin, inqilablar dövrünün Molla Nəsrəddini idi. Milli azadlıq hərəkatına xidmət etmək onun məramnaməsinin əsas maddəsi idi. O, sənətkar təbiətində doğma xalqına məxsus ən yaxşı milli xüsusiyyətləri – azadlığı, tərəqqiyə olan sonsuz məhəbbəti, həqiqətpərəstlik hissini, köhnəlik, irtica, zülmət və cəhalətə alovlu nifrəti, ictimai varlığa tənqidi, döyüşkən münasibəti toplamışdır.

"Molla Nəsrəddin"in təkcə ideya istiqaməti, realist ədəbi yolu deyil, eyni zamanda satirik üslubu, şəkilli gülgü jurnalı olması da, ilk növbədə dövrlə, real varlıqla şərtlənmişdi. Ədib "Xatiratım"da deyirdi: "Şərqin qaranlığını təsəvvür edəndə insana elə bir təəccüb, heyrət üz verir ki, axırda əcayib bir şeyə gülən kimi, burada da insana bir mayeyi-gülünc və məzhəkə üz verir. Və belə gülünc bir zamanda, belə quli-biyabani bir insanların tarixini yazmaq üçün, əhval və ətvarını təsvir etmək üçün məgər "Molla Nəsrəddin"in yaranmağı təbii deyil?".

Gülüşə ehtiyacın artdığı belə bir şəraitin məhsulu olmaq etibarilə "Molla Nəsrəddin" Azərbaycan ədəbiyyatında böyük keçmişi, gözəl ənənələri olan satiranı yenidən oyadıb tüğyanə gətirirdi.

M. istismar dünyasının yaralarını açıb tökən, istismarçıların maskasını yırtıb parçalayan bir hakim, "müsəlman qardaşlar"ın yaralarını təyin və "təşxis" etmək və bərabər müalicəyə çalışan bir həkim, yəni tənqid, məzəmmət, ifşa ilə yanaşı, məsləhət verən, yol göstərən bir el ağsaqqalı idi.

M. ümumən xalqın ictimai-bədii təfəkküründəki mübariz gülüşü və ədəbiyyatdakı tənqidi keyfiyyətləri öz jurnalı vasitəsilə ustalıqla təşkil edərək, onlara inqilabi-demokratik məzmun aşıladı. M. 1905 il inqilabının cəmiyyətdə həlledici mərhələ yaratdığını nəzərə alıb, jurnalın işini bu tarixi şəraitdən doğan vəzifələr əsasında qurmağa başladı. Dövrün başlıca problemləri – Rusiyadakı birinci xalq inqilabının tarixi əhəmiyyətinin təbliği, ölkədəki siyasi və məfkurəvi irticanın ifşası, yeni inqilabi yüksəliş illərində, Birinci Dünya müharibəsi zamanı mürtəce ideoloji axınlara qarşı mübarizə; burjua millətçiliyi və dini təəssübkeşliyin tənqidi, ana dilinin təmizliyi, müstəqilliyi, milli ədəbiyyatın dirçəlişi uğrunda mübarizə M. publisistikasının başlıca problemi oldu.

M. xalq inqilabının tarixi əhəmiyyətini göstərməyə və ideyalarının təbliğinə xüsusi fikir verirdi. Bununla əlaqədar o, "allaha ibadət və böyüklərə itaət "əleyhinə, yəni çarizm və yerli zülmkarlar, habelə onların söykəndikləri mətbuat və dini ideologiya əleyhinə mübarizəni özünün baş vəzifəsi sayırdı. M. Rusiyada və şərq ölkələrində hökm sürən istibdad üsulunu tənqid edir, məzlum xalqların milli azadlıq hərəkatından danışırdı. O, müxtəlif publisistik üsullarla göstərirdi ki, "İran, Rusiya və Osmanlı hökumətlərinin ovzası" istibdaddır, "füqəra qürəbaya" zülm etməkdir. Rusiyada çarizm inqilabçı fəhlələri "kazaklar vasitəsilə ram etməyə" çalışır, lakin bu xalqın coşub-daşan mübarizə əzmini qırmaqda, "hürriyyət və hüquq davasını" yatırmaqda acizdir.

1910-cu illərdən etibarən M. publisistikasında milli-azadlıq ideyaları qüvvətlənib, 1917-ci ildə yüksək ifadəsini tapır.

Bütün dövlət aparatının gündə bir yerdən yırtılan "çürük şalvar" halı aldığını, onun özünün və "qanunları"nın bilmərrə kənara atılmalı olduğunu göstərən ədib yazırdı ki, cəmiyyətdə əsaslı dəyişikliklər aparılması zəruridir: "...neçə yüz il bundan irəli ingilisdə baş verən "məşrutə" Avropa məmləkətlərini dolana-dolana indi gəlib düşüb biz müsəlmanların içinə... istəyirik biz də buna sahib olaq".

Məşrutə üsulu ilə idarə olunan "məmləkət" haqqında kiçik bir epizod verən M. guya sözgəlişi işlətdiyi "azad məmləkət" ifadəsi ilə özünün başlıca idealını daha da qabarıqlaşdırırdı.

Ədib dönə-dönə deyirdi ki, vətən qardaşlarımıza "düşmənlərini tanıtmaq" və onları bu düşmənlərlə mübarizəyə hazırlamaq bizim borcumuzdur. Ədibin fikrincə, bəla bundadır ki, "müsəlman qardaşlar"ın böyük bir hissəsi dost-düşmənini tanımaqda çətinlik çəkir, cəmiyyətdə qarşılaşdıqları bütün yaramazlıqları, bütün məhrumiyyət və bəlaları ya "təqdiri-xuda", ya Allahın qəzəbi, ya da "şeytanın işi" kimi başa düşürlər.

M. çox doğru olaraq ziyalıların, burjua-millətçi ideologiyanın, mətbuatın, həmçinin bu məsələdə tutduqları xətti-hərəkət üzərində xüsusi dayanır: bir yandan vaizlərimiz minbərə çıxıb əvvəl xanlarımıza, qolu çomaqlılarımıza və qoçularımıza rəhmət oxuyub axırda deyirlər: "Allah şeytana lənət eləsin!", o biri yandan da "hər bir müsəlman qəzetini alırsan əlinə görürsən ki, yazılıb: "Maşallah, filan milyonçu, maşallah, filan millətpərəst, maşallah filan xan, filan bəy, filan hacı, filan kərtənkələ...". Amma heç kəs yazmır ki, bir yandan minlərcə müsəlmanlar acından ağlaşır və bir yandan da min-min manatlar xərclənir qonaqlıqlara, şöhrət ehsanlarına, qara neftə, püstə-badama, barişna və madama, sözü bir dəfə deyərlər adama". M. sinfi ziddiyyətləri yatırmaq və sinfi sülh yaratmaq istəyənlərin canfəşanlığını tənqid edərək göstərirdi ki, hər hansı zalım müsəlman da olsa, ondan xalqa imdad yoxdur, biz onu "özümüzünkü" saya bilmərik.

1906 ilin yayında M. jurnalda yazırdı ki, İran şahzadəsi Bəhmən Mirzə Şuşa qalasında öləndən sonra oğlanları bir-bir Rusiyaya köçüb; təkcə şahzadə Seyfulla qalmışdı ki, bir az əvvəl o da Vladiqafqaza getdi. Şahzadə "Тифлисский листок" qəzetində lovğalıqla yazır ki, artıq Şuşada elə bir ləzzət yoxdur ki, adam orada qalsın. İndi Şuşa guya ən ürək sıxan yerdir. Bu sözlər Şuşanın özünə, təbiətinə, əhalisinə çox yaxşı bələd olan Mirzə Cəlilin ürəyinə güllə təki dəymişdi. O, "Molla Nəsrəddin"də "Vətən məhəbbəti" başlığı ilə yazırdı ki, gürcü milləti çar hökuməti qarşısında məsələ qaldırıb ki, "biz istəmirik ruhani rəisimizi Rusiya hökuməti təyin eləsin" (o vaxt bu barədə imperator özü fərman imzalayırdı – *red.*). Ədib istehza ilə deyirdi ki, "vaqeən gürcü milləti çox sırtıq millətdi", padşahla razılaşmır; əslində, bu "sırtıqlıq" məziyyətdir, gözəl sifətdir. Bu, öz milli qürurunu, heysiyyətini qorumaq deməkdir, vətən məhəbbətinin əla təzahürlərindən biridir.

Jurnalın səhifələrində Şuşa haqqında, Qafqaz şeyxülislamının müsəlman məktəblərinə rəğbətinin artması, çadra, "Hicab" (qadınların örtünmələri), ana dilinin təmizliyi və başqa bu kimi mövzularda yazıları oxuyan Həmidə xanım ona valeh olmuşdu. Atası Əhməd bəy Cavanşirin ölümündən sonra onun əlyazmalarını nəşr etdirmək istəyən Həmidə xanım Tiflisə, rəfiqəsi Sofya xanım Şahtaxtinskayanın yanına gəlir. Onunla bu barədə danışmaq üçün S.Şahtaxtinskaya Mirzə Cəlili Ömər Faiqlə birlikdə evinə dəvət edir. Bu onların ilk tanışlığı idi. İşgüzar söhbətlə nəşr haqqında razılığa gəlirlər. Həmidə xanım əsərləri M.-yə verir. Sonradan bu tanışlıq daha da möhkəmlənir və 1907 il iyunun 15-də Həmidə xanım Mirzə Cəlilə ərə gedir.

Bu dövrdə ədib Tiflisin ictimai-mədəni həyatında da mümkün qədər fəal iştirak edirdi. "Закавказье" qəzeti 1907 ilin aprelində yazırdı ki, şəhərimizin Zubalov ad. klubunda xalq konserti zamanı "məşhur jurnalist Cəlil Məmmədquluzadənin səhnədə görünməsi müsəlmanlar arasında xüsusi bir şadlıq və şənlik yaratdı. O, gurultulu alqışlar altında müsəlman dilində Şərq əfsanəsini oxudu. Sonra mühazirəçi dinləyiciləri rus dilində əfsanənin məzmunu ilə tanış etdi. Mühazirəçini sürəkli alqışlarla qarşıladılar".

Kəhrizli k.-də təsərrüfata rəhbərlik lazım gəldiyi üçün Mirzə Cəlil vaxtaşırı Həmidə xanımla kənddə qalmalı olurdu. M. yazmışdı: "Mən ancaq burada, təbiətin bu sakit guşəsində özümü xoşbəxt hiss edirəm. [...] Bu yerlərin gözəl baharı [...] yorğun əsəblərimi sakitləşdirib fikirlərimə qol-qanad verir. Mən jurnalın qarşısında öz borcumu yerinə yetirdikdən sonra ömrümün son illərini bu sakit guşədə keçirmək istərdim".

Mirzə Cəlili Qarabağa bağlayan səbəblərdən biri təbiətin gözəllikləri qoynunda valehedici tərzdə axıb ətrafa sərinlik yayan çay idi. Belə sularda üzə-üzə çimməyi çox xoşlayan ədib bir dəfə çayın coşğun vaxtında az qala batacaqdı. Onu qarabağlı tanış cavanlardan olan Qəhrəman Şirinbəyov xilas eləmişdi.

Ailə-məişət qayğıları ilə bağlı olaraq M. bu illərdə tez-tez Kəhrizlidə qalır, 1910-cu ilin ortalarında dostu M.T.Sidqinin oğlu M.Ə.Sidqiyə məktub göndərib ondan Tiflisə gəlib "Molla Nəsrəddin"in "müdiri-məhsulluğunu" öhdəsinə götürməyi və redaksiyanı idarə etməyi xahiş edir. O, 1910-cu ilin 13 noyabrından 1911-ci ilin 19 martına qədər jurnalda redaktor köməkçisi işləyir. M. Qarabağdan jurnala yazılar, məsləhətlər, mövzular, rəsmlər, pul göndərirdi.

"Molla Nəsrəddin"in vəziyyəti isə çox ağır və mürəkkəb idi, ona münasibət də, onun özünün adamlara, hadisələrə, məsələlərə münasibəti də bundan çox fərqlənmirdi. Ümumiyyətlə, ailəsinə, maddi qayğılara, jurnalın materiallarının hazırlanmasına çox vaxt, böyük əmək sərf edən ədib yaradıcılığa da, jurnalın düşmənlərinə layiqincə cavab verməyə də xüsusi diqqət yetirirdi. M.F.Axundov, M.Ə.Sabir, M.Ə.Möcüz, Z.Marağayi və b. realist satiriklər kimi, M. üçün də sənətdə nəsihətçilikdən daha artıq canlı, həyati, mübariz, ifşaçı üslub səciyyəvi idi.

Jurnalı hörmətdən salmaq, hətta bağlatdırmaq üçün çalışanlar çox idi: çar hakim dairələri, Qafqaz canişinliyi, İran və Türkiyə mühafizəkarları, "Molla Nəsrəddin"in tənqid etdiyi ruhanilər, xanlar, bəylər və b. A.Şaiq yazır ki, Mirzə Səmənder M. haqqında həcvini Bakı dövlətliləri arasında yayıb, onlardan "bəxşiş" pul qoparırdı. Təbriz irticaçıları "Molla Nəsrəddin"ə "cavab" vermək üçün 1908 ilin martında Səd Sultanın red.-luğu ilə hətta "Molla" adlı rəsmli satirik jurnal çıxarmağa başlamışdılar. Bir ay sonra yenə Təbrizdə cəmisi 10 nömrəsi çıxmış "Həşəratül-ərz" jurnalı buraxılmışdı.

Qafqaz general-qubernatoru və qeyri vəzifə sahibləri "Molla Nəsrəddin" barədə məhkəmə işi qaldırmışdılar. Jurnalın bir sıra nömrələrinin mətni ruscaya çevrilib "xəbərdarlıq", "ayıq olmaq" məsləhəti ilə hakim dairələrə göndərilirdi.

Əlbəttə, mollanəsrəddinçilərin dostları, xeyirxahları belələrindən qat-qat çox idi. Onların arasında ədibə hətta Kəhrizlidə də günlərlə qonaq olan S.Ağamalıoğlu, Ü.Hacıbəyov və b. vardı. Dostları ədibin siyasi və mədəni maraq dairəsi ilə tanışlıqdan valeh olur, yeni mövzularını bəyənirdilər. Məs., Dövlət Dumasının iclasına yola düşən deputatlara müraciətlə yazdığı felyetonda ədib deyirdi ki, "Sizədir bizim ümidimiz... ey millət vəkilləri... Gediniz, Allah sizə yaxşı yol versin... Amma bunu hər dəqiqə yadınızda saxlayın ki, sizin boynunuzda ağır təkliflər var ki, onları əmələ gətirməyi millətimiz sizdən tələb edəcək... Tələb ediniz ki, Rusiya hökumətinin yolunda canüdillə xidmət edən müsəlmanlara layiqincə vəzifə və ənam verilsin və bununla belə Rusiyanın müstəbid idarəsinin tərəfdarı olmayan müsəlmanlar Saxalin cəzirəsinə göndərilsinlər". Dərin istehzalı, əks mənalı bu "məsləhət" və "xahiş"də, şübhəsiz ki, çarizmin müsəlmanlara qarşı siyasətinə, zülmünə qarşı çox kəsərli etiraz var idi.

C.Məmmədquluzadə oğlanları **Midhət** və **Ənvərlə**.

Məşhur "Ölülər" pyesi üzərində işləməyə də ədib "bu sakit guşədə" başlamışdı. İlk çağlar yazı işi yaxşı gedirdi. Amma kənddəki ixtilaflar, yerli qaragüruhun Kəhrizli kəndi və Həmidə xanım ətrafında törətdiyi narazı əhval-ruhiyyə, qardaşı Ələkbərin Təbrizdə həbs olunması və b. səbəblər ədibin vəziyyətini ağırlaşdırırdı. Vəziyyəti normal hala salmaq, xüsusilə qardaşına qahmar çıxmaq üçün ona pul da lazım idi. M. dostu Q.Şərifzadəyə, Məhəmməd Tağı Sidqinin oğlu Məmmədəliyə müraciət edir. O da birincisi M.-nin veksellə bankdan borc almasına, ikincisi redaksiyanın işlərində kömək edir.

Məmmədəli Sidqi (Səfərov) Bakıya gedəndən sonra jurnalın işləri gündən-günə xarablaşırdı. M. hərdən Tiflisə gəlib jurnala bilavasitə rəhbərlik etsə də, Kəh-

rizlidəki işlər onu kəndə qayıtmağa vadar eləyirdi. O, 1912 il martın 7-də Bakıya Məmmədəli Sidqiyə yenidən məktub yazaraq, ondan jurnal üçün məqalələr istəyir, onu jurnalı dolandırmaq üçün Tiflisə çağırırdı.

Bir gün sonra, martın 8-də M. Tiflis qubernatoruna ərizəsində "Molla Nəsrəddin"in şəkillərini Bıxov litoqrafiyasında çap etdirməyə icazə istəyir. Ona icazə verilir ki, jurnalı bu litoqrafiyada (Qubernski küç. № 34) və Muxranski küçəsindəki Kiladze mətbəəsində çap etdirsin. Lakin 9-cu nömrəsindən (8 mart 1912) sonra jurnal çıxmır. Doqquz aylıq fasilə zamanı Bakı, Naxçıvan, Baxçasaray, Tiflis, Daşkənd və b. şəhərlərin mətbuatı "Molla Nəsrəddin"in dayanması və nə zaman çıxacağı barədə cürbəcür ehtimal, şayiə və s. çap edir.

1913 il yanvarın 13-də çıxan birinci nömrədə "İdarədən" qeydində deyilir: "Gələcəkdə hökumətdən izn hasil olandan sonra məcmuəmiz irəliki baş mühərririmizdən savayı dəxi qələm yoldaşımız Əliqulu Nəcəfov imzası ilə çıxacaqdır". Fevralın 20-də çıxan 6-cı nömrə "müdir və baş mühərrirlər Cəlil Məmmədquluzadə, Əliqulu Nəcəfov" tərəfindən imzalanır. Həmidə xanım yazır ki, aprelin axırında jandarm Mirzə Cəlilin Tiflisdəki evini axtarıb, bəzi kağızları müsadirə etmişdi.

Redaksiyanın qayğıları yenə başdan aşırdı. 15 mart sayında bir cücənin xoruza ərizə verdiyi və canavarlar tərəfindən əhatə edildiyi təsvir olunan şəklin, 30 dekabr sayında birinci səhifədəki şəklin üzərinə qara rəng çəkilib pozulmuşdu. M.Ə.Sabirin xəstəliyi davam edib şiddətlənirdi. Ömər Faiq xəstələnib həkimlərin məsləhətilə Tiflisi tərk etmişdi. "İşıq" jurnalının naşiri M. Əlibəyov "Molla Nəsrəddin" haqqında qərəzli yazı və şəkil verirdi. Həmidə xanımın oğlu Ənvərin vaxtından qabaq, iki cərrahiyyə əməliyyatı ilə dünyaya gəlməsi ailənin qayğılarını artırmışdı. Məhkəmə Ələkbər Məmmədquluzadəyə il yarım həbs cəzası kəsmiş, M. onu müvəqqəti Kəhrizliyə gətirmişdi.

C.Məmmədquluzadənin Naxçıvan şəhərində anadan olduğu ev.

"Müsəlman qardaşları"nın dostu, pənahı, müdafiəçisi, öndəri olan M. jurnalda işini mətanətlə davam etdirir, öz ürək sözlərini Qafqaz müsəlmanları kimi, Rusiya, İran, Türkiyə, Tatarıstan, Sibir, Orta Asiya, Çin və Yaponiyanın, habelə Misir, Bolqarıstan, Pribaltikanın türk xalqları haqqında da yazırdı; qayğıkeş, səmimi, narahat, bəzən də açıq yolgöstərici sözlər yazırdı.

1905-1911 illər İran inqilabı, onun rəhbərləri Səttarxan və Bağırxan "Molla Nəsrəddin" jurnalının, xüsusilə M.-nin ən əsas mövzuları sırasında idi. Ədib bu inqilabın vəzifə və qayəsini belə müəyyənləşdirmişdi: "Bu günlərdə İranda istibdad ilə ədalət bərk çarpışır. Yekə bir millətin dini, namusu, hüququ, vətəni təhlükədədir... Bu gün Kərbəla meydanı – Azərbaycandakı vətənpərvərlik meydanıdır. Hər kimin ürəyində bir cüzi din, namus, vətən hissi varsa, oranın qeydinə qalmalıdır!.. Bu gün ən böyük ibadət, ən birinci din və vətənpərvərlik oraya kömək etməkdir... Bu gün Kərbəla meydanı – Azərbaycan meydanıdır".

1906 ilin dekabrında Tehran Milli Əncüməni sədrinin teleqramına əsasən çar hakim dairələri "Molla Nəsrəddin" jurnalının İrana buraxılmasını qadağan etdiyi zaman, buna etiraz edən xadimlər və ziyalılar arasında o zaman Gəncədə olan Ə.Ağayev də vardı. O, "İrşad" qəzetində yazmışdı ki, "Mərhəba bu barədə "Molla Nəsrəddin" jurnalına. Doğrudur, İran sərhəddində onu yandırdılar. Amma jurnala adı qoyulan molla sağ olsaydı, deyərdi: "Qoy yandırsınlar, onu yandıranların özünü yandırarlar. Biz gərək xəcalət çəkək" ("İrşad", 1906.28.12).

M. bütün həyatını Vətənə həsr etmişdir. Onun bütün yaradıcılığının baş möv-

zusu, məhvər oxu, canı – Vətəndir, xalqdır, onların səadətidir. Bu ideala xidmət edənləri o, xalqın dostu, xəyanət edənləri isə düşməni sayırdı.

M.Ə.Sabir, M.Ə.Sidqi, F.Köçərli, Ömər Faiq, Qəmküsar, Əli Nəzmi, Həmidə xanım, Ə.Haqverdiyev, C.Zeynalov, S.Mümtaz və b. müxtəlif yollarla jurnala, M.-yə kömək edir, redaksiyaya məktublarında yaxşı məsləhətlər verir, bədxahların qəsdini pisləyirdilər.

1909 il M. və "Molla Nəsrəddin" üçün onlara qarşı hücumçu yazılarla başlandı. Bu yazılardan çoxunun nəşrinə "Səda" qəzetinin red., mollanəsrəddinçilərin bir az əvvəl tənqid etdikləri yazıçı, jurnalist Haşım bəy Vəzirov başçılıq edirdi. M. o vaxt Sidqiyə məktubunda onu qınayıb yazırdı: "Mən sizə demədimmi Haşım bəyə sataşmayın?".

İsmayıl Həqqi yazır ki, Həmidə xanımın qızı Minanın toyu Mirzə Cəlilə bu hadisələri azacıq unutdurub, onun üçün camaatla ünsiyyət cəhətdən də fərəhverici vəsilə oldu. "Məclisdəkilərin çoxu əyan-əşrəf idi. Mirzə zarafata salıb dedi ki, bizimlə sizinki tutmaz, yolumuz ayrıdır. Siz ağ adamlarsınız, biz qara adamlarıq. Onun üçün iki cəbhəyə ayrılırıq". Ədibin bu halını bəyənən Həmidə xanım bir neçə gün sonra "Molla Nəsrəddin"in beşilliyi tamam olanda bir divar saatı alıb, hədiyyə olaraq Mirzə Cəlilin kabinetindən asmışdı.

Qardaşdan, dostdan artıq sevdiyi M.Ə.Sabirin ağır xəstəliyi, 1911 ildə vaxtsız ölümü M. üçün hədsiz bir itki oldu. O və Həmidə xanım Sabirə, ailəsinə müntəzəm maddi yardımdan qalmırdılar. Ailəsi ildən-ilə artıb böyüyən ədib maddi cəhətdən də ehtiyac içində olduğundan vəziyyətini dostu Q. Şərifzadədən aldığı borcla düzəldirdi. "Molla Nəsrəddin"in "Hophop"unu isə aydındır ki, heç kəs, heç nə əvəz edə bilmirdi, bilməzdi də.

1913 il avqustun 19-da Qurbanəli Şərifzadəyə məktubunda ədib yazırdı ki, "Qardaşım, sən mənə altı ay vaxt vermişdin ki, altı aydan irəli kağız yazmayım [...] Bilmirəm, altı ay keçib, ya yox, amma [...] bu dəfəliyə günahımdan keç; bundan sonra istəyirsən bir il vaxt qoy!".

Müharibə zamanı, məsələn, 1914 ildə "Molla Nəsrəddin" böyük çətinliklə hazırlanır və çap olunurdu (1914 ildə cəmi 25

nömrə çıxmışdır). Həmin ilin 7 oktyabrında M. jurnalın nəşrini "naməlum vaxta kimi dayandırdığını" Mətbuat Komitəsinə bildirir. Bu hadisə müxtəlif dilli mətbuatda təəssüflə qarşılanır, cürbəcür rəylər çap olunur. 1915 ilin oktyabrında ədib "Molla Nəsrəddin"in çapını davam etdirmək imkanı" olduğunu bildirib icazə istəyirsə də, məqsədinə çatmır. "Molla Nəsrəddin" barədə yenə müxtəlif fikirlər yayılır.

M. 1916 ilin əvvəlində M.Ə.Sidqiyə yazır: "Tiflisə gəldim ki, jurnalı yenə başlayıb, dostların köməkliyi ilə yeridəm. Amma işlər özgə bir surətdədir. Əvvəla Tiflisdə kağız yoxdur [...] mənzillər yenə birə üç bahalaşıb [...] Deyirlər Bakıda kağız var, amma orada "Molla Nəsrəddin" yazmaq olmaz". Jurnalın Bakıda nəşrini mümkün saymayanda M. bir neçə il əvvəl bu şəhərdəki bəzi qüvvələrin jurnaldakı tənqidə görə onu öldürmək istədiklərini, əleyhinə hər yerdə cinayətkar təbliğat apardıqlarını nəzərdə tuturdu.

Bütün çətinliklərə mətanətlə sinə gərən ədibin fikri-zikri neçə ildən bəri yazdığı, amma hələ heç bir teatra vermədiyi "Ölülər" pyesinin tamaşaya qoyulmasına nail olmaq idi. Bu arzusuna o, 1916 ildə çatır. Aprelin 29-da "Ölülər"in Bakıda, H.Z.Tağıyev teatrında ilk tamaşası çox uğurlu keçir. Tamaşaçılar müəllifin özünün "faciə" adlandırdığı "Ölülər"i xalqın dərdləri, zülmə, yekəbaşlığa nahaq dözümü barədə ittihamçı, kədərli bir əsər kimi qiymətləndirirlər. Qəzetlərdə N.Vəzirov, S.M.Qənizadə, N.Nərimanov, Ü.Hacıbəyov, H.Cavid, M.Ə.Rəsulzadə, S.Hüseyn

və b.-nın tamaşa haqqında təəssüratları və məqalələri çap olunur. "Açıq söz" qəzeti yazmışdı: "Cümə günü Tağıyev teatrı bir ədəbiyyat bayramı keçirirdi. Molla Nəsrəddinin əsəri [...] "Ölülər" draması tamaşa edilirdi". Müəllimə Ş.Əfəndizadə lojada oturmuş bir azərb. qadının sözlərini misal gətirmişdi: "Mənim ixtiyarım öz əlimdə olsaydı, bu teatrı yazanı tapıb onun barmaqlarından öpərdim". Bu bayram əhval-ruhiyyəsinin əksinə, tanınmış jurnalist O. Orucov İsgəndər surətinə etirazını bildirir, pyes barədə tərifləri "gülünc" sayırdı. "Bəsirət" qəzetinin red. H.İ.Qasımovun ona cavabında deyilir: "Alqışçılar Mirzə Cəlil əfəndini bu pyeslə deyil, onun [...] nəşr etməkdə olduğu "Molla Nəsrəddin" ilə tanıyırdılar [...] Yaşasın Molla Nəsrəddinimiz!".

Pyesi Orta Asiyada tamaşaya qoymaq üçün Bakıdan Krasnovodska yola düşən M. və Qəmküsarı Aşqabad vağzalında azərb. ziyalılar qarşılayırlar. Lakin şəhərin Mirzə Cəlili, onun əsərlərini, jurnalını, dostu Qəmküsarı görməyə gözü olmayan bəhayilərdən ibarət mühafizəkarları, əksinə, qonaqları Aşqabaddan çıxartdırırlar. M. və Qəmküsar Daşkəndə gedir, orada "Ölülər"i cəmisi bir dəfə göstərib qayıdırlar.

1914 il oktyabrın 18-də M. böyük çətinliklə "Molla Nəsrəddin"in 25-ci sayını nəşr edəndən sonra, jurnalı iki il yarım çap etmək mümkün və məsləhət olmur. "Mümkün olmur" ona görə ki, kağız, mətbəə çox bahalaşmış, digər xərclər artmışdı; ona görə "məsləhət olmur" ki, bütün Avropa və Rusiya kimi, Azərb. və Gürcüstanda da şərait hələ sabitləşməkdən uzaq idi; müxtəlif silk və siniflərdən olan şəxslər xalqı hərə bir yola çəkir, çox vaxt buna müvəffəq də olurdular.

M.-nin 1917 il fevralın 16-da yazdığı kimi, "hökumətlərin bir neçəsi [...] özlərini bitərəf" saxlamışdılar. Bu şəraitdə ədib onu çoxdan düşündürən milli məsələ və ana dilinin taleyi ilə ciddi məşğul olur: "...bu zəhrimar dava başlanandan bir para zəif millətlər polyakların azad olmağını ünvan eləyib, istəyirlər baş qalxızsınlar ki, yəni biz də varıq; ...keçən ay Tiflisdə şəhər duması vəkilləri bir səslə qərar qoydular ki, hökumətin orta məktəblərində ana dilinin qeyri dərslər dərəcəsində oxunmağını tələb etsinlər". Duma məclisində müsəlmanlardan "tək bir nəfər şəxs var imiş ki, o da durub belə fərmayiş edib: – Ağalar [...] əgər biz duraq özgə elmləri də və özgə dilləri də oxuyaq və öz ana dilimizi oxuyaq, – bu, bir çətin işdir. Əgər biz ana dilimizə də qeyri millətlər kimi əhəmiyyət verək və öz aramızda ana dilimizdə danışaq, onda deməli ki, gərək hər bir cəmiyyətimiz pozula; səbəb budur ki, [...] nə qədər ki, milli cəmiyyətlərimiz var, [...] üzvləri rusca danışırlar və çoxusu heç öz ana dilini bilmir".

Ana dilini hər bir xalqın milli müstəqilliyi və milli mədəniyyəti üçün çox vacib sayan M. bu fikrin tərəfdarlarını hörmətlə yad edib, Rusiyada, Gürcüstanda, İranda olan belə xadimlər haqqında yüksək ehtiramla yazırdı. Görkəmli İran alimi M. Tərbiyətin "Məşrutiyyət dövrü satirik mətbuatı" kitabında "Suri-İsrafil", "Həşəratul-ərz", "Bəhlul" və b. satirik mətbuat orqanlarına böyük qiymət verməsi də, şübhəsiz, M. üçün çox əhəmiyyətli idi. M. Tərbiyət yazırdı: "Azərbaycan türkcəsi ilə nəşrə başlayan "Molla Nəsrəddin" jurnalı [...] satirik və yumorist orqanların ən yaxşısı və faydalılarından biri idi. Şərq ölkələrində, doğrudan da, misli olmayan bu jurnal İran həyatına aid məsələlərdən də bəhs edirdi. İranın... "Suri-İsrafil"in "Çərənd-pərənd" sütunları başdan-başa "Molla Nəsrəddin"dən ilham alır, onun şivə, üslub və təsiri altında yazırdı" (Q.Məmmədli. Molla Nəsrəddin. (Salnamə). B., 1984, s. 235-236).

M.-nin qələmindən çıxmış "Bayramlar", "Qorxmayanlar", "Rus məxrəci", "Millətlər", "Azadiyi-vicdan", "Qondarma bəylər" kimi felyeton və məqalələri, xüsusilə, çox məşhurlaşan "Azərbaycan" publisist əsəri də ədibin fəaliyyətinin leytmotivlərinə aiddir. "Bayramlar" "müqəddəs İvan"ın "qətlə" yetirildiyi, "müqəddəs Marqosun ad günü", "müqəddəs Silvestrin" dişinin laxladığı vaxtı, "Qriqorinin başına soyuq" dəyməsini və bir çox belə "tarixi hadisələrin" qeyd olunmasının ölkə üçün, xalq üçün, məişət üçün törətdikləri çətinlik haqqında idi. Ədib yazırdı: "Əgər bundan sonra da müsəlmanların üzünə hökumət idarələri müqəddəs Afanasi adı ilə "prazdnik" deyilib bağlanacaq – dəxi nə azadlıqbazlıqdır?!".

"Qorxmayanlar" felyetonu özünü ruhanilərdən aşağı pillədə, çox aciz, hətta

qul vəziyyətində görən rus təhsilli "müsəlman intelligentləri"nə qarşı çevrilmişdi. "Rus məxrəci" daha kəsərli felyeton idi: "...Bu saat Qafqaz müsəlmanlarını idarə edən şəxslərin heç birisi müsəlmanca yazıb-oxumaq bacarmır, ...bəlkə hələ fəxr eləyir ki, bacarmır". Ədib bundan belə bir nəticə çıxarır: "Bizim işimiz qurtarıb gedibdir. Elə rus missionerləri buna çalışırdılar"; Levitski, Ostroumov, Miropyev kimi ruslaşdırma siyasətçiləri "çalışırdılar ki, bizləri ruslaşdırıb, dilimizdən və vətənimizdən bizi bilmərrə ayıralar". Nəhayət: "İndi biz görürük ki, camaatımız içində hörmət sahibi rusca danışanlardır".

Fevral inqilabını alqışlayan M.-də bir müddət zəhmətkeş kütlələrini zülm və haqsızlıqlardan qurtarıb, demokratik inkişaf yoluna çıxacağına ümid yaranmışdı. O, nikbinliklə yazırdı ki, "...neçə müddətdən bəri bir dəstə zalım bir yerə cəm olub və özlərinə bir başçı qərar verib, minmişdilər camaatın boynuna. [...] Məzlumların ahunaləsi ərşə qalxırdı. Bəli, zəmanə dolandı və [...] padşahı taxtdan saldılar", "indiki inqilab bir böyük novruzdur" ("Mübarəkbadlıq", 7.3.1917). Çox keçmədən ədib müvəqqəti hökumətin beynəlxalq militarist siyasətinin inqilabın qarşıya qoyduğu vəzifələrə, proqramlara zidd olduğunu başa düşüb, onun irticaçı mahiyyətini belə aşkarlayırdı: Dünya müharibəsinə səbəbkar "qan tökən [...] köhnə rus hökumətidir". Yenə "hərbzədələr acından ağlayır", "Təzə hökumətimizin xariciyyə vəziri Milyukov [...] deyir ki, gərək İstanbuldan türkləri yerli-dibli qovaq. [...] A balam, get işinə-gücünə!".

Ədibin əvvəlki əhvalı get-gedə "Ağlaram ağlar kimi, Dərdim var dağlar kimi" fəryadı ilə, "Zənciri – müqəddəs" felyetonunda verdiyi bu ağır suallarla əvəz olunurdu: "Bəlkə bizdən sual elədilər ki, Ey müsəlman yoldaşlar, siz hələ nə istəyirsiniz? Siz hara, azadlıq hara? Siz hara, müsavat hara? Qorxuram onda xəcalət çəkək. Çox qorxuram".

Hadisələrin sonrakı inkişafı, ölkədə, özünün fəaliyyəti və şəxsi həyatında yaranan çox mürəkkəb vəziyyət M.-ni, onun jurnalını və qələm dostlarını yeni çətinliklərlə üzləşdirdi.

Mart-aprel aylarından başlayaraq M. ölkədəki vəziyyət, siyasi hadisələr, sosial qüvvələrin çarpışması, "Molla Nəsrəddin"in bu mürəkkəb şəraitdə vəzifəsi haqqında düşünüb, həm müasirləri, həm bədii-publisist yaradıcılığı, həm də ailəsi üçün "nə etməli?" sualına cavab axtarıb tapmalı oldu.

M.-ni düşündürən məsələlərin ciddiyəti birə-on artmışdı. O məsələlər bunlar idi: Vilsonlar beynəlxalq aləmdə acgözlüklə hərbçi siyasət yeridirlər; indi yeni-yeni vuruş cəbhələri açmağa plan tökülür. Əksinə, xalqlar bunu görüb vətən müdafiəsinə həmişəkindən artıq hazırlığa başlamışdır ki, bu da onların həyatına, məişətinə mənfi təsirini göstərməkdədir. Xalqların özünüdərki qüvvətləndikcə milli şüuru da inkişaf edir; bu prosesdə ana dilinin müstəqilliyi, inkişafı, təmizliyi məsələlərinin də ortaya çıxması tamamilə labüddür, təbiidir. Çox təəssüf ki, avam, siyasi şüuru zəif müsəlmanlar bu məsələləri anlamadıqlarından onların fikrinə başqa-başqa "dərdlər" hakim kəsilir: "Sən orta məktəblərdə ana dili söhbəti salırsan. Amma mən də sənə deyirəm ki, axır ana dili-zad qanmıram". Orta məktəblərdə və xeyriyyə cəmiyyətlərində ana dilinə hörmətsizlik, müsəlman qazılarının millətə başçılıq etmədikləri kimi məsələləri jurnal dönə-dönə qaldırmışdı.

Bir tərəfdən Arazın o tayından gələn acgöz mərsiyəxanlar, Ağa Hacı Mirzə Məhəmmədhəsən ağalar "Allah rəhmətinə gedən" şəhidlər barədə şivənləri ilə, cəfəng sözlərlə dolu risalələri ilə camaatı ağladır, o biri tərəfdənsə matəmə şadlıq qarışır: camaat Novruz bayramına hazırlığa başlayır; "akülə düyüsü", "plov qazanı", "inək yağı", "şirniyyat" söhbətləri, "dərdləri" aləmi bürüyür...

M. yazırdı ki, bunlar azmış kimi, mömün müsəlman üçün "böyük dərd" və "təklif"lərdən biri Kərbəla və Xorasan ziyarəti idi; çünki onun əqidəsincə "ziyarətə on iki dəfə də getmək yaraşar, yüz on iki dəfə də yaraşar".

M. dövrünün mübariz siyasi xadimlərindən idi. Onun irəli sürdüyü vətənpərvər, xəlqi ideya və arzular haqqında elmi ədəbiyyatda çox yazılmışdır (Ə.Şərif, Mir Cəlal, Ə.Mirəhmədov, F.Köçərli, Z.Göyüşov və b.). M.-nin üçcildlik "Əsərləri"nin 2-ci cildində ilk növbədə bu məsələ tədqiqatçının diqqətini cəlb edir: "Kukureku" jurnalı çarın başını xoruz başı kimi verib yazmışdır: "Padşahı da mümkün imiş lağa qoymaq? [...] Burada əsrin allahını şəkillərdə çəkirlər, onu xoruza oxşadırlar, amma bizi indiyədək qoymayıblar ki, [...] çürüməkdə olan milyonlarca müfsid həşəratların eyiblərini açıb camaatı xəbərdar edək" (Əsərləri, 2 cild, s. 502). Başqa bir məqaləsində ədib çar və mövcud quruluş barədə yazır: "Ax, Nikolay! Gör bəxtin necə yatıb ki, səni iranlılar da müstəbid hesab eyləyirlər" (Əsərləri, 3 cild, s. 251).

Jurnal İran dövlət idarələrindəki ədalətsizlik, məhkəmə və s. cəza orqanlarındakı özbaşınalıqlarla bərabər, çar hakimlərinin cinayətkarlığını, çarizm ədliyyə sistemini də satira atəşinə tuturdu. M. yazırdı: "Mən... heç kəsdən qorxmuram... Bircə qaradovoydan qorxuram. Qaradovoy görəndə gözlərim qaralır, ayaqlarım titrəyir, başım gicəlir, rəngim qaçır, dilim tutulur və az qalıram özümdən gedəm" ("Molla Nəsrəddin", 1906, №18). Jurnal çar ailəsini təsiri altında saxlayan Rasputin kimi "cüvəllağı" "...Nikolayın bir böyük eybi var idi... Rasputin adında bir lotunu oturtmuşdu öz yanında... Cüvəllağı Rasputin korazehin padşahı elə təsxir etmişdi ki, bir övqat "Rusiya məmləkətinin padşahını Rasputin bilirdilər" (Əsərləri, 3 cild, s. 484). M. məharətlə bildirirdi ki, Danabaş kəndində "katdalıq eləyən çavuş Xudayar bəy fırıldaqları, əxlaqsızlığı, mənsəb üçün hər cinayətə əl atması ilə çar qlavalarından əsla geri qalmır". ("Danabaş kəndinin əhvalatları").

Rusiyadakı dövlət dumalarının mahiyyətini açıb göstərmək də "Molla Nəsrəddin"in mübarizə planında az yer tutmurdu. "Üzv – yəni bir-birinin boğazını üzmək. Bəzi məmləkətlərdə millət məclisi yapışıb hökumətin boğazını üzər, bəzi yerlərdə hökumət yapışıb millət məclisinin boğazını üzər..." ("Molla Nəsrəddin", 1907, №5).

M. dövlət dumasının sinfi mahiyyətini göstərib aydın yazırdı ki, duma üzvləri istismarçı zümrədən olduqlarına görə heç bir zaman xalqı müdafiə etmirlər, etməzlər.

Ədibin fikrincə "indiyədək hər hansı bir işdə, hansı bir xidmətdə (hərbi xidmət nəzərdə tutulur – *red.*), hansı bir idarədə və divanxanada, [...] hər yanda biz müsəlmanların ixtiyarı qeyri millətlərə nisbətən yarımçıq və bəlkə yox olubdur!" (Əsərləri, 3 cild, s. 436). 1906 ildə "Görpüsü pozuq kəndindən" başlıqlı bir yazıda "seçilən yüzbaşının sifətləri" sırasında bunlar göstərilmişdi: "1. Starşina ilə [bərabər] rüşvət yeməyi bacara; 2. Yumruğu böyük, beyni kiçik ola; 3. Təzə üsul və qaydaların candan düşməni ola; 4. Fəqir camaatın üstünə artıq "xərcü və bideh" (borc, vergi – *red.*) yazdırmaqda məharəti ola; 5. Camaatın xeyirli ittifaqlarını dağıtmaqda ixtiyar sahibi ola; 6. Hürriyyət və ədalət istəyənlərə nəfəs aldıqca lənət oxuya və bacardıqca onlara bihörmətlik göstərə; 7. Təzə rüşvət yerlərinin tədbirlərini çəkə" ("Molla Nəsrəddin", 1906, №4).

M. dövrünün ictimai-siyasi quruluşunu ifşa etməklə bərabər, yeni cəmiyyət haqqında, yeni dövlət hakimiyyəti və ictimai quruluş haqqında bir sıra dəyərli fikirlər söyləmişdir. Onun bu görüşləri əsas etibarilə 1917 ilin yazında yazılmış "Cümhuriyyət" məqaləsində ifadə olunmuşdur.

Ədib əsərlərində beynəlxalq münasibətlər məsələsinə dair fikirlərini də açıqlamışdır. O, beynəlxalq hüquq və dövlətlərin əməkdaşlıqlarından, qonşu dövlətlərin qarşılıqlı münasibətlərinin qaydaya salınmasından vacib iş kimi bəhs edərək göstərirdi ki, böyük və kiçikliyindən asılı olmayaraq bütün dövlətlər bir-birilə əməkdaşlıq etməlidirlər. Beynəlxalq əməkdaşlıq müstəmləkəçiliyə, iqtisadi və siyasi əsarətə əsaslanmamalıdır.

Oktyabr inqilabından sonra imperiyada yenə çox mürəkkəb, hətta dözülməz şərait yarandı. Cənubi Qafqazda müstəqil dövlətlər yarandıqdan sonra bir müddət jurnalı çıxarmaq mümkün olmadı. Ədib ailəsi ilə Kəhrizlidə məskunlaşdı. Lakin Qarabağda mühafizəkar qüvvələr, köhnəpərəstlər, "Molla Nəsrəddin"də tənqid edilmiş şəxslər böyük ədibə və onun ailə-

sinə ciddi başağrısı verməkdə idilər. Qardaşı Ələkbər onlara Təbrizə köçməyi məsləhət gördü.

M.-nin fəaliyyəti və şəxsi həyatı kimi, ədəbi yaradıcılığında, publisistikasında da nəzərə çarpan nikbinlik və irəliləyiş azalmaqda idi; ədib özü, jurnalı, qələm yoldaşları yeni çətinliklərlə üzləşirdilər. M. nəsri və dramaturgiyasında da estetik-fəlsəfi bədbinlik çalarları görünürdü. "Anamın kitabı" pyesini o belə bir şəraitdə, 1918 ilin dekabrında yazmağa başlayıb, təxminən üç aya, 1919 il fevral ayının sonunda başa vurdu. Təzə əsərini yazıçı ən əvvəl evdə oxudu. Onun ilk dinləyicisi Həmidə xanım yazır: "Əsər məni elə tutmuşdu ki, aludəliklə dinləyir, pyesdə cərəyan edən hadisələrlə yaşayırdım. Mirzə Cəlil pyesi oxuyub qurtardıqdan sonra gözlərim yaşardı və bir neçə dəqiqə fikrə gedib danışa bilmədim. Mirzə Cəlili təbrik elədim. [...] Uşaqlarımızın müəllimi Mirzə Xosrov "Ölülər" və "Anamın kitabı" pyeslərinin surətini çıxartdı" (Məmmədquluzadə H. "Mirzə Cəlil haqqında xatirələrim". B., 1967, s. 86).

Həmidə xanımın xatirələrində 1918-1920 illərdə Qarabağda baş verən və onun özünün şahidi olduğu bəzi mühüm əhvalatlar haqqında da məlumat verilir: cəllad erməni sərkərdəsi Andronikin ingilis işğalçıları ilə əlbirliyi, erməni xeyriyyə cəmiyyətinin azərb. ziyalıları ələ almaq cəhdləri və s. Faşistləşmiş daşnak ermənilər Qarabağdan əlavə, ölkənin digər bölgələrində də vəhşiliklərə başlayanda Mirzə Cəlil ailəsini Təbrizə köçürməyə vadar oldu. 10 nəfərlik bu müsafir dəstəsinə M., həyat yoldaşı, övladları, başqa qohumları və köməkçiləri daxil idi. Fayton və atlar onları Xudafərin körpüsündən Arazın o tayındakı Qaradağ, Hüseynbəyli, Larcan, Əliabad, Əhər və s. yerlərdən keçirib aparır, müsafirləri yaxın dostları, qohumları, ziyalı tanışları, "Molla Nəsrəddin"in müxbirləri qarşılayır, gecələmək şərtilə qonaq saxlayırdılar. Əhərdə müsafirlər vaxtilə Rusiyada təhsil almış Mirzə Həbibdən xüsusi hörmət görürlər.

Lakin Təbrizin hökumət orqanları M.-ni bolşevik hesab edib, ailənin hər addımını dördgöz izləyirdilər. Təbrizli ziyalılardan Əbülfət Ələvi, İsgəndər xan Qaffari, Mehdi xan və b. M. ilə dostcasına görüşür, şəhər hakimləri ilə əlaqə saxlamasına kömək göstərirdilər. Hakimlərdən birinin "Molla Nəsrəddin"i fars dilində çıxarmağı təklif etməsi ədib üçün lap gözlənilməz olur. Böyük mübahisədən sonra jurnalın türkcə nəşrinə icazə verilsə də, 1921 il fevralın 19-da çıxan birinci nömrəsində Təbriz kargüzarxanasındakı bikarlara, xüsusilə, şəhərdəki fahişəxanalara kəskin satira atəşi açması rəsmi dairələrdə və şəhərdə böyük təlatümə, çaxnaşmaya səbəb oldu. Hökumət başqa milliyyətdən olan 600 əxlaqsız qadını altı günə sürgün edib şəhəri təmizlədi.

"Molla Nəsrəddin"in sonrakı nömrələrində də İran gerçəkliyinin nöqsan və eyiblərinə dair yazılar, karikaturalar və s. dərc edilirdi. Rəsmləri İranın tanınmış rəssamı, İtaliyada təhsil almış Behzad çəkirdi. İranda çox yayılan "Ettelaat" qəzeti "28000 gün İran və dünya tarixi" adı ilə qəzetə əlavə olaraq silsilə məqalələr çap etmişdir. Həmin əlavələrin bir hissəsi İran məşrutə inqilabına (1905-1911) aiddir. İnqilabın məşhur xadimləri Səttarxan, Mələkül-Mütəkəllimin, Mirzə Cahangir xan və başqaları ilə yanaşı, M.Ə.Sabir, böyük ədib C.Məmmədquluzadənin də yaradıcılığına və onların İran məşrutə inqilabında roluna geniş yer verilmişdir.

M. və ailəsinin Təbrizdə qorxu içində yaşadığı, dolanacaq üçün qiymətli əşyalarını satdığı günlər də olmuşdu. Hörmət-izzətlə keçən vaxtları, Novruz bayramında şənlikləri, qonaq gedib, qonaq qəbul elədikləri məqamlar da az deyildi.

Ailə Təbrizə gələndən bir ay sonra hakim dairə qardaşı qardaşından ayırmaq, onları guya əlbir "xatakarlıq" etməyə qoymamaq üçün Ələkbəri həbsə alıb, Marağa vilayət rəisi Sərdar Nəsirin evinə "fəxri sürgünə" göndərmişdi. Vəziyyətin ağırlığını görən və qardaşının öldürüldüyünü güman edən M. ailəsi üçün yeni bir mənzil alıb, özü gizlicə Bakıya yola düşmək, orada dostlarının köməyini xahiş etmək istəyirdi ki, Ələkbər gəlib çıxır.

Bakıdan rəsmi dəvət teleqramı alındıqda M. onu məmnuniyyətlə qəbul etdi. Təbriz-Culfa dəmir yolunun rəisi Treskinski onları rahat yola saldı.

1921 il iyunun 24-də Bakıya çatan ailə böyük ehtiramla qarşılanır. Hökumət başçılarından N.Nərimanov, D.Bünyadzadə, Ə.Qarayev ədibin görüşünə gəlirlər. Ev, mükəlləfat məsələləri bir təhər düzəlsə

Molla Nəsrəddin — Cəlil Məhəmməd Kyly zada

«Molla Nəsrəddin» zyrnalы-nыn sabik mudiri **Cəlil Məhəmməd Kyly zada**, janvarын 4-nдə bejnina kan vyrmak xəstəli-nдən vəfat etdi.

C. Məhəmməd Kyly zadə 1869-ncy ildə Naxcыvanda jok syl ailədə anadan olmyşdyr. O zaman, Naxcыvandа jeni usyl ilə dərs deyən rus-tatar məktəblərində oxuyublarmыş və yşaklarыnы oxutdyranlarыn əvəzi cəmiyyət tərəfindən qafir adlandырылmaсыna baxmajaraq, C. Məhəmməd Kyly zadə Gori darülmüəllimi-nə oxumağa göndərilib, darülmüəllimi bitirmişdir.

Naxcыvan dairəsinin Nehran kəndində 10 il müəllimlikdən sonra Tiflisə getmişdir.

1906-ncы ildə çalышmaga «Molla Nəsrəddin» zyrnalыnы çıxarmaga başlajыr.

Kara irticaын ən ağыr illərində də çar hökuməti və ruhanilə-rin təhdidlərinə baxmajaraq C. Məhəmməd Kyly zadə dinçilik və avamlыğa karşы jorulmaz-dыzdыn mübarəzə apardыğы, geri də kalmыş turq əməqçi qыtlalarынын da mədəniijjətə çəkilməsi yolunda aktiv mübarəzə apar-mыşdыr.

C. Məhəmməd Kyly zadə, 25 ildən artыk «Molla Nəsrəddin» məcmyəsinin mudiri olyb, səh-nələrimizdə ojnanan, məshur «Ölülər» , «Anamын qitabы» və başka əsərlər və bir çok ficqa jələr jazmыşdыr. C. Məhəmməd Kyly zadə axыr günə kədər Azərbajcan Syra jazыçыlarы cəmiijətinin uzvu olyb cəmijjət işlərində aktiv iştiraq etmiş-dir.

«Ölülər» jazыçыsы C. Məhəmməd Kyly zadənin əlumu turq ədəbijjat və ictimaijjatы uçun bəjuq itqidir.

«III-cu Internasional» mətbəəsi Jeflan Qaratovets

"Yeni yol" qəzetinin 5.01.1932-ci il, №5 sayında çap olunmuş **Cəlil Məmmədquluzadənin** nekroloqu.

də, jurnalın nəşri uzanırdı. İki oğlu ilə Kəhrizliyə gedən Həmidə xanım orada dəyirmanı da, təsərrüfatı da dağınıq halda görür. Xəstə Ələkbər bir az sağalan kimi qulluğa girib, tez-tez rayonlara ezamiyyətə gedirdi. 1922 il martın ortalarında M. onu ağır xəstə halda Kəhrizliyə gətirir; O, Həmidə xanımın yazdığı kimi, "gündən-günə şam kimi əriyir", mayın 22-də vəfat edir və Kəhrizli qəbiristanlığında dəfn olunur.

"Molla Nəsrəddin"in keçmiş müəllifləri və dostlarından bir neçəsi artıq respublikanın rəhbərlərindən idi. Onların yaxından iştirakı ilə Azərb. K(b)P-nin Rəyasət Heyəti jurnalın fəaliyyəti üçün zəruri məsələlər haqqında qərar çıxardı. R.Axundov və S.Ağamalıoğlu qərarın yerinə yetirilməsinə kömək etdilər. Bakıda uzun-uzadı səylərdən sonra, "Molla Nəsrəddin"in birinci nömrəsi nəhayət, 1922 il noyabrın 2-də, yəni ədibin Şura Azərb.-ına qayıdışından 1 il 4 ay sonra çap olundu. Jurnalın mövzu, üslub, dil və orfoqrafiyası kimi, ənənəvi rəsm sənətkarlığını da layiqincə davam etdirən M. redaksiyaya məşhur xalq rəssamı Ə.Əzimzadəni, fırça ustası Beno Telinqateri cəlb etdi.

Birinci və sonrakı bir neçə nömrənin, demək olar, bütün mətnini ədib özü yazmışdı. Çox çəkmədən o, əvvəlki kimi, yenə ətrafına Ə.Haqverdiyev, Ömər Faiq, Ə.Nəzmi, M.S.Ordubadi və başqa molla-nəsrəddinçiləri, habelə jurnalist və yazıçılardan C.Cabbarlı, B.Talıblı, Ə.Vahid və b. toplaya bildi. Rəssamların yeni nəslindən Ə.Hacıyev, Q.Xalıqov, İ.Axundov və b. da həvəslə işə qoşuldular.

"Molla Nəsrəddin"in qarşısında duran vəzifələri M. "Məsləkimiz" məqaləsində aydınlaşdırmışdı: indiki "Molla Nəsrəddin"lə keçmişdəkinin təfavütü çox idi; əvvəllər jurnal "istismarçı sinfi ifşa edirdi". İndi həmin sinif ləğv edilmişdir. Lakin "qalıqları tamamilə məhv edilməmişdir", yeni "Molla Nəsrəddin" bu yolda "öz satira qələmini işlətməkdən çəkinməyəcəkdir". Həqiqətən, cəmiyyətdəki eybəcər hallara – siyasət, iqtisadiyyat, mədəniyyət, əxlaq, adət-ənənə və s. sahələrdə xalq mənafeyinə zidd hər nə, hər kim varsa, "Molla Nəsrəddin" onlara gülür, oxucusunu onlarla mübarizəyə səfərbər etməyə çalışırdı. M.-nin yeni nəşr olunmuş "Ölülər", "Bəlkə də qaytardılar", "Molla Fəzləli", "Sirkə", "Şeir bülbülləri" kitabları da bu məqsədlərə xidmət edirdi.

1922 ildə "Yeni yol" qəzetinə məsul red. təyin edilən ədib bu işdə ilk vəzifəsini çoxdan arzusunda olduğu yeni əlifba uğrunda təbliğat və mübarizədən başladı. Qəzetin birinci nömrəsindəki "Təbrik" adlı məqaləsində o yazırdı ki, "biz bu yola qədəm qoyuruq. Və həmən qədəmimiz biçarə millət naminədir".

Latın əlifbasının ittifaq miqyasında təbliğ və tətbiqinə Azərb. MİK sədri S.Ağamalıoğlunun başçılığı ilə Mirzə Cəlil, Vəli Xuluflu, Xalid Səid və Bəkir Çobanzadədən ibarət heyət rəhbərlik edirdi. Heyət 1924 ilin payızında ayyarım Krım, Tatarıstan və Orta Asiyada olub, bu işin əsasını qoydu. Azərbaycanda bir çox qəzet, jurnal və nəşriyyatlar yeni əlifba ilə çapa başladı. O illərdə M. Azərb.-dan əlavə Tiflis və İrəvanda keçirilən təntənəli tədbirlərin, yubileylərin möhtərəm qonağı olur.

Lakin elə düşünmək düzgün olmazdı ki, M. müqavimətlə, çətinliklərlə qarşılaşmırdı, əksinə, əvvəlki illərdəki kimi yenə də çətinliklər başdan aşırdı. Məişətdə, ədəbiyyat və mətbuatda təkcə ifşa, inkar, vurub dağıtmaq yolu ilə getməyən M. həmişəki kimi, yeni dövrdə də şairlik, müəllimlik, xoşbəxt, saf ailə münasibətləri, uşaq tərbiyəsi, geyim, rəftar və s. mövzularda da onlarca yeni, müsbət məzmunlu hekayə, felyeton yazmağı özünə borc bilmişdi: "Zırrama", "Saqqallı uşaq", "Şərq fakültəsi", "Hamballar", "Taxıl həkimi", "Şəhər və kənd", "Qoşa balınc"...

Yeni əsərlər arasında 1929 il fevralın 22-də yazılmış "Proletar şairi" oçerki müəllif dilindən nağıl olunan çox maraqlı əsərdir. Epik nəsrdə bu, ən kiçik, lakonik həcm sayıla bilər. M.-nin publisistikası üçün adi, səciyyəvi olsa da, ədibin nəsrində həmin növün səciyyəvi təzahürü məhz bu oçerkdir. 20-ci illər Azərb.-ın sosial-etik həyatındakı, adamların zahiri portretindəki dəyişikliyi ən qısa bir süjetdə, bir neçə koloritli, həyati təfərrüatla vermək artıq M.-nin yenilik cəhdlərindən biri olmuşdu.

Günlər, aylar keçdikcə ədib aşkar hiss edir ki, Sovet İttifaqındakı siyasi şərait, vulqar-sosioloji təmayül, respublikadakı bir çox başabəla xadimlər gec-tez onu və ailəsini əvvəlki təsərrüfat və mülki imtiyazlardan məhrum edəcəklər. Belə meyllərə və təqiblərə bəzi ziyalılar da rəvac verirdilər. Gənc yazıçı Ə.Vəliyev və müəllim Ə.Qarabağlının "Molla Nəsrəddin" və M. əleyhinə məqalələri inkarçı çıxışları aşkar öcəşmə və ifşa məqsədi daşıyırdı. Resp. Xalq Maarif Komissarlığının rəhbərlərindən İ.Bukşpanın "Molla Nəsrəddin" jurnalının vəziyyəti və "yaradıcılıq yolu" haqqında "məlumat vərəqəsi"ndə (onu Baş Mətbuat Müvəkkilliyinin əməkdaşı İ.Əliyev də imzalamışdı) tamamilə əndazədən kənara çıxıb, "Molla Nəsrəddin"in red. və əməkdaşları guya "siyasi cəhətdən geri qalmış, bisavad və siyasətlə maraqlanmayan adamlar", Ə.Əzimzadə "istedadsız rəssam" adlandırılmışdı. M.-nin Azərb. MİK katibliyinə bu məsələlər və "Molla Nəsrəddin"in həqiqi siması haqqında yazdığı məktub nəticəsiz qalmışdı.

1922 il noyabrın 7-də Bakıda M.Ə.Sabirin heykəlinin açılışı mərasiminə M.-nin dəvət edilməməsi ədibə bərk təsir etmişdi. Bu gözlənilməz "təsadüf" haqqında giley-güzarını o, belə ifadə etmişdi: "Bu yığıncaqda gözə çarpınan bircə əskiklik var idi. O da bu idi ki, Sabirin təbinin atının iti qaçışına gözəl və geniş meydan hazırlayan Molla Nəsrəddin orada görsənmirdi. Çünki bu açılışın nə vaxt olması xəbərini ona heç bildirməmişdilər" (C.Məmmədquluzadə. Heykəl açılışı. "Yeni yol" qəzeti. 1922, 24 noyabr, №10).

Böyük ədibə rəsmi dairələrin diqqətsizliyi və hörmətsiz münasibəti sonrakı illərdə də dəfələrlə təkrar olunduğuna görə Mirzə Cəlil öz təmkinini itirməməyi daha münasib bilmiş, bütün bunları ürəyinə salmışdı. O öz etirazını yalnız bircə dəfə, o da böyük ehtiyatla yazmışdı. Buna "Molla Nəsrəddin"in İran hökumətinə 1926 ildəki etirazı səbəb olmuşdu. Hətta ümumittifaq yığıncaqlarından birində SSRİ Xalq Xarici İşlər komissarı G.V.Çiçerin jurnalın İran haqqında tənqidini "İranla dostluğumuzu pozmaq" səyi hesab etmişdi. Çiçerinin münasibətinə Ruhulla Axundov mötəbər yığıncaqların birində etirazını bildirmişdi.

1922-1928 illərdə "Molla Nəsrəddin" jurnalı mövcud cəmiyyətin açıq tənqidi deyil, sadəcə, təmiri yolunda çalışmış və onun bu fəaliyyəti məqbul sayılmışdır. Jurnalın təsir və əhatə dairəsi xeyli genişlənmişdir. "Molla Nəsrəddin" Azərb.-dan, Qafqazdan əlavə, İranda, Şərqi Türküstanda, Tatarıstanda, Başqırdıstanda, Qazaxıstanda, Dağıstanda və Krımda yayılmışdı. 1929 ildən "Molla Nəsrəddin"in ikinci dövrü – "şübhə və təqib" dövrü başlandı. Jurnalın, xüsusilə, Mirzə Cəlilin özünün tənqid və satirası çox vaxt yuxarı dairələrdə və bədxahlar arasında iqtidara sataşmaq, millətə böhtan atmaq kimi yozulmuşdur. Odur ki, "Molla Nəsrəddin"ə və ilk növbədə Mirzə Cəlilin özünə və işinə maneçilik törədilmişdir. Jurnal üçün ayrılan dotasiya da qəsdən azaldılmışdı.

Kəhrizli malikanəsindən əl çəkmək vaxtı çatdığını ədib çoxdan başa düşürdü. Nəhayət, Həmidə xanıma yığışıb Bakıya köçməyi məsləhət görür. O, köçüb gəlir. Az sonra Müzəffər də Kürdəmirdən gəlib Bakıda işə girir və sonra yenidən evlənir. Münəvvər Nehrəmə gedib şəfqət bacısı işləyir. Midhət ali məktəb qurtarıb mühəndis, Ənvər həkim olmuşdu.

1928-1929 illərdə qan təzyiqi artan ədib Şuşaya, Kislovodska, Borjomiyə müalicəyə gedirsə də, ona çox az xeyri olur. 1931 ildə "Molla Nəsrəddin" jurnalının 25 illiyinin Bakıda başdansovdu keçirilməsi M.-nin səhhətini daha da pisləşdirir. Böyük ədibə mənəvi zərbələrdən ən böyüyü 1931 ildə "Molla Nəsrəddin" jurnalının "Allahsız" adı altında nəşrə başlaması olur. 1932-ci il yanvarın 2-də ədib evdə özündən gedir. Can üstə olduğunu başa düşüb, güc-bəla deyir: "Midhəti çağırın". Amma oğlunu son dəfə görmək Mirzə Cəlilə qismət olmur. Ədib gözlərini həmişəlik yumur.

M.-nin vəfatı münasibətilə qəzetlərdə quru sözlərdən ibarət çox müxtəsər, imzasız nekroloq nəşr edilmişdi. Cənazəni qəbiristanlığa kiçik bir dəstə apardı. İstəkli dostu, yazıçı Eynəli Sultanov həmin gün Tiflisdən gəldi. Dəfn mərasimində Ə.Haqverdiyev, Ömər Faiq və ədibin bir neçə başqa qələm dostu iştirak etmişdi. M. Bakıda, Fəxri Xiyabanda dəfn olunmuşdur.

M. irsinin təxminən 23-ü 1906-1931 illərdə "Molla Nəsrəddin" jurnalında nəşr edilmişdir. Bu əsərlərdən çoxunun müxtəlif gizli imzalar və kriptonimlərlə, bəzilərinin isə imzasız nəşri onların xeyli hissəsinin bir müddət M.-yə aid kitablardan kənarda qalmasına səbəb olmuşdu. Bunun gələcəkdə böyük çətinlik törədəcəyini hiss edən ədib yaşa dolduqca, xüsusilə, memuarını yazdıqda əsərlərinin taleyi haqqında qayğılanıb düşünməyə başlamış, vaxtilə işlətdiyi müxtəlif imzaların siyahısını müəyyənləşdirməyə çalışmışdır; təəssüf ki, xəstəliyi üzündən o, memuarı kimi, belə bir vacib işi də başa çatdıra bilməmişdir. Bu, tədqiqatçı, naşir və red.-ların bir neçə nəslinin öhdəsinə düşmüş, onlar həmin istiqamətdə səmərəli fəaliyyət göstərmişlər. Elmi və ədəbi-tarixi məxəzləri, ədibin avtobioqrafiyasını, xatiratını, məktublarını, arvadı Həmidə xanımın və müasirlərinin müxtəlif yazılarını, digər köməkçi materialları tədqiq etmək, ideya-bədii, dil və üslub təhlilləri aparmaq yolu ilə yarım əsr mürəkkəb, çoxcəhətli atribusiya işi getmişdir.

M. tədqiqatçılarından Ə.Şərif, Ə.Nazim, H.Səmədzadə, Mir Cəlal, Ə.Mirəhmədov, Q.Məmmədli, T.Həsənzadə, M.Paşayeva, E.Qasımova, F.Bayramov və b. bu sahədə gördükləri işin ilk mühüm, müsbət nəticəsi ədibin "Əsərləri"nin hələ 1936-1947-ci illərdə H.Səmədzadə və Ə.Mirəhmədovun tərtibində çapdan buraxılmış üçcildliyində əksini tapmışdır. Üçcildlik M.-nin sağlığında Tiflis, Bakı, İrəvan və Peterburqdakı dövri mətbuatda, ayrı-ayrı kitab, məcmuə, jurnal və s.-də getmiş, çox öyrənilmiş, çox tanınmış əsərlərini əhatə edirdi. Sonralar Azərb. ədəbiyyatı və jurnalistikası tarixi, biblioqrafiya və mətnşünaslıq sahələrində tədqiqatın genişlənib dərinləşməsi, kitab nəşrinin ildən-ilə təkmilləşməsi "Molla Nəsrəddin" jurnalı səhifələrində qalmış onlarca felyeton, məqalə, satirik miniatür və s. yazını da üzə çıxarıb M.-nin "Əsərləri"nin yeni nəşrlərinə əlavə etmək imkanı verdi. Əlavələr M.-nin öz qələm dostları, əməkdaşları M.Ə.Sabir, Ö.F.Nemanzadə, Ə.Haqverdiyev, Ü.Hacıbəyov, M.S.Ordubadi, Ə.Qəmküsar, Ə.Nəzmi, Ə.Ağaoğlu, M.Rəsulzadə, S.Mümtaz və başqalarının bioqrafiyasının, ədəbi mühitinin, çox qiymətli irsinin öyrənilməsinə, nəşrinə də xeyli kömək etdi.

M. əsərlərinin böyük bir hissəsinin rus dilinə tərcümə edilib müqəddimə və izahlarla nəşr olunması sahəsində onun həyatı və yaradıcılığının tədqiqatçılarından prof. Əziz Şərifin xidməti xüsusi qeyd edilməlidir. Ədibin irsinin böyük bir hissəsi Ə.Şərifin əməyi sayəsində əlli ildən artıq müddət ərzində Moskva, Tbilisi və Bakı nəşriyyatlarında çap olunmuşdur. Söz yox ki, bu nəşrlər M.-nin dünya miqyasına çıxmasında az iş görməmişdir.

M. irsi üzərində gedən atribusiya və attateza işi bu günün özündə də hələ zəifdir, bir çox "düyünlər"in açılması vəzifə kimi qarşıda durmaqdadır. Bu istiqamətdə tədqiqatın vacibliyi həm də M.-nin yüzilliyi ərəfəsində və sonra bəzi ədəbiyyatşünasların vaxtilə "Şərqi-Rus" qəzetində və "Molla Nəsrəddin" jurnalında çıxmış yazılardan bir qismini böyük ədibin adına əsassız yazmalarından irəli gəlmişdir. Belə hallara məşhur bioqraf, biblioqraf, tədqiqatçı Q.Məmmədlinin ilk dəfə Ə.Mirəhmədovun redaktəsi ilə (B., Azərnəşr, 1966, 1984) çap olunmuş "Molla Nəsrəddin" salnaməsində, mətbuatşünaslıq və biblioqrafiya sahələrində faydalı işlər görmüş F.Bayramovun "Cəlil Məmmədquluzadə" biblioqrafiyasında (B., 1967), habe-

lə İ.Ağayev, Ş.Novruzov və başqa müəlliflərin məqalələrində təsadüf olunur.

40-50-ci illərdə oxucuya M. irsi kimi təqdim olunan məcmuə və külliyyatların mündəricatında nisbi sabitlik yaransa da, sonralar hər yeni dövr orada bu və ya başqa dəyişiklik, ixtisar və daha artıq – əlavə lüzumu yaratmışdır. Məsələn, yubiley nəşrinin (Azərnəşr, 1966-1967) təkcə ikinci cildində 16 felyeton M. külliyyatına ilk dəfə düşmüşdür. Düzdür, mətnşünaslığın çox mühüm amili olan bu işdə "absolyut həqiqət" kateqoriyasından danışmaq artıqdır; bununla bərabər, hər halda M. irsini tam, elmi şəkildə tərtib və nəşr etməyi müasir ədəbi, mədəni ideallardan biri sayıb, ona nail olmaq üçün var qüvvə ilə çalışmaq çox şərəfli xidmət olacaqdır. Hər iki külliyyatın (üçcildlik və altıcildlik – *red.*) felyetonlarının çoxu 1967 ildə, ədibin 100 illiyi münasibətilə buraxılan üçcildlik "Əsərlər"ində (tərtib edənlər Ə.Mirəhmədov, T.Həsənzadə, redaktoru M.İbrahimov) nəşr edilmişdi. Birinci cildə M.İbrahimovun müqəddiməsi, Ə.Mirəhmədovun M. irsinin nəşri məsələlərinə dair məqaləsi də daxildir. Altıcildliyin (1984-1985) dördüncü və beşinci cildlərində əvvəlki yubiley nəşrinə düşməmiş bir sıra felyetonlar da verilmişdir. Belə felyetonların əksəriyyəti "Molla Nəsrəddin" jurnalında M.-nin illər boyu işlətdiyi "Dəli", "Cırcırama", "Lağlağı" və s. kimi imzalarla getmişdi. Əlavə olunmuş felyeton və məqalələrin başqa bir qisminin altında isə bəlkə də, ilk illərdə "Molla Nəsrəddin"in redaktoru tərəfindən işlənib, sonralar onun qələm yoldaşlarının müştərək imza kimi istifadə etdikləri, hətta olsun ki, M.-nin razılığı, ya təşəbbüsü ilə büsbütün "mənimsədikləri" "Hərdəmxəyal", "Mozalan", "Qızdırmalı", "Bir tiflisli", "Dəhri" kimi imzalar var. Hər iki tipli əlavə, söz yox, son illər mütəxəssislərin M. ətrafında tədqiqatına, xüsusilə onun ədəbi-jurnalist irsinin optimal surətdə öyrənilməsinə əsaslanmaqdadır.

Atribusiya işində Q. Məmmədli kimi qocaman tədqiqatçı ilə yanaşı, dərin, diqqətli işdən sonra "Cəlil Məmmədquluzadənin gizli imzaları" adlı namizədlik dissertasiyası yazmış ədəbiyyatşünas E.Qasımova, "Molla Nəsrəddin"in poetikası" (Bakı, 1985) əsərinin müəllifi İ.Ağayev və b. iştirak etmişlər.

M.-nin həyatı, yaradıcılığı, "Molla Nəsrəddin" jurnalında fəaliyyəti, realizmi, satirası, dili, üslubu, sosioloji fikrin, teatr sənətinin, milli poliqrafiyanın, nəşriyyat işinin inkişafında rolu, müasirləri ilə münasibətləri və s. məsələlər haqqında Azərb., İran, Türkiyə, Rusiya, Qərbi Avropa və ABŞ-da zəngin elmi, tənqidi, publisist, kütləvi, biblioqrafik ədəbiyyat nəşr edilmiş, pyes, film, musiqi, təsviri sənət, heykəltəraşlıq əsərləri, televiziya verilişləri yaranmışdır. Bu çoxcəhətli mövzular üzərində dövlət xadimlərindən N.Nərimanov, S.Ağamalıoğlu, H.Əliyev, alimlərdən Ə.Nazim, M.Arif, Ə.Şərif, M.Cəfər, Mir Cəlal, M.Rəfili, Ə.Sultanlı, C.X.Hacıyev, Ə.Mirəhmədov, İ.Həbibbəyli, K.Talıbzadə, M.Qasımov, M.Əlioğlu, F.Hüseynov, X.Əlimirzəyev, N.Babayev, H.İsrafilov, Ə.Hüseynov, T.Həsənzadə, S.Əmirov, İ.Ağayev, E.Qasımova, yazıçılardan E.Sultanov, Ə.Nəzmi, M.İbrahimov, Həmidə xanım, Q.Məmmədli, Mehdi H., Anar, B.Vahabzadə, S.Dağlı, Ş.Qurbanov, sənətşünaslardan M.Məmmədov, İ.Axundov, Ə.Hacıyev, A.İsgəndərov, R.Təhmasib, xarici müəlliflərdən A.Benniqsen, H.Brandes, M.Tərbiyət və b. çalışmışlar.

Azərb.-da bir sıra mədəni-maarif müəssisəsinə (o cümlədən Naxçıvan Dövlət Musiqili Dram Teatrına), Naxçıvan MR Ədəbiyyat muzeyinə, Bakıda küçəyə M.-nin adı verilmişdir. Keçmiş Astraxanbazar rayonu və şəhəri 1967 ildən onun şərəfinə Cəlilabad adlandırılmışdır. Bakıda, Naxçıvanda və Cəlilabadda ədibin heykəli qoyulmuşdur.

MƏMMƏDQULUZADƏ VƏ RƏSSAMLIQ SƏNƏTİ – C.Məmmədquluzadənin həyatına, təhsilinə, "Molla Nəsrəddin" jurnalında işinin təsviri sənətlə bilavasitə əlaqəsinə dair çoxlu arxiv materialı qalmışdır. Onların tədqiqi göstərir ki, hələ cavanlığında Cəlilin yaxşı rəsm çəkmək qabiliyyəti olmuşdur. İllər keçdikcə rəssamlığa meyl daha da qüvvətlənmişdir. "Molla Nəsrəddin"in redaktor-naşirinin kağızlarında rəssamlara sifariş vermək üçün mövzular (tiplərin sənəti, görüşdükləri şəxslərin halı, peşəsi və s. haqqında qeydlər) az deyil.

Məlum olduğu kimi, jurnalın tərtibatında yaxından iştirak edən O.Şmerlinq, İ.Rotter, B.Telinqater kimi rəssamlar Azərb. dilini bilmədiklərindən şəkillərin

mövzusu və süjeti əsasən, M. tərəfindən verilirdi. Həmidə xanımın xatiratından bəlli olur ki, "...Mirzə Cəlil öz fikrini... müxtəlif işarələrlə başa salır, Şeytanbazarda yaşayan tanış tipləri xatırlatmağa məcbur olurdu". Bəzən redaksiyadan uzaqda olduqda, o, özü şəkil çəkib məktubla göndərirdi. Məhz bu yolla Azərb.-da əvvəllər demək olar ki, ənənəsi olmayan satirik rəsm, karikatura məktəbi yarandı. M.Nəcəfovun yazdığı kimi, "bizim üçün "Molla Nəsrəddin" ədəbi məktəbinin əhəmiyyəti nə qədər böyükdürsə, "Molla Nəsrəddin" rəssamlıq məktəbinin əhəmiyyəti də bir o qədər böyükdür".

Həmidə Cavanşir (Məmmədquluzadə)

MƏMMƏDQULUZADƏ-CAVANŞİR

Həmidə xanım Əhməd bəy qızı (1873-1955) – Azərb.-ın ilk maarifçi qadınlarından biri, C.Məmmədquluzadənin həyat yoldaşı. İndiki Ağcabədi r-nunun Kəhrizli kəndində anadan olmuşdur. Ailə təhsili almış, Azərb. və rus dillərini mükəmməl öyrənmişdi. 80-ci illərdə hərbçi podpolkovnik İbrahim bəy Davatdarova ərə getmiş, ondan 2 uşağı olmuşdu. 1902 ildə İ.Davatdarov vəfat etdikdən sonra uşaqları ilə birlikdə Kəhrizli kəndinə qayıdaraq, atasından qalmış təsərrüfatı idarə etməyə başlamışdır. 1905 ildə atası Ə.Cavanşirin uşaqlara məxsus mənzum hekayə və tərcümələrdən ibarət əsərlərinin əlyazmalarını nəşr olunmaq üçün Tiflisdə "Qeyrət" mətbəəsinə təqdim edərkən M. ilə tanış olmuşdur. 1907 il iyunun 15-də Həmidə xanım Mirzə Cəlillə ailə qurmuş və ədibin ömrünün sonunadək çətin və keşməkeşli həyat yollarında həmişə ona mənəvi dayaq olmuşdur.

Həmidə xanım Kəhrizli kəndində tibb məntəqəsi, toxuculuq emalatxanası, 1909 ildə isə M.-nin iştirakı və köməyi ilə 30 oğlan və 10 qızın oxuduğu məktəb açdırmışdır. Həmidə xanım Qafqaz Müsəlman Qadınları Xeyriyyə Cəmiyyətinin (1906-1917) yaradıcılarından idi. 1912 ildə o,

Soldan: **Adilə Atabəyova, Minə Davatdarova, Xədicə Qayıbova,** Tiflis, 1917.

Zaqafqaziya pambıqçılarının 13-cü qurultayında çıxış edərək təsərrüfatın bu sahəsinin inkişaf etdirilməsi üçün faydalı təkliflər irəli sürmüşdür.

1911 ildə Həmidə xanım xəstə M.Ə.Sabirin müalicəsi üçün əlindən gələni əsirgəməmişdir. Şair şeirlərinin birində Həmidə xanımın zəhmətini minnətdarlıqla yad edirdi. Sabirə xanım Cavanşirin göstərdiyi qayğını yüksək qiymətləndirən Üzeyir Hacıbəyov "Məlumat" qəzetində yazırdı: "Qoy ədəbiyyat tarixində yazılsın ki, Sabir kimi şairi diriliyində təqdir edən kişi olmadısa da, bir nəfər arvad (Həmidə xanım nəzərdə tutulur – *red.*) oldu ki, şairin səhhəti və onun müalicəsi üçün milyonçu kişilərə rəğmən öz varından keçəcək qədər böyük bir həmiyyət göstərdi". "Məlumat" qəzeti, 1911, 7 avqust)".

"Molla Nəsrəddin" jurnalının nəşrində, onun səhifələrində qadın azadlığı məsələlərinin işıqlandırılmasında M.-C.-in böyük xidməti olmuşdur. M.-nin Cənubi Azərb.-a səfəri zamanı da o, ədibin ən yaxın köməkçisi idi.

Sovet hakimiyyətinin ilk illərində Həmidə xanım Kəhrizlidə yaşamış, bəy nəslindən olduğu üçün ciddi çətinliklərlə üzləşmişdi. Onun torpaqları əlindən alınmış



Уважаемый товарищ Гамида Ханум.

Союз Советских Писателей Азербайджана и Постпредставительство АзССР в Москве, приглашают Вас на встречу с участниками Азербайджанской литературной декады.

Встреча состоится в Мраморном зале гостиницы „Москва" в 10 час. вечера 25 мая 1940 г.

ССП Азербайджана

Постпредство АзССР

və səsvermə hüququndan məhrum edilmişdi. Nəhayət, birdəfəlik Bakıya köçən M.-C., həyatının qalan hissəsini burada yaşamışdır. M.-nin vəfatından sonra, o, böyük ədibin həyat və fəaliyyətinin öyrənilməsi, yaradıcılığının təbliği, ədəbi irsinin tərcüməsi və nəşri məsələləri ilə məşğul olmuşdur. M.-C. atası Əhməd bəy Cavanşir, Mirzə Cəlil və M.Ə.Sabir haqqında xatirələr yazmış, Azərb. yazıçılarının əsərlərini, o cümlədən M.-nin bir sıra hekayələrini ruscaya tərcümə etmişdir. Həmidə xanım ədəbiyyatçı-folklorşünas kimi də fəaliyyət göstərmiş, Azərb. xalq ədəbiyyatı nümunələrinin, tarixi şəxsiyyətlər haqda rəvayətlərin toplanılması sahəsində mühüm işlər görmüşdür.

Bakıda, Fəxri xiyabanda, M.-nin yanında dəfn edilmişdir.

MƏMMƏDQULUZADƏNİN XATİRƏ EV-MUZEYLƏRİ – 1978 ildə Azərb. Resp.-nın rəhbəri Heydər Əliyevin şəxsi təşəbbüsü ilə Bakıda M.-nin ev-muzeyinin açılması haqda qərar verildi. 1994 ildə M.-nin anadan olmasının 125 illiyi ərəfəsində, onun 1922-1932 illərdə yaşadığı Poçt küçəsi, 64-də (indi S.Tağızadə küçəsi, 56) xatirə ev-muzeyi açıldı. Beş otaqdan ibarət muzeyin ekspozisiyasında 500, fondunda isə 3000 eksponat saxlanılır. Muzeydə M.-nin həyat və fəaliyyətinin bütün dövrlərini əks etdirən sənədlər, fotoşəkillər, ədibin şəxsi əşyaları mühafizə olunur. Muzey publisist, dramaturq, ictimai xadim kimi M.-nin zəngin yaradıcılıq irsini tədqiq edir, tematik sərgilər nümayiş etdirir, yaradıcılıq gecələri, xatirə günləri, müsabiqələr keçirir. Muzeydə M.-nin silahdaşları, mollanəsrəddinçilər haqda da zəngin material vardır.

1997 il oktyabrın 11-də Tbilisidə M.-nin ev-muzeyi açılmışdır. Muzeydə M.-nin Tiflisdəki fəaliyyətini əks etdirən sənədlər, fotomateriallar, əsərləri əsasında çəkilmiş bədii filmlər, "Molla Nəsrəddin" jurnalının nüsxələri və s. saxlanılır. Vaxtilə "Qeyrət" mətbəəsi də bu evin zirzəmisində yerləşirdi.

1998 ildə Azərb. Resp.-nın Prezidenti Heydər Əliyevin 19 iyun tarixli sərəncamına əsasən Naxçıvan şəhərində M.-nin anadan olduğu binada yazıçının ev-muzeyi təşkil edilmişdir. 1999 il oktyabrın 13-də Azərb. Resp.-nın Prezidenti Heydər Əliyevin iştirakı ilə ev-muzeyinin açılışı olmuşdur. Məmmədquluzadələr ailəsinin yaşadığı mühiti əks etdirən muzeydə M.-nin uşaqlıq və gənclik dövrünə aid sənədlər, əşyalar, fotoşəkillər və s. saxlanılır.

MƏMMƏDQULUZADƏNİN XATİRƏ MUZEYLƏRİ – Mirzə Cəlilin yaşadığı və işlədiyi kənd və şəhərlərdə onun xatirəsini əbədiləşdirən mədəniyyət ocaqları.

M.-nin ilk xatirə muzeyi 1986 ildə Naxçıvan Muxtar Resp. Babək r-nunun Nehrəm kəndindəki məktəbdə təşkil olunmuşdur. 1987 ildə yazıçının ilk müəllimlik fəaliyyəti ilə bağlı Şərur r-nunun Baş Noraşen (indiki Cəlilkənd) məktəbində xatirə muzeyi fəaliyyətə başlamışdır.

Bu muzeylərdə M.-nin həyat və yaradıcılığından bəhs edən ədəbi-tarixi materiallar, qiymətli eksponatlar saxlanılır.

MƏMMƏDƏLİYEV Vasim Məmmədəli oğlu (d. 1942) – ərəbşünas alim, tərcüməçi. BDU-nun şərqşünaslıq fakültəsini bitirmişdir (1964). Filol. e.d. (1974). Azərb. MEA-nın həqiqi üzvü (2006). BDU-nun ərəb filologiyası kafedrasının müdiri (1991 ildən) və ilahiyyat fakültəsinin dekanıdır (1993 ildən). C.Məmmədquluzadənin səkkiz hekayəsini ("Saqqallı uşaq", "Poçt qutusu", "Usta Zeynal", "Buz", "Quzu", "Bəlkə də qaytardılar", "Xanın təsbehi", "Qurbanəli bəy") ərəbcəyə çevirərək "Saqqallı uşaq" adı ilə kitab şəklində nəşr etdirmişdir. Bu tərcümələrdə orijinalın bədii, üslub xüsusiyyətləri, sadə, şirin, məzəli ifadə tərzi ustalıqla saxlanılmışdır.

V.Məmmədəliyev

MƏMMƏDHƏSƏN ƏMİ – "Danabaş kəndinin əhvalatları" silsiləsinin ilk əsəri olan "Eşşəyin itməkliyi" povestində əsas surətlərdən biri. Onun simasında o zamankı Azərb. kəndində hökm sürən feodal-patriarxal münasibətlər, çar hakimlərinin və din xadimlərinin özbaşınalığı, məişətdəki gerilik, mövhumat və xurafat mənqənəsində sıxılanların acınacaqlı taleyi ümumiləşdirilmişdir.

Kasıb, avam, mömün kəndli M.ə. ailədə, bütün dostları ilə səmimi, xeyirxah, sədaqətli, amma olduqca dindardır – Kərbəlaya getmək üçün bir eşşək alır və buradan da onun faciəsi başlanır. Xudayar bəy eşşəyini satır, onun bütün həyatını lərzəyə salır, ailəsinin fəlakətinə səbəb olur. M.ə.-nin başına gələn əhvalat gülməli bir

E.Məmmədov

macəra deyil, əslində, yanıqlı bir faciədir. Yazıçı M.ə.-nin faciəsini – yazıq, köməksiz bir vəziyyətə düşməsini, şüurca şikəst olmasını zamanın ictimai ziddiyyətlərində və ədalətsizliyində görür.

MƏMMƏDXANOV Ələkbər (1875-1920) – mühəndis, C.Məmmədquluzadənin müasiri və dostu. Naxçıvan şəhər məktəbini bitirmiş, 1884 ildə Qori müəllimlər seminariyasına daxil olmuşdur. M.-un seminarist dostları Ə.Sultanov və C.Məmmədquluzadə ilə 1885 il oktyabrın 30-da Qoridə çəkdirdiyi şəkil A.O.Çernyayevskiyə bağışlanmışdır. Pedaqoji şuranın 23 noyabr 1885 il tarixli qərarı ilə M. təhsil haqqını ödəyə bilmədiyinə görə seminariyadan çıxarılmışdır. Sonra Xarkov un-tində təhsil almış, Bakıda Musa Nağıyevin neft şirkətində mühəndis işləmişdir. Bəhailik təriqətinin tarixi və fəlsəfəsini öyrənməklə məşğul olmuşdur. Böyük rus yazıçısı L.N.Tolstoyun şəxsiyyətinə və fəlsəfəsinə rəğbət bəsləmiş, onunla məktublaşmışdır.

Q.Məmmədli

MƏMMƏDLİ Qulam Məmməd oğlu (1897-1994) – jurnalist, biblioqraf, ədəbiyyatşünas və teatrşünas. Azərb. əməkdar mədəniyyət işçisi (1977). İbtidai təhsilini mollaxanada almışdır. 1916 ildə Aşqabadda yaşayarkən C.Məmmədquluzadənin "Ölülər" pyesində həvəskar aktyor kimi iştirak etmişdir. Sonralar Bakıya köçmüş, burada teatr texnikumunu bitirmişdir. 1916 ildən mətbuatda çıxış etmiş, "Kəndli qəzetəsi" (1930-1932), "Azərbaycan kolxozçusu" (1932-1935), "Yeni yol" (1937) qəzetlərinin, "Kirpi" satira jurnalının (1956-1959) red. olmuşdur. Yaradıcılığında mətnşünaslıq fəaliyyəti xüsusi yer tutur. O 1941-1946 illərdə Təbrizdə xidmət edərkən geniş ədəbi-tədqiqat aparmış, Azərb. ədəbiyyatşünaslığında ilk dəfə olaraq Heyran xanımın, M. Ə. Möcüzün şeirlərini, 16 əsr Azərb. şairi Fədainin "Bəxtiyarnamə" poemasını və s. toplayıb çap etdirmişdir. Sonrakı illərdə salnaməçilik fəaliyyəti M. yaradıcılığında başlıca istiqamətə çevrilmişdir. M.-nin C.Məmmədquluzadənin həyat və yaradıcılığına həsr olunmuş "Molla Nəsrəddin" (1966) salnaməsi xüsusilə qeyd olunmalıdır. O, həmçinin "Xiyabani" (1949), "Hüseyn Ərəblinski" (1967), "Cahangir Zeynalov" (1968), "Azərbaycan teatrının salnaməsi" (c. 1, 2; 1975, 1982), "Cavid-ömrü boyu" (1982), "Üzeyir Hacıbəyov" (1984) salnamələrinin tərtibçisi, Azərb. ədəbiyyatı, mətbuatı və teatrı tarixinə dair çoxsaylı məqalələrin müəllifidir.

MƏMMƏDOV Elçin Mehdi oğlu (1946-2001) – teatr rəssamı. Azərb. əməkdar inc. xad. (1991). Azərb. Dövlət mükafatı (1984) və "Qızıl Dərviş" (1998, 2001) mükafatı laureatı. M.Məmmədovun oğlu. Azərb. Dövlət İncəsənət İn-tunun rəssamlıq fakültəsini bitirmişdir (1973). 1989 ildən ADT-nın baş rəssamı idi. ADT-da "Dəli yığıncağı" (1978), Azərb. Musiqili Komediya Teatrında "Danabaş kəndinin əhvalatları" (1980), Azərb. Gənc Tamaşaçılar Teatrında "Danabaş kəndinin məktəbi" (1984) tamaşalarının bədii tərtibatını vermişdir. Bir sıra beynəlxalq sərgilərdə iştirak etmiş, kitab tərtibatı ilə məşğul olmuşdur. Kinolara çəkilmişdir.

MƏMMƏDOV (Saraclı) Əflatun Yunus oğlu (1936-2008) – ədəbiyyatşünas-tənqidçi, şair, tərcüməçi. Filol. e.d. (1984). A.S.Puşkin ad. Tbilisi Dövlət Pedaqoji İn-tunun tarix-filologiya fakültəsini bitirmişdir. 1962 ildən Azərb. EA Nizami ad. Ədəbiyyat İn-tunda elmi fəaliyyətə başlamış, kiçik elmi işçi (1962-1970), baş elmi işçi (1970-1988), aparıcı elmi işçi (1988-1994) vəzifələrində işləmiş, 1994 ildən Yeni dövr ədəbiyyatı şöbəsinin müdiridir. M. XX əsr Azərb. ədəbiyyatının görkəmli tədqiqatçılarındandır. O, "Azərbaycan uşaq ədəbiyyatı" (1977), "Abdulla Şaiq" (1983), "Zeynalabdin Marağayi" (1994) və s. tədqiqat əsərlərinin müəllifidir. C.Məmmədquluzadə irsinin öyrənilməsi onun elmi yaradıcılığında mühüm yer tutur. O, "Cəlil Məmmədquluzadə" monoqrafiyasının (1974) müəlliflərindəndir. XIX-XX əsrlər Azərb. ədəbiyyatına dair tədqiqlərində – "Azərbaycan bədii nəsri" (1983) monoqrafiyasında, "XX əsr Azərbaycan ədəbiyyatı məsələləri" kitablarında (1979, 1985) dərc olunmuş məqalələri Cəlil Məmmədquluzadə yaradıcılığının tədqiqinə həsr olunmuşdur.

MƏMMƏDOV Yuran (1934-1984) – teatr rəssamı. C.Məmmədquluzadə ad. Naxçıvan Dövlət Musiqili Dram Teatrında tərtibatçı rəssam işləmişdir. Bir sıra tamaşaların, o cümlədən C.Məmmədquluzadənin "Ölülər" və "Dəli yığıncağı" pyeslərinin bədii tərtibatını vermişdir.

MƏMMƏDOV Hacı Molla Bağır (?-?) – mədrəsə müəllimi, ruhani. C.Məmmədquluzadə 1877-1879 illərdə Naxçıvan şəhərində Molla Bağırın mədrəsəsində ibtidai dini təlimin ikinci mərhələsini keçmişdir. O, burada "Quran"la yanaşı, "Camei-Abbas", "Bist bab", "Sual və cavab", "Mürşidül-əvam" kimi şəriət kitablarını, həmçinin Sədi Şirazinin məşhur "Gülüstan" və "Bustan" əsərlərini oxuyub öyrənmişdir. Bundan başqa, həmin mollaxanada balaca Cəlil sərt və tələbkar müəllim olan M.-un "falaqqasının çubuqlarını" da görmüşdür.

MƏMMƏDOV Həsən (Əbülhəsən) Ağaməmməd oğlu (1938-2003) – teatr və kino aktyoru. Azərb. xalq art. (1982). SSRİ (1981) və Azərb. (1986) Dövlət mükafatları laureatı. Azərb. Dövlət İncəsənət İn-tunu bitirmişdir (1962). 1962 ildən ADT-nın aktyoru olmuşdur (fasilələrlə). Elə həmin ildən kinoda fəaliyyət göstərmişdir. M. 50-dən çox filmdə çəkilmişdir. "Azərbaycanfilm" kinostudiyasında lentə alınmış "Qəm pəncərəsi" filmində (1987) Məmmədhəsən əminin faciəli taleyini böyük sənətkarlıqla tamaşaçılara çatdırmışdır.

MƏMMƏDOV Xeyrulla Qulam oğlu (1934-2005) – ədəbiyyatşünas, tənqidçi. Filol. e.d. (1982), prof. (1984). ADU-nun filol. fakültəsini bitirmişdir (1957). "XIX əsrin sonu, XX əsrin əvvəlində Azərbaycanda maarifçi realist ədəbi hərəkat (1880-1905)" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir (1982). M. 19-20 əsrlər Azərb. ədəbiyyatı üzrə görkəmli mütəxəssis olub. "XIX əsrin sonu, XX əsrin əvvəlində Azərbaycan maarifçi-realist ədəbiyyatı" (1978), "Sultan Məcid Qənizadə" (1983), "Əkinçi"dən "Molla Nəsrəddinə qədər" (1987), "XIX əsr Azərbaycan uşaq ədəbiyyatı" (1992), "Azərbaycan ədəbi tənqidi XIX-XX əsrlərin hüdudunda" (1999) monoqrafiyaların müəllifidir. Tədqiqatlarında Cəlil Məmmədquluzadə və "Molla Nəsrəddin" jurnalı haqqında məsələlər geniş yer tutub. "Bir ərizə", "Cəlil Məmmədquluzadə və azəri uşaq ədəbiyyatı məsələləri", "Fırtınadan doğulan insan", "Əqidə döyüşləri", "Böyük xalq müəllimi", "Əli bəy Hüseynzadə "Molla Nəsrəddin" haqqında", "Molla Nəsrəddin"in ədəbi cəbhəsi", İ.Qasprinski "Molla Nəsrəddin" haqqında", "Mirzə Cəlil yeni biçimdə" və s. məqalələrində böyük sənətkarın həyat və yaradıcılığı ilə bağlı müxtəlif məsələləri tədqiq etmişdir.

MƏMMƏDOV Kamran Dadaş oğlu (1922-1989) – ədəbiyyatşünas, nasir. Filol. e.d. (1965), prof. Əməkdar elm xad. (1982). APİ-nin dil və ədəbiyyat fakültəsini bitirmişdir (1941). İkinci Dünya müharibəsində iştirak etmiş, ağır yaralanıb, 1943 ildə ordudan tərxis olunmuşdur. 1943-1945 illərdə ADU-nun filol. fakültəsində təhsil almışdır. Ədəbi fəaliyyətə "Ədəbiyyat və incəsənət" qəzetində başlayan M. 1952 ildən ömrünün sonunadək Azərb. EA Nizami ad. Ədəbiyyat İn-tunda baş elmi işçi, şöbə müdiri, məsləhətçi olmuşdur. Mətbuatda hekayə və tənqidi məqalələrlə çıxış etmişdir. "Qasım bəy Zakir" (1957, 1984) "Nəcəf bəy Vəzirov" (1963, 1995), "Əbdürrəhim bəy Haqverdiyev" (1970), "XIX əsr Azərbaycan şeirində satira" (1975), "Yusif Vəzir Çəmənzəminli" (1981), "XX əsr Azərbaycan gülüşü" (1989) və s. monoqrafiyaların müəllifidir. Bu əsərlərdə M. Azərb. ədəbiyyatında satira, XIX-XX əsr klassiklərinin gülüşü, satirik təsvir vasitələri, satira dili və s. məsələləri, milli realizm və satiranın inkişafında C.Məmmədquluzadə və "Molla Nəsrəddin"in rolunu işıqlandırmışdır. Milli kadrların hazırlanmasında böyük xidməti var.

MƏMMƏDOV Mehdi Əsədulla oğlu (1918-1985) – rejissor, aktyor, pedaqoq. SSRİ xalq art. (1974). Sənətşünaslıq doktoru (1968), prof. (1960). A.V.Lunaçarski ad. Moskva Dövlət Teatr Sənəti İn-tunu bitirmişdir (1940). 1940-45 illərdə Gəncə Dövlət Dram Teatrında rej. (sonralar baş rej.) olmuş, burada bir sıra əsərləri tamaşaya qoymuşdur. M. 1946 ildən ADT-nda rej. (1960-1963 illərdə baş rej.) və aktyor kimi fəaliyyət göstərmişdir. 1978 ildə tamaşaya qoyduğu C.Məmmədquluzadənin "Dəli yığıncağı" əsəri Azərb. teatrı tarixində layiqli yer tutur. M.-un rej.-luq üslubu əsərin fəlsəfi mənasının qabarıq verilməsi, monumentallığı, səhnə mizanlarının dəqiqliyi ilə səciyyələnir. Tamaşada bir çox ifadə vasitələrinin, C.Məmmədquluzadəyə xas olan bədii prinsiplərin məzmununa, harmonik vəhdətinə rast gəlinirdi. M. meydan teatrı elementlərindən, şərti, realist üsullardan istifadə etmişdi. Də-

K.Məmmədov

H.Məmmədov

X.Məmmədov

M.Məmmədov

M.Məmmədzadə

M.Məmmədov

Ə.Məmmədova

Ş.Məmmədova

M.Mərdanov

qiq seçilmiş vahid aktyor ansamblı "Dəli yığıncağı"nın məna zənginliyinə, forma kamilliyinə nail olmuşdur.

M. müəyyən dövrdə AOBT-nın, S.Vurğun ad. Azərb. Dövlət Rus Dram Teatrının baş rej., Azərb. Teatr Cəmiyyətinin sədri (1969-1976) olmuşdur. 1946 ildən Azərb. Dövlət İncəsənət İn-tunda dərs demişdir. Milli dramaturgiya, incəsənət nəzəriyyəsi və estetikaya dair bir sıra əsərlərin müəllifidir.

MƏMMƏDOV Məmməd Mahmud oğlu (d. 1930) – filoloq, mətnşünas. Filol. e. d. (1969), prof. (1970). ADU-nun filol. fakültəsini bitirmişdir (1952). C.Məmmədquluzadə irsinin tanınmış tədqiqatçılarındandır. "Cəlil Məmmədquluzadənin bədii nəsri" (1963), "İdeal qardaşları" (1967), "Sabir və Azərbaycan demokratik mətbuatı" (1974) və s. əsərlərin müəllifi, "Cəlil Məmmədquluzadə. Dram və nəsr əsərləri" (1958) toplusunun tərtibçisi, şərhlər yazanı, "Cəlil Məmmədquluzadə" monoqrafiyasının (1974) müəlliflərindən biridir.

MƏMMƏDOVA Əzizə Əbdülbağı qızı (1892-1961) – aktrisa. Azərb. əməkdar art. (1936). İlk azərb. aktrisalardan olan M. səhnə fəaliyyətinə Ə.Bayramov klubu nəzdindəki dram dərnəyində başlamış, sonralar Bakı Azad Tənqid-Təbliğ Teatrında (1921-1925), Bakı Türk İşçi Teatrında (1925-1933), 1933 ildən ömrünün sonunadək ADT-da çıxış etmişdir. M. milli koloritli azərb. qadın rollarının mahir ifaçısı kimi xüsusilə şöhrət qazanmışdır. C.Məmmədquluzadənin "Ölülər" pyesində Kəblə Fatma (1924) və "Anamın kitabı" tamaşasında Zəhrabəyim (1928) rollarını böyük müvəffəqiyyətlə yaratmışdır.

MƏMMƏDOVA Şəfiqə Haşım qızı (d. 1945) – aktrisa, pedaqoq. SSRİ (1974) və Azərb. (1980) Dövlət mükafatları laureatı. Azərb. xalq art. (1982). Prof. (1990). Azərb. Dövlət İncəsənət İn-tunu bitirmişdir (1967). 1967-1980 illərdə teatr və kino aktyoru kimi fəaliyyət göstərmişdir. O, Mehdi Məmmədov tərəfindən tamaşaya qoyulmuş "Dəli yığıncağı" pyesində Pırpız Sona rolunu böyük ustalıqla oynamışdır (1978). M.-nın ifasında Sona faciəvi bir obrazdır. O, hansı mühitə düşdüyünü gözəl anlayır, Molla Abbasın və onun dostlarının əslində dəli olmadıqlarını çox gözəl bilir. M. Sonanın təbiətindəki şərə qarşı barışmazlıq, üsyankarlıq duyğularını qabarıq ifadə etmişdir. Onun böyük uğurla oynadığı bu rol Məmmədquluzadənin qadın qəhrəmanlarının yaddaqalan səhnə təfsirlərindən biri sayılır.

MƏMMƏDZADƏ Mirzəbala Əli oğlu (1898-1959) – yazıçı, dramaturq, publisist, ictimai xadim. Bakı texniki-sənaye məktəbini, İstanbul un-tinin hüquq fakültəsini bitirmişdir. Ədəbi-publisistik yaradıcılığa erkən yaşlarından başlamış, "Açıq söz", "Bəsirət", "Azərbaycan", "İstiqlal", "Gənclər sədası", "Əfkari-mütəllimin" qəzetləri ilə əməkdaşlıq etmişdir. Aprel çevrilişindən sonra bir müddət Cənubi Azərb.-da yaşayan M. 1927 ildən İstanbula köçmüşdür.

M.-nin tarixi, ədəbi və publisist əsərlərində Azərb.-nın tərəqqisi problemləri əsas yer tutur. O, "İki inqilab arasında" (Tiflis, 1918), "Azərbaycan türk mətbuatı" (Bakı, 1922), "Milli Azərbaycan hərəkatı" (1937) kitablarının müəllifidir. M. "Azərbaycan türk mətbuatı" əsərində "Molla Nəsrəddin"ə və onun naşiri M.-yə xüsusi yer ayırmışdır. O, xalqın milli özünüdərki prosesində, dostla düşməni, xeyirlə şəri ayırd etməsində, mədəni tərəqqisində mühüm xidməti olan "Molla Nəsrəddin" jurnalına, onun C.Məmmədquluzadə, M.Ə.Sabir, Ömər Faiq, Ə.Haqverdiyev kimi müəlliflərinin qabaqcıl fikirlərinə yüksək qiymət vermişdir. "Molla Nəsrəddin"i xalq ruhunun, xalqın mənəvi aləminin, demokratiya və istiqlal arzularının ifadəçisi hesab edən M. göstərirdi ki, o "bütün xalqımızda olan ictimai nöqsanlarımızı açıb üzümüzə çırparkən əskilərin və yenilərin mübarizələrini təsvir edərkən öylə asan və açıq bir yol göstərirdi ki, xalq bu tənələrin zərbəsi altında güləgülə kəndi səhvlərini islah edərək irəliləyirdi".

MƏRDANOV Mustafa Haşım oğlu (1894-1968) – aktyor. Azərb. xalq art. (1943). Tiflisdə gimnaziya bitirmiş (1916), Moskva Dövlət Teatr Sənəti İn-tunda təhsil almışdır (1922-1924). Səhnə fəaliyyətinə 1910 ildən Tiflis müsəlman dram dərnəklərində başlamışdır. 1921-1922 illərdə Tiflis Azərb. Teatrının direktoru olmuş, 1924 ildən ADT-da işləmişdir. Bir çox orijinal obrazlar yaratmış-

dır. "50 il Azərbaycan səhnəsində (Xatirələrim)" (1959) və "Mənim müasirlərim" (1973) kitablarının müəllifidir. M. öz xatirələrində ilk dəfə Tiflisdə görüb tanış olduğu C.Məmmədquluzadə, M.Şahtaxtinski, Ə.Qəmküsar, E.Sultanov ilə görüşləri haqda yazmış, onların məktəb, teatr, sənət haqqında söhbətlərinin təsiri ilə elmə, ədəbiyyata və incəsənətə marağının daha da artdığını göstərmişdir. C.Məmmədquluzadə deyərmiş: "Savadsız aktyor heç nəyə yaramaz". M. Tiflisdə göstərilən "Ölülər" tamaşasında Hacı Həsən rolunda oynayır. Truppa bu tamaşanı İrəvanda da göstərir. Tamaşaların məşqlərində C.Məmmədquluzadə fəal iştirak edir, artistlərə yaxşı məsləhətlər verirdi. M. yazırdı: "Məşq zamanı İsgəndər – Nadir İbrahimov araq şüşəsini başına qaldıranda, Mirzə Cəlil onu saxlayıb deyir: – Bala, bu olmadı, sən bu arağı kef üçün yox, dərddən içirsən. Sən (...) dərman içən adamın vəziyyətini almalısan. O vaxt məqsədinə çatarsan". M.-la söhbətində isə ədib demişdi: "Sən Hacı Həsən rolunda elə etməlisən ki, başqa hacılara (pyesdəki hacılar nəzərdə tutulur – *red.*) oxşamayasan. Sən ölülərin dirilməsinə inanmasan da, camaat içində öz nüfuzunu qırmamaq üçün özünü inanan kimi göstərməlisən".

1926 ildə Bakıda ADT-da səhnəyə qoyulmuş "Ölülər" tamaşasında M. Şeyx Əhməd rolunu ifa etmişdi. M. Azərb. kinosunun ilk və tanınmış aktyorlarından idi.

MƏŞƏDİ HÜSEYNQULU (?-?) – C.Məmmədquluzadənin ata tərəfdən babasıdır. O, XIX əsrin 40 illərində Cənubi Azərb.-ın Xoy ş.-ndən Naxçıvana gəlmiş, burada evlənmişdir. Bənnalıqla məşğul olmuş, öz zəhməti hesabına yaşamışdır. Dindar idi. İranın Xorasan vilayətində İmam Rzanın qəbrini ziyarət etmişdi. Təxm. XIX əsrin ortalarında Naxçıvan şəhərində dünyasını dəyişmişdir.

"MƏŞRƏB" – 1926 ildə Səmərqənddə nəşr edilən, ayda iki dəfə çıxan satirik məcmuə. "Molla Nəsrəddin"in yolu ilə gedən, böyük formatlı, texniki cəhətdən mükəmməl nəşr idi. "Yeni fikir" qəzeti yazırdı ki, "M." jurnalında "mövzuların düzülüşü, rəsmlərin quruluşu tamam "Molla əmi"yə ("Molla Nəsrəddin" jurnalına – *red.*) bənzəyir. İxtiyar məcmuəmizə olan bu təqlid, fikrimizcə, "Məşrəb" məcmuəsi üçün eyib deyil, bəlkə də, ona çox gözəllik verir".

"MƏZƏLİ" – həftəlik ictimai, siyasi, satirik jurnal. 1914-1915 illərdə Bakıda Azərb. dilində nəşr olunmuşdur. 25-ci sayına kimi naşiri və red. H.Vəzirov, 25-37 saylarında müvəqqəti müdiri H.Qasımov, sonra isə yenidən müdir və naşiri H.Vəzirov olmuşdur. "M."-nin ideya-ictimai məsləki və qabaqcıl mövqeyi ilk sayındakı proqram səciyyəli "Yolumuz" məqaləsində öz əksini tapmışdır. "M."-də Ə.Nəzmi, Ə.Qəmküsar, C.Əsgərzadə, Ə.Müznib, Ə.Razi, B.Seyidzadə və b. iştirak etmişlər. Ə.Əzimzadənin jurnal üçün çəkdiyi 100-dən artıq karikaturada "Molla Nəsrəddin" jurnalının ənənələri təbliğ edilmişdir. "M." imperialist müharibəsinin törətdiyi dəhşətləri, ictimai ədalətsizliyi, qadın hüquqsuzluğunu ifşa etmiş, mətbuat, ədəbiyyat, teatr məsələlərini işıqlandırmış, savadsızlığın ləğvi və ana dilinin saflığı uğrunda mübarizə aparmışdır. "Molla Nəsrəddin" ədəbi üslubu ilə yazılmış "Səyahətnameyi-Çaqqulu bəy" və "Qarabağ səyahətnaməsi"ndə ictimai haqsızlıq tənqid olunmuşdur.

"MƏZHƏR" – ictimai-siyasi qəzet. 1908-1917 illərdə Tiflisdə Azərb. dilində nəşr edilmişdir. Naşiri və red. K.Ünsizadə idi. Cəmi 31 nömrəsi çıxmışdır. "M." dini təbliğ etmiş, ruhaniləri, yüksək rütbəli çar məmurlarını tərifləmişdir. Məmmədquluzadə bu qəzet haqqında yazırdı: "Məzhər" qəzetinin sahibi Kamal əfəndi kimi gərək biz də canişin həzrətlərinə qəsidə oxuyaq ki, hökumət yanında hörmətimiz olsun".

MİDHƏD PAŞA ƏHMƏD (1822-1884) – Türkiyə dövlət xadimi. Osmanlı imperiyasının iqtisadi, siyasi və mədəni geriliyini aradan qaldırmaq üçün islahatlar keçirmək məqsədini izləyən "Yeni osmanlılar" hərəkatına qoşulmuş, baş vəzir kimi sultan Əbdüləzizin taxtdan salınması, sultan II Əbdülhəmidə Türkiyənin ilk konstitusiyasının elan etdirilməsi (1876) onun rəhbərliyi altında olmuşdur. Müəyyən vaxt "Yeni osmanlılar"ın tələblərinə dözən II Əbdülhəmid konstitusiya tərəfdarları və ilk növbədə M.p. ilə hesablaşmaq üçün fürsət gözləyirdi. 1881 il mayın 19-da M.p. "dövlət üçün təhlükəli şərait yaratmaqda" və sultan Əbdüləzizin ölümündə ittiham edilərək həbs olunmuş və 1881 il

iyulun 28-də haqqında çıxarılmış ölüm hökmü yumşaldılmış, Taifə sürgün edilərək orada sultanın fitvası ilə öldürülmüşdür. Mirzə Cəlil 1907 ildə "Закавказье" qəzetində dərc etdirdiyi "Türkiyə məşrutəsinin keçmişindən" adlı məqaləsində M.p. haqqında çox səmimi fikirlər söyləmişdir. Mirzə Cəlil sonralar "Molla Nəsrəddin" jurnalı səhifələrində və digər yazılarında da M.p.-nı dəfələrlə xatırlamış, onun Türkiyədə azadlıq uğrunda mübarizədə rolunu yüksək qiymətləndirmişdir.

S.Mixalkov

MİXALKOV Sergey Vladimiroviç (d. 1913) – rus şairi, ict. xadim. Rusiya Pedaqoji EA həqiqi üzvü (1971). Lenin mükafatı (1970) və SSRİ Dövlət mükafatı (1941, 1942, 1950, 1978) laureatı. Uşaqlar üçün şeir və pyeslərin, aktual mövzulu təmsillərin, satirik şeir və felyetonların, yaşlılar üçün satirik komediyaların müəllifidir. Əsərləri bir çox dillərə, o cümlədən Azərb. dilinə tərcümə edilmiş, "Xərçənglər", "Qiymətli oğlan" pyesləri Azərb. səhnəsində göstərilmişdir. "Bakinski raboçi" qəzetində çap etdirdiyi "Mirzə Cəlil" məqaləsində M. böyük ədibin sənətinə yüksək qiymət vermiş, ona dərin ehtiramını bildirmişdir. O yazır: "Mirzə Cəlildə şair yığcamlığı və dəqiqliyi var". M. "Molla Nəsrəddin" jurnalını öz dövrünün aynası, "Ölülər"i "əla komediya", İsgəndəri "əsl dramaturji istedadla yaradılmış surət" adlandırır.



Mill Con Stüart

MİLL CON STÜART (1806-1873) – ingilis filosofu, iqtisadçı, ictimai xadim. 1865-1868 illərdə icma palatasının üzvü olmuş, liberal və demokratik islahatları müdafiə etmişdir. Kapitalizm quruluşunun qüsurlarını (pula pərəstiş, əmlak bərabərsizliyi, zəhmətkeşlərin aşağı həyat səviyyəsi) pisləmiş və burjua reformizmi mövqeyində durmuşdur. C.Məmmədquluzadənin cavanlıqdan çox oxuyub xoşladığı klassiklərdən idi. M.C.S. Milli "bir özü kimi Avropa yazıçısı ilə arvad azadlığı barəsində mübahisəyə" girib, "arvad azadlığına indiyədək qoyulan sərhədlərin hamısı"nın götürülməsini tələb etdiyinə və qadın ləyaqəti haqqında hörmətlə danışdığına görə təqdir etmişdi. M. "Tərcümeyi-halım"da onu ilk dəfə C.S.Millin "kitabı" ilə tanış edən dostu E.Sultanovu hörmətlə yad edirdi.

M. "Filosoflar" felyetonunda "Bakı və Tiflis şəhərlərinin gecələr qaranlıq küçələrində gəzən bir para kirli... arvadların timsalında qərbli qadınlar haqqında filosofluq edib mühakimə yürüdən və ünvanlarına "föhş demək"dən, "hörmətsizlik" göstərən "adları yazıçılıqda heç öz məhəllə əhlinə də məlum olmayanlara C.S.Milli nümunə göstərərək yazırdı: "Avropa filosofları övrət məsələsini danışanda çox millətlərin övrətlərindən söhbət açıblar, amma heç bir millətin övrətlərinin barəsində ədəbsizliklə və xarlıqla danışmayıblar" ("Molla Nəsrəddin" jurnalı, 1908, №15).

M.-nin ilk dəfə "Molla Nəsrəddin" jurnalında qadın azadlığı məsələsini qoymasında C.S.Millin əsərindən aldığı təsirin özünəməxsus rolu olmuşdur.

MİLLİ İNTİBAH İDEYALARI VƏ CƏLİL MƏMMƏDQULUZADƏ – Azərb.-da maarifçilik hərəkatının genişlənməsi milli ziyalıların yetişməsi ilə müşayiət edilmişdir. Belə bir tarixi şəraitdə formalaşan mədəniyyət getdikcə daha aydın ümummilli səciyyə alır, eyni zamanda milli şüurun inkişafına, milli birliyin möhkəmlənməsinə xidmət edirdi. Milli dil, tarixi keçmişə maraq, milli ləyaqət hissi, milli özünüdərk, Vətən, vətənpərvərlik, xalqın taleyi, gələcəyi kimi məsələlər mədəni tarixi tərəqqinin ən aktual problemləri kimi qarşıda dururdu.

Ölkədə maarifçilik, inqilabi demokratik ictimai fikrin dirçəlişi, formalaşması, milli intibah ideyalarının yaranması birinci növbədə M.F.Axundovun adı ilə bağlıdır. Mütəfəkkir ədib əsərlərində "millət üləması", "xalq", "millət", "millətxahlıq", "milləti cəhalət qaranlığından mərifət işığına çıxartmaq", "öz millətim" və s. kimi anlayışları çox işlətmiş, doğma xalqının əsrlərdən bəri formalaşıb gələn milli xarakterinə dair maraqlı mülahizələr söyləmişdir. O, xalqın milli ləyaqət, milli qeyrət və vətəndaşlıq hissi tərbiyəsini ön plana çəkir, xalqa aşılanmış mütilik psixologiyasına, sosial passivlik əhvali-ruhiyyəsinə müharibə elan edir, həmvətənlərini öz hüququnu, öz mənafeyini dərk edən bir xalq kimi görmək istəyirdi. Xalqımızın milli mənlik şüurunun qərarlaşması prosesi ilk dəfə Azərb. dilində məhz Axundovun əsərləri vasitəsilə səslənmişdir.

Azərb.-da demokratik maarifçiliyin, milli intibahın görkəmli nümayəndələrindən biri də Həsən bəy Zərdabi olmuşdur. O, təbiiyyata dair elmi fikrin, milli publisistikanın inkişafında yeni mərhələ açmış

alim və mütəfəkkirdir. A.Bakıxanov, İ.Qutqaşınlı, Q.Zakir, M.Ş.Vazeh öz yaradıcılıqları ilə ədəbiyyatımızda realizmin bir yaradıcılıq metodu kimi qərarlaşmasına xidmət etmişlər. Onlar dünya maarifçilik ideyalarını öyrənərək Azərb.-ın konkret tarixi şəraitinə tətbiq etməyə çalışmışlar. 1850 illərdən bu maarifçilik qəti təşəkkül tapmaqla, mədəniyyət və ictimai fikrin inkişafında görkəmli rol oynamışdır. Azərb. maarifçiliyi, milli intibah ideyalarının inkişafı M.Kazımbəy, M.F.Axundov, Z.Marağayi, Ə.Talıbov və başqa şəxsiyyətlərin adları, çoxsahəli yaradıcılıqları ilə bağlıdır.

Məmmədquluzadənin həyatı, fəaliyyəti və mübarizəsi də bu şərəfli işə həsr olunmuşdu. Sələflərinin ən yaxşı cəhətlərinə yiyələnib inkişaf etdirən Mirzə Cəlil onların vətən, xalq, millət, intibah, tərəqqi haqqında fikir və ideallarını da öyrənmiş, yaşadıb inkişaf etdirməyə çalışmışdı. Onun yetişdiyi və yazıb yaratmağa başladığı XIX əsrin 80-90-cı illərində Naxçıvanda ölkədaxili əlaqələr formalaşmağa başlamış, maarifçi ənənələr dirçəlməkdə idi. Qərblə, Rusiya ilə, Şərqlə bağlılıq isə qədim dədə-baba adətlərinin daha da zənginləşməsinə təkan verirdi. 60-cı illərin maarif islahatlarının dalğası Naxçıvana da gəlib çatmaqda idi. Bu işdə "Əkinçi" qəzetinin, Məmmədquluzadənin və onun maarifpərvər, demokrat dostları M.Şahtaxtinski, E.Sultanov, Q.Şərifzadə, M.T.Sidqi və b.-nın fəaliyyəti müsbət nəticələrə səbəb olurdu.

Ədibin "Xatiratım"da yazdığı kimi, atası Məmmədqulu kişinin Cəlili oxutması, qohum-əqrəba içində "ən mötəbər və ixtiyar sahibi" Hacı Haşımın "gərək insan dünyada elmli ola" mülahizəsi də gənclik üçün faydalı olmuşdur. M.-nin böyük qardaşı Yusifin "fars dilində yaxşı savadı" vardı; xalası oğlu, yaşıdı Əhməd və qohumları Mirzə Ələsgər də "binamazlara yavıq", açıqfikirli şəxslər idilər ki, balaca Cəlildən ötrü bunlar müsbət faktlar idi. Kiçik qardaşı, qorxmaz və cəsarətli Ələkbərin İran məşrutə hərəkatında Səttarxanla birgə fəal mübarizəsinin Mirzə Cəlil üçün xüsusi əhəmiyyəti olmuşdu.

Bütün bu faktlar Məmmədquluzadənin milli intibah ideyalarının formalaşması və inkişafında həlledici amillərdən idi.

MİNASAZOV Hüseyn Baxşəli oğlu (1881-1932) – pedaqoq, naşir, publisist, ədəbi tənqidçi, tərcüməçi. Qori müəllimlər seminariyasını bitirmiş (1899), bir müddət müəllimlik etmiş, əsas fəaliyyəti Bakı və Tiflis mətbuatı ilə bağlı olmuşdur. Bakıda "Каспий", "Баку", Tiflisdə "Закавказье", "Закавказское обозрение", "Тифлисский листок" və b. qəzetlərdə dərc etdirdiyi məqalələrində ictimai haqsızlığa, gerilik və cəhalətə, qadın hüquqsuzluğuna qarşı çıxmışdır. "Огни" jurnalını (1907, cəmi 6 nömrə), "Еженедельное обозрение" (1909-1910) qəzetini nəşr etdirmişdir. M. 1906-1917 illərdə "Molla Nəsrəddin" jurnalına maraq göstərmiş, Mirzə Cəlilin "Əsarət" məqaləsini rus dilinə tərcümə edərək "Огни" jurnalında dərc etdirmişdir. 1913 ildə ədibin "Poçt qutusu" hekayəsini rus dilinə çevirmişdir. "Ölülər" komediyası haqqında ilk məqalənin müəllifidir (1909). "Закавказье" qəzetində çıxan bu məqalədə M. "Ölülər"i "xalqın canlı, maraqlı həyatının panoramasını" yaradan "qəmli bir həqiqət" kimi dəyərləndirirdi. Ayrı-ayrı görüş və müzakirələrdə də o, Mirzə Cəlil yaradıcılığı, "Ölülər" əsəri haqqında müsbət fikirlər söyləmişdir.

H.Minasazov

MİR CƏLAL (Mir Cəlal Əli oğlu Paşayev) (1908-1978) – yazıçı, ədəbiyyatşünas, pedaqoq. Filol. e.d. (1947), prof. (1948). Azərb. əməkdar elm xad. (1969). Kazan Pedaqoji İnstitutunun ədəbiyyat fakültəsini bitirmişdir (1935). 1961 ildən ADU-da kafedra müdiri işləmişdir. M. C. ədəbiyyata 1928 ildə şeirlə gəlmiş, 1930 ildən nəsr əsərləri yazmışdır. O, zəngin milli folklorun, canlı xalq təfəkkürünün, C.Məmmədquluzadə və Ə.Haqverdiyevin satirik, yumoristik ənənələrinin əsasında yetişərək mahir hekayə ustası, gözəl romançı kimi tanınmışdır. M.C. "Sağlam yollarda", "Boy", "Bostan oğrusu" hekayə məcmuələrinin, "Dirilən adam", "Bir gəncin manifesti", "Yolumuz hayanadır?", "Açıq kitab" və s. romanların müəllifidir. Milli roman və hekayə janrının məzmun və formaca zənginləşməsində mühüm rolu var.

Mir Cəlal

M.C.-ın elmi fəaliyyəti də diqqətəlayiqdir. O, həm klassik ədəbi-mədəni irs, həm də müasir ədəbiyyat və sənət məsələləri haqqında monoqrafiyalar, məqalələr, tədqiqat əsərləri yazmışdır. XX əsr Azərb. ədəbiyyatının görkəmli mütəxəssi-

si olan M.C. həmin dövrün ədəbi-mədəni həyatını dərindən tədqiq edirdi. C.Məmmədquluzadə alimin ardıcıl tədqiq və təbliğ etdiyi sənətkar idi. Böyük yazıçının yaradıcılığının müxtəlif sahələri – ədəbi janrları, məfkurə mənbələri, sənətkarlığı, realizmi və xəlqilik keyfiyyətləri onun ciddi tədqiq və təhlil obyektidir. O, C.Məmmədquluzadənin tarixi rolunu yeni ədəbiyyatın istiqamətini düzgün müəyyənləşdirməsində, "Həyat və mübarizə ədəbiyyatı" yaratmasında, təbiiliyi, sadəliyi və reallığı sənət üçün başlıca meyar seçməsində, mətbuat tarixində əlamətdar hadisəyə çevrilən "həqiqət və intibah kitabı" "Molla Nəsrəddin"lə bağlı misilsiz xidmətlərində görürdü.

M.C. Azərb. ədəbiyyatı tarixinin akademik nəşrlərinin və dərsliklərin yaradılmasında da yaxından iştirak etmişdir.

M.Mirqasımov

Ə.Mirəhmədov

MİRQASIMOV Mirələsgər Mirəsədulla oğlu (1924-2004) – heykəltəraş. Azərb. əməkdar inc. xad. (1962). Xalq rəssamı. Ə.Əzimzadə ad. Azərb. Dövlət Rəssamlıq məktəbini (1944) və İ.Y.Repin ad. Leninqrad Boyakarlıq, Heykəltəraşlıq və Memarlıq İn-tunu (1950) bitirmişdir. Heykəltəraşlığın müxtəlif janrlarında, xüsusilə monumental heykəltəraşlıq janrında bir sıra yüksək bədii dəyərli əsərlər yaratmışdır. M. Cəlil Məmmədquluzadənin Naxçıvan şəhərində ucaldılmış tunc abidəsinin (1974) müəllifidir.

MİRƏHMƏDOV Əziz Mirfeyzulla oğlu (1920-2002) – ədəbiyyatşünas, tənqidçi, mətnşünas, kitabşünas, mətbuat tarixçisi. Filol. e.d. (1976), Azərb. EA m. üzvü (1980). Əməkdar elm xadimi (1982). Ömrünün əsas hissəsi Azərb. EA Nizami ad. Ədəbiyyat İn-tu ilə bağlı olmuşdur. O, kiçik fasilələrlə həmin in-tda 60 ilə yaxın işləmişdir: M. in-tda laborant kimi işə başlamış (1942), kiçik elmi işçi, baş elmi işçi, mətnşünaslıq şöbəsinin müdiri (1964 ildən), direktor müavini (1980-1981), direktor (1981-1985) vəzifələrində çalışmışdır. M. müxtəlif illərdə ADU-nun baş müəllimi (1943-1948), "Azərnəşr"in baş red.-u (1949-1951), Nizami ad. Azərb. Ədəbiyyatı Muzeyinin direktoru (1959-1960), Azərb. KP MK-nın Təbliğat və Təşviqat şöbəsi müdirinin müavini (1960-1963), İdeologiya şöbəsi müdirinin birinci müavini (1963-1964) vəzifələrində səmərəli fəaliyyət göstərmişdir.

M.-un əsas tədqiqatçılıq və yaradıcılıq fəaliyyəti Azərb. ədəbiyyatının çoxəsrlik tarixinin aktual problemləri, ədəbiyyat nəzəriyyəsi, ədəbi tənqid, ədəbi əlaqələr, mətnşünaslıq, tərcüməçilik, mətbuat, teatr və kitab nəşri tarixi məsələləri, lüğətçilik işi ilə bağlıdır. O, M.Füzuli, M.P.Vaqif, M.F.Axundov, İ.Qutqaşınlı, M.Ə.Sabir, M.Hadi, A.Səhhət, A.Şaiq və b. yazıçıların həyat və yaradıcılığını tədqiq etmiş, bu klassiklər haqqında monoqrafiyaları, sanballı məqalələri çap olunmuşdur. Ensiklopedik nəşrlər hazırlanması sahəsində də işləyən M. "Ədəbiyyatşünaslıq terminləri" adlı samballı əsər yaratmış, bir sıra ensiklopedik nəşrlər üçün məqalələr yazmış, respublika məktəbləri üçün "Ədəbiyyat müntəxəbatı", "Ədəbiyyat" dərsliklərini çap etdirmişdir. M. "Sovet Azərbaycanının kitab mədəniyyəti" (1975), "Yazıçılar, talelər, əsərlər" (1978), "Azərbaycan ədəbiyyatına dair tədqiqlər" (1983) və b. kitabların müəllifidir.

M. həm də görkəmli məmmədquluzadəşünas alim kimi çoxcəhətli fəaliyyət göstərmişdir. Onun "Cəlil Məmmədquluzadə və XX əsrin əvvəllərində Azərbaycan dövri mətbuatı məsələləri" mövzusunda müdafiə etdiyi doktorluq dissertasiyası (1973) və həmin tədqiqat əsəri əsasında hazırlanmış "Azərbaycan Molla Nəsrəddini" (1980) adlı samballı monoqrafiyası milli ədəbiyyatşünaslığımızın nadir və qiymətli nümunəsi hesab olunur. M. böyük demokrat, ədib və ictimai xadim C.Məmmədquluzadənin həyatına, mühitinə, ədəbi-publisist fəaliyyətinə, habelə maarifçi və mollanəsrəddinçi müasirlərinə dair çoxsaylı fakt və məlumatları, epistolyar materialları, bədii nümunələri ilk dəfə aşkara çıxartmışdır. C.Məmmədquluzadənin iki (1951-1954), üç (1966-1967) və altı cildlik (1983-1985) əsərləri külliyyatlarının tərtibi, çapa hazırlanması, bu nəşrlərə müqəddimə, qeyd, izah və şərhlərin yazılması M.-un çoxillik elmi fəaliyyətinin nəticəsidir. "Molla Nəsrəddin" jurnalı mətnlərinin transliterasiyası, çapa hazırlanması, 12 cilddə nəzərdə tutulan bu qiymətli abidənin birinci və ikinci cildlərinin nəşr edilməsi M.-un və onun rəhbərlik etdiyi tədqiqatçılar qrupunun adı ilə bağlıdır.

M. 30-dan artıq namizədlik və doktorluq dissertasiyasına elmi rəhbərlik etmiş-

dir. Son 40 ildə C.Məmmədquluzadənin və "Molla Nəsrəddin" jurnalının araşdırılması ilə məşğul olan tədqiqatçılar nəslinin də əsas müəllimi və rəhbəri prof. M.-dur. O, C.Məmmədquluzadənin anadan olmasının 125 illiyini keçirən dövlət komissiyasının üzvü olmuşdur (1993-1994). Böyük ədibin Bakıdakı memorial muzeyinin təşkilində də M.-un mühüm xidmətləri vardır. O, "Cəlil Məmmədquluzadə" ensiklopediyasının əsas təşkilatçılarından və müəlliflərindən biridir.

MİR HAŞIM (?-?) – 1905-1911 illər İran inqilabı dövründə Təbrizdə əksinqilabi dəstələrdən birinin başçısı. Məşrutə hərəkatının başlanğıcında özünü inqilabın tərəfdarı kimi göstərmiş, lakin tezliklə ifşa edilmiş və Təbrizdən qovulmuşdur. 1908 ilin əvvəllərində o, yenidən Təbrizdə peyda olmuş, Məhəmmədəli şahın pulu ilə şəhərin Dəvəçi məhəlləsinin seyidlərindən təşkil edilmiş "İslamiyyə" əncüməninində fəaliyyətə başlamış (əncüməndən 1908 ilin fevralından "Molla Əmi" qəzetini nəşr etmişdi), muzdla tutulmuş tüfəngçiləri inqilabçılara qarşı uğursuz hücumlara göndərmiş, bu yürüşdən iyun ayında Tehran inqilabçılarına yardıma qoşulan Səttarxan və Bağırxanın silahlı dəstələrinin diqqətini yayındırmışdı. Tehrandakı əksinqilabi çevrilişdən (23 iyun 1908) sonra M.H.-ın dəstəsi çox fəallaşmışdır. İnqilabın bütün İranda yeganə döyüşən qalasına çevrilmiş Təbrizdə mücahidlərin 1908 il oktyabrın 12-də əldə etdikləri əfsanəvi qələbələri nəticəsində bütün əksinqilabi qüvvələr və onların başçıları sırasında M.H. da Tehrana qaçmışdır. M.H. İran irticasının əsas dayaqlarından biri kimi mollanəsrəddinçilərin başlıca tənqid hədəflərindən idi. Mirzə Cəlil "Bəs nə vaxt?" felyetonunda İran zəhmətkeşlərinin xalq düşmənlərinə qarşı mübarizəsini alqışlayaraq yazırdı: "Neçə yüz ildən sonra biz də o dərəcəyə çata bilərik ki, məsələn, öz içimizdən imam cümələri kənar edək? Bizim hansı bir şəhərimizdə Təbriz Mir Haşımları tapılmaz? Təbrizin yarısı Mir Haşımın qanını içməyə hazırdır...". M.H-ın mücahidlərin təzyiqi nəticəsində Təbrizdən qaçması münasibətilə M.Ə.Sabirin yazdığı "Qabla dəxi marfaşını, Mir Haşım" satirası "Molla Nəsrəddin" jurnalında (1908, №42) dərc olunmuşdur.

MİR MÜSƏVVİR NƏQQAŞ (?-?) – Cənubi Azərb. rəssamı. Dövrünün tanınmış sənətkarlarından biri sayılan Mir Müsəvvir "Molla Nəsrəddin" jurnalı Təbrizdə nəşr edilərkən onun bədii tərtibatının təşkili üzrə məsləhətçi olmuş və jurnal üçün bir sıra rəsmlər çəkmişdir.

MİROPİYEV M. A. (?-?) – Mürtəce maarif xadimi. XIX əsrin axırlarında İrəvan, XX əsrin əvvəllərində Qori seminariyasının direktoru olmuşdur. Qafqazda məktəb vasitəsilə çarizmin ruslaşdırmaq, pravoslavlaşdırmaq siyasətini həyata keçirən irticaçı məmur. M. Azərbaycan xalqının maariflənməsinə, dilinə və dininə düşmən münasibəti ilə seçilirdi. C.Məmmədquluzadə M.-in Qafqazın müsəlman əhalisinin təhsil almaq imkanlarını məhdudlaşdırmaq ("İrəvan seminariyası və qazinin nitqi"), Azərbaycan dilinin tədris saatlarını azaltmaq, seminaristlərin ana dilində danışmalarını, "namazı" müsəlman dilində" qılmalarını qadağan etməklə milli və dini hisslərini boğmaq və onları millətə xidmət yolundan uzaqlaşdırmaq ("Çətin məsələyə cavab") səylərini kəskin tənqid etmişdir.

C.Məmmədquluzadə M.-in həyata keçirdiyi tədbirlərin Azərbaycan xalqının vətəninə və mədəniyyətinə çarizmin xəyanətlərinin təzahürü kimi qiymətləndirərək yazırdı: "Mən elə qanıram ki, bizim işimiz qurtarıb gedibdir. Elə rus misyonerləri buna çalışırdılar. O qədər ki, levitskilər, radlovlar, ostroumovlar və bundan savayı, Miropiyev və qeyriləri kimi nə qədər müntəzəm dəstələr nə müddətlərlə çalışırdılar ki, bizləri ruslaşdırıb dilimizdən və vətənimizdən bizləri bilmərrə ayıralar" ("Rus məxrəci").

MİRZƏ Məhəmməd Tağı xan (1808-1852) – İran dövlət xadimi. 1848-1851 illərdə baş nazir olmuş, "Əmiri-Nizam" və "Əmiri-Kəbir" titullarını almışdır. Ölkənin iqtisadi-siyasi və mədəni həyatında bir sıra islahatlar keçirmişdir. Feodal-mülkədar sinfinin mövqelərini və mərkəzi hakimiyyəti möhkəmləndirmək siyasəti yeritmişdir. Ordunu yenidən quraraq feodal qiyamlarını və Babilər üsyanını yatırmışdır. Ticarət və sənətkarlığın canlandırılması üçün tədbirlər həyata keçirmiş, bir sıra dövlət manufakturaları yaratmışdır. Onun təşəbbüsü ilə İranda fars dilində ilk qəzet nəşr olunmuş (1851), əyan uşaqları üçün

ilk dünyəvi məktəb açılmışdır. Nəsrəddin şahı devirməkdə günahlandırılaraq vəzifəsindən kənar edilib, Kaşana sürgün olunmuş və orada öldürülmüşdür.

MİRZƏ Rza xan Hacı Həsən oğlu (Daniş Əfraüddövlə) (1855-?) – İran diplomatı, şair, publisist, ərəb əlifbasının islahatçısı. Azərb.-dır. Təbrizdə mədrəsədə, İstanbulda fransız liseyində, Tiflisdə "müsəlmanlardan ötrü tərtib olunmuş dövləti təlimxanaların birində" təhsil almışdır. Tiflisdə İran general konsulluğunda nayib və tərcüməçi işləmişdir. Ərəb əlifbasının islahı məsələləri ilə məşğul olmuş, 1880 ildə İstanbulda "Əlifbayi-Rüştiyə" kitabçasını nəşr etdirmişdir. Risalə Tiflisdə "Ziyayi-Qafqaziyyə" qəzetində müzakirəyə qoyulmuş, müəllifin ərəb əlifbasını islah etmək təşəbbüsü şeyxülislam və müfti tərəfindən təqdir olunmuşdur.

Mütərəqqi fikirli ziyalılar M.R. x.-ın şəxsiyyətinə və islahatçılıq fəaliyyətinə rəğbət bəsləmişlər. C.Məmmədquluzadə "Zəncir" (1909) felyetonunda Bakı müəllimləri tərəfindən tərtib edilmiş "İkinci il" dərsliyinin bir neçə qüsuru ilə əlaqədar yazdığı "Yazımız, dilimiz, "İkinci il"imiz" məqaləsində İ.Qasprinskinin "Bilmirəm bizim Qafqazda və bilxassə Tiflis şəhərində nə hal var ki, burada hər yerindən qalxan... müsəlmanların əlifbasına, imlasına istinad edərək, bunların başına gətirmədikləri oyun qalmır. Mirzə Fətəli, Mirzə Rza, qaspodin Şahtaxtinski həp Tiflisdə törüyorlar" fikrini misal gətirən və bununla əlifba islahatı uğrunda mübarizə aparan görkəmli şəxsiyyətlərin tarixi xidmətlərini qiymətləndirməkdə yanlış mövqe tutan Əli bəy Hüseynzadəni tənqid edərək yazırdı: "Məlum şeydir ki, alimlərimizin və şöhrətli yazıçılarımızın çoxu Bakıdadır. Tiflisdə və qeyri şəhərlərdə ancaq Mirzə Fətəli və Şahtaxtinski kimi xırda-mırda yazıçılarımız olub" ("Molla Nəsrəddin" jurnalı, 1909, № 8).

R.Mirzəyev

MİRZƏYEV Mirzə Şərif Həsən oğlu (1860-1937) – müəllim, şərqşünas, tərcüməçi, publisist. Tiflis şəhər məktəbində oxumuş, Qori müəllimlər seminariyasında təhsil almışdır (1879-1882). İyirmi ildən artıq Tiflis və Şuşa məktəblərində dərs demiş, zabitlər məktəbində Şərq dilləri müəllimi olmuşdur. 1906-1920 illərdə Tiflis mətbuat işləri idarəsində türk, rus, fars, ərəb və s. dillərdə mətbuatın senzoru olmuş, Birinci Dünya müharibəsi zamanı hərbi senzurada da işləmişdir. Görkəmli dövlət və mətbuat xadimi Həbib Cəbiyevin tapşırığı və köməyi ilə Azərb. milli mətbuatı, o cümlədən "Molla Nəsrəddin" jurnalı, C.Məmmədquluzadə, Ömər Faiq və b. mollanəsrəddinçilər barədə xatirələrini yazmışdır. Mətbuatda Azərb. jurnalistikası haqqında məqalələr çap etdirmişdir. Şəxsiyyətə pərəstiş dövründə öldürülmüşdür.

MİRZƏYEV Ramiz Həsən oğlu (d. 1946) – rejissor. Azərb. əməkdar inc. xad. (1989). "Humay" mükafatı laureatı (1994). Azərb. Dövlət İncəsənət İn-tunu (1971), Sankt-Peterburq Musiqi, Teatr və Kino Akademiyasını (1978) bitirmişdir. 1967 ildən Dövlət Radio-Televiziya komitəsində əmək fəaliyyətinə başlamış, 50-yə yaxın televiziya filmi və tamaşasına quruluş vermişdir.

C.Məmmədquluzadənin əsərləri M.-in yaradıcılığında xüsusi yer tutur. "Dindirir əsr bizi" (1976), "Kamança" (1992), "Nigarançılıq" (1998) tamaşaları və dörd seriyalı "Mirzə Cəlil" teletoplusu (1987) diqqəti xüsusi cəlb edir. "Kamança" və "Nigarançılıq" televiziya tamaşalarında M. dövrün koloritini, zamanın ictimai-siyasi mənzərəsini, milli münasibətləri ekranda dəqiq və emosional şəkildə canlandırmaqla real xarakterlər qalareyası yaratmağa nail olmuşdur. Müasirlik hissinin aparıcı olduğu bu tamaşalar bu gün də çox aktual səslənir. "Mirzə Cəlil" teletoplusunda isə ədibin həyatının müxtəlif mərhələlərindən səciyyəvi epizodlar canlandırılır. Ədibin ömür yoldaşı Həmidə xanımın xa-

R.Mirzəyevin "Nigarançılıq" televiziya tamaşasının çəkilişi zamanı.

tirələrindən istifadə yolu ilə teletopluda xronoloji ardıcıllıq gözlənilir, C.Məmmədquluzadənin "Molla Nəsrəddin" jurnalındakı red.-luq fəaliyyəti geniş işıqlandırılır.

MİRZƏZADƏ Böyükağa Məşədi oğlu (1921-2008) – rəssam. Azərb. xalq rəssamı (1967). Azərb. Dövlət Rəssamlıq Texnikumunu (1939) və Azərb. Dövlət İncəsənət İn-tunu (1973) bitirmişdir. Rəssamlığın müxtəlif janrlarında fəaliyyət göstərir. 1972 ildə "Nəriman Nərimanov "Ölülər" pyesinin ilk tamaşası münasibətilə Cəlil Məmmədquluzadəni təbrik edərkən" (yağlı boya) teatrallaşdırılmış qrup portreti tablosunu yaratmışdır. Əsər Nizami ad. Azərb. Dövlət Ədəbiyyat Muzeyində saxlanılır. M. teatr-dekorasiya sənəti sahəsində də fəaliyyət göstərir.

MİRZƏZADƏ Hadi İsmayıl oğlu (1908-1965) – dilçi, türkoloq. Filol. e.d. (1960), prof. (1961). 1931 ildən resp.-nın müxtəlif orta və ali məktəblərində dərs demiş, kafedra müdiri, dekan vəzifələrində çalışmışdır. 1953-1955 illərdə Bolqarıstan hökumətinin dəvəti ilə Sofiya untində müasir türk dilindən mühazirələr oxumuşdur. M. Azərb.-da dil tarixi bəhsinin, "Azərbaycan dili tarixi" tədris kursunun yaradıcılarındandır. Tədqiqlərində C.Məmmədquluzadə, M.Ə.Sabir və ümumən "Molla Nəsrəddin"in Azərb. dili tarixindəki mövqeyi dəyərləndirilir. Elmi-pedaqoji kadrların hazırlanmasında xidməti var.

MOLLA NƏSRƏDDİN, Molla əmi, Xacə Nəsirəddin, Nəsrəddin əfəndi və s. – Yaxın və Orta Şərqdə milli folklor ədəbiyyatının sevimli, məzəli obrazlarından biri. XX əsr Azərb. ədəbiyyatı və mətbuatında, xüsusilə Azərb. satirasında əhəmiyyətli, maraqlı yeniliklərdən biri C.Məmmədquluzadənin Molla Nəsrəddin adını özünə ləqəb götürməsidir. Böyük ədibin Molla Nəsrəddin obrazına yeni məzmun, yeni həyat, yeni çalar verməsi onun estetik baxışlarından və demokratik dünyagörüşündən, bir sənətkar kimi qarşısına qoyduğu proqramın mahiyyətindən doğmuşdu. M.N. birincisi, Məmmədquluzadənin 15 illik yaradıcı təbiətinə xas olan gülüş, ikincisi, dünya (əlbəttə, o cümlədən Azərb.) ədəbiyyatındakı satira ənənələri, üçüncüsü, mənsub olduğu xalqın yeni dövrdəki mübariz yenilik meyllə-

B.Mirzəzadə

ri, ictimai varlığa tənqidi münasibəti, dördüncüsü, Azərb. şifahi satira və yumoru, xüsusilə Molla əmi haqqında zəngin rəvayətlər, Molla Nəsrəddin lətifələri əsasında formalaşmışdı.

Bioqrafiyasından məlumdur ki, hələ mollaxana şagirdi ikən sərbəstliyə, oyun və əyləncəyə, şadlıq və gülüşə çox mail olan Cəlil eybəcər ayinlərə, kobud adət və ənənələrə, fanatizm, xurafat səhnələrinə bəzən nəinki, sadəcə, ikrah bəsləmiş, bir çox hallarda özünü saxlaya bilməyib, onlara gülmüşdü də... "Xatiratım"ın bir neçə yerində C.Məmmədquluzadə uşaqların avam, dindar böyüklərə gülməsi barədə yazır. Səfər zamanı yolda səbir gəldiyinə görə geri qayıdan xan məhəllə uşaqlarının məsxərə hədəfi olur, onlar "səbir gəldi, xan qayıtdı!" – deyə gülüşürlər.

Məmmədquluzadənin satirik dühasının qida aldığı başlıca qaynaqlardan biri dünya klassik satirası idi. Nə qədər təəccüblü də olsa, deməliyik ki, keçmişdə həm Şərqdə, həm Qərbdə satiranı, gülüşü həqiqi sənətə layiq olmayan lazımsız bir şey hesab edənlər olmuşdur və ona belə bir ağayana münasibət indi də yox deyildir. Məsələn, Aristotelin "Poetika"sında iddia olunurdu ki, "Gülünc şey – heç kəsə əziyyət verməyən və heç kəs üçün təhlükəli olmayan kiçik bir səhv və eybəcərlikdir".

Dini zehniyyətin, itaətkarlığın və dünyanın vəfasızlığı barədə xurafat və mövhumatın təsiri nəticəsində mömin müsəlmanların da tənqidi gülüşü, acı istehzanı görməyə gözü yox idi. Şərqə aid bədii və elmi-tarixi məxəzlərdə bu barədə dəlillər çoxdur. Tənqidi gülüşə mənfi münasibətə, onun nisbətən geniş inkişaf etdiyi XIX əsrdə daha çox təsadüf edilir. İrtica Şərqin qoca, müdrik Molla Nəsrəddinini də yaddan çıxarmamışdı. 1845 ildə çar senzurası Kazanda Möhsün Salihovun tərtib etdiyi "Lətayifi-Xacə Nəsrəddin əfəndi" kitabının bəzi naturalist yerlərini bəhanə edərək, buraxılmasına icazə verməmişdi.

Burjua mətbuatı həqiqətin əksinə olaraq, XIX əsrdə həyatda və ədəbiyyatda gülüşün guya azaldığını, bu halın Rusiya və Qərb üçün daha səciyyəvi olduğunu yazırdı. İtalyan alimi E.Mantsini belə bir nəticəyə gəlmişdi ki, "... biz, XIX əsrin axırının

adamları, Homer qəhrəmanlarının Troya müharibəsi dövründə güldükləri kimi də gülə bilmirik. Çox çəkməz ki, Avropadan büsbütün gülüş səsləri kəsilər" ("Çernomorski vestnik" qəzeti, 1897, 2 avqust, №171). 1890 ildə Tiflis qəzetlərindən biri yalançılıqda həddini aşmışdı: guya Molla Nəsrəddin "özünü sadəlövhlüyə vurmuş böyük bir xudbin və paxıl idi, onun insanları görməyə gözü yox idi" ("Tiflisski listok", 1890, 19 avqust, №189).

XX əsrdə "Füyuzat" və "Şəlalə" jurnallarının bəzi əməkdaşları mollanəsrəddinçilərin, M.Ə.Sabirin satirasını utanmadan "ləqlaqiyyat" adlandırıb ona dodaq büzürdü ("Müasirləri Sabir haqqında", Bakı, 1962, s. 204). "Açıq söz" qəzeti isə satiranı ciddi şəkildə deyilmiş mətləblərlə əvəz etməyi məsləhət görərək yazırdı: "Nədənsə bizim Qafqaz mühərrirləri həmişə məzhəkənəvislik maili olurlar" ("Açıq söz", 1916, 18 aprel, №162).

Bütün bunlar o deməkdir ki, başqa xalqlar kimi, türk xalqları da yumor və satiranı əsrlərin kəsif zülmətləri içində də yaşadıb inkişaf etdirmişlər, ədəbiyyatda Molla Nəsrəddin, Bəhlul, Cüha, Dəli Şirindən başlamış Dəli Molla Abbas, Kefli İsgəndər, Ağlar-güləyən, Dəli şair, Adın kimi dərdli, müdrik, ağıllı gülüş ustaları yetirmişlər. Bu gülən və güldürən ədəbi surətlərin Bakı, Naxçıvan və Şuşadakı xalq komikləri ilə, gülüb güldürənlərlə qohumluq əlaqəsi satirik Mirzə Cəlilin yetişməsinə böyük təsir göstərmişdi. Bu, ədibin bədii təfəkküründə Molla Nəsrəddin surətinin cücərib ətə-cana dolması üçün çox gözəl əsas idi.

Hələ 1889 ildə "Çay dəstgahı" alleqorik pyesini yazıb qurtarandan sonra əsərinin axırında Mirzə Cəlil tədqiqatçıların diqqətini çox cəlb etməyən belə bir mənzum dördlük qeyd etmişdi:

"Dövlət əgər silsiləcünban şəvəd,
Mur təvanəd ki, Süleyman şəvəd.
Niyyət əgər çaki-giriban zənəd,
Xacə Nəsir lotiyi-meydan şəvəd".

(Tərcüməsi: Əgər bəxt gətirsə, qarışqa qüvvətlənib Süleyman ola bilər. Adamın niyyəti üzə çıxıb görünsə, Xacə Nəsir meydan lotusu olar). Bu, nikbin, cavan bir qələm sahibinin gəlişigözəl qələmə aldığı şeir bəndi deyildi; səciyyəvidir ki, bu şeir həmin səhifədə iki dəfə yazılmışdır. "Xacə Nəsirlə Molla Nəsrəddinin sıx əla-

qəsi var. Düzdür, Nəsrəddinin şəxsiyyəti barədə fikirlər müxtəlif, ziddiyyətli və bir az da dolaşıqdır; amma onların arasında çox qiymətli olanları da var".

M.Təhmasib haqlı olaraq deyir ki, belə "lətifə qəhrəmanları" "çox zaman hər xalqın özünə məxsus olur. Başqa sözlə, bir xalqda çox şöhrət qazanmış belə "lətifə qəhrəmanları" "başqa xalqlarda bəzən hətta tanınmır da" ("Molla Nəsrəddin" lətifələri"nə müqəddəmə. Bakı, 1965, s. III).

P.Usların yazdığına görə, Nəsrəddin xəlifə Harun ər-Rəşidin dövründə yaşamış alim imiş. Hökmdar tərəfindən təqib olunduğundan özünü dəli kimi göstərmiş, sonralar şifahi ədəbiyyatda satirik surət kimi şöhrət tapmışdır ("Сборник сведений о кавказских горцах". Vıp. 1, Tiflis, 1868, s. 42). P.Kuzmiçevski onu Teymurləngin təlxəyi hesab edir ("Турецкие анекдоты в украинской народной словесности". "Киевская старина". T. XIII-XIV, Киев, 1886, s. 209). Akad. V.A.Qordlevski Nəsrəddinin tarixi şəxsiyyət olduğu barədə iddialara şübhə edir və yazır ki, xalqın dərdinə qalan, ağıllı, müdrik Nəsrəddin, eyni zamanda məsxərəçi və sadəlövhdür; bir sözlə, onun varlığı kəskin təzadlarla doludur ("Анекдоты о Ходже Насреддине". Перевод с турецкого В.А.Гордлевского. M., 1959).

"Təlxək" adlandırdığı Nəsrəddini tarixən 14 əsrlə, mənşəcə isə Kiçik Asiya ilə bağlayan akad. A.Y.Krımski də onun Teymurla əlaqəsinə bir qədər şübhə ilə yanaşır ("Тюркские литературы". Машинопись. Ukrayna EA-nın Mərkəzi Elmi Kitabxanasının Əlyazmaları şöbəsi. 1-25298, s. 7-8). "Kavkaz" qəzetində deyildiyi kimi, həm türklər, həm də iranlılar şübhə etmədən Molla Nəsrəddini öz həmvətəni hesab edirlər: "Bizim Qafqaz əyalətlərində onun şəkili, şirvanlı, ya da naxçıvanlı olduğu üstündə təkid edirlər. [..] Zaqafqaziyada 10-15 yerdə Molla Nəsrəddinin qəbri olduğunu söyləyirlər" ("Kavkaz" qəzeti, 1902, 28 mart, №82).

Övliya Çələbi, M.F.Köprülüzadə, Ənvər Behnan, Şapalyo, Tevfiq Çaylaq, Əziz Nesin və b. müəlliflər türk ədəbiyyatının "beynəlmiləl aləmdə tanınmış yeganə siması" hesab etdikləri Nəsrəddini Türkiyə torpağı, türk tarixi və ədəbiyyatı ilə bağlamağa çalışmışlar. Bu istiqamətdə işləyən türk alimləri indi də vardır. M.F.Köprülüzadənin fikrincə, Nəsrəddini Şəyyad Həmzənin müasiri sayan Lameinin (1472-1531) rəvayəti "az-çox qəbul edilə bilər" və bu, "Xocanın Səlcuqilər dövründə yetişdiyini iddia edən mülahizələri"n doğruluğunu təsdiqləyən dəlildir ("Nasreddin Hoca". İstanbul, c. 2, s. 155-161). Nəsrəddinin Anadoludakı Sivrihisarın Harto kəndində 1208 ildə doğulub, 1284 ildə öldüyünü iddia edən bir çox türk müəllifləri onu "tarixi bir şəxsiyyət" kimi qəbul edirlər.

XX əsrin ikinci yarısında Nəsrəddinin tarixi şəxsiyyət olub-olmadığı barədə ən çox yazan alimlər Azərb.-da M.Təhmasib, H.Məmmədbəyli, Ə.Mirəhmədov, Türkiyədə Əziz Nesin və başqalarıdır. Onların tədqiqatındakı mühüm tezislərdən biri folklor Nəsrəddini haqqındadır. M.Təhmasib yazmışdır: "Kim bilir, bəlkə də, Molla Nəsrəddin lətifələrinin əsası (oxu: ilk nümunələri – *red.*) 13 əsrdə Mövlanə Xacə Nəsirəddin Tusi ilə əlaqədar olaraq yaranmışdır. Teymur və teymurilər hakimiyyəti dövründə isə xalq artıq zarafatcıl, eyni zamanda cəsarətli, həqiqəti üzə deməyi bacaran folklor qəhrəmanına çevrilmiş bu surətdən öz düşmənlərini ifşa edən bir rupor kimi istifadə etməyə başlamışdır (Göstərilən müqəddimə). Bu baxımdan Əziz Nesinin bir mülahizəsi də diqqətəlayiqdir: "İctimai şəxsiyyət kimi şöhrət tapmış Nəsrəddin Xoca tarixi Nəsrəddin Xocanın şəxsiyyətindən xeyli dəyərli və üstündür" ("Azərbaycan" jurnalı, Bakı, 1966, №12, s. 151).

"Molla Nəsrəddin"çilər: soldan Əli İsgəndər Cəfərzadə, Cəlil Məmmədquluzadə, Ələddin Əfəndizadə, Sultan Məcid Qənizadə, Ömər Faiq Nemanzadə və Qurbanəli Şərifov.

ملّا نصرالدّین

№34 Qiyməti 12 qəpik. МОЛЛА НАСРЕДДИНЪ Цена 12 k. № 34

Litoq. S.Bıxova

Vay bizim halımıza! Şeyxülislam da qızlarını
"Святая Нина" məktəbinə imtahana gətirib. Evimiz yıxıldı! Din əldən getdi!..



Evlənmək, ya arvad almaq – bir mənadır.
Слово “жениться” в точном переводе означает: купить женщину.

ملّا نصرالدّین

№17 Qiymәti 12 qәpik. МОЛЛА НАСРЕДДИНЪ Цена 12 k. № 17

Litoq. S.Bıxova

– Oradan bir "Həqiqət" qəzetəsi ver.

Qəzet satan: – Biz müsəlman qəzetəsi saxlamırıq. O səbəbə ki, dünya xəlq olunandan indiyədək sən əvvəlinci müsəlmansan ki, müsəlman qəzetəsi istəyirsən.

Təzə qəzetə.

Новая газета.

Bir il sonra.

Через год.

ملای لوده ماجراسی

№ 3. Гијмәти 12 гәпик №3.

Qasım əmi, durma qaç, arvadların genə şıppıldağı qopartdılar.



Müsəlmanlar da deyirlər ki, "surətdə ki, mütəvəlli Mirzə Hüseyni kənar elədilər, məscid hamamında qüsl batil olacaq". Şəhərin cəmi möminləri hamamın qapısına yığışıb müctəhidlərə teleqraf ilə şikayət göndəriblər.



Ermənilər katalikosun İrəvana gəlməyi münasibəti ilə mitinq eləyirlər.

İrəvanda gimnaziyaya gedən müsəlman qızları.

Ağdaşda bir ailə – Gəlinim hansıdır, qızım hansı, arvadım hansı?!

Bir qəzetənin bağlanmağının şadlıq xəbəri.

Naxçıvan məhkəməsində "nürgüd"lü Mir İsanın "tans" etməsi.

Dadaş, deyirlər dünyada elə adamlar var ki, hər gün ət yeyirlər, doğrudur?

Azərb. M.N.-inin səciyyəvi xüsusiyyətləri hansılardır?

Mətbuat və elmi ədəbiyyatda bu suala ətraflı cavab verilmişdir. Qafqaz, Krım, İran və Türkiyə müsəlmanlarındakı xalq yumorundan bəhs edərkən M.N. obrazı üzərində ayrıca dayanan bir müəllif 1896 ildə onun özünü və gülüşünü Makiavelli, Volter, Prudom kimi yazıçılarla müqayisədə qiymətləndirib yazır ki, "Molla Nəsrəddin istədiyi vaxt şən, dərin zəkalı, məlahətli-skeptik adam olur və öyüd-nəsihətin faydasız olduğuna səmimi surətdə inandığından çox vaxt o, vaiz olmaq istəməyən bir seyirçidir" ("Черноморский вестник", 1896, 14 avqust).

Firudin bəy Köçərli "Molla Nəsrəddin" jurnalının nəşrə başlaması münasibətilə yazdığı məqalədə məsələni daha konkret bir şəkildə qoyub, Azərb. M.N.-inin spesifik milli simasını təyin edir: "... Molla xalq müdrikliyinin və hazırcavablığının ifadəçisidir. Onun lətifələri o qədər həyati və məzəlidir ki, bu lətifələrdə o qədər səmimi bir yumor vardır ki, hamı onlarla maraqlanır və azərbaycanlıların arasında həmin lətifələri bilməyən və yeri gələndə bu və ya digər bir lətifəni danışmayan adam çox nadir tapılar" (Seçilmiş əsərləri. B., 1963, s. 117). Mollanəsrəddinçi Hüseyn Minasazov "ölməz Molla Nəsrəddin"in yumorundakı xəlqiliyi, qüvvə və zərifliyi qeyd edəndən sonra, onun lətifələrinə hətta "Bokkaçionun özünün də qibtə edə biləcəyini" yazırdı ("Palliativ". "Kaspi", 1915, 3 iyun, № 108).

Nəsrəddinin şəxsiyyəti və onun adı ilə bağlı olan folklor nümunələrinin dünyada, xüsusən, Qərbi Avropada qazandığı şöhrət M.F.Köprülüzadə, F.Köçərli, Y.V.Çəmənzəminli, H.Araslı və b. müəlliflər tərəfindən çox ətraflı tədqiq və izah olunmuşdur. Rusiya naşirləri M.N.-lə XIX əsrin birinci yarısından maraqlanıb məşğul olmağa başlamışlar. SMOMPK-un 9-cu buraxılışında A.Zaxarovun, 26-cı buraxılışında isə M.Əfəndiyevin tərtib etdiyi lətifələr nəşr olunmuşdur. Seminarist C.Məmmədquluzadənin dərsliklərindən olan "Vətən dili"ndə də Molla əminin lətifələrindən bir neçə nümunə verilmişdir.

Böyük Azərb. satiriki Cəlil Məmmədquluzadəyə cavanlığından M.N. surətini sevdirən və onun bu adı özünə ləqəb götürüb bədii dühasına da vurulmasına səbəb olan amillər müxtəsərcə bunlardır. Ədibin bu məsələdə qətiyyən yanılmadığını zaman təsdiq etmişdir.

"MOLLA NƏSRƏDDİN" – həftəlik, illüstrasiyalı ilk Azərb. satirik jurnalı. Birinci nömrəsi 1906 il aprelin 7-də Tiflisdə "Qeyrət" mətbəəsində çapdan çıxmışdır. 1906-1917 illərdə Tiflisdə, 1921 ildə Təbrizdə, 1922-1931 illərdə Bakıda nəşr olunmuşdur. Red. və naşiri C.Məmmədquluzadə idi. 1910-1911 illərdə bir neçə ay Məmmədəli Sidqi, 1913-1917 illərdə isə Əliqulu Qəmküsar jurnalın ikinci red. olmuşlar. 25 il ərzində 748 nömrəsi (340-ı Tiflisdə, 8-i Təbrizdə, 400-ü Bakıda) çıxmışdır. Jurnal Azərb. ədəbi-ictimai fikrinə ilk dəfə olaraq yeni formalı satirik publisistika, şeir və nəsr janrlarını gətirmişdir. Bütün bu yeni məzmunlu, yeni ədəbi-bədii formalı əsərlərin ilk nümunələrini jurnalın red. C.Məmmədquluzadə özü yaratmışdır. C.Məmmədquluzadənin "M.N." jurnalı ilə yaratdığı ədəbi-bədii mübarizə cəbhəsi o dövrün Ömər Faiq, M.Ə.Sabir, M.S.Ordubadi, Ə.Haqverdiyev, Ə.Nəzmi, Ə.Razi və digər onlarca söz sənətkarını öz ətrafında birləşdirmiş, "mollanəsrəddinçilər ədəbi məktəbi" deyilən bir mübarizə cəbhəsini yaratmışdır. "M.N." jurnalında O.Şmerlinq, A.Rotter, Ə.Əzimzadə və digər rəssamlar iştirak etmiş, Azərb.-da satirik qrafikanın əsasını qoymuşlar. "M.N." XX əsrin əvvəllərində Azərb. xalqının milli azadlıq ideallarının müdafiəsinə qalxmış, cəmiyyətdə hökm sürən sosial ədalətsizliklərə, dini-fanatizmə və vaxtı keçmiş adət-ənənələrə qarşı amansız mübarizə aparmış, siyasi-ictimai fikrin inkişafında misilsiz rol oynamışdır. "M.N." jurnalında Azərb. cəmiyyətinin hər cür zümrələrindən olan adamların tənqidinə rast gəlmək olar. Jurnalın cəmiyyətin sinifləri arasındakı sosial fərqlərə qarşı mübarizəsi daha kəskin olmuşdur. Məhz belə sinfi baxışların nəticəsidir ki, onun səhifələrində XX əsrin əvvəllərinin bir sıra hakim və burjua ziyalı təbəqələrinə məxsus adamların ayrı-ayrı nöqsanlarının ifrat tənqidi öz əksini tapmışdır.

"M.N." XX əsrin əvvəllərində Azərb. ədəbi-ictimai fikri tarixinə təkcə dövrün müasir kəskin sosial problemlərini əks etdirməklə daxil olmamışdır. O, eyni zamanda özünü dövrün ədəbi estetik tələblərinə cavab verən bədii janrlar və forma-

larla zənginləşdirmişdir. "M.N." bütün ədəbi hərəkata bir müasirlik, fəallıq və mübarizlik gətirmişdir. "M.N."in təsiri altında 1906-1920 illərdə "Bəhlul", "Zənbur", "Mirat", "Kəlniyət", "Tuti", "Məzəli", "Şeypur" və b. satira jurnalları çıxmış, Azərb.-dan kənarda – İran, Orta Asiya, Volqaboyu ölkələrində satirik publisistika məktəbləri yaranmışdır.

"M.N." Sovet hakimiyyəti illərində yeni quruluşun siyasi səciyyəsindən irəli gələn bir sıra məhdud cəhətlərə malik olsa da, onun həmin dövrdəki fəaliyyətinin də Azərb.-da ictimai-mədəni şüurun formalaşmasında mühüm maarifçilik rolu olmuşdur. Bu dövrdə "M.N."də M.S.Ordubadi, Ə.Nəzmi, Ə.Razi, C.Cabbarlı, Ə.Müznib, Ə.Vahid kimi şair və yazıçılar, Ə.Əzimzadə, Q.Xalıqov, İ.Axundov kimi rəssamlar iştirak etmişlər. Sovet hakimiyyəti illərində "M.N." ənənələrilə "Əqrəb", "Tikan", "Damğa", "İdarəmizin güzgüsü" kimi satira jurnalları çıxmışdır. Sonrakı illərdə və müasir dövrdə bu ənənələr "Kirpi" və digər jurnallarda davam etdirilməkdədir. Mollanəsrəddinçilərin böyük istedadla yaratdıqları, yüksək xəlqilik nümunəsi olan poetik, publisist və qrafika əsərləri bu gün belə satirik sənətkarlar üçün yaradıcılıq məktəbidir.

"MOLLA NƏSRƏDDİN" – Azərb. Televiziyasında ayda bir dəfə göstərilən satirik və yumoristik telejurnal. Mətnlər resp.-nın şəhər və kəndlərindən alınan məktublar, xəbərlər əsasında yaranır. Azərb. ictimai həyatını, məişətini və müxtəlif zümrələri əhatə edən jurnalın mövzu dairəsi geniş, maraqlıdır. Başlanğıcında Cəlil Məmmədquluzadənin satirik və yumoristik gülüş barədə dərin mənalı sözləri yad edilir. Qoca Molla əmi eşşək üstə şəhər və kəndləri, el-obanı, idarə və müəssisələri gəzir, öz tənqidi sözləri ilə xalqı ayıltmağa çalışır, yaramazlıqlarla mübarizəyə çağırır.

"MOLLA NƏSRƏDDİN" AEROPLANI – Azərb.-da Sovet hakimiyyətinin ilk illərində savadsızlığı ləğv etmək kampaniyası həyata keçirilərkən nəzərdə tutulan tədbirlərdən biri də mətbuatın rayonlara təyyarə ilə vaxtında çatdırılması məsələsi olmuşdur. "Molla Nəsrəddin" jurnalı məsləkinə uyğun gələn həmin maarifçi tədbiri yüksək qiymətləndirmiş və müdafiə etmişdir. Bu məqsədlə jurnalda dərc olunmuş "Molla Nəsrəddin" aeroplanı" adlı məqalədə (1923, 14 iyul, №28) mətbuatın "gündəlik poçt ilə" deyil, xüsusi təyyarələrlə hər gündə bir neçə dəfə mahallara daşınması, qəzet karvanının yerlərə "bir dəfə səhər, ... bir dəfə günorta, ... bir dəfə də axşam daxil" olması təqdir olunmuşdur. Jurnalın baş red. C.Məmmədquluzadə də "M.N."-i. təsis etmək üçün hökumət dairələrindən razılıq almış və bundan sonra jurnalda elan xarakterli yazı dərc etmişdir. Ədib öz oxucularına bəyan etmişdir ki, maariflənməyə elliklə can atan xalqın böyük ehtiyaclarını ödəmək üçün bu işin "öhdəsindən bircə aeroplan gələr ki, jurnalımızı götürsün göyə və Azərbaycan kəndlərinə yarpaq kimi səpələsin və kəndlilər də bir-birini basa-basa qapış-qapış edib oxusunlar".

"Molla Nəsrəddin" jurnalının təşəbbüsü digər mətbuat orqanları tərəfindən də müdafiə və təbliğ olunmuşdu. Təşəbbüs geniş əks-səda doğurmuş, ziyalıların və geniş xalq kütləsinin iştirakı ilə toplanan vəsait hesabına "Molla Nəsrəddin" jurnalı üçün 1924 ildə xüsusi təyyarə alınaraq Bakıya gətirilmişdi. Lakin bu aeroplandan jurnalın yerlərə daşınmasından çox, başqa məqsədlər üçün istifadə olunurdu. Sonralar aeroplan "Qafqaziya ordusunun təyyarə dəstəsinə" verildi.

"MOLLA NƏSRƏDDİN" SALNAMƏSİ – C.Məmmədquluzadənin həyat və yaradıcılığı barədə salnamə. 1966 və 1984 illərdə çapdan çıxmış bu salnamə C.Məmmədquluzadənin həyatı, fəaliyyəti, onun red.-luğu ilə nəşr olunmuş "Molla Nəsrəddin" jurnalının yaranması, ictimai fikir, ədəbiyyat, mətbuat tarixində rolu, əsas müəllifləri, çoxsaylı müxbirləri, dünyada əks-səda doğurması və s. məsələlər, faktlar barədə zəngin təsəvvür verir. Qocaman jurnalist və tədqiqatçı Qulam Məmmədlinin 15 illik gərgin axtarışlardan sonra hazırlanan salnamənin hər iki nəşrinin red. və giriş məqaləsinin müəllifi Azərb. EA ın. üzvü Əziz Mirəhmədovdur. Salnamənin məzmunu və məxəzləri (200-ə qədər qəzet-jurnal) haqqında məlumat verən tərtibçi müqəddimədə haqlı olaraq yazır ki, C.Məmmədquluzadənin fəaliyyəti və "Molla Nəsrəddin" jurnalı Azərb. tarixinin ən parlaq səhifələrindən birini təşkil edir. Ədibin şüurlu həyatının, demək olar, hər günü, hər

Moskva – Rusiya Federasiyasının paytaxtı.

ili yeni dövr milli mədəniyyətimizin əlamətdar hadisələri ilə bağlıdır. Salnamədə C.Məmmədquluzadə və "Molla Nəsrəddin"ə dair zəngin elmi, ədəbi, bioqrafik, mətbuat materiallarından, arxiv sənədlərindən, Həmidə xanım Məmmədquluzadənin "Mirzə Cəlil haqqında xatirələrim" kitabından istifadə olunmuşdur. Salnamədə ədibin mühiti, nəsli, övladları, səfərləri, görkəmli şəxsiyyətlərlə görüşləri, məktublaşması haqqında zəngin faktoqrafik məlumatlar vardır.

"MOLLA FƏZLƏLİ" – M.-nin yazdığı hekayə. 1925 ildə dərc olunmuşdur. Ədib bu hekayədə Arazı keçib İrandan Azərb.-na gəlmiş din "xadim"inin tipik obrazını yaratmışdır. Axund Molla Nəsrəddinə özü qonaq gələn, siğə kəsdirib evlənməyincə ev sahibinə rahatlıq verməyən, evlənəndən sonra da hər gecə qurduğu hamam dəstgahı ilə onu boğaza yığan Molla Fəzləli – cəhalətin, həyasızlığın və şəriət pərdəsi altında təbliğ olunan eybəcərliklərin rəmzidir.

Molyer

MONOLOQ – bədii əsərdə bir qəhrəmanın öz müsahibinə, səhnədəki (və ya ekrandakı) digər obrazlara, yaxud öz-özünə müraciətlə söylədiyi nitq. Dramatik əsərdə M. bəzən surətin tamaşaçılara müraciəti şəklində də olur. M. ədəbiyyatda və teatrda geniş yer tutur, personajın daxili aləminin açılmasına kömək edir, onun mürəkkəbliyini aşkara çıxarır. C.Məmmədquluzadənin "Ölülər" pyesinin baş qəhrəmanı İsgəndərin M.-u aşkar inqilabi ruhda səslənən sözlərdən ibarətdir. İsgəndərə qalsa, köhnə dünyanı dağıdar, lakin, heyf ki, "Ölülər" mühiti hələlik onun belə bir iş görməsi üçün münasib deyildir.

İsgəndərin M.-undakı "bu qollarda Rüstəm pəhləvan kimi qüvvətim olsaydı" sözləri dramaturqun təkcə Rüstəm kimi güclü qəhrəman deyil, həm də güclü "camaat" həsrətində olduğunu bildirməkdədir. İsgəndərin son pərdədəki dərin mənalı M.-u əsərə bir növ yekun vurur və finalını təşkil edir.

MOSKVA – Rusiya Federasiyasının paytaxtı, ölkənin ən böyük siyasi, sənaye, elm və mədəniyyət mərkəzi. Rusiyanın Avropa hissəsinin mərkəzində yerləşir. 1894 ildə "Avropa Rusiyasının müxtəlif yerlərinə getmək üçün iyunun 10-dan avqustun 25-dək" işlədiyi Nehrəm məktəbindən məzuniyyət götürən C.Məmmədquluzadə Peterburq və M.-da olmuş, şəhərin maarifi və mədəni həyatı, mətbuatı ilə maraqlanmışdır. O, M.-ya ikinci dəfə 1925 ilin oktyabrında, Yeni Əlifba Komitəsinin üzvü kimi latın əlifbasının təbliği məqsədilə Volqaboyunun və Mərkəzi Asiyanın türkdilli resp.-larına səfəri zamanı getmişdi. C.Məmmədquluzadənin Naxçıvanda, İrəvanda, Tiflisdə və Bakıda birlikdə çalışdığı əqidə dostları və milli ziyalılar arasında M. mühitinin bir çox yetirmələri vardı. "Molla Nəsrəddin" jurnalında ölkənin bir sıra digər yerləri kimi M.-dan da satirik mahiyyətli, rejimin və ictimai münasibətlərin ifşasına yönəlmiş yazılar, qısa xəbərlər dərc edilirdi. C.Məmmədquluzadənin əsərləri müxtəlif vaxtlarda (1940, 1964, 1974 və s.) M.-da rus dilində, habelə xarici dillərə tərcümədə çap olunmuş, 100 illik yubileyi ilə bağlı bu şəhərdə tədbirlər keçirilmişdir.

MOLYER (Jan Batist Poklenin təxəllüsü) (1622-1673) – fransız dramaturqu, aktyor, teatr xadimi. Fransız xalq teatrı və klassizm ənənələri ruhunda yeni komediya janrının banisi. 1643 ildə "Parlaq teatr" truppasını təşkil etmiş, onun üçün xalq farsları səpkisində komediyalar yazmışdır. "Gülünc işbazlar", "Tartüf", "Məcburi nikah", "Don Juan", "Zorən təbib", "Meşşan dvoryanlıqda", "Xəsis" və s. komediyalarında xalq müdrikliyi təcəssüm edilir, zadəganların riyakarlığı, saxta xeyirxahlığı satira atəşinə tutulur. M. realist dramatur-

giyanın və teatr sənətinin inkişafında mühüm rol oynamış, Azərb. dramaturgiyasına, o cümlədən C.Məmmədquluzadənin yaradıcılığına böyük təsir göstərmişdir.

MÖCÜZ Mirzəli Hacağa oğlu (1873-1934) – Cənubi Azərb. şairi. Mollaxanada oxumuş, 16 yaşından İstanbulda ticarət edən qardaşlarının yanında yaşamış, kitab satmaqla məşğul olmuş, ilk şeirlərini də burada yazmışdır. 1905 ildə vətənə qayıtmışdır. M.-ün yaradıcılığına realist-demokratik "Molla Nəsrəddin" ədəbi məktəbinin, xüsusilə M.Ə.Sabirin böyük təsiri olmuşdur. Şah üsuli-idarəsinin, istibdadın, zülm və istismarın, cəhalət və mövhumatın, qadın hüquqsuzluğunun tənqidi, maarif və mədəniyyətə çağırış M. yaradıcılığının əsas mövzularıdır. M.-ün "Molla Nəsrəddin"də şeirləri "Təzə şair", "Kabla Haqverdi" kimi gizli imzalarla dərc olunmuşdu.

MÖVLƏVİ Səməd Məmməd oğlu (1900-1962) – aktyor. Azərb. xalq art. (1960). Səhnəyə H.Ərəblinski tərəfindən cəlb edilmişdir. Təbrizdə "Rüşdiyyə" məktəbində oxumuş, burada ilk dəfə səhnəyə çıxmışdır. 1920 ildə C.Məmmədquluzadənin Təbrizə köçməsi və orada "Molla Nəsrəddin" jurnalının nəşrinə başlaması, tərəqqipərvər adamları, o cümlədən gənc artistləri bu jurnalın ətrafına toplayır. 1921 ildə müəllifin rej.-luğu ilə "Ölülər" pyesi Təbrizdə tamaşaya qoyulur. Şeyx Nəsrullah rolunu M. ifa edir. Həmin il M. Naxçıvana köçür və Naxçıvan Dram Teatrında (sonralar Naxçıvan Dövlət Musiqili Dram Teatrı) aktyor və quruluşçu rej. kimi çalışır (1924-1926 illərdə İrəvan və Tiflis Azərb. teatrlarında işləmişdir). Yaratdığı silsilə rollar arasında Naxçıvan səhnəsində oynadığı Şeyx Nəsrullah obrazı onun ən müvəffəqiyyətli işlərindən sayılır.

MURADXANOV Mərdan Əsədulla oğlu (1909-1979) – pedaqoq-alim. Prof. (1961). Azərb. əməkdar elm xadimi (1973). Bakı Pedaqoji Texnikumunu (1927), APİ-nin pedaqogika fakültəsini (1932) bitirmişdir. Azərb. Elmi Tədqiqat Pedaqogika İn-tunda elmi işlər üzrə direktor müavini (1946-1952), APİ-də pedaqogika (1952-1958) və ibtidai təhsil nəzəriyyəsi və metodikası (1960-1979) kafedralarının müdiri işləmişdir. Azərb. və dünya pedaqoji fikir tarixinin tədqiqi, ailə tərbiyəsi məsələləri, didaktikanın aktual problemləri və s. M.-un elmi tədqiqat dairəsinə daxil olan başlıca problemlərdir. M. Azərb.-da çap olunan "Pedaqogika" (1958-1959, 1964) dərsliklərinin, Moskvada nəşr edilən ikicildlik "Pedaqoji lüğət"in və dördcildlik "Pedaqoji ensiklopediya"nın müəlliflərindəndir.

M. ilk dəfə olaraq Mirzə Cəlilin "Danabaş kəndinin məktəbi" əsərinin dərin pedaqoji təhlilini vermişdir ("Azərb. məktəbi" jurnalı, 1966, №12). M. müəllim Həsənov surətini "xalqdan çox uzaq, əhali ilə dil tapmağı bacarmayan bir şəxs kimi" səciyyələndirərək yazır: "Cəlil Məmmədquluzadə çar dövləti tərəfindən açılmış məktəbdə uşaqlara "çəyirtgənin qulağının dizlərində olması" və ya "qarpızın içinin arşınla ölçülməsi" haqqında həyatdan uzaq biliklər verildiyini göstərməklə, bu məktəblərin həyatdan necə ayrı düşdüyünü, müəllimin isə kəndlilərin həyatına və ehtiyacına necə nabələd olmasını göstərib tənqid edir". M. yazır: "O (C.Məmmədquluzadə – *red.*), məktəbin inzibati yolla, xalqın başı üstündən açılmasını qəbul etmir, məktəbin xalq tərəfindən açılmasını, xalqa yaxın olmasını, müəllimin isə xalqa qaynayıb-qarışmasını, xalqın ehtiyacı ilə yaşayıb, uşaqlara da xəlqilik ruhunda təlim-tərbiyə verməsini arzu edirdi".

M.Möcüz

Tədqiqatçı belə bir nəticəyə gəlir ki, "Danabaş kəndinin məktəbi" kəskin ictimai və pedaqoji məzmun daşıyır və çar hökuməti dairələrinin məktəblərin təşkilinə, onun həyatdan uzaq müəllimlərinə və rəsmiyyətçi, formalist dərslərinə qarşı müəllifin necə kəskin tənqidi münasibət bəslədiyini göstərmək üçün zəngin material verir".

S.Mövləvi

MURADHASİLOV Heydərqulu bəy (1865-1940) – Cəlil Məmmədquluzadənin seminariya yoldaşı və müasiri. Naxçıvanda şəhər məktəbini bitirmişdir. XIX əsrin 80-ci illərində C.Məmmədquluzadə ilə birlikdə Qori müəllimlər seminariyasında oxumuş, 1887 ildə Qubaya təyinat alaraq uzun müddət orada pedaqoji sahədə çalışmışdır. Sonralar Naxçıvanda yaşamış və müəllimlik etmişdir. C.Məmmədquluzadənin təşviqi ilə XIX əsrin 90-cı illərində Naxçıvandakı teatr hərəkatına qoşulmuşdur.

H.Muradhasilov

MUSAYEV İsa Həsən oğlu (1912-1976) – aktyor. Azərb. xalq art. (1960). Bakı Teatr Texnikumunda oxumuşdur

(1927-1929). Səhnə fəaliyyətinə 1929 ildən Naxçıvan Musiqili Dram Teatrında başlamışdır. "Ölülər" komediyasında Kefli İsgəndər rolunu oynamışdır. Onun ifasında İsgəndər realist və romantik cizgiləri vəhdətdə yaşadan bədii obraz kimi canlandırılmışdır.

MUSAYEV Xəlil İsrafil oğlu (1890-1949) – boyakar, karikaturaçı, mənzərə rəssamı. Milliyyətcə avardır. Tiflis Qafqaz İncəsənəti Təşviq Cəmiyyətinin nəzdindəki Boyakarlıq və Heykəltəraşlıq Məktəbində, Münhen Rəssamlıq Akademiyasında oxumuşdur. 1912 ildən Tiflisdə "Molla Nəsrəddin" ("Molla Nəsrəddin"in dostları və düşmənləri", "Bizim əyləncəmiz", "Şamaxıda məktəb barəsində şura", "Qoymaram oğlumu məktəbə aparasan" və s.), Bakıda "Kəlniyət", Dağıstanda "Tenq çolpan" ("Dan ulduzu") satirik jurnalları ilə əməkdaşlıq etmiş, karikatura və satirik rəsmlər çəkmişdir. Boyakarlıq əsərlərində portret, məişət səhnələri və mənzərələr mühüm yer tutur. 1916 ildən xaricə mühacirət etmişdir.

MUSİQİ, C.Məmmədquluzadənin həyatında və sənətində musiqi – qədim Naxçıvan torpağında doğulub böyüyən Cəlilin hələ uşaqlıqdan el bayramları, xalq şənlikləri, xalq M.-si haqqında zəngin məlumatı vardı. Qori seminariyasında oxuyarkən M. dərsləri, skripkada çalmaq da Cəlilin xoşuna gəlmişdi. O, imtahanları uğurla vermiş, seminariyanın musiqili buraxılış gecəsindən böyük zövq almışdı. Müasirləri onun sonralar, yaşa dolanda da skripka və kamança çalmağı xoşladığını xatırlayırdılar. Bakı, Tiflis, Peterburq və Moskvada olarkən Mirzə Cəlil klassik M. konsertlərinə gedərdi. "Molla Nəsrəddin" jurnalındakı yazılarında bu M. haqqında, klassik bəstəkarlar V.Motsart, L.Bethoven, E.Qriq, P.İ.Çaykovski sənətinin fövqəladə zənginliyi və gözəlliyi barədə fikirlər var.

"Molla Nəsrəddin"in mətnləri və rəsmləri xalqın mənəvi aləmində böyük yenilik, canlanmanın əmələ gəlməsinə təkan vermişdi. Həm də jurnal təkcə satirik janrlarda ədəbi əsər yazmağa deyil, eyni zamanda M. melodiya yaratmağa kömək edirdi; tənqidi təfəkkür və hisslərdən əlavə, melodiyaların yaranması üçün əsas verirdi.

Mirzə Cəlil "Elmi-musiqi" kimi satirik yazılarında bədii-publisist sözlə komik, gülməli M. sədalarını birləşdirməklə, yazıçılıq məharətini göstərmişdi. Bu məsələdə o, yaxşı tanıdığı Volter, Ş.Monteskyö, D.Didro sənətindən öyrənməkdə idi.

Həmidə xanım xatiratında yazır ki, Mirzə Cəlil qoca vaxtında da hərdən kamançanı dolabdan çıxarıb həzin havalar çalardı.

MUSTAFAYEV Əliməmməd Əbdüləli oğlu (1883-1968) – maarif xadimi, yazıçı, publisist. Azərb. əməkdar müəllimi (1958). İlk təhsilini Şamaxıda almış, ikiillik müəllimlik kursunu, sovet hakimiyyəti illərində ADU-nun şərqşünaslıq fakültəsini bitirmişdir. 1906-cı ildə Bakıda pedaqoji fəaliyyətə başlamış, "Rus-müsəlman" məktəblərində (1906-1920) işləmişdir. Sovet hakimiyyətinin ilk illərində Azərbaycan Xalq Maarif Komissarlığında, Bakı Xalq Maarif Şöbəsində inspektor, Nərimanov texnikumunda, ADU-da müəllim işləmişdir.

M. mollanəsrəddinçilərin ideya dostu idi. O, 1908-1920 illərdə "Səfeh şamaxılı", "Mirzə Fışdılıq" imzaları ilə "Molla Nəsrəddin" jurnalında "Tufan quyusu", "Orucluqda mollaların vəzi", "Muştuluq", "Xaçın kəraməti", "Möhlət", "Şamaxılılar çətin vəzifə qarşısında" və s. əsərlərini çap etdirmişdir. C.Məmmədquluzadə M.-in "Yədi-beyza" kitabını oxuyub, onu çap edən "Ümid" nəşriyyatını jurnalda təbrik etmişdir.

MÜƏLLİMLƏR QURULTAYLARI – xalq maarifi işçilərinin və müəllimlərin ümumi məclisi. Qafqaz müsəlman müəllimlərinin I qurultayı 1906 il avqustun 15-də, II qurultayı 1907 il avqustun 25-də Bakıda keçirilmişdir. 40 nəfər müəllimin iştirak etdiyi I qurultay H.Zərdabinin və N.Nərimanovun sədrliyi ilə işə başlamışdır. F.Ağazadə qurultayın katibi seçilmişdi.

Q. gündəliyində mövcud proqramları nəzərdən keçirib, dövrün tələblərinə müvafiq yenilərini tərtib etmək, onların əsasında müasir mündəricəli dərsliklər yaratmaq, oxumaq və yazmaq üsulunu asanlaşdırmaq, seminariyada ana dilinin tədrisini yaxşılaşdırmaq, kənd müəllimlərinin məişət və güzəranını müzakirə etmək və s. məsələlər dururdu.

Bu məsələlərin həlli yolları ətrafında müzakirələrdə H.Zərdabi ilə N.Nəri-

manov arasında fikir ixtilafı yarandığından qurultay konkret qərar qəbul edə bilmədi.

Müəllimlərin II qurultayı – "Nicat" maarif cəmiyyətinin təşəbbüsü ilə çağırılmış, 1907 il avqustun 25-də işə başlamış və 10 gün davam etmişdi. Qurultayı Həsən bəy Ağayev açmışdır. Əli bəy Hüseynzadə sədr, Mahmud bəy Mahmudbəyov və Süleyman bəy Axundov sədrin müavinləri, Üzeyir bəy Hacıbəyov, Mirzə Abdulla Talıbzadə və Fərhad Ağazadə katib seçilmişdilər. Qurultay milli maarifin inkişafı ilə əlaqədar zəruri problemləri müzakirə etmiş, yeni proqramlar və onların əsasında hazırlanmış dərsliklərə baxmaq üçün M.Mahmudbəyov, S.S.Axundov, Ə.İ.Cəfərzadə, A.Qasımov, Ü.Hacıbəyov və Akif Əfəndidən ibarət komissiya yaratmışdı. Qurultayın qərarı ilə hazırlanmış "İkinci il" adlı dərslik Məmmədquluzadənin "Qeyrət" mətbəəsində çap edildi. M.Ə.Sabirin qurultaya həsr edilən "Müəllimlər siyezdi" şeiri "Molla Nəsrəddin" jurnalında dərc olunmuşdu.

MÜZƏFFƏRƏDDİN ŞAH (1853-1907) – İran şahı (1896-1907), Nəsrəddin şahın oğlu. Qacar sülaləsindəndir. 1862-1896 illərdə Azərb. valisi, taxt-tacın varisi olmuş və Təbrizdə yaşamışdır. M.ş.-ın hakimiyyət illəri bütün İranda sosial-siyasi zəmində narazılıqlar, həyəcanlar, kütləvi etiraz və çıxışlar, nəhayət, 1905 ilin sonlarından Məşrutə inqilabının başlanması və genişlənməsi dövrü olmuşdur. Xalq kütləsinin təzyiqi ilə M.ş. 1906 il avqustun 5-də Əsas Qanunun elan edilməsi haqqında fərmana, sentyabrın 9-da Məclisə seçkilərə dair əsasnaməyə qol çəkməyə məcbur olmuş, dekabrın 30-da isə Məclisin qəbul etdiyi Əsas Qanunun birinci hissəsinin layihəsini təsdiq etmişdi. M. "Həmşəri" felyetonunda iranlı fəhlələrin onların Müzəffəreddin şahın təziyəsində məscidə buraxılmamaları haqqında məktubundan danışır.

MÜZNİB ƏLABBAS (Əlabbas Mütəllib oğlu Əhmədovun təxəllüsü, 1882-1938) – şair, naşir, publisist, tərcüməçi, ədəbiyyatşünas. Ədəbiyyata romantik şeirlərlə gəlmişdir. "Zənbur" (1909-1910), "Hilal" (1910-1911), "Şəhabi-saqib" (1911), "Dirilik" (1914-1916), "Övraqi-nəfisə" (1919) kimi mətbuat orqanlarının naşiri və red. olmuşdur.

Müzəffərəddin şah və Hacı Zeynalabdin Tağıyev.

Ə.Müznib əsərlərinin köhnə üslubu, ağır, anlaşılmaz dili, qeyri-təbii ifadə tərzi sənətdə millilik və xəlqilik uğrunda mübarizə aparan mollanəsrəddinçiləri razı salmamışdı.

C.Məmmədquluzadə şair-publisistin "Həqiqət" qəzetində dərc olunmuş "Kabusi-əzim" məqaləsini ona görə tənqid edirdi ki, orada xalqın fayda götürə biləcəyi əhəmiyyətli bir mətləb yox idi. Məqalənin ağır dilini, mücərrəd məzmununu rişxənd hədəfinə çevirərək yazırdı: "Vətən övladına tövsiyə edərik ki, türk ədəbiyyatına ən parlaq nümunə olan bu açıq və fəsih yazıları əzbərləsinlər ki, tezdən ədib olmaq yolunu öyrənələr" ("Molla Nəsrəddin" jurnalı, 1910, №5).

Əlabbas Müznib

C.Məmmədquluzadə Ə.Müznibin "kifsimiş ibarələr"dən tərtib olunmuş "qeyri-təbii yazıları"nı tənqid edərək ona üslubunu yeniləşdirməyi, xalqda ədəbiyyata, mətbuata rəğbət yaradan əsərlər

yazmağı tövsiyə edirdi. "Sizin bu kifsimiş ibarələriniz, ürək bulandıran bu qeyri-təbii yazılarınız da münhəl və məqbul olacaq... Lakin burasını bilə bilmirik ki, "Həqiqət" ibarəsi yazı qıtlığınamı düşdü ki, bu cür qoxumuş yazıları camaatın burnuna soxub onları qəzetdən ikrah etdirir" (Yenə orada). M. Sovet hakimiyyəti illərində mətbuat orqanlarında və mədəni-maarif idarələrində məsul vəzifələrdə çalışmışdır.

MÜLKÜM XAN, Mirzə Mülküm (Melkum) xan Nizam üd-dövlə (1833/1834-1908) – İran maarifçisi, publisist, diplomat. Müsəlmanlığı qəbul etmiş erməni. Paris və Tehranda təhsil almış, yaratdığı "Fəramuşxana" cəmiyyətində islahat ideyalarını təbliğ etmişdir. Məsul diplomatik vəzifələrdə işləmiş, 1890-1893 illərdə Londonda İran ictimai fikrinin inkişafında mühüm rol oynayan "Qanun" qəzetini buraxmışdır. Siyasi, ədəbi-tənqidi məqalə və risalələrində İranda konstitusiyalı monarxiya yaradılması, iqtisadi və mədəni geriliyi aradan qaldırmaq üçün islahatlar keçirilməsi tələblərini irəli sürmüşdür. İstanbul və Tbilisidə dəfələrlə Mirzə Fətəli Axundovla görüşmüş, onu özünə müəllim saymış və dostluq etmişdir.

C.Məmmədquluzadə M.x.-ın ideyaları ilə bilavasitə onun kitabları və "Qanun" qəzeti vasitəsilə tanış olmuşdu. 1907 ildə "Qeyrət" mətbəəsi M.x.-ın "Məbdəi-tərəqqi", "Şeyx və vəzir" əsərlərini nəşr etmişdi. M. "Həmşəri", "Göz yaşları", "Bizim işlərimiz", "Keçi" və s. felyetonlarında M.x.-a, "Qanun" qəzetinə müraciət etmişdir.

T.Mütəllimov

"MÜSƏLMAN" ("Мусульманин") – 1911 ildə Parisdə rusca nəşr olunan jurnal. "Molla Nəsrəddin" həmin il mart ayında çıxmış beşinci sayındakı "Malmez uyezdində, Urba volostunda, Tontar aulunda imam, xətib və müdərris İşməməd" haqqında dərc olunmuş karikaturanın yerli-yerində və məharətlə rəsm edildiyi göstərilir.

"MÜŞTÜM" – özbək satirik jurnalı. Azərb. ədəbiyyatı və mətbuatına dair maraqlı yazılarla çıxış etmişdir. Onlardan biri "M."ün 5 iyul 1924 tarixli 23-cü sayındadır. "Molla Nəsrəddin"ə hədiyyə" adlı, "yarımciddi" qeydilə çap olunmuş bu məqalədə deyilir: "Molla Nəsrəddin" jurnalını hamı, hamı tanıyır və ona hər kişi ehtiram edir". Yazıda S.Mümtazın "Molla Nəsrəddin" əleyhinə çıxışları tənqid olunmuşdur; çünki S.Mümtaz "xidmətləri insaflı və insafsızlar tərəfindən təqdir edilən "Molla Nəsrəddin" jurnalına və onun müdirinə yumruq göstərmişdir. Azərbaycan şairi Sabir üçün öz vaxtında acınan və birinci kömək göstərən "Molla Nəsrəddin"ə [...] hücum edir. Bu hücumlar keçmişdə də üləma və müctəhidlər tərəfindən "Molla Nəsrəddin"ə edilən hücumlardan biridir.

Qəhrəman "Molla Nəsrəddin" yenə də olduğu kimi qalacaqdır.

Molla Nəsrəddin! Sən İrandan Şərqi Türküstana qədər, Azərbaycandan Tatarıstana, Başqırdıstan, Qırğızıstandan Beynəlnəhreynə qədər, hətta Krımdan Dağıstana qədər öz əlini uzatdın və qafil müsəlmanları yuxudan oyatdın.
Sənin qədrini bilməyənlər bilməsinlər.
Biz sənin qədrdanınıq.
Dostlarından biri".

Mirzə Cəlil az sonra S.Ağamalıoğlu ilə birlikdə Orta Asiyada olanda da özbəklərdən ehtiram görmüşdü.

MÜTƏLLİMOV Təhsin Mütəllim oğlu (d. 1932) – ədəbiyyatşünas, tənqidçi. Filol. e.d. (1975), prof. (1985). Azərb. Dövlət mükafatı laureatı (1990). ADU-nun filol. fakültəsini bitirmişdir (1956). Ədəbiyyat nəzəriyyəsinə, XX əsr Azərb. ədəbiyyatına, müasir ədəbiyyata, poetikaya və sənətkarlıq məsələlərinə dair tədqiqatları var. Ədəbi tənqid sahəsində də səmərəli fəaliyyət göstərir. "Kədərli gülüş" (1967), "C.Məmmədquluzadənin nəsrində inikas üsulları" (1985), "C.Məmmədquluzadənin təhkiyə üslubu" (1986) və s. məqalələrində C.Məmmədquluzadə yaradıcılığının mövzu, ideya, janr, üslub özünəməxsusluğu və orijinallığından bəhs olunur.

NAXÇIVAN – Azərb.-da şəhər, Naxçıvan MR-nın paytaxtı. Naxçıvan düzündə, Naxçıvan çayı sahilində, Bakıdan 536 km aralıdadır.

M. əyalət mərkəzi olan N.-da, Məmmədqulu Məşədi Hüseynqulu oğlunun ailəsində dünyaya gəlmişdir (1869). N.-ın özünəməxsus həyat tərzi və ənənələri M.-nin dünyagörüşünün formalaşmasında mühüm rol oynamışdır. M. 1875-1882 illərdə N.-da mollaxanada və şəhər məktəbində təhsil almış, 1882 ildə Qori seminariyasına oxumağa getmişdir. M. Nehrəm kəndində müəllimlik etdiyi illərdə, 1893 ilin noyabrında N. şəhərində çağırılmış "İrəvan quberniyası xalq müəllimlərinin sahə qurultayı"nda iştirak və çıxış etmişdir. 1899 ilin mayında İrəvandan N.-a köçən M. 1901 ilin martınadək burada polis pristavı köməkçisi vəzifəsində işləmişdir. Bu dövrdə o, N. sakini Şəfi ağa Sultanın qızı Nazlı xanım Kəngərli ilə ailə qurmuşdu. 1901 ildə M. bir sıra ailə və məişət problemləri ilə əlaqədar qulluğunu tərk edərək yenidən İrəvana köçmüşdür.

N.-da yaşadığı dövrdə M. şəhərin ədəbi mühitində fəal iştirak edirdi. M.-nin və digər maarifpərvər xadimlərin səyi ilə N.-da, həmçinin Ordubad, Nehrəm, Norabşen və s. yerlərdə yeni üsulda dünyəvi təhsil verən məktəblər açılmışdı. N.-da ədəbi məclislər keçirilirdi. M. burada teatr yaradılmasının əsas təşəbbüskarlarından olmuşdur. M. və dostları böyük çətinlikləri dəf edərək teatr tamaşaları göstərirdilər. M. bir çox tamaşaların təşkilatçısı, rej. və aktyoru idi. 1917 ildə "Ölülər" tamaşasından sonra qaragüruhçular "İmdad" teatr cəmiyyətinin binasını dağıdıb, əşyalarını oğurlasalar da, gənc həvəskarlar teatrı səylə bərpa etdirmişdilər. N. həyatı, məişəti M. əsərlərinin əsas mövzusunu təşkil edir.

1998 il iyunun 19-da Azərb. Resp. Prezidenti H.Əliyev "Cəlil Məmmədquluzadənin Naxçıvan şəhərində ev-muzeyinin yaradılması haqqında" sərəncam verdi. Bu sərəncam əsasında M.-nin N.-da yaşadığı ev əsaslı bərpa olunmuş, qədim memarlıq sənətinin incəliklərini özündə əks etdirən bir muzeyə çevrilmişdir. 1999 il oktyabrın 13-də Azərb. Resp. Prezidenti H.Əliyevin iştirakı ilə M.-nin ev-muzeyinin açılışı olmuşdur. Mərasimdə çıxış edən H.Əliyev öz nitqini bu sözlərlə bitirib: "Bilirsiniz, mən xoşbəxt günlərimdən birini yaşayıram. Nə üçün? Çünki arzuma çatmışam. Çünki Mirzə Cəlilin ev-muzeyini yaratmaq istəmişəm, bunu da yaratmışam. Azərbaycanın mötəbər adamları ilə bir yerdəyəm və bunu bir yerdə açırıq. Allah Mirzə Cəlilə rəhmət eləsin. Mirzə Cəlilin irsi, şəxsiyyəti, xidmətləri Azərbaycan xalqının qəlbində əsrlərlə yaşayacaqdır".

NAXÇIVAN DRAM TEATRI, C.Məmmədquluzadə ad. Naxçıvan Dövlət Musiqili Dram Teatrı – Azərb.-nın ilk teatrlarından biri. Onun təşkilində və təşəkkül tapmasında M.-nin də böyük xidmətləri olmuşdur. 1883 ildən başlayaraq 1920 ilə qədər bu teatrda "Tatarka" (E.Sultanov), "Hekayəti Molla İbrahim Xəlil kimyagər", "Hacı Qara" (M.F.Axundov), "Dağılan tifaq", "Pəri cadu" (Ə.Haqverdiyev), "Müsibəti-Fəxrəddin" (N.Vəzirov), "Əlli yaşında cavan" (Z.Hacıbəyov), "Nadir şah" (N.Nərimanov), "Leyli və Məcnun" (Ü.Hacıbəyov), "Ölülər" (C.Məmmədquluzadə) və s. əsərlər tamaşaya qoyulmuşdur. Bu tamaşaların göstərilməsində E.Sultanov, M.Xəlilov, Q.Şərifov, P.Sultanov, M.C.Mirzəyev (Şürbi), M.T.Sidqi və b. ilə birlikdə M. də böyük fəaliyyət göstərmişdir. 1884-1894 illər

arasında M. Naxçıvan teatr həvəskarlarından ayrılmamış, həm rej., həm təşkilatçı, həm də aktyor kimi iştirak etmişdir. M.-nin rej.-luq etdiyi "Hekayəti-müsyö Jordan həkimi-nəbatət və dərviş Məstəli şah cadukuni-məşhur", "Hekayəti Molla İbrahim Xəlil kimyagər" tamaşalarında müsyö Jordan və Molla İbrahim Xəlil rollarını da özü ifa etmişdir. M. əsərlərinin Naxçıvan teatrındakı tamaşaları da milli teatr tariximizin maraqlı səhifələrini təşkil edir.

"Ölülər" əsəri Naxçıvan teatr həvəskarları tərəfindən ilk dəfə 1917 ilin mart ayında R.Təhmasibin rej.-luğu ilə tamaşaya qoyulmuşdu. Tamaşanın bədii tərtibatını gənc rəssam Bəhruz Kəngərli vermişdi. Aktyorlardan H.Səfərli (Hacı Həsən), Q.Abbasov (Kərbəlayı Fatma), H.Muradov (Cəlal), E.Sultanov (Nazlı), İ.İsfəndiyarlı (Şeyx Əhməd), C.Əmirov (Məşədi Oruc), H.Mahmudov (Hacı Baxşəli), Ə.Xəlilov (Mir Bağır ağa) və b. çıxış etmişdilər. Şeyx Nəsrullah rolunu Ə.Qəmküsar, İsgəndər rolunu isə R.Təhmasib oynamışdır. Naxçıvan ziyalıları 1917 ildə təşkil etdikləri "El güzgüsü" dram cəmiyyəti əvəzinə 1918 ildə "İmdad" dram cəmiyyəti yaradırlar. "İmdad"da 1918 il martın 26-da "Ölülər" yenidən tamaşaya qoyulur. 1922 ildə N.D.T. yaradılır. 1928 ildə Naxçıvan teatrında oynanılan "Ölülər" tamaşası şəhərin mədəni həyatında əhəmiyyətli rol oynayır. Bu tamaşada Şeyx Əhməd rolunu 40 il Naxçıvanda mollalıq etmiş Mahmud Çakər oynamışdı. 1930 ildə S.Ruhulla müvəqqəti olaraq

Naxçıvan Dram Teatrında tamaşaya qoyulmuş **"Ər və arvad"** pyesindən səhnə.

Naxçıvan Dram Teatrında tamaşaya qoyulmuş **"Ər və arvad"** pyesindən səhnə.

Naxçıvanda işlədiyi zaman "Ölülər"i yenidən tamaşaya qoyur. 1938 ildə "Ölülər" Naxçıvanda Səməd Mövləvinin rej.-luğu ilə oynanılır. Bu quruluşda S.Mövləvi (Şeyx Nəsrullah), İ.Musayev (İsgəndər), Ə.Haqverdiyev (Məşədi Oruc), M.Mirişli (Hacı Həsən), İ.Həmzəyev (Hacı Baxşəli) və b. artistlər iştirak etmişdilər. 1976 ildə gənc rej. V.Babayev "Dəli yığıncağı" əsərini tamaşaya qoydu. Tamaşada artistlərdən Ə.Qardaşbəyov (Molla Abbas), İ.Həmzəyev (Fazil Küleyni), Z.Əliyeva (Pırpız Sona) və b. bacarıqla çıxış etdilər. Teatrın kollektivi uzun fasilədən sonra, 1977 ildə "Ölülər"i V.Babayevin quruluşunda tamaşaçılara göstərdi. Burada Z.Həmzəyeva (Kərbəlayı Fatma), İ.Həmzəyev (Hacı Həsən ağa), Ə.Qardaşbəyov (Şeyx Nəsrullah), Ə.Haqverdiyev (Hacı Kazım), İ.Bəxtiyarlı (Mir Bağır ağa), A.Şahsuvarov (Şeyx Əhməd) və b. ilə birlikdə teatrın istedadlı gənclərindən N.Həmzəyev və İ.Abdullayev (İsgəndər), V.Əsədov (Məşədi Oruc), Y.Allahverdiyev (Heydər ağa), T.Mövləvi (Əli bəy) və b. çıxış etmişdilər.

1989 ildə M.-nin "Anamın kitabı" pyesi N.D.T.-da tamaşaya qoyulmuşdur.

1965 ildə teatra M.-nin adı verilmişdir.

NAXÇIVAN Müəllimlər İnstitutu, C.Məmmədquluzadə ad. Naxçıvan Dövlət Müəllimlər İnstitutu – ali orta ixtisas pedaqoji təhsil verən müəssisə idi. Naxçı-

van MR-da, ona qonşu olan Ermənistanın azərb. yaşayan bölgələrində müəllim kadrlarına olan ehtiyacı ödəmək baxımından səmərəli fəaliyyət göstərirdi. 1939 ilin sentyabr ayında fəaliyyətə başlamışdı. Müxtəlif illərdə Əsgər Əhmədov, Əli Hüseynov, Nəsir Məmmədov, Əsəd Cəfərli, Həsən Paşa Əbdiyev, Əbülfəz Həsənov, Lətif Hüseynzadə, Süleyman Süleymanov kimi elm və maarif xadimləri bu ali orta təhsil ocağına rəhbərlik etmişlər. İn-tun həyətində M.-nin büstü qoyulmuşdu. İn-tun fəaliyyəti 1953 ilin iyul ayında dayandırılmışdır.

NAXÇIVANDA müəllimlər qurultayı – M. 1893 il noyabrın 2-də Naxçıvanda keçirilən "İrəvan quberniyası xalq müəllimlərinin sahə qurultayı"nın fəal iştirakçısı olmuşdur. Qurultayda "Məktəblərdə müəllimlər heç bir əlavə vəsait sərf etmədən hansı kənd təsərrüfatı məşğələlərini təşkil edə bilərlər" məsələsinin müzakirəsində o zaman Nehrəm məktəbinin nəzarətçisi işləyən M. tənqidi ruhda çıxış etmişdi. O, məsələnin maddi və təsərrüfat tərəflərindən deyil, başqa mühüm məsələlərdən danışmışdı. M.-nin fikrincə, müəllim həmkarlarının irəli sürdükləri kimi, ipəkçiliyi şagirdlərə öyrətməkdən ötrü təkcə əlavə sinif otağına malik olmaq, barama toxumu əldə etmək, tut bağı salmaq kafi deyildir. O, çıxışında demişdir: "İpəkçilik məşğələlərinin təşkili işi üçün bilik və bacarıq da tələb olunur". Sədrlik edən A.M.İoakimov M.-nin təklifini məqbul sayıb bildirmişdir ki, Qafqaz Təhsil Dairəsi bu barədə tədbir görəcəkdir. "Bunun üçün cənab popeçitel direktorluğun təqdimatı əsasında müəllimləri kurs keçmək məqsədilə Tiflis şəhərinə ezam edəcəkdir".

M. müəllim S.R.Melkumovun "İfadəli oxu mədəniyyəti" mövzusunda keçdiyi dərsin müzakirəsində daha kəskin tənqidi fikir söyləmişdir.

NAXÇIVANİ Böyükxan (?-?) – aktyor, rejissor. XX əsrin əvvəllərində Naxçıvan teatrının əsas təşkilatçılarından olmuşdur. 1919 ildə Naxçıvan teatrının Təbrizə qastrol səfərini təşkil etmiş, böyük uğur qazanmışdır. Ömrünün sonrakı dövrü Cənubi Azərb.-da keçmişdir. Təbriz teatrının əsasını qoymuşdur. Təbrizdə (1920-1921) M.-nin yaxın məsləhətçilərindən olmuşdur. "Ölülər" pyesinin Təbrizdə səhnəyə çıxarılmasının əsas təşəbbüsçülərindən biridir. Tamaşada kefli İsgəndər rolunu məharətlə oynamışdır.

NAXÇIVANİ Hacı Məhəmməd (?-?) – Cənubi Azərb.-ın tanınmış ziyalılarındandır. Məşhur ədəbiyyatşünas M.Tərbiyətin nəslindəndir. Sosial-demokrat ideyalarına və Xiyabani hərəkatına rəğbət bəsləmişdir. Təbrizdə M.-nin yaxın köməkçilərindən biri idi. (1921) Təbrizdə "Ölülər" əsərinin (səhnəyə) qoyulmasına və ilk tamaşanın təhlükəsiz başa çatmasına əməli köməklik göstərmişdir.

NAZİM Hikmət Ran (1902-1963) – türk şairi, dramaturq, ictimai xadim. Beynəlxalq Sülh mükafatı laureatı (1950). İlk şeiri 1918 ildə dərc olunmuşdur. Kommunist partiyasının üzvü olduğuna görə təqiblərə məruz qalmış, dəfələrlə həbs olunmuşdur. N.H.R. 1938 ildə 28 il 4 ay həbs cəzasına məhkum olunmuş, zindanda məşhur "İnsan mənzərələri" epopeyasını, "Həbsxanadan məktublar" şeirlər silsiləsini, "Məhəbbət əfsanəsi", "Yusif və Züleyxa" pyeslərini və s. əsərlərini yazmışdır. N.H.R. 1950 ildə mütərəqqi dünya ictimaiyyətinin tələbi ilə həbsdən azad olunmuş və 1951 ildən ömrünün sonunadək SSRİ-də yaşayıb-yaratmışdır. O, dəfələrlə Bakıya gəlmiş, Azərb. yazıçılarından bir çoxu ilə şəxsən dostluq etmiş, yaradıcılıq əlaqəsi saxlamışdır. M.-nin irsinə böyük rəğbət bəsləyən N.H.R. Mirzə Fətəli Axundovun Bakıda və Moskvada keçirilmiş yubiley təntənələrində M. haqqında da qiymətli fikirlər söyləmişdir. O, 1962 ildə Bakıdakı çıxışında demişdir: "Axundovla yanaşı, bu gün Türkiyədə türk xalqı üçün "Molla Nəsrəddin" döyüşür... ...Bizim mütərəqqi bir yazıçımız var: Əziz Nesin. İstanbulda bir məcmuə çap etdirir. Həmin məcmuənin yeni sayısı mənim əlimdədir... Həmin sayıda "Molla Nəsrəddin"in vaxtilə yapdığı bir rəsmə bənzər təsvir var... Sonra burda Əziz Nesinin bir hekayəsi verilib. Yumoristik bir hekayəsi. Hekayə bir kəndlinin dilindən Kennediyə məktubdur. Bu məktub doğrudan-doğruya Mirzə Fətəli Axundovun, "Molla Nəsrəddin"in və Sabirin ənənəsini davam etdirir".

Nazim Hikmət

NAMİQ KAMAL (1840-1888) – türk yazıçısı, ictimai və siyasi xadim. Yeni türk ədəbiyyatının ən görkəmli yaradıcılarından biri. İlk yazıları əvvəlcə əmək-

Namiq Kamal

N.Nekrasov

daşı, sonra isə red. olduğu "Təsviri-əfkar" (1865-1867) qəzetində dərc olunmuşdur. Dövrünün qabaqcıl görüşlərinə yiyələnən N.K. hürriyyət carçısı kimi dövlət tərəfindən təzyiqlərə məruz qalmış, mühacirət etməyə məcbur olmuşdur. Vətənə qayıtdıqdan sonra dəfələrlə həbs və sürgün edilmişdir. Londonda "Hürriyyət" (1868-1870) və İstanbulda "İbrət" (1870-1873) qəzetlərinin red. olmuşdur. Pyesləri, nəsr əsərləri, tarixi araşdırmaları, ədəbi, siyasi məqalələri və şeirləri N.K.-ı Türkiyə ədəbiyyatının ən parlaq simalarından biri – "Vətən şairi" kimi tanıtmışdır. Mollanəsrəddinçilər N.K. irsinə tez-tez müraciət etmişlər. M. ədibin yaradıcılığını yüksək qiymətləndirmiş, 1907 ildə onun mollanəsrəddinçi şair-dramaturq M.F.Axundov tərəfindən Azərb. dilinə adabta edilmiş "Röya" pyesini "Qeyrət" mətbəəsində kitabça şəklində çap etmişdi. "Molla Nəsrəddin" jurnalında dərc olunan bir sıra məqalə və felyetonlarda da N.K. əsərlərinə istinad olunur və ifadələrindən istifadə edilir. Q.Şərifzadənin "Qiyamətmi qopar?" felyetonunun sərlövhəsi N.K.-ın "Vətən" dramından əxz olunmuşdur.

Jurnalın 1914 il 5 fevral tarixli sayının üz qabığında verilmiş karikaturanın altında N.K. şeirindən bir beyt verilmişdi:

Ey qüdrətli, yaralı şir, bu qəflət yuxusundan oyan! Gəzdiyin nazlı səhralar zülm köpəklərinə qaldı.

Karikaturada şir simasında əzilən İslam aləmi, itlərin timsalında isə imperialistlər, müstəmləkəçilər nəzərdə tutulurdu.

NEHRƏM – Naxçıvan MR Babək r-nunda kənd. Naxçıvan ş.-nin 15 kilometrliyində yerləşir. N.-də ilk dünyəvi məktəb 1885 ildə açılmışdır. M. 1890 il yanvarın 15-dən 1897 il iyulun 10-dək bu məktəbdə nəzarətçi və müəllim işləmişdir.

Mirzə Cəlilin burada yaşadığı illərdə N. kəndinin 2519 nəfər əhalisi vardı. Kənddə əkinçilik, ipəkçilik və heyvandarlıq əsas məşğuliyyət sahəsi olmuşdur. M. 1893 ildə yerli əkinçilərin əməyini yüngülləşdirmək məqsədilə Tiflisdəki "Ekker" şirkətindən Nehrəm kəndinə ilk dəmir kotan gətirməyə nail olmuşdur.

M. 1896 ildə əslən bu kənddən olan Həlimə Nağı qızı ilə ailə qurmuşdur. Bu nikahdan yazıçının birinci övladı Münəvvər xanım (1897-1965) dünyaya gəlmişdir. Cavan yazıçı "Kişmiş oyunu" pyesini (1892), "Danabaş kəndinin əhvalatları" silsiləsini (1894) N. məktəbində işlədiyi illərdə yazmışdır.

NEKRASOV Nikolay Alekseyeviç (1821-1878) – rus şairi. 1847-1866 illərdə "Sovremennik" jurnalının red. və naşiri, 1868 ildən M.Y. Saltıkov-Şedrinlə birlikdə "Отечественные записки" jurnalının red. olmuşdur. Əsərlərində dövrünün realist mənzərəsini yaratmış, xalq səadəti haqqında arzularını təsvir etmiş, xalq həyatını inqilabçı-demokrat mövqeyindən işıqlandırmışdır. N.-un vətəndaşlıq və demokratik ruhlu poeziyası rus ədəbiyyatının inkişafına əhəmiyyətli təsir göstərmişdir. Hələ XIX əsrin axırlarında qabaqcıl Azərb. ziyalıları N.-un yaradıcılığına rəğbət bəsləmişlər. M. Qori seminariyasında təhsil alarkən N.-un əsərləri ilə tanış olmuşdur. M. ilə N.-un vətəndaşlıq mövqelərində bir yaxınlıq vardır. Onları sosial inkar məntiqi, etiraz enerjisi yaxınlaşdırır. Hər iki sənətkar üçün xalq və vətən mövzusu, xalqın taleyi, vətəndaş azadlığı və s. motivlər səciyyəvidir. Bundan başqa, onların publisistlik fəaliyyətlərindəki kəskin satirik istiqamət də oxşardır. Bu baxımdan, N.-un demokratik yönlü "Современник" və "Отечественныйе записки" jurnalları ilə M.-nin nəşr etdiyi "Molla Nəsrəddin" jurnalının müqayisəsi kifayətdir.

"Filosoflar" felyetonunda M.-nin Volkonskaya və Trubetskayanın dekabrist həyat yoldaşlarına sədaqəti, "müsibətlərlə Sibirə gedib", "Sibir həbsxanalarında ərləri ilə bərabər ömürlərini başa vermələri" haqqında məhəbbət dolu sətirlərin birbaşa N.-un "Rus qadınları" poemasının təsiri altında yaranmışdır.

NEMANZADƏ Kamil Ömər Faiq oğlu (1911-1986) – həkim. Ömər Faiqin oğlu. Azərb. Dövlət Tibb İn-tunu bitirmişdir (1936). Atası həbs olunandan sonra uzun illər siyasi təqiblərə məruz qalmış, sürgündə olmuşdur. Atasının Mirzə Cəlillə, digər dostları və yoldaşları ilə münasibətləri hələ 1919-1920 illərdən N.-nin hafizəsində iz buraxmışdı. 1956 ildə sürgündən azad edilmişdir. 1959 ildə Bakıya qayıtdıqdan sonra həkim işləmişdir. Mətbuatda M. və onun ailə üzvləri haqqında xatirələrlə çıxışlar etmişdir. N. "Atamın dostu" məqaləsində yazır: "Molla Nəsrəd-

din"in nəşri ilə əlaqədar çətinliklər anamın yadına düşəndə, həmişə Mirzə Cəlillə atamın o illərdəki fədakarlığına heyran qaldığını söylər və onu da gizlətməzdi ki, jurnal çıxmağa başlayan gündən biz bir xoş gün görməmişik...".

NEMANZADƏ Ömər Faiq (1872-1937) – publisist, maarifçi, ictimai xadim. Təhsilini doğma kəndində aldıqdan sonra, 1882-1891 illərdə İstanbulun Darüşşəfəq məktəbində oxumuşdur. 1892 ildə vətənə qayıtmış, on ilə qədər Ahısqada, Şəkidə, Şamaxıda, Tiflisdə müəllimlik etmiş, Azərb.-da ilk üsuli-cədid məktəbinin banilərindən olmuşdur. Elə o vaxtdan da publisistik fəaliyyətə başlamış, ilk yazılarını Krımda çap olunan "Tərcüman"da dərc etdirmişdir. XX əsrin əvvəllərində Tiflisdə "Şərqi-Rus" nəşrə başlayır və Ö.F. onun əsas əməkdaşlarından biri olur. Ö.F.-in Mirzə Cəlillə tanışlığı da buradan başlanır. Qəzet bağlanandan sonra Mirzə Cəlil və Ömər Faiq tacir Ələsgər Bağırovun maddi köməkliyi ilə onun mətbəəsini satın alaraq, onu yenidən qurur, adını "Qeyrət" qoyub müxtəlif mövzuda kitab nəşr edirlər. 1906 ildə "Molla Nəsrəddin" jurnalı həmin mətbəədə çap olunmağa başlayır.

Ö.F. "Qeyrət" mətbəəsinin və "Molla Nəsrəddin" jurnalının yaradıcılarındandır. O, jurnalın qeyri-rəsmi ikinci red. hesab olunurdu. M. xəstə Həmidə xanımın təsərrüfat işlərini sahmana salmaq və bir qədər dincəlmək üçün Qarabağa gedərkən, Ö.F. Türkiyədə təhsil aldığına görə Mətbuat Komitəsi jurnalın red.-luğunun ona həvalə olunmasına razılıq vermədiyindən, bu iş müvəqqəti olaraq M. Sidqiyə həvalə olunmuşdu. Amma hər şeydən göründüyü kimi, Mirzə Cəlil olmayanda jurnalın bütün işlərinə Ö.F. rəhbərlik edirdi. 1911 ildə Mirzə Cəlil Qarabağdan Tiflisə, jurnalın müvəqqəti red. Məmmədəli Sidqiyə göndərdiyi məktubda deyirdi: "Bunu sənə qabaqlar da istəyirdim yazam ki, Faiq əfəndi bundan sonra orada sahibi-ixtiyardır, hər barədə: xərclər və pullar barəsində, habelə jurnalın məzmunu barəsində. Ondan sonra sənsən".

Zəngin publisistik təcrübə qazanmış Ö.F.-in qələmi bu illərdə daha da kəskinləşdi. "Hələ arzularımın mində birini yazmamışdım" deyən Ö.F. yorulmadan yazıb yaradır, "Molla Nəsrəddin"in zülmət səltənətinə, "Zorbazorlar" dünyasına qarşı çevrilmiş mübarizəsini davam edirdi. Jurnal 1907 ildə müvəqqəti bağlanarkən Ö.F. inamla yazırdı: "Bu az maarifimizlə də olsa, içimizdə bir çox mollanəsrəddinçilər var. Bu gün Molla Nəsrəddin batar, sabah Molla Xeyrəddin çıxar,... "Molla Nəsrəddin"i meydana gətirən fikirlər bağlanmayacaq".

Ö.F. publisistik fəaliyyətini təkcə "Molla Nəsrəddin"lə məhdudlaşdırmır, dövrünün bütün əsas qəzetlərində açıq və gizli imzalarla (ən çox işlətdiyi "Ümidvar" idi) çıxış edirdi. Bütün mollanəsrəddinçilər kimi Ö.F. də xalqın dilinə, ədəbiyyatına, zəngin mənəviyyatına xüsusi diqqət yetirir və inamla bildirirdi ki, "insanları qara cəhalətdən və istibdaddan xilas edən yalnız və yalnız ədəbiyyatdır".

Cəsarətli çıxışlarına, prinsipial və barışmaz mövqeyinə görə Ö.F. həmişə təqib edilirdi. Dəfələrlə onun evində axtarışlar aparılmış, yazıları müsadirə olunmuş, felyetonları jurnal və qəzet səhifələrindən çıxarılmışdır. O, 1907 ildə həbs edilib Metex qalasına salındı. İctimaiyyətin tələbi ilə həbsdən azad olandan sonra "Molla Nəsrəddin"in rəssamı O.İ.Şmerlinq Ö.F.-in tənqid və ifşa hədəfləri arasında onun ayağı qandallı portretini çəkmiş, M.Ə.Sabir ona "Soldumu gülzarın, ey Faiqi-Neman nəsər" misrası ilə başlayan bir şeir həsr etmişdi.

1918 ildə Azərb.-da demokratik resp. quruldu. O zaman Ö.F. doğma yurdunda Ahısqa türklərinin azadlıq problemləri ilə məşğul idi. Lakin gürcü menşevikləri və şovinist dairələri ona imkan vermirdilər. 1919 ildə Ö.F. üç dəfə həbs edilmişdi. Gürcü menşevik hökumətinin parlamanı 1919 il fevralın 18-də təcili iclas çağırıb Ö.F.-in məsələsini müzakirə etmiş və həbsdən buraxmağa məcbur olmuşdu. Bundan sonra Ö.F. Bakıya gəlir və Azərb. Xalq Cümhuriyyətinin polis idarəsində nəzarətçi müfəttiş vəzifəsinə təyin olunur.

Azərb. Xalq Cümhuriyyəti bolşeviklərin təzyiqi altında yıxılandan sonra Ö.F. bir müddət sovet orqanlarında işlədi, 1921 ildə isə Gürcüstan İnqilab Komitəsinin üzvü seçildi, Gürcüstanda yaşayan soydaşlarımızın taleyi, əmin-amanlığı ona

Ö.F.Nemanzadə

A.P.Nemətov

B.Nəbiyev

həvalə olunmuşdu. O, burada da çox işlər gördü. Onun müsəlman bölgələrində qeyri-müsəlmanların, xüsusən idarə orqanlarına soxulmuş ermənilərin qərəzli fəaliyyətini ifşa edən məruzələri geniş əks səda oyatmışdı. Lakin onun ciddi tələbləri burada da rəğbətlə qarşılanmadı və 1922 ildə o, hökumətdən uzaqlaşdırıldı. Əvvəlcə Tiflisdəki "Yeni fikir" qəzeti redaksiyasına əməkdaş, sonra isə Gəncə ziraət texnikumuna müdir göndərildi. Ö.F. 1927 ildə təqaüdə çıxmış, 1937 ildə repressiyanın qurbanı olaraq oktyabrın 10-da güllələnmişdir.

NEMƏTOV Azər Paşa Zəfər oğlu (d. 1947) – teatr rejissoru. Azərb. əməkdar inc. xad. (1987). "Qızıl Dərviş" mükafatı laureatı (1998). Azərb. Dövlət Teatr İn-tunun rejissorluq fakültəsini bitirmişdir (1970). 1972-1974 illərdə Bakı Gənc Tamaşaçılar Teatrında rej. assistenti, quruluşçu rej., 1974-1977 illərdə Leninqrad Gənc Tamaşaçılar teatrında rej. işləmişdir. Bakıya qayıtdıqdan sonra Gənc Tamaşaçılar Teatrında rej., baş rej. (1983-1990) olmuşdur. 1990 ildən Milli Dram Teatrda quruluşçu rej. işləmiş, Azərb. Teatr Xadimləri İttifaqında sədr olmuşdur. Onlarla əsərə quruluş vermiş, Gənc Tamaşaçılar Teatrında M.-nin "Danabaş kəndinin məktəbi" pyesini tamaşaya qoymuşdur (1984).

NƏBATİ Seyid Əbülqasim (1812-1873) – Azərb. şairi. Qaracadağ mahalının Üştibin qəsəbəsində ruhani ailəsində doğulmuşdur. İlk təhsilini atası Seyid Mir Yəhya Möhtərəmdən almış, klassik poeziyanı, xüsusilə Hafiz yaradıcılığını və Şərq təsəvvüf ideyalarını öyrənmişdir. Yeniyetmə çağlarından Azərb.-ın çox yerlərini piyada gəzmiş, Qarabağ, Muğan, Lənkəran, Təbriz və Xorasanda olmuş, bu yerlərin ədəbi-mədəni həyatı ilə maraqlanmışdır. Bir müddət dərvişlik edib, müridlər arasında nüfuz və hörmət qazandıqdan sonra N. Üştibində mürşid olmuş, kəramət sahibi kimi tanınmışdır. N. orta əsrlərin böyük mütəfəkkiri Nemətullah Vəlinin şiə təriqətinin davamçılarından olmuş, əsərlərində onun sufi təriqəti ideyalarını təbliğ etmişdir. Ancaq şairin dünya nemətlərini tərifləyən, həyat gözəlliklərindən zövq almağa çağıran əsərləri də vardır. Müasirləri onun divanını qoruyub saxlamış, əsərləri Təbrizdə və Bakıda çap edilmişdir.

Mirzə Cəlil N.-nin yaradıcılığı ilə tanış olmuş, onun əsərlərindən bəhrələnmişdir. "Molla Nəsrəddin"də çap etdirdiyi "İranın Batum konsuluna başıbağlı məktub" felyetonunda (1906, 29 dekabr, №29) N.-nin "Get dolanginən, xamsən hənuz, Püxtə olmağa çox səfər gərək" misraları ilə başlanan şeirinə satirik bənzətmə yazmışdır.

Get dolanginən, xamsən hənuz,
Konsul olmağa çox hünər gərək.
Sən görən deyil Ənzəli, Zünuz,
Boylə işlərə baxəbər gərək...

NƏBİYEV Bəkir Əhməd oğlu (d.1930) – ədəbiyyatşünas, tənqidçi. Filol. e.d. (1970), prof. (1982), Azərb. Dövlət mükafatı laureatı (1978), Əməkdar elm xadimi (1990), AMEA-nın həqiqi üzvü (1989), AMEA Rəyasət Heyətinin üzvü, Nizami ad. Ədəbiyyat İnstitutunun direktorudur (2003-cü ildən). "Xalqlar dostluğu", "Şöhrət" və "İstiqlal" ordenləri ilə təltif edilmişdir. "Firudin bəy Köçərli", "Tənqid və ədəbi proses", "Roman və müasir qəhrəman", "Əhməd Cavad", "Almas İldırım", "Çətin yollarda", "İstiqlal şairi" və s. kitabların müəllifidir. N.-in "Xəzan vurmasın" (2006) kitabında ədəbiyyatımızın tarixində M.-nin roluna yüksək qiymət verilmişdir: "M.-nin yaradıcılığı Azərbaycan həyatının XIX əsrin sonlarından XX əsrin 30-cu illərinə qədər davam etmiş böyük və çox mürəkkəb, keşməkeşli bir mərhələsinin parlaq ədəbi salnaməsidir. Bu müddətdə təkcə Azərbaycanın deyil, İran, Türkiyə və Rusiyanın da həyatında az-çox ictimai məna kəsb edən elə bir əhəmiyyətli hadisə göstərmək çətindir ki, ədib ona reaksiya verməmiş olsun". M.-nin yaradıcılığının özünəməxsusluğundan, orijinal üslubundan bəhs edən N. göstərir ki, "C.M.-nin yaradıcılığı üçün tendensiyanın açıq, birbaşa ifadəsi səciyyəvi olmamışdır. O, yazıçılıq vəzifəsini gerçəkliyin dərin realist bədii təsvirini, təhlilini vermək mənasında başa düşürdü və bu vəzifəni təkrarsız yumorist vasitələrlə yerinə yetirirdi".

"NƏSRƏDDİN XOCA" – Türkiyənin İstanbul şəhərində nəşr edilmiş satirik jurnal. 1914 ilin sentyabrın 20-də çıxmağa başlamışdı. Həftədə iki dəfə buraxılmışdır. Azərb. "Molla Nəsrəddin"inə oxşadılırdı. Səkkiz səhifədən ibarət idi. Məsul red. Ə.Heydər idi. Bir neçə nömrəsi çıxdıqdan sonra bağlanmışdır.

NƏCƏFQULU (Nəcəfqulu Əbdülrəhim oğlu İsmayılov) (1923-1990) – rəssam. Azərb. əməkdar inc. xad. (1963). Azərb. Dövlət Rəssamlıq Texnikumunu bitirmişdir (1940). Boyakarlıq, qrafika, yumoristik rəsm sahəsində fəaliyyət göstərmişdir. M.-nin əsərlərinə illüstrasiyalar işləmişdir. Ədibin 100 illiyi ərəfəsində onun həm tək, həm də kompozisiyalı portretlərini yaratmışdır. O, həmçinin "C.Məmmədquluzadə "Qeyrət" mətbəəsində" tablosunun müəllifidir.

NƏCƏFOV Mürsəl Nəcəfqulu oğlu (1918-1997) – sənətşünas. Sənətşünaslıq doktoru (1969), prof. (1972). Azərb. əməkdar inc. xad. (1979). Azərb. Dövlət mükafatı laureatı (1982). Azərb. Dövlət Rəssamlıq Texnikumunu (1936) və İ.Y.Repin ad. Leninqrad Boyakarlıq, Heykəltəraşlıq və Memarlıq İn-tunu (1952) bitirmişdir. 1969 ildən ömrünün sonunadək Azərb. Politexnik İn-tu (1975 ildən İnşaat Mühəndisləri İn-tu) təsviri sənət kafedrasının müdiri, 1977-1982 illərdə Azərb. Rəssamlar İttifaqının katibi (1946-1948 illərdə sədr) olmuşdur. Azərb. təsviri sənət tarixinə və inkişafına dair, Azərb., antik dünya, Şərq, orta əsrlər Qərbi Avropa boyakarları haqqında monoqrafiya və s. əsərlərin müəllifidir. Rəssam kimi də fəaliyyət göstərmişdir. M.-nin, "Molla Nəsrəddin" jurnalının ətrafında toplaşmış rəssamların və b. satirik sənətkarların həyat və yaradıcılığından bəhs edən "Azərbaycanın karikaturaçı rəssamları" (Azərb. və rus dillərində, 1972) kitabının, "Molla Nəsrəddin jurnalının rəssamları" ("Azərbaycan" jurnalı, 1967, №5), "Художники "Молла Насреддина" ("Искусство" jurnalı, Moskva, 1969, №2) və s. məqalələrin müəllifidir.

NƏCƏFOV Rzaqulu Ələkbər oğlu (1885-1937) – jurnalist, publisist, müəllim. Ə.Qəmküsarın kiçik qardaşı. 1913-1917-ci illərdə "Molla Nəsrəddin"in ikinci redaktoru qardaşı Ə.Nəcəfovla bərabər jurnalın nəşrində yaxından iştirak etmişdir. 20-ci illərdə mollanəsrəddinçi müxbir olmuş, "Dan yıldızı" (Tiflis) jurnalında iştirak etmiş, burada "R.N." imzası ilə "Şair Əliqulu Qəmküsar" məqaləsi və s. yazıları çıxmışdır. M.-nin dram və nəsr əsərləri, felyetonları ilə cavan nəsli tərbiyələndirən klassiklərdən olduğunu yazırdı ("Yeni fikir" qəzeti, 11.2.1926). M. və Sabir haqqında maraqlı, qiymətli xatirələri çap olunmuşdur.

NƏRİMANBƏYOV Toğrul Fərman oğlu (d. 1930) – rəssam. Azərb. xalq rəssamı (1967). SSRİ Dövlət mükafatı laureatı (1980). Azərb. Dövlət Rəssamlıq Məktəbini (1950), Litva Rəssamlıq İn-tunu (1955) bitirmişdir. Məişət, portret, mənzərə və natürmort janrlarında, monumental boyakarlıq, illüstrasiya və teatr rəssamlığı sahələrində fəaliyyət göstərir. 1965 ildə yağlı boyalarla kətan üstə M.-nin portretini çəkmişdir. Arxa planda yazıçının personajları təsvir edilmiş bu əsərdə daxili dinamika, ekspressiya olduqca qüvvətli verilmişdir.

NƏRİMANOV Nəriman Nəcəf oğlu (1870-1925) – yazıçı, publisist, həkim, dövlət xadimi. 1882 ildə Qori seminariyasına daxil olmuş, 1890 ildə oranı bitirərək Tiflis quberniyası Borçalı qəzasının Qızılhacılı kəndinə müəllim təyin olunmuşdur. N. 1891 ildə Bakıya gəlmiş, pedaqoji sahədə işləmiş və geniş mədəni-maarif, ədəbi-siyasi fəaliyyətə başlamışdır. 1894 ildə Bakıda müsəlmanlar üçün ilk qiraətxana təşkil etmişdir. Bu illərdə N. "Nadanlıq" (1893), "Şamdan bəy" (1895), "Nadir şah" (1898), "Bahadır və Sona" (1896-1913) kimi bədii əsərlər, sosial və mədəni məsələlərə dair publisistik məqalələr yazmış, Azərb. və rus dillərini öyrənənlər üçün dərsliklər tərtib etmişdir. 1902-1908 illərdə Odessadakı Novorossiysk un-tinin tibb fakültəsində təhsil almışdır. XX əsrin əvvəllərində geniş dairədə siyasi-ictimai işlə məşğul olmuş, İran inqilabçıları ilə sıx əlaqə saxlamış, "Həyat", "İrşad", "İqbal", "Bəsirət", "Açıq söz" qəzetlərində "Həftə fəryadı", "Cümə söhbəti" felyetonlarını, siyasi-publisist məqalələrini dərc etdirmişdir. 1909 ildə həbs olunub Həştərxana sürgün edilmişdir. N. 1917 ildə bolşevik "Hümmət" təşkilatının Müvəqqəti Komitəsinin heyətinə daxil olur. 1917 ilin iyununda "Hümmət" təşkilatı Komitəsinin sədri və RSDF(b)P Bakı komitəsinin üzvü seçilir. N. 1917 ilin oktyabrında şəhər dumasına, noyabrında isə Müəssislər məclisinə namizəd göstərilmişdi. O, 1918 ildə yaradılmış Bakı şəhəri və r-nlarının İnqilabi müdafiə komitəsinin üzvü idi. 1918 il aprelin 25-də şəhər təsərrüfatı komissarı kimi Bakı Xalq Komissarları Sovetinin tərkibinə

Nəcəfqulu

T.F.Nərimanbəyov

N.Nərimanov

Y.M.Nəsirli

M.Q.Nəsirli

daxil oldu. 1919 ilin iyulunda işləmək üçün Həştərxandan Moskvaya çağırılan N. 1920 il aprelin 27-də qiyabi olaraq Azərb. İnqilab Komitəsinin, sonra isə Azərb. SSR XKS-nin sədri seçilir. N. 1922 ildən Zaqafqaziya Federasiyası İttifaq sədrlərindən biri idi. SSRİ-nin 1-ci Sovetlər qurultayında (1922) ZSFSR-dən SSRİ MİK sədri seçilmişdi.

N. milli müstəqillik, sosial tərəqqi, ana dilinin təmizliyi, ədəbiyyatın həyatla əlaqəsi, sənətdə realist metodun müdafiəsi və s. məsələlərdə mollanəsrəddinçilərlə eyni siyasi-estetik mövqedən çıxış edirdi.

XIX əsrin 90 illərində M.-nin məsləkdostları Q.Şərifov və M.T.Sidqi ilə sıx əlaqə saxlayan N. Naxçıvan ədəbi mühitinə bələd idi. Onun M.-ni bu vaxtdan tanıması istisna olunmur. N. "Molla Nəsrəddin" jurnalının nəşrə başlaması münasibətilə M.-ni təbrik etmiş, "Cümə söhbəti" ümumi başlıq altında yazdığı felyetonlarda jurnalın demokratik mövqeyini yüksək qiymətləndirmişdir. N. 1916-cı ildə "Ölülər" komediyasının birinci Bakı tamaşasında iştirak etmiş, əsəri "məzmunu eynən həyatımızdan götürülmüş, ideyası inqilabi "dram adlandırmış tamaşanı Oruc Orucovun qərəzli hücumlarından qorumağa ciddi cəhd göstərmişdir. Odessada oxuyarkən N. ona maddi yardım göstərən "Tiflis cavanları"na təşəkkür məktubunu "Molla Nəsrəddin"də dərc etdirmişdi. M. Təbrizdən qayıdarkən ilk əvvəl N.-un lazımi qayğı və köməkliyinə bel bağlayırdı.

Belə də oldu. M. Təbriz səfərindən Bakıya qayıtdığı zaman N. ona və ailəsinə böyük qayğıkeşlik göstərdi, bu ailə və jurnal üçün rahat mənzil, iş otaqları ayrılması barədə göstəriş verdi.

"NƏSİMİ-ŞİMAL" – ictimai-siyasi, satirik qəzet. 1907-1912 illərdə İranın Rəşt ş.-ndə nəşr olunmuşdur. Qəzetin red. Seyid Əşrəf Gilani idi. "Molla Nəsrəddin" jurnalının bilavasitə təsiri ilə yaranmış bu qəzetdə Mirzə Cəlilə, M.Ə.Sabirə və digər mollanəsrəddinçilərə yüksək qiymət verilir, əsərlərindən nümunələr dərc olunurdu. "N.-Ş." Rusiya və Cənubi Qafqaz xalqlarının azadlıq uğrundakı mübarizəsindən ruhlanır və ilham alırdı. İranın qabaqcıl ictimai və siyasi fikrinin inkişafında "N.-Ş." qəzetinin böyük rolu olmuşdur.

NƏSİRLİ Yasif Mirzə oğlu (d. 1938) – nasir, tənqidçi, publisist, tərcüməçi. Filol. e.d. (1991). Y.Məmmədəliyev ad. Beynəlxalq mükafat laureatı (1998). Bir çox povest və hekayələrin müəllifidir. 1969 ildə "Cəlil Məmmədquluzadənin ilk əsərlərində sənətkarlıq məsələləri" mövzusunda namizədlik dissertasiyasını müdafiə etmişdir. N.-nin "Cəlil Məmmədquluzadənin ilk əsərləri barədə düşüncələr" (1970), "Çinar vüqarı" (1985), "Qayıdacağam" (rus dilində, 1988) əsərləri, "C.Məmmədquluzadə yaradıcılığında kənd", "Danabaş kəndi Nehrəmdirmi?", "Danabaş kəndinin əhvalatları" silsilə əsərləri barədə" və s. məqalələri M.-nin həyat və yaradıcılığına həsr olunmuşdur.

NƏSİRLİ Müzəffər Qasım oğlu (1911-1980) – yazıçı, publisist, şair. İlk şeiri "Qızıl şəfəq" qəzetində çap olunub. İrəvan pedaqoji texnikumunda müəllim (1936), Ermənistan Dövlət Pedaqoji İn-tunda baş müəllim (1938-1941) işləmiş, İkinci Dünya müharibəsində iştirak etmişdir. Müharibədən sonra Naxçıvan Pedaqoji İn-tunda işləmiş, Azərb. Yazıçılar İttifaqının Naxçıvan bölməsinə rəhbərlik etmişdir. M.-nin müasirləri haqda bir sıra yazıların müəllifidir.

"NİGARANÇILIQ" – M.-nin yazdığı hekayə. 1916 ildə qələmə almışdır. Yaşadığı dövrün, zamanın, ictimai-tarixi hadisələrin milli həyatda konkret ölçü və mənalarını, mənzərə və ovqatını arayan yazıçı bu dəfə də özünə sadiqdir. "Yevropa davasının səbəbindən" deyə mətndə ötəri nişan verdiyi I Dünya müharibəsi zamanının qarışıq havasının müsəlman həyatına sanki azca da olsa, dəxaləti yoxdur; olsa-olsa o bunu məişətdə, güzəranda hiss edir: "bahalıqdı", "mehmanxanalarda adam əlindən yer tapılmırdı". Belə bir vaxtda Mirzə Cəlil üç naxçıvanlı, bir şirvanlı, bir gəncəli, bir də təbrizli – "bəzzaz", "ayaq üstə alış-veriş eləyən", "maarifpərvər bir şəxs", "qəzet müxbiri", "şair və ədib", "müəllim"dən ibarət bir cəmiyyəti ustalıqla "Tiflisdə "İslamiyyə" mehmanxanasının üçüncü nömrəsinə" toplaya bilir. Üstəlik "məşədi"lər, "mirzə", "bəy", "xeyli məlumatlı və qeyrətli bir cavan", "rus dərsi oxumuş və müsəlmanca da özünə görə təhsil tapmış bir vücud" kimi yığcam informasiya və epitetlərlə bu "cəmiyyət"in tam milli səciy-

yə və çalarlarına diqqət yönəldir. Belə bir halda çar məmurunun "bu millətpərəstlər"dən şübhələnməsi, "nə siyasi məsələlər ortalığa qoyub müzakirə eləmələri" barədə nigarançılığı da təbiidir. Amma hekayədə oxucu "milli cəmiyyətin" tamam özgə halәti ilə üz-üzə gəlir; hansı zümrədən, nə sənətin sahibi olmasından asılı olmayaraq, personajlardan hər birini yalnız öz şəxsi, həm də xurafat zəminində meydana gəlmiş "nigarançılığı" məşğul edir. Bu zaman müəllif "həqiqət, dünyada bu nigarançılıqdan da pis şey yoxdur" xalq deyimindən bədii təkrir kimi istifadə etməklə vaxtın, zamanın qarışıq, nigaran ovqatını uğurla mətnə çökdürə bilir. İki növ nigarançılığın – imperiya narahatlığı və məişət səviyyəli nigaranlığın yanaşı gəldiyi bu tarixi situasiyanın təsviri önəmini bu gün də saxlayır. Yazıçı Anar "Nigarançılıq" adlı film-tamaşada M.-nin eyniadlı hekayəsinin də motivlərindən bəhrələnmişdir.

"NİGARANÇILIQ" – M.-nin hekayələrinin motivləri əsasında 1998 ildə çəkilmiş film-tamaşa. Filmdə M.-nin "Qurbanəli bəy", "Quzu" və "Nigarançılıq" əsərlərinin motivlərindən istifadə olunmuşdur. Ssenari müəllifi Anar, quruluşçu rej. Ramiz Mirzəyevdir. Əsərdə M.-nin üslubu saxlanılmaqla süjetin bu gün üçün aktual səslənən məqamları, müasirlik ruhu qabardılıb ön plana çəkilmişdir. Filmtamaşanın ssenarisi özünün kompozisiya kamilliyi, hadisələrin intensivliyi, xarakterlərin canlılığı, dramaturji situasiyaların ardıcıllığı ilə diqqəti cəlb edir. Əsas rolları Yaşar Nuri (Qurbanəli bəy), Hacı İsmayılov (faytonçu), Telman Adıgözəlov (Kəblə Qasım), Hacımurad Yagizarov (naçalnik) və b. ifa edirlər. Film Azərb. Milli Televiziyasının "Sabah" yaradıcılıq birliyində lentə alınmışdır.

NİKİTİN Konstantin Andreyeviç (1832-1894) – müəllim, maarifçi ziyalı. Simferopol gimnaziyasını bitirmiş (1852), 40 ildən çox Krımın və Qafqazın müxtəlif ali və orta təhsil ocaqlarında pedaqoji fəaliyyətlə məşğul olmuş, demokratik maarifçi ideyaları yaymışdır. Qafqaz xalqları arasında çoxillik səmərəli maarifçilik fəaliyyəti nəzərə alınaraq, ona "Qafqazda xidmətlərinə görə" medalı (1864) verilmişdir. Nümunəvi pedaqoq kimi Üçüncü dərəcəli Stanislav (1865), Müqəddəs Anna (1875) ordenləri ilə təltif olunmuşdur.

N. 1879 il iyunun 21-dən 1883 il iyunun 17-dək Naxçıvan şəhər məktəbinin inspektoru vəzifəsində çalışmış, üç il bu məktəbdə M.-yə tarix, rus dili və ədəbiyyatından dərs demişdir. Topladığı materiallar əsasında "Naxçıvan mahalı və Naxçıvan qəzası", "Naxçıvan əyalətində xalq inamları" adlı irihəcmli əsərlərini yazıb çap etdirmiş, Naxçıvan vilayətinin xəritəsini və meteoroloji müşahidə gündəliyini hazırlamışdır.

NİYAZİ (soyadı Tağızadə-Hacıbəyov) Zülfüqar oğlu (1912-1984) – dirijor, bəstəkar, ictimai xadim. SSRİ xalq art. (1959). Sosialist Əməyi Qəhrəmanı (1982). Stalin mükafatları (1951, 1952), Ü.Hacıbəyov ad. Azərb. Dövlət mükafatı (1967), Beynəlxalq Nehru mükafatı (1974) laureatı, H.-un qardaşı oğludur. N.-nin musiqiçi kimi formalaşmasında H.-un böyük rolu olmuşdur. N. Azərb. Dövlət Simfonik Ork.-nin təşkilində fəal iştirak etmiş, 1932 ildən (fasilələrlə) ork.-in bədii rəhbəri və baş dirijoru olmuşdur. O, AOBT-nın dirijoru (1937-1948, 1951-1952), direktoru, bədii rəhbəri və baş dirijoru (1958-1959, 1961-1965), Azərb. Dövlət Filarmoniyasının direktoru (1979 ildən) idi.

Niyazi

Azərb. bəstəkarlarının bir çox əsəri, o cümlədən V.Adıgözəlovun "Ölülər" operasına dirijorluq edib.

NİZAMİ Gəncəvi (əsl adı İlyas Yusif oğlu) (1141-1209) – dahi şair və mütəfəkkir. Sənətkar ailəsində doğulmuş, Gəncə mədrəsələrində təhsil almış, şəxsi mütaliə sayəsində orta əsr elmlərini mükəmməl öyrənmiş, Yaxın Şərq xalqlarının ədəbiyyatına yaxından bələd olmuşdur. Ömrü boyu Gəncədə yaşamışdır. Yaradıcılığa lirik şeirlərlə başlamışdır. Dünya ədəbiyyatı tarixinə beş poemadan ibarət "Xəmsə" ilə daxil olmuşdur: "Sirlər xəzinəsi" (1177), "Xosrov və Şirin" (1180), "Leyli və Məcnun" (1188), "Yeddi gözəl" (1196), "İsgəndərnamə" (təqr. 1203). N.G.-nin yaradıcılığında dövrünün ən humanist, ümumbəşəri ictimai-siyasi, sosial və mənəvi-əxlaqi idealları parlaq bədii əksini tapmışdır. Məhz bu mütərəqqi xüsusiyyətlərinə görə, şairin yaradıcılığı hələ sağlığında Azərb., eləcə də bütün Yaxın Şərq ölkələri ədəbiyyatı və elmi fikri üçün nümunə olmuşdur.

Q.Xalıqov. "Nizami Gəncəvi". 1940 il.

Mollanəsrəddinçilər N.G.-nin yaradıcılığının ümumbəşəri və vətəndaşlıq motivlərindən bəhrələnmişlər. "Çalış öz xalqının işinə yara!" deyən N.G.-nin əsərlərindəki vətənpərvərlik və mübarizlik ruhu, ədalətə çağırış meylləri XX əsrin əvvəllərinin zəruri mətləblərini ifadə etməkdə mollanəsrəddinçi sənətkarların köməyinə gəlmişdir. Sovet hakimiyyətinin ilk illərində Nizamiyə heykəl qoymaq məsələsi ətrafında gedən müzakirələrdə M. "Heykəl" (1925) felyetonu ilə iştirak etmişdir. O zaman Nizaminin İran şairi olduğunu, əsərlərini fars dilində yazdığını iddia ediblər. Buna görə də heykəl qoyulmağa layiq olmadığını deyənlərin əksinə olaraq M. şairin ümumbəşəri ideyalarını ön plana çəkərək yazırdı: "O, böyük şair idi. Bəzən göylərə qalxır, bəzən yerlərə enirdi. Göylərə qalxanda insanlıq üçün ağlar, yerlərə enəndə şahlar üçün banlardı. Onu ağladan vicdanı, banladan isə yaşadığı mühit idi. İndi gör, heykəl tikmək olar, ya olmaz" ("Molla Nəsrəddin" jurnalı, 1925, №44).

"NOVOYE VREMYA" – 1868-1917 illərdə Peterburqda nəşr olunan gündəlik burjua qəzeti. Qafqazda, o cümlədən Bakıda və Tiflisdə də yayılırdı. M. məqalələrində bu qəzetin adını çox çəkir, onun yazıları haqqında bəhs edirdi.

"NOVOYE OBOZRENİYE" – Rusiya imperiyasında çıxan gündəlik ədəbi-siyasi qəzet. Tiflisdə nəşr edilirdi (1884-1906). Red.-ları N.Y.Nikoladze, A.V.Stepanov, Tumanov qardaşları, K.İ.Kalantarov, N.A.Nemiroviç – Dançenko olmuşlar. Qəzet "Современник" və "Отечественные записки" kimi mütərəqqi mətbu orqanlarının ənənələrini davam etdirirdi. Qəzetin səhifələrində H.Zərdabi, F.Köçərli, M.Şahtaxtinski, Ə.Cavanşir və Azərb.-nın mütərəqqi fikirli digər mədəniyyət xadimləri tez-tez çıxış edirdilər. Qəzetin 26 iyun 1904 tarixli nömrəsində M.-nin rus dilinə çevirdiyi "Poçt qutusu" hekayəsi dərc olunmuşdur.

"NOVRUZ" – M.-nin açmaq istədiyi qəzet. M. 1905 il mayın 10-da Tiflisdə "N." adlı qəzet nəşr etmək üçün Qafqaz canişininə müraciət edir. Ərizədə qəzetin məramnaməsi ətraflı izah olunurdu. Bununla əlaqədar Canişin dəftərxanası tərəfindən Qafqaz senzura komitəsindən belə bir qəzetin nəşrinə etirazın olub-olmadığı soruşulur. O dövrün mətbuatı "N." qəzetinin nəşrinə icazə verilməsi ilə əlaqədar bir-birinə əks məlumatlar dərc etmişlər. Hətta Mirzə Cəlil sonralar "Xatiratım"da ona "N."-un nəşrinə icazə verilmədiyini yazmışdır. Əslində isə, Mirzə Cəlilə bu qəzetin nəşri üçün icazə verilmişdir. Lakin 1905 il avqustun 11-də o, yenidən Qafqaz Canişininə müraciət edərək, Tiflisdə "İqbal" adlı qəzet nəşr etmək istəyən M. Vəkilovun xeyrinə ona verilmiş imtiyazdan imtina etdiyini bildirirdi. 1906 ildə M. "Molla Nəsrəddin" jurnalının nəşri ilə bağlı verdiyi ərizədə isə keçən il "N." adlı qəzetin nəşri üçün ona icazə verildiyini, lakin "bəzi mülahizələrə görə" həmin hüquqdan imtina etdiyini nəzərə çatdırırdı.

NOVRUZƏLİ – M. və ümumiyyətlə, Azərb. nəsrinin klassik nümunəsi olan "Poçt qutusu" hekayəsinin əsas surəti. M.-nin böyük ədəbi kəşflərindən olan bu obrazla Azərb. hekayəsi tarixində duzlu, şirin, mənalı, düşündürücü gülüşün əsası qoyulmuşdur. N. obrazı təsirli və yaddaqalandır. İtqapan kəndinin sakini olan N.-nin borcu Vəli xana itaət etmək, qulluğunda durmaq və vaxtaşırı ona pay gətirməkdir. Özündən güclülərin zorakılığı

onun üçün qanuni və təbiidir, təbiətində etiraz və narazılıq əlaməti yoxdur. Xana olan sədaqətini təsdiq etmək üçün ölənə kimi ona qul olmağa, balalarını da qurban verməyə razıdır. Bu onun kor-təbii fədakarlığından irəli gəlir. M. personajı oxucuya təqdim etmək üçün poçt qutusu kimi sadə, təbii, orijinal bir bədii vasitə kəşf edir, gülüş və yumorun gücü ilə obraza münasibəti oxucunun təxəyyülünə verir. Məktubu poçt qutusuna salandan sonra nə edəcəyini bilməyən N.-nin faciəsi bir qul kimi özünü xana borclu bilməsi, əməli işlə onun rəğbətini qazanmaq arzusudur. Dövlət adamını döyüb, cəzaya məhkum olunan N. işlətdiyi qəbahət və cinayəti qanuni və təbii hesab edir, sadəlövhcəsinə özünə bəraət qazandırmaq cəhdi avamlığından, mütiliyindən irəli gəlir. Bu səhnə xanın da, oxucunun da gülüşünə səbəb olur. M.-nin məharəti isə gülüş içərisində yaratdığı təzadın nümayişindədir. Xanın gülüşünə həqarətli münasibət hakimdirsə, oxucunun gülüşünə təəssüf, rəğbət və ürək ağrısı hakimdir.

NOVRUZOV İosif Nikolayeviç (?-?) – M.-nin maarifçi müasiri. Milliyyətcə aysordur. XIX əsrin 80-ci illərində Türkiyənin Qars vil.-dəki Kağızman normal məktəbinin nəzarətçisi vəzifəsində işləmiş, 1897 il iyulun 11-dən Uluxanlı məktəbinə müdir təyin edilmişdir. M. bu məktəbdə 3 ay 17 gün N.-la birlikdə çalışmışdır. N. Uluxanlıdan Baş Noraşen məktəbinə dəyişilmək istəyən M.-nin təşəbbüslərinə razılıq verməyib, onunla bərabər işləmək arzusunda olduğunu bildirmişdir. M. də ona "ziyalı bir şəxs" kimi ehtiram bəsləmişdir. N.-un 80-ci illərin ortalarında Qars vil.-ndən topladığı "Ölüm", "Mömin Lüsnik" əfsanələri və özünün qələmə aldığı "Üç molla", "Həsən plovu necə yedi" sa-

Y.Nuriyev "Nigarançılıq" telefilmində Qurbanəli bəy rolunda.

tirik hekayələri "Qafqaz ölkəsi və tayfalarının təsviri üçün materiallar məcmuəsin"-də (SMOMPK) dərc olunmuşdur.

NURİYEV Yaşar Məmmədsadıq oğlu (d. 1951) – aktyor. Azərb. xalq art. (1989). Azərb. Dövlət mükafatı (1991) və "Qızıl Dərviş" mükafatı (1992, 1996) laureatıdır. Azərb. Dövlət İncəsənət İn-tunu bitirmişdir (1972). 1974 ildən ADT-da işləyir. Bir çox müxtəlif xarakterli rollarda, o cümlədən Sərsəm Heydər ("Dəli yığıncağı", 1978), Məşədi Oruc ("Ölülər", 1980) rollarında müvəffəqiyyətlə çıxış etmişdir. Anarın "Sizi deyib gəlmişəm" pyesində Molla Nəsrəddin rolunu yaratmışdır (1982). Kinofilmlərə çəkilir. M.-nin hekayələri mövzusunda çəkilmiş "Nigarançılıq" televiziya filmində Qurbanəli bəy rolunu ifa etmişdir (1998).

Y.Olenskaya

M.S.Ordubadi

"OĞRU İNƏK" – M.-nin sovet dövründə yazdığı hekayələrdəndir. "Yeni kənd" jurnalının 1927 il 2 və 3 saylarında dərc olunmuşdur. Bu illərdə yazıçı bir qayda olaraq, səfərlərdə rast gəldiyi hadisələri ümumiləşdirib, bədii əsərə çevirməyi peşə borcu hesab edirdi. Hekayənin mətnində buna açıq işarə də var. Qaraqılçıq kəndində yaxın qohumlarıgildə istirahətdə olan müəllif belə deyir: "Amma burası var ki, biz bir yazıçı millətik, bizə yağ və pendirdən, süd və qaymaqdan da əfzəl yaxşıca tanımaq, təcrübə görmək lazımdır. Bizə gör-götür lazımdır. Bizə tema və mövzu lazımdır; yəni, müxtəsər, bizim yazıçılıq karxanasında həmişə xammal lazımdır ki, karxanamız işləsin, bikar qalmasın".

Yazıçı yaradıcılıq üslubuna sadiqdir. Maraqlı-duzlu təhkiyə daxilində ötəri işarələr və qarşılaşdırma üsulu ilə daha çox mətləbə nail olur: "İnsanın hövsələsi daral"an şəhərdən sonra "təmiz və saf havada, quşlar və heyvanlar", "əkinlər, sular, ağaclar, yarpaqlar" içində kənd; "beynini yazı-pozu ilə yorandan sonra" "kənd aləmində gahdan bir elə bir zövq və səfa"; bir həftə dovşan ovundan sonra yazıçının mövzu ovlaması; oğru inək və oğru Musa; kənd şura sədrinin evi, yoxsa məktəb və s. Mirzə Cəlil bu dövr hekayələrində birbaşa süjetin ifadə etdiyi mənadan başqa, ibrətamiz və fəlsəfi yozumlara da yer qoyur. Fəlsəfi qayə birbaşa hekayənin epiqrafına çıxarılmış atalar sözündə verilir: "Atı atın yanına bağlasalar, ya halını götürər, ya xasiyyətini". Pambıq oğurluğu hadisəsini insanlardan yox, inəkdən görən təhkiyəçi qəhrəman bunun səbəblərini anlamağa çalışır, izinə düşüb son halda aydınlaşdırır ki, inəyə bu adət sahibindən – insandan keçib. Təbiət və cəmiyyət qarşılaşdırılması M.-nin fəlsəfi görüşlərində önəmli məqamlardandır.

OLENSKAYA Yevgeniya (Yeva) Nikitiçna (1900-1959) – aktrisa. Azərb. xalq art. (1949), Əmək Qəhrəmanı (1927). Milliyyətcə rusdur. Bakı Teatr Texnikumunda oxumuşdur (1923-1926). 1913 ildən səyyar Azərb. dram truppasında, 1918-1920 illərdə Hacıbəyov qardaşlarının truppasında çıxış etmişdir. 1922 ildən Bakı Azad Tənqid-Təbliğ Teatrında, 1926 ildən isə ömrünün axırınadək ADT-da çıxış etmişdir. M.-nin "Anamın kitabı" pyesində Gülbahar obrazını böyük müvəffəqiyyətlə səhnədə canlandırmışdır (1922).

ORDUBADİ Məmməd Səid Hacıağa oğlu. (1872-1950) – yazıçı, şair, dramaturq, publisist, ictimai xadim, şair. H.Fəqirin oğlu. İlk təhsilini əvvəlcə mollaxanada, sonra isə görkəmli maarifçi M.T.Sidqinin Ordubadda açdığı "Əxtər" ("Ulduz") məktəbində almışdır. Yaradıcılığa XIX əsrin 90-cı illərində başlayan O.-nin ilk mətbu əsəri 1903 ildə "Şərqi-Rus" qəzetində "Ədəbiyyat" başlığı altında çap olunmuşdur. Ədibin "Qəflət" (1906), "Vətən və hürriyyət" (1907) adlı ilk kitabları "Qeyrət" mətbəəsində nəşr edilmişdir.

O. ilə Mirzə Cəlil münasibətlərində şəffaf olmayan məqamlar yox deyildir. 1907-ci ildə "Təzə həyat" qəzetinin müharriri H. Vəzirovla Cəlil Məmmədquluzadə arasında ideya ixtilafları başlananda O. "Molla Nəsrəddin"ə əks mövqe tutmuş, jurnalı "məsuliyyətsizlikdə" ittiham etmişdir. "Molla Nəsrəddin" jurnalı O.-ni "Qanlı sənələr" (1911) kitabına yazdığı "İfadeyi-məram"da erməni-müsəlman qırğınının əsas səbəbkarı rus çarizmini göstərmədiyinə görə tənqid etmişdir. 1906 ildən nəşrə başlayan "Molla Nəsrəddin"

jurnalının fəal əməkdaşlarından biri də M. ilə hələ Naxçıvandan tanış olan O. idi. Onun jurnalda "Hərdəmxəyal" imzası ilə dərc etdirdiyi satirik şeir və felyetonlar geniş oxucu kütləsinin rəğbətini qazanmışdır. O, eyni zamanda dövrünün digər mətbuat orqanlarında da yaxından iştirak etmişdir. İnqilabdan əvvəl "İki cocuğun Avropaya səyahəti" (1907), "Bədbəxt milyonçu, yaxud Rzaqulu xan Firəngiməab" (1914) romanlarını, "Əndəlisin son günləri, yaxud Qrenadanın təslimi" (1914) pyesini və s. yazmışdır.

1906 ilin sonundan Culfada yaşayan O. İranda Səttarxanın rəhbərliyi ilə başlanan xalq hərəkatına ciddi maraq göstərir və ictimai fəaliyyətini daha da genişləndirir. Ona görə də təqiblərə məruz qalır və hətta 1915 ildə həbsə alınıb bir neçə il sürgündə yaşayır. 1920 ilin may ayında Bakıya qayıdaraq ədəbi yaradıcılığını davam etdirir. Şeir, felyeton və pyeslər, opera və musiqili komediyalar üçün librettolar, publisistik və elmi məqalələr yazır. 30-cu illərdən başlayaraq qələmə aldığı silsilə tarixi romanları ilə O. ədəbiyyatımızda bu janrın əsasını qoymuşdur. "Dumanlı Təbriz" (1933-1948), "Döyüşən şəhər" (1936), "Gizli Bakı" (1940), "Qılınc və qələm" (1947) kimi tarixi romanlar ədibə böyük şöhrət qazandırmışdır.

ORUCOV Hidayət Xuduş oğlu – (d. 1944). ADU-nun filologiya fakültəsini bitirmişdir. Azərb. Resp.-nın əmək. inc. xad. C.Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram teatrının direktoru olmuşdur. Ermənistan Yazıçılar İttifaqının Azərbaycan Ədəbiyyatı Şurasına rəhbərlik etmişdir. "Gənclik" nəşriyyatının baş redaktor müavini (1984), baş redaktoru (1986) vəzifələrində işləmişdir.

Azərbaycan Respublikasının milli siyasət məsələləri üzrə Dövlət Müşaviri (1993), 2006 ildən Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədridir.

İrəvan Dövlət Azərbaycan Dram teatrında M.-nin əsərlərini səhnələşdirib, müxtəlif illərdə bu teatrda "Ölülər" pyesi alqışlarla qarşılanıb.

"ORUCOV QARDAŞLARI" mətbəə-nəşriyyatı – 1905-1917 illərdə Oruc (1878-1932), Abuzər (1880-1941) və Qəmbər (1884-1944) qardaşlarına məxsus müəssisə. Burada Ruhulla Axundov, Seyid Hüseyn, Səid Səlmasi və b. işləmişlər. Çap maşını Varşavadan gətirilmişdi. Milli Azərb. kitabının 350-dən artıq nümunəsi bu mətbəə-nəşriyyatın məhsuludur. Burada həmçinin Rusiya, Şərq və Qərbi Avropa ədəbiyyatından bir çox qiymətli kitablar, məktəblər üçün, demək olar, bütün fənlərə aid dərsliklər nəşr olunurdu. J.B.Molyer, M.Tven, L.N.Tolstoy, S.M.Qənizadə, N.Nərimanov, A.Şaiq, A.Səhhət, Y.V.Çəmənzəminli və onlarca b. yazıçının əsərləri burada çap olunmuşdur.

H.Orucov

ORUCOV ORUC (1878-1932) – Azərb. nəşriyyat və mətbuatının ən fəal xadimlərindən biri, "Orucov qardaşları mətbəə-nəşriyyatı"nın başçısı, jurnalist. Orta təhsilini Gəncədə sənət məktəbində alıb, Yevlaxda duz və neft dükanında, Xəzər dənizində gəmidə işləyir, sonra Bakıda Aşurbəyovların kontorunda hesabdar olur. 1900 illərdən ticarətlə məşğul olub yaxşı qazanc əldə edir, 1906 ilin yazında mətbəə açmaq üçün Varşavadan çap maşını gətirir. Ədəbi-tənqidi yazıları, "Nadinc uşaq" adlı ruscadan tərcüməsi var. M.-nin əsərləri haqqındakı yazıları qərəzli tənqiddən xali deyildir. "Molla Nəsrəddin" öz səhifələrində belə tənqidlərə lazımi münasibət bildirirdi.

İ.Osmanlı "Ölülər" pyesində Məşədi Oruc rolunda.

İ.O.Osmanlı

OSMANLI İsmayıl Osman oğlu (1902-1978) – aktyor. SSRİ xalq artisti (1974). 1921 ildən Şəki, Gəncə klublarının dram dərnəklərində, Tiflis Azərb. Teatrında (1928) çıxış etmişdir. 1929 ildən ömrünün sonunadək ADT-nın aktyoru olmuşdur. O. klassik və müasir dramaturqların əsərlərinin tamaşalarında yaddaqalan obrazlar qalereyası yaratmışdır. Bu teatrda M.-nin "Ölülər" pyesində Məşədi Oruc, "Dəli yığıncağı"nda Hacı Naib rollarında uğurla çıxış etmişdir. Bir sıra bədii filmlərdə çəkilmişdir. M.-nin "Poçt qutusu" hekayəsinin motivləri əsasında çəkilmiş eyniadlı qısametrajlı filmdə yaratdığı Novruzəli obrazına görə 1968 ildə Zaqafqaziya və Ukrayna telefilmləri festivalında "Ən yaxşı kişi roluna görə" mükafatına layiq görülmüşdür.

OVLANİ Abdulla (?-?) – özbək yazıçısı, müəllim, alim, tərcüməçi. "Turan türəsi" adlı teatr həvəskarları cəmiyyətinin sədri olmuşdur. 1916 ildə M.-nin "Ölülər" əsərini özbəkcəyə çevirmiş və Daşkənddə kitab halında nəşr edilmişdir. Həmin il iyunun 11-də pyes "Turan türəsi" dram həvəskarları tərəfindən özbək dilində tamaşaya qoyulmuşdur. Tamaşa M.-nin nəzarəti altında hazırlanmışdı. İsgəndər rolunu O. ifa edirdi. Tamaşa üçün senzuradan icazə almaqda və tamaşanın hazırlanmasında da əsas sima O. idi.

"OYUNBAZLAR" – M.-nin kiçik səhnəciyi. 1922 ildə yazılmışdır. Azərb. EA Əlyazmaları İn-tunun arxivində səhv olaraq "Lənət" adı ilə qeydə alınmış, ilk dəfə bu adla çap olunmuşdur. Əsəri ədəbiyyatşünas İ.Həbibbəyli aşkara çıxarıb, 1986 ildə "Sovet Naxçıvanı" qəzetində və "Qobustan" jurnalında çap etdirmişdir. Səhnəcik ideya-məzmununa və surətlər aləminə görə "Danabaş kəndinin məktəbi" pyesi ilə səsləşir. "Oyunbazlar" pyesində də müəllim Həsənov obrazı vardır. Lakin "Danabaş kəndinin məktəbi" pyesindən fərqli olaraq, bu əsərdəki müəllim Həsənov maarifçi məfkurədən məhrum, başdansovdu dərs keçən, daha çox qazanc əldə etmək barədə düşünən, hətta qumar oynamağa qurşanan yarımçıq ziyalıdır. Əsərdəki qumarbaz Aban bəy obrazı başabəla müəllimin əməl və rəftarındakı eybəcər cəhətlərin üzə çıxmasına şərait yaradır. Yalnız finalda süjet xəttinə qoşulan ikinci müəllim Həsənov maarifçilik baxımından yeni fikir doğurur.

İ.Həbibbəylinin tərtib etdiyi "Əsərləri"nin 4 cildliyinə daxil edilmişdir.

"Ağalar, Allah xatirinə, elə bilin biz də heyvanıq, bizə də arpa verin yeyək".

Rəssam: O.I.Şlinq

Ö

"ÖLÜLƏR" – M.-nin məşhur tragikomediyası. Bədii xüsusiyyətləri və problemləri ilə dünya dramaturgiyasının klassik nümunələri sırasına daxil olmuşdur. 1909 ildə yazılmış "Ö." komediyası mövzu orijinallığı, ideya zənginliyi ilə bərabər, bədii vasitələri, janr xüsusiyyətləri və s. cəhətlərdən də kamil bir bədii sənət incisidir. "Ö."-i kəskin bəşəri problemləri yüksək sənətkarlıqla canlandıran bir dramatik əsər kimi dram, faciələrə məxsus keyfiyyətləri ehtiva edən, dramatik ünsürlərə malik bir məzhəkə, həyati faciəni, dəhşətli həqiqəti göstərən komediya, yaxud tragikomediya, satirik komediya adlandırmışlar. Pyesin janrına aid olan bu mülahizələrin heç biri təsadüfi deyildir və "Ö."-ə xas olan xüsusiyyətlərlə bu və ya digər cəhətdən bağlıdır. Dramatik, komik, lirik, tragik ünsürlərin üzvi vəhdətinin yaratdığı əlvanlıq əsərin yüksək bədiiliyini təmin edir. Bədii əsərlərin, xüsusilə, dramatik növün də janr spesifikasını əsərdəki konfliktin həlli müəyyən edir. "Ö." əlbəttə, komediyadır. Komediyanın əsasında tənqid və gülüş dayanır. Bunlar da növlərinə və mahiyyətinə görə müxtəlifdir. Gülünc, mənasız, yaxud islah edilə bilən vəziyyətlərin və xarakterlərin estetik qiymətləndirilməsi yumorun və ya yüngül kinayənin əsasını təşkil edir. Satiranın qarşısında isə daha kəskin, daha sərt vəzifə durur. O, acı kinayə, sarkazm vasitəsilə təkcə gülünclüyü deyil, həm də təhlükəli olan ictimai naqisliyi, bəlaları ifşa edir. Komikliyin inikas etdirilməsi növlərindən biri qroteskdir. Sarkazm və qroteskin vəzifəsi ictimai bəlanın cəmləşmiş, mübaliğəli obrazının yaradılması, karikatur təsvir dərəcəsinədək böyüdülməsidir. Satirada və qroteskdə ictimai təhlükəli qüsurlar ifşa olunduğuna görə burada komiklik bir sıra hallarda tragizmlə birləşir. Ona görə də "Ö."-in satirik komediya və ya tragikomediya adlandırılması onun mahiyyətini təhrif etmir, əksinə, dəqiqləşdirir. "Ö." tematikası, obrazları, bədii ümumiləşdirmələri ilə satirik komediyanın yeni, orijinal bir nümunəsidir.

"Ö."-də ötəri, qeyri-ciddi, təsadüfi uyğunsuzluqlardan, məzəli əhvalatlardan söhbət getmir, burada əyləndirici bir şey yoxdur. "Ö."-dəki komizm bir xalqın taleyi ilə bağlı olan dərin ictimai uyğunsuzluğun, ölü şüurla ağıl, mənəvi korluqla gözüaçıqlıq, ifrat xurafat və fanatizmlə sağlam düşüncə, həqiqətlə mistika arasındakı dərin, barış-

"Ölülər" pyesindən səhnə; rollarda: **Ə.Yusifqızı** – Nazlı, **H.Turabov** – İsgəndər (1966).

"Ölülər" pyesindən səhnə; rollarda: **M.Şeyxzamanov** – Hacı Həsən ağa, **Ə.Əliyeva** – Kəblə Fatma, **Abbas Rzayev** – Hacı Kərim, **Sadıq İbrahimov** – Hacı Baxşəli, **Cabbar Əliyev** – Hacı Kazım, **İsmayıl Osmanlı** – Məşədi Oruc, **Mustafa Süleymanov** – Kəblə Vəli (1966).

M.C.Məmmədquluzadənin **"Ölülər"** pyesindən səhnələr.

maz ziddiyyətin məhsuludur. Əsərdəki komizmin mahiyyətindəki tragizm isə ağıl sahibinin tək və köməksiz, nadan fanatiklərin isə çoxsaylı və güclü olmasından irəli gəlir. Elə bu gerçəkliyin aşkarlanmasının nəticəsi kimi "Ö." Azərb. ziyalılarının maarifçi nəslinə mənsub olan ifşaçı, mübariz İsgəndər obrazı ilə də əlamətdardır. İsgəndər zəmanəsinin, mühitinin, vəziyyət və imkanının yol verdiyi şəkildə hərəkət edən inqilabçı deyil, ifşaçı, real vəziyyəti sərrast və kəskinliklə qiymətləndirən mübariz ziyalı obrazıdır. Əsərdə ikinci obraz epoxal tip səviyyəsinə qaldırılan, ifşa hədəfi seçilən məşhur Şeyx Nəsrullahdır. Şeyx Nəsrullah avamların, kor fanatiklərin, mütilərin əksəriyyət təşkil etdiyi bir mühitdə dini, imanı quldurluq alətinə çevirən, nəfsinin və ehtirasının qulu olan bir tipdir. Mənəvi ölülər və onların dünyasında at çapan Şeyx Nəsrullaha qarşı dayanan isə zülmət səltənətində bir nur, ayıq, diri şüur, təmiz əxlaq, yüksək mənəviyyat mücəssəməsi olan İsgəndər dayanmışdır.

"Ö." Azərb. dramaturgiyasında ümumiləşmiş, kütləvi monumental obraz yaradılması baxımından da əlamətdardır. M.F.Axundovun "Hekayəti-Molla İbrahimxəlil kimyagər" komediyasındakı "nuxululer", M.-nin öz əsərlərindəki "intelligentlər", "abrazovannılar", "ziyalı qardaşlar" monumental-kütləvi obrazlılığın ilkin örnəkləri idi. Ölülər obrazı isə kütləvi monumentalizmin kamil nümunəsidir. Monumental obrazın yaradılmasında bir sıra zümrə, peşə nümayəndələrini və ya silkə mənsub olanları təmsil edən ayrı-ayrı fərdlərin simasında ştrixlər, detallar, əsas əlamətlər toplusu – monumental bir obrazı tamamlayır. Buna görə də monumental obraz tək-tək fərdlər və ya adlarla – "ölülər", "intelligentlər", "danabaşlar", "ölü canlar", "nuxululer" – ünvanı ilə məşhurlaşır, tanınır.

"Ö."-in ilk oxunuşu 1913 ildə Şuşada keçirilmişdi. Əsər tərifləmiş, lakin mövhumat yuvası Şuşada səhnəyə qoyulmasının tezliyi qeyd edilmişdi.

1916 il aprelin 29-da Bakıda, Tağıyev teatrında əsərin ilk tamaşası oldu. Tamaşanın rej. H.Ərəblinski idi. İsgəndər rolunda M.Əliyev, Şeyx Nəsrullah rolunda Əliqulu Nəcəfov çıxış edirdi. Tamaşa çox böyük müvəffəqiyyət qazandı. Bakıda nəşr olunan "Açıq söz" qəzetinin 1 may 1916 il sayındakı "Ölülər" haqqında təəssürat" məqaləsində deyilirdi: "Cümə günü Tağıyev teatrı bir ədəbiyyat bayramı keçirirdi. Molla Nəsrəddinin əsəri – təhriri olan "Ölülər" draması tamaşa edilirdi". Sonra məqalədə göstərilir ki, hər pərdənin arasında müəllif alqışlarla səhnəyə çağırılıb təbrik olunurdu. Mətbuat, ədəbiyyat, məktəb və səhnə işçiləri düzülüb müəllifi alqışlarla çağırdılar. "Müəllif səhnəyə çıxınca bir alqış tufanı qopdu". "Açıq söz"ün müxbiri bu təntənədəki görkəmli tamaşaçılara müraciətlə öz təəssüratlarını bildirmələrini xahiş edir. Onlar deyirlər:

"Şeyx Nəsrullahın ölüləri diriltməsi yalansa da, "Ölülər"in ölü fikirləri diriltməsinə şübhə ola bilməz". Sultan Məcid Qənizadə;

"Ölülər" son komediyalarımız içində parlaq bir mövqe tutar. "Ölülər"də sənətkaranə bir dirilik, mahiranə bir incəlik var [...] "Ölülər" mühərrirində bəzən Qoqol ruhu yaşar". Hüseyn Cavid";

"Artıq dərəcədə məharətlə yazılmış, məzmunu eynən həyatımızdan götürülmüş, ideyası inqilabi bu drama müsəlman həyatında böyük rollar oynayacaqdır". Doktor N.Nərimanov;

"Ölülər" draması həyatdan alınmış, iqtidarla yazılmış, tam təsir bəxş edən bir əsərdir". Nəcəf bəy Vəzirov;

"Ölülər" "Molla Nəsrəddin" kimi, baltanı dibindən vuran bir pyesdir". Üzeyir Hacıbəyli.

Tamaşa haqqında Nəcəf bəy Vəzirovun "Dərviş", Seyid Hüseynin "Kazımoğlu" imzalı müsbət məqalələri, habelə N.Nərimanov, M.Ə.Rəsulzadə, X.İbrahim, S.E-İbrahimov, O.Orucov, M.Həsənov və başqalarının rəyləri çap olunmuşdu. Rəylərin bəziləri (S.E-İbrahimov, M.Həsənov, O.Orucov) aşkar səhv və qərəzli idi. Bunu M.-nin Bakıdan Naxçıvana – Q.Şərifova 3 may tarixli məktubu da təsdiq edir.

Q.Məmmədli qeyd edir ki, Azərb. qadınları "Ö." pyesində qadın hüquqlarını müdafiə etdiyi üçün M.-yə ipək səccadə təqdim etmişdilər.

Komediya elə həmin ilin iyununda Daşkənddə "Kolizey" teatrında (özbək dilində), iyul ayında Petrovsk (Mahaçqala – *red.*) şəhər teatrında, avqustda Vladiqafqazda, 1917 ildə Tiflisdə, Gəncədə, Naxçıvanda və s. şəhərlərdə tamaşaya qoyulmuş və böyük müvəffəqiyyət qazanmışdır.

"Ö." 1916 il avqustun 17-də Şuşada Natəvanın qızı Xanbikənin evindəki qız məktəbində tamaşaya qoyulmuşdu. Tamaşaya Həmidə xanım və qızı Minadan başqa qadın gəlməmişdi. Bəy tayfasından tamaşaya yalnız Ə.Haqverdiyevin əmisi oğlanları gəlmişdilər.

"Ö."-i gözü götürməyənlərin barəsində – ədəbiyyatşünas Lətif Hüseynzadə yazır ki, 1918 il martın 26-da Naxçıvan ş.-də "Ö." gündüz "İmdad" teatr cəmiyyəti tərəfindən oynandıqdan sonra qeyri-məlum şəxslər cəmiyyətin yerləşdiyi otağın qapısındakı qıfılı sındırıb içəri girmiş, truppaya məxsus geyim, pərdə, əşya, parik və s. götürüb aparmış, bəzi şeyləri yandırmışlar. Gedərkən masanın üzərində belə bir yazı qoymuşlar: "Bir daha "Ölülər" əsərini oynamış olsanız, özünüzü də öldürəcəyik". Belə xuliqanlıq, hədə-qorxu sonralar başqa şəhər və kəndlərdə də olmuşdu.

1920 ilin yayında Türküstan cəbhəsi I Ordu siyasi idarəsi yanındakı "5 nömrəli müsəlman truppası" Aşqabad ş.-ndə "Ö." pyesini tamaşaya qoymuşdu. İsgəndər rolunun ifaçısı Rzaqulu Abdullayev, Şeyx Nəsrullah – Cəfər Tahirov, Hacı Həsən – Əziz Cavadov, Müəllim – Qulam Məmmədli, Şeyx Əhməd – Yədulla Rzayev, Kəblə Fatma – Yəhya İsmayılov idi. Birinci tamaşa gecəsi salondakı dindar və mövhumatçılar etiraz səsi qaldırıb hay-küy salmışlar. R.Abdullayev səhnə qarşısında əsər haqqında məlumat verməklə onları sakit etməyə çalışmışdır. Bu quruluşda "Ö." sonrakı günlərdə də bir neçə dəfə göstərilmişdir.

1921 il mayın 1-də "Ö." pyesinin ilk dəfə Təbrizdə tamaşaya qoyulması Cənubi Azərb. mədəniyyəti tarixində mühüm hadisə olmuşdur. Bu barədə Həmidə xanım, Münəvvər Məmmədquluzadə, Səməd Mövləvi, Əli Azəri, Qulam Məmmədli və b. müəlliflərin xatirələrində və məqalələrində məlumat verilir. Mirzə Cəlilin tanışı, naxçıvanlı ziyalı Əkbər Abbasov Təbriz teatrında "Ö." tamaşasını göstərmək üçün binanı 200 qrana kirayə etmişdi. Rej. Mirzə Cəlil özü idi. Tamaşa zamanı üçüncü pərdədən sonra səhnəyə çıxan ədib gurultulu alqışlanmışdır. Xoşagəlməz hadisə bu olmuşdu ki, polis Şeyx Nəsrullah rolunu oynayan Əli Azərini tutmaq istəmişdi. Məşhur ədəbiyyatşünas, maarifçi Hacı Məhəmməd Naxçıvani onu teatrın dal qapısından qaçırıb, evinə aparmışdı.

"ÖLÜLƏR" pyesinin mühakiməsi – XX əsrin 20 illərində Bakıda keçirilən mədəni tədbirlərdən biri klassik səhnə əsərlərinin tamaşaya qoyulması münasibətilə təşkil edilən ədəbi yığıncaqlar idi. "Ədəbi mühakimə" adı almış belə yığıncaqlardan biri 1923 ilin fevral ayında M.-nin "Ölülər" pyesinə həsr olunmuşdu. "Müddəi-ümumilər" (baş ittihamçılar) Cəfər Cabbarlı və Əbdül Əbdülzadə, müdafiəçilər Seyid Hüseyn, Əhməd Cavad və Hənəfi Zeynallı idi. C.Cabbarlının giriş sözü ilə başlanan müzakirə çox maraqlı, məzmunlu keçmişdir. Mirzə Cəlil və N.Nərimanov parterdə oturub, natiqlərdən Abbas Mirzə Şərifzadə, Mirzağa Əliyev, Rza Darablı, Əli İsgəndər Cəfərzadə və b.-nın çıxışlarına diqqətlə qulaq asmışlar. Bir neçə gün davam etmiş mühakimədə pyesin baş qəhrəmanı İsgəndərin fırıldaqçı, əxlaqsız Şeyx Nəsrullahı ittiham etməkdə düzgün iş gördüyü ayrıca qeyd olunmuşdur.

ÖMƏR Xəyyam Qiyas əd-din Əbülfəth ibn İbrahim (təqr. 1048 – 1122 ildən sonra) – fars şairi, filosof, alim, ilahiyyatçı. Nişapurda doğulmuş, orada da vəfat etmişdir. İsfahanda təhsil almışdır. Ömrünün çoxunu Bəlx, Səmərqənd və İsfahanda keçirmişdir. Şeirlərinin bəzisində Allahın özünün belə ziddiyyətli olduğunu, qadir, müdrik və ədalətli Allahın mövcudluğu ilə həyatda şər işlərin hökm sürməsinin bir yerə sığmadığını göstərmişdir. Rübai ustası Ö.X. bu janrda yazdığı əsərlərdə ruhaniləri və dini mərasimləri tənqid etmiş və görüşlərinə görə allahsızlıqda təqsirləndirilmişdir.

M. özü və qələm yoldaşları "Molla Nəsrəddin" jurnalında Ö.X.-dan məhəbbətlə bəhs etmişlər. M. "Mədfən" felyetonunda Ö.X. yaradıcılığını "Mömin müsəlman millətlərinin çürümüş qafasını sındırıb içindəki mövhumatı dağıtmaq yolunda" xidmət göstərdiyinə görə yüksək qiymətləndirirdi. M.-yə görə Ö.X. "Yeddi-səkkiz əsrin müddətində tək birinci olaraq" xilafət haqqında həqiqəti aşkarlamış, "biçarə müsəlmanlara mərdi-mərdanə" demişdir: "Ay biçarələr! Ərəbistan çöllərində iki nəfər ərəb hökumət üstdə "partfel" davası saldılar və birbirini vurub öldürdü, bəs, indi siz nə səbəbə müftəcə yerə məhərrəm ayında başınıza döyüb ağlayırsınız" ("Molla Nəsrəddin" jurnalı, 1929, №23).

P

PAMFLET – həcmcə çox da böyük olmayıb, ifşaedici məzmunda, aydın, kəskin satirik üslubda yazılan bədii əsər. P.-də ictimai quruluşun mənfi cəhətləri, ayrı-ayrı adamların yaramaz sifətləri və rəftarı, yaxud müəyyən siyasi partiyanın, dəstənin, müəssisənin cinayətkar fəaliyyəti və s. ifşa olunub qırmanclanır. Bu üslubda yazılan əsərdə bədii tipləşdirmə olur, lakin P.-in sənədliliyi, obyektiv fakta sədaqəti və bədii uydurma məhdudluğu buradakı tipləşdirməni satirik yaradıcılığı digər janrlarındakı tipləşdirmədən ciddi surətdə fərqləndirir. P.-lər rəngarəng və müxtəlifdir. Azərb. ədəbiyyatında P.-in ilk nümunələrini M. yazmışdır. Onun "Molla Nəsrəddin" jurnalında burjua ziyalıları Fərrux bəy Vəzirov, Məryəm xanım Sulkeviç, Əbdürrəşid İbrahimov və b. haqqında P.-ləri dərc olunmuşdur.

PARODİYA – ədəbiyyat, teatr, musiqi, estrada janrlarından biri; kinayəli nəzirə, təqlid, bənzətmə. P. nəsr və şeirlə yazılır. P.-da hər hansı əsərin ideya-bədii xüsusiyyətləri (mövzusu, məzmunu, qəhrəmanları, dili, üslubu və s.) müəyyən ideya-estetik mövqedən cəmiyyətin mövcud qüsurlarının ifşası üçün istifadə olunur və istehzaya qoyulur. P.-dan şifahi xalq ədəbiyyatında və gündəlik danışıqda da geniş istifadə olunur. Azərb. ədəbiyyatşünaslığında P. bəzən "təhzil" istilahı ilə də adlandırılır. Azərb. ədəbiyyatında Mirzə Cəlilin, M.Ə.Sabirin və "Molla Nəsrəddin" ədəbi məktəbinə mənsub digər sənətkarların P.-ları ideya-siyasi və bədii gücü ilə seçilir.

A.Paşayev

PAŞAYEV Ataxan Əvəz oğlu (d. 1938) – tarixçi, arxeoqraf. Tarix e. n. (1980), Azərb. əməkdar mədəniyyət işçisi (1980). 1962 ildən resp.-nın arxiv təşkilatlarında işləyir. Azərb. Resp. Ədəbiyyat və İncəsənət arxivinin ilk direktoru olmuş (1966-1982), 1984 ildən Azərb. Resp. Nazirlər Kabineti yanında Baş Arxiv (2002-ci ildən Azərbaycan Respublikası Milli Arxiv) İdarəsinin rəisidir. Resp.-mızda arxiv quruculuğuna, Azərb. tarixinin müxtəlif məsələlərinə dair tədqiqatların və sənədli nəşrlərin müəllifi, tərtibçisi və red.-dur. "Molla Nəsrəddin"in fəaliyyətinə aid tədqiqatla məşğul olmuş, uzun illər SSRİ-nin müxtəlif arxivlərində bu jurnalın nəşri ilə bağlı rəsmi sənədləri toplayaraq çap etdirmişdir ("Azərbaycan arxivi", 1972, №1). 1980 ildə "İnqilabi-demokratik "Molla Nəsrəddin" jurnalının Şərqdə istibdad quruluşu və müstəmləkəçiliyə qarşı mübarizəsi (1906-1914-cü illər)" mövzusunda namizədlik dissertasiyası müdafiə etmiş, "Molla Nəsrəddin": dostları, düşmənləri" (1982) kitabını, ilk mənbələr əsasında M., "Molla Nəsrəddin" jurnalı və Həmidə xanım haqqında bir çox elmi və publisistik məqalə çap etdirmişdir.

PAŞAYEVA Mərziyyə Göyüş qızı (d. 1925) – ədəbiyyatşünas. ADU-nun filol. fakültəsini bitirmişdir (1943). 1945 ildən Nizami ad. Ədəbiyyat İn-tunun nəzdindəki əlyazmalar şöbəsində işləyir. 1950 ildə indiki Əlyazmalar İn-tu yarananda evlərdən, şəxsi kolleksiyalardan əlyazmaların, bəzi görkəmli ədəbiyyat və mədəniyyət xadimlərinin arxivlərinin toplanması, alınan abidələrin işlənməsi və oxucu kataloqunun tərtibində P.-nın xidməti olmuşdur.

P. elmi sahədə də səmərəli fəaliyyət göstərir. Onun bir sıra məqalələri ("Hərdəm Xəyal" haqqında), nəşr etdirdiyi "Cəlil Məmmədquluzadənin arxivinin təsviri" (Bakı, 1961), "Cəfər Cabbarlı arxivi-

Sankt-Peterburq şəhərindən görüntü.

nin təsviri" (Bakı, 1967), "Salman Mümtaz arxivinin təsviri" (Z.Hacıyeva ilə birlikdə, 2005) kitabları mədəniyyət xadimlərimizin irsi haqqında tam məlumat əldə etməyə imkan vermişdir.

PEPİNOV Əhməd Cövdət Ömər oğlu (1893-1938) – ziyalı, ictimai xadim. Ömər Faiqin bacısı oğlu. Tiflis gimnaziyasında, Moskva un-tinin hüquq fakültəsində oxumuşdur (1918). P.Zaqafqaziyada baş verən siyasi hadisələrdə fəal iştirak etmişdir. 1918 ilin fevralında o, yeni yaradılan Zaqafqaziya seyminin müsəlman fraksiyasının "Müsəlman sosialist blokuna" daxil olur. 1918 il mayın 28-də Azərb. Xalq Cümhuriyyəti elan olunduqdan sonra, "Sosialist fraksiyası"nın üzvü kimi müstəqil Azərb.-ın ictimai-siyasi həyatında fəal iştirak edir. 1918 il dekabrın 7-də Bakıda Azərb. parlamentinin iclasında P. parlamentin katibi seçilmiş, uzun müddət onun ən fəal üzvlərindən biri olmuş, 1919 ilin dekabrında Əmək və Torpaq naziri vəzifəsini tutmuşdur. Azərb.-da aprel çevrilişindən sonra isə P. Bakıda mədəni-maarif və nəşriyyat işləri sahəsində fəaliyyət göstərmiş, 1938 ildə repressiya qurbanı olmuşdur.

Ə.C.Pepinov

P. Tiflisdə gimnaziyada oxuyarkən M.-nin ailəsi ilə yaxınlıq etmiş, "Molla Nəsrəddin" jurnalı redaksiyası ilə sıx əlaqə saxlamış, bir müddət orada yaşamış, onun bükülüb abunəçilər üçün hazırlanmasında, yayılmasında fəal iştirak etmişdir. P. ömrünün sonuna qədər Mirzə Cəlilin ailəsi ilə dostluq əlaqəsi saxlamışdır.

PETERBURQ, SANKT-PETERBURQ – Rusiya Federasiyasının ikinci böyük şəhəri, 1918 ilə qədər ölkənin paytaxtı. Mühüm elm və mədəniyyət mərkəzi, muzeylər və memarlıq abidələri şəhəridir. Əsası 1703 ildə Birinci Pyotr tərəfindən qoyulub. 1894 ildə "Avropa Rusiyasının müxtəlif yerlərinə getmək üçün iyunun 10-dan avqustun 25-dək" Nehrəm kənd məktəbindən məzuniyyət götürən M. bir müddət P.-da olmuş, burada irqçi və monarxist baxışları tanınan "Новое время" qəzetinin red. İ.S.Suvorinlə görüşmüşdür. O, Suvorinə ərəb əlifbasının latın qrafikası ilə dəyişdirilməsi barədə qəzetdə müza-

Sankt-Peterburq şəhəri.

kirə açmağı təklif etmiş, lakin Suvorin hələlik bu məsələnin vaxtı çatmadığını bildirərək M. ilə razılaşmamışdır. İstər "Molla Nəsrəddin" jurnalında çap edilmiş satirik teleqramlar içərisində, istərsə də yazıçının ayrı-ayrı personajlarının nitqində P. adına (bəzi mənbələrdə "Fitilbörk" şəklində) tez-tez təsadüf olunur. "Peterburq" adlı ayrıca bir felyetonu da vardır. M.-nin böyük oğlu Midhət 1930 ildə bir müddət bu şəhərin yaxınlığındakı Severstroy hidroelektrik stansiyasında təcrübə keçmişdir.

"PİRVERDİNİN XORUZU" – M.-nin yazdığı hekayə. 1906 ildə qələmə alınmış, ilk dəfə "Molla Nəsrəddin" jurnalının həmin il 9 iyun tarixli 10 sayında dərc olunmuşdur. Əsərin əsas tənqid hədəfi şəriətlə idarə olunan milli həyatın bəlalarıdır. Acı həqiqətlər Mirzə Cəlil qələminə xas məzəli əhvalat fonunda və duzlu yumorla nəql olunur. Müəllif əhvalatın baş verdiyi yeri – ümumiləşdirici, rəmzi səciyyəli "Danabaş" kəndini bir daha vurğulayır.

Qasım əminin övrəti Həlimə xala çörək bişirməyə hazırlaşarkən, kömək üçün ərini qonşu Təzəkənddən bacısı Zibeydəni gətirməyə göndərir. Bu zaman oğlu Pirverdi ulağı saxlayıb, atasından xalasına onun üçün xoruz gətirməsi sifarişini göndərir. Təzəkənddə Qasım əminin əhvalından xəbər tutan Molla Cəfər ona tədbir tökür, övrətinin əziyyətindən birdəfəlik qurtulmaq üçün Pərinisəni Qasım əmiyə siğə edir və ulağın tərkinə mindirib yola salır. Əsl tragikomediya hekayənin sonunda müəllifin diqqət cəlb etdiyi "Qasım əminin övrətlərinin "dava-mərəkəsi" səhnəsindən çox, xoruz əvəzinə ikinci "ana" qazanmış Pirverdinin düşdüyü vəziyyətdir. Böyük satirik hər yerdə müsəlmanın məhz bu halına qarşı amansızdır: müsəlman həmişə öz asan işini çətinə salmağa adətgərdir; bu yolda onun bələdçisi isə şəriət, din xadimləridir.

Hekayə əsasında "Azərbaycanfilm" kinostudiyasında eyniadlı film çəkilmişdir.

PİŞNAMAZZADƏ Molla Fərəcullah Molla Zeynalabdin oğlu (1870-1952) – din xadimi. İlk təhsilini molla məktəbində alan P. kiçik yaşlarından islam dininə böyük maraq göstərmişdir. 1885 ildə İrana, sonra Səudiyyə Ərəbistanına oxumağa göndərilir, ərəb və fars dillərini, "Quranı", ilahiyyat elmlərini, İslam tarixini, Şərq klassik ədəbiyyatını yaxşı öyrənir. Təhsili başa vurandan sonra Şəkiyə qayıdıb, din xadimi və ictimai xadim kimi fəaliyyətə başlayır. P. Şəkidə şəhərin yuxarı hissəsinə içməli su çəkdirir, öz hesabına qız məktəbi açdırır, xeyriyyə işlərində çalışır. 1918 ildə o, azərb.-ların erməni hücumlarından qorunmalarına kömək edən Türkiyə ordu hissələri ilə əlaqə saxlayır. P. rus çarizminə düşmən idi, L.N.Tolstoyla dini məsələlər barədə məktublaşırdı. P. 30-cu illərdə Zaqafqaziya müsəlmanları şeyxülislamının müavini vəzifəsinə təyin olunmuş və ömrünün sonunadək bu vəzifədə çalışmışdır. M. ilə dostluq münasibətində olan P. onunla tez-tez görüşür, məktublaşır, dini və mədəni-maarif məsələlərində məsləhətləşirdi. Qadın təhsili və tərbiyəsi sahəsində P.-nin həyata keçirdiyi tədbirləri M. təqdir etmişdir. Ədib 1922 il 21 noyabr tarixli məktubunda yazırdı: "Sizi mən böyük yadigar hesab edirəm... Qız tərbiyəsi bizim gələcəyimiz üçün əsaslı məsələdir. Bu məsələ dairəsində sizin məqamınız birinci, yəni ən yuxarı mərtəbədə tutulmalıdır". M. "Üləma" felyetonunda P.-nin din, şəriət pərdəsi altında vəhşi mövhumatı, kor fanatizmi yayanlara qarşı cəsarətli mübarizəsini yüksək qiymətləndirmişdir ("Molla Nəsrəddin" jurnalı, 1909, №5).

"POÇT QUTUSU" – M.-nin ilk mətbu hekayəsidir. 1903 ildə qələmə almışdır. Əsəri Məhəmməd ağa Şahtaxtlı "Şərqi-Rus" qəzetinin 1904 il 16 və 18 yanvar tarixli saylarında dərc etmişdir. Hələ o vaxt müəllifinə diqqət oyadan bu hekayə həm də milli realizmin tarixində mərhələvi rol oynamış, milli nəsrin intişarına böyük təsir göstərmişdir. Sonralar çağdaş Azərb. nasirlərini nəzərdə tutaraq yazıçı Mir Cəlal obrazlı şəkildə: "Biz "Poçt qutusu"ndan çıxmışıq" deyir.

"Poçt qutusu" hekayəsi ilə M. nəinki nəsrin inkişafında, bütünlükdə milli ədəbiyyatın tarixində yeni dövrü açan yolun başlanğıcını qoyur; Əli Nazimin sözləri ilə desək, "O zamana qədər yüksək, mümtaz siniflərin zövqünə xidmət edən müqəddəs ədəbiyyat kəbəsinə" ilk dəfə və birdəfəlik olaraq milli cəmiyyətin aşağı qatlarını, zümrələrini, insanlarını gətirir. Novruzəlilər birbaşa bədii ədəbiyyatın tədqiq predmetinə çevrilir, mətbu olaraq haqlarında söhbət gedir.

Hekayədə Mirzə Cəlil başlıca olaraq milli cəmiyyətin zəminin təşkil edən bəyxan və kəndli münasibətlərinin anatomiyasına varmağa çalışır. Ən kiçik təfərrüatlardan tutmuş süjet həllinə qədər hər yerdə Vəli xanın teleqraflı, məktublu, səfərli dünyası Novruzəlinin ulaqlı, iş-güclü, gün-güzəranlı dünyasına tuş gəlir, bir-birini tamamlayır. Vəli xan üçün əyləncə, nağıl, "qah-qah" olan məktub əhvalatı Novruzəlinin həyat mündəricəsi, qəziyyəsi, faciəsidir... "Ay xan, mən kətdi adamam, mən nə bilirəm poçtxana nədi?" – deyən itqapanlı Novruzəli Vəli xanın məktubunu yola salarkən bilməzlikdən dövlət məmuru ilə savaşa girib, üç ay dustaq yatır, həmin üç ay ərzində İrəvanda olan Vəli xan isə bunu eşidib, yalnız "bir qədər fikir" eləməklə kifayətlənir.

Hekayə M. üslubunun səciyyəvi cəhətlərini, nəsrinin poetikasını kamil şəkildə əks etdirir. Qeyri-xətti süjet, metaforik deyim və qurum bu nəsr üçün daha səciyyəvidir. Burada poetik yığcamlıq, az sözlə çox fikir söyləmək, eyham, işarə sistemi polifonik strukturun özü tərəfindən diktə olunur. Süjetin xətti hissəsində – xanın gedib Novruzəlini zamına götürməsinə qədər olan hissədə Vəli xan və Novruzəli haqqında artıq bütün nominal informasiya vardır. Elə ki, Novruzəli başına gələnləri danışır və Vəli xan onu ləzzətlə dinləyir – bundan o yana daim ümumiləşmə gedir. Novruzəli və xan dünyasının sosial mahiyyəti dərinlərə qədər açılır, obrazlar haqqında məlumat mədəni, psixoloji, sosial-tarixi, mənəvi baxımdan zənginləşir. Müəllif ideyasının daha bir daşıyıcısı – ciddi, satirik və yumorlu intonasiya isə bütün mətnə yayılaraq, vurğuları yerinə qoyur.

"P.q." milli nəsrin klassik nümunəsi kimi M. əsərlərinin nəşrlərinin hamısına salınmış, xarici dillərə tərcümə olunmuş, orta məktəblərdə tədris olunur. Hekayə əsasında "Azərbaycantelefilm" kinostudiyasında qısametrajlı film çəkilmişdir.

"POÇT QUTUSU" XƏBƏRLƏRİ" – "Molla Nəsrəddin" jurnalının istifadə etdiyi təzə bir publisistik janr, forma. Jurnalda həmin ad altında tənqidi qeyd, məsləhət və məlumatlar verilirdi ki, bu yazılar da çox əhəmiyyətli, təsirli olurdu. Mirzə Cəlil ədəbi prosesi çox vaxt "P.q." x." vasitəsilə izah və idarə etmiş, istiqamətləndirmişdir. Ədəbiyyatşünas İ.Həbibbəyli haqlı yazmışdır: "Molla Nəsrəddin"in əksər saylarında özünə münasib yer tapan, ilk illərdə daha tez-tez müraciət olunan "Poçt qutusu"nun hər biri baş redaktorun sənət dərsləri təsiri bağışlayır... Publisist forma kimi düşünülmüş "Poçt qutusu" mollanəsrəddinçi nəsrin yaradıcılıq axtarışlarının məhsuludur. Xəbərlər qısa və aydın verilirdi. Məs.: "Nuxada Sadıqov cənablarına: Kefini pozma"; "Bakıda "Dəmdəməki"yə: Hələ indi vaxtı deyil"; "Astarada "Müxbir"ə: Çap olunmayacaq"; "İrəvanda "Ovçu"ya: yazmalı mətləb deyil" və s.

M. bu xəbərlərdə təkcə adı-imzası hələ tamam-kamal bəlli olmayan gənc qələm sahiblərinə deyil, qüdrətli satirik şairlərə də çəkinmədən eyni tələbkar münasibətini yazıb bildirirdi.

POVEST – epik, təsviri-təhkiyə ədəbiyyatın növlərindən biri; hekayədən fərqli olaraq, P.-də, adətən, bir hadisə yox, əhvalatların əsas iştirakçısı, qəhrəmanı olan şəxsin həyatının bütöv bir dövrü və bu dövrün bir sıra hadisələri verilir. Əsərdə baş qəhrəmanın ətrafında bir neçə şəxs olur; həyat hekayəyə nisbətən daha geniş və mürəkkəb bir şəkildə, romana nisbətən az xarakter və hadisələr dairəsində əks etdirilir.

M.-nin "Danabaş kəndinin əhvalatları" silsiləsinin "Eşşəyin itməkliyi" əsəri milli ədəbiyyatımızda P.-in ən yaxşı nümunələrindən biridir. Əsərdə Xudayar bəy adlı qoluzorlu kəndxudanın (əsərdə "katda" şəklində verilmişdir) Danabaş kəndində törətdiyi cinayət və özbaşınalıq tipik həyati hadisələrlə təsvir olunmuşdur.

"PROLETAR ŞAİRİ" – M.-nin 1929 ildə qələmə aldığı çox kiçik həcmli hekayə. Əsərdə iki obraz var: Birincisi "On səkkiz-iyirmi yaşlı, çox səliqəli geyinmiş, başının telləri qız saçı kimi daranıb, alnına düzülmüş, qız kimi üzü tüksüz, təmtəzə frenc və kalifeli, beli incə, parıldayan uzunboğaz çəkməli bir centelimen" – proletar şairi Təhsin Fevzi, ikincisi "sadə və həqir geyimli, otuz, ya bir qədər artıq sinli" Şura hökuməti tərəfindən xanzadə olduğu üçün Şamaxıya köçürülüb orada həmişəlik yaşamağa məhkum edilən Nuru xan oğlu Şahverdi xandır. Əsər müəllifin dilindən təhkiyə olunur. Xalqın inqilab edib qurduğu yeni hakimiyyətin – Şura hökumətinin "proletar şairi" əslində, yeni

ictimai quruluşun imtiyazlarından sui-istifadə edən saxta, formalist "ziyalı" obrazıdır.

PUBLİSİSTİKA, C.Məmmədquluzadənin publisistikası – M.-nin ədəbi-ictimai fəaliyyətinin əsas hissəsini P. təşkil edir. Ədibin P. yaradıcılıq növünə geniş və həm də bütün həyatı boyu müraciət etməsi təsadüfi deyildi. Bu hər şeydən əvvəl P. yaradıcılıq növünün çevik təbiətilə, onun daha kəskin və daha fəal ifadə vasitələrinə malik olması imkanları ilə bağlı idi. M. hələ XX əsrin ilk illərində P.-ya müraciət etmişdi. Onun 1903-1905 illərdə "Kaspi", "Тифлисский листок", "Возрождение", "Кавказский рабочий листок" və "Şərqi-Rus" kimi qəzetlərdə dövrün müasir siyasi-ictimai hadisələri mövzusunda bir sıra məqalələri çıxır. Əlbəttə, Mirzə Cəlilin P.-sının ən parlaq dövrü onun 1906-1931 illərdə Tiflis, Təbriz və Bakıda nəşr etdiyi satirik "Molla Nəsrəddin" jurnalı ilə bağlıdır.

Ədibin P.-sının ideya-estetik özünəməxsusluğunu görmək üçün hər şeydən əvvəl "Molla Nəsrəddin" jurnalının 1906 il 7 aprel tarixli birinci nömrəsinə baxmaq lazımdır. Bu nömrədə M.-nin ictimai idealları və publisist sənətkarlığının demək olar ki, bütün başlıca xətləri verilmişdir. Bu xətt xalqı feodal həyat tərzindən uzaqlaşdırmaq, onda milli mənlik və milli-azadlıq düşüncəsi yaratmaqda özünü göstərir. Öz ideallarını ifadə etmək üçün M. jurnalın səhifələrində xalqın gündəlik həyatında təsadüf edilən yüzlərcə fakt və hadisələrə müraciət edir, bütün bunları ən qısa, ən çevik, sadə danışıq dilinin ən kütləvi üslubunda ifadə edirdi. Mirzə Cəlil P.-nın demək olar ki, bütün janrlarında əsərlər yazmışdı. Lakin felyeton onun P.-sının başlıca janrı idi. Bu felyetonlarda günün konkret adamları və hadisələri satirik gülüş ilə tənqid və islah edilir. M.-nin tənqid və gülüşü hakim sosial zümrələrdən olan adamlara qarşı daha kəskin idi. Məhz belə sinfi mövqeyin nəticəsindədir ki, onun P.-sında dövrün ayrı-ayrı adamlarının adi, keçici qüsurları bəzən ifrat dərəcədə tənqid edilirdi. Lakin bütün bu cəhətlərinə baxmayaraq M.-nin satirik P.-sı özünün böyük ictimai idealları və parlaq ədəbi-bədii formaları ilə dövrün onlarca söz sənətkarını öz təsiri altına alır. M.-nin P. məktəbinin təsiri altında Bakıda "Bəhlul", "Zənbur", "Mirat", "Arı", "Tuti", "Babayi-Əmir", "Şeypur" və b. satirik P. orqanları yaranmışdı. M.-nin P. üslubu Azərb. ədəbiyyatının demək olar ki, bütün ədəbi növlərində bir ictimai fəallıq və mübarizlik əhval-ruhiyyəsi yaradırdı.

M.-nin 1921 ildə Təbrizdə, əsasən, özü tərəfindən yazılıb, nəşr edilən "Molla Nəsrəddin" jurnalındakı publisistik nümunələrin hər biri bir bomba kimi partlayırdı.

M.-nin "Molla Nəsrəddin" jurnalı ilə bağlı sovet dövrü P.-sı (1922-1931) mövcud rejimin məhdud çərçivəsində olsa da, bu P. Azərb. xalqını köhnəlik qalıqlarından və dini fanatizm bəlasından uzaqlaşdırmaq, onu müasir dünyanın qabaqcıl aləminə yaxınlaşdırmaq ideallarına görə misilsiz maarifçilik rolu oynamışdır. Müasir dövrümüzdə fəaliyyət göstərən neçə-neçə nasir və publisist M.-nin P.-sının ictimai ideallarından və ədəbi formalarından istifadə etməkdədir.

PURİŞKEVİÇ Vladimir Mitrofanoviç (1870-1920) – çar Rusiyasının nüfuzlu siyasi xadimi, iri mülkədar. 1900 ildən Daxili İşlər Nazirliyində işləmiş, Oktyabristlər partiyasının liderlərindən olmuşdur. Bessarabiya qubernıyasından I, II, III və IV Dövlət dumalarına deputat seçilmiş P. iclaslarda öz talançı, antisemit çıxışları ilə məşhurlaşmışdı. Mürtəce "Rus xalqının ittifaqı"nın (1905) və "Mixail Arxangel ittifaqı"nın (1908) yaradılmasında mühüm rol oynamış, hər iki ittifaqa rəhbərlik etmişdir. Romanovlar monarxiyasının rifahı naminə Q.Rasputini öldürənlərdən biri idi. 1917 ildən sonra əksinqilabi təşkilata rəhbərlik edirdi. P. Rusiya imperiyasının məzlum müsəlman xalqlarının düşməni və onların tərəqqi və azadlıq meyllərini boğan mürtəce xadim kimi mollanəsrəddinçilərin əsas tənqid hədəflərindən idi. Onlar müxtəlif bədii vasitələrdən, publisistik maneralardan istifadə etməklə onu lağa qoyur və hörmətdən salırdılar. Bu baxımdan Ə.Haqverdiyevin "Pir" hekayəsində bir dialoq diqqətəlayiqdir.

Bilyard oyununda dalaşıb döyülməsinin səbəbini yoldaşının onu "Pruşkoviç oğlu" deyib təhqir etməsi ilə izah edən Əhməddən atası soruşur:

– Ay oğul, Poroşdoviç dedin, nə dedin, o nə sözdü?

– Nə bilim nə sözdü? Yaxşı söz olsa, öz atasına deyər. Soruşdum, dedilər ki, bu təzə rus söyüşüdür.

M. "Molla Nəsrəddin"in "Mətbuat" xülasələrində müxtəlif qəzetlərdən aldığı sitatlara verdiyi kommentariyalarda P.-in monarxist siyasətini ifşa edirdi. "Bəyanülhaqq" qəzetindən P.-in "Qafqazda müsəlman ruhaniləri"nin "inqilab tərəfdarı" olmaları barədə nitqini misal gətirən M. yazırdı: "Heç yalan deyil. Pruşkeviç tək yox, keçən 49-cu nömrəmizdəki qubalı Molla Hacıbabanın şəklini görəndən sonra bu fikrə düşüb".

Yaxud: "Vəqt" qəzetinin "səmərqənddə bulqar səhrasında rus kəndlərinin salınacağı" məsarifinin "Buxara hökuməti ilə sart müsəlmanlarının kisəsindən" ödəniləcəyi haqqında xəbəri ilə əlaqədar yazırdı: "Pruşkeviçlərin mədəniyyəti bundan artıq ola bilməz".

PUŞKİN Aleksandr Sergeyeviç (1799-1837) – rus yazıçısı, yeni rus ədəbiyyatının banisi. 12 yaşında Tsarskoye Selo liseyinə daxil olmuş, ilk uğurlu şeirlərini burada oxuduğu illərdə yazmışdır. 1817 ildə liseyi bitirərək, kollegiya katibi rütbəsi almış və Xarici İşlər Kollegiyasına təyin olunmuşdur. P.-nin yaradıcılığı onun erkən lirikasından və cənub poemalarının ("Qafqaz əsiri", 1820-1821; "Baxçasaray fontanı", 1823; "Qaraçılar", 1823-1824 və s.) romantizmindən realizmə doğru təkamül və inkişaf yolu keçmişdir. P. öz əsərlərində ilk dəfə olaraq, XIX əsr rus həyatının bir çox əsas problemlərini qoymuş və işıqlandırmışdır: tarixin aparıcı qüvvəsi olan xalq ("Boris Qodunov", 1825), mühitin və şəraitin sosial məhsulu olan şəxsiyyətlə cəmiyyətin ("Yevgeni Onegin", 1823-1831), şəxsiyyətlə dövlətin ("Tunc atlı", 1833) münasibətləri, pulun insani hissiyyatı üzərində hökmranlığı ("Qaratoxmaq qadın", 1833) və s. Özündə ümumbəşəri və milli ünsürləri birləşdirən P. poeziyası – rus və dünya ədəbiyyatında incəsənətin harmoniyasının parlaq təzahürüdür. Humanizm, vətəndaşlıq, həqiqət pafosu, realizm, xəlqilik, tarixilik P. tərəfindən rus ədəbiyyatının əsas ənənələri kimi təsdiqlənmişdir.

P.-nin rus mütləqiyyəti ilə mübarizədə keçən həyatı, realist-demokratik yaradıcılığı, mütərəqqi nəzəri görüşləri XIX-XX əsrlər Azərb. yazıçılarının bir çoxu üçün nümunə olmuşdur. P.-i ilk dəfə yüksək qiymətləndirən və ona "Puşkinin ölümünə Şərq poeması" (1837) kimi klassik əsər həsr edən M.F.Axundov şairə hədsiz məhəbbət və qatillərinə dərin nifrət ifadə etmişdir.

M. hələ seminariyada oxuyarkən P.-nin əsərləri ilə yaxından tanış olmuşdu. Böyük rus şairinin yaradıcılığı M.-nin ədəbi dünyagörüşünün inkişafına müsbət təsir göstərmişdir.

P.-in rus ədəbiyyatında həyata keçirdiyi islahatlar, "xoruz səsi eşitməmiş", "kəlmə və ibarələr", "göydəndüşmə" sözlər işlədən "rusun qədim yazıçı"larının və Derjavinin əksinə olaraq dili sadələşdirib geniş xalq kütləsinin anlağına uyğunlaşdırması M. tərəfindən təqdir olunmuşdur.

A.S.Puşkin



A.S.Puşkinin Bakıdakı heykəli.

M. "Papaslar" felyetonunda yazırdı: "Rusun qədim şairi Derjavinin şeirlərini indi adam oxuyanda elə bilir ki, guya bu sözlər göydən yerə düşüblər. Amma aylar və günlər dolandı, axırda nə bilim Puşkinlər, Jukovskilər dili lap xarab etdilər; elə sözlər yazdılar ki, kəndlilər də başa düşdülər" ("Molla Nəsrəddin" jurnalı, 1909, №32).

RADLOV Vasili Vasilyeviç (1837-1918) – rus şərqşünası, türkoloq, etnoqraf, arxeoloq. Peterburq EA akad. (1884). Orta və Şərqi Asiyanın öyrənilməsi üçün rus komitəsi yaradılmasının təşəbbüsçüsü və onun sədri (1903-1918) olmuşdur. 1860-1870 illərdə Altayda, Sibirdə, Qazaxıstan və Orta Asiyada linqvistik, etnoqrafik və arxeoloji ekspedisiyalarda iştirak etmiş, türk xalqlarının dil, folklor, etnoqrafiya və arxeologiyasına dair çoxsaylı materiallar toplamışdır. "Şimali türk dillərinin müqayisəli qrammatikası", "Monqolustanda qədim türk kitabələri", "Türk tayfalarının xalq ədəbiyyatından nümunələr", "Türk dillərinin lüğəti" kimi monumental nəşrlərin müəllifidir. XIX əsrin 90 illərində R. Rusiyadakı türk xalqları üçün rus qrafikasına əsaslanan əlifba yaratmışdır. M.-nin "Xatiratım"ından da göründüyü kimi, həmin illərdə o özü də Naxçıvanda bu əlifba ilə yaxından maraqlanmış, hətta "Danabaş kəndinin əhvalatları" silsiləsinin başlanğıcından bir neçə səhifəni həmin əlifba ilə yazmışdır. M. bir türkoloq-alim kimi R.-u yüksək qiymətləndirsə də, "Molla Nəsrəddin"də nəşr etdiyi "Missionerlər" felyetonunda onun missionerlik fəaliyyətinə mənfi münasibətini bildirmişdi.

F.F.Ramazanov

RAMAZANOV Fərrux Fətulla oğlu (d. 1922) – pedaqoq, alim. Fəlsəfə e.d. (1973), prof. Azərb. Texniki Un-tində fəlsəfə və politologiya kafedrasının müdiri. "C.Məmmədquluzadənin etik görüşləri" mövzusunda namizədlik (1962), "Azərbaycanın demokratik fikrində etika problemləri" mövzusunda doktorluq (1973) dissertasiyalarını müdafiə etmişdir. "Cəlil Məmmədquluzadə yaradıcılığında əxlaq məsələləri" (1961), "Cəlil Məmmədquluzadənin etik görüşləri" (1969) əsərlərinin, elmi-publisistik məqalələrin müəllifidir.

REDAKTƏ SƏNƏTKARLIĞI – M.-nin jurnalistlik və redaktorluq fəaliyyətində mətnlərin ədəbi redaktəsi mühüm yer tutur. O, hələ "Şərqi-Rus" və "Возрождение" qəzetlərində işləyərkən əlyazmalarını cilalayıb, oxuculara çatdırmaq üçün hazır şəklə salmaq sahəsində ilk vərdişlər qazanmışdı. "Molla Nəsrəddin" jurnalında bunlar daha da təkmilləşmiş, yüksək R.s. səviyyəsinə çatmışdır. M. mövzunun seçilməsi, onun şərhi, mətnin ədəbi cəhətdən işlənməsi məsələlərinə xüsusi diqqət yetirmiş, ciddi mövzulara əl atıb problemlərin həlli yollarını göstərə bilməyənləri "azarlının nəbzinə baxandan sonra "xudahafiz", – deyib börklərini axtaran" yarımçıq təbiblərə bənzətmişdir. M. "Molla Nəsrəddin"in müxbirlərinə üç şeyi tövsiyə edirdi: "Yalan olmasın, sənədli olsun, təsviri yazılsın". Mətnlərin yığcamlığı, fikir aydınlığı, ifadə dəqiqliyi "Molla Nəsrəddin"lə əməkdaşlıq edən bütün müəlliflər üçün ümumi tələblər idi. M. bu sahədə bütün həmkarlarına nümunə olmuş və göstərmişdir ki, "nə uzun-uzadı yazmağa dimağım var, nə uzun-uzadı oxumağa xalqın həvəsi var". "Molla Nəsrəddin" jurnalında fakt materialının zənginliyinə, doğruluğuna və dürüstlüyünə, həyat həqiqətlərini dolğun əks etdirməsinə ciddi əhəmiyyət verilirdi. M. heç bir halda faktların təhrif olunmasına dözməmiş, jurnalist etikası normalarından kənara çıxmamış, məşhur "İp" felyetonunda olduğu kimi, nahaqdan ləyaqətinə toxunulan şəxslərdən üzr istəməkdən çəkinməmişdir. M. müxbirləri sözçülükdən, anlaşılmaz ifadələrdən, özünün dediyi kimi "əndiras-mindiras" kəlmələrindən qaçmağa, əsas mətləbi qələmə almağa çağırmışdır. Çünki "...müfəssəl və zınqırovlu ibarələri, tərif və tövsifləri yazmağa yazanların vaxtı və

oxumağa bizim vaxtımız nahaq yerə zay olur". Mirzə Cəlilin R.s. jurnalist və red.-larımızın bütün nəsilləri üçün zəngin məktəbdir.

"REVYÜ DÜ MOND MÜSÜLMAN" ("Revue de Mond musulmane") – XIX əsrin sonu – XX əsrin əvvəlində Parisdə (Fransa) nəşr edilən jurnal. Səhifələrində Azərb. mətbuatı haqqında bir çox yazılar da dərc olunurdu. 1906 ildəki birinci nömrəsində "Molla Nəsrəddin" jurnalı haqqında ilk məlumat verilmişdi. 1907 ildən başlayaraq "Molla Nəsrəddin" jurnalının materiallarından bəhs etmiş, nümunələr vermişdir. Bu yazılarda "Molla Nəsrəddin" jurnalı, onun naşiri və red. M. yüksək qiymətləndirilir, Mirzə Cəlilin bəzi əsərləri haqqında məlumat verilirdi. Jurnalın 1907 ilin yanvar sayında "Molla Nəsrəddin"in 22 sentyabr tarixli 25-ci nömrəsinə dair 8 səhifəlik mükəmməl bir icmal çap edilmişdi. Burada həmin saydakı boyalı illüstrasiyaların hamısının fotoşəkli verilir, onların "çox kəskin və dərin məzmunlu" olduğu göstərilir. Jurnal yazır ki, "Molla Nəsrəddin" satirik kəsər baxımından özü kimi Avropa jurnalları ilə yanaşı qoyulmağa layiqdir. "İslamı min il bundan qabaqkı vəziyyətdə təsəvvür edənlərin nə qədər yanıldıqlarını bilmək üçün "Molla Nəsrəddin"in bir nömrəsini vərəqləmək kifayətdir...".

RƏFİLİ Mikayıl Həsən oğlu (1905-1958) – pedaqoq, ədəbiyyatşünas, tənqidçi, şair. Filol. e.d. (1944), prof. (1945). 1923 ildə ADU-nun Şərq fakültəsinə daxil olmuş, 1927 ildə I MDU-nun ədəbiyyat və incəsənət fakültəsinə keçmiş, 1930 ildə oranı bitirmişdir. Həmin ildən Azərb. ali məktəblərində dərs demişdir. Ədəbi fəaliyyətə 1919 ildə başlamışdır. R.-nin tənqidçilik və ədəbiyyatşünaslıq sahəsində fəaliyyəti səmərəli olmuşdur. Azərb. ədəbiyyatı tarixinin yaradılmasında, Nizami, Füzuli, M.Ş.Vazeh, A.A.Bakıxanov, M.F.Axundov və b. klassiklərin tədqiqində böyük xidməti vardır. O, C.Məmmədquluzadə və M.Ə.Sabirin bədii irsinə dair polemik məqalələr çap etdirmişdir. M.-nin yaradıcılığı, ədibin Azərb. ədəbiyyatı və ictimai fikir tarixində yeri, qeyri-milli ədəbiyyatlarla əlaqələri R.-nin tədqiqatçılıq fəaliyyətində mühüm yer tutan məsələlərdəndir. Hələ 1938 ildə orta məktəb dərsliyinə onun M. haqqında oçerki daxil edilmişdi. "Ölülər" komediyasının baş qəhrəmanı haqqında "Zülmət içində nur" məqaləsi çıxmışdı (1947). M. və rus ədəbiyyatı, M. sənəti və Qoqol ənənələri mövzusunda tədqiqat əsəri yazmışdır (1950). "Məmmədquluzadə yaradıcılığı son dərəcə orijinal və milli xüsusiyyətlərə malik yaradıcılıqdır", – deyən R.-nin əsərlərində Qoqol ənənələri ilə əlaqə birtərəfli izah edilirdi. 50-ci illərə aid bir məqaləsində isə M.-ni "inqilabçı demokrat" hesab edənlərə qarşı çıxdığına görə tənqid olunmuşdur. R. "Ədəbiyyat nəzəriyyəsinə giriş" (1958) kitabında M.-nin əsərlərinə, onların sənətkarlıq xüsusiyyətlərinin təhlilinə geniş yer ayırmışdır.

"RƏHBƏR" – aylıq pedaqoji jurnal. İlk nömrəsi 1906 il sentyabrın 24-də, sonuncusu 1907 il yanvarın 17-də (cəmi 5 nömrə) Bakıda çıxmışdır. "R."-də təlim-tərbiyəyə, ictimai məsələlərə dair məqalələr, Azərb., rus və dünya ədəbiyyatından nümunələr dərc olunurdu. Naşiri və red. Mahmud bəy Mahmudbəyov idi. Jurnalda F.Köçərli, S.M.Qənizadə, M.Ə.Sabir, A.Səhhət, S.Əbdülrəhmanbəyov iştirak etmişlər. "R." əsasən, demokratik istiqamətli olmuş, siyasi fikirləri, elmi bilikləri təbliğ etmiş, Azərb.-da pedaqoji və uşaq ədəbiyyatının inkişafında, ümumtəhsil ideyasının yayılmasında mühüm xidməti olmuşdur.

"Molla Nəsrəddin" jurnalı "Bəşarət" felyetonunda "R."-in məqsəd və məramını təqdir etmiş, "İrşad", "Həyat" və "Dəbistan"ın qarşılaşdığı abunəçi azlığının onu da gözlədiyini əvvəlcədən təəssüf hissi ilə xəbər vermişdi. Belə də oldu. "R." maddi çətinlik üzündən bağlandı.

M.H.Rəfili

RƏHİMOVA Gülçöhrə Cəmil qızı (d. 1923) – ədəbiyyatşünas. Filol. e.n. (1967). ADU-nu bitirmiş (1947), Nizami ad. Azərb. ədəbiyyatı muzeyində şöbə müdiri işləmişdir (1950-1965), hazırda böyük elmi işçidir.

"Cəlil Məmmədquluzadənin dramaturgiyası" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir (1966). Dissertasiyada XX əsr Azərb. dramaturgiyasının bir sıra məsələləri, "Ölülər" komediyasının səhnə tarixi, "Dəli yığıncağı" əsərinin obrazlar sistemi, ədibin dramaturji sənətkarlığı kimi problemlər işıqlandırılır. Mətbuatda "Mirzə Cəlil ömrünün izləri" və s. elmi məqalələri dərc olunmuşdur.

Rəsul Rza

RƏSUL RZA (1910-1981) – şair, dramaturq, ict. xadim. Azərb. xalq şairi (1960), Sosialist Əməyi Qəhrəmanı (1980), SSRİ Dövlət mükafatı laureatı (1951). İlk şeiri "Qığılcım" jurnalında çıxmışdır. 1927-1937 illərdə Zaqafqaziya Kommunist Un-tində, Azərbaycan Dövlət Elmi Tədqiqat İn-tunda, Moskva Millətlər İn-tunda və Ümumittifaq Kinematoqrafiya İn-tunda oxumuşdur. Azərb. Yazıçılar İttifaqının sədri (1938-1939), Azərb. SSR Kinematoqrafiya naziri (1946-1947), Azərb. Ensiklopediyasının ilk baş red. (1965-1975) olmuşdur.

Yeni, müasir Azərbaycan şeirinin banilərindən biridir. 30-cu illərdən etibarən müasir şeirin inkişafında fəal iştirak etmiş, novatorluq axtarışları ilə poeziyanı ideya-bədii keyfiyyətlərlə zənginləşdirmişdir. Sərbəst şeirin ən görkəmli nümayəndəsi olmuşdur. "Qanadlar" (1935), "Pəncərəmə düşən işıq" (1962), "Duyğular, düşüncələr" (1964), "Düzüm", "Vaxt var ikən" (1964), "Üzü küləyə" (1978), dörd cildlik "Seçilmiş əsərləri" (1967-1970), beş cildlik "Seçilmiş əsərləri" (1980-1983) latın qrafikasıyla 5 cildlik əsərləri (2002) və s. kitabları çapdan çıxmışdır. R.R. öz yaradıcılıq axtarışlarında M. ənənələrinə böyük əhəmiyyət vermişdir. 40-cı illərdə rus ədəbiyyatşünası L.Klimoviçin M. yaradıcılığına verdiyi mənfi qiymətlə əlaqədar olaraq, R.R. ədəbi tənqid konfransında kəskin çıxış etmiş, bir məqaləsində isə M.-nin "Anamın kitabı" pyesində "ana dili" məsələsindən özünəməxsus bir müdriklik və cəsarətlə yazdığını göstərmişdir. R.R. Mirzə Cəlil əsərlərinin obrazları, milli və ümumbəşəri motivləri əsasında yazdığı lirik-fəlsəfi silsilənin müəllifidir. Silsiləyə "Bəhlul, İsgəndər və mən", "Kefli İsgəndər", "İsgəndər, Çatski və Çayld Harold", "Ölülər", "Zeynəbin qisası", "Bəlkə də qaytardılar", "Kamança", "Nazlılar", "Anamın kitabı" şeirləri daxildir. R.R. M.-nin "Ölülər", "Anamın kitabı", "Danabaş kəndinin əhvalatları", "Kamança", "Bəlkə də qaytardılar" kimi əsərlərinin vətəndaşlıq və humanizm motivlərindən yaradıcılıqla istifadə edərək yeni məzmunlu şeirlər yaratmışdır.

İ.Rotter

M.Ə.Rəsulzadə

RƏSULZADƏ Məhəmməd Əmin-axund Əliəkbər oğlu (1884-1955) – ictimai-siyasi xadim, yazıçı-publisist, tənqidçi, ədəbiyyatşünas. Bakıda "Rus-müsəlman" məktəbində və sənət məktəbində oxumuşdur. Azərb.-ın milli istiqlal mübarizəsinin lideri. 1917 ildə yaradıcılarından olduğu "Müsavat" partiyasının I qurultayında partiyanın, 1918 il mayın 28-də Azərb. istiqlalı elan olunandan sonra Azərb. Milli Şurasının sədri seçilmişdir. 1920 ildə Azərb. bolşeviklər tərəfindən işğal olunduqdan sonra R. həbs olunmuş, lakin keçmiş dostu İ.Stalin onu həbsdən azad etdirmişdir. Moskvada işləmiş, 1922 ildən mühacirətdə (Türkiyədə, Polşada, Rumıniyada, Almaniyada) yaşamış, Azərb.-ın istiqlalı uğrundakı mübarizəsini davam etdirmişdir. "Şərqi-Rus", "Həyat", "İrşad", "Tərəqqi" və b. qəzetlərdə şeirlər, publisist məqalələrlə çıxış etmişdir. "Təkamül" (1906-1907), "Açıq söz" (1915-1918), Tehranda "İrane-nou" ("Yeni İran", 1909-1911), İstanbulda "Yeni Qafqaziya" (1923-1928), "Azəri-Türk" (1928-1929), "Odlu yurd" (1929-1931), sonralar, 1932-1939-cu illərdə Berlində "Qurtuluş", "İstiqlal" kimi qəzet və jurnalların naşiri və baş mühərriri, 1952-1955 illərdə Ankarada "Azərbaycan" qəzetinin red. olmuşdur.

R. ədəbi-tənqidi və publisist məqalələrində, ədəbiyyat tarixinə həsr olunmuş monoqrafik tədqiqlərində, habelə tarixi-siyasi mövzulu əsərlərində M., "Molla Nəsrəddin" jurnalı və onun müəllifləri haqqında fikir və mülahizələrini şərh etmişdir. Jurnalın onilliyi münasibətilə yazdığı məqalədə M.-nin yaradıcılığını, xüsusilə, "Usta Zeynal", "İranda hürriyyət" hekayələrini, "Ölülər" pyesini yüksək qiymətləndirmiş, böyük satirikin mənalı gülüşləri, dərin istehzaları ilə bütün Şərq – İslam aləmində tanındığını qeyd etmişdir: "Ölü fikirlər, ölgün məişətlər onun diri xəndələrinə məruz qalaraq intibah qəhqəhələri doğururdu. O, ağlanacaq hallara gülürdü, güldürərək ağladırdı... Çünki ağlaya-ağlaya yaman günlərə qaldığımızı yaxşı dərk etmişdi" ("Açıq söz", 1916, №166). Bir qədər sonra R. red. olduğu "Açıq söz"də M.-nin "Ölülər" pyesinin ilk dəfə tamaşaya qoyulmasını geniş işıqlandırmışdı. Tamaşa haqqında təəssüratını bildirən digər tanınmış qələm və fikir sahibləri kimi R.-nin də məqaləsində "Ölülər" müəllifin yaradıcılıq şedevri adlandırılmış, onun dramaturgiyamızdakı misilsiz mövqeyi açıqlanmışdı ("Açıq söz", 1916, №173).

R.-nin "Çağdaş Azərbaycan ədəbiyyatı" ("Ankara, 1951) əsərində M.-nin "Ka-

mança” və “Anamın kitabı” pyesləri bədii cəhətdən kamil, ideyaca milli məfkurəyə söykənən əsərlər kimi təqdir olunmuşdur. R.-nin fikrincə, hər iki əsərin bir müddət tamaşaya qoyulmaması onların dövrlə, mühitlə müxalifət təşkil etməsi ilə bağlı idi. “Anamın kitabı”nı ideyaca daha qiymətli hesab edən R. belə qənaətə gəlir ki, bu əsəri ilə M. Azərb. cəmiyyətini “ana kökündən ayırmaq istəyən” kommunist rejiminə etiraz səsini ucaltmışdır. “Azərbaycan kültür gələnəkləri” (1949) əsərində “Ölülər” pyesini “Azərbaycan satirik ədəbiyyatının şah əsəri” kimi dəyərləndirən R.-nin fikrincə xalqın cəhaləti heç bir əsərdə bu dərəcədə kəskin ifşa olunmamışdır. R. həmin əsərində M.-ni Mirzə Fətəli ədəbi məktəbinin layiqli davamçısı kimi səciyyələndirir. Mühacirətdə yazmış olduğu əksər əsərlərində Azərb. mətbuatından söhbət düşərkən R. “Molla Nəsrəddin”i “xalqçı və realist” jurnal kimi qiymətləndirmiş və əsrin əvvəllərində onun qədər heç bir mətbuatın sevilib yayılmadığını qeyd etmişdir. M.-nin “Binəsiblər” (1905) əsərinin “Həyat” qəzetində dərc olunmuş tərcüməsi də R.-yə məxsusdur.

ROTTER İosif (?-?) – XIX əsrin 2-ci, XX əsrin 1-ci yarısında yaşamış alman rəssamı. Peşəkar təhsilini Münhen Rəssamlıq Akademiyasında almışdır. XX əsrin əvvəllərində Tiflisdə yaşamış, satirik jurnallarda çalışmışdır. 1906-1914 illərdə “Molla Nəsrəddin” jurnalının fəaliyyətində yaxından iştirak etmişdir.

R. rusca çox zəif bilirdi. Mirzə Cəlil çəkiləcək rəsmlərin mövzusunu işarə ilə ona başa salar, Tiflisin müsəlman hissəsində, “Şeytanbazar” məhəlləsində yaşayan əhali arasından tiplər seçib ona göstərərək, bunlardan istifadə etməyi məsləhət görərdi.

R.-in qrafik dəsti-xətti aydın və anlaşıqlı olmaqla, rəsmlərində xırda ştrixlərə xüsusi əhəmiyyət verir, təsvirin, həcm və ölçülərin real alınmasına nail olurdu.

R. də “Molla Nəsrəddin” jurnalının ənənəvi mövzularına müraciət edirdi. “Bakı neft mədənlərində işsiz fəhlələr” (1908, №4) rəsmində fəhlələrlə sahibkarların qarşı-qarşıya durması, “XX əsr. Qafqazda hürriyyət” (1906, №7), “Bir gün var idi, bir gün yox idi” (1907, №13) karikaturalarında erməni-müsəlman münaqişəsi və onu qızışdıran “Fitneyi-İblisi məlunlar”



İ.Rotterin “Molla Nəsrəddin” jurnalındakı rəsmləri.

Ermənəm deyirəm
Ermənəm deyirəm
Ermənəm deyirəm

– çarizmin bədnam müstəmləkəçilik siyasəti ifşa olunurdu. "Ay Tehrani alan, ay şirin tehrani alan" (1908, №27) karikaturasında İranın satqın hökmdarı Məhəmmədəli şahın gülünc təsviri verilmişdir.

R.-in rəsmlərində ictimai motivlərə, personajların psixoloji xarakteristikasının təhlilinə meyl duyulur. Jurnalın 1911 il 42-ci nömrəsində çap olunmuş M.F.Axundovun yubileyinə aid rəsm R.-in ən uğurlu əsərlərindəndir.

"RUS QIZI" – M.-nin yazdığı hekayə. İlk dəfə Bakıda "Yeni yol" qəzetində (1925, 2 və 6 dekabr, №275, 278) çap olunmuş, sonralar "Əsərləri"nə daxil edilmişdir. Mirzə Cəlil bu hekayəsində cəhalətə, nadanlığa qarşı mübarizə aparır. Başqa xalqlara dostluq münasibəti bəsləməyə, qonşu xalqların qabaqcıl ənənələrindən, məişətlərindəki nailiyyətlərdən öyrənməyə çağırışı M. yaradıcılığının demokratik cəhətlərindəndir. Ədib toxunduğu tərbiyə, əxlaq, yaxud məişət məsələsinin müsəlman həyatında nə vəziyyətdə olduğunu göstərməklə, həmin xalqların yaxşı xüsusiyyətlərindən öyrənməyi təbliğ edir.

Əlli yaşlı Məşədi Qulamhüseyn tamojna işində mötəbər bir şəxs olmağına baxmayaraq, rus məmurunun on altı yaşlı qızına vurulur və bunu təbii bir hal sayır. Hekayənin sonunda rus qızının "пошел к черту!" deməsini özünə qarşı mürüvvətsizlik hesab edən Məşədi Qulamhüseynin sözlərinə "bərk uğunub" gülməklə M. dövrünün cəhalətini güclü satira atəşinə tutur.

RÜSTƏMOV Tofiq Tağı oğlu (1936-1998) – filoloq alim, jurnalist. Filol. e. n. (1970). Prof. (1987). Azərb. əməkdar mədəniyyət işçisi (1982). ADU-nun jurnalistika şöbəsini bitirmiş, 1958-1960 illərdə "Учительская газета"nın Azərb. üzrə xüsusi müxbiri vəzifəsində, 1960-1970 illərdə Dövlət Televiziya və Radio Verilişləri Komitəsində çalışmışdır. R. 1970 ildə ADU-ya elmi-pedaqoji işə keçmişdir. 1989-90 illərdə Azərb. KP MK ideologiya şöbəsi müdirinin müavini, 1990-1995 illərdə "Kommunist" qəzetinin red., "Xalq qəzeti"nin baş red. vəzifələrində işləmişdir. R. resp.-da kütləvi informasiya vasitələrinin inkişafı, tərcümə nəzəriyyəsi və ədəbi redaktə problemləri üzrə tanınmış mütəxəssislərdəndir. Onun "Alovlarda bərkiyən qələm" monoqrafiyası, "Ədəbi redaktə nəzəriyyəsi və təcrübəsi" adlı dərs vəsaiti, onlarla bədii-publisistik tərcümələri vardır. M. və onun müasirlərinin həyatı, yaradıcılığı haqqında bir sıra məqalələrin müəllifidir.

RÜSTƏMXANLI Sabir Xudu oğlu (d. 1946) – şair, publisist, filoloq. Filol. e.n. (1976). ADU-nun filol. fakültəsini bitirmişdir (1968). Azərbaycan Komsomolu mükafatı (1982), M.F.Axundov adına ədəbi mükafat (1989) laureatı. Xalq şairi (2005). "Ədəbiyyat və incəsənət" qəzetində (1967-1976), "Yazıçı" nəşriyyatında (1978-1990) müxtəlif vəzifələrdə çalışmışdır. Yeni dövrdə milli demokratik mətbuatın ilk nümunəsi "Azərbaycan" qəzetinin baş red. (1989-1991), Azərb. Resp. Mətbuat və İnformasiya naziri (1991-1995) olmuşdur.

S.X.Rüstəmxanlı

R. "Molla Nəsrəddin" və folklor" mövzusunda dissertasiya müdafiə etmişdir (1976). Mirzə Cəlil irsinə dair bir çox məqalələrin müəllifidir. İctimai fikirdə və ədəbiyyatda M.-nin adı ilə bağlı milli və demokratik ideyaların fəal müdafiəçisidir.

RZAYEV Abbas Mahmudəli oğlu (1904-1976) – aktyor. Azərb. əməkdar art. (1940). Bakı Teatr Texnikumunda (1924-1928) oxumuşdur. Səhnədə ilk addımlarını 1926 ildə atmışdır. ADT səhnəsində bir çox klassiklərimizin dram əsərlərində müxtəlif obrazlar yaratmışdır. M.-nin "Ölülər" əsərində Şeyx Nəsrullah rolunda uğurla çıxış etmişdir (1939).

RZAYEV Baba Fazil oğlu (d. 1943) – rejissor. Azərb. əməkdar inc. xad. (1989). Lunaçarski ad. Moskva Teatr İn-tunu bitirmişdir (1980). Həmin ildən Lənkəran Dövlət Dram Teatrında çalışır. Bu teatrda böyük müvəffəqiyyətlə səhnəyə qoyulmuş "Ölülər" əsərinin quruluşçu rej. olmuşdur (1991).

T.Rüstəmov

RZAYEV Səməndər Mənsim oğlu (1945-1987) – aktyor. Azərb. əməkdar art. (1974), Dövlət mükafatı laureatı (1980). Azərb. İncəsənət İn-tunu bitirmişdir (1968). 1967 ildən ömrünün sonunadək ADT-də işləmişdir. Müxtəlif xarakterli obrazlar yaratmışdır. M.-nin "Dəli yığıncağı" pyesində ustalıqla yaratdığı Fazil Küleyni obrazı onun əsas rollarından biridir (1978). Anarın M.-nin əsərləri əsasında yaratdığı "Sizi deyib gəlmişəm" əsə-

S.M.Rzayev



C.Məmmədquluzadənin **"Dəli yığıncağı"** pyesində
Səməndər Rzayev Fazil Küleyni rolunda və **Mirvari Novruzova** Zeynəb rolunda.

rində oynadığı Xudayar bəy rolu R.-in yaradıcılıq müvəffəqiyyətlərindəndir (1982). Kinoda çəkilib, bədii qiraət ustası kimi çıxış edirdi.

RZAƏDDİN Fəxrəddin (Rza Qabdulla oğlu Fəxrəddinov) (1858-1936) – tatar ictimai xadimi, ruhani məmur, pedaqoq, dini və dünyəvi elmlər alimi, jurnalist, yazıçı-naşir, publisist. Ufa şəhər mədrəsəsini bitirmiş, müəllim işləmiş, mollalıq etmişdir. Ufa ruhani idarəsinə qazi seçilmiş, müfti məsləhətçisi olmuşdur. Bədii yaradıcılıq sahəsində çalışmışdır. Birinci rus inqilabi illərində ruhani idarəsində xidmətdən imtina edib, "Vakıt" (1906-1918) qəzetində əməkdaş, "Şura" (1908-1918) jurnalında red. işləmişdir. Jurnalistlik fəaliyyətində elmi biliklərin təbliğinə əhəmiyyət vermiş, "Məşhur adamlar və ulu hadisələr" başlığı altında Şərq, Qərb mütəfəkkirləri, ərəb səyyahları və müsəlman Şərqinin görkəmli qadınları haqqında silsilə məqalələr və kitablar yazmış, dini ədəbiyyatın ("Din və sosial məsələlər", "Məhəmmədin kəlamlarını təfsir", "Müqəddəslər və möcüzələr") nəşrilə məşğul olmuşdur.

M. "Vakıt"la müntəzəm polemikada olmuş, qəzetin əməkdaşı R.F.-ni qəzetdə "Həştərxanda iki minə qədər müsəlman bir yerə cəm olub, vəbanı toxtatmaq qəsdilə 43 qoyun qurban kəsiblər" ("Vakıt" qəzeti, 1907, 22 avqust, №210) informasiyasına münasibət bildirmək məqsədilə "Cəfəngiyat" felyetonunu yazmışdır. Həştərxan əhalisinin bu tədbirini avamlığın, mövhumata kor-koranə inamın və siyasi düşüncənin zəifliyinin təzahürü kimi qiymətləndirən M. yazırdı: "Gah vaxt olubdur ki, bəzilər bizdən soruşublar ki, nə səbəbə siyasətdən, dumadan, hüquqdan, hürriyyət və müsavatdan çoxluca bəhs eləmirik. Amma bizdən bunu soruşan ağalardan təvəqqe edirik, bizə cavab versinlər görək, aya, mümkündürmü vəbanı dayandırmaq üçün 43 qoyun kəsən bir millətə, bir cahil lotunu özünə, haşa, Allah bilən bir camaata həmişə dumadan və siyasətdən bəhs etmək?" ("Molla Nəsrəddin" jurnalı, 1907, №36).

SABİR (Mirzə Ələkbər Zeynalabdin oğlu Tahirzadənin təxəllüsü) (1862-1911) – şair, mütəfəkkir, publisist, müəllim, tərcüməçi. 8 yaşından şeir qoşmağa başlamışdır. 12 yaşından Şamaxıdakı yeni üsullu "məclis" məktəbində fars dilini öyrənmiş, Sədi, Hafiz kimi klassikləri oxumuş, onlardan tərcümələr etmişdir. Atası onun özü kimi ticarətlə dolanmasını istədiyindən, məktəbdə oxumasının əleyhinə idi. Amma S. israr edir, şairlik fikrinə düşür. Onun "Oxutmuram, əl çəkin!" satirası (1910) xeyli avtobioqrafik mahiyyətdə olub, atası ilə aralarındakı narazılığı, gec də olsa, ümumiləşdirmə yolu ilə çox yaxşı əks etdirmişdi.

A.Səhhət yazır ki, o zaman S. bir şeir kitabı əmələ gətirəcək qədər əsər yazıbmış; "alış-verişdən ziyadə oxuyub yazmağa həvəsnak olduğundan" atası əsəbiləşib onu məzəmmət edərmiş, "hətta bir dəfə şeir kitabını da cırmışdır".

Çox keçmədən S. həm ağıl və zəkası, mənalı danışığı, həm də şeirlərilə az zamanda ziyalılar və əyan yanında tanınıb "məşhur olur və ümumin məhəbbətini cəlb edir" (A.Səhhət). Müəllimi Seyid Əzimin lirik əsərləri, füzuliyanə qəzəlləri ilə bərabər, xalqı soyub quru yerdə qoyanlar, acgöz, fırıldaqçı ruhanilər, yekəbaşlıq edən çar hakimləri haqqında satiraları da gənc S. üçün yaxşı nümunə idi.

Oğlu Ələkbərin artıq 21-22 yaşı olduğu halda, müəyyən bir peşə dalınca getməməsi və vaxtını şeirlə, kitabla keçirməsi Hacı Zeynalabdini çox narahat edirdi. Müasirlərinin yazdığına görə, təbi gələn vaxt S. harda olsa – dükanda, məclisdə, jurnal və qəzet redaksiyalarında da bədahətən şeir deyər, yaxud dərhal qələmə alarmış. A.Səhhət yazır ki, o zaman S.-i düşündürən məsələ atasının məzəmmət və qadağalarından qurtarmaq, sərbəstlik əldə etmək idi. Nəhayət, o, Şərqə gedib dini mərkəzləri ziyarət etmək adı ilə atasından icazə istəyir. Hacı Zeynalabdin oğlunun bu yolla "düzələcəyi" ümidi ilə razı olur. 1884 ildə S. yola düşüb Buxara, Səbzəvar, Nişapur, Səmərqənd, Xorasan və başqa yerlərdə olur. S. Xorasanda olduğu zaman, o tərəflərdə vəba xəstəliyi baş verdiyindən Şamaxıya qayıdır.

S.-in ikinci səfəri Kərbəlaya olur. O, zəlzələ nəticəsində Şamaxıdan köçüb Aşqabad və Mərvdə məskən salmış azərb.-larla da görüşmək fikrində idi. Lakin qardaşı Mehdiqulu anasının dilindən ona yazdığı qəmli məktubda atasının öldüyünü bildirdiyinə görə S. tez vətənə qayıdır.

Təxminən 1885-1886 illər arasında S. qohumlarından Büllurnisa adlı bir qızla evlənir (bəzi kitablarda bu ad səhvən "Ba-

dam" yazılmışdır). 15 il ərzində onların səkkiz qızı, 1908 ildə isə bir oğlu olur. Böyük bir ailəni dolandırmaq üçün S. özünü oda-közə vurmağa məcbur idi. O, "həm maddi, həm də mənəvi ehtiyac, sıxıntı içində idi. [...] Şairin ilhamı zəncirlənmiş kimi idi" (Mir Cəlal). Maddi vəziyyəti çox ağır olan şair hətta qismən ədəbiyyatdan uzaqlaşıb, dükan açaraq orada sabun bişirib satmağa məcbur olmuşdu. Amma bu zəhmətli sənətlə çörək pulu qazananda da S. əlinə düşən beş dəqiqə vaxtını mütaliəyə və şeir yazmağa sərf edirdi.

1905 il inqilabı ərəfəsində Azərb.-da yaranan sosial canlanma S. üçün də faydalı, fərəhli olur. Bakı neft mədənlərində və sənayedə ağır şəraitdə işləyən fəhlələr çarizmə və burjuaziyaya qarşı sinfi döyüşlərə başlayırlar. Bakıdakı inqilabi şərait bütün Rusiyaya səs salır. Azərb. kəndi də bu hadisələrin təsirilə oyanmaqda idi. S.-in yazdığı yeni şeirlər onun dünyagörüşündə də irəliyə doğru tədrici inkişafı hiss etdirirdi.

1902 il fevralın 12-də Şamaxıda baş vermiş dəhşətli zəlzələ haqqında dərin həyəcanlı şeir onun özündəki mənəvi sarsıntıdan əlavə, əhalinin quru yerdə, xarabalıqda qaldığını göstərirdi. Ətraf qəzalara, kəndlərə, bir çoxu da Bakı, Kürdəmir, Qalaqayın və digər yerlərə pənah aparan həmyerlilərindən fərqli olaraq, şair böyük ailəsini Şamaxıdan çıxara bilmir. Bu faciə haqqında şeirində S. əhaliyə yardım göstərmək üçün gələnlər arasında Həsən bəy Zərdabinin adını xüsusi ehtiramla çəkir.

Bu illərdən başlayaraq S.-in şair, həkim, tərcüməçi Abbas Səhhətlə dostlaşması, onların hər ikisinin həyatı və yaradıcılığı üçün çox faydalı oldu. Onlar boş vaxtlarında Şamaxı ziyalılarından Ağaəli bəy Naseh və Məhəmməd Tərrahla bir yerə yığışıb, mədəniyyətə, ədəbiyyata, maarifə dair danışar, klassik şairlərin, yaxud özlərinin şeirlərini oxuyub təhlil edərdilər. S. və dostlarının bədii fikri inkişafı görkəmli ədəbiyyatşünas, müəllim, tənqidçi və publisist Firidun bəy Köçərlinin adı, fəaliyyəti ilə əlaqədar idi. S. və Abbas Səhhət onunla müntəzəm məktublaşırdılar.

1903 ildə Tiflisdə çıxmağa başlayan "Şərqi-Rus" qəzetinə yazdığı mənzum təbrik S.-in mətbuatda çap olunmuş ilk əsəri idi. "Ah kim, xabi-qəflət ilə bizim – Ömri-pürmayəmiz keçibdi fəna" misralarında şairin emosional bir qüvvə ilə yenilik həsrətində olduğu görünürdü. A.Şaiq 1905 ildə Şamaxıya səfəri və yerli ziyalılarla görüşü haqqında xatiratında yazırdı ki, S. "tanıdığı, ruhuna və məsləkinə uyğun olmayan bəzi şəxsləri o qədər dadlı və həqiqi boyalarla təsvir edib səciyyələndirirdi ki, biz gülməkdən ölürdük". Bir gün onlar S.-in dükanına gedirlər. "S. bişirdiyi sabunu göstərərək gülə-gülə: "Bir çox adamın batini kirini təmizləmək əlimizdən gəlmir, zahiri kirini təmizləmək üçün bu sabun bişirmək peşəsini qəbul etmişəm, – dedi".

1905-1907 illərdəki ümumi oyanma bütün Azərb. həyatı, xalq şüuru kimi, milli ədəbiyyat və mədəniyyətdə də müsbət yeniliklər yaratmaqda idi. Azərb., habelə Yaxın və Orta Şərq, Rusiya müsəlmanları üçün böyük yeniliklərdən biri "Molla Nəsrəddin" satirik jurnalının nəşri idi. Bu zaman S.-in milli ədavət əleyhinə olub, xalqları dostluğa çağıran "Müsəlman və erməni vətəndaşlarımıza" ("Beynəlmiləl") şeiri "Həyat" qəzetində yenicə çıxmışdı. Həmin nömrədə şeirin dili barədə verdiyi kiçik qeyddə red. Əli bəy Hüseynzadə "türkcəyə müxalif bəzi söz və ifadələri", əruz vəzninə uyğun gəlməyən bir neçə misranı düzəltdiyini bildirmişdi ("Həyat", 1 iyul 1905, № 19). Hörmətli bir qəzetin, nüfuzlu bir ədibin iradı və qayğıkeş düzəlişi, əlbəttə, S. üçün əhəmiyyətli idi.

S.-in "Molla Nəsrəddin" jurnalı üçün yazdığı ilk şeir haqqında alimlərin və mətbuat xadimlərinin fikirləri müxtəlifdir. Onların bir qismi bu əsərin jurnalın 4-cü sayındakı "Millət necə tarac olur...", digər qismi isə 8-ci saydakı "Ol gün ki, sənə xaliq edər..." olduğunu yazır. İllər boyu getmiş mübahisə S.-in "Molla Nəsrəddin"də ilk əsərinin 8-ci saydakı "Ol gün ki, sənə xaliq edər lütf bir övlad" şeiri olduğunu göstərmişdir. (Müəllifin mövqeyi mübahisəlidir – *red.*). Beləliklə, yeni satirik poeziyanın banisi olan S. 1906 ildən 1911 ilədək, yəni vəfatına qədər "Molla Nəsrəddin" jurnalının ən böyük, ən fəal şairi oldu. Bu poeziya Azərb.-dan əlavə, Yaxın və Orta Şərqin ən qüvvətli ədəbi məktəbinə çevrildi.

S.-in realist poeziyası varlığın dərin, rəngarəng, ibrətamiz inikası idi. Burada

ictimai inkişafın əsas meylləri, başlıca keyfiyyət və xüsusiyyətləri xariqüladə bədii boyalarla, canlı, dolğun insan surətləri ilə göstərilirdi. "Pisi pis, əyrini əyri" yazmaqla, cəmiyyətdəki təzadların üstündəki pərdəni açmaqla şair xalqın sosial, siyasi şüurunun qüvvətlənməsinə, inqilabiləşməsinə misilsiz kömək edirdi. Odur ki, S. özünə dostlar qazandığı kimi, düşmənlər də qazanırdı. O, bir tərəfdən sadə adamların məhəbbətini görüb yeni-yeni əsərlər yazmağa ruhlanırdısa, digər tərəfdən irticaçıların təhqir, təqib və təkfirindən əzablar çəkir, sıxılırdı.

Satirik ifşaçılığı ilə fikir aləminə bir çaxnaşma salan bu "kafər" "Hophop"un, "Ağlar güləyən"in kim olduğunu başa düşüb, ona söyüş, qarğış yağdırırdılar. Şair "Zənbur" jurnalında bu barədə yazırdı ki, "Rəhm qıl, Sabir" adlı şeiri mənimki zənn edib, əleyhimə cürbəcür sözlərə, işdəklərə əl atdılar. Halbuki onu mən yazmamışdım".

Bakıda olduğu zaman "Dəbistan" jurnalının red. Ə.İ.Cəfərzadəyə dediyi sözlər, vəziyyətinin çıxılmazlığına baxmayaraq, S.-in öz mübarizəsini əzmlə davam etdirəcəyini göstərir: "Qardaş, [...] işim şuluqdur. Mollalara, bəylərə, xanlara yazdığım "şəbədələr"in üstü açılır. Hər imza ilə yazıramsa da, sözlərimdən, imla-inşamdan [...] mənim olduğunu tanıyırlar. Mənə olmazın tənə və sərzənişlər vururlar. [...] Nə olursa-olsun, tutduğum yoldan çıxmayıb, ölənədək yazdığım şeirlərlə xalqı cəhalət yuxusundan oyatmaqdan əl çəkməyəcəyəm". ("Ədəbiyyat qəzeti" 1936, 5, 21 dekabr, №31, 33.)

S.-ə tamam gizli bir şəraitdə və birbirindən fərqli imzalarla işləmək, yazmaq lazım gəlirdi. O, bəzi şeirlərini hətta imzasız nəşr etdirirdi. Şair "Molla Nəsrəddin"ə yazmaq bir yana, jurnalı açıqca, evində oxumağa da ehtiyat edərək, gecələr gizlicə mütaliə edirdi. Qızı Səriyənin dilindən yazılmış bir xatiratdan öyrənirik ki, "Evdə hamı yatdıqdan sonra atası yavaşca cibindən jurnalı çıxarar, [...] oradan bir parça cıraraq səliqə ilə kağıza yapışdırar və taxçada bir qovluğun içərisinə yığardı" ("Revolyusiya və kultura" jurnalı, B., 1937, №1).

S.-in gizli imzaları barədə bir çox axtarış və tədqiqat aparılmış, nəticədə onların böyük bir qismi elmi yolla müəyyənləşdirilmişdir: "Hophop", "Ağlar güləyən", "Əbunəsr Şeybani", "Qoca əmi", "Boynu buruq", "Fazil", "Din dirəyi", "Boynu yoğun", "Çayda çapan", "Tükəzban cici", "Qoca iranlı", "Yarı könül", "Sevdayi", "Bir alim", "Yaramaz" və s.

Zahirən sakit, fağır görünən şairin vüqarlı bir xisləti, daim dalğalı, daim fikirli mənəvi aləmi vardı. Oğlu Məmmədsəlim yazırdı: "Sabir adi həyatda nə qədər başıaşağı və yumşaq təbiətli idisə, iş vaxtında bir o qədər coşğun və sarsılmaz olurdu. Hələ o, şeir oxuyanda tamamilə dəyişərdi".

"Molla Nəsrəddin"in 2 iyun 1906 il 9-cu sayı üçün yığılıb hazırlanmış şeirdə S. senzuranı, məs., bu misra, ifadə və sözləri ilə hürkütmüşdü:

"Dəftərciyəzim ayineyi-sidqü səfadır.
Tənqidi var əmma. [...] Həqq söz acıdır,
Həm acı əzvay da dəvadır. [...]
Öz bildiyini yazsa məgər şəxs, xətadır?
Yarəb, nə fəlakət?!
Ya Haqq deməmək dirinə bicadır?
Ta key belə adət? [...]
Güldürmək isə məqsədimiz, onda bükadır,
Qoy anlasın əhbab".

İlk dəfə tarixçi alim A.Paşayevin oxuduğu və izah etdiyi bu "qaralanmış" misralar poeziyada tənqidi, həqiqətpərəstlik uğrunda mübarizəni genişləndirmək məqsədi daşıyırdı. Şair "yarəb" – deyə belə adətin nə vaxtadək davam edəcəyini həsrətlə soruşur, məqsədi güldürmək olduğu halda, şeirin insanları ağlatdığı üçün dərd çəkirdi.

"Molla Nəsrəddin" jurnalında, xüsusilə, S.-in satirik əsərlərində bu cür mübariz və qəmli misralar, eyhamlı sözlər çox idi.

Böyük bir şair olduğu halda, S. bəzən minimum yaşayış vəsaiti də əldə edə bilmirdi; çörəyi daşdan çıxarırdı. Çap olunan şeirləri üçün aldığı pul (ayda ən çoxu on-on iki manat) isə, ancaq bir neçə günlük xərcinə çatırdı. Şıxminaz məhəlləsindəki mülkdə bir gözdən ibarət kiçik otaqda yaşayıb-yaratdığını da buraya əlavə etsək, şairin düşdüyü vəziyyət tam aydınlaşar.

S. özünə münasib bir iş tapmaq istəyir, tapa bilmirdi. Müasirlərinin dediyinə görə, yerli qaragüruhçular bu zaman şairə sabun bişirmək üçün cızdaq və pataş da satmırlar. O yazmışdır:

Yaşadıqca xaraba Şirvanda,
bir səfa görmədim o viranda.

Yaşadıqca əzaba düşdü tənim,
Mənə zindan kəsildi öz vətənim.

Həyatında gördüyü əzabların ildən-ilə dözülməzliyi, nəhayət, vətənini onun üçün "zindan"a çevirmişdi. S.-in əsərləri gülür, özü isə ağlayırdı. Onun işlətdiyi "Ağlar güləyən" imzası bu hala necə də uyğundur!..

1907 ilin əvvəlində Sabir necə olur-olsun "zindan"dan xilas olub, özünə münasib iş tapmaq – müəllimlik etmək, xüsusi bir məktəb açmaq qərarına gəlir. S.M.Qənizadə Qoridən göndərdiyi məktubda şairə seminariyanın Azərb. şöbəsində bir müəllim yeri boşalacağı xəbərini verir. S.-in bu zamana aid məktubları göstərir ki, 1907-1908 illərdə o səylə rus dilini öyrənir. Bir məktubunda o yazır ki, mütaliədə və danışıqda "kafi dərəcədə rusca yazmağa, oxumağa və danışmağa müvəffəq ola biləcəyəm" (17 yanvar 1908). On gün sonrakı bir məktubunda deyilir: "...vaxtım müsaidə etdikcə rusca öyrənməyə səy edəcəyəm" ("Hophopnamə", B., 1922, s. 398, 400). Həmin il aprelin 11-də Bakı Quberniya Ruhani İdarəsində imtahan verən şair mayın 7-də Tiflisdə aldığı 944 nömrəli attestatla müəllimlik hüququ qazanır.

Qoridən aldığı bir məktubla seminariyadan ümidini kəsən S. Şamaxı məktəblərindən birində müvəqqəti müəllim işinə düzəlir. C.Cəbrayılbəyli xatiratında yazır ki, S. və Səhhət hökumət hesabına yeni bir rus-Azərb. məktəbi açmağa çalışırlar ki, hökumət icazə vermir. S. bu zaman Bakıdakı "Səadət" məktəbində boş olan müəllim yerinə də düzələ bilmir.

Bu uğursuzluqlara səbəb nə şair-müəllimin şəxsiyyəti, nə də biliyinin "namünasibliyi" deyildi. Çox güman, gizli bir səbəb vardı ki, o da "Molla Nəsrəddin" satirikinin çarizm, ümumiyyətlə, istibdad, mütləqiyyət əleyhinə çevrilmiş inqilabi dünyagörüşü və yaradıcılığı idi.

1908 ilin yayında qabaqcıl ziyalıların köməyilə hökumətdən icazə alan və lazımi bina, əşya hazırlayan S. nəhayət, sentyabrda Şamaxıda "Ümid" məktəbini açır. Bu məktəbdə S. özü və Qoridə seminariya qurtarmış Hacıbala Zamanov müəllimlik edirdi. Tədqiqatçı Ə.Tağıyevin yazdığına görə 60-a qədər şagird dörd sinif, iki otaqda oxuyurdu. Məktəb dərsliklər, skamyalar, yazı taxtaları və əyani vasitələrlə təmin edilmişdi. Tədris olunan dərslər bunlardı: ana dili, fars dili, hesab, coğrafiya və təbiətə dair ibtidai məlumatlar, Quran və şəriət. Şagirdlər məktəbə ayda bir manat təhsil haqqı verirdilər.

1908 ilin payızından başlanmış təhsil ilindəki nisbi sakitlik, şad əhval şairin əsərlərində də görünürdü ("Bu boyda, bu boyda!", "Mir Haşım", "Açıldıqca sənin sübhün", "Səttarxanədir", "Şahnamə" və s.). "Ümid" məktəbinin bir çox mühafizəkar düşüncəlilərdə "məktəbi-üsyan" sayılması S. şeirində böyük istehza və nifrətlə göstərilirdi. Eyni zamanda "Vah!.. bu imiş dərsi-üsuli-cədid... Dur qaçaq, oğlum, baş-ayaq qandı bu!" deyən ataların günlərin birində uşaqlarını məktəbdən çıxarıb apara biləcəkləri S.-in ürəyinə dammışdı. Bəzi valideynlərin yoxsulluğu, bədxahların, "Üxüvvət" məktəbi müəllimlərinin, din xadimlərinin fitnə-fəsadı yeni tədris ilində "Ümid" məktəbinə öz işini davam etdirmək imkanı vermədi.

İran və Türkiyə inqilabi hərəkatı S.-in bədbinliyə qapılmayıb, öz vətənində və xaricdə cərəyan edən hadisələrin əsasən nikbin pafosda təsvirinə kömək etdi. 1909 ilin axırlarında Bakıda və Tiflisdə mal alıb, satılmaqdan ötrü Şamaxıya göndərən S. üçün yeni şeirlər yazıb mətbuatda buraxdırmaq başlıca iş və qazanc vasitəsi idi. Tiflisdə vaxtının çoxunu "Molla Nəsrəddin"in redaksiyasında keçirən S. Mirzə Cəlil və digər fəal mollanəsrəddinçilərlə tez-tez görüşür, jurnalda daim yeni mövzularda yazı getməsinə kömək edir, yeni əsərlər yazırdı.

1910 il fevralın 1-də S. çətinliklərdən qurtarmaq, ədəbiyyat, maarif, mətbuat yolunda daha fəal işləməklə ailəsini dolandırmaq üçün Bakıya köçüb gəlir. "Öz ciyərlərini [...] elm, hürriyyət, insaniyyət uğrunda fəda" etməyə söz verən S. Bakının Balaxanı rayonunda ana dili və şəriətdən dərs deməyə başlayır. Müəllimliyilə bərabər, o, neft mədənlərindəki işçilərlə yaxınlaşaraq, onların təşkil etdikləri "Nur" kitabxanasının fəal üzvlərindən biri olur, mütaliəsini daha da artırır.

S. "Molla Nəsrəddin"lə eyni vaxtda Bakının "Səda", "Həqiqət", "Zənbur", "Günəş" və b. mətbuat orqanlarında da şeirlər, məqalələr dərc etdirirdi. O, səhərlər Balaxanıda dərs deyir, axşamları isə şəhərə gəlib mətbəədə korrektor vəzifə-

sində çalışırdı. İşinin çoxluğuna, maddi vəziyyətinin ağırlığına baxmayaraq S. bir müddət Balaxanıda fəhlə kursunda pulsuz dərs deyir.

1910 ilin yazında S. "Səda" qəzetinin mətbəəsində işə girir. Qəzetin red., tanınmış yazıçı, jurnalist, müəllim, tərcüməçi Haşım bəy Vəzirov fəaliyyətindəki bir sıra müsbət cəhətlərlə bərabər, xarakteri və siyasi görüşləri etibarilə nöqsanlı şəxsiyyət idi. Ən ciddi nöqsanlarından biri qəzetlərində Türkiyənin əzazil sultanı Əbdülhəmidi müdafiə etməsi, ona rəğbət bildirməsi, S.-lə yola getməyib onu incitməsi idi. İşi o yerə çatdırmışdı ki, şair H.Vəzirova bir neçə qəzəbli taziyanə həsr eləmişdi.

Həmin ilin yayından etibarən S. "Molla Nəsrəddin" jurnalı ilə bərabər, "Günəş" və "Həqiqət" qəzetləri üçün əsərlər yazır. "Günəş"in hər cümə günü "Palanduz" sərlövhəsilə buraxdığı səhifədə S. "Çuvalduz" adı altında "Nizədar" imzası ilə satirik və yumorlu yazılar çap etdirir. Səkkiz-doqquz ay ərzində "Günəş" və "Həqiqət"də onun yüzə qədər taziyanəsi çıxır. "Rəqibi"nin bu müvəffəqiyyətlərini, özünün tərcümə etdiyi U.Şekspirin "Otello" faciəsinin türkcəsində buraxdığı çoxlu nöqsanı S.-in tənqid etməsini görən H.Vəzirov S.-ə və onun ən çox bağlı olduğu "Molla Nəsrəddin" jurnalına qarşı ədəbi hücum təşkil edir. Bu hücumlara kəsərli satiraları ilə cavab verən S. onu bir jurnalist kimi də pisləyir:

"Sanma bir məsləki təqiblə
möhkəm qalaram.
Əlli arxın suyunu gündə bir arxa calaram.
Kefimin gəlməsinə bax, nə gərək
yaxşı-yaman,
Mən gərək mıxı, gərək nəli döyüb
tapdalaram".

Mübarizə gərginləşir. Tərəqqipərvər ziyalılar bu mübarizədə S.-in tərəfində idilər.

Uzun illərin əzab-əziyyəti nəticəsində 1910 ilin sentyabr ayında şair qara ciyər xəstəliyinə tutulur. Üç ay Bakıda müalicədə olub, nəhayət, Şamaxıya qayıdır. 1911 ilin fevralında arvadı və qardaşı oğlu ilə Tiflisə gedərək M.-nin evində yaşayır. "Molla Nəsrəddin"in əməkdaşları, xüsusilə Həmidə xanım və Mirzə Cəlil xəstə şairə böyük qayğı göstərirlər. Dostlarından birinə məktubunda S. yazır: "Mirzə Cəlil və Həmidə xanım cənablarından çox razıyam. Bilmirsən, mənə nə qədər ehtiram edirlər. Bu neçə müddətdə tamam məxaricimə və zəhmatıma mütəhəmmil olmuşlar. [...] öz evlərində mənzil vermişlər" ("Hophopnamə", B., 1922, s. 370).

Xəstə Sabirin bu günləri haqqında C.Məmmədquluzadə, A.Səhhət, H.İ.Qasımov, M.Sidqi, Ə.Şərif və b.-nın çoxlu qəmgin xatiratı var. Jurnalist H.İ.Qasımov şairin ölümündən bir az qabaq ona dediyi sözləri belə xatırlayır: "Mən ölməyimlə qəmgin deyiləm. Çünki dünyaya gələn getmək üçündür. [...] Amma mən belə nigaran halda ölməyimə çox qəmginəm" ("Tazə xəbər qəza", 12 iyun 1912).

Şair yataqda olduğu zaman da şeirlər yazır, dostları, qələm yoldaşları ilə ağıllı, müdrik, bəzən də məzəli söhbətlər edirdi. M.Sidqi yazır: "Sabir yenə də yazmaqdan əl çəkmirdi. [...] Hətta Kürdəmirdən vaqona oturub Tbilisiyə gələnə qədər yolda "Ağladıqca kişi biqeyrət olur, – Necə ki, ağladı, İran oldu!" şeirini yazıb gətirmişdir" ("Hophopnamə", B., 1922, s. 432).

S.-in onsuz da ağır olan vəziyyəti bəzən elə pisləşirdi ki, o, ölümünə razı olurdu:

İstərəm ölməyi mən, leyk qaçır
məndən əcəl,
Gör nə bədbəxtəm, əcəldən də gərək
naz çəkəm!"

(Şairin son günlərində dediyi çox təsirli, sənətkaranə yazılmış bu beyt Sədidən tərcümə idi).

S.-ə daha yaxşı kömək etmək, onun daha effektli müalicəsinə nail olmaq üçün "Molla Nəsrəddin" jurnalında belə bir elan verilir: "Oxucularımıza. Keçən vaxtlarda Bakıda və Tiflisdə çıxan müsəlman qəzetlərimizdə bəzi gözəl əşar çap olunardı. Oxucularımızın bir hissəsi əşar sahibini tanıyırdı, amma çoxları da tanımazdı. Lakin misilsiz olan şairimizin kəlamı o qədər movzun və mənalı idi ki, oxuyan şəxs eləyə bilməzdi ki, təhsin və təqdir etməsin. Bəs, hanı o şairimiz?". Bu suala dərin kədərlə cavab verilirdi ki, "əziz ədibimiz" həm xəstədir, həm də böyük ehtiyac içindədir, qohumları, dostları və oxucularından, "bizlərdən ianə gözləməyə ixtiyarları vardır.

Müraciətdə ianəni "Molla Nəsrəddin" redaksiyasına göndərmək təklif olunurdu ki, buradan xəstə şairə dostu A.Səhhət vasitəsilə çatdırılsın.

Bakı, Həştərxan qəzetlərində nəşr olunan bu məzmunda elan və xəbərlər bir çox başqa şəhərlərə də yayılır. Qısa vaxtda Rusiya və Orta Asiyanın bir çox şəhərlərindən "Molla Nəsrəddin" redaksiyasına 570 manat pul gəlir. İanə verənlər içərisində azərb.-lardan əlavə, ruslar, gürcülər, yəhudilər – ziyalılar, fəhlələr, sənətkarlar, xırda alverçilər və b. vardı.

Bunu da deyə bilərik ki, bu neçə ay müddətində dostlarının köməkliyi ilə möhtərəm şairimiz müalicə olunubdur. Ancaq xəstəliyi şiddətli olduğundan lazımınca müalicənin nəticəsi olmayıbdır.

Xəstəliyinin şiddətləndiyini görən və başqa bir əlac olmadığına inanan şair cərrahi əməliyyat etdirmək üçün iyulun 8-də Bakıya gəlir. Lakin həkimlər artıq cərrahi əməliyyatın da heç bir fayda verməyəcəyini söyləyərək, xəstə şairə Şamaxıya qayıtmağı məsləhət görürlər.

1911 il iyulun 12-də (25-də) həyatının və sənətinin ən parlaq, çiçəklənən bir vaxtında S.-in gözləri həmişəlik yumulur (bir çox mənbələrdə bu tarix səhvən 1912 getmişdir).

Şamaxının bütün açıqfikirli adamları, ziyalıları, tələbələr böyük şairlə vidalaşmağa gəlmişdilər. S.-in cənazəsi Yeddi günbəz qəbiristanlığında, kiçik bir təpənin kənarında dəfn olunmuşdur.

S.-in şəxsiyyəti, sənəti, şöhrəti haqqında çox yazılmış, indi də yazılmaqdadır. Onun həyatı, yaradıcılığı, dünya ədəbiyyatında mövqeyindən bəhs edənlər arasında C.Məmmədquluzadə, Ə.Haqverdiyev, A.Şaiq, Ə.Nazim, M.K.Ələkbərli, S.Vurğun, M.Möcüz, M.Arif, S.Hüseyn, Mir Cəlal, Ə.Şərif, Ə.Dəmirçizadə, M.Cəfər, Ə.Mirəhmədov, K.Talıbzadə, A.Zamanov, M.Məmmədov, E.Broun, A.Benniqsen, Ə.Lahuti, N.Hikmət, M.Tursunzadə, G.Lomidze və b. vardır.

Sabit Rəhman

SABİT Rəhman (Sabit Kərim oğlu Mahmudovun təxəllüsü) (1910-1970) – yazıçı, dramaturq. Azərb. əməkdar inc. xad. (1943). APİ-ni bitirmiş (1932), 1936-1937 illərdə Moskvada Ümumittifaq Kinematoqrafiya İn-tunun ssenari kurslarında oxumuşdur. Ədəbi fəaliyyətə 1926-1927 illərdə satirik "Molla Nəsrəddin" jurnalında "Şeyx Samit" imzası ilə dərc etdirdiyi felyetonları ilə başlamışdır. Həmin dövrdən etibarən S.R. qəzet və jurnallarda şeir, felyeton və hekayələrlə çıxış edirdi. 30-cu illərin əvvəllərindən isə onun yaradıcılığında hekayə janrı əsas yer tutmuşdur. "Pozğun" (1932), "Şirin bülbül" (1932), "Vəfasız" (1933), "Gənclik hekayələri" (1934), "Şirin arzular" (1937), "Xəyal-plov" (1938) və s. hekayələr kitabları nəşr edilmişdir. S.R. böyük formalı nəsr əsərləri də yazmışdır. Onun "Son faciə" povesti (1938), "Nina" (1948), "Böyük günlər" (1952) romanları müasir Azərb. nəsrinin nailiyyətlərindəndir. S.R.-ın nəsrində həyatın lirik, epik və dramatik təsvirinə rast gəlsək də, satira və yumor, həyati komik idrak onun yaradıcılığının əsas xüsusiyyətini təşkil edir ki, bu da özünün dediyi kimi, mollanəsrəddinçi nasirlərin, birinci növbədə Mirzə Cəlil və Ə.Haqverdiyev yaradıcılığının təsiri ilə əlaqədar idi.

Müəllifin klassik ənənədən öyrənmək – gülüşdə ciddiyyəti ifadə etmək istedadı komediyalarında daha qabarıq görünür. S.R.-ın "Toy" pyesi (1938) sovet dövrü ədəbiyyatında janrın estetik tələblərinə cavab verən ilk yüksək komediya nümunəsi idi. Kəskin satirik komediya olan "Toy"dan sonra o, ədəbiyyatımızda ilk lirik komediya "Xoşbəxtlər"i yazmışdır (1941). Dramaturq – "Aşiqlər" (1945), "Aydınlıq" (1949), "Nişanlı qız" (1953), "Əliqulu evlənir" (1961), "Yalan" (1965) əsərləri ilə Azərb. komediyasını yeni yüksəkliyə qaldırmışdır. Dramaturqun son komediyası isə bilavasitə M. ilə əlaqədardır. "Ölülər" əsərinin süjet və üslubundan, hətta qəhrəmanların adlarından (bir qədər dəyişməklə) istifadə edərək yazdığı "Dirilər" komediyası (1968) klassik ənənəni inkişaf etdirməyin nümunəsi idi.

"SAQQALLI UŞAQ" – M.-nin hekayəsi. "Saqqallı uşaqlar" – avam, savadsız, mədəniyyət nemətindən məhrum müsəlman mövzusu M.-ni bütün yaradıcılığı boyu düşündürmüşdür. 1920-1930 illərdə yeni tarixi şəraitin təsiri ilə ölkədə kütləvi savadlanma zamanı ədib bu mövzuya bir daha qayıtmış, hətta "Molla Nəsrəddin" jurnalının 1930 il 27-ci (sentyabr) sayında bu adda bir məqalə də dərc etmişdir. "S.u." hekayəsini isə yazıçı daha əvvəl yazıb, 1926 ildə "Yeni yol" qəzetinin 9 və 11 aprel saylarında çap etdirmişdir.

Hekayədə Mirzə Cəlil özünəməxsus qarşılaşdırma yolu ilə savadsızlıq və mədəniyyət problemlərini üz-üzə gətirmiş, bu zəmində daha dərin qata – insanilik

məqamına nüfuz etmişdir. Divarın üstündə "uşaq əliylə" cızılmış yazılar görən ziyalının – atanın övladlarından sarı bədgümanlığına, məlum olur ki, heç bir əsas yoxmuş. Və ümumən narahatlıq doğurmuş bu insidentə qarşı uşaqların və savad görməmiş saqqallı uşağın – "kasıb və fağır İran əhli" Kəblə Əzimin heç nədən xəbərsiz, yalansız dünyası durur. Hekayənin sonunda divardakı yazıları Kəblə Əzimin "yaddaş" əvəzi cızdığı şadlıqla qarşılanır. Mirzə Cəlil bu sevincin, şübhəsiz, yalansız, saf münasibətlərin qələbəsindən irəli gəldiyini məxsusi vurğulayır. Hekayə dərin yumor və incə psixologizmlə aşılanmışdır.

SADIQOV Məmməd (Məmmədzəki) İbadulla oğlu (1900-1964) – aktyor. Azərb. əməkdar art. (1958). 1918-20 illərdə İrəvanda göstərilən Azərb. müəlliflərinin əsərlərindən ibarət səhnəciklərdə çıxış etmişdir. 1921 ildə Tiflis Türk (Azərb.) Teatrında çalışmış, həmin il Bakıya gələrək Dram teatrında gözətçi və suflyor işləmiş, Azərb. Teatr Texnikumunda təhsil almışdır. Sonralar Bakı Azad Tənqid-Təbliğ Teatrında və Gəncə Dram Teatrında aktyor kimi fəaliyyət göstərmişdir. 1938 ildən ADT-nın aktyoru olmuş,

M.Sadıqov C.Məmmədquluzadənin "Ölülər" pyesində Hacı Baxşəli rolunda.

bu teatrın səhnəsində müxtəlif xarakterli rollar, o cümlədən M.-nin "Ölülər" əsərinin tamaşasında Hacı Baxşəli obrazını yaratmışdır.

SALMAN MÜMTAZ (Salman Məmmədəmin oğlu Əsgərovun təxəllüsü) (1884-1941) – ədəbiyyatşünas, mətnşünas, şair. Aşqabadda təhsil almış, ərəb, fars və urdu dillərini öyrənmiş, 1918 ilədək orada yaşamışdır. İlk məqaləsi "Molla Nəsrəddin" jurnalının 25 avqust 1906 il 12-ci sayında dərc olunmuşdur. O, jurnalda əsasən, "Xortdan bəy" və "Sərçəqulu bəy" imzaları ilə çıxış edirdi. S.M. "Molla Nəsrəddin"ə yüksək qiymət verirdi. O yazırdı: "Molla Nəsrəddin" yurdumuzun bütün müqtədir ədib, şair, mühərrir və müəllifləri tərəfindən rəngarəng əşar, gunagün məqalələr ilə bəzədilib zənginləşdirilirdi". Jurnalın nəşri tarixində parlaq dövr olan 1906-1912 illər S.M. yaradıcılığının da məhsuldar illəridir. Tez-tez Bakıya, Şəkiyə, Gəncəyə, Tiflisə, eləcə də Orta Asiyanın müxtəlif şəhərlərinə yolu düşən S.M. jurnalın nəşrində fəal iştirak edir, onun yayılması üçün əhəmiyyətli işlər görürdü. O, jurnalın Türküstan üzrə əsas müvəkkili və müxbiri idi. S.M. 1909 ildə "Molla Nəsrəddin" məcmuəsini Türküstan, Buxara, Xivə, Orenburq, Qazaxıstan, Zabaykalye, Semireçye və bəzi Sibir şəhərlərində öz xərci ilə yaymaqdan ötrü geniş bir plan tərtib etmiş, həmin planı həyata keçirmək üçün o yerləri bir il gəzib dolanmışdı. "Molla Nəsrəddin" haqqında xatirə yazanların və tədqiqat aparanların, demək olar ki, hamısı S.M.-ın məcmuəyə göstərdiyi maddi yardımı qeyd etmişlər. "İqbal" qəzetində yazılırdı: "...Salman Əsgərov cənabları Qafqaziyada vaxtımızın ən müqtədir şairlərindən sayılan bir zat olub, "Molla Nəsrəddin" jurnalında özünün pürməna şeirləri ilə millətimizin nöqsanlarını göstərir, nicatına yol axtarır". S.M.-la "Molla Nəsrəddin" jurnalının fəal əməkdaşları arasında böyük dostluq əlaqələri olmuşdur. M. 1916 ildə ilk dəfə çap etdirdiyi "Nigarançılıq" hekayəsinin üz qabığında "Molla Nəsrəddin"in həqiqi dostu Salman Əsgərov naminə yadigardır" sözlərini yazmışdı. Böyük ədib yalnız bu əsərini xüsusi şəxsə ithaf etmişdi. Görkəmli mollanəsrəddinçi Ə.Haqverdiyev "Molla Nəsrəddin"in "cəmi Türküstanda şöhrət və nüfuz qazanmasında"

Salman Mümtaz

M.Sadıqov

S.M.-ın xidmətlərini yüksək qiymətləndirir və onu "Mozalan bəyin səyahətnaməsi"nin müəlliflərindən biri kimi təqdim edirdi. S.M.-ın ən yaxşı bədii əsərləri "Molla Nəsrəddin" jurnalının səhifələrində çap olunmuşdur.

S.M.-ın "Molla Nəsrəddin"lə əlaqəsi sovet dövründə də davam etmişdir. 1923 ildə M. məvacibinin onda bir payını "Molla Nəsrəddin" aeroplanının nəfinə verərək, S.M.-ı da ianə verməyə dəvət etmişdi. Elə bu illərdə "Molla Nəsrəddin"də ünvanına deyilən tənqiddən inciyən S.M. jurnaldan uzaqlaşmışdı. Lakin bu hal heç də onun "Molla Nəsrəddin"də iştirakının əhəmiyyətini azaltmır. S.M.-ın "Molla Nəsrəddin"də iştirakı ədəbiyyatımızın tarixində öz müsbət rolunu oynamışdır.

M.Y.Saltıkov-Şedrin

SALTIKOV (Saltıkov-Şedrin) Mixail Yevqrafoviç (əsl soyadı Saltıkov, təxəllüsü N.Şedrin) (1826-1889) – rus satirik yazıçısı, publisist. 1868-1884 illərdə "Отечественные записки" jurnalının red. (1878 ilədək N.A.Nekrasovla müştərək) olmuşdur. S.-un yaradıcılığı təhkimçi mütləqiyyət üsuli-idarəsinə qarşı yönəldilmişdi ("Quberniya oçerkləri", 1856-1857, "Pompadurlar və pompadurşalar", 1863-1874 və s.). "Bir şəhərin tarixi" (1869-1870) əsərində rəsmi tarixçiliyi təqlid edərək, şəhərin böyüklərinin gülünc-satirik obrazlar qalereyasını yaratmışdır. Sosial-psixoloji "Cənab Qolovlyovlar" (1875-1880) romanında zadəganların mənəvi və fiziki iflasını təsvir etmişdir. Onun satirik obrazları xalqın ictimai şüuruna daxil olmuşdur. S.-un yaradıcılığı rus ədəbiyyatının inkişafına əlamətdar təsir göstərmiş, tənqidi realizmi daha da inkişaf etdirmişdir.

H.Sarabski

S. kimi rus satirik yazıçılarına və onların əsərlərinə yüksək qiymət verib öyrənən M. "Danabaş kəndinin əhvalatları" povestini yazmağa başlayanda onun bədii təfəkküründə "Danabaş kəndi", "danabaşlar" kimi satirik mahiyyətli adlar, obrazlar əmələ gəlmişdi. Bu adların, obrazların "Molla Nəsrəddin" jurnalında dəfələrlə işlənməsi ədibin onları çox xoşladığını göstərir.

"САНКТ-ПЕТЕРБУРГСКИЕ ВЕДОМОСТИ" – rus qəzeti. Əsası 1728 ildə qoyulmuşdu. "Vedomosti" qəzetinin davamı kimi nəşr edilirdi. Peterburq EA-nın nəzdində həftədə iki dəfə çıxırdı. 1800 ildən gündəlik qəzetə çevrilmişdi.

H.Sarabski Məcnun rolunda.

Nəşri 1917 ildə dayandırılmışdır. Əsasən liberal mövqedə dayanırdı. M.-nin naxçıvanlı müasiri, rus dili müəllimi Mirzə Kazım Qulubəyov və bəzi b. ziyalılarımız ara-sıra "S.-P. v."-də çıxış edirdilər. Bu qəzetdən alınmış bir sıra rəsmi xəbərlər "Molla Nəsrəddin" jurnalında satirik şəkildə təfsir olunurdu.

SARABSKİ (əsl soyadı Rzayev) Hüseynqulu Məlik oğlu (1879-1945) – müğənni, aktyor, pedaqoq, teatr xadimi; Azərb. professional musiqili teatrının yaradıcılarından biri. Azərb. xalq art. (1932). Səhnə fəaliyyətinə 1902 ildə Bakıda başlamış, dram tamaşalarında çıxış etmişdir. 1908 ildə ilk Azərb. operası "Leyli və Məcnun"da (Ü.Hacıbəyov) Məcnun partiyasını böyük məharətlə oxumuşdur. Bir sıra pyeslər yazmışdır. "Köhnə Bakı" əsəri Azərb. teatr tarixinin öyrənilməsində qiymətli məxəzdir. S. "Müsəlman opera truppası", "Müsəlman dram truppası"nın yaradıcılarındandır. 1910 ildən, həmçinin rej. kimi də fəaliyyət göstərmişdir. 1916 ildə M.-nin "Ölülər" pyesini ilk dəfə tamaşaya qoymuşdur.

SARA XANIM MƏŞƏDİ BABA QIZI (?-1905) – M.-nin anası. Naxçıvan şəhərinin sakini idi. Atası Məşədi Baba kişi tərəvəzçiliklə məşğul olduğu üçün ailədə o, "bostançı qızı" deyə çağrılmışdır. Dindar və savadsız idi. Təxminən 1860 ildə

M.-nin atası Məmmədqulu Məşədi Hüseynqulu oğlu Naxçıvan şəhərində S.x.-la evlənmişdir. Bu nikahdan 4 oğul – Yusif, Cəlil, Ələkbər və Xəlil, 1 qız – Səkinə dünyaya gəlmişdir.

SATİRA – ədəbiyyat və incəsənətdə gerçəkliyin inikası üsullarından biri; ictimai eyiblərin, qüsurların, mənfi hadisə və halların kəsərli tənqidi, ifşası. S. tarixi inkişafa mane olanlara, cəmiyyətdəki yaramazlara qarşı yönəlir. Köhnəlik və eybəcərliklərin masqaraya qoyulması, yenilik yin, müsbət, layiqli fikir və hisslərin xeyirxahlıqla təsdiqi S.-nın əsas qayəsi, məzmunudur. Adətən, satirik əsərdə mənfiliklər qəsdən qabarıq, mübaliğəli, gülünc, bəzən hətta tam eybəcər şəkildə göstərilir. Yumor və kinayə kimi, S.-da da hadisə və surətlərin zahiri komikliyi arxasında dramatik və ya faciəvi həqiqətlər durur.

Dünya ədəbiyyatında S. antik dövrdə əmələ gəlmişdir. Zaman keçdikcə, tarixi şərait dəyişdikcə satira da başqalaşıb yeni keyfiyyətlər alır. Azərb. satirik ədəbiyyatı buna yaxşı sübutdur. Bizdə S. orta əsrlərdə inkişafa başlamışdır. Məhəmməd Füzulinin "Şikayətnamə", "Rindü zahid" əsərləri, Molla Nəsrəddin və Bəhlul Danəndənin lətifələri, A.Bakıxanov, M.F.Axundov, B.Şakir, Q.Zakir, S.Ə.Şirvani, C.Məmmədquluzadə, M.Ə.Sabir, Ə.Haqverdiyev, Ö.Faiq, M.Möcüz və b.-nın ədəbi irsi içərisində satirik əsər çoxdur. C.Cabbarlı, S.Rəhimov, Mir Cəlal, S.Rəhman, Anar və Ə.Əylislinin pyes, hekayə, povestləri satirik lövhələr, hadisələr, surətlər, parçalarla zəngindir.

M.-nin əsərləri Azərb. satirik ədəbiyyatında çox mühüm yer tutur. Ədibin satirik gülüşü cəmiyyətdəki mənfi, eybəcər hallara, geriliyə, yaramazlıqlara və onları törədənlərə qarşı çevrilmişdir. Bu gülüşün M. bədii təfəkküründə nə üçün, necə cücərdiyini ədib özü yüz il əvvəl dostu Q.Şərifova pərişanlıqla yazdığı bir məktubda göstərmişdi: "Haman Naxçıvan, haman Nehrəm, haman Danabaş kəndi və haman Məhəmmədhəsən əmi və Xudayar bəy, haman qazi... Qərəz, haman göl, haman qurbağa" (Əsərləri, altı cilddə, c. 6, s. 193).

M. ironiya ustası idi. Bədii yaradıcılığında ədib çox vaxt yaramazlığı, eybəcərliyi S. üçün səciyyəvi olan dolayı üsullar və vasitələrlə işıqlandırırdı ki, belə hallarda onun sənətkarlıq məharəti oxucunu heyran edirdi. "Molla Nəsrəddin"in red. 1906-1920 illərdə, sovet dövründə qadın azadlığı, azyaşlı qızların ərə verilməsi, kəbin-tələqla bərabər yerli hökumət orqanları, məsul işçilər, yarıtmaz məktəblər və müəllimlər, rüşvətxor xadimlər haqqında yüzlərcə kiçik miniatür, böyük oçerk, məqalə, komediya yaratmaqla milli ədəbiyyatımızda S.-nı yeni ideya-bədii səviyyəyə qaldıra bilmişdi.

SEMYONOV Dmitri Dmitriyeviç (1834-1902) – rus pedaqoqu. Rusiyada K.D.Uşinskinin maarifçi-demokratik ideyalarının görkəmli davamçısı kimi tanınmışdır. 1878-1884 illərdə M.-nin təhsil aldığı Qori müəllimlər seminariyasının direktoru olmuşdur. Azərb. məktəbləri üçün milli müəllim kadrları hazırlığına qayğı göstərmiş, onun yaxından köməyi ilə 1879 ildə Qori seminariyasında Azərb. şöbəsi təşkil edilmişdir.

D.D.Semyonov

S.-un rəhbərlik etdiyi illər Qori seminariyasının "intibah və maarifçilik mərhələsi" kimi yüksək qiymətləndirilir. O, seminariyada mütərəqqi maarifçi və demokratik təhsil mühiti formalaşdırmışdı. M. və müasirləri S.-un maarifçi-demokratik və azadfikirli ideyalarından bəhrələnmişlər. S. 1884 il avqustun 1-də seminariyanın gürcü dili müəllimi, maarifçi-demokrat Mixail Kipianini müdafiə etdiyi üçün tutduğu vəzifədən azad olunmuşdur.

SENZURA – rəsmi hakimiyyət orqanlarının çap məhsullarının məzmunu, nəşri və yayılması üzərində nəzarəti. XX əsrin əvvəllərində təkcə Azərb.-da deyil, ümumən Zaqafqaziyada üzərində ən çox senzura nəzarəti qoyulmuş mətbuat orqanlarından biri də M.-nin naşir və red. olduğu "Molla Nəsrəddin" jurnalı idi. Çar senzorları jurnalın yığılmaq və çap olunmaq üçün mətbəəyə verilmiş ayrı-ayrı yazı və karikaturalarının çapına icazə verməmiş, hətta yığılıb səhifələnmiş materialları daşdan sildirmişlər. Jurnalın naşirləri çox vaxt senzuranın tələbi ilə çıxarılmış karikaturaların yerini boş buraxaraq, üstünə çalınçarpaz xətt çəkir, altında isə: "İzin verilmədi", "Bizdən asılı olmayan səbəblərə görə bu yer boş qaldı", "Məsləhət belə oldu ki, buradakı şəkli daşdan silək", "Bizdən asılı olmayan səbəblərə görə bu səhifənin şəkli çap olunmadı", "Buradakı şəklə izin verilmədi və özgə şəkil çəkməyə

fürsət olmadı" və s. bu kimi oxucunu intizarda qoyan və onlarda böyük maraq doğuran yazılar verilirdi.

Çar senzorları jurnalın çapdan çıxmış hazır nüsxələrindəki yazı və karikaturaları qaralamaqdan da çəkinmirdilər. İlk dəfə jurnalın 1906 il 2 iyun tarixli 9-cu sayının 6-cı səhifəsindəki "Məktub" sərlövhəli yazının üstü tamamilə qaralanmışdı. Sonralar da jurnalda dərc olunmuş və senzura tərəfindən üzərinə qara çəkilmiş çoxlu yazı və karikatura vardı. Senzura tərəfindən jurnalın çap olunmuş ayrı-ayrı sayları da müsadirə edilir, onun red.-ları və nəşr edildiyi mətbəənin sahibləri dəfələrlə məhkəmə məsuliyyətinə cəlb olunur, cərimə edilirdilər. Belə ki, jurnalın 1913 il 16-cı sayı tamamilə müsadirə olunmuş, həmin ilin 20 və 21-ci sayları haqqında qaldırılmış məhkəmə işi 1916 ilin aprelinədək davam etmiş, məhkəmənin hökmü ilə jurnalın red.-ları C.Məmmədquluzadə və Ə.Nəcəfov cərimə olunmuş, jurnalın həmin sayları qadağan olunmuş və məhv edilməli nəşrlər siyahısına salınmışdır. Lakin bütün bu tədbirlər jurnalın ideya rəhbəri və əvəzsiz red. Mirzə Cəlili öz yolundan döndərə bilməmişdir.

Seyid Hüseyn

Sovet hakimiyyəti illərində də jurnalın nəşrinin ilk günlərindən orada dərc olunan materiallar üzərində ciddi S. nəzarəti qoyulmuşdu. Buna etiraz əlaməti olaraq Mirzə Cəlil bir neçə dəfə jurnalın nəşrini dayandırmaq istəmiş, 1925 ilin yanvarından isə red. kimi jurnalı imzalamaqdan tamamilə imtina etmişdi. Həmin vaxtdan jurnal red. əvəzinə "redaksiya heyəti" adından çapa imzalanırdı.

SEYİD ƏZİM ŞİRVANİ (1835-1888) – şair, maarif xadimi. Bağdadda, Şamda (Dəməşq) dini təhsil almışdır. 1874-1888 illərdə Şamaxıda "Məclis" adlı yeni üsulla (üsuli-cədid) açılmış məktəbdə və Şamaxı şəhər məktəbində müəllim işləmişdir. M.Ə.Sabir, S.M.Qənizadə ilk təhsilini ondan almışlar.

S.Ə.Şirvani

Yaradıcılığa 1855 ildən başlamış, Azərb. və fars dillərində yazmış, yüksək sənətkarlıqla yaratdığı lirik və satirik əsərləri Azərb. şeirinin inkişafına təsir göstərmişdir. Satirik şeirlərində mülkədar və bəyləri, çar məmurlarını, ruhaniləri ifşa etmişdir. Şair əsərlərində zəhmət adamlarının hüququnu müdafiə edir, vergilərin ağırlığından şikayətlənir, hökumət idarələrində kök salmış rüşvətxorluq, özbaşınalıq və s. yaramazlıqları qamçılayırdı.

Dövri mətbuatda ("Əkinçi", "Ziya", "Kəşkül") iştirak etmişdir.

M. hələ seminariyada təhsil alarkən S.Ə.Ş.-nin əsərlərini mütaliə etmiş, "Molla Nəsrəddin" jurnalındakı bir sıra felyetonlarında Seyid Əzimin "Mən eylə bilirdim ki, mənə yar olacaqsan" və "Görəndə" rədifli qəzəllərindən istifadə etmişdir.

SEYİD HÜSEYN (Hüseyn Mir Kazım oğlu Sadıqzadənin təxəllüsü) (1887-1938) – mətbuat xadimi, pedaqoq, yazıçı, tənqidçi. Birinci "Rus-müsəlman" məktəbini bitirdikdən sonra "Təzə həyat" və "Kaspi" qəzetlərinin mətbəələrində mürəttiblik etmişdir. "Bəhlul", "Kəlniyət" jurnallarını şərikli nəşr etdirmiş, 1913-1914 illərdə "İqbal"ın baş red. olmuşdur. S.H. bədii yaradıcılığa 1907 ildən başlamışdır. Həyata və sənətə baxışlarında mollanəsrəddinçilərə yaxın olan S.H. hekayə və publisistik məqalələrində mürtəce burjua ziyalılarına qarşı çıxmış, qadın azadlığı, Azərb. dilinin təmizliyi, ədəbiyyatın ideya saflığı uğrunda mübarizə aparmışdır. Ədəbi-tənqidi məqalələrini, əsasən, "Kazımoğlu" və "Hüseyn Sadiq" imzaları ilə dərc etdirmişdir.

S.H. ədəbiyyatı həyata yaxınlaşdırmaq, müasir ruhda, milli zəmində inkişafını təmin etmək, zərərli axınlara qarşı mübarizə aparmaq və s. məsələlərdə M. yolu ilə gedirdi. "Şəlalə" jurnalını tənqid etməkdə mollanəsrəddinçilərlə bir cəbhədə dayanmışdı. M. fəaliyyətinə böyük rəğbət bəsləyən S.H. 1916-cı ildə "Ölülər" Bakıda tamaşaya qoyularkən mətbuatda bir sıra məqalələr dərc etdirmiş, tamaşanı yüksək qiymətləndirmiş və onu qərəzli hücumlardan qorumuşdur. S.H.-in Azərb.-ın bir sıra ədəbiyyat xadimləri, o cümlədən M. haqqında yazdığı məqalələri diqqətəlayiqdir.

SEYİDOV Əhməd Yusif oğlu (1892-1977) – pedaqoq. Pedaqoji e.d. (1949), prof. (1950). Azərb. əməkdar elm xad. (1965). Pedaqoji fəaliyyətə 1917 ildən, Qori seminariyasını bitirdikdən sonra Qazax qəzasının Aslanbəyli k.-ndə qız məktəbində başlamışdır. 1930 ildə ADU-nu bitirmiş, həmin ildən APİ-də işləmişdir. S. Azərb.-da pedaqoji fikir tarixinin ilk tədqiqatçılarından olmuşdur. M.-ni böyük maarifpərvər adlandıran S. əsərlərində

onun pedaqoji baxışlarını təhlil etmiş, Azərb.-da gənc nəslin təlim-tərbiyəsində M.-nin rolunu yüksək qiymətləndirmişdir. M.-nin anadan olmasının 100 illiyi ərəfəsində "Böyük maarifpərvərin pedaqoji baxışları" məqaləsini yazmışdır (1966).

SEYİDOV Yusif Mir Əhməd oğlu (d. 1929) – tənqidçi, ədəbiyyatşünas, dilçi. Filol. e.d. (1966), prof. (1967), Azərb. Dövlət mükafatı laureatı (1974). Əməkdar elm xadimi (2000). Naxçıvan Müəllimlər İn-tunun tarix-filol. (1946), ADU-nun filol. (1952) fakültələrini bitirmişdir. BDU-da "Azərbaycan dili və onun tədrisi metodikası" kafedrasına rəhbərlik edir (1965 ildən). Dilçiliyin müxtəlif problemlərinə dair yüzdən çox elmi məqalənin, iyirmi altı kitabın (monoqrafiya, dərslik, dərs vəsaiti) müəllifidir. Tədqiqlərində "Molla Nəsrəddin" ədəbi məktəbinə tez-tez müraciət edən S.-un "Yazıçı və dil" kitabında (1979) Mirzə Cəlil, M.Ə.Sabir, Ə.Haqverdiyev, M.S.Ordubadi, Ə.Qəmküsar, M.Möcüz, Ömər Faiq haqqında oçerkləri var. "Molla Nəsrəddin" ədəbi məktəbinin venetkasının müəlliflərindəndir.

SEYFİ Ələkbər Seyfulla oğlu (1901-1977) – aktyor. Azərb. xalq art. (1961). Səhnə fəaliyyətinə 1914 ildə Tiflisdə başlamış, buradakı "İbrət" dram cəmiyyətinin (1918) təşkilatçılarından olmuşdur. Tiflis Azərb. Teatrı (1921-1929), Bakı Türk İşçi Teatrı (1929-1932) və Gəncə Dram Teatrında (1932 ildə aktyor və direktor; fasilələrlə) işləmişdir. S. komik rolların ifaçısı kimi şöhrət qazanmış, onun səhnə obrazları realistliyi, dolğunluğu ilə fərqlənmişdir. M.-nin "Ölülər" pyesinin tamaşasında Məşədi Oruc (1922) və Şeyx Əhməd (1957) rollarını müvəffəqiyyətlə ifa etmişdir.

Y.Seyidov

SƏBRİBƏYZADƏ Xalid Xürrəm (?-?) – türk yazıçısı, şair, publisist. 1912 ildə Bakıya gəlmiş, "İqbal" qəzetində şeir və publisist məqalələr dərc etdirmişdir. S. 1913-1914 illərdə həftədə bir dəfə nəşr edilən ictimai-siyasi və elmi-ədəbi "Şəlalə" jurnalının red. olmuşdur (jurnalın sahibi və naşiri İsa bəy Aşurbəyov idi). "Sarı yapraqlar" (1913) hekayələr silsiləsinin, "Eşqü həvəs" romanının və lirik şeirlərin müəllifidir. "Şəlalə"də Azərbaycan ədəbiyyatının varlığını inkar etmiş, onu "pək çox tərəqqi etmiş olan Osmanlı üsuli-təhririni tərviz" etməyə səy göstərmişdir. Bu məqsədi həyata keçirmək üçün "Şəlalə"də "Qafqaz şivəsi ilə kitabət" rubrikasını açmış azərbaycanlı şairlərin dilini osmanlılaşdırmağa, İstanbul şivəsinə uyğunlaşdırmağa çalışmışdır. O, məqsədini açıqlayaraq yazırdı: "Zatən "Şəlalə" də bu məqsədlə çıxıyordu. Bizim bura yazıçılarının yazılarını son iki səhifəmizə dərc edişmiz... Yoxsa onların yazıları "Şəlalə"də deyil, süprüntü səbətində yer bulurdu" ("Şəlalə" jurnalı, 1914, №1).

S. "Molla Nəsrəddin" jurnalı və "İqbal" qəzeti redaksiyalarının, H.Cavid, Məhəmməd Rasizadə, Ə.Cavad, Ə.Sərkarov, S.Hüseyn, Ə.Qəmküsar, S.Mümtaz və b. təzyiqinə məruz qaldı. S. 1914 ildə "Şəlalə"nin redaktorluğundan uzaqlaşdırıldı. Bu münasibətlə "Molla Nəsrəddin" jurnalında Əliqulu Qəmküsarın "Şəlalə", "Ədəd 3" satirası dərc olundu.

"SƏDA" – gündəlik ictimai-siyasi, iqtisadi və ədəbi qəzet. 1909-1911 illərdə, Bakıda Azərb. dilində nəşr edilmişdir (cəmi 479 nömrə). Naşiri və red. Haşım bəy Vəzirov idi. "İttifaq" qəzetini əvəz edən "S."-da feodal-patriarxal münasibətlər əleyhinə, həmçinin kapitalizm və müstəmləkəçiliyə qarşı məqalə və felyetonlar dərc olunurdu. "S."-da M.Hadi, Ə.Müznib, F.Köçərli, M.S.Ordubadi, Ə.Kamal, S.E.İbrahimov, Y.V.Çəmənzəminli və b. mütərəqqi fikirli ziyalıların da yazıları çıxmışdı. H.Vəzirov "S."-nın səhifələrində "Molla Nəsrəddin" jurnalı və bilavasi-

Ə.Seyfi M.-nin "Ölülər" pyesində Məşədi Oruc rolunda.

tə M. əleyhinə arasıkəsilməz mübarizə aparırdı. 1911 ilin avqustunda "zərərli istiqamətinə görə" qapadılmışdır.

SƏDİ ŞİRAZİ (Müsləhəddin əbu Məhəmməd Əbdullah ibn Müşrifəddinin təxəllüsü) (1203/1210-1292) – fars şairi, mütəfəkkir. Dindar ailədə doğulmuşdur. "Nizamiyə" mədrəsəsində təhsil almış, bütün fənləri əla öyrəndiyinə görə dövlət təqaüdünə layiq görülmüşdür. Tələbəlik illərindən şairlik şöhrəti çox uzaqlara yayılmış, "Sədi" ("xoş bəxtli") təxəllüsünü də məhz o zaman qəbul etmişdir. Məkkə ziyarətindən sonra dərviş libasında təqr. 30 il Yaxın və Orta Şərq ölkələrini gəzib dolaşmış, Azərb.-da da olmuşdur. S.Ş. gəzdiyi ölkələrin tarixi, müharibələri, xalqların həyatı, təbii fəlakətlər, ictimai bərabərsizlik, ziddiyyətlər haqqında zəngin məlumat toplamışdır. Mütəfəkkir sənətkarın böyük həyat təcrübəsi, fikir, düşüncə və hissləri dünya dillərindən bir çoxuna tərcümə edilib yayılan məşhur "Bustan" (1257) və "Gülüstan" (1258) kitablarında ifadə olunmuşdur. "Bustan" tamam mənzumdur. "Gülüstan" isə həm şeirlə, həm nəsrlədir. S.Ş. klassik fars ədəbi-bədii nəsrinin əsasını qoymuşdur. Onun yaradıcılığına Nizami Gəncəvinin, xüsusilə, "Sirlər xəzinəsi" poemasının əhəmiyyətli təsiri hiss olunur. Əsərləri inqilabdan əvvəl Azərb.-da böyük şöhrət tapmış, "Bustan" və "Gülüstan" uzun müddət məktəb və mədrəsələrdə tədris edilmiş, Azərb. poeziyasının inkişafına güclü təsir göstərmişdir.

M. "Molla Nəsrəddin" jurnalının bir çox saylarında S.Ş.-nin şeirlərindən parçalar vermiş, onların əhəmiyyətindən danışmışdır ("Əbdürrəhman əfəndi", "Mıncıq", "Təzə il", "Xeyirxahlıq", "Ot" və s. felyeton və məqalələr). "Ölülər" pyesinin birinci məclisində Sədinin "Gülüstan" əsərinin müəllim Mirzə Hüseyn tərəfindən Cəlala öyrədilməsi təsvir olunur.

SƏFƏROV Məhəmmədhəsən Məhəmməd Tağı oğlu (1891-1967) – ziyalı. M.T.Sidqinin oğlu. Atasının vəfatından sonra bir müddət Tiflisdə M.-nin himayəsində yaşamış, dərzilik peşəsinə yiyələnmişdir. Gənclik illərində "Molla Nəsrəddin" jurnalının nəşri ilə əlaqədar işlərə, jurnalın yayılmasına və öyrənilməsinə köməyi dəyənlərdən olmuşdur. Uzun illər Bakıda dərzilik etmişdir. M. məktublarından bir neçəsində S.-un adını çəkib, "Sürtuk" əhvalatını xatırladır. Ədibin qızı Münəvvər ölüm yatağında olduğu zaman, ona qayğıkeşlik göstərənlərdən biri idi.

SƏFİYEV Tağı bəy (1878-1939) – müəllim. M.-nin maarifçi müasiri və dostu. Baş Noraşen ikisinifli zemstvo məktəbində oxumuşdur (1885-1889). M. bu məktəbdə ona 1 il 5 ay dərs demişdir. M.-nin təşviqi ilə 1893 ildə İrəvan müəllimlər seminariyasını bitirmişdir. İki il Baş Noraşen məktəbində işlədikdən sonra, 1895-1896 illərdə M.-nin müdir olduğu Nehrəm məktəbində ikinci müəllim kimi pedaqoji fəaliyyətini davam etdirmişdir. 25 may 1895 ildə Xalq Məktəbləri Direktorluğunun yazdığı raportda S.-in daşıdığı vəzifəyə "zəhmətkeş münasibətlə" yanaşdığı, lazım gələrsə M.-ni əvəz edə biləcəyi qeyd edilmişdir. S. "Molla Nəsrəddin" jurnalında "Baş Noraşenli" imzası ilə çıxış edirdi. Sovet hakimiyyəti illərində müəllimliklə məşğul olmuş, Qars müqaviləsinin bağlanması mərasimində iştirak etmişdir.

SƏİDXOCAYEV Xalid Səid (1888-?) – özbək filoloqu, müəllim, tərcüməçi. Orta təhsilini Daşkənddə almış, İstanbul un-tinin tibb, sonra isə dil və ədəbiyyat fakültəsində oxumuşdur. 1920 ildən Azərb.-da elmi və pedaqoji fəaliyyət göstərmiş, Balaxanı məktəbində və resp.-nın ali məktəblərində işləmiş, Azərb.-özbək ədəbi əlaqələrinin tərəqqisi yolunda çalışmışdır. 1924 ildə M. ilə birlikdə, Azərb. MİK-nin sədri S. Ağamalıoğlunun başçılıq etdiyi nümayəndə heyətinin tərkibində yeni latın əlifbasının təbliği üçün Krım, Tatarıstan və Orta Asiyada olmuş, latın əlifbasının türk xalqlarının vahid əlifbasına çevrilməsinə səy göstərmişdir. "Türk dilinin müqayisəli qrammatikası", "Cığatay ədəbiyyatı haqqında mühazirələr", "Türk ədəbiyyatının nəzəriyyəsi" və s. əsərlərin müəllifidir.

"SƏKİLİ BULAQ" – Mirzə Cəlil üçün gözəl yaylaq və iş yeri olan Şuşa mahalı, "S.b." ömrünün son illərində ona daha sevimli idi. 1931 ildə səhhətinin çox ağırlaşdığını görən ədib yayda Münəvvərlə orada dincəlməyə getmişdi. Bələdçisi ev sahibi, sonralar Şuşadakı uşaq sanatoriyasının tərbiyəçi-müəllimi Rəhim Sadıqov idi. O, ədibin bulaq başındakı gününü "Xatirələr məskəni" məqaləsində təsvir etmişdir. Kənd sovetinin verdiyi iki atın birini Mirzə Cəlil, digərini Münəvvər sü-

rürdü. Bağa çatıb çadır qurur, yerbəyer olurlar. Xatirədə deyilir ki, "Mirzə Cəlil... Hərdən başının ağrısından şikayətlənirdi. Bəzən göy guruldarkən o, başını ovucları içərisinə alıb, qulaqlarını bərk-bərk yumardı...". Həmidə xanıma məktubunda ədib yazmışdı: "Çox gözəl yerdir. Suyu da İsa bulağının suyu kimidir. [...] Yola düşəndə elə həyəcanlı idim ki, sənlə görüşməyi də unutdum [...] İncimə, bağışla. Kartof və kömür göndər. Hələlik. Cəlil".

SƏLİMOVA Cənnət Əlibəy qızı (d. 1940) – rejissor, pedaqoq. Azərb. xalq art. (1998). ADU-nun filol. fakültəsində təhsil alınış (1958-1962), Leninqrad Teatr və Kinematoqrafiya İn-tunu bitirmişdir (1968). 1968-1991 illərdə S.Vurğun ad. Rus Dram Teatrında rej., baş rej. işləmişdir. 1991 ildən Bakı Kamera Teatrında çalışır. 1975 ildən Mədəniyyət və İncəsənət un-tində rej. və aktyor sənətindən dərs deyir. 1969 ildə M.-nin "Danabaş kəndinin əhvalatları" silsiləsi əsasında libretto yazmışdır. Əsər 1980 ildə Azərb. Musiqili Komediya Teatrında tamaşaya qoyulmuşdur (rej. Vaqif İbrahimoğlu). 1991 ildə "Eşşəyin itməkliyi" povesti əsasında S.-nın hazırladığı "Məkkəyə yol" pyesi Bakı Kamera Teatrının səhnəsində göstərilmişdir.

SƏMƏD Mənsur (Səməd Əhməd oğlu Kazımovun təxəllüsü) (1879-1927) – şair, jurnalist, dramaturq, tərcüməçi. Şeirləri müxtəlif imzalarla red. olduğu "Şeypur" jurnalında, "Babayi-Əmir", "İqbal", "Təzə xəbər" kimi mətbuat orqanlarında çıxırdı. Satirik şeir və felyetonlarının ən çox nəşr edildiyi orqanlar "Molla Nəsrəddin" və "Tuti" jurnalları idi. Bu əsərlərin əsas pafosunu zülmün, ədalətsizliyin, riyakarlığın, nadanlıq və cəhalətin nifrətlə damğalanması təşkil edir. S.M. daha çox qadın hüquqları uğrunda fikirləri yayırdı. Şair "Molla Nəsrəddin"in Bakı mərhələsində də jurnalla yaradıcılıq əlaqəsi saxlamış, sovet quruluşunu lağa qoyan şeirlər yazmışdır.

S.M.-un vaxtsız vəfatı ilə əlaqədar "Molla Nəsrəddin" jurnalı "Kommunist" qəzetində elan – nekroloq dərc etdirərək, onu "əziz ədib və şairimiz" adlandırmışdı.

SƏMƏDZADƏ Həbibulla (1908-1945) – pedaqoq, filoloq, mətnşünas. Filol. e. n. APİ-ni bitirmişdir. Qiyabi Pedaqoji İn-tda işləmiş, ADU-da filol. fakültəsinin dosenti, dekanı olmuşdur. S.Ə.Şirvani, M.Ə.Sabir, C.Məmmədquluzadə və b. yazıçıların irsinin tədqiqi, nəşri sahəsində səmərəli fəaliyyəti var. "Böyük realist və inqilabçı-satirik" məqaləsində ("Ədəbiyyat qəzeti", 12.1.44) hələ 40-cı illərdə M.-ni "Danabaşlar mühitinin Danəndəsi, "Ölülər" aləminin Xızrı, "Dəli yığıncağı"nın üqəlası" (ən ağıllı, arif adamı – *red.*) adlandırmış, onun əsərlərinin realist, vətənpərvər mahiyyətini təhlil və izah etmişdir.

C.Ə.Səlimova

SƏMƏDOĞLU Yusif (Yusif Səməd Vurğun oğlu Vəkilov) (1935-1998) – yazıçı, ictimai xadim. Azərb. xalq yazıçısı (1998).

M.-nin nəsr ənənələrini yeni tarixi şəraitdə, 1960-cı illərdən davam və intişar etdirənlərdən olan S. yığcam, mənalı, milli insanın daxili aləminə, xarakter və psixologiyasına varan hekayələr yazmış, "220 nömrəli otaq" (1960), "Qalaktika" (1973) kitablarında dərc etdirmişdir. Uzun illər "Ulduz", "Azərbaycan" kimi ədəbi dərgilərdə baş red. vəzifəsində işlərkən, milli ədəbiyyatın tərəqqisinə, habelə "Azərbaycanfilm" kinostudiyasında çalışarkən milli kino sənətinin inkişafına xidmət etmişdir. S.-nun "Qətl günü" (1984) və "Deyilənlər gəldi başa" (1998) kimi romanları milli nəsrin inkişafında uğurlu addım olmuşdur.

Y.Səmədoğlu

SƏRDAR Hüseyn Hümayun (?-?) – İranın Tiflisdə baş konsulu. 1910 ilin may ayında "Molla Nəsrəddin" jurnalının vəsaitini gücləndirmək məqsədilə onun idarəsinə yüz manat müavinət etmişdir. "Zakavkazye" qəzetinin 27 may 1910 il tarixli sayında M.-nin açıq məktubu çap olunmuşdu: "İcazə verin, Sizin hörmətli qəzetiniz vasitəsilə "Molla Nəsrəddin" jurnalının nəşri vəsaitini gücləndirmək məqsədilə yüz manat vermiş İranın Tiflis konsulu Sərdar Hüseyn cənablarına təşəkkür edim. "Molla Nəsrəddin" jurnalının redaktoru Cəlil Məmmədquluzadə".

Səməd Mənsur

SƏRXPUŞ İsgəndərxan Qəffari (1879-1967) – təbrizli publisist. "Molla Nəsrəddin" jurnalı Tiflisdə çıxan dövrdən onun Cənubi Azərb.-da əsas müvəkkili olmuşdur (1908-1921). Jurnalda "Dılğır" imzası ilə iştirak etmişdir. "Molla Nəsrəddin"də rəssam İ.Rotterin çəkdiyi "Təbrizdə məscidin içində" karikaturasında Təbrizin ruhani atası Mir Haşımın onu döydürməsi əks olunmuşdur (1908, №17).

"Molla Nəsrəddin"nin Tiflis dövründə redaksiyaya Təbrizdən xəbərlər göndər-

miş, Tiflisdə C.Məmmədquluzadə və M.Ə.Sabirlə görüşmüşdür. S.Təbrizdə də M.-nin ən yaxın köməkçilərindən olmuş, yerli həyata dair müxtəlif yazılarla jurnalda iştirak etmişdir. Onun "Qəmli bir hadisə" əsərində M. və müasirləri haqqında geniş məlumat vardır.

SƏRVƏTİ-FÜNUNÇULAR – Türkiyədə 1891-1944 illərdə çap olunmuş "Sərvəti-fünun" ("Fənlər sərvəti") jurnalının 1896-1901 illərdə (Tofiq Fikrət baş red. olarkən) ətrafında toplanmış yazıçı və tənqidçilər nəsli. Bunlar əsgi türk ədəbiyyatından gələn köhnəlmiş meyllərin yerində Avropa və Türkiyə tənzimat ədəbiyyatının təsiri ilə yeni tipli şeir, nəsr və ədəbi tənqidin yaradıcıları hesab olunurlar. Bu ədəbiyyatçılar cərəyanına Əhməd Şuayb, Mehmed Rauf, Hüseyn Cahid, Şəhabəddin, Xalid Ziya, Tofiq Fikrət, Süleyman Nazif, Əhməd Hikmət, Süleyman Nəsib, İsmayıl Səfa, Əli Əkrəm, Əhməd Rəşad və b. daxildir. M. və "Molla Nəsrəddin" jurnalı bəzi istisnalarla S.f.-un fəaliyətini əsasən təqdir etmişlər. Jurnal 1901 ildə bağlanmış, red. heyəti dağıldıqdan sonra, 1902 ildə yenidən nəşrə başlamış, elmi-kütləvi jurnal kimi fəaliyyətini davam etdirmişdir.

Səttarxan

SƏTTARXAN Hacıhəsən oğlu (1867-1914) – 1905-1911 illər İran inqilabının və Cənubi Azərb.-da milli azadlıq hərəkatının rəhbərlərindən biri, xalq qəhrəmanı. Gənc yaşlarından ədalətsizliyə, mütləqiyyətə qarşı mübarizə aparmış, silahlı qaçaq dəstəsi yaradaraq əzilənlərin müdafiəçisi kimi çıxış etmiş, dəfələrlə həbsə alınmışdı.

Təbrizdə mütləqiyyətə qarşı üsyan başladıqda inqilab döyüşçüləri sırasında S.x. da var idi. 1908 ilin əvvəllərində Təbrizdə fədai mərkəzləri yaradıldıqda S.x. yaşadığı Əmirəqız məhəlləsinin mücahidlərinə başçı təyin olundu. 1908 il iyunun 23-də Tehranda həyata keçirilmiş əksinqilabi çevrilişdən sonra, Təbrizin irticaya qarşı möhkəm dayanmasında "Hərbi Şura"nın başçısı təyin olunmuş S.x. bir sərkərdə kimi həlledici rol oynadı və silahdaşları ilə birlikdə mütləqiyyətin 1909 il aprelin 25-dək davam etmiş 11 aylıq aramsız hücumlarını dəf edə bildi. Təbriz İran Məşrutə inqilabının mərkəzinə çevrildi. Xalq S.x.-ı "Sərdari-milli" ("Milli sərkərdə") adlandırırdı (az sonra Əyalət Əncüməni bu adı xüsusi fərmanla rəsmiləşdirdi).

Təbrizin döyüşkənliyi, Səttarxanın saysız qəhrəmanlıqları yaxın-uzaq ölkələrdə böyük əks-səda doğurdu. Həmin günlərdə Azərb. Əyalət Əncüməninin və şəxsən S.x.-ın adına müxtəlif şəhərlərdən təbrik teleqramları, məktublar, şeirlər daxil olur, xarici qəzet və jurnallarda məqalələr dərc olunurdu. M., "Molla Nəsrəddin" və bütövlükdə mollanəsrəddinçilər S.x. hərəkatına dərin rəğbət bəsləyirdilər. Jurnal bütün hərəkat boyu Azərb. inqilabçılarına ruh verirdi. Təbrizdəki qanlı döyüşlər vaxtı M. yazırdı: "Bu gün Kərbəla meydanı Azərbaycandakı vətənpərvərlik meydanıdır. Hər kimin ürəyində bir cüzi din, namus, vətən hissi varsa, oranın qeydinə qalmalıdır" ("Molla Nəsrəddin", 1909, №2). M.-nin məqalə və felyetonları S.x. hərəkatını nəinki alqışlayır, hətta onu bir növ istiqamətləndirirdi. M.Ə.Sabirin "Səttarxana" şeiri, eləcə də digər şairlərin yüksək hörmət və iftixarla S.x.-a həsr etdiyi əsərləri "Molla Nəsrəddin"də çap olunub, cənubda da yayılır, mücahidləri yeni qələbəyə ruhlandırırdı. 1908 ilin oktyabrında S.x.-ın namərd şah qoşunları üzərində qələbəsi xəbəri Qafqaza yetişərkən M. yazmışdı: "İnsan həddən artıq bir şeyə sevinəndə çox vaxt dili tutulan kimi olar və əvvəl vaxt bilməz ki, nə desin və nə danışsın. Şahın namərd qoşunlarının basılmağını eşidib ancaq bunu deyə bildik: Yaşa, Səttarxan" ("Molla Nəsrəddin" jurnalı, 1908, №40). İnqilabın daxili və xarici düşmənləri inqilabın beşiyi olan Cənubi Azərb.-dakı hərəkatı boğmaq üçün S.x.-ı məhv etməyi planlaşdırırdılar. Bu plana əsasən S.x. yaxın silahdaşı Bağırxanla birlikdə 100 nəfər mücahidin müşayiətilə 1910 il martın 19-da Tehrana aparıldı. Lakin çox keçmədən xəyanətkar mərkəzi hökumətin təşkil etdiyi hücum nəticəsində S.x. ağır yaralandı və uzun sürən xəstəlikdən sonra, ev dustağı kimi saxlandığı Tehranda vəfat etdi. S.x.-ın siyasi səriştəsizliyi, Tehran üsul-idarəsinin hiylələrinə aldanması və həyatını mənasızcasına fot etdirməsi M.-ni narazı salmışdı. "Sərdari-milli"nin bu addımları karikaturalar vasitəsilə tənqid olunmuşdu ("Molla Nəsrəddin" jurnalı, 1910, №21, 40). "Mükafat" başlığı altında verilmiş bir yazıda Nobel mükafatına layiq görülmüş müsəlmanlar arasında Səttarxan və Bağır- xanın da adları var idi. M. onların

qarşısında rişxəndlə "Cəsarətdə" sözünü yazmışdı.

SİDQİ (Səfərov) Məmmədəli Məhəmməd Tağı oğlu (1888-1956) – müəllim, yazıçı, jurnalist. M.T.Sidqinin oğlu. "İrşad" qəzetinin əməkdaşı (1906-1908), "Molla Nəsrəddin"in müvəqqəti red. (1910-1911) olmuşdur. M. dostunun oğluna etibar edir və məhəbbət bəsləyirdi. 1910 il 9 iyun tarixli məktubunda ədib yazırdı: "...kəndə getməliyəm və burada bir adam lazımdır ki, "Molla Nəsrəddin"i idarə eləsin. [...] İki ay gəlib Tiflisdə qala bilsəniz, tez gəlin. [...] Əgər mərhum Sidqi bəradərimin oğlu ilə gələcəkdə dostluğum baş tutsa, özümü xoşbəxt hesab edərəm. Xeyirxahınız C.Məmmədquluzadə". S. ədibin şəxsi həyatında və "Molla Nəsrəddin"in tarixindəki ən mürəkkəb, ağır illərdə jurnalda bilik, bacarıq və istedad göstərmişdir. M. sonralar da Kəhrizli kəndində, başqa şəhərlərdə olanda S. ilə işgüzar əlaqə saxlayır, məktublaşır, göstərişlər verirdi. Xəstə M.Ə.Sabir Tiflisdə Mirzə Cəlilin evində yaşayanda, S. ona çox yaxşı qayğı göstərən, qulluğunda dayanan cavanlardan idi.

S. 1913 ildən Bakıda və Bülbülə kəndində müəllimlik edir, yerli qəzetlərə, "Molla Nəsrəddin"ə material yazır, bəzən həvəskar artistlərin tamaşalarında kiçik rollarda oynayırdı. 1917 ildə Bakıda A.M. Şərifzadənin rej.-luğu ilə səhnəyə qoyulmuş "Ölülər" pyesində Şeyx Nəsrullah rolunu ifa etmişdir. Bu rolu o, sonralar da oynamışdır. Bacarığı, işgüzarlığı, səmimiyyəti S.-ni "Molla Nəsrəddin"in fəal əməkdaşı Ömər Faiqə, sevimli şair M.Ə.Sabirə, ədəbiyyatşünas F.Köçərliyə, mürəttib İsmayıl Həqqiyə, sonralar şair Səməd Mənsura, dramaturq C.Cabbarlıya, artist Kazım Ziyaya və b. ziyalılara da sevdirmişdi. O, bunlardan bir çoxu ilə məktublaşırdı.

S. üçün jurnalda ən çətin, məsul işlər maliyyə, senzura, gələn yazıları seçib növbəti sayda vermək idi. Cavanlığına baxmayaraq o, Mirzə Cəlilin daimi köməyi, işgüzar məktubları sayəsində bu işlərin də öhdəsindən gələ bilirdi. Məsələn, 25 avqust 1911 il məktubunda ədib ona yazırdı: "Jurnal gəldi. Yaxşı çıxıb. Səy elə ki, bu ay qalanları da çıxsın. Üzeyirlə (Hacıbəyov – *red.*) bu kağızın içində 6 manat göndərdim. Cəlil".

Mirzə Cəlilin S.-yə göstərişləri həm çox, həm də ciddi olurdu: "Mən bu gün gedirəm kəndə. Original da yoxdur. İsmayıl [Həqqi] səndən original gözləyəcək. Nə qədər mümkün eləsən, çox yaz. [...] Hər nə yazsan, qeyri yazıların hamısından xoşdur. Bir də ehtiyatlı yaz ki, bir şəxsiyyətə toxunmasın. Çünki dəxi mən görməyəcəyəm. İsmayıl mənə göndərməmiş çap edəcək. Nə vaxt məktəbdən azad olsan, gəl Tiflisə, jurnalı dolandır". "(7.3.1912). Bu məktubun S.-yə Aşqabadda müəllimlik etdiyi vaxt yazılması ədibin ona böyük etibarını çox yaxşı göstərir. S. Bakıda olanda da redaksiyadan, Mirzə Cəlilin özündən "Dostun Cəlil" imzası ilə belə məktublar alırdı. Bu məktubların, habelə onun özünün tanış ziyalılara, redaksiyalara göndərdiyi məktubların, S.-nin yazdığı xatirələrin Azərb. mətbuatı, ədəbiyyatı, XX əsr ziyalıları haqqında yazılacaq tədqiqatlar üçün faydası çoxdur.

S. 1917 ildən sonra Bakıda çıxan "Sovqat" və "Kommunist" (1920) qəzetlərində işləmiş nüfuzlu jurnalist idi.

SİDQİ Məhəmməd Tağı (Məhəmməd Tağı Kərbəlayi Səfər oğlu Səfərovun təxəllüsü) (1854-1903) – pedaqoq, publisist, şair. M.-nin məsləkdaşı və müasiri. İlk təhsilini Ordubadda molla Məhəmməd Tağı axundun yanında almış, sonra Hüseyn Soltan mədrəsəsində oxumuşdur. Bir müddət İranda – Xorasan, Səbzivar, Nişapur şəhərlərində də yaşamış, təhsilini davam etmiş və ticarətlə məşğul olmuşdur. O, 1885 ildə Vətənə qayıtmış, fəhləlik etmişdir. Ailəsini yaşatmaq niyyətilə açdığı çayxana qısa müddətdə yerli ziyalıların əsas yığıncaq yerinə çevrilmişdir. Burada Türkiyə, İran və Rusiyadan gətirilmiş qəzetlər, Şərq klassiklərinin əsərləri, habelə S.-nin fəal üzvü olduğu "Əncümənü-şüəra" ədəbi məclisi üzvlərinin şeirləri oxunub müzakirə olunurdu.

1892 ildə Ordubad ş.-ndə maarifçi ziyalı Hüseyn Soltan Kəngərlinin köməkliyi ilə "Əxtər" ("Ulduz") adlı yeni tipli məktəb təsis etmişdir. S.-nin 1894 ildə Naxçıvanda əsasını qoyduğu "Məktəbi-Tərbiyə" şəhərdə maarifçilik hərəkatının və ədəbi-mədəni mühitin əsas mərkəzlərindən birinə çevrilmişdi. M. bu məktəbə yüksək qiymət vermişdir. S. yaradıcılığa klassik üslubda qəzəllər yazmaqla başlamışdır. XIX əsrin son rübündə imperiya-

nın müsəlman əhalisi arasında başlanan maarifçilik hərəkatının təsiri altında yaradıcılığının diapozonunu genişləndirmiş, maarifçi realist şeirin ("Məsnəviyyati-mədəniyyə"), uşaq ədəbiyyatının ("Kəblə Nəsir", "Məhəmmədəliyə nəsihət", "Oğul" və s.), məktəb dərsliklərinin ("Müxtəsər coğrafiya", "Töhfeyi benat"), elmi-kütləvi publisistikanın ("Heykəli-insana bir nəzər", "Puşkin", "İmperator-əzəmin tac geyim rəsminin yadigarına... nitq") pedaqoji traktatını ("Nümuneyi-əxlaq") yaratmışdır.

Sidqi Ruhulla

XIX əsrin sonlarında Naxçıvan maarifçilik hərəkatında S. aparıcı simalardan biri kimi fəal iştirak etmişdir. O, M. ilə birlikdə Naxçıvanda bir sıra ədəbi-mədəni tədbirlərin və teatr tamaşalarının əsas təşkilatçılarından olmuşdur. Məmmədquluzadələr ailəsi ilə yaxından ünsiyyət saxlayan S. Mirzə Cəlilin böyük dostu idi.

S.-nin vəfatı münasibətilə M.-nin "Şərqi-Rus" qəzetində dərc etdirdiyi "Getdi cahandan həzrəti Sidqi" adlı məqaləsində maarifçi şair və pedaqoqa ümumxalq məhəbbəti və kədəri ifadə olunmuşdur.

Sokrat

SİDQİ Ruhulla (Ruhulla Fətulla oğlu Axundovun təxəllüsü) (1886-1959) – aktyor. SSRİ xalq art. (1949). SSRİ Dövlət mükafatı laureatı (1948). Səhnə fəaliyyətinə 1908 ildə başlamışdır. Tiflis Azərb. Teatrının inkişafında xidməti olmuşdur. O, Rəşt və Qəzvində ilk teatr tamaşalarının təşkilatçısı, Təbrizdə milli teatrın yaradıcılarındandır. S.R. rej. və aktyor kimi çıxış etmiş, 1924 ildən ömrünün sonunadək ADT-da işləmişdir. Onun Azərb., rus və Qərbi Avropa dramaturqlarının əsərlərində yaratdığı obrazlar Azərb. teatr tarixində mühüm yer tutur. Azərb.-da aktyor kadrlarının yetişməsində mühüm xidməti vardır. S.R. həmçinin ilk Azərb. kino aktyorlarındandır. M.-nin "Ölülər" komediyasının tamaşasında yaratdığı Şeyx Nəsrullah obrazı S.R.-nın uğurlu rollarındandır.

Anarın **"Sizi deyib gəlmişəm"** pyesində (ADT, 1982) **H.İsmayılov** "Məmmədhəsən əmi" rolunda.

"SİZİ DEYİB GƏLMİŞƏM" – Anarın yazdığı pyes. Adı M.-nin "Molla Nəsrəddin" jurnalının ilk nömrəsinə yazdığı baş məqalənin başlığından əxz olunmuşdur. Pyesdə remarkalardan başqa, bütün dialoq və monoloqlar ədibin əsərlərindən götürülmüşdür. Şüurlu və yaradıcı şəkildə bu üsula müraciət edən Anar ədibin müxtəlif bədii əsərlərindən, "Molla Nəsrəddin" jurnalındakı felyetonlarından ayrı-ayrı parçaları, epizod və məqamları məharətlə montaj etməklə kompozisiyanın tamlığına və bütövlüyünə nail ola bilmişdir. Əsər ADT-nda ilk dəfə tamaşaya qoyulduqdan (1982) sonra Şəki və Sumqayıt teatrlarında da oynanmışdır. ADT-da tamaşaya M.Fərzəlibəyov quruluş vermişdir. M. rolunda Həsənağa Turabov, Xudayar bəy rolunda Səməndər Rzayev, Sabir rolunda Mikayıl Mirzə çıxış etmişlər. Pyes özünün bədii səciyyəsi, kompozisiya elementləri, dialoqlarının canlılığı və hadisələrin dinamikliyi ilə də diqqəti cəlb edir.

SOKRAT (e.ə. 470/469-399) – qədim yunan filosofu. Sofistlərə qarşı mübarizə, gəncliyin yeni ruhda tərbiyə olunması S.-ın fəaliyyətinin əsas məqsədini təşkil edirdi. Onun siyasi və əxlaqi görüşləri "Təlimati-Sokrat" kitabında ifadə olunmuşdur. M. Qori seminariyasında təhsil illərində S.-ın təlimi ilə tanış olmuş, əsərin F.Köçərli tərcüməsini də dönə-dönə oxumuşdur. S.-ın təlimi M.-nin dünyagörüşünün formalaşmasında həlledici müsbət rol oynamışdır. S.-ın təlimi M.-də insanlara, xüsusilə məzlumlar qisminə həssas münasibət, bütün hallarda vicdanın səsini eşitmək keyfiyyəti tərbiyə etmişdir. "Danabaş kəndinin əhvalatları" silsiləsi birbaşa S.-ın əxlaqi görüşləri ilə səslənir. Buradan irəli gələrək M. "Danabaş kəndinin əhvalatları"na "Təlimati-Sokrat" əsərindən aşağıdakı parçanı epiqraf vermişdi: "Qəlbimdən gələn səs mənə çox zadlar öyrədir.

Haman səs pak və təmiz insafımın səsidir ki, hamıda o insaf var. Hər kəs guş-huş ilə onun buyuruğuna qulaq asıb, əmrinə əməl eləsə, çox sirlərdən agah olub, çox şeylər bilər". M.S.-ın bu sözlərini "kəbinli övrətlərin kəbinlərini dübarə bir özgəsinə" kəsən Həştərxan müftisinin cinayətkar əməllərinin tənqidinə həsr olunmuş "Məktub" (1906) felyetonunda da misal gətirmiş və ruhani məmuru vicdanının səsini eşitməyə, xalqa namusla xidmət etməyə çağırmışdır.

M. "Ölülər" komediyasında Cəlalla İsgəndərin dialoqunda S.-ı xatırlamış, onu "çoxdanın adamı" kimi təqdim etmiş və aşağıdakı sözlərini məqsədə müvafiq misal gətirmişdi: "Mən dərs oxumamış elə xəyal elərdim ki, dünyada bir zad bilirəm; amma elm oxuyandan sonra yəqin elədim ki, heç zad bilmirəm".

STOLİPİN Pyotr Arkadyeviç (1862-1911) – Rusiya dövlət xadimi. 1906 ildən Daxili İşlər naziri və baş nazir olmuşdur. Müsəlman xalqlarının qatı düşməni idi. 1905-1907 illər inqilabının yatırılmasına rəhbərlik etmiş, ölkədə "Stolıpin irticası" adı almış siyasətə, sürgün və dar ağaclarına rəvac vermişdi. Xalq arasında dar ağacı kəndirinə "Stolıpin qalstuku" deyirdilər. Senzura təqibləri nəticəsində adı və cinayətləri çox vaxt mətbuatda üstüörtülü yollarla tənqid olunurdu. S.-nin cinayətlərinin təsviri "Molla Nəsrəddin" jurnalında və M.-nin publisistikasında da geniş satirik əksini tapmışdır ("Müsəlmanların intihadı", "Ustalipin", "Helmi paşa", "Bayramlar" və s.).

SULTANLI Əli Abdulla oğlu (1906-1960) – ədəbiyyatşünas, pedaqoq. Filol. e.d. (1946), prof. (1947). APİ-nin filol. fakültəsinin dekanı (1934), ADU-nun xarici ədəbiyyat kafedrasının müdiri (1941-1960), filol. fakültəsinin dekanı (1950-1952; 1957-1959) olmuşdur. Azərb.-da xarici ədəbiyyat üzrə ali məktəb kursunun yaradılmasında mühüm xidməti var. Müntəxəbat və dərsliklərin, "Kitabi-Dədə Qorqud" və qədim yunan eposları", "Nizami və Qərbi Avropa ədəbiyyatı", "Azərbaycanda xalq dramı", "Azərbaycan dramaturgiyasının inkişafı tarixindən" və b. tədqiqat əsərlərinin müəllifidir. M. haqqında tədqiqatlarında S. ədibin cavanlıqdan teatrla əlaqəsi, həvəskar artistliyi, dramaturgiyası, "Ölülər" pyesinin səhnədə qoyulmasında iştirakı, Təbriz teatrında fəaliyyəti kimi məsələləri işıqlandırmışdır. Alim "üç qardaşın mücadiləsi"ni əks etdirən "Anamın kitabı" haqqında yazırdı ki, "əsərin rəmzi qəhrəmanı ananın kitabıdırsa, canlı qəhrəmanı Gülbahardır".

E.Sultanov

SULTANOV Eynəli bəy Çölü oğlu (1866-1935) – yazıçı, publisist, ictimai xadim. M.-nin ən yaxın dostu. İrəvan kişi gimnaziyasını bitirmiş (1886), qabaqcıl rus və Qərbi Avropa mədəniyyətini dərindən mənimsəmişdir. XIX əsrin 80-ci illərində Naxçıvanda maarif və mədəniyyət sahəsində fəaliyyət göstərmişdir. S.-un təşəbbüsü və rəhbərliyi ilə Naxçıvanda "Ziyalılar məclisi", "Müsəlman incəsənət və dram cəmiyyəti" təşkil edilmiş, dram tamaşaları göstərilmişdir. S. 1887 ildən M. ilə tanış olub, ömürlük dostlaşmışdı. M. "Tərcümeyi-halım"da yazırdı: "Mən özüm darülmüəllimini qurtaran zaman Naxçıvanda ...özümdən artıq hüşyar dostlarıma rast gəldim... Mənim səsimə səs verən sirdaşlarımdan qabaqca əzizim Eynəli Sultan oldu". Bu dövrdə yazdığı "Dəhşətli intiqam", "Xan, nə xan", "Seyidlər" və s. hekayələrində, "Tatarka" ("Azərbaycan qızı", 1884) pyesində hakim sinfin özbaşınalığı, dini fanatizm, cəhalət və mövhumat, qadın hüquqsuzluğu kəskin tənqid olunur.

S.-un realist, satirik hekayələri məzmun və üslubca dostu M.-nin bu janrda yazdığı əsərlərə yaxın idi. XIX əsrin 80-90 illərindən S.-un fəaliyyətində jurnalistika böyük yer tutur. O, "Tərcüman", "Kaspi", "Санкт-Петербургские ведомости", "Kavkaz", "Новое обозрение" və s. qəzetlərdə "Eynəli", "Ayn-Sin", "Известны", "Neştər", "Dəli", "Naməlum" və s. imzalarla publisistik məqalələr dərc etdirmişdir. Bu yazılarda o, xalqın, tərəqqinin qayğısına qalan, yoxsul kəndlilərə rəğbət bəsləyən demokrat kimi çıxış edirdi. S.-un doğma xalqı barədə idealı 1907 ildə yazdığı bu sözlərdə çox qüvvətli şəkildə söylənmişdir: "Mənim xalqım! Səni azad insanlar içində azad, xoşbəxtlər içində xoşbəxt [...] görə biləcəyəmmi?". 1892 ildən etibarən S. İrəvan Dairə məhkəməsində tərcüməçi, məhkəmə katibinin köməkçisi, Dairə məhkəməsi prokurorunun köməkçisi vəzifələrində işləmiş, 1907 ildə Naxçıvan şəhəri ətrafındakı torpaqlarını kəndlilərə bağışlamışdı. 1908 ildən Tiflisdə yaşayan

Ə.Sultanlı

Ə.Sultanov

S., burada "Zubalov ad. Xalq Evi" yanında Azərb. dram şöbəsinin əsas təsisçilərindən olmuşdur (1909). O, M.-nin "Ölülər" əsərinin ilk dəfə səhnəyə çıxarılması münasibətilə resenziya yazmış, tamaşanın böyük müvəffəqiyyət qazandığını göstərmişdir.

M. yaxın dostu və məsləkdaşı S.-un yaradıcılığını yüksək qiymətləndirirdi.

SULTANOV Əbülqasım (1866-1916) – Məmmədquluzadənin seminariya dostu və maarifçi müasiri. M. ilə eyni illərdə Naxçıvan şəhər məktəbində oxumuş (1879-1882), Qori seminariyasında ixtisas təhsili (1882-1888) almışdır. Seminarist dostlar pansionda bir yerdə yaşamış, 30 oktyabr 1885 ildə birlikdə şəkil çəkdirmişlər.

S. seminariyanı bitirərək Şahtaxtı məktəbinə təyinat almış, orada müəllim və nəzarətçi kimi çalışmış (1896 ilədək), Baş Noraşen zemstvo məktəbinə müdirlik etmişdir (1896-1908). Onun tərtib etdiyi "Baş Noraşen ikisinifli zemstvo məktəbinə daxil olan və bitirənlərin siyahısı"nda vaxtilə bu məktəbdə M.-nin dərs dediyi 24 şagirdin də adı vardır. S. Mirzə Cəlillə bərabər Naxçıvan teatrında iştirak etmiş, xüsusən qadın rollarını peşəkarlıq səviyyəsində oynamışdır. S. "Ədəbiyyatşünaslıq dəftəri" icmal formalı kiçik dərs vəsaiti hazırlamış, Molla Nəsrəddinin lətifələrini rus dilinə çevirmiş, "Ədəbi nümunələr müntəxəbatı"nı tərtib etmiş, "İranda qayda-qanun yoxdur" traktatını yazmışdır. 1908 ildən sonra İranda yaşamış, Nobel qardaşlarının neft şirkətində işləmişdir.

M.Sultanov

SULTANOV Məmmədağa Sultan oğlu (1910-1991) – ədəbiyyatşünas, tərcüməçi, şair, Azərb. əməkdar mədəniyyət işçisi (1967). "Hücum" jurnalının (1932-1933) və "Gənc işçi" qəzetinin məsul katibi (1936-1937), "Kommunist" qəzetinin şöbə müdiri (1937-1938), Azərb. EA-da Əlyazmalar Fondunun direktoru (1950-1972) olmuşdur. Xaqani Şirvani, Nizami Gəncəvi, Əssar Təbrizi, A.Bakıxanov və b. klassiklərin tədqiqi, irsinin nəşri sahəsində işləmişdir. Resp. Əlyazmaları Fondunda M.-nin fərdi arxivinin zənginləşməsi və elmi mühafizəsinə xeyli əmək sərf etmiş, böyük ədib haqqında məqalələr yazmışdır.

SULTANOV Fərəc bəy Zeynal oğlu (1862-1914) – pedaqoq. Qori seminariyasında, Tiflisdə Aleksandrovski Müəllimlər İn-tunda təhsil almışdır (1884). Tələbə ikən inqilabi xalqçılıq ideyaları ilə yaxından maraqlanmış, gizli polis nəzarəti altında olmuşdur. S. 1886-1888 illərdə Naxçıvan şəhər məktəbində inspektor köməkçisi vəzifəsində çalışmışdır. Sonralar Tiflisdə yaşamış, ruhani idarəsində və şiə məktəbində işləmişdir. Şeirlər yazmışdır. 1893 ildə SMOMPK məcmuəsində "Əliallahilik təriqəti haqqında bəzi qeydlər" adlı elmi-publisist əsəri çap edilmişdir. M. ilə Naxçıvan şəhər məktəbində çalışdığı dövrdə tanış olmuşdur. Tədqiqatçıların fikrincə, "Əliallahilik..." məqaləsində M.-nin "Ölülər" əsərinin mövzusu, xüsusilə Şeyx Nəsrullah obrazı ilə səsləşən məqamlar var.

SULTANOV Cümşüd paşa (1849-1902) – hüquqşünas-maarifçi. Naxçıvan qəza məktəbini, Kutaisi klassik gimnaziyasını bitirmişdir. 1870-1874 illərdə Novorossiysk un-tinin hüquq fakültəsində təhsil almışdır. M.T.Sidqi ilə birlikdə "Rus-fars və Azərbaycan sözləri lüğəti"ni tərtib etmişdir. Naxçıvan və İrəvanın hüquq müəssisələrində məsul vəzifələrdə çalışmış, maarifçi-demokratik baxışlara malik olmuşdur. S. Naxçıvanda keçirilən ədəbi-mədəni tədbirlərdə fəal iştirak etmişdir. M.-nin "Ölülər" əsərindəki Kefli İsgəndər obrazının prototiplərindən biridir.

"SURİ-İSRAFİL" – 1907-1908 illərdə Tehranda nəşr edilən həftəlik ictimai-siyasi jurnal. Jurnalın redaktoru və naşiri Mirzə Əli Əkbər xan Dehxoda, onun ən yaxın əməkdaşı isə Mirzə Cahangir xan Şirazi idi. "S.İ."-in "Çərənd və pərənd" satirik səhifəsi "Molla Nəsrəddin" jurnalının təsiri altında idi. Tədqiqatçılar belə bir fikirdədirlər ki, iki jurnal arasında yaxınlıq təkcə onların mövzularının ümumiliyində deyil. Bu, eyni zamanda onların istifadə etdikləri bədii təsvir vasitələrində və ədəbi üsullarında da təzahür edir. Dehxoda tez-tez M.-nin ədəbi üsullarına müraciət edir və onlardan İran siyasi həyatının tənqidi üçün ustalıqla istifadə edirdi.

Dehxodanın "S.İ."-in 1907 il 5 sayında dərc olunmuş felyetonu birbaşa M.-nin "Dəmdəməkiyə cavab" felyetonunun təsiri altında yazılmışdı. "Dəmdəməki" isə "Dəmdəmi" ilə əvəz olunmuşdu. M.-nin vətəndaşlıq cəsarətindən ilham alan, "Molla Nəsrəddin"in rəngarəng priyomla-

rından bol-bol bəhrələnən "S.İ." İranda baş verən ictimai-siyasi hadisələri pamfletlər, felyetonlar vasitəsilə məharətlə əks etdirirdi.

SUVORİN Aleksey Sergeyeviç (1834-1912) – naşir, "Novoye vremya" qəzetinin redaktoru. Çar hakim dairələrində, mətbuat xadimləri arasında nüfuzlu jurnalist. M. onun fəaliyyəti və əsərlərinə bələd idi. 1895 ilin yayında o, üç aylıq məzuniyyət alıb Moskva və Peterburqa getmiş, yeni əlifba haqqında düşüncələri ilə əlaqədar paytaxtda S.-lə görüşmüşdü. S. monarxist, mühafizəkar xadim olduğunu azərb. ədiblə söhbətində də göstərib demişdi ki, yeni əlifba və müsəlman qızlarının oxuması vaxtı hələ çatmayıbdır. S.-in əsl siması, dünyagörüşü və həyata baxışının mahiyyəti gənc M.-yə sonralar yaxşı aydın olmuş və onu "Molla Nəsrəddin"in səhifələrində dəfələrlə pisləmişdir.

SÜLEYMAN Rüstəm (Süleyman Əlabbas oğlu Rüstəmzadə) (1906-1989) – şair, dramaturq, ictimai xadim. Azərb. xalq şairi (1960), Sosialist Əməyi Qəhrəmanı (1976). Bakıda və Moskvada təhsil almışdır. Ədəbi yaradıcılığa 1922 ildə, Bakı Azad Tənqid-Təbliğ teatrı üçün yazdığı birpərdəli "Çimnaz xanım yuxudadır" pyesi ilə başlamışdır. "Ələmdən nəşəyə" adlı ilk şeirlər kitabı 1927 ildə çap olunmuşdur. 20-ci illərin sonlarından etibarən dövrün mürəkkəb ədəbi-ictimai proseslərində yaxından iştirak edən S.R. "Gənc Qızıl Qələmlər İttifaqı"nın təşkilatçılarından (1925), Azərb. Proletar Yazıçılar Cəmiyyətinin rəhbərlərindən (1928-1929) biri idi. Bu dövrdə S.R. ifrat inqilabçılıq və proletkultçuluq meyllərinə qapılaraq klassik və çağdaş ədəbiyyatın bir sıra nümayəndələrinə münasibətdə inkarçılıq mövqeyində dayanmışdı. O, bir müddət M.-ni də "cığırdaş yazıçılar" sırasına daxil edirdi. Sonralar yanıldığını dərk edən şair M. və başqa sələfləri haqqında əsl həqiqətləri qələmə alır, 1929 ildə onlarla birlikdə Zaqafqaziya yazıçılarının hər üç resp.-nın paytaxtlarına səfərində iştirak edir. S.R.-in M. haqqında xatirələrində deyilir: "Xalqımız Mirzə Cəlili öz ədəbi xoşbəxtliyi kimi başa düşməlidir. Mirzə Cəlil taleyi, Mirzə Cəlil sevgisi nümunə olmalıdır. [...] Mirzə Cəlil tariximizin çox namuslu, qeyrətli bir parçasıdır" (1982).

SÜLEYMANOV Mirzə Ələkbər (1862-1921) – xalq müəllimi. Naxçıvanda şəhər məktəbini, Qoridə müəllimlər seminariyasını bitirmişdir. Şərur-Dərələyəz qəzasının Yengicə icma məktəbində (1882-1890), Baş Noraşen zemstvo məktəbində (1890-1894), M.T.Sidqinin məşhur "Məktəbi-Tərbiyə"sində (1894-1901), Naxçıvan şəhər üçsinifli məktəbində (1901-1914), Ali ibtidai məktəbdə (1915-1920) müəllim, inspektor və nəzarətçi vəzifələrində işləmişdir. Səmərəli pedaqoji fəaliyyətinə görə üçüncü dərəcəli Stanislav ordeni ilə təltif olunmuşdur. M. ilə birlikdə Naxçıvan teatrının formalaşmasına böyük əmək sərf etmişdir. M.F.Axundovun "Hekayəti-müsyö Jordan və dərviş Məstəli şah cadukuni məşhur" komediyasında Məstəli şah, "Hekayəti-molla İbrahimxəlil kimyagər" əsərində Şeyx Saleh, Ə.Haqverdiyevin "Dağılan tifaq" faciəsində Nəcəf bəy, E.Sultanovun "Tatarka" ("Azərbaycan qızı") pyesində Ağaşərif rollarını oynamışdır.

S.Rüstəm

"Anamın kitabı" pyesindən səhnə.

ŞABANOVA Elmira Balahüseyn qızı (d. 1940) – aktrisa, rejissor, pedaqoq. Azərb. əməkdar art. (2000). Mədəniyyət və İncəsənət Un-tində aktyorluq (1962) və rej.-luq (1969) fakültələrini bitirmiş, müəllim və dosent işləmişdir (1962-1997). 1980-1995 illərdə "Azərbaycanfilm" kinostudiyasında 17 bədii filmdə çəkilmişdir. Radio və televiziya tamaşalarında bir sıra maraqlı obrazlar yaratmışdır. Onların arasında Anarın ssenarisi əsasında və rej.-luğu ilə çəkilmiş "Qəm pəncərəsi" filmində böyük ustalıqla oynadığı Həmidə xanım obrazı mühüm yer tutur. Ş. tədris prosesində M.-nin yaradıcılığına tez-tez müraciət edir. O, "Ölülər", "Dəli yığıncağı" pyeslərindən, "Poçt qutusu" və "Quzu" hekayələrindən səhnəciklər hazırlayıb tamaşaya qoymuşdur.

ŞABANOVA-QARAYEVA Xavər Şaban qızı (1901-1958) – ictimai-siyasi xadim Əliheydər Qarayevin həyat yoldaşı. Bakıda H.Z.Tağıyevin qız məktəbində və gimnaziyada oxumuş (1910-1917), Saratovda diş həkimliyi məktəbini bitirmişdir (1919). 1920-1937 illərdə müxtəlif məsul ictimai vəzifələrdə olmuş, sonralar repressiyaya uğramış və 1956 ildə bəraət alıb Azərb.-a qayıtmış, ictimai fəaliyyətini davam etdirmişdir. 1924 ildə Əli Bayramov ad. Qadınlar Klubunda Şərq qadınının azadlığına dair məruzə etmiş və M. onun bu çıxışına "Şərq qadını" adlı felyetonunda ("Molla Nəsrəddin" jurnalı, 1924, №2) münasibət bildirmiş və alqışlamışdır.

ŞAHSUVAROV Aydın Ağa oğlu (1931-1986) – aktyor. Azərb. xalq art. (1984). 1954 ildən C.Məmmədquluzadə ad. Naxçıvan Dövlət Musiqili Dram Teatrında fəaliyyət göstərmişdir (1967-1968 illərdə C.Cabbarlı ad. İrəvan Azərb. Teatrının aktyoru). Ş. Naxçıvan teatrında müxtəlif xarakterli dolğun obrazlar yaratmış, M.-nin "Ölülər" əsərinin tamaşasında Şeyx Əhməd rolunu oynamışdır.

ŞAHTAXTİNSKİ İsasultan Nəcəfqulu oğlu (1851-1894) – jurnalist, alim, ictimai xadim. 1871 ildə Tiflisdə gimnaziyanı bitirmiş, Peterburq Əkinçilik İn-tunda təhsil almış (1872-1875), Paris və Londonda siyasi iqtisada, Sürixdə təbiətşünaslığa dair mühazirələr dinləmişdir. 1875 ildə meşəçilik üzrə dissertasiya müdafiə edərək Tiflisə qayıtmışdır. Həmin vaxtdan jurnalistika ilə məşğul olmuş, "Tiflisski vestnik" qəzeti redaksiyasında şöbə müdiri olmuş, "Kavkazski almanax"ı nəşr etdirmişdir (1877; cəmi 2 nömrəsi çıxmışdır). H.Zərdabi, E.Sultanov və C.Məmmədquluzadənin məsləkdaşı idi. Ş. "Əkinçi" qəzetinin nəşrini "qəlbim üçün çox əziz olan iş" deyə hərarətlə alqışlamışdı. 1887 ildə rus dilində çıxan "Kars" qəzetində M.-nin dərs dediyi Uluxanlı məktəbinin müdiri İ.Novruzovla əməkdaşlıq etmişdir. Mirzə Cəlilin dərin ehtiram bəslədiyi Ş.-nin həyat yoldaşı Sofya xanım Həmidə xanımın yaxın rəfiqələrindən idi.

ŞAHTAXTİNSKAYA Sofya (Səkinə) Allahyar qızı (1860-?) – ziyalı qadın, Məmmədquluzadələr ailəsinin yaxın dostu. İ.Şahtaxtinskinin həyat yoldaşı. Atası Əhməd bəy Cavanşirin əlyazmalarını nəşr etdirmək istəyən Həmidə xanım 1905 ildə bu məqsədlə Ş. vasitəsilə, onun evində Mirzə Cəlil ilə tanış olur. Bu tanışlığın daha da dərinləşməsində və Həmidə xanımın M. ilə ailə qurmasında Ş.-nın böyük rolu olmuşdur. Bunu Həmidə xanım "Mirzə Cəlil haqqında xatirələrim" kitabında ətraflı göstərmişdir. Ş. rəfiqəsi Həmidə xanımla Tiflisdə Qadın Xeyriyyə Cəmiyyəti yaratmış, müsəlman qadınlarının maariflənməsində fəal iştirak etmişdir.

ŞAHTAXTLI Leyla xanım İsasultan qızı (1886-1907) – Avropada ali təhsil almağa başlayan ilk azərb. qız. İ.Şahtaxtinskinin qızı. 1904 ildə Tiflisdə Qızlar in-tunu qurtarandan sonra H.Z.Tağıyevin vəsaitilə İsveçrə un-tinin tibb fakültəsinə daxil olmuşdur. Lakin təhsilini başa vurmağa iki il qalmış xəstələnərək vəfat etmişdir. M. onun vaxtsız ölümü münasibətilə "Molla Nəsrəddin" jurnalında şəkli ilə bərabər, çap etdiyi nekroloqda dərin kədərlə yazırdı: "Molla Nəsrəddinin arzularından xəbərdar olanlar gərək bilsinlər ki, bir belə vücudun yox olmağı bizim üçün təskinsiz bir dərddir. [...] Rəvadırmı bundan sonra Şvetsariyada elə bilsinlər ki, dünyada müsəlman qızı tək bircə imiş?" ("Molla Nəsrəddin" jurnalı, 1908, №52).

ŞAHTAXTLI (Şahtaxtinski) Məhəmməd ağa Məhəmmədtağı Sultan oğlu (1846-1931) – publisist, jurnalist, şərqşünas, dilçi, pedaqoq, ictimai xadim. Beynəlxalq Fonetika Cəmiyyətinin (1899), Beynəlxalq Asiya Cəmiyyətinin (1900) və Rusiya İmperator Coğrafiya Cəmiyyəti Qafqaz şöbəsinin (1903) həqiqi üzvü. İkinci Dövlət Dumasının deputatı (1907), Bakı un-tinin prof. (1920). Naxçıvan şəhər məktəbini və Tiflis klassik kişi gimnaziyasını (1863) bitirmiş, Peterburqda müstəqil yolla alman dilini öyrənmişdir. Leypsiq un-tinin fəlsəfə, tarix və hüquq fakültəsini bitirmiş (1873), 1873-1875 illərdə Parisdə Şərq dilləri məktəbində mühazirələr dinləmiş, fransız dilini öyrənmişdir. Azərb., rus, alman, fransız, ingilis, ərəb, türk və fars dillərində ədəbi, elmi əsərlər yazmışdır. Elmi fəaliyyətə Almaniyada Şərq tarixinə dair tədqiqatla başlamışdır. XIX əsrin 80-ci illərində "Moskovskiye vedomosti" və "Novoye vremya" qəzetlərinin Yaxın Şərq üzrə müxbiri olmuşdur. 1891-1893 illərdə "Kaspi" qəzetinin müvəqqəti red. təyin edilmişdir. 1896 ildə Azərb. dilində "Tiflis" adlı qəzet çıxarmağa çalışmış, lakin senzura icazə vermədiyindən Ş. 1899 ildə yenidən Avropaya getmiş, 1902 ilədək Parisdə yaşamış, Fransa kollecində dərs demiş və Ali Təcrübi Təhsil Məktəbində Şərq dilləri üzrə təhsil almışdır.

1902 ildə Ş. Tiflisdə mətbəə açmış, 1903 ilin martında "Şərqi-Rus" qəzetinin nəşrinə başlamışdır. 1903 ildə Tiflisdə Ş. ilə görüş M.-nin gələcək həyatını müəyyən etdi və onu ömürlük jurnalistikaya bağladı. M. bu haqda yazırdı: "Min doqquz yüz üçüncü ildə xəstə övrətimi Tiflisə gətirib burada "Şərqi-Rus" sahibi Məhəmməd ağa Şahtaxtlıya rast gəldim. Məhəmməd ağa küçədə mənə rast gəldi və apardı "Anunna" yeməkxanasına. Orada [...] məndən soruşdu ki, yazıdan-pozudan nəyin var? Mən cibimdən Novruzəlinin poçt qutusuna kağız salmaq hekayəsini çıxartdım, verdim Məhəmməd ağaya. Ədibi-möhtərəmimiz hekayəni oxuya-oxuya elə şiddətlə gülürdü ki, qonşular bizə tərəf təəccüblə baxmağa başladılar. Buradan Məhəmməd ağa məni zorla apardı düşdüyüm "Qafqaz" mehmanxanasına və zorla mənim yatacağımı və şeylərimi qoydu faytona, məni apardı evinə ki, gərək qalam, onun qəzetəsi üçün hekayə yazan olam. Mən qaldım". Bu hadisədən sonra M.-nin "Şərqi-Rus" qəzeti redaksiyası ilə əməkdaşlığı başlamış və o, Ş. kimi geniş dünyagörüşlü və təcrübəli publisistin yanında sözün əsl mənasında "qəzetçilik məktəbi" keçmişdi. Ş.-ya böyük ehtiram bəsləyən M. yazırdı: "Qafqaz müsəlmanları içində bəzi vaxt bir belə şayiələr qulağa çatardı ki, guya qəzetin sahibi Məhəmməd ağa həmin bu orqanı ilə Rusiya hökumətinin Şərq politikasına qulluq edir. Bu söhbətlərin cümləsini mən [...] əsilsiz, sübutsuz hesab edirəm. [...] Biz, o vədə qəzetdə iştirak edənlər, qəzetin Şərqdə Rusiyanın nüfuzuna qüvvət verməyini görmədik və gahdan bir Qafqaz canişinini "əlahəzrət" ibarəsi ilə yad etməyini də o vaxtlar adi bir iş hesab edirdik".

L.Şahtaxtlı

M.Şahtaxtlı

Ş. sonralar II Dövlət dumasına üzv seçilmiş, "Rossiya" (Peterburq) qəzeti redaksiyasında işləmiş, 1908-1918 illərdə xaricdə yaşamış, 1919 ildə vətənə qayıdaraq Bakı un-tinin yaradılmasında fəal iştirak etmiş, burada Şərq dilləri və ədəbiyyatından mühazirələr oxumuşdur. Sovet hakimiyyəti qurulduqdan sonra dövri mətbuatda məqalələr dərc etdirmiş, M. ilə birlikdə Yeni Türk Əlifbası Komitəsinin işində yaxından iştirak etmişdir.

ŞEKSPİR Vilyam (1564-1616) – ingilis dramaturqu və şairi. Həyatı haqqında məlumat az və dolaşıqdır. 80-ci illərdə Londona gəlmiş, məşhur "Qlobus" teatrında aktyor və dramaturq kimi çalışmış, əsərlərinin əksəriyyətini də həmin teatr üçün yazmışdır. Ş.-in zəngin və çoxcəhətli yaradıcılığı dünya humanizminin ən yüksək zirvələrindən birini təşkil edir. O,

V.Şekspir

müxtəlif janrlarda – komediya, tarixi xronika və romantik dram, faciə yazmış, 37 pyesin, poemanın, çoxlu sonetin müəllifidir. Ş.-in "Romeo və Cülyetta" (1595), "Hamlet" (1601), "Otello" (1604), "Kral Lir" (1605), "Makbet" (1606), "Antoni və Kleopatra" (1607) və s. faciələri dünya dramaturgiyasında bu janrın şah əsərlərindən sayılır. Ş. tarixi xronikaları ("VI Henrix", 1590-1592; "III Riçard", 1593; "Yuli Sezar", 1599 və s.), komediyaları ("İki veronalı", 1594; "Yay gecəsində yuxu", 1596; "Heç nədən hay-küy", 1598; "Vindzor cicibacıları", 1598; "On ikinci gecə", 1600 və s.) da dram tarixində əhəmiyyətli yer tutur. O, dünya poeziyasına sonetin mahir ustası kimi daxil olmuşdur. Ş.-in yaradıcılığı dünya, o cümlədən Azərb. dramaturgiyası və teatrının inkişafına güclü təsir göstərmişdir. Əsərləri dünyanın bir çox ölkələrində, o cümlədən Azərb. səhnəsində tamaşaya qoyulmuşdur. Hələ 1903 ildə "Otello" faciəsi Haşım bəy Vəzirovun tərcüməsində Şuşada oynanılmışdı. M.F.Axundov, Ə.Hüseynzadə, Ə.Ağayev, F.Köçərli, Ə.Haqverdiyev və başqaları əsərlərində Ş.-dən bəhs etmişlər. C.Məmmədquluzadə teatrın əxlaqi-tərbiyəvi əhəmiyyətini göstərmək üçün Şekspir əsərlərinin təsir gücünə istinad edirdi. "Çox səhv edirlər o şəxslər... teatr məclisini oyun-oyuncaq məclisi mənziləsində tuturlar, çünki teatr məclislərindən murad o deyil ki, burada adam gülsün. Mötəbər ingilis şairi Şekspir düzdüyü təmsilatı teatrlarda oynayan vaxt tamaşa edənlərin ağlamağı tutur, nəinki gülməyi" (Məmmədquluzadə C. Əsərləri. VI c., s. 12-13).

"ŞEİR BÜLBÜLLƏRİ" – M.-nin hekayəsi. 20-ci illərdə yazılmış, ilk dəfə "Bəlkə də qaytardılar" (1927) kitabında çap olunmuşdur. Birinci şəxsin – Molla dadaşın dilindən danışılan bu hekayədə ədəbiyyatın həyatla əlaqəsi təbliğ olunur. Ədib ictimai məzmundan məhrum, anlaşılmaz, qəliz dildə yazılmış şeir məcmuələrinə aludə olanları şeir bülbülləri adlandırır və kifsimiş ədəbiyyatdan zövq alan köhnəpərəst ziyalıları tənqid edir. Hekayədə hər bir kəsin aydın başa düşəcəyi saf, təmiz Azərb. dilində yaradılmış nağıllar mürəkkəb, qəliz kitablara qarşı qoyulur. Doğma dilimizin gözəlliyi və şirinliyi xalq ruhu Zeynəb arvadın danışdığı nağılda ecazkar surətdə əks etdirilir. Zeynəb arvadın şirin və aydın danışığı bayaqdan bəri şeir bülbüllərini (qədim şairləri) tərifləyən köhnəpərəst ziyalının da diqqətinə hakim kəsilir: "Bu yerə kimi... xanım da şirin-şirin qulaq asırdı, qızı da qulaq asırdı və mən də qulaq asırdım. Burada yanımdakı dostum yadıma düşdü, dedim, bəlkə, genə kitablarına cumub, onun üçün səsi çıxmır. Çöndüm və gördüm ki, bu da cəmi huş-guşunu Zeynəb arvadın nağılına verib qulaq asır".

Əsərin əvvəlində verilmiş epiqraf, mətndəki şeir nümunələri ironik səciyyə daşıyaraq tənqidi pafosu daha da gücləndirir.

ŞEYX NƏSRULLAH – M.-nin "Ölülər" əsərində obraz. Ş.N. dövrünün, geri qalmış İslam mühitinin, avamlıq və cəhalət aləminin bütün səciyyəvi məqamlarını özündə toplayan ölməz bir surətdir. Bəziləri "Ölülər" əsərini N.V.Qoqolun "Müfəttiş" komediyası ilə müqayisə edirlər. Formal cəhətdən belə bir oxşarlıq varsa da, mübaliğəsiz demək olar ki, "Ölülər" "Müfəttiş" komediyasından qat-qat yüksəkdə durur. Ş.N. da Xlestakov deyil. Əgər Xlestakov pul qazanmaq üçün adi fırıldaqçılıq yoluna düşübsə, Ş.N. öz üzərinə dünya tarixində görülməmiş bir vəzifə götürmüşdür – ölü diriltmək. O, nəyə arxayın olub bu işə qurşanmışdı? Ancaq İslam xürufatına, mühitinin səfalət və cəhalət ənənələrinə. O özü də bilir ki, bununla böyük risqə gedir. Ancaq möhkəm bir inamla camaatı özünə inandırır. Ş.N.-a əvvəlcədən məlum idi ki, son nəticədə heç kəs öz ölüsünün dirilməsinə razı olmayacaqdır. Çünki, o, yaşadığı nadanlıq mühitinin, dini ehkamların şikəst etdiyi adamların psixologiyasına bələd idi. Məhz buna görə də bu qorxulu oyunda qalib çıxır. "Ölülər" ilk dəfə tamaşaya qoyulduqda Ş.N. rolunda "Molla Nəsrəddin" məcmuəsinin mühərrirlərindən Əliqulu Qəmküsar Nəcəfov çıxış etmişdi. Sonralar bu rolu Hacağa Abbasov böyük məharətlə ifa edirdi.

ŞEYXOV Nəsrulla Məşədi Əsəd oğlu (1863-1921) – M.-nin maarifçi müasiri. Uşaqlığı "Məddah" təxəllüsü ilə şeirlər yazan atası Məşədi Əsədlə birlikdə Naxçıvanda və Kərbəlada keçmişdir. XIX əsrin 80-90-cı illərində M. ilə birlikdə Naxçıvan teatrında iştirak etmişdir. M.F.Axundovun "Hekayəti-müsyö Jordan həkimi-nəbatət və dərviş Məstəli şah

cadukuni məşhur" komediyasında Hətəmxan ağa, Eynəli bəy Sultanovun "Tatarka" ("Azərbaycan qızı") əsərində Pəri rollarını oynamışdır.

İrandakı Məşrutə hərəkatında yaxından iştirak etmiş, "Cəmşid" ləqəbli məşrutəçi kimi tanınmışdır. İranda, Həştərxan və Krımçuk şəhərlərində həbsxanalarda yatmışdır. 1921 ildə İranın Rəşt ş.-də müxalif qüvvələrlə döyüşdə həlak olmuşdur.

ŞEYXZAMANOV Məmmədrza İsa oğlu (1915-1984) – aktyor. Azərb. xalq art. (1974). Azərb. Dövlət mükafatı laureatı (1984; ölümündən sonra). Gəncə Dram Teatrı studiyasında oxumuşdur (1934-1936). 1936-1954 illərdə (fasilələrlə) C.Cabbarlı ad. Gəncə Dram Teatrında çıxış etmiş, burada "Ölülər" pyesində Hacı Baxşəli rolunu məharətlə oynamışdır. 1954-1984 illərdə ADT-nda fəaliyyət göstərmişdir. Geniş diapazona malik Ş. bu

Məmmədrza Şeyxzamanov M.-nin "Ölülər" pyesində Hacı Həsən rolunda.

səhnədə bir sıra müxtəlif səpkili obrazlar yaratmışdı. "Ölülər" pyesindəki Hacı Həsən surəti onun ən yaxşı rollarından biridir. Kinofilmlərə çəkilmişdir.

ŞEYTANBAZAR – Tiflisin köhnə məhəllələrindən birinin danışıqda, dövri mətbuatda, habelə bədii ədəbiyyatda işlənən adı. XX əsrin əvvəllərində müsəlman aləminə məxsus tipik səhnələri, o cümlədən geriliyi əks etdirən bu məhəllə Tiflisin müxtəlif zümrədən olan əhalisi üçün münasib bir bazar və görüş yeri idi. Bu məhəllədə hər cür məişət əşyası, qab-qacaq, yemək-içmək və s. satılırdı. Ş.-da həmçinin müxtəlif incəsənət adamları və dolanışığa kömək edən ustalar (çalğıçılar, xırda ustalar, bənnalar, hamballar, faytonçular və b.) olurdu. Restoran və çayxanaları görüş yerlərindən idi. Ş.-ın köhnədən qalma kiçik müsəlman hamamları haqqında mətbuatda, bədii ədəbiyyatda, xüsusilə, satirik əsərlərdə məzəli, maraqlı təsvirlərə, əhvalatlara təsadüf edilir. M.-nin Tiflisdə yaşadığı bina buraya yaxın olduğundan ədibin yolu çox vaxt Ş.-dan düşürdü. O, burada gördüyü canlı, rəngarəng həyat və məişət lövhələri barədə yazmağa ehtiyac duyduğunu belə izah edirdi: "Tiflisin Şeytanbazarında rast gəldiyim İslam aləmi hər gün və hər saat məni yazmağa vadar edirdi. Material o qədər idi ki..." (Məmmədquluzadə C. Əsərləri. VI c., s. 152). "Molla Nəsrəddin"də məzəli, gülünc, ibrətli lövhələr və əhvalatların mühüm qismi Ş. mənzərələrindən əxz olunmuşdur.

ŞƏFİBƏYOV İsmayıl bəy (1863-1918) – M.-nin Qori seminariyasındakı tələbəlik dostlarından biri. 1887 ildə seminariyanı bitirdikdən sonra o, M.-ni Şuşaya qonaq aparmış, onun Xan qızı Xurşidbanu Natəvan ilə və Əbdürrəhim bəy Haqverdiyevlə tanışlığına şərait yaratmışdır. Sonralar İrəvan kişi gimnaziyasında və Şuşa qəzasının Gülablı məktəbində dərs demişdir. M. "Molla Nəsrəddin" jurnalının 1-ci nömrəsində özünəməxsus tərzdə Ş.-u yada salmışdı.

ŞƏHRİYAR Məhəmmədhüseyn Hacı Mirağa oğlu (1906-1988) – şair. Təbrizdə natamam orta, Tehranda orta təhsil almış, Tehran un-tinin tibb fakültəsində oxumuş, bir sıra səbəblərdən dolayı sonuncu kursdan təhsilini yarımçıq qoymuşdur. Nişapur, Xorasan və Tehranda dövlət qulluqçusu, bank işçisi və s. vəzifələrdə çalışmışdır. Müasir Cənubi Azərb. və İran poeziyasının ən böyük simalarından olan Ş.-ın dördcildlik "Divan"ı, "Heydərbabaya salam" poeması və s. kitabları şöhrət qazanmışdır. Azərb. klassik və müasir ədəbiyyatına, təsviri sənətinə dərin məhəbbəti haqqında səmimi fikirləri var. "Əfsa-

M.Şəhriyar

A.Şərifzadə

Q.Şərifov

neyi-şəb" (1957) kitabında o yazırdı ki, şeirdə yeni üslubu "Məşrutənin əvvəllərində "Molla Nəsrəddin" məcmuəsinin şairləri və yazıçılarının, xüsusilə, yaradıcılığında ictimai-siyasi mövzuları əks etdirən Şirvan dahisi mərhum Sabir əfəndinin əsərlərində daha aydın görmək olur". Başqa bir yerdə Ş. qeyd edir: "Misli görünməyən karikaturası ilə Şərqi təlatümə gətirən "Molla Nəsrəddin" "Suri-İsrafil"i (İranda çıxan satirik jurnaldır – *red.*) dünyaya gətirən anadır". Ş. Mirzə Cəlilin 1921 ildə Təbrizə gəldiyini, orada jurnalın 8 nömrəsini çap etdirdiyini, "Hər birinin Təbrizdə [...] dəyişikliklərə səbəb olduğunu" da göstərir.

ŞƏRİFOV (Şərifzadə) Qurbanəli (1854-1917) – mühəndis, ziyalı. M.-nin yaxın dostu. Naxçıvan teatrının fəallarından idi. Tiflis-İrəvan dəmir yolunun çəkilişində yaxından iştirak etmişdir. Ş.-un Naxçıvan, Bakı, İrəvan, Tiflis ziyalıları ilə sıx münasibəti olmuşdur. M. ilə ailəvi dostluq edən, ona maddi və mənəvi yardım göstərən Ş. 1902 ildə ədibin atası Məmmədqulu Məşədi Hüseynqulu oğlunun nəvəsi Münəvvərlə fotoşəklini çəkmişdir. 90-cı illərdən Ş. məşhur "Həblülmətin" qəzeti ilə əməkdaşlıq edir, onun bölgə üzrə daimi müvəkkili olur. Bu qəzet onun görüşlərinə çox müsbət təsir göstərir. Dostları Mirzə Cəlil, M.T.Sidqi, M.S.Ordubadi və Hüseyn Cavid kimi, Ş. da "Şərqi-Rus" qəzetinin nəşrə başlanmasını alqışlamışdı. "Molla Nəsrəddin" jurnalında felyetonlar və məktublar dərc etdirmişdir. "Molla Nəsrəddin" jurnalı üçün "Mozalan bəyin səyahətnaməsi"nin yazılmasına Ş. da cəlb olunmuşdu. Ə.Haqverdiyev həmin səyahətnamənin yaranma tarixini xatırlayaraq yazmışdır: "Bir dəfə cəm olub, "İbrahimbəyin səyahətnaməsi"ndən söhbət edirik. Burada "Molla Nəsrəddin" dostlarından Ömər Faiq Nemanzadə, Salman Mümtaz, Qurbanəli Şərifzadə var idi... Mən dedim: – Nə olardı bu kitaba nəzirə bir "Səyahətnameyi-Molla Nəsrəddin" də olaydı...

Bu yerdə Mirzə Cəlil üzünü bizə tutub dedi: – Gəlin biz "Mozalan"ı gəzdirək. Ancaq onun səyahətnaməsini öz aramızda bölüşdürək...

...Belə də oldu... Mozalanı... İrəvan və Naxçıvan tərəflərində Qurbanəli Şərifzadə gəzdirdi" (Ə.Haqverdiyev. "Molla Nəsrəddin haqda xatiratım". Bax: Məmmədquluzadə C. (məqalələr və xatirələr). B., 1967, s. 280-281).

ŞƏRİFZADƏ Abbasmirzə Mirzə Əbdülrəsul oğlu (1893-1938) – aktyor, rejissor, teatr xadimi. Azərb. xalq art. (1936). Hələ məktəbli ikən həvəskar teatr tamaşalarının iştirakçısı olmuş, 1908 ildə ilk dəfə professional səhnəyə çıxmışdır. Çox keçmədən o, H. Ərəblinski məktəbinin şagirdi və davamçısı kimi şöhrətləndi. 1910 ildən Ş. "Səfa", "Nicat" xeyriyyə cəmiyyətlərinin teatr truppalarında çıxış edirdi. Ş. bacarıqlı rej. kimi də tanınmış, 1916 ildə Ü. və Z.Hacıbəyov qardaşlarının truppasına rej. kimi dəvət olunmuşdu. 1917 ildə Ş. "Müsəlman artistləri ittifaqı"na sədr seçilmişdi. 1916 ilin aprelində M.-nin Bakıda səhnəyə qoyulmuş və böyük müvəffəqiyyət qazanmış "Ölülər" tamaşasının rej. Ş. olmuşdur. 1920 ildən sonra ADT-da işləyən Ş. zəngin obrazlar qalereyası yaratmışdır. Ş. "Ölülər" pyesinin tamaşasında İsgəndər obrazını məharətlə oynayırdı. O, bu rolu psixoloji dərinlik və temperamentlə oynamaqla "Ölülər" mühitindəki tragizmi ustalıqla açıb göstərirdi. O, həmçinin kinofilmlərə çəkilir, kinoda rej. kimi də fəaliyyət göstərirdi. Ş. 1928 ildə AOBT-nda baş rej. olmuş, bir sıra operaları tamaşaya qoymuşdu.

Ş. şəxsiyyətə pərəstiş dövründə repressiyanın qurbanı olmuşdur.

"ŞƏRQ QADINI" – ictimai-siyasi və ədəbi-bədii aylıq jurnal. İlk nömrəsi 1923 ilin noyabrında Bakıda çıxmışdır. Jurnal Azərb.-da, eləcə də bütün Şərq aləmində qadın azadlığı uğrunda mübarizə aparan, qadınlar arasında azadlıq ideyalarını geniş yayan ilk qadın jurnalı olmuşdur. İlk red. Ayna Sultanova idi. Uzun illər arzusunda olduğu "Ş.q." jurnalının nəşrini M. böyük şadlıqla qarşılamış, "Molla Nəsrəddin"də dərc etdiyi "Şərq qadını" məqaləsində onu ürəkdən təbrik etmişdir. "Ş.q." jurnalında M.-nin "Hünərli qadınlar", "İki ər", "Bir balaca yanlışlıq" hekayələri, "Köhnə dərdim", "Mirzə Fətəli Axundov və qadın məsələsi", "Mirzə Fətəli Axundov dinlər haqqında" məqalələri dərc olunmuşdur. "Şərq qadını məsələsini" özünün "köhnə dərdi" adlandıran Mirzə Cəlil yazırdı ki, "bütün ömrümdə vurduğum qələmin çox hissəsi Şərq qadını məsələsi üstündə vurulub". Şərq qadınını "şəriətin

"Şərq qadını" jurnalı.

kəməndindən, müsəlmançılığın zəncirindən, hərəmxanaların zindanından, qara çarşabın zülmətindən" azad görmək istəyən ədib, "Ş.q." jurnalının redaktoru Xavər xanımın "Ey şərq qadınları, oxuyun, oxuyun, oxuyun! Əgər oxuyub savad və elm qazansanız, onda azadlığın qədrini bilərsiniz. Onda xoşbəxtlik yolunu taparsınız; oxumasaz, qaranlıqda qalacaqsınız, oxumasaz, bədbəxt olacaqsınız və öz bədbəxt olmağınızdan savayı, uşaqlarınızı da bədbəxt edəcəksiniz" müraciətini alqışlayır və ona azad Şərq qadınını tərbiyə etməkdə, ona həqiqi yol göstərməkdə, öz vəzifəsini başa salmaqda, qadınlıq şərtlərini anlatmaqda, analıq borcu və övlad tərbiyəsi məsələlərini yerinə yetirməkdə uğurlar arzulayırdı. Jurnal 1938 ilin fevralından "Azərbaycan qadını" adı ilə çıxır.

"ŞƏRQ FAKÜLTƏSİ" – M.-nin hekayəsi. 1926 ilin mayında Azərb. Ədəbiyyat Cəmiyyəti tərəfindən nəşr olunan "Ədəbi parçalar" jurnalının 1-ci sayında M.-nin şəkli ilə birlikdə dərc edilmişdir. Hekayə 1922 ilin payızında darülfünə qəbul imtahanları barədə məlumatla başlanır. İmtahana gecikmiş acar Əbülhəsənzadə Xəlilə rəhmi gələn professorlar Süleyman bəy və "çox yaxşı adam" kimi səciyyələndirilən Əhməd Zəki əfəndi onu bu şərtlə imtahan etməyə razılıq verirlər ki, Xəlilə yazı yazdırıb göndərsinlər Maarif Nazirliyinə. Əgər yazı orada "ləyaqətli görünsə, ola bilər ki, qəbul olunmağı bəlkə baş tuta bilə". Mövzu belə idi: "Hər nə əkərsən, onu biçərsən".

Sonra yazıçı "Tema"nın (mövzunun) nə demək olduğunu izah edir, misallar gətirir: "İdareyi-müstəbidənin hüsni-əxlaqa təsiri", "Bir məmləkətin abü həvasının o yerin əhalisinin xasiyyətinə olan münasibəti", "Şair Nəbati və kitab" və s. Rus məktəblərindəki yazı mövzuları belədir: "Şair Lermontov və Qafqaz dağları"; "Turgenev və rus xanımlarının sarı saçı". Orta məktəblərin yazı imtahanındakı mövzuları da ədib uğurlu saymır: "Zülmün nəticəsi", "Məmmədəli şah və İranda mütrübbazlıq". Yazını yoxlayan professorların oxuduqca gülməkdən uğunmalarını görüb, Xəlil "elə yox oldu ki, [...] onu daha orada görmədilər".

Hekayə tədris sistemində qəbul işlərindəki nöqsanları açır.

"ŞƏRQİ-RUS" – Tiflisdə çap olunan qəzet. 1903-1905 illərdə nəşr edilirdi. Red. Məhəmməd ağa Şahtaxtlı idi. M. 1903 ildən həmin qəzetdə işləmişdir. M.-nin yazıçı və jurnalist kimi püxtələşməsində bu qəzetin və onun red. M.Şahtaxtlının böyük rolu olmuşdur. M.-nin "Poçt qutusu", "Kişmiş oyunu" və L.N.Tolstoydan məzmununu tərcümə etdiyi "Zəhmət, ölüm və naxoşluq" hekayələri, "Getdi cahandan həzrəti-Sidqi", "Ədəbiyyat" məqalələri ilk dəfə bu qəzetdə dərc edilmişdir. 1904 ilin noyabrından M. qəzetin müvəqqəti red. olmuşdur. 1905 ilin əvvəllərində "Ş.-R." bağlandıqdan sonra M. jurnalist Ömər Faiq Nemanzadə və maarifpərvər tacir M.Ə.Bağırovla qəzetin mətbəəsini alıb, ona "Qeyrət" adı vermişdir.

ŞƏRQLİ (Quluzadə) Rza (1870-1933) – Cənubi Azərb. teatr xadimi, dramaturq, aktyor. İran inqilabının (1905-1911), Şeyx Məhəmməd Xiyabaninin başçılıq etdiyi milli azadlıq hərəkatının fəal iştirakçılarından olmuşdur. Bir müddət Bakıda yaşamış, Azad Tənqid-Təbliğ Teatrında aktyorluq etmişdir. Cənubi Azərb.-da milli teatrın təşkilatçılarından olan Ş. "Azərbaycan artistləri dəstəsi"ndə rej. və aktyor kimi fəaliyyət göstərmiş (1909 ildən), 1929 ildə "Dram Təbriz" truppasını yaratmışdır. M.-nin "Ölülər" pyesini Cənubi Azərb. səhnəsində tamaşaya qoymuşdur.

O.İ.Şlinq

ŞLİNQ Oskar İvanoviç (1863-1938) – boyakar, qrafik. Mənşəcə almandır. Peterburq (1884-1889) və Münhen (1891-1893) rəssamlıq akademiyalarında oxumuşdur. 1902 ildən Tiflis Rəssamlıq Məktəbinin direktoru olmuş, Tiflisdə nəşr olunan bir sıra qəzet və jurnallara karikatura, satirik rəsm və illüstrasiyalar çəkmişdir. Ş.-in yaradıcılıq fəaliyyəti Azərb.-la sıx bağlıdır. 1889-1890 illərdə Qarabağda Xankəndində yaşayıb yaratmış, Şuşada təşkil olunan teatr tamaşalarına dekorasiyalar vermişdir. Ş.-in satirik qrafika sahəsindəki müvəffəqiyyətləri "Molla Nəsrəddin" jurnalı ilə əlaqədardır. O, 1906-1917 illərdə "Molla Nəsrəddin"in əsas rəssamı olmuş, jurnal üçün çoxlu karikatura, satirik rəsm çəkmişdir ("Yatmış millət", "Köhnə şey alıram", "Məşvərət", "Əvvəllər və sonralar" və s.). Rəssamın əsas xidmətlərindən biri də odur ki, o, ilk dəfə Şərq müdrikliyinin təcəssümü olan Molla Nəsrəddinin obrazını yaratmışdır. Ş.-ə və "Molla Nəsrəddin" jurnalının digər rəssamlarına rəsmlərin mövzusunu çox vaxt M. özü verir, onlara milli tipajı, geyimləri, personajları əhatə edən mühiti hərtərəfli öyrənməkdə kömək göstərirdi. Rəsmlər realizmi, zahiri dürüstlüyü, yığcamlığı, aydınlığı ilə seçilir, azsavadlı, oxuyub-yazmağı bacarmayan tamaşaçılara sözsüz və əyani olaraq anlaşılırdı.

Ş. ilə Mirzə Cəlil arasında olduqca mehriban və səmimi dostluq münasibətləri mövcud idi. Mirzə Cəlil Ş.-i "əziz və nadirülvücud" bir insan kimi qiymətləndirmiş, rəssam isə 1925 ildə böyük yazıçıya göndərdiyi məktubunda "Molla Nəsrəddin"i "qəlbinə və ruhuna ən əziz, yaxın olan jurnal" adlandırmışdır.

Ş.-in "Molla Nəsrəddin" jurnalındakı fəaliyyətinin Azərb.-da satirik qrafikanın təşəkkülü və inkişafında əhəmiyyətli rolu olmuşdur.

ŞUŞA – Azərb.-da şəhər. Əsası 1750 ildə Qarabağ xanlığının qurucusu Pənahəli xan Cavanşir tərəfindən qoyulmuşdur. 1750-1823 illərdə Qarabağ xanlığının, daha sonra isə Şuşa qəzasının mərkəzi olmuşdur. 1992 ildə erməni hərbi qüvvələri Ş.-nı işğal etmişlər.

"Qafqazın konservatoriyası" kimi tanınan Ş. Azərb. ədəbiyyatının, milli mədəniyyət və incəsənətin əsas inkişaf mərkəzlərindən biri kimi məşhurdur. Mirzə Cəlil Ş.-ya ilk dəfə 1887 ildə, Qori seminariyasını bitirdikdən sonra əslən qarabağlı olan tələbə yoldaşı İ.Şəfibəyovla gəlmişdi. Burada o, şairə Natəvana təqdim edilmiş, gələcək əqidə və əməl dostu Ə.Haqverdiyevlə tanış olmuşdur. 1907 ildən sonra M., demək olar ki, hər il Ş.-da olmuş, 1918-1920 illərdə isə çox vaxt bu şəhərdə yaşamışdır. "Anamın kitabı" və "Kamança" əsərləri burada yazılmışdır. M. Şuşada K.Mehmandarov, M.F.Axundov, F.Ağazadə və b. yerli ziyalılarla birlikdə şəhərin ədəbi-mədəni həyatında, xeyriyyə tədbirlərində yaxından iştirak edirdi. O, "Ölülər" əsərini ilk dəfə 1913 ildə Şuşada, Ü.Hacıbəyov, Ə.Haqverdiyev və b. qələm dostlarının iştirak etdikləri məclisdə oxumuşdu. 1918-1920 illərdə Kəhrizlidə, Ağdam və Ş.-da yaşayan M. etnik münaqişənin qarşısını almaq, əhaliyə maddi və tibbi yardım göstərmək istiqamətində bir sıra işlər görmüşdü. Ədib burada Baxşı adlı musiqiçinin köməyi ilə kamança çalmağı öyrənmişdi. 1919 ilin iyununda yerli həvəskarların iştirakı ilə yazıçının "Ölülər" əsəri Ş.-da, Natəvanın mülkündə tamaşaya qoyulmuşdu. M. Ş.-nı yaxşı tanıyır və sevirdi. Onun bir sıra felyetonlarının və hekayələrinin mövzusu və tipləri Ş.-dan götürülmüşdür. O, ailə üzvləri və yaxın dostları ilə Ş.-nın Cıdır düzü, İsa bulağı, Turşusu kimi yerlərində istirahət etməyi çox







xoşlayırdı. Böyük ədib həyatının sonuncu yayını – 1931 ilin iyul-avqust aylarını da ailəsi ilə birlikdə Ş.-da keçirmişdi.

"ŞUŞİNSKAYA JİZN" ("Şuşa həyatı") – ədəbi-kütləvi qəzet. 1913 ildə Qarabağın Şuşa şəhərində yay mövsümündə rusca nəşr olunurdu. Səhifələrində Azərb. dövri mətbuatı, onun çətinlikləri, xüsusilə, "Molla Nəsrəddin" jurnalının nəşri məsələləri, müəllifləri haqqında yazılar verilir, Mirzə Cəlil, Ə.Haqverdiyev və b. barədə xəbərlər gedirdi.

ŞÜRBİ (Mirzəyev) Mirzə Cəlil (1874-1915) – M.-nin maarifçi müasiri, şair, tərcüməçi. Naxçıvanda təhsil almış, İrəvan müəllimlər seminariyasında oxumuş (1888-1892), Şərur-Dərələyəz qəzasındakı Aralıq ibtidai məktəbində pedaqoji fəaliyyətə başlamışdır. M.-nin müdirlik etdiyi Nehrəm normal məktəbinə dəyişilmişdir (1894 ildən). Qısa müddətdən sonra Naxçıvan şəhər məktəbində müəllimlik işini davam etdirmişdir. Ş. Mirzə Cəlil və M.S.Ordubadi ilə də bu dövrdə tanış olmuşdur. M.-nin təşviqi ilə teatr həvəskarlarına qoşulmuş, Naxçıvan teatrında qadın rollarını oynamışdır. Ordubad qəzasının Vənənd kənd ibtidai məktəbinin (1903-1908) və Naxçıvan şəhər "Rus-müsəlman" məktəbinin (1909-1913) müdiri işləmiş, "kollec registratoru" rütbəsi almışdır. Açıq fikirli olması, xurafat və fanatizmə qənim kəsilməsi, "Rusiya ilə Osmanlı davası münasibətilə... bir bədgümanlıq" doğurması və s. Naxçıvan şəhər mühitindən uzaqlaşdırılmasına səbəb olmuş, 27 avqust 1914 ildən etibarən Şahbuz ibtidai məktəbinə göndərilmişdir. Lakin şübhəli şəxs kimi şərab içdiyi bəhanə gətirilərək, üç aydan sonra vəzifəsindən geri çağırılmışdır. Ş. "Molla Nəsrəddin" jurnalının Naxçıvan üzrə təmsilçisi kimi abunə və satış məsələləri ilə məşğul olmuş, jurnala xəbərlər və məqalələr göndərmişdir.

M. "Ölülər" əsərindəki Kefli İsgəndər obrazını yaradarkən Ş.-dən prototiplərdən biri kimi faydalanmışdır.

T.Tağızadə

TAĞIZADƏ Tofiq Mehdiqulu oğlu (1919-1998) – rejissor. Azərb. xalq art. (1976). Azərb. (1960) və Çeçenistanın (1964) əməkdar inc. xad. Ümumittifaq Dövlət Kinematoqrafiya İn-tunu bitirmişdir (1954). T.-nin rej. olduğu bir sıra filmlər, o cümlədən "Uzaq sahillərdə" (1958) ona geniş şöhrət qazandırmışdır. T. 1992 ildə M.-nin "Ölülər" tragikomediyasını özünün yazdığı ssenari əsasında "O dünyadan salam" adı altında ekranlaşdırmışdır.

H.Z.Tağıyevin tikdirdiyi ilk teatr binası.

TAĞIYEV TEATRI, bax: Azərbaycan Milli Akademik Dram Teatrı.

TAĞIYEVA Şövkət Əzizağa qızı (d. 1926) – tarixçi. Tarix e.d. (1967). Azərb. EA Tarix İn-tunda elmi işçi, baş elmi işçi (1948-1958), Şərqşünaslıq İn-tunda baş elmi işçi (1958-1976), şöbə müdiri (1976-1992) işləmiş, 1992 ildən həmin in.-tutda aparıcı elmi işçidir. İranın, o cümlədən Cənubi Azərb.-ın yeni və ən yeni tarixini, milli azadlıq hərəkatını, aqrar münasibətlər və s. tədqiq edir. Bir sıra monoqrafiya və məqalələrin müəllifidir. "1920-ci il Təbriz üsyanı" (1990) monoqrafiyasında M.-nin Təbrizə gəlişinə xüsusi yer vermiş, müəlliflərindən biri olduğu "Cənubi Azərbaycan tarixinin oçerki. 1828-1917" kitabında Cənubi Azərb.-dakı ədəbi-mədəni inkişafa M.-nin və "Molla Nəsrəddin" jurnalının təsiri, satirasının ictimai fikrə nüfuzu məsələləri öz əksini tapmışdır.

TAHİRCANOV Əbdürrəhman Tahiroviç (1907-?) – tatar şərqşünası, filoloq, mətnşünas. Filol. e.d. (1970), prof. (1972). 1920-ci illərdə Bakıda yaşamış, Müəllimlər seminariyasında oxumuşdur. Leninqrad Dövlət Un-tinin filol. fakültəsini bitirmişdir (1941). SSRİ EA Şərqşünaslıq İn-tunun Leninqrad şöbəsində elmi işçi (1946-1950), Leninqrad Dövlət Un-tinin şərqşünaslıq fakültəsində müəllim (1946 ildən) işləmişdir. T. klassik əsərlərin tərtibi, şərhi və tekstoloji tədqiqi, ədəbi əlaqələr və s. sahələrdə görkəmli mütəxəssis idi. T.-un bir sıra elmi kitabları, məqalələri və məruzələrində "Molla Nəsrəddin" jurnalından, C.Məmmədquluzadə, M.Ə.Sabir və digər mollanəsrəddinçilərdən, onların yaradıcılığının fars və türk dilli ədəbiyyat üçün əhəmiyyətindən də danışılır, səciyyəvi misallar gətirilir.

"TAXIL HƏKİMİ" – M.-nin yazdığı hekayə. İlk dəfə 1926 ildə "Yeni yol" qəzetində (12 fevral, №37) çıxmışdır. M. bu hekayəni rus dilində yazmışdır. "T.h." sovet dövrü hekayələrindən olub, burjua və xırda burjua ziyalılarının tənqidi mövzusundadır. Elmin, biliyin xalqa xidmət etməsini, ondan faydalanmasını arzulayan M. bu hekayədə havayı vədlər verən, iş görməkdənsə boş sözçülüklə gözdən pərdə asan, xalqdan ayrı düşən bir ziyalını satira hədəfi etmişdir.

TALIBLI Böyükağa Mirqasım oğlu (1897-1939) – ictimai xadim, yazıçı, publisist. 1917 ildə Petroqrad Texnologiya İntuna daxil olmuş, orada müxtəlif ictimai işlərdə iştirak etmiş, Azərb. dilində buraxılan "Hürriyyət" qəzeti redaksiyasının əməkdaşı olmuşdur. 1920 ildə Bakıya qayıtdıqdan sonra hökumət vəzifələrində və mətbuat orqanlarında fəaliyyət göstərmişdir. "Kommunist" qəzeti və "Azərbaycan füqərası" məcmuəsini redaktə etmiş, ADU-da dərs demişdir.

T. ədəbi fəaliyyətə hələ 1912 ildə Bakıda, Orucov qardaşlarının mətbəəsində çap etdirdiyi "Yaxşı məsləhət hər şeydən yaxşıdır" hekayəsi ilə başlamışdır. Sonralar "Kef içində" pyesini, "Tövbə", "Mədən sahibinin fərasəti", "Erkək Tükəzban", "Qırx zopa", "Xeyir iş", "Qaynının kələyi", "Xortdan" və s. hekayələri, "Dirək" povestini yazmışdır. T. yaradıcılığında diqqəti cəlb edən cəhətlərdən biri klassik ənənələrlə, xüsusilə, M. irsi ilə yaxın əlaqədə olmasıdır. O, hələ gəncliyində Salyanda teatr həvəskarları ilə birlikdə Ə.Haqverdiyev, N.Nərimanov və b. müəlliflərlə yanaşı, M.-nin də pyeslərinin səhnəyə qoyulmasında yaxından iştirak edirdi. Onun əsərlərində M.-nin yaradıcılığına, satirik-yumoristik üslubuna maraq, böyük sənətkarın təsiri aydın duyulur.

TALIBLI İsmayıl Məmmədəli oğlu (1898-1967) – aktyor. Azərb. xalq art. (1938). İlk dəfə səhnəyə 1918 ildə gəlmişdir. 1922 ildən Bakı Azad Tənqid-Təbliğ Teatrında, 1932 ildən ömrünün sonunadək Gəncə Dövlət Dram Teatrında işləmişdir. M.-nin "Anamın kitabı" əsərinin tamaşasında Mirzə Məhəmmədəli (1926, 1932) və "Ölülər" tamaşasında isə Şeyx Nəsrullah (1957) rollarında müvəffəqiyyətlə çıxış etmişdir. Kino-filmlərə çəkilmişdir.

TALIBOV Mirzə Əbdürrəhim (1834-1911) – maarifçi, alim, yazıçı. İlk təhsilini Təbrizdə almış, fars və ərəb dillərini mükəmməl mənimsəmişdir. Şah despotizminə və ruhani istibdadına qarşı radikal baxışlarına görə təqib olunduğundan təqr. 30 yaşında Qafqaza köçmüş, təhsilini Tiflisdə davam etdirərək rus, ingilis və fransız dillərini öyrənmişdir. Şimali Qafqazda yollar çəkmiş, Dağıstanda maarif sahəsində mühüm işlər görmüş, dərsliklər çap etdirmişdir.

T.-un ədəbi, ictimai-siyasi və fəlsəfi görüşlərinin formalaşmasına M.F.Axundovun böyük təsiri olmuşdur. Bədii əsərlərində əxlaq, idrak, tərbiyə məsələlərindən danışılır, maarifçilik ideyaları təbliğ olunur, mövhumat, istibdad, tüfeylilik, əcnəbipərəstlik pislənir. T. insanların maddi və hüquq bərabərliyinin qızğın müdafiəçisi idi. 1907 ildə İranın birinci Milli Məclisinə deputat seçilmiş, lakin məşrutə ilə şahlığın bir araya sığmadığını bildirərək, deputatlıqdan imtina etmişdir. T.-un çoxcəhətli ədəbi-elmi fəaliyyətinin Azərb. və İran ictimai fikrinin inkişafında, xüsusilə, İran inqilabının (1905-11) hazırlanmasında mühüm rolu olmuşdur. Siyasi-ictimai, bədii, elmi və publisistik fəaliyyətinə görə T. şahın göstərişi ilə "kafir" elan edilmişdi.

"Molla Nəsrəddin" jurnalının nəşr olunduğu ilk illərdə T. Dağıstanın mərkəzi Teymurxanşurada yaşayırdı. Onun M. ilə şəxsi tanışlığına aid rəsmi sənəd yoxdur. Lakin məlumdur ki, M.-nin hələ "Şərqi-Rus" qəzetində işlədiyi zaman T. haqqında müəyyən məlumatı var idi. T.-un "Məsail ül-həyat" ("Həyat məsələləri") əsəri 1906 ildə "Qeyrət" mətbəəsində nəşr edilmişdi. T. "Molla Nəsrəddin"in ilk saylarını oxuduqdan sonra bu haqda Tehrandakı dostlarına məktubla xəbər çatdırmışdı. T.-un fəaliyyətində və görüşlərindəki liberalizm təzahürləri və tərəddüdləri, əsərlərini fars dilində yazması və onları baha qiymətə satdırması M.-ni qane etmirdi. "Molla Nəsrəddin"də (1907, №21) "Millət qurbanları" adlı felyetonu dərc olunduqdan sonra T. jurnala çox kəskin münasibət bəsləməyə başlamışdır. T. jurnalın İrana gətirilməsinin qadağan edilməsini tələb edənlərin fikrinə tərəfdar olmuş və qəzəbini gizlətməyərək yazmışdı: "Hər kəs... onu ("Molla Nəsrəddin"i – *red.*) oxusa, ona yazanlarla yazışsa, belə namussuz adamın nə haqqı var ki, özünü iranlı hesab etsin".

M. "Ayineyi-millət" felyetonunda T.-la münaqişənin üzərinə yenidən qayıtmış, fəaliyyətinin bəzi məqamlarını tənqid hədəfinə çevirmişdi.

Məşhur yazıçı, xeyriyyəçi kimi ad-san qazanan T.-a "Molla Nəsrəddin"in sərt münasibəti jurnalın və onun naşirinin ədəbiyyatın xəlqiliyi məsələsində qəti, güzəştsiz mövqedə dayandığını bir daha sübut edir.

B.Talıblı

İ.Talıblı

M.Talıbov

TALIBZADƏ Axund Yusif Axund Mustafa oğlu (1877-1927) – müsəlman teoloqu, publisist, müəllim, ictimai xadim. Abdulla Şaiqin qardaşı. Xorasanda oxumuş, Bakıda "Rus-müsəlman" məktəblərində şəriət müəllimi işləmiş, şəhərin siyasi-ictimai həyatında fəal iştirak etmişdir. 1901 ildə H.Z.Tağıyevin bioqrafiyasını yazıb, Azərb. və fars dillərində çap etdirmişdir. Fars dilindən tərcümələri, İslam tarixinə, dilçiliyə, qadın tərbiyəsinə dair kitabları, "Quran" ehkamına, şəriətə dair məqalələri, "Əmir Xalid ibn Vəlid" adlı pyesi var.

T. "Quran"ın qazi Axund Mirməhəmmədkərim tərəfindən "Kəşfül-Həqayiq" ("Həqiqətlərin kəşfi") adı ilə üç cildlik tərcüməsini H.Z.Tağıyevin adından İstanbula aparıb, sultan Əbdülhəmidə təqdim etmişdi. Sultan razılıq etməklə bərabər, demişdi ki, Hacı bir yandan mənə belə iltifat göstərir, o biri yandan nəşr etdirdiyi "Füyuzat"da əleyhimə yazılar çap olunur. "Füyuzat"da açıq yazılmışdı ki, "Heç bir yerdə mütləqiyyət payidar olmayır", Türkiyə mütləqiyyətini özünün də "mühib" (qorxunc) bir girdabda qərq olub, kapitanını təhlükələrə düçar edəcəyi labüddür. Hirslənmiş sultan bu barədə "Bakı padşahına" əsəbi kağız yazır. Məktub Hacıya çatandan az sonra "Füyuzat"ın nəşri dayandırılır. M.-nin "Batdağ" felyetonu bu məsələyə həsr olunmuşdur. Axund Yusifin "ixtiyarı özündə deyil" yazmaqla ədib bildirirdi ki, Türkiyəyə o, öz xoşuna yox, Hacının əmrilə getmişdi; taxsır da sultanı tərifləyib göyə qaldıranlarda, ölkəsindəki nöqsanları görə bilməyənlərdədir.

K.Talıbzadə

TALIBZADƏ Kamal Abdulla Şaiq oğlu (1923-2005) – tənqidçi, ədəbiyyatşünas. Filol. e.d. (1965), prof. (1972), Azərb. EA həqiqi üzvü (1980), əməkdar elm xad. (1982), Resp. Dövlət mükafatı laureatı (1986). Abdulla Şaiqin oğlu. Bütün elmi fəaliyyəti Nizami ad. Ədəbiyyat İn-tu ilə bağlıdır; burada kiçik elmi işçi, baş elmi işçi, XIX-XX əsrlər ədəbiyyatı şöbəsinin müdiri (1952-1960; 1987-1994), direktor müavini (1960-1981) vəzifələrində işləmişdir. Hazırda EA-nın elmi məsləhətçisidir. Müasir ədəbi prosesə, ədəbiyyat tarixinə, ədəbi əlaqələrə dair məqalələrin və monoqrafiyaların, XIX-XX əsrlər milli ədəbi tənqidin tarixinə həsr olunan fundamental tədqiqatın müəllifidir. Azərb. ədəbiyyatı tarixinin yeni mərhələsini, realizmin milli ədəbi prosesdə təşəkkülünü tədqiq edərkən M.-nin bu dövrün ədəbiyyatında, onun ideya axtarışlarında mövqeyinə, ədəbi-estetik görüşlərinə müraciət etmişdir. Əsrin əvvəllərində ədəbi prosesin inkişafı, yeni ədəbi məktəblərin, o cümlədən "Molla Nəsrəddin" cərəyanının meydana çıxması, bədii-estetik və ideya mövqeyi, ədəbi əlaqələrin inkişafında M.-nin rolu – T.-nin tədqiqlərində əsas mövzu və problemlərdəndir. Yazıçının inqilabi-demokratizm cərəyanına mənsub olması da T.-nin əsərlərində qoyulan və izah edilən məsələlərdəndir. "Qoqol realizmi və klassik Azərbaycan yazıçıları" (1952), "Böyük nasir" (1957), "Ehtimallar doğrulur" (1965) və s. məqalə və tədqiqlərində yazıçının ədəbi görüşləri, sənətə baxışı sistemli və ətraflı təhlil olunmuşdur. "C.Məmmədquluzadənin sənətə baxışı" məqaləsində (1965), "Azərbaycan ədəbi tənqidinin tarixi" əsərində (1984) isə M.-yə daha geniş yer vermiş, ədibin realist sənət konsepsiyasını XX əsr ədəbi tənqidinin əsas istiqamətlərindən biri kimi dəyərləndirmişdir. O, qeyd edir ki, M. ədəbiyyatı "xalqın, cəmiyyətin inkişafına kömək edən ideyalı ədəbiyyat olmağa çağırırdı", "ictimai həyatdan ayrılmış ədəbiyyatı rədd edirdi". Müəllif göstərir ki, "müasir ədəbiyyata, əsərlərə, şəxsiyyətlərə qiymət vermək üçün bunlar ədibin əsaslandığı əsas meyarlar olmuşdur".

TALIŞİNSKAYA Mina xanım (?-1914) – ziyalı qadın, ictimai xadim. Tiflisdə azərb. qadınlar cəmiyyətinin banilərindən biri olmuşdur. "Molla Nəsrəddin" jurnalının 29 yanvar 1914 il sayında onun fotoşəkli verilmiş və ölümü münasibətilə redaksiya tərəfindən "Təəssüf" başlıqlı məqalə çap edilmişdir. Həmin ildə Türkiyənin "Sərvəti-fünun" jurnalı 118 sayında "Molla Nəsrəddin"də verilmiş foto-şəkli eynilə götürüb çap etmiş və azərb. qadınlar arasında elmə, maarifə olan meyl haqqında ətraflı məlumat verərək yazmışdır: "...Biz də bu təəssür və təəssüflərə səmimi-qəlbdən iştirak edib, onun şəklini Qafqaz müsəlman jurnallarından olan "Molla Nəsrəddin"dən alıb, jurnalımıza köçürürük".

TATAR MƏTBUATI VƏ "MOLLA NƏSRƏDDİN" JURNALI – XX əsrin ilk onilliklərində Azərb. mətbuatı ilə bir sırada türk-islam xalqları mətbuatının in-

kişaf etmiş qolu. Bu mətbuat Kazan, Orenburq, Uralsk, Həştərxan, Baxçasaray, Peterburq, Daşkənd, Moskva kimi ş.-lərdə nəşr olunur və yayılırdı. "Tərcüman", "Ülfət", "Vəqt", "İdil", "Yulduz", "Bəyanül-həqq", "Şura" və b. mətbuat orqanları türk xalqlarının birliyi, mədəni dəyərlərin tədqiqi, dövrün aktual ictimai-siyasi proseslərinə müdaxilə və s. məsələlərdə fəal mövqe tuturdular. Həmin qəzet və jurnalların, demək olar, hamısı "Molla Nəsrəddin" jurnalının fəaliyyətini, onun istibdada, fanatizmə, geriliyə qarşı mübarizəsini ardıcıl izləyir, ara-sıra bu jurnaldan alınmış materiallara və karikaturalara öz səhifələrində yer verirdilər. Tatarıstan və Azərb. tədqiqatçılarının göstərdikləri kimi, "Çəyirtkə", "Çəkic", "Karçıqa", "Yalt-yılt" kimi tatar məzhəkə jurnalları bilavasitə "Molla Nəsrəddin"in təsiri altında yaranmış və onun ənənələrini davam etdirmişlər. "Yulduz" jurnalında "Çalmalı" təxəllüsü ilə çıxış edən müəllif "Molla Nəsrəddin"in hər cəhətdən öz tatar həmkarlarından yüksəkdə dayandığını sübuta yetirir, tatar gülgü jurnallarını öz böyük sələflərindən öyrənməyə çağırırdı. Bir sıra tatar mətbuat orqanları, ilk növbədə, "Vəqt" "Molla Nəsrəddin"in hər yeni nömrəsi barədə məlumat verir, buradakı əsas materialları təhlil edirdi. "Ölülər" pyesinin Bakıdakı uğurlu tamaşası, M.-nin Orenburqa gəlişi və s. "Vəqt"də öz əksini tapmışdı. Rzaəddin Fəxrəddin "Vəqt" səhifələrində "Molla Nəsrəddin" jurnalının dünya miqyasında görkəmli bir mətbuat orqanı olduğunu yazırdı. Peterburqda çıxan "Ülfət" qəzeti isə "çox gözəl yazılarına, qayət odlu lətifələrinə görə "Molla Nəsrəddin"i təqdir edirdi. Məhz bu jurnal vasitəsilə M.Ə.Sabirin satiraları dövrün tatar ədəbi mühitinə yol tapmış və böyük tatar şairi Q.Tukayın tərcüməsində tatar dilində çap olunmuşdu. M. də öz növbəsində Q.Tukayın həyatı, fəaliyyəti, vaxtsız ölümü haqqında yazır, habelə "Bəyanül-həqq" kimi qatı dinçilik mövqeyində dayanan mətbuata, Əbdürrəşid İbrahimov kimi gerçəklikdən uzaq naşir və mühərrirlərə tənqidi münasibətini bildirirdi.

TELİNQATER Benedikt (Beno) Rafaeloviç (1876-1964) – qrafik. Gürc. əməkdar inc. xad. (1956). Odessa Rəssamlıq məktəbini bitirmişdir (1894). 1908-30 illərdə Bakıda yaşamışdır. İnqilabdan əvvəl Bakıda çıxmış "Cigit" (1907), "Zənbur" (1909-10), "Mirat" (1910), "Kəlniyət" (1912-13) və s., Sovet hakimiyyəti illərində "Molla Nəsrəddin", "Yeni kənd", "Şərq qadını" jurnalları üçün karikatura və illüstrasiyalar, siyasi və təşviqat plakatları çəkmişdir.

Təbriz şəhəri.

TƏBRİZ – İranda şəhər, Cənubi Azərb.-ın ən böyük iqtisadi və mədəniyyət mərkəzi. "Molla Nəsrəddin" jurnalının nəşrinin təqr. bir ilə yaxın dövrü T.-lə bağlı olmuşdur. Azərb.-da Sovet hakimiyyəti qurulandan sonra ölkədə yaranmış qeyri-sabit vəziyyət Məmmədquluzadələr ailəsinin, xüsusilə, Kəhrizlidə Həmidə xanımın təqib edilib incidilməsinə səbəb olmuşdu. Dərin həyəcan keçirən Mirzə Cəlil T.-də hörmətli şəxslərdən sayılan qardaşı Mirzə Ələkbərin təklifi və köməyi ilə ora köçür. Yerli ziyalılar M.-ni çox səmimi qarşılayırlar. M. qardaşı ilə birlikdə Şeyx Məhəmməd Xiyabaninin görüşünə gedir. Xiyabani "Molla Nəsrəddin"i T.-də nəşr etməkdə Mirzə Cəlilə köməyə hazır olduğunu bildirir. Lakin iki gün sonra, sentyabrın 12-də şəhərdə atışma başlanır. Güllələrdən biri M.-nin qızı Münəvvərin otağının pəncərəsinə dəyir. Ertəsi gün Xiyabaninin öldürüldüyü xəbər verilir. Həmidə xanım rus konsulu Meşediçdən onların himayə altına alınmalarını xahiş edir. Konsul onlara köməklik göstərəcəyinə söz verir. M.-nin dostu, dərbəndli Əbülfət Ələvi onun T.-in qubernatoru Müxbirüs-Səltənə ilə görüşünü təşkil edir. Qubernator "Molla Nəsrəd-



Təbriz şəhərində qədim abidə.

din"i farsca çıxarmağı təklif etdikdə Mirzə Cəlil deyir: " – Mən "Molla Nəsrəddin" jurnalını 15 il Azərbaycan dilində nəşr etmişəm. [...] Burada yalnız ayrı-ayrı savadlı adamlar fars dilində danışırlar. Mən "Molla Nəsrəddin" jurnalını onlar üçün deyil, xalq kütlələri üçün buraxıram. O şeyə ki, mənə hətta rus hökuməti icazə verirdi, siz icazə vermirsiniz". Bir müddətdən sonra jurnalın Azərb. dilində nəşrinə icazə verilir.

1921 il fevralın 19-da T.-də "Molla Nəsrəddin"in birinci sayı min nüsxə tirajla çapdan çıxır. Baş məqalə jurnalın nəşri barədə idi (sərlövhəsiz və imzasız). "Millət" və "İxtar" (Molla Nəsrəddin), "Fahişəxana" (Dəli), "Təzvir ustaları" (Cızvızçı), "Bekarlar məhəlləsi" (Mozalan) məqalələrini M. özü yazmışdı. Birinci və sonuncu səhifələrin şəkillərini Seyid Əli Behzad çəkmişdi. Ertəsi gün bu nömrə "Kargüzarxana" şəkli və "Bekarlar məhəlləsi" felyetonuna görə qubernatorun əmri ilə müsadirə edilir və jurnalın ikinci sayının nəşri qadağan olunur. Bu hadisələr əhali arasında narazılıqla qarşılanır. T.-də çıxan erməni qəzeti "Minaret" isə əksinə, jurnal və M. haqqında yalan məlumatlar yayır. Nəhayət, uzun çalışmalardan sonra martın 9-da jurnalın ikinci sayı nəşr olunur. T.-də "Molla Nəsrəddin" jurnalının 8 nömrəsi çıxmışdır. 1921 il mayın 1-də müəllifin rej.-luğu ilə yerli aktyorlar tərəfindən hazırlanmış "Ölülər" komediyası ilk dəfə T.-də oynanıldı. Tamaşadan əldə olunan vəsait jurnalın nəşrinə sərf edildi.

Həmin il iyunun 14-də M. ailəsilə birlikdə Azərb. hökumətinin təkidli dəvəti ilə Bakıya qayıtdı.

M.Təhmasib

TƏBRİZ TEATRI – 1909 ildə yaradılmışdır. Teatrın təşəkkülündə və inkişafında S.Ruhulla, A.Şərifzadə, M.Vaizzadə və b.-nın xidməti böyükdür. Səttarxan, Şeyx Məhəmməd Xiyabani, 1920-1921 illərdə Təbrizdə yaşamış M. bu teatrın inkişafına yaxından kömək göstərmişlər. 1920 ildə Təbrizdə ilk teatr binası – "Xeyriyyə teatrı" tikilmişdir. Bu teatrın səhnəsində M.-nin "Ölülər" pyesi tamaşaya qoyulmuşdur (1 may 1921-ci il). Tamaşanın rej. M. özü idi. 1928 ildə Təbrizdə 700 yerlik "Şir-e xorşid" teatrı istifadəyə verildi. Lakin onun səhnəsində, əsasən, yerli müəlliflərin fars dilində bədii cəhətdən zəif əsərləri tamaşaya qoyulduğundan, "Şir-e xorşid" T.t.-nın inkişafına kömək göstərə bilmədi. Azərb. Milli hökumətinin qurulması (1945, 12 dekabr) T.t.-nın inkişafında yeni dövr açdı. 1946 ilin martında Təbriz Dövlət Teatrı təşkil olundu və M.-nin "Anamın kitabı" pyesinin tamaşası ilə fəaliyyətə başladı. 1946 ilin dekabrında Azərb. Milli Hökumətinin süqutundan sonra Təbriz Dövlət Teatrı dağıdıldı və T.t.-nın fəaliyyəti dayandırıldı.

TƏBRİZİ Tağı Rüfət (1890-1921) – jurnalist, şair, ədəbiyyatşünas. Təbriz və İstanbulda mükəmməl təhsil almış, fars, fransız və türk dillərində şeirlər yazmışdır. Yaradıcılığında vətənpərvərlik motivləri, demokratik ideyalar çox qüvvətlidir. Bir neçə il Türkiyənin Trabzon ş.-ndəki "Nasiri" məktəbində müəllimlik etmişdir.

T. 1915-1921 illərdə jurnalistika və ədəbiyyatşünaslıq sahəsində səmərəli fəaliyyət göstərmiş, Şeyx Məhəmməd Xiyabaninin red.-luğu ilə çıxan "Təcəddüd" qəzetinin əməkdaşı, az sonra məsul katibi olmuş, "Azadistan" jurnalında yazılar çap etdirmişdir. Publisistin əsərlərində İran milli azadlıq hərəkatı ilə bağlı problemlər, ədəbiyyat, mətbuat, mədəni intibah məsələləri əsas yer tutur. İran poeziyasında "yeni şeir"in ideya-estetik problemləri haqqında qiymətli məqalələr yazmışdır. Ədəbi-tənqidi məqalələrində Azərb. realist satirası, "Molla Nəsrəddin" jurnalı, Mirzə Cəlil, Sabir və b. yazıçıların yaradıcılığı, əsərləri barədə mülahizələr yürüdürdü.

TƏHMASİB Məmmədhüseyn Abbasqulu oğlu (1907-1982) – ədəbiyyatşünas, folklorşünas, dramaturq. Filol. e.d. (1965),

prof. (1969). 1945 ildən ömrünün sonunadək Nizami ad. Ədəbiyyat İn-tunun folklor şöbəsinin müdiri idi. T. Azərb. folklorşünaslığının əsasını qoyanlardandır. "Kitabi-Dədə Qorqud", "Koroğlu" eposlarının, şifahi xalq ədəbiyyatı abidələrinin – dastanların, nağılların, Molla Nəsrəddin lətifələrinin toplanması, nəşri və tədqiqində, pedaqoji və elmi kadrlar hazırlanmasında mühüm xidməti var.

T. elmi və ədəbi fəaliyyətində M.-nin şifahi xalq yaradıcılığı ilə əlaqəsi, milli mədəniyyətin, folklorun inkişafında "Molla Nəsrəddin" jurnalının böyük rolu barədə qiymətli mülahizələr söyləmişdi.

TƏHMASİB Rza Abbasqulu oğlu (1894-1980) – aktyor, rejissor, pedaqoq. Azərb. əməkdar inc. xad. (1946), Azərb. xalq art. (1964). SSRİ Dövlət mükafatı laureatı (1946). Səhnə fəaliyyətinə 1910 ildə Tiflisdə "Müsəlman artistləri ittifaqı"nın teatr truppasında başlamışdır. Sonralar Tiflis, İrəvan, Naxçıvan, Rəşt və s. teatrlarda aktyorluq və rej.-luq etmişdir. 1920 ildən ADT-nda çalışmışdır. T.-in yaratdığı İsgəndər ("Ölülər") obrazı sənətkarlıq baxımından diqqəti cəlb edir. T., eyni zamanda görkəmli teatr və kino rej. kimi də tanınmışdır. 1917 ildə Naxçıvanda quruluş verdiyi "Ölülər" komediyası onun ilk müstəqil rej.-luq işi olmuşdur. Filmlərə çəkilmişdir.

"TƏK SƏBİR" – ictimai-siyasi, satirik və yumorlu qəzet. "Şirvan" xeyriyyə cəmiyyəti tərəfindən 1992 ildə təsis edilmişdir. Ayda iki dəfə nəşr olunur. "Molla Nəsrəddin" jurnalının bugünkü xələflərindən biridir. Naşiri və red. İsgəndər Etibardır. Qəzetin ilk sayındakı proqram səciyyəli yazıda deyilir: "...bu günün ictimai-siyasi hadisələrini onların (C.Məmmədquluzadə, M.Ə.Sabir – *red.*) ruhuna sədaqətlə şərh etməyə, gülməlilərə gülməyə, ağlamalılara ağlamağa çalışacağıq". Qəzetin adı M.Ə.Sabirin ilk dəfə "Molla Nəsrəddin" jurnalında (1908, №3) imzasız çap olunmuş "Səbir", sonrakı nəşrlərə "Tək səbir" adı ilə daxil edilmiş şeirindən götürülmüşdür.

TƏNQİD-TƏBLİĞ TEATRI, Bakı Azad Tənqid-Təbliğ Teatrı – Azərb. miniatür teatrı. 1921 ilin noyabrında Bakıda hökumətin qərarı ilə yaradılmışdır. Teatrın repertuarına yeni həyat quruculuğuna çağıran, cəmiyyətdəki nöqsan və eybəcərlikləri ifşa edən bir-iki pərdəli əsərlər, Azərb. klassik dramaturgiyası daxil idi. Repertuar komissiyası C.Məmmədquluzadə, H.Cavid, A.Şaiq, M.S.Ordubadi və b. yazıçılardan ibarət idi. M. demişdi: "Bu teatr canlı bir mübarizədir. Xalqımıza bunun faydası olacağına heç bir şübhə yoxdur". Teatrın yaradıcı heyətində H.Abbasov, M.Əliyev, Ə.Məmmədova, S.Ruhulla, Ə.Qəmərlinski, M.Kazımovski, M.Vəlixanlı kimi məşhur artistlər vardı. N.Nərimanovun təklifi ilə M.-nin "Ölülər" və "Anamın kitabı" əsərləri teatrın repertuarına daxil edilmişdi. "Ölülər"də (rej. Ə.Süheyli) M.Əliyev – İsgəndər, H.Abbasov – Şeyx Nəsrullah rolunu ifa edirdilər. 1923 il noyabrın 3-də M.-nin "Konsulun arvadı" hekayəsi səhnələşdirilərək, bu teatrda oynanılmış, lakin müvəffəqiyyət qazanmamışdır.

R.Təhmasib

Teatr 1925-1927 illərdə Türk İşçi – Kəndli Teatrı, 1927-1932 illərdə isə Bakı Türk İşçi Teatrı adlanırdı. 1926 ildə rej. A.A.Tuqanov "Ölülər"i (Şeyx Nəsrullah – Kazım Ziya, İsgəndər – A.Gəraybəyli), rej. Ə.Süheyli "Anamın kitabı"nı (Rüstəm bəy – A.Gəraybəyli, Mirzə Məhəmmədəli – İ.Talıblı, Səməd Vahid – Kazım Ziya) tamaşaya qoymuşdular. Sonrakı illərdə də bu əsərlər teatrın repertuarında idi. Teatr 1932 ildə Gəncə ş.-nə köçürülmüş və onun əsasında Gəncə Dram Teatrı təşkil olunmuşdur.

TƏRBİYƏT MƏHƏMMƏDƏLİ Mirzə Sadıq oğlu (1875-1940) – ədəbiyyatşünas alim, jurnalist, maarif və mədəniyyət xadimi. Təbrizdə təhsil almış, fars, ərəb, fransız, ingilis dillərini mükəmməl öyrənmişdi. Müzəffəriyyə və Loğmaniyyə mədrəsələrində dərs demiş, kitabxana açmış, "Gəncineyi-fünun" ("Bilik xəzinəsi") adlı jurnal nəşr etmişdir (1903). Avropa, Asiya və Afrikanı gəzmişdir. "İttifaq" qəzetinin red. idi. Qədim dövrlərdən XX əsrin 30-cu illərinədək yazıb-yaratmış azərb. şair, ədib, rəssam, nəqqaş və digər mədəniyyət xadimləri haqqında geniş məlumat toplamışdı. Ən məşhur əsəri "Danişməndəni-Azərbaycan"dır ("Azərbaycan alimləri"). 1987 ildə Bakıda azərb.-ca da nəşr edilmişdir. Azərb. ədəbiyyatını ətraflı tədqiq edən T. "Molla Nəsrəddin" jurnalına, C.Məmmədquluzadə, M.Ə.Sabir, H.Cavid və b.-nın yaradıcılığına yüksək qiymət vermişdir. Azərb.

maarifinin tərəqqisində mühüm xidmətləri var.

"TƏRƏQQİ" – ictimai-siyasi, iqtisadi və ədəbi qəzet. 1908-1909 illərdə Bakıda nəşr olunmuşdur. Baş red. Əhməd bəy Ağayev, naşiri Murtuza Muxtarov idi. 1909 il iyunun 28-də Ə.Ağayev Türkiyəyə köçüb getdikdən sonra qəzetin baş red. Üzeyir Hacıbəyov olmuşdur. "T."-də Ə.Ağayev, Ə.Hüseynzadə, Ü.Hacıbəyov, M.Mahmudbəyov, F.Köçərli, Ə.Qəmküsar, M.Hadi, Ə.Müznib, Ömər Faiq, M.S.Ordubadi və b.-ları yaxından iştirak etmişlər. "T."-nin felyetonlarında "Molla Nəsrəddin" jurnalının ideya və sənətkarlıq ənənələri davam etdirilirdi. Qəzet maliyyə çətinliklərinə görə bağlanmışdır.

"TƏRCÜMAN" – 1883-1916 illərdə Krımın Baxçasaray şəhərində nəşr olunan qəzet. Red.-u 1883-1914 illərdə məşhur yazıçı, jurnalist, ictimai xadim İsmayıl bəy Qasprinski, 1914-1916 illərdə isə oğlu Rüfət Qasprinski idi. "T." səhifələrində Rusiyada, ümumiyyətlə, Şərq və Qərbdə baş verən ictimai, siyasi və iqtisadi yeniliklərdən, görkəmli xadimlərin fəaliyyətindən maraqlı yazılar verilirdi.

"Molla Nəsrəddin" nəşrə başladığı gündən "T.-ın" diqqət mərkəzində olmuşdur. 1906 il fevralın 27-də Tiflisdə M.-nin "Molla Nəsrəddin" adlı jurnalın nəşrinə təşəbbüs göstərdiyini yazan "T." oxucuları onun ilk nömrəsi ilə tanış edərək yazırdı: "Tiflisdə Cəlil əfəndi Məmmədquluzadənin "Molla Nəsrəddin" namında nəşr etməyə başladığı gülünclü tənqid və lətifə məcmuəsinin birinci nüsxəsi idarəmizə gəldi...

Qafqaziya əhvalını tənqidanə və həcvyanə təsvir edən bir kaç boyalı gözəl rəsmləri ilə təzyin edilmişdir... Millətimiz arasında bəzi qeyri-adət və hərəkət haqqında xeyli tənqidanə yazılmış lətifə və fəqərələri tamildir... şübhə olmayıb, bizim bu qism yeni ədəbiyyatımız... intişar edərək millət arasında rəğbət bulub fayda gətirməsi məlumdur". "T."-da vaxtaşırı verilən mətbuat xülasələrində "Molla Nəsrəddin"dən bəhs olunurdu. Baş redaktor M. və əməkdaşlarının yazıçılıqda yüksək istedad nümayiş etdirmələri "T." tərəfindən xüsusi təqdir olunurdu.

"Rəsmləri və mündəricatı qayət gözəl və millidir. Lisanı ötgün və təsirlidir. Şöylə ki, acı, ağu həqiqətləri ballı, şəkərli oxumaq, üsul və köhnə adətlər ki, görənəklər lətifə ilə mat edildiyini görmək istəyənlər bu jurnalı alsınlar, oxusunlar". "T." "Molla Nəsrəddin" satirasının böyük ideallara xidmət göstərdiyini xüsusi qeyd edirdi: "Molla Nəsrəddin"... lətifəsi arxasında acı bir həqiqət gizlidir. Gülər, lakin gülgüsü ğəm və istehza və yaxud düşmən gülgüsü deyildir. Gülə-gülə verilən nəsihətdir. Əhval və adətlərimizi ara-sıra iynələyərək biz kimi sənə, mənə sancılır. Bəlkə bir az incidir. Lakin incitsə belə məqsəd xeyir var... nəticəsi şəfaya varır. Çibanı dəlib, içindəki çərahəti axıtan təbib neştəri nə isə gülgü jurnalının həcvləri də tamam şudur".

"TƏRCÜMEYİ-HALIM" – M.-nin əsəri. 1926 ildə Bakıda yazılmışdır. M.-nin ilk və yeganə avtobioqrafiyasıdır. M.-nin həyat və fəaliyyətinin birinci mərhələsini – doğulandan Tiflisə köçənə qədərki (1869-1903) otuz beş illik dövrü əhatə edir. Bu əsər M. həyatının bir sıra məsələlərini – mühitini, dünyagörüşünün formalaşma prosesini və buna təsir göstərən amilləri öyrənmək üçün dəyərli mənbədir. M.-nin dilindən həyat yolunun bir sıra məqamları aşkarlanır: Birincisi – M. uşaq vaxtı şahidi olduğu hadisələrə istinad etməklə təvəllüd tarixini dəqiqləşdirir, nəsli və ailəsi haqqında məlumat verir. İkincisi – əsərdə M.-nin Naxçıvanda məhəllə və şəhər məktəbində, Qoridə müəllimlər seminariyasında təhsil illəri təsvir olunur. Müşahidə və təəssüratlar əsasında məktəblərin fəaliyyətində faydalı və qüsurlu cəhətlər nişan verilir. Üçüncüsü – əsərdə M.-nin İrəvan quberniyasının müxtəlif kəndlərində on il davam edən pedaqoji fəaliyyəti, "naçalnik divanxanasında mütərcim"likdə və "polis məmur"luğunda keçən altı ili, XIX əsrin 80-90-cı illərində və XX əsrin başlanğıcında Naxçıvan dindar mühitində siyasi-ictimai fikrin və mədəni həyatın dirçəlişi, "Hüşyar dostlar" əhatəsində sosial problemləri müzakirəyə qoyması, bədii yaradıcılıq aləmində ilk addımlarını atıb, "Danabaş kəndinin əhvalatları" silsiləsini yaratması və s.-dən bəhs olunur. Dördüncüsü – əsərdə M.-nin İrəvandan "ədliyyə idarələri"ndən Tiflisdə "Şərqi-Rus" qəzetinin redaksiyasına düşməsinin səbəbləri aydınlaşdırılır.

"TƏZƏ HƏYAT" – gündəlik ictimai-siyasi, iqtisadi, ədəbi qəzet. İlk sayı 1907 il aprelin 1-də, sonuncusu 1908 il oktyabrın 7-də çıxmışdır (cəmi 439 nömrə). Bakıda "Kaspi" mətbəəsində çap edilirdi. Red.-u dramaturq və publisist Haşım bəy Vəzirov, naşiri H.Z.Tağıyev idi. "T.h." milli burjuaziyanın mənafeyini müdafiə etmiş, fəhlələrin istismarını pərdələməyə çalışmış, qadın azadlığına qarşı çıxmışdır. "T.h."-ın ideya istiqaməti, xüsusilə, Sultan Əbdülhəmidə mədhiyələr deməsi, varlılara yarınması M. tərəfindən kəskin surətdə tənqid olunmuşdur. Bununla da, M., mollanəsrəddinçilər və ümumiyyətlə, "Molla Nəsrəddin" jurnalı əleyhinə arasıkəsilməz kampaniya başlanmışdır.

TİFLİS (1936 ildən sonra Tbilisi) – Gürcüstanın paytaxtı, Qafqazın iri elm, mədəniyyət, sənaye mərkəzlərindən biri.

M.-nin həyat və yaradıcılığının böyük bir hissəsi, XX əsrin əvvəllərində Rusiyada siyasi-mədəni intibahın əsas mərkəzi olan T.-lə bağlıdır. M.-nin öz sözləri ilə desək, "Tiflis Qafqazın mərkəzi şəhəri və Qafqaz hökumətinin paytaxtı" kimi mühüm əhəmiyyət kəsb edirdi. Demokratik fikirli bir çox görkəmli ziyalılar, o cümlədən Azərb. ziyalılarının böyük bir dəstəsi – M.Şahtaxtlı, Ömər Faiq, Ə.Axundzadə, H.Qayıbov, R.İsmayılov, M.Vəkilov və b. T.-də yaşayır, maarif, mətbuat, teatr və



Tiflis şəhəri.

ədəbiyyat sahəsində fəaliyyət göstərirdilər. 1903 ildə M. ağır xəstələnmiş arvadını müalicə üçün T.-ə gətirmiş, təsadüfən "Şərqi-Rus" qəz.-nin red.-u M. Şahtaxtlı ilə görüşmüşdür. "Poçt qutusu" hekayəsindən çox xoşu gələn M.Şahtaxtlı onu öz redaksiyasında işə götürür. M. 1903 ilin dekabrından etibarən T.-də, Davitovskaya küçəsindəki 24 saylı evdə kirayədə yaşayır, şəhərdəki ziyalıların əksəriyyəti ilə əlaqə saxlayırdı.

"Şərqi-Rus" bağlanandan sonra M. onun T.-dəki mətbəəsini satın alaraq, "Qeyrət" adlandırır, burada dostu Ömər Faiq ilə kitablar nəşr edirdi. İlk nəşr edilmiş kitablardan biri M.-nin "Poçt qutusu" əsəri idi; 1906 ildə burada onun başqa kitabları da çapdan çıxır. M. şəhərdəki "Возрождение" qəzetində və digər mətbuat orqanlarında da məqalələr çap etdirir.

M. 1905 ilin avqustunda T.-də "Novruz" adlı qəzet çıxarmağa rəsmi icazə almış, lakin özünün yazdığı kimi, hələlik "ruhanilərə təməllüq" (yaltaqlıq – *red.*) etmədən, "canişin həzrətlərinə... qəsidə oxumadan" qəzet çıxarmaq mümkün olmadığı üçün onun nəşrindən imtina etmişdi. Az sonra vəziyyət dəyişmiş, çar hökumətinin məcburən elan etdiyi nisbi mətbuat azadlığı M.-ni yenidən çoxdan arzuladığı satirik jurnal nəşr etdirməyə həvəsləndirmişdi. Odur ki, M. 1906 il fevralın 21-də T. qubernatoruna müraciət edərək, "Qeyrət" mətbəəsində çap olunmaq şərti ilə "müsəlman ədəbiyyatında əfsanəvi

təlxək" kimi tanınan lətifə qəhrəmanının adı ilə "Molla Nəsrəddin" adlı satirik-yumoristik jurnal çıxarmağa icazə verilməsini xahiş etmişdi.

Həmin il martın 4-də "Molla Nəsrəddin"in nəşrinə razılıq alınmış və bu barədə 874 saylı şəhadətnamə verilmişdir. Cəmi 20 gün ərzində materiallar və şəkillər hazırlanmış və 1906 il aprelin 7-də jurnalın birinci sayı çapdan çıxmışdır. İlk sayı min tirajla nəşr olunan jurnalın 500 nüsxəsi elə həmin gün günortayadək satılmışdı. Jurnalın T.-də nəşr olunması səbəbi haqda Mirzə Cəlil Ə.Haqverdiyevlə söhbətində demişdi: "Mən bu jurnalı Tiflisdə çıxarmayıb, sair bir şəhərdə, məsələn, Bakıda, İrəvanda çıxarsa idim, yəqin birinci nömrədən sonra mənim idarəmi dağıdıb, özümü də öldürərdilər".

"Molla Nəsrəddin" jurnalının nəşri T.-dəki Azərb. mühitinə yeni bir nəfəs gətirdi. M.-nin ailəsinin yaşadığı, "Molla Nəsrəddin" jurnalı redaksiyasının yerləşdiyi Voronsovski küçəsindəki 47 saylı ikimərtəbəli bina Azərb.-ın yaradıcı ziyalılarının böyük bir nəslinin əsl qərargahına çevrilmişdi. 1911 ildə M.Ə.Sabir tez-tez bu evdə qalıb jurnal üçün əsərlər yazmış, bir müddət burada yaşayıb, müalicə olunmuşdu. Jurnalın şəkilləri Bıxov litoqrafiyasında (Qubernski küç., 34) və Muxranski küçəsindəki Giladze mətbəəsində çap edilirdi.

T.-in mühitini yaxından müşahidə edən M. və onun əməkdaşları jurnalın səhifələrində verdikləri, bu mühitdən alınmış məqalə və karikaturalarda fanatik meylləri tənqid edir, xalqı mədəni dirçəlişə, milli-mənəvi özünüdərkə çağırırdılar.

M. bir yazıçı kimi həyatının T. mərhələsində tanınıb məşhurlaşmışdır. Burada yaşadığı illərdə o, özünün bir çox yaddaqalan hekayələrini və "Ölülər" tragikomediyasını (1909) yazmışdı. "Ölülər" 1917 ilin yanvarında T.-də tamaşaya qoyuldu. Ədibin "Poçt qutusu" (1905), "Usta Zeynal" (1906), "İranda hürriyyət" (1906), "Qurbanəli bəy" (1907), "Nigarançılıq" (1916) əsərləri T.-də nəşr olunmuşdu. 1924 il fevralın 14-də M.-nin "Anamın kitabı" pyesi ADT aktyorlarının ifasında Ş.Rustaveli ad. teatrın binasında oynanılmışdı. T.-də "Molla Nəsrəddin" jurnalının 370 nömrəsi çap edilmişdi. Azərb. ədəbiyyatında mollanəsrəddinçilər adlanan yeni ədəbi nəsil ilk növbədə T. mühiti ilə əlaqədə yetişib formalaşmışdır.

TİFLİS AZƏRBAYCAN TEATRI – XIX əsrin sonu – XX əsrin 1-ci yarısında Tiflisdə fəaliyyət göstərmiş teatr. Əsası teatr həvəskarlarının 1879 ildə göstərdikləri "Lənkəran xanının vəziri" (M.F.Axundov) komediyası ilə qoyulmuşdur. Tamaşalar Tiflisdəki "Gürcü dvoryan teatrı", "Mir", "Arsruni", "Kazyonnı teatr", "Zubalov ad. Xalq Evi" və s. teatr binalarında, 1912 ildə Azərb. Xalq Evi – "Auditoriya" açıldıqdan sonra isə burada oynanırdı. M. bu teatrın fəaliyyətinə yaxından kömək göstərirdi. Azərb.-ın bir çox görkəmli səhnə xadimləri – H.Ərəblinski, S.Ruhulla, İ.İsfahanlı, M.Kirmanşahlı, M.Mərdanov və b. burada fəaliyyət göstərmişlər. 1917 ilin yanvarında teatrda M.-nin "Ölülər" pyesi tamaşaya qoyulmuşdu. Şeyx Nəsrullah rolunu Əliqulu Qəmküsar, İsgəndər rolunu Mirzəxan Quliyev ifa etmişdilər. Əziz Şərif 1923 ilin yanvarında Tiflis aktyorları tərəfindən oynanılmış "Ölülər" tamaşası haqda "Zarya Vostoka" qəzetində ətraflı məqalə dərc etdirmişdi. 1924 ilin fevralında Ş.Rustaveli ad. teatrın binasında M.-nin "Anamın kitabı" pyesi tamaşaya qoyuldu. Tamaşanın rej. A.Tuqanov idi. Mirzə Məhəmmədəli rolunda Ə.Qurbanov, Səməd Vahid rolunda Ülvi Rəcəb, Rüstəm bəy rolunda Ə.Salahlı çıxış edirdilər. Sonrakı illərdə də M.-nin əsərləri teatrın repertuarında idi. T.A.t. 1947 ilin yanvar ayında öz fəaliyyətini dayandırmışdır.

"TİFLİSSKİ LİSTOK" – Tiflisdə 1886-1916 illərdə rus dilində nəşr olunan gündəlik qəzet. Naşir və red. əvvəlcə İ.B.Popov, 1887 il 14 sayından sonra naşiri X.Q.Xaçaturov, red. K.N.Begiçev, 1888 il 45 sayından sonra isə naşiri və red. X.Q.Xaçaturov olmuşdur. Tiflis senzura komitəsinin erməni millətindən olan senzorları Kişmişov və Qaraxanov "T.l." qəzetinin səhifələrində Azərb. mətbuatı əleyhinə geniş kampaniya aparırdılar. Bu qəzetin səhifələrində onlar Qafqazdakı cəmi azərb. ədib və jurnalistləri "panislamistlər" kimi qələmə verir, çar hakimiyyət orqanlarına onları "Qafqaz camaatını islam bayrağı altına çəkmək", bu bayrağın da "Osmanlı sultanının əlində olmağını arzu etdiklərini" təlqin edirdilər. "T.l." qəzeti haqqında Mirzə Cəlil yazırdı: "Bu

qəzet sahibi də Xaçaturov adlı bir erməni idi. Qəzet hərçənd rus dilində nəşr olunurdu, amma onun ikicə məsləki var idi: biri öz cibinə qulluq etmək idi; digəri də erməni millətinin mənafeyini müdafiə etmək idi. Və insafla danışsaq, qəzetin sahibi bu iki məqsədin ikisinə də canüdildən qulluq edirdi".

Qəzetin 1905 il 5 və 17 avqust tarixli 159 və 170 saylarında Mirzə Cəlilin "Yeni ibtidai məktəbdə Azərbaycan dili" və "Faydalı təşəbbüs" məqalələri, habelə onun həmin il 13 avqust 165-ci sayında "Novruz" adlı qəzeti nəşr etdirməkdən imtina etməsi barədə redaksiyaya məktubu və s. dərc olunmuşdur.

TİXONOV Nikolay Semyonoviç (1896-1979) – rus yazıçısı, ictimai xadim. Sosialist Əməyi Qəhrəmanı (1966), SSRİ və Beynəlxalq mükafatlar laureatı, Azərb. xalq şairi (1974). Ümumdünya Sülh Şurasının üzvü, Sovet Sülhü Müdafiə Komitəsinin sədri, SSRİ Yazıçılar İttifaqı İdarə Heyətinin katibi olmuşdur. Bir çox şeir və poemaların, hekayə və povestlərin müəllifidir. Azərb. xalqının və ədəbiyyatının yaxın dostu olan, dəfələrlə Azərb.-a gələn, ona bir sıra şeirlər həsr edən T.-un Azərb. ədəbiyyatı, onun söz ustaları haqqında məqalələri var, yazıçılarımızın əsərlərinin rus dilinə tərcüməsi sahəsində də çalışmışdır.

Moskvada M.-nin 100 illiyinə həsr edilmiş gecədə T. hərarətli nitq söyləmişdir. O, Bakıda "Kommunist" qəzetində çap olunmuş "Böyük vətəndaş" məqaləsini Azərb. klassikinin gülüşü haqqında mülahizələrlə başlamışdı: "Elə gülüş var ki, biz ona qədim Elladanın böyük şairinin şərəfinə homerik gülüş deyirik. Rus ədəbiyyatında Qoqolun acı gülüşü, Qriboyedovun sərt gülüşü, Saltıkov – Şedrinin ifşaedici gülüşü məşhurdur. Bu gün bizim üçün Molla Nəsrəddinin özünəməxsus olan, Şərq qüdrəti ilə qaynayıb daşan, amansız və müdrik gülüşü də yaxındır, doğmadır". Məzmunca zəngin olan bu səmimi, həyəcanlı əsərində T. ədibin yaradıcılığının dərin xəlqiliyi, jurnalist fəaliyyəti, "Molla Nəsrəddin"in bütün qara qüvvələrə, onların hakimiyyətinə, istibdadına qarşı çıxması haqqında bəhs edir. O göstərir ki, "Heyrət doğuran", gözəl, qüdrətli "Molla Nəsrəddin"in sayəsində "oxucular da dönüb yaradıcı oldular. Onlar bu jurnala yazmağa başlamışdılar". T. yazıçının "Ölülər" pyesini dünya dramaturgiyasının şedevrləri ilə yanaşı təhlil etmiş, İsgəndər surətini "faciənə surət", "Danabaş kəndinin əhvalatları" və "Poçt qutusu"nu klassik əsərlər adlandırmışdır.

T.-un "Ədəbi qüdrət", "Sənət-əbədiyyətdir" məqalələri də M.-yə həsr olunmuşdur.

TOFİQ FİKRƏT (1867-1915) – türk şairi, pedaqoq, jurnalist. Türk ədəbiyyatında "Sərvəti-fünun" və ya "Ədəbiyyati-cədidə" adlanan cərəyanın banisidir. 1888 ildə Qalatasaray liseyini bitirmiş, bir müddət Xarici İşlər Nazirliyində işləmiş, 1894-1915 illərdə türk dili və ədəbiyyatından dərs demişdir. T.F. türk şeirinə məzmun və formaca yeniliklər gətirmişdir. İnqilab ruhlu şeirlərində zülm, istibdad və dini fanatizmi qətiyyətlə qamçılamış, humanizm və azadlıq ideyalarını, xalqlar dostluğunu tərənnüm etmişdir. Hakim dairələr tərəfindən təqib olunsa da, ömrünün sonunadək inqilabi ideyalara və xalqa sadiq qalmışdır. Əsərlərində ərəb-fars kəlmələrinin, tərkiblərinin sıx-sıx işlədilməsi T.F.-in dilini xeyli qəlizləşdirirdi. Onun bu dil xüsusiyyətlərini M. də tənqid etmişdi. Buna baxmayaraq T.F.-in əsərləri Azərb.-da da rəğbət qazanmış, bir sıra Azərb. şairlərinin yaradıcılığına müəyyən təsir göstərmişdir.

Tofiq Fikrət

N.Tixonov

TOXADZE-REŞETNİKOVA Nina (1891-?) – tibb bacısı. 1906 ildən Tiflisdə M. ilə bir binada yaşamışdır. "Mehriban qonşu" adlı xatirəsində ("Bakı" axşam qəzeti, 28.7.1966) göstərir ki, onlar şəhərin Davidovskaya (indiki Besiki) küçəsindəki 24 saylı evdə yaşamışlar. Üst otaqları kirayə tutan ədib ev sahibi Aleksandr Milova ayda 40 manat verirmiş. "Köçüb gələndə yükü cəmi bir faytonluq idi. ...qonşumuza bizdə böyük maraq oyandı.[...] Cəlil Məmmədquluzadə ilə tanışlığımız səhərisi gün oldu. [...] Qonşumuzun rus dilində təmiz danışması bizə xoş təsir bağışladı. Sonradan öyrəndik ki, Cəlil Məmmədquluzadə [...] xeyirli işlə məşğul olur. Çünki onun nəşr etdiyi "Molla Nəsrəddin" jurnalı bizim evə də qədəm açmışdı".

Xatirə müəllifi qeyd edir ki, "Qonşumuz olduqca sadə və təmtəraqsız bir həyat keçirirdi, [...] yanına çoxlu adam gə-

lirdi. Cəlilin özü az danışan olduğuna görə küçəyə yığışıb söhbət edən qadınları xoşlamazdı. [...] atama demişdi: – İstəyirəm bir gün Şmerlinqi küçəmizə dəvət edim. Çənəsi boş olan qonşuların şəklini çəksin, verim jurnala. Atam Mirzə Cəlilin bu sözlərini qonşulara yetirəndən sonra elə bil qurbağa gölünə daş atıldı. O gündən küçədə "müşavirə" keçirən qonşu arvadların söhbətinə son qoyuldu.

Mirzə Cəlilgilin yaşadığı ev həm də "Molla Nəsrəddin"in redaksiyasını əvəz edirdi. Ədibin dostlarından əlavə bu ünvana çoxlu adam və məktub gəlirdi. Bu evə bəzən onun düşmənləri də gəlir və evin həndəvərində gəzirdilər.

T.-R. Mirzə Cəlilin Tiflisdən köçərkən, demək olar, "kağız-kuğuzdan başqa" özü ilə heç nə aparmadığını yazır.

TRAGİKOMEDİYA – ədəbiyyatda tragediya (faciə) və komediya xüsusiyyətlərini vəhdətdə yaşadan, əks etdirən dram əsərləri. Bu qəbildən olan pyeslərdə faciə daha çox qəhrəmanın düşdüyü mühitlə, yaşadığı ictimai quruluşla ziddiyyət təşkil edən ideya və amallarından doğur. T. janrında yazılmış bədii nümunələrdə əsas qəhrəmanın ölüm faktının səhnəyə çıxarılması, yaxud ədəbi mətnə daxil edilməsi zəruri deyildir. T.-nın tragik qəhrəmanı faciəvi motivlərlə əhatə olunan obraz kimi diqqəti cəlb edir. Bu qəhrəman onu əhatə edən mühitin və adamların faciəsini dərindən başa düşür, sosial həyatın ondan xilas olmasına çalışır, nicat yollarını düzgün müəyyən etsə də, əsasən, müxtəlif səbəblərdən yüksək niyyətlərinə, ülvi məqsədlərinə nail ola bilmir, yaxud çox böyük çətinliklər bahasına məqsədinə çatır. Beləliklə, ictimai mühitin faciəsi tədricən onun şəxsi faciəsində təzahür edir. Bu obrazlar "zülmət səltənətində nur" kimi nəzəri cəlb edirlər.

Komik vasitə və ünsürlər bu tipli əsərlərdə paralel xətt kimi inkişaf etdirilir. İctimai mühitin özünün əsirinə çevirdiyi obrazların vəzifələri ilə vəziyyəti və hərəkəti arasındakı fərqlər onların komediyasını şərtləndirir. Komik əlamət obrazla yanaşı vəziyyətə, konfliktin xarakterini müəyyən edən ayrı-ayrı qütblərə də aid ola bilir.

İlk T.-lar hələ qədim yunan ədəbiyyatında yaranmışdır. Evripidin "Alkestida", "İon" kimi əsərləri antik dövrün T.-larıdır. Orta əsrlər Avropa dramaturgiyasında az da olsa, tragikomik əsərlər meydana çıxmışdır. XIX əsrdə mövcud sərt ictimai-siyasi vəziyyət, maarifçi mühit və hərəkatın gedişatı ədəbiyyatda T.-ların meydanını genişləndirmişdir. H.İbsenin "Vəhşi ördək", A.P.Çexovun "Üç bacı" əsərləri T. janrının sanballı nümunələridir.

Azərb. dramaturgiyasının ilk nümunələri komediyalar kimi yaransa da, bu əsərlərdə faciə ünsürləri olmuşdur. M.F.Axundovun komediyalarının hamısında tragik momentlər, vəziyyətlər, ünsürlər, ovqat mövcuddur. XX əsrin əvvəllərində ictimai mühitin ziddiyyətlərinin kəskinləşməsi və dirçəliş, milli oyanış motivlərinin güclənməsi T.-ların yaranma imkanlarını da genişləndirmişdir. M.-nin yaradıcılığında yeni dövrün tamamilə yeni tipli T.-ları formalaşmışdır. Ədibin "Ölülər" əsərində tragik və komik ünsürlərin "dinc yanaşı yaşaması" prinsipinin əsər boyu davam etdirilməsi diqqəti cəlb edir. "Ölülər" əsəri ictimai mühitdə özünə çətinliklə yol açan yeniliyin faciəsi, ölümə, məhvə məhkum olan, lakin mövqelərini asanlıqla əldən verməyən köhnəliyin komediyasıdır. Kefli İsgəndər surəti xarakterinə görə Azərb. ədəbiyyatında ən yetkin tragikomik obrazdır. Əsərdəki İsgəndər – Nazlı, İsgəndər – Cəlal xətlərində də tragik notlar vardır. "Ölülər"də mənəvi əsarəti və ölülüyü təmsil edən şəhər əhli – məşədilər, kərbəlayılar, habelə "İsfahan lotusu" Şeyx Nəsrullah obrazı əsərin və əsrin "komediyasını" təmsil edirlər.

M.-nin "Dəli yığıncağı" pyesi XX əsrin ən mükəmməl T.-larından biri adlandırılmağa layiq dəyərli sənət əsəridir. "Dəli yığıncağı" pyesində eybəcər, ədalətsiz ictimai mühitin ağıllı insanları dəliyə çevirməsi, şərə, zülmə geniş meydan açması motivinin dramatik açılışı həm tragik, həm də komik məqamları üzə çıxarır. Məmləkətin həzrəti Əşrəf kimi xalqın dilini, adət-ənənəsini, psixologiyasını bilməyən hakimlər tərəfindən idarə olunmasının təqdimi zahirən gülüş doğursa da, əslində, ictimai faciədir. Xəstələrin, onların dilini bilməyən xarici məmləkətdən gəlmiş həkim vasitəsilə müalicə edilməsi də tragikomik vəziyyətlərin bütün dərinliyi ilə çatdırılmasına xidmət edir. Əsərdəki tacirlərin milli mənafeləri qat-qat aşmış

qazanc ehtirası da mühitin mürəkkəb xarakterinə yeni notlar gətirir. Bu mənada Pırpız Sona, Həmzad Qurban kimi normal insanların dəlixanaya düşməsi, Molla Abbasın "vallah, billah, biz dəli yığıncağına düşmüşük" qənaəti xəstə mühitin faciəsini də, komediyasını da tamamlayır.

Ədibin son əsərlərindən olan "Ər" pyesində 20-ci illərin ikinci yarısında Sovet Azərb.-da gedən çətin, mürəkkəb ictimai-mənəvi proseslər tragikomik vasitələrlə mənalandırılmışdır. Darülfünun tələbəsi Cahangirin yeni cəmiyyət quruculuğu yollarındakı səy və təşəbbüsləri onu əhatə edən mühitin əksər təbəqələri tərəfindən anlaşılıb dəstəklənmədiyi üçün, o da İsgəndər kimi tənhalığın faciəsini yaşamağa məcbur olur. Ər axtarmağı hər cür ictimai münasibətlərdən üstün tutan sovet dövrü qadınlarının həyata baxışları, əməl və rəftarları gülüş doğurur.

Mirzə Cəlilin T.-larında faciə və komediya motivləri bir-birindən doğur, biri digərini tamamlayır.

TRESKİNSKİ A. (?-?) – mühəndis, Təbriz-Culfa dəmiryol rəisi. M. ilə işgüzar əlaqə saxlayırdı. Ədibin Bakıya işə dəvət olunması ilə bağlı xəbərləri ona yetirmiş, 9 may 1921 il tarixli məktubunda M.-ni "maarifçi, ictimai xadim və publisist", onun "yeganə ümidgahı və işıq mənbəyi" olduğunu qeyd etmişdir. Mayın 23-də yazılmış rəsmi bir məktubunda "Molla Nəsrəddin" jurnalının ixtiyarına iki kupe verildiyi, yer azlıq edərsə, əlavə kupenin veriləcəyi göstərilir.

TOLSTOY Lev Nikolayeviç (1828-1910) – dahi rus yazıçısı. Peterburq EA-nın m. üzvü (1873), fəxri akad. (1900). Avtobioqrafik "Uşaqlıq" (1852), "İlk gənclik" (1852-54), "Gənclik" (1855-57) trilogiyasında şəxsiyyətin öz daxili mahiyyətini qavramaq, mənəvi təkmilləşmək cəhdi təsvir olunmuşdur. Mənəvi ideal axtarışları, silki qapalılığı parçalamaq cəhdləri "Kazaklar" (1863) povestinin əsas ideyası olmaqla bərabər, həm də T. yaradıcılığının ana xəttini təşkil edir. 1812 il müharibəsinə həsr olunmuş "Hərb və sülh" (1863-1869) epopeyasında T.-un bədii dühasının xəlqiliyi tam vüsətilə əksini tapmışdır. "Hərb və sülh" vətənpərvərlik pafosu, sosial-fəlsəfi məzmunu, yüksək bədii dili, epik təhkiyə üslubu, kompozisiyasının çoxplanlılığı, insan xarakterlərinin dolğunluğu, psixoloji təhlilin dərinliyi və s. keyfiyyətləri ilə XIX əsr dünya realist nəsrinin zirvələrindən sayılır. T.-un "Anna Karenina" (1873-1877), "Dirilmə" (1889-1899) romanları, "İvan İliçin ölümü" (1884-1886), "Kreyser sonatası" (1887-1889), "Hacı Murad" (1896-1904) povestləri, "Cəhalət hökmranlığı" (1886), "Canlı meyit" (1900) pyesləri və s. bir çox əsərlərində yazıçının cəmiyyətə sosial tənqidi münasibəti və eyni zamanda xristian mənəviyyatı tendensiyaları güclənir.

T. – bir çox fəlsəfi-dini, estetik, publisist əsərlərin müəllifidir. Onun dünya ədəbiyyatına böyük təsir göstərmiş dahi yaradıcılığı rus cəmiyyətinin bütöv bir epoxasının (1861-1905) ziddiyyətlərini əks etdirmişdir.

XIX əsrin 2-ci yarısında Azərb.-da da T. yaradıcılığına ciddi maraq oyanmış, XIX əsrin sonu – XX əsrin əvvəllərində onun ictimai-fəlsəfi və pedaqoji görüşləri geniş yayılmağa başlamışdır. Bir sıra Azərb. maarifçi ziyalısı T.-la məktublaşmışdır. M. hələ seminariyada oxuduğu illərdə T.-un əsərlərini mütaliə edirdi. O, "Şərqi-Rus" qəzetində əməkdaşlıq etdiyi dövrdə, T.-un "Zəhmət, ölüm və naxoşluq" məqaləsinin məzmununu Azərb. dilinə çevirərək, qəzetin 1904 il 21 yanvar sayında çap etdirmişdi. "Molla Nəsrəddin"də T.-dan müxtəlif münasibətlə bəhs edilmişdir. Ədib 1910-cu ildə vəfat edərkən jurnal 36-cı sayının üz qabığında "Ədibi-təhir qraf Lev Tolstoyun vəfatı münasibətilə" qeydi ilə portretini vermişdi. Növbəti sayda 2-ci səhifədə "Cümri" imzası ilə "Qraf L.Tolstoy" adlı məqalə dərc olunmuşdu. Orada böyük ədibin bəşəriyyətə xidmətləri yüksək qiymətləndirilirdi. "Bu bir addır ki, insanlıq adı ilə adlanan cəmi məxluqun yanında altmış ildən bəri ehtiram ilə çəkilib. Milyonlarla zəhmətkeşlər, kəndlilər, yavan çörəkdən ötrü gecə-gündüz çalışanlar bu adla özlərinə təsəlli veriblər. Milyonlarla üdəbalar, şüəralar müsənniflər, mühərrirlər, hətta milyonerlər belə bu ad sahibini vacibülehtiram biliblər" ("Molla Nəsrəddin" jurnalı 1910, №37).

L.Tolstoy

TOPURİDZE (?-?) – gürcü həkimi, Məmmədquluzadələr ailəsinə yaxın adamlardan olmuşdur. Qarabağ kəndlərində yatalaq xəstəliyi epidemiya halı aldığı zaman Həmidə xanım terapevt T.-ni

Ağdam və Kəhrizliyə dəvət edir. Ədəbiyyat maraqlısı, kitabsevər olan T. söhbət zamanı "Molla Nəsrəddin"dən ağızdolusu həvəslə danışıb deyir: "Çox gözəl jurnaldır. Bu jurnalın satiralarını yazan adam (Cəlil Məmmədquluzadə nəzərdə tutulur – *red.*) nadir istedad sahibidir. Belə satirik ağıl sahibi olan dahi insanlar min ildə bir doğulurlar. Onun mənsub olduğu xalq xoşbəxt xalqdır". (Məmmədquluzadə H. Mirzə Cəlil haqqında xatirələrim. B., 1967, s. 28)

Ə.Topçubaşov

TOPÇUBAŞOV Əlimərdan bəy Ələkbər oğlu (1865-1934) – hüquqşünas, jurnalist, ictimai xadim. Peterburq un-tində təhsil almışdır. 1888 ildən Tiflisdə müxtəlif vəzifələrdə işləmiş, 1896 ildən Bakıda yaşamış, dairə məhkəməsində vəkil olmuşdur. 1897-1917 illərdə ictimai xadim və jurnalist kimi fəaliyyət göstərmiş, "Kaspi" qəzetinin red.-u və naşiri olmuşdur. Publisist məqalələrində islahatçılıq ideyaları yayır, L.N.Tolstoyun fəlsəfidini təliminə tərəfdar çıxırdı. T. 1903-04 illərdə H.Z.Tağıyevi tənqid edən M. Şahtaxtlının əleyhinə məqalələr yazır, onun "Şərqi-Rus" qəzetinin uğursuz aqibətindən sevindiyini bildirirdi; 1905 ildə Azərb. milli burjuaziyası və liberal zümrələrlə birlikdə çarizmdən güzəştlər qoparmağa çalışır, 17 oktyabr manifestini alqışlayırdı.

T. Azərb. və tatar burjuaziyasının həmin il Nijni Novqorodda keçirdikləri I Ümumrusiya müsəlmanları qurultayının sədri olmuş, "İttifaqi-müslimin"in 1906 ildə Peterburq qurultayında təsdiq edilmiş nizamnaməsini tərtib etmişdi. 1905 ildə Bakı qubernıyasından birinci Dövlət Dumasına vəkil seçilmişdir.

Jurnalist fəaliyyətində milli hərəkat, xalqların çarizmə qarşı mübarizəsi, mədəni intibah və tərəqqi ideyaları üstünlük təşkil edirdi. T. 1917-1920 illərdə Bakı Müsəlman Şurası Müvəqqəti İcraiyyə Komitəsinin sədri, Azərb. Milli Məclisinin sədri, Paris sülh konfransında Azərb. XC nümayəndə heyətinin başçısı idi. 1920 ildən sonra Polşa, Fransa və s. ölkələrdə mühacirətdə yaşamış, jurnalist fəaliyyətini davam etdirmişdir.

M. "Şərqi-Rus"un bağlanması ilə nəticələnən Topçubaşov və Ağayevin Şahtaxtlıya qarşı qələm müharibəsini H.Z.Tağıyevə sədaqət nümayiş etdirmək cəhdi kimi qiymətləndirmişdir. "Molla Nəsrəddin" jurnalında T. fəaliyyətində və görüşlərindəki liberalizm "Bakı şəhərində quberniyasından Dövlət Dumasına intixab olunan üzvlərin tərcümeyi-halları" məqaləsində və "Ruhanilər yığıncağı" və s. felyetonlarında tənqid olunmuşdur. M. "Əlimərdan bəyin tərcümeyi-halı"nda yazırdı: "Əlimərdan bəy Topçubaşov öz nöqteyi-nəzər siyasətini Tiflisdə keçən mayın 26-da qurulan ruhani məclisində izhar etdi. Belə ki, hər bir molla ağzını açmamış Əlimərdan bəy "bəli", "bəli" deyib heç bir kəsi özündən bir tük qədər də incitmədi" ("Molla Nəsrəddin" jurnalı, 1906, №10).

"TOY" – M.-nin son hekayələrindəndir; ilk baxışda periferik mövzuda qələmə alınsa da, yazıçının hekayəni məhz yaşadığı sovet dövrünün sərt havasını əks etdirmək niyyətilə yazdığını duymaq çətin deyildir. Hekayə təhkiyəçi qəhrəmanın dilindən söylənən belə bir acı həqiqətlə sona yetir: "Qəribə burasıdır ki, dustaq olmağımın səbəbini heç indiyədək bilmədim. Onunçün daxı bir yanda dustaqxana görəndə üç ağaclığından qaçıram". Hekayənin əvvəli də bu məsəllə başlayır: "Mənim adətimdir: bir yerdə dustaqxana adı gələndə gərək iki ağaclığından qaçam, yox olam". Əvvəl və sonun bu bədbin kontekstində ədibin söhbətinin məzmunu budur ki, xala oğlu Əbdülkərimi bacısının toyu münasibətilə dustaqxanadan bir günlüyə çıxarmağa söz verən Cahangir (təhkiyəçi-qəhrəman) başqasının yerinə, danışıqsız tutulub dama qatılır. Yazıçı habelə təfərrüatlarda da zamanın heç də xoş keçmədiyinə işarələr edir: "əli tüfəngli rus soldatlarının var-gəl etdiyi dustaqxana" ədibin diqqət cəlb etdiyi rəmzi detallardandır. M. həmişə olduğu kimi, burada da milli dilin məna zənginliyindən bacarıqla istifadə edir. Hekayə bütünlükdə "Sənə bir toy tutum ki..." ifadəsinin açımı, məna enerjisi üzərində qurulub. Ciddi planda aparılan təhkiyə, alt zəmində zamandan bixəbər təhkiyəçi-qəhrəmanın sadəlövhlüyünə yönəlmiş özünəkinayə məqamı ilə tamamlanır.

A.Tuqanov

TUQANOV Aleksandr Aleksandroviç (1871-1960) – aktyor, rejissor, teatr pedaqoqu. Azərb. xalq art. (1936). Teatr fəaliyyətinə 1888 ildə Moskvada həvəskar dəməklərdə başlamış, Rusiyanın bir sıra

iri teatrlarında işləmişdir. 1915 ildən Tiflisdə "Rusiya Teatr Cəmiyyəti Artistləri İttifaqı"na rəhbərlik etmiş, burada 1924 ildə M.-nin "Anamın kitabı" pyesini tamaşaya qoymuşdur. 1924 ildən Bakıda yaşamışdır. 1924-1937 illərdə ADT-nda, 1937-1954 illərdə Azərb. Gənc Tamaşaçılar Teatrında fəaliyyət göstərmiş, hər iki teatrda zəngin repertuar seçmək, milli aktyor, rej. kadrları yetişdirmək sahəsində səmərəli iş aparmışdır. 1926 ildə ADT-nda M.-nin "Ölülər" pyesinə quruluş vermişdir. 1945 ildən Azərb. Dövlət İncəsənət İn-tunda pedaqoji fəaliyyət (1947 ildən prof.) göstərmişdir.

TUKAY Qabdulla (tam adı və soyadı Qabdulla Məhəmmədqarifoviç Tukayev) (1886-1913) – tatar şairi, publisist, tərcüməçi, tatar ədəbiyyatında tənqidi realizmin banisi. Mədrəsədə oxumuş, rus dili və ədəbiyyatını mükəmməl öyrənmiş, mürəttib işləmişdir. "Fikir" qəzetində, "Əl-əsr əl-cədid" ("Yeni əsr") jurnalında əməkdaşlıq etmiş, 1907 ildə Kazana gəlib, demokrat yazıçılarla yaxınlaşmış, Q.Kamalla birgə satirik "Yaşen" ("İldırım") jurnalını buraxmışdır. O, "Yalt-yılt" ("Şəfəq") jurnalında da işləmişdir. Yaradıcılığa 16 yaşından başlayan T. "Azadlıq haqqında", "Tüfeylilərə", "Dövlət Duması", "Millətçilər", "Getmərik" kimi lirik və satirik əsərlər müəllifidir. Bu əsərlərdə əməkçi xalqın vəziyyəti, "sarı şeytan"ın (pulun) pozucu təsiri, millət balalarının ehtiyacları, azyaşlı qızların zorla ərə verilməsi, məktəb, dərslik dərdləri kimi mövzular böyük yer tutur. Şairin ədəbi-tənqidi əsərləri, uşaqlar üçün şeirləri, dünya klassiklərindən tərcümələri vardır. Onun yaradıcılığına "Molla Nəsrəddin" jurnalının, M. və Sabirin güclü təsiri olmuşdur. Sabirdən tərcüməsi, iqtibası məlumdur. "Molla Nəsrəddin" jurnalı T.-ın vaxtsız ölümünü dərin kədərlə oxucularına bildirmiş, onun portretini nəşr etmişdir.

TURABOV Həsənağa Səttar oğlu (1938-2003) – aktyor. Azərb. xalq art. (1982). Prof. (1999). Azərb. Dövlət mükafatı laureatı (1971, 1986). ADT-nın direktoru (1987-2003) və bədii rəhbəri (1989-2003). Azərb. Teatr Xadimləri İttifaqının prezidenti (1991 ildən) olmuşdur. Azərb. Dövlət İnc. İn-tunu bitirmişdir (1960). Həmin ildən ADT-da işləmişdir. T. milli və dünya dramaturqlarının əsərlərinin tamaşalarında dolğun obrazlar yaratmışdır. M.-nin "Ölülər" əsərində İsgəndər rolunu böyük müvəffəqiyyətlə ifa etmişdir. Kinofilmlərə çəkilmişdir. 1987 ildə "Azərbaycanfilm" kinostudiyasında istehsal olunmuş iki seriyalı "Qəm pəncərəsi" bədii filmində Mirzə Cəlilin obrazını ekranda canlandırmışdır.



H.Turabov

"TUTİ" – həftəlik satirik, şəkilli jurnal. "Molla Nəsrəddin"in təsiri altında Bakıda, Azərb. dilində çıxmışdır. İlk nömrəsi 1914 il dekabrın 27-də, sonuncusu 1917 il iyunun 29-da (cəmi 112 nömrə) buraxılmışdır. Red. C.Bünyadzadə, naşiri və sahibi-imtiyazı Tağı Nağıyev idi. "T."-də ictimai-siyasi mövzularda, maarif, ədəbiyyat, incəsənət məsələlərinə dair, əsasən, xırda islahatçılıq, bəzən demokratik ruhda yazılar dərc olunurdu. "T."-də mütləqiyyət üsuli-idarəsinə, müstəmləkə siyasətinə qarşı kəskin çıxışlar da vardır. Senzuranın təzyiqi bəzən səhifələrin ağ qalmasına səbəb olurdu. M. bu jurnalda "Dəmdəməki", "Molla Həsrətalı", "Dərdmənd", "Fəhlə", "Hərdəmxəyal" imzaları ilə yazılar dərc etdirirdi. Jurnalda M.S.Ordubadi, S.Hüseyn, Ə.Şəmçizadə, Ə.Nəzmi, S.Mənsur, Y.V.Çəmənzəminli, C.Cabbarlı və b. iştirak etmişlər.

Q.Tukay

"UCUZLUQ" – M.-nin hekayəsi 1928 ildə yazılmışdır. Əsərdə müəllif Naxçıvandan Bakıya – texnikuma qəbul olunmaq üçün gəlmiş yetim bir uşaq haqqında xahişə diqqətsizlik göstərən direktorun yersiz hərəkətlərini ön plana çəksə də, əslində, onun başlıca tənqid hədəfi humanist hisslərdən uzaq olan direktorun insan taleyinə biganəliyidir. Ədib yüksək orqanların (Təhsil Nazirliyinin, rayon rəhbərlərinin) adını çəkməsə də, əsərin ümumi ruhundan hiss olunur ki, texnikumda hökm sürən səhv baxışlar (sürüdürməçilik, hərc-mərclik, ziyalı səviyyəsizliyi və s.) yuxarı dairələrlə bağlıdır. Bununla da, yazıçı kiçik bir epizodla böyük ictimai bəlaya qarşı çıxaraq, uşaqlara (o cümlədən yetimlərə) qayğı göstərməyin dövlət əhəmiyyətli bir iş olduğunu vurğulamışdır. O, müdrik müəllim kimi, həmvətənlərinin diqqətini belə bir həqiqətə yönəltmişdir ki, məktəblərə rəhbərlik başsız başçılara tapşırılanda təhsil, təlim və tərbiyə işinin yaxşı nəticələr verəcəyinə inam az, şübhə çox olar. Halbuki kadrlar düzgün seçilib yerləşdirilərsə və təhsilə nəzarət əməli işə çevrilərsə, Vətənin gələcəyi üçün bunun daha çox faydası olar.

ULUXANLI – İrəvan şəhərindən cənub-şərqdə kənd. Yaşayış məntəqəsindən 3 km aralı cənub-qərbdə Uluxanlı stansiyası var idi. Hazırda Ermənistan Resp.-nın Masis r-nundadır.

U.-da 1940 ilədək beş məscid: Qarağaclı, Yetim, Torlu, Bazar və Ağazamanlı var idi. 1988 ilədək onlardan dördü dağıdılmış, yalnız Bazar məscidi salamat qalmışdı.

1870 ildə U.-da ibtidai məktəb açılmış. 1888-1889 illərdə M.-nin dostu Məmməd bəy Qazıyev onun nəzarətçisi olmuşdu. 1887 ildə M. Qori müəllimlər seminariyasını qurtarıb U. məktəbinə təyinat almış və sentyabrın 8-dən dekabrın 25-dək orada işləmişdir.

"USTA ZEYNAL" – M.-nin hekayəsi. 1905 ildə yazılmış bu əsərdə kiçik insanın faciəsi təsvir edilmişdir. Usta Zeynalın faciəsi onun ifrat dindarlığı və bunun doğurduğu ətalətidir. Doğrudur, biz onun hərəkətlərinə, danışıq və davranış tərzinə gülürük. Bununla belə daxilimizdə onun halına acıyır və əzab çəkirik. Usta Zeynal kimdir? Sadə bir əmək adamıdır. Lakin ictimai mühit, dini ehkamlar onun daxili müvazinətini, mənəviyyatını pozaraq, insani keyfiyyətlərini eybəcər şəklə salmışdır. Ətalət və dini təəssübkeşlik onun damarlarına hopmuşdur. Buna görə iş zamanı ləngliyini ya heç duymur, ya da bu ləngliyi özü üçün bir zərurət kimi qəbul edir. İş zamanı laf vurmağa, gəvəzəliyə elə alışmışdır ki, onsuz keçinə bilmir, ondan ləzzət alır. O, zəhmətdən qorxmur, ancaq görəcəyi işin özündən deyil, kənardan hər hansı bir qüvvənin köməkliyi ilə tutaq ki, Allahın qövlü ilə başa gələcəyinə fanatikcəsinə etiqad bəsləyir. O öz gücünə olan inamını birinci növbədə təvəkküllə bağlayır. Kənar, gözəgörünməz bir qüvvənin onun köməyinə çatacağına inanır. M. böyük və dərin müşahidəçiliyi ilə bu ətalət fəlsəfəsini Usta Zeynal surətində bütün parlaqlığı ilə ifadə edə bilmişdir.

UTURQAURİ GEORGİ (?-?) – müəllim. Milliyyətcə gürcüdür. 1875 ildə Tiflisdə Aleksandrovski Müəllimlər İn-tunu bitirmiş, Mozdok ş.-ndə dərs demişdir. Mükəmməl biliyə, qabaqcıl demokratik görüşlərə malik U. 1881-1884 illərdə Naxçıvana göndərilmiş, şəhər məktəbində M.-yə coğrafiyadan dərs demişdir. Bu dövrdə o, Ə.Xəlilovun tərtib etdiyi "Naxçıvan şəhərinin meteoroloji müşahidə gündəliyi"nin hazırlanmasında yaxından iştirak etmiş, 1882 ildə "Səyinə görə" medalı və yüz manat miqdarında pulla mükafatlandırılmışdır.

Ü

"ÜLFƏT" – 1905 ildə Peterburqda nəşr olunmuş qəzet. Naşiri və red. tatar jurnalisti və ictimai xadimi Əbdürrəşid İbrahimov idi. İstanbulda təhsil almış, bir sıra Şərq ölkələrinə səyahət etmiş Ə.İbrahimov səfərləri barədə "Ü."də və müxbiri olduğu digər qəzetlərdə çoxlu yazılar çap etdirmişdi. Öz yazılarında o, bütün müsəlmanları, o cümlədən türk soyundan olan millətləri inqilabi hərəkatdan istifadə edərək "ittihadi-islam" bayrağı altında birləşməyə çağırırdı. Bir tərəfdən dini xürafatı, digər tərəfdən isə türk birliyini təbliğ edən "Ü." qəzeti və onun red. "Molla Nəsrəddin" jurnalında M.-nin "Hacı İbrahimov", "Qəzetlərdən", "Bəzi işlər", "Helmi paşa", "Biz" və b. felyetonlarında, digər mətbu yazılarında dəfələrlə kəskin tənqid olunmuşdur.

ÜLVİ Rəcəb Şaşıq oğlu (1903-1938) – aktyor. Azərb. əməkdar art. (1933). Milliyyətcə acardır. Batumda həvəskar tamaşalarda oynamış, 1920-1922 illərdə Batum teatrında, 1922-1924 illərdə Tiflis Azərb. Teatrında fəaliyyət göstərmişdir. 1924 ildə ADT-na dəvət olunmuşdur. Burada M.-nin "Anamın kitabı" pyesində Səməd Vahid rolunu müvəffəqiyyətlə ifa etmişdir. Sonralar Ü.R. həmin teatrın səhnəsində bir-birindən fərqli, dolğun obrazlar qalereyası yaratmış, V.Şekspir, F.Şiller, H.Cavid və C.Cabbarlı qəhrəmanlarının ən yaxşı ifaçılarından sayılmışdır. Ü.R.-in yaratdığı İsgəndər ("Ölülər") surəti də onun yaradıcılığında mühüm yer tutmuşdur.

ÜNSİZADƏ Kamal Əbdülrəhman oğlu (1857-?) – naşir, maarifçi. "Kəşkül" qəzetində əməkdaşlıq etmiş, onun mətbəəsində işləmişdir. Qəzet bağlandıqdan sonra, "Azərbaycan" (1891) (qardaşı Cəlal Ünsizadənin redaktorluğu ilə), Azərb. və rus dillərində "Uçan yarpaq" – "Летучий листок" (1896) (Q.Klimovski ilə), "Damış" (1896), "Yerli elanlar" (1900) qəzetlərinin nəşrinə təşəbbüs göstərmiş, lakin icazə ala bilməmişdir. 1908 ildə "Məzhər" qəzetinin nəşrinə icazə almış, 1917 ilədək cəmi 30 nömrəsini buraxa bilmişdir. M. "Məzhər"ə və onun naşiri-redaktoru Ü.-yə tənqidi münasibət bəsləmiş, ruhanilərə, yüksək rütbəli məmurlara tərifl ər yazmasını, mədhiyyələr həsr etməsini pisləmişdir.

Ü.Rəcəb

V

B.Vahabzadə

VAHABZADƏ Bəxtiyar Mahmud oğlu (d. 1925) – şair, dramaturq, publisist, ədəbiyyatşünas. Azərb. xalq şairi (1984), əməkdar inc. xad. (1974). Filol. e.d. (1964), prof. (1965), Azərb. MEA həqiqi üzvü (2001). SSRİ (1984) və Azərb. (1976) Dövlət mükafatları laureatı. Lirik şeirlərin, ailə-məişət, mənəvi-əxlaq, ictimai-siyasi mövzularda poemaların, "Vicdan" (1954), "İkinci səs" (1969), "Yağışdan sonra" (1971), "Dar ağacı" (1978), "Hara gedir bu dünya" (1991), "Göytürklər" (1997) və s. pyeslərin, bir sıra publisistik, ədəbi-tənqidi məqalə və əsərlərin müəllifidir. V. Nizami, Füzuli, Nəsimi, M.Hadi, M.Ə.Sabir, S.Vurğun və digər sənət korifeyləri kimi M.-ni də eyni dərəcədə sevmişdir. "Böyük vətənpərvər, böyük vətəndaş Cəlil Məmmədquluzadənin xatirəsinə" xüsusi "Anamın kitabı" adlı şeir yazmış (1967), Mirzə Cəlil yaradıcılığına iri həcmli "Əsrimiz, kökümüz" sərlövhəli tədqiqat məqaləsi həsr etmişdir. M.-nin "Anamın kitabı" pyesinin davamı olaraq "Atamın kitabı" (1999) pyesini yazmışdır. V.-nin elmi tədqiqatlarında M.-yə istinadlar çoxdur.

Ə.Vahid

VAHİD Əlağa (Əlağa Məmmədqulu oğlu İsgəndərovun təxəllüsü) (1884-1965) – şair, tərcüməçi. Azərb. əməkdar inc. xad. (1943). Mədrəsədə oxumuş, fəhləlik etmişdir. 1914-1915 illərdən M.Ə.Sabir, Azər Buzovnalı və b. ustadların, "Molla Nəsrəddin" jurnalının təsiri ilə şeirlər yazmağa başlamışdır. Birinci mətbuat əsəri 1914 ildə "İqbal" qəzetində dərc olunmuşdur. 1916 ildə Bakıda "Tamahkarlığın aqibəti" adlı ilk satirik şeirlər kitabı çapdan çıxır. Getdikcə ədəbi fəaliyyəti genişlənən V. "Məzəli", "Babayi-Əmir", "Molla Nəsrəddin" kimi satirik jurnallarda, "Kommunist" qəzetində, "Damğa" məcmuəsində felyeton və şeirlər nəşr etdirir. "Kupletlər" (1924) kitabı da satiralardan ibarətdir. Bu zamandan V.-in yaradıcılığında qəzəl janrına maraq güclənir. 1943 ildə şair Böyük Vətən müharibəsi cəbhəsinə gedir, tərxis olunduqdan sonra Dövlət Filarmoniyasında işləyir. V. həm əruz, həm də heca vəznində əsərlər yazırdı. Qulam Məmmədli "Molla Nəsrəddin" salnaməsində (B., 1984) V.-in "Molla Nəsrəddin"də dərc olunmuş bir sıra əsərlərini və imzalarını nişan vermişdir.

"VAKIT" – 1906-1918 illərdə Orenburqda tatar dilində çıxan qəzet. Azərb. ictimai həyatı, mətbuatı və ədəbiyyatına dair yazılar, xəbərlər nəşr etmişdir. Bu mövzular arasında "Molla Nəsrəddin" jurnalı, M.-nin həyat və fəaliyyəti xüsusi yer tuturdu. 1916 il iyunun 17-də "Molla Nəsrəddin" müdirlərinin Orenburqa gəldiklərini xəbər verərək yazırdı: "Bu möhtərəm müsafirlər Mirzə Cəlil Məmmədquluzadə cənablarının "Ölülər" adlı məşhur pyesini oynamaq üçün Aşqabad və Daşkənd şəhərlərinə xüsusi olaraq dəvət edilmişdilər. Daşkənddə Türküstan şivəsinə (özbəkcəyə – *red.*) tərcümə edilib, yerli həvəskarlar vasitəsilə səhnəyə qoyulub böyük müvəffəqiyyətlə alqışlanmış, [...] ikinci dəfə oynanmışdır. [...] Pyesin mühərriri Mirzə Cəlil Məmmədquluzadə cənabları Tiflisə qayıdan kimi "Ölülər"in əsl nüsxəsinin surətini çıxardıb bizə göndərməyi vəd etmişdir. [...] Fövqəladə marağımızı cəlb etmiş bu pyesin bir vaxt tatar dilinə tərcümə edilib, Orenburq səhnəsində oynanılacağı ümidindəyik". 1917 il yanvarın 10-da dərc olunmuş məqalədə M.-nin "Ölülər" pyesi Qoqolun məşhur "Müfəttişi"inə bərabər tutulurdu.

"V." 1917 il fevralın 19-da sevinclə xəbər verirdi ki, "çoxdan bəri (1915-

1916-cı illərdə – *red.*) dayandırılmış çox sevimli "Molla Nəsrəddin" jurnalı Tiflisdə yenidən nəşrə başlamışdır. Birinci nömrə idarəmizə gəldi. Baş mühərriri yenə də Cəlil Məmmədquluzadədir".

VAQİF Molla Pənah (1717-1797) – şair, dövlət xadimi. Mədrəsədə təhsil almış, fars və ərəb dillərini öyrənmişdir. XVIII əsrin ortalarında Qarabağa köçmüş, Şuşada məktəbdarlıq etmişdir. 1769 ildə Qarabağ hakimi İbrahim xanın sarayına dəvət edilərək burada eşikağası, sonra baş vəzir olmuşdur. 1797 ildə Ağa Məhəmməd şah Qacar Şuşanı tutarkən V.-i ölümə məhkum etmiş, lakin şah sui-qəsd nəticəsində öldürüldükdən sonra azad olunmuşdur. Həmin il Qarabağı ələ keçirmiş Məhəmməd bəy Cavanşir tərəfindən oğlu ilə birlikdə qətl edilmişdir.

V.-in yaradıcılığı Azərb. poeziyası tarixində mühüm mərhələlərdəndir. O, qoşma, gəraylı, qəzəl, müxəmməs, müstəzad və s. formalarda əsərlər yazmışdır. Azərb. ədəbi dilinin inkişafında V.-in xidməti böyükdür. V. şeirindəki realizm ünsürləri Azərb. poeziyasının inkişafına güclü təsir göstərmişdir.

V.-in ədəbi irsinə yaxından bələd olan M. öz yaradıcılığında şairin əsərlərindən və onunla əlaqədar rəvayətlərdən istifadə etmişdir. M. "Ölülər" komediyasında İsgəndərin Nazlı ilə söhbətində V.-in "Sən qönçə kimi hər bir edən dəmdə yaşınmaq" misrası ilə başlanan müstəzadından istifadə etmişdir (Əsərləri, 6 cilddə, III c., s. 22). "Molla Nəsrəddin" jurnalında "baş yarmaq və şəbiyə gətirməyin" icadına həsr olunmuş "Protesto" felyetonunda V. haqqında aşağıdakı rəvayət verilmişdir. "Qarabağ camaatı" adından yazılırdı: "Hər halda bu gözəl üsulun mövcudu məhz bizik. İcadımızın əhvalatı bu növdür:

Bundan yüz il əvvəl Qarabağ xanı İbrahim xan bir neçə təqsirlinin boyunlarını vurmağı əmr edər. Müqəssirlərin tərəfdarları əhvalatdan xəbərdar olub, xanın vəziri olan Molla Pənahın yanına təvəqqe və məsləhətə gedərlər. Vəzir onlara məsləhət edər ki, müqəssirlər ağ köynək geyib başlarına xəncər vura-vura, fəryad edə-edə xan sarayının qabağından keçib siyasət meydanına getsinlər. Müqəssirlər də həmin sayaq üzrə əməl edib, xanın nəzərinə çatınca xanın xoşuna gəlib müqəssirləri bağışlar.

Xanın xoşuna gələn bu əhvalat o gündən sonra hər il təkrar olunub getdikcə tərəqqi tapır" ("Molla Nəsrəddin" jurnalı, 1910, №4.).

VƏLİBƏYOV Səfərəli bəy Həsən bəy oğlu (1861-1902) – maarif xadimi, pedaqoq, alim-metodist, yazıçı-publisist, tərcüməçi. Şuşa şəhər məktəbini, Qori müəllimlər seminariyasını bitirmiş (1881), seminariya nəzdində Azərb. ibtidai məktəbində müəllim (1881-1896), Bakı realnı məktəbində sinif mürəbbilərinin köməkçisi (1896-1898), Bakı karantin-gömrük dairəsində tərcüməçi işləmişdir. XIX əsrin sonunda Azərb. maarif və ədəbi hərəkatının görkəmli simalarından biri kimi geniş fəaliyyət göstərmiş, Şuşada ilk üsuli-cədid məktəbi açmış, "Vətən dili" (II hissə, A.O.Çernyayevski ilə, 1888), "Üsuli-cədidi-lisani – farsi" (1896) dərsliklərini yazmışdır. Bir sıra tərcümələr etmiş, "Кавказ", "Новое обозрение", "Ziya" ("Ziyayi-Qafqaziyyə"), "Kəşkül", "Tərcüman" qəzetlərində Azərb. həyatının aktual problemləri, maarif, ədəbiyyat, ana dili, teatr, əlifba və s. məsələlərə dair məqalələrlə çıxış etmişdir.

V. Qori seminariyasında M.-nin müəllimi olmuş, 1886-1887 dərs ilində onun pedaqoji təcrübə dərslərinə rəhbərlik etmişdir. Mirzə Cəlil V.-un nəzarəti altında 60 saat həcmində 87 dərs demişdir. V.-un A.O.Çernyayevski ilə yazdığı "Vətən dili" dərsliyi M.-nin pedaqoji fəaliyyətində istifadə etdiyi və bəyəndiyi vəsait olmuşdur.

M.P.Vaqif

VƏLİYEV Əli Qara oğlu (1901-1983) – yazıçı, jurnalist, ictimai xadim, Azərb. xalq yazıçısı (1974), M.F.Axundov ad. Resp. mükafatı laureatı (1954), 1931 ildə Azərb. Ped. İn-tunu bitirib, rayonlarda məsul vəzifələrdə çalışmış, "Kommunist" qəzeti (1941-1949) və "Azərbaycan" jurnalının (1954-1959) red., Azərb. Yazıçılar İttifaqının məsul katibi (1937-1941; 1949-1951) olmuşdur. İlk ədəbi yazısı 1924 ildə, ilk hekayələr kitabı 1930 ildə çap edilmişdir. V.-in əsərlərində yeni həyat uğrunda mübarizə, Böyük Vətən müharibəsi cəbhələrində Azərb. döyüşçülərinin fədakarlığı, zəhmətkeşlərin rəşadətli əməyi, müharibədən sonrakı kənd həyatı, ədalətin ədalətsizlik üzərində qələbəsi təsvir olunur ("Sovqat", "Cəbhə hekayələri", "Gülşən", "Çiçəkli", "Ürək dostları", "Jurnalist kəndə gəlir", "Turaclıya ge-

Ə.Vəliyev

dən yol", "Budağın xatirələri", "Narahat adamı", "Sənət eşqi", "İşığa doğru", "Qarabağda qalan izlər"). V. həm də görkəmli jurnalist və publisist idi. Uşaqlar üçün də əsərlər yazmışdır ("Ərköyün", "Uşaqlara sovqat", "Əziz nəvələrimə", "Madarın dastanı" və s.). Üslubunda sadəlik, təbiilik var. Bəzi əsərləri başqa dillərdə də çap edilmişdir. Ədəbiyyat və mətbuata, xüsusilə, "Molla Nəsrəddin" jurnalı və M.-yə dair tənqidində ciddi yanıldığı vaxt da olmuşdu. V. "Molla Nəsrəddin"in müsbət cəhətlərinə, tarixi xidmətlərinə göz yumur, kəsirlərini şişirdir, M. haqqında ədalətsiz hökmlər verirdi.

VƏLİYEV Şamil Qiyas oğlu (1960) – ədəbiyyatşünas, publisist. Filol. e.d. (2002). APİ-ni bitirmişdir. "XX əsr Azərbaycan ədəbi tənqidində poeziya problemləri" (1985) mövzusuna namizədlik dissertasiyası müdafiə etmişdir. V.-in Azərb. televiziyasında aparıcısı olduğu "Qaynaqlar" verilişində M. və "Molla Nəsrəddin" əsas mövzularındandır. V.-in "Füyuzat" ədəbi məktəbi" (1999) monoqrafiyasında "Molla Nəsrəddin" və "Füyuzat"ın ədəbi mövqeyi, ideya istiqaməti, baş red.-larının münasibəti, M. bədii irsinin təhlili və s. məsələlərə geniş yer ayrılmışdır.

S.Vitte

"VƏTƏN UĞRUNDA" – "Azərbaycan" jurnalının 1941 (№6-8) – 1946 (№1-4) illərdəki adı.

H.Vəzirov

VƏZİROV Haşım bəy Mirabdulla oğlu (1868-1916) – pedaqoq, dramaturq, tərcüməçi, jurnalist, naşir. İrəvan müəllimlər seminariyasını bitirmiş (1889), on altı il pedaqoji fəaliyyət göstərmişdir. 1905 ildən milli mətbuat sahəsində çalışmış, "Təzə həyat", "İttifaq", "Səda", "Кавказец", "Sədayi-vətən", "Sədayi-həqq", "Sədayi-Qafqaz" qəzetlərinin və "Məzəli" jurnalının red. olmuşdur. Qurucusu olduğu "Səda" mətbəəsində Azərb. və dünya ədəbiyyatı nümunələrindən ibarət 60-a yaxın əsər çap etmişdir. V. "Təzə həyat" qəzetinin ilk nömrələrindən birində "Molla Nəsrəddin" jurnalının "millətin gözünü açdığını" etiraf etsə də, az sonra jurnala və onun red.-una münasibəti kökündən dəyişilmiş, redaktə etdiyi mətbuat orqanlarında "Molla Nəsrəddin" əleyhinə arasıkəsilməz kampaniya aparmışdır. V.-un bu "mübarizəsi" xüsusən "Təzə həyat" və "Səda" qəzetlərində daha geniş yer tutmuşdu. Dinə münasibət, qadın azadlığı, İran və Türkiyəyə baxış və bir sıra digər məsələlərdə V. Mirzə Cəlilə və "Molla Nəsrəddin" ədəbi məktəbinə tamamilə əks mövqedə dayanır, əksər qaragüruhçu qüvvələri, fanatik din xadimlərini, cahil bəyləri – ümumiyyətlə, "Molla Nəsrəddin"dən narazı olanların böyük bir qismini öz "mübarizəsinə" cəlb edirdi. Dövrün qabaqcıl, açıq fikirli ziyalılarından Ü.Hacıbəyov, A.Minasazov, R.Məlikov və b. mətbuatda çıxış edərək V.-un hərəkətlərini pisləmişdilər. Şuşadan, Qubadan və b. yerlərdən göndərilən kollektiv məktublarda da onun "Molla Nəsrəddin"ə haqsız hücumları pislənilirdi. Bir neçə il davam edən bu mətbuat mübarizəsində M. daha loyal və ləyaqətli mövqe tutmuş, jurnal əməkdaşlarını da belə mövqedə dayanmağa çağırmışdı.

Volter

VİTTE Sergey Yulyeviç (1849-1915) – rus dövlət xadimi. 1892-1903 illərdə maliyyə naziri olmuşdur. Onun təşəbbüsü ilə Rusiyada spirtli içkilərin istehsalı və ticarət dövlət inhisarına alınmış (1894), pul islahatı keçirilmişdir (1897). 1903 ildə istefaya çıxarılıb, Nazirlər komitəsinin sədri təyin edildi. 1905 ilin oktyabr siyasi tətili zamanı burjuaziyaya güzəştlər olunmasını təklif edirdi. 1906 ildə V. nazir vəzifəsindən istefa verərək, ömrünün sonunadək Maliyyə komitəsinin sədri olmuşdur.

VOLTER (Mari Fransua Aruenin təxəllüsü) (1694-1778) – fransız yazıçısı, filosof, tarixçi. Fransa Akad. üzvü (1746). V. şeir, poema, novella, povest və dram əsərləri yazmışdır. Maarifçilik ideyalarını yaymaq üçün V. dramaturgiyadan, xüsusilə, faciədən geniş istifadə etmişdir. Bunlarda istibdad, dini fanatizm ifşa olunur. "Brut" (1731), "Zaira" (1748), "Sezarın ölümü" (1736), "Fanatizm, yaxud Məhəmməd peyğəmbər" (1742) kimi səhnə əsərləri var. Humanizm ənənələrini davam edən V. irqi ayrı-seçkilik, müstəmləkəçilik və müharibə əleyhinə çıxmış, mütərəqqi, Avropa ictimai fikrinin görkəmli nümayəndələrindən olmuşdur.

M. "Mirzə Fətəli Axundov dinlər haqqında" məqaləsində V.-dən danışmış, "Zeynəb" adlı felyetonunda isə ("Molla Nəsrəddin", 1928, №18) onun "Zaira" dramından bəhs etmişdir.

VORONTSOV-DAŞKOV İllarion İvanoviç (1837-1916) – Rusiya dövlət xadimi, qraf, general-leytenant. Çar III Aleksandrın dostu. Rusiyada inqilabi hərəkatın qarşısını almaq üçün yaradılmış "Müqəddəs drujina"nın təşkilatçılarından idi. 1905-1915 illərdə Qafqaz canişini olmuşdur. "Molla Nəsrəddin" jurnalının ardıcıl, fəal çap edildiyi dövrdə Tiflis və İrəvan general-qubernatorlarının təqdimatı əsasında jurnalın nəşri bir neçə dəfə dayandırılmış, M. və Ömər Faiq təqib edilmişdilər. 1905 ildə, Qafqaza gəlişinin ilk günlərində Azərb. ictimai xadimlərindən və ziyalılarından ibarət nümayəndə heyətini qəbul edən V.-D. milli sülh və ictimai tərəqqi yolunda çalışacağını vəd etsə də, bu vədini yerinə yetirməmişdi. "Molla Nəsrəddin" jurnalı ayrı-ayrı nömrələrində Qafqaz canişininin yürütdüyü antiazərbaycan siyasətini "Qoloşapova məktub", "Qoloşapovun geri çağrılması" və s. məqalələrdə üstüörtülü ifşa etmişdir. M.-nin "Xatiratım" əsərində "Həyat" qəzetinin nəşrinə icazə verilməsi münasibəti ilə V.-D.-un adı çəkilir.

İ.Vorontsov-Daşkov

"VOZROJDENİYE" – 1905-1906 illərdə Tiflisdə nəşr olunmuş qəzet. "Sakartvelo" ("Gürcüstan") adlı gürcü federalist-sosialist inqilabçılar partiyasının mətbu orqanı idi. Tanınmış gürcü ziyalısı P.A.Qotuanın red.-luğu ilə rus dilində çıxırdı. M. qəzetin müsəlman şöbəsinə rəhbərlik edirdi. Onun ictimai-siyasi və maarif məsələlərinə dair bir sıra məqalələri qəzetdə dərc olunurdu. Qəzetdə rus çarizminin milli siyasəti tənqid olunur, burjua inqilabının demokratik inqilaba qədər yüksələcəyi söylənilirdi. Buna görə də polis tərəfindən ciddi təqib olunan qəzet 1905 ilin dekabrından qeyri-leqal şəraitə keçməyə məcbur olmuş və 1906 ildə çıxmış 6 nömrəsi gizli şəraitdə çap edilmişdi. Qəzet P.A.Qotua həbs edildikdən sonra dərhal bağlanıldı.



– Qardaş, biletin pulunu ver.
– Budur, al biletin pulunu...

"Molla Nəsrəddin" jurnalında çap edilmiş rəsmlərdən biri. Rəssam: O.İ.Şlinq

"YAN TÜTƏYİ" – M.-nin hekayəsi. Mahiyyətcə psixoloji biçimdədir. Birinci şəxsin dilindən, çox səmimi üslubda qurulan süjet Mirzə Abbas Fərzəliyevin gah məzəli, gah dərdli-dərdli nağıl etdiyi həyat hadisələrindən ibarətdir: kazak qoşunlarının yaylağa getmələri ilə əlaqədar, İrəvan naçalnik divanxanasının məmuru Mirzə Abbas rəisin göstərişi ilə kənd yüzbaşılarına kağız yazmalıdır ki, Cəfərabad məhəllələsindəki kazak qoşununun böyük zabiti Afanasyevin hüzuruna 54 araba göndərsinlər. O günlər yan tütəyində çalmağı öyrənməyə çalışan Mirzə Abbas evdə də, işdə də bu haqda fikirləşdiyindən, kənd yüzbaşılarına məktub göndərərkən "araba" əvəzinə "fleyta" (yan tütəyi) yazır. Yüzbaşılar yan tütəyinin əsgəri musiqi dəstəsinə lazım olduğunu zənn edərək, çalışıb, ancaq dörd tütək tapa bilirlər. Bu səhv necə əmələ gəlmişdi? Hekayənin ikinci hissəsində "sirr" açılır: iki ay əvvəl kəndə, anasını görməyə gedən Mirzə Abbasa əmoğlusu Pirverdi bir yan tütəyi bağışlamışdı. Amma Mirzə Abbasın bütün cidd-cəhdinə baxmayaraq tütək çalınmırdı ki, çalınmırdı. Bir gün səhər ehtiyat üçün tütəyi götürüb damağına dayayır. "Aha! Qurban olduğum tütək çalındı". Mirzə Abbasın sevinci yerə-göyə sığmır. İş vaxtı o yenə tütək, onu çalmaq barədə fikirləşir, "Araba nədir, zad nədir? O gün mənim beynimə belə-belə sözlər çox çətin girə bilərdi. [...] Gör o günü məndə olan yan tütəyinin eşqi nə qədər qəliz imiş ki, naçalnikin hökmündə "araba" əvəzinə "yan tütəyi" yazmışam".

M. hekayənin kompozisiyasını ustalıqla, maraqlı bir tərzdə qurmuşdur. "Sirr"in açılışı əsərin əvvəlində, ekspozisiya – hadisələrin başlanğıcı axırda verilir. Bununla bərabər, hekayənin mətləbi asanlıqla qavranılır.

YENİ ƏLİFBA KOMİTƏSİ (1922-1927) – Azərbaycan XKS qərarı ilə ərəb əlifbasından latın qrafikasına keçidi təşkil və təmin etmək üçün yaradılmışdı. Sədri Azərb. MİK sədri S.Ağamalıoğlu idi. M. komitə ilə möhkəm əlaqə saxlayırdı. 1924 ilin avqustunda o, komitənin üzvləri sırasına daxil edildi. 1922 ilin oktyabrından etibarən komitənin qismən ərəb, əsasən isə latın hürufatı ilə çap edilən orqanı "Yeni yol" qəzetinin baş red. M. idi. Onun qəzetdə açıq imza və təxəllüslərlə onlarla məqaləsi getmişdir. Onların içərisində YƏK-nin fəaliyyəti ilə bağlı "Komitə işləri barəsində" ("Yeni yol", 1922, 28 oktyabr) adlı məqalə də vardı. Dövrün qabaqcıl ziyalıları əlifba islahı məsələsində M.-nin ardıcıl mövqeyini yüksək qiymətləndirirdilər. 1923 ilin mayında YƏK və Bakı Maarif Şöbəsi Darülmüəlliminin türk tələbələri üçün xüsusi "Molla Nəsrəddin" gecəsi keçirmişdi. 1924 ilin sentyabr-noyabr aylarında komitənin S.Ağamalıoğlu (sədr), C.Məmmədquluzadə, V.Xuluflu, X.Səiddən ibarət nümayəndə heyəti Simferopol, Orenburq, Daşkənd, Ufa, Kazan şəhərlərində ezamiyyətdə olmuş, dövlət xadimləri, ziyalılar, ictimaiyyətin nümayəndələri ilə görüşlərdə yeni əlifbaya keçidin türk xalqlarının mədəni inkişafı və ictimai tərəqqisi üçün zəruriliyi fikrini təbliğ etmişdilər. Səfərlə bağlı təəssüratlarını qələmə almış X.Səid türk xalqları ziyalılarının M.-ni yaxşı tanıdıqlarını və ona böyük ehtiramla yanaşdıqlarını göstərir. Həmin dövrün "İzvestiya", "Türküstan", "Qızıl Tatarıstan", "Vlast truda", "Kommunist", "Yeni yol" və b. mətbuat orqanları bu səfərə mühüm əhəmiyyət vermiş, onun gedişini və nəticələrini geniş işıqlandırmışdılar.

"YENİ FİKİR" – Tiflisdə Azərb. dilində çap olunan həftəlik qəzet. İlk nömrəsi 1922 ilin yanvarında, son nömrəsi 1927 ilin mayında (cəmi 1397 nömrə) çıxmışdır. 1923 ilin yanvarından Zaqafqaziya MİK və XKŞ-nın orqanı kimi gündəlik nəşr edilirdi. Müxtəlif vaxtlarda Həsən Səbri, Böyükağa Talıblı, Dağlı Rəsulzadə, Mirzə Davud Hüseynov, Rzaqulu Nəcəfov qəzetin baş red. olmuşlar. "Y.f."-də M.-nin yaradıcılığına, onun Tiflis teatrının səhnəsində tamaşaya qoyulmuş əsərlərinə, fəaliyyətinin Tiflis dövrünə dair məqalə və resenziyalar nəşr edilirdi. Qəzet öz nəşrini Bakıda davam etdirən "Molla Nəsrəddin" jurnalı, onun ideya məzmunu, əsas tənqid hədəfləri, dili və s. bağlı müxtəlif yazılar da vermişdir. Ümumiyyətlə, 1923-1926 illərdə M.-nin həyat və yaradıcılığında baş verən bütün əsas hadisələr "Y.f."-in səhifələrində öz əksini tapmışdır. Lakin qəzetdə M.-nin haqqında obyektiv, əsaslı məqalə və resenziyalarla birlikdə, bir sıra qeyri-dəqiq, iddialı, yazıçının yaradıcılığını proletkultçuluq mövqeyindən təftiş edən materiallara da yer verilirdi.

"YENİ MƏKTƏB" – 1909 ildə M.Mahmudbəyov və Abbas Səhhət tərəfindən ibtidai məktəblərin III sinfi üçün tərtib olunmuş dərslik. "Kaspi" mətbəəsində nəşr olunmuşdu. Dərsliyin "Yeni məktəb", "Məktəb və ailə", "Çalışqanlıq və bilik kəsbi", "Kömək və ittifaq", "El arasında", "İnsan", "Heyvanat", "Nəbatat", "Coğrafiya məlumatı" bölmələrində müxtəlif tipli bədii, elmi və elmi-kütləvi məlumat verilmişdir. Dərslikdəki şeirlər dilinin ağırlığına, uşaqların səviyyəsinə uyğun gəlmədiyinə görə bu dərslik M. tərəfindən "Səhhətnamə" adlı felyetonda tənqid olunmuşdur.

"YENİ YOL" – ictimai, ədəbi qəzet. Əvvəllər Yeni Əlifba Komitəsinin, 1925 ildən isə Azərb. K(b)P MK orqanı olmuşdur. İlk nömrəsi 1922 il sentyabrın 21-də, sonuncu nömrəsi 1939 il fevralın 28-də çıxmışdır. 1924 ilin axırınadək həftəlik, 1925 ildən isə gündəlik nəşr olunmuşdur. M. 1922 il 5-ci saydan 1922 il 26-cı sayadək qəzetin red. olmuş, 1923 il 38-ci sayına kimi B.Bəhramovla birlikdə red.-luq etmişdir. "Y.y." yeni əlifbanı təbliğ etmiş, savadsızlığın ləğvi və mədəni inqilabın qələbəsində mühüm rol oynamışdır. 1924 il mayın 1-də M. öz xahişi ilə redaksiya heyəti üzvlüyündən azad edilmişdir. Ədib "Y.y."-da bir neçə məqalə və felyetonla iştirak etmiş, onun "Rus qızı", "Müəllim", "Taxıl həkimi", "Şərq fakültəsi", "Saqqallı uşaq", "Bəlkə də qaytardılar", "Buz", "Hamballar", "Yan tütəyi" kimi hekayələri burada çap olunmuşdur.

"YIĞINCAQ" – M.-nin pyesi. 1928-1929 illərdə yazıldığı ehtimal olunur. Bircə səhnədə – "keçmiş mülkədar Kalış bəyin boş samanlığında cəm olan kənd camaatının" yığıncağında cərəyan edən hadisələr yeni cəmiyyətdəki ümidsizliyi, inamsızlığı və çaşqınlıq əhval ruhiyyəsini göstərir. Səsvermə hüququnun alınması, beşillik planın baş tutmaması və s. barədəki söz-söhbətlər, camaatın şura sədrinin çağırışına məhəl qoymaması, iclasa gəlmək istəməməsi yeni cəmiyyətə bəslənən ümidlərə müəyyən inamsızlıq notlarının qarışdığından xəbər verir. Zahirən ciddi üslubda yazılmış əsər əslində kəskin satirik-parodik zəminə malikdir. Mərkəzdən gələn təbliğatçının savadsızlığı, naşılığı, kəndliləri inandıra bilməməsi də cəmiyyətin içəridən, dərindən laxlamağa başlandığını aydınlaşdırır.

"Y." ilk dəfə 1939 ildə "Revolyusiya və kultura" jurnalında dərc olunmuşdur.

"YOLDAŞ" – ictimai-siyasi qəzet. "Hümmət" sosial-demokrat (bolşevik) qrupunun orqanı. 1907 ilin avqust – sentyabr aylarında cəmi 3 nömrəsi çıxmışdır. Naşiri Ə.Axundov, red. M.Ə.Rəsulzadə idi. S.M.Əfəndiyev, M.F.Axundov, M.Ə.Rəsulzadə, M.Hadi, Ə.Əzimzadə və b. qəzetlə əməkdaşlıq etmişlər. "Molla Nəsrəddin" jurnalı Bakıda nəşrə başlayan "Y." qəzetinin Qafqazda milli toqquşmalara son qoymaq, milli sülh və əmin-amanlığı təmin etmək çağırışını bəyənmişdir. Jurnalın 17 sentyabr tarixli 35-ci sayında (1907) M.-nin "Yoldaş" sərlövhəli iri bir xülasə məqaləsi dərc olunmuşdur. Yazı belə başlayır: "Cəmi oxucularımızdan təvəqqe edirik Bakıda təzə çıxan "Yoldaş" adlı qəzetənin ikinci nömrəsini bir adamdan yalvarıb alıb oxusunlar, genə qaytarsınlar sahibinə. Və görsünlər qəzetənin əvvəlinci səhifəsində cənab Rəsulzadə nə yazır".

"Y."-ın 3-cü sayında dərc olunmuş "Quba şeyxi: Qubada bir nəfər peyğəmbərlik iddiasındadır!" sərlövhəli satirik yazının süjeti "Ölülər" (1909) pyesindəki

hadisələrlə səsləşir. Hökumət bu qəzeti "zərərli məsləkinə görə" bağlamışdır.

"YUXU" – M.-nin hekayəsi. "Molla Nəsrəddin" jurnalının 1930 il 4-cü (yanvar) sayında dərc olunmuşdur. Bir sıra son hekayələrində Mirzə Cəlil əzəli mövzusu – dini ehkam və şəriət motivlərinə yenidən qayıtmış, real situasiyalar zəminində, mahiyyətcə dinlə daha isti münasibətlər mövqeyindən əlacsız məqamları hədəf seçmişdir. Yığcam, üçcə səhifəlik hekayənin birinci hissəsində hüzr mərasimi elə təfsilatla nəql olunur ki, sanki müəllif yaşadığı dövrün inqilabi addımları altında müsəlmanın adət-ənənəsini yazıda hifz etmək qayğısına qalır. Amma bir qədər sonra əmmaməli və əmmaməsiz mollalara qoşulub, başı aşağı Quran cüzlərinin mütaliəsinə girişən Molla əmini yuxu tuturkən və daha sonra, yasdan qayıdan zaman Molla əmi və Cəfər əmoğlu çadraya bürünmüş Bilqeyis adlı "övrət"lərini dəyişik salırkən, lətifə situasiyası yaranır; bütövlükdə hekayə hələ də "yuxulamış", yatıb qalmış müsəlman haqqında pritçaya çevrilir. Hekayənin qəhrəmanı Molla – Molla Nəsrəddinin özüdür və müəllif məhz onun simasında özünəironiyanı gücləndirməklə müsəlman dünyasını ayıq salmaqda davam edir. Və təsadüfi deyil ki, hekayə hələ yatmayıb, valideynini gözləyən uşaqlara diqqəti cəlb edən mənalı sonluqla bitir.

YUMOR – komik gülüş növü. Zahirlə batin, mahiyyətlə təzahür arasındakı uyğunsuzluqdan doğulur. Daha çox insan xasiyyəti, xisləti, xarakter və mənəviyyatı, əxlaq və ətvarı sferasında özünü göstərir. Y. İntibah dövründən bu günə qədər ədəbiyyatda geniş yayılmışdır. Tənqidi gülüşün vasitələrindən biri olan Y.-a M.Servantes, F.Rable, Ç.Dikkens, N.V.Qoqol, M.F.Axundov, M.Ə.Sabir, C.Məmmədquluzadə, Ə.Haqverdiyev və digər klassiklərin əsərlərində geniş rast gəlmək olar.

Y. xalq yaradıcılığında, o sıradan Azərb. folklorunda bədii ifadə vasitələrindən biri kimi, qaravəlli, xalq tamaşaları, nağıl və lətifələrdə də işlənir. Orta əsrlərin məşhur Molla Nəsrəddin lətifələrində yumor əsas gülüş vasitələrindən biridir. Molla Nəsrəddin insan xislətindəki naqis cəhətləri, ətraf aləmlə, cəmiyyətlə insan arasındakı təzadları öz xarakterində təcəssüm etdirməklə gülüş doğurur, dinləyicilərə təsir göstərir. "XX əsrin Molla Nəsrəddini" adını almış M. də "Molla Nəsrəddin" jurnalında sələfindən bəhrələnərək, çağdaş müsəlmanın dindaşların naqis cəhətlərini, eybəcər şəxsi keyfiyyətlərini, gülünc obrazını yaratmağa, onu ayıq salmağa, islah etməyə çalışır.

Y. – kəskin satira, ironiya, sarkazmla birgə Mirzə Cəlil gülüşünün əsas tərkib hissələrindəndir. Əslində, cəmiyyətdə, milli gerçəklikdə, dünyada üzləşdiyi ədalətsizliklərə, qeyri-insani mühitə qarşı satirasında amansız olan Mirzə Cəlil Y.-unda "yumşalır", rəhmdil şəkil alır, qəhrəmanlarının naqis cəhətlərinə diqqət yönəltməklə oxucularını ayıq saxlamağa çalışır. Məhəmmədhəsən əmi ("Danabaş kəndinin əhvalatları"), Novruzəli ("Poçt qutusu"), İran seyidləri ("Kişmiş oyunu"), Usta Zeynal ("Usta Zeynal"), Kərbəlayı Məhəmmədəli ("İranda hürriyyət") və s. kimi qəhrəmanlarının təsvirində müəllif kəskin tənqidi gülüşlə yanaşı, Y.-a da yer verir. M. xüsusən inqilabdan sonra qələmə aldığı hekayələrdə əlacsız vəziyyətə düşmüş qəhrəmanlarının təsvirində Y.-a çox müraciət edir.

YÜZBAŞOV Əşrəf İsrafil oğlu (1880-1938) – aktyor, rejissor, ictimai xadim. İlk dəfə səhnəyə 1906 ildə çıxmışdır. 1909 ildə M. ilə tanışlığı onu səhnəyə və ictimai işlərə daha çox cəlb edir. 1917 ildə Tiflisdə səhnəyə qoyulmuş "Ölülər" əsərində Şeyx Əhməd rolunda müvəffəqiyyətlə çıxış etmişdir. Sonralar bir sıra teatrlarda, o cümlədən 1920-1925 illərdə Tiflis Azərb. Teatrında fəaliyyət göstərmişdir.

Z

"ZAKAVKAZYE" – 1906-1914 illərdə Tiflisdə nəşr olunmuş qəzet. "Sakartvelo" ("Gürcüstan") adlanan gürcü federalist-sosialist inqilabçılar partiyasının mətbu orqanı idi. Görkəmli gürcü ziyalısı, M.-nin yaxın dostu P.A.Qotuanın red.-luğu ilə rus dilində nəşr edilirdi. Bu qəzet M.-nin vaxtilə "Müsəlman şöbəsi"nə müdirlik etdiyi "Возрожденийе" qəzetinin davamı idi. 1906 il fevralın 25-də "Возрожденийе" qapanmış, həmin ilin 20 dekabrından başlayaraq qəzet "Z." adı ilə nəşr olunmuşdur. 1906-1908 illərdə 112-ci nömrəsinə qədər qəzet P.A.Qotuanın red.-luğu ilə çıxmış, sonra isə P.İ.Tumanov, Q.İ.Amiradjibi, A.İ.Kapçeli və b.-nın red.-luğu və naşirliyi ilə çap edilmişdir. Qəzet bütün nəşri müddətində M. və mollanəsrəddinçilərin ədəbi-estetik mövqeyini müdafiə etmiş, xüsusilə, qadın azadlığı məsələsində mollanəsrəddinçilərin mövqeyində dayanmışdır. Qəzetin səhifələrində F.Köçərli, C.Məmmədquluzadə, R.Məlikov, M.Qarayev, S.Ağamalıoğlu, E.Sultanov, H.Minasazov, B.Şahtaxtlı, Ə.Şərif, M.S.Axundov və b. çıxış edirdilər. Qəzetdə "Molla Nəsrəddin" jurnalının əksər nömrələrinin çıxması haqda məlumat verilir, jurnaldakı karikaturalar, mollanəsrəddinçilərin qarşılaşdıqları çətinliklər, M.-nin maarif və mədəniyyət sahəsindəki fəaliyyəti vaxtaşırı işıqlandırılırdı. 1909 ildə "Ölülər" pyesinin səhnəyə qoyulmasına icazə alındığını ilk dəfə oxuculara "Z." qəzeti xəbər vermiş, H.Minasazovun pyesin təhlilinə həsr etdiyi ilk tənqidi məqaləsini də çap etmişdir.

ZAMANOV Abbas Fəttah oğlu (1911-1993) – ədəbiyyatşünas, tənqidçi, mətnşünas. Filol. e.d. (1966), prof. (1971), Azərb. EA m. üzvü (1983). Əməkdar elm xad. (1980). ADU-nun "Azərbaycan ədəbiyyatı tarixi" kafedrasının müdiri olmuşdur (1971-1979). Nizami ad. Dil və Ədəbiyyat İn-tunda elmi işçi kimi araşdırmalar aparmış (1960-1968), Nizami ad. Ədəbiyyat Muzeyinin direktoru vəzifəsində fəaliyyət göstərmişdir (1968-1971). Türkiyə Dil Qurumunun üzvü (1971 ildən) və Konya Səlcuq Un-tinin fəxri prof. idi (1989). XIX və XX əsr Azərb. ədəbiyyatının tədqiqində mühüm xidmətləri vardır. Onun araşdırmalarında M.P.Vaqif, M.F.Axundov, C.Məmmədquluzadə, M.Ə.Sabir, N.Nərimanov, A.Şaiq, S.S.Axundov, S.M.Qənizadə, S.Vurğun, R.Rza irsinin tədqiqi geniş yer tutur. M. haqqında yazılmış məqalə və xatirələri toplayıb kitab halında nəşr etdirmişdir (1967). Onun böyük demokrat yazıçının həyatı, mühiti, müasirləri və yaradıcılıq taleyi barədəki məqalələri məmmədquluzadəşünaslığa samballı elmi töhfədir. O, Həmidə Məmmədquluzadənin "Mirzə Cəlil haqqında xatirələrim" adlı memuarını ruscadan Azərb. dilinə çevirmiş, ön söz və izahlarla birlikdə, hər iki dildə kitab halında oxuculara çatdırmışdır (1967,1970). Z.-un tərtibi ilə nəşr olunmuş "Mollanəsrəddinçi şairlər" kitabında M. və müasirlərinin satirik şeirləri toplanmışdır. "Cəlil Məmmədquluzadə" adlı kitabı fars dilində çap edilmişdir.

"ZARYA VOSTOKA" – 1922-1990 illərdə Tbilisidə rus dilində çap olunan ictimai-siyasi, gündəlik qəzet. Əvvəlcə Zaqafqaziya K(b)P Ölkə Komitəsinin, 1936 ildən isə Gürcüstan KP MK-nın, Gürcüstan SSR Ali Sovetinin və Nazirlər Sovetinin orqanı olmuşdur. "Z.V."-nın səhifələrində Azərb. ədəbiyyatına və mədəniyyətinə dair materiallar, habelə N.Nərimanov, S.Ağamalıoğlu, Ə.H.Qarayev, S.M.Əfəndiyev, Q.Musabəyov və b. dövlət xadimlərinin çıxış, məruzə və məqalələri dərc edilirdi. Qəzetin 16 iyun 1929 il tarixli

A.Zamanov

nömrəsində M.-nin portreti ilə qısa tərcümeyi-halı verilmişdi. Ədəbiyyatşünas Əziz Şərif qəzetdə "Bəlkə də qaytardılar" və "Ölülər" əsərləri barəsində məqalələr, habelə "Ölülər"in Tiflis tamaşası haqqında (1923) resenziya çap etdirmişdir. Qəzetdəki bəzi yazılarda (Q.Tatulov) M.-nin yaradıcılığı təhrif edilir, o, "xırda burjua milli ədəbiyyatının təmsilçisi" kimi təqdim olunurdu.

M.H.Zeynallı

ZDENEK VESELA (?-?) – çex türkoloq alimi, tərcüməçi. Elmi fəaliyyətində Azərb.-çex ədəbi-mədəni əlaqələrinin tədqiqinə böyük yer vermişdir. Azərb. bayatıları, İ.Nəsimi, M.Füzuli, Ş.İ.Xətai, M.F.Axundov və b. klassiklərimiz haqqında dərin təhlili məqalələr çap etdirən Z. bu irsin dünya ədəbiyyatında şərəfli mövqeyini göstərmişdir. Yorulmaz tədqiqatçını Azərb. ədəbiyyatı nümunələrinin rus dili vasitəsilə tərcüməsi də məşğul edir. "Novi Orient" şərqşünaslıq jurnalında (1959 il, №1) onun M.-nin "Poçt qutusu" hekayəsinin çex dilinə tərcüməsi çap olunmuşdur. Z. jurnalda M.-nin bioqrafiyasını və "Molla Nəsrəddin" jurnalının nəşri tarixi haqqında məlumat da vermişdir.

ZEYNALABDİN MARAĞAYİ (1838-1910) – yazıçı, maarifçi. Mədrəsədə təhsil almış, ərəb və fars dillərini mükəmməl öyrənmişdir. Gənc yaşlarından Qafqaza gəlmiş, rus və Qərbi Avropa ədəbiyyatı ilə tanış olmuşdur. 3 cildlik "İbrahim bəyin səyahətnaməsi" (farsca, 1897, 1906, 1909) romanının müəllifidir. Əsərdə İranın mütləqiyyət və istibdad üsuli-idarəsi, sosial bərabərsizlik, feodal-patriarxal qaydaqanunları tənqid edilir. Roman Azərb., İran, Türkiyə, Orta Asiya, Hindistan və Misirdə şöhrət qazanmış, dəfələrlə nəşr edilmiş, İranda ictimai mühitin dirçəlməsinə, milli həyatın, ictimai şüurun oyanışına müsbət təsir göstərmişdi.

"Molla Nəsrəddin" jurnalı Z.M.-nin yaradıcılığına müsbət münasibət bəsləyirdi. Azərb. oxucusunun "İbrahim bəyin səyahətnaməsi" romanı ilə ilk kütləvi tanışlığı da "Molla Nəsrəddin" jurnalından başladı. M. müdrik müasirinin romanını "Molla Nəsrəddin"in ayrı-ayrı saylarında dönə-dönə qiymətləndirmiş və təbliğ etmişdir. O, "Həmşəri" felyetonunda yazırdı: "Arazı hoppanın, keçin tarmar vətənizə və ... "İbrahim bəyin "Səyahətnaməsi"ni oxuyun, oxuyun, oxuyun... Və oxuyandan sonra bir qədər fikir edin... Çünki, vallah, billah, yer haqqı, göy haqqı bundan başqa sizdən ötrü nicat yolu yoxdu" ("Molla Nəsrəddin", 1907, №3). M. romanın 1897 il Qahirə çapından bəzi parçaları seçib "Molla Nəsrəddin"də dərc etmişdir. Jurnalda romanın motivləri əsasında çəkilmiş şəkillərdə verilmiş (1906, №9, 17) İranın siyasi faciələri, cəhalətin acınacaqlı təzahürləri məharətlə göstərilmişdir.

ZEYNALLI Məmməd Hənəfi Baba oğlu (1896-1937) – ədəbiyyatşünas, tənqidçi, folklorşünas. İstanbul un-tinin hüquq fakültəsində, Moskva Ali Texniki Məktəbində, ADU-nun tibb fakültəsində təhsil almışdır. 1916 ildən inqilabi hərəkatda iştirak etmişdir. 20-ci illərin əvvəlində Azərb.-da partiya və sovet işində çalışmış, Azərb. Dövlət Nəşriyyatının baş red. (1924-1929), SSRİ EA Azərb. filialı dil və ədəbiyyat, folklor şöbələrinin müdiri olmuşdur. Z. milli ədəbiyyatımıza, folklorumuza dair əsərlər yazmış, M.F.Axundov, X.Natəvan, M.İ.Nakam, C.Məmmədquluzadə, M.Ə.Sabir, H.Cavid və b. klassiklərin irsinin nəşrində fəal iştirak etmişdir. Tənqid və ədəbiyyatşünaslığa dair əsərlərində "Molla Nəsrəddin" və mollanəsrəddinçilərin tədqiqinə xeyli yer vermiş, M. yaradıcılığının orijinal xüsusiyyətini yüksək qiymətləndirmişdir. O, M.-nin ədəbi mövqeyi haqqında yazırdı: "Molla Nəsrəddin "uca" mövzular arayan ədiblərdən olmasa da, "xırda" mövzuları ilə ən sağlam və saf bir Azərbaycan ədəbiyyatı yaradan ədibimizdir", "dünya ədəbiyyatının bir parçası" olan "Ölülər" əsəri əsrlərlə yaşayacaqdır".

ZEYNALOV Məşədi Həbib (1884-1919) – şair, jurnalist. "Rus-müsəlman məktəbində oxumuş, cavanlıqdan Tiflisə gedib ömrünü orada keçirmiş, mollanəsrəddinçi yazıçılarla dostluq etmişdir. 1910 ilin axırlarında M. qardaşı Ələkbərin həbsi və məhkəməyə düşməsi ilə əlaqədar çalışarkən "Molla Nəsrəddin" jurnalının nəşri işlərini M.Sidqiyə, Z.-a və İ.Həqqiyə tapşırmışdı. Z.-un "Molla Nəsrəddin"dəki məqalələri çox vaxt "Qızdırmalı" imzası ilə nəşr edilmişdir. M.-yə "Molla dayı" deyər, bu xitabı bəzi şeirlərində də işlədərdi. Jurnalda türk şairi Mahmud Əkrəm Rəcaizadənin "Yad et!" əsərinə eyniadda satirik nəzirəsi (M.Ə.Sabirə ithaf),

habelə, "Yat", "Məmmədəlinin intibahnaməsi", "Yorğan" şeirləri çap olunmuşdur. "Yorğan" satirasında vətənin, məzlum xalqın dərdlərinə, faciəsinə göz yuman kef əhli-varlılara xitabən yazır: "Bax millətə, al qana boyandıqca kefin çək, yazdıqlarımın künhünü (mahiyyətini – *red.*) qandıqca kefin çək...". Qadın azadlığından danışan "Molla Nəsrəddin" və onun red.-unun əleyhinə "İşıq" jurnalında təhqiramiz yazılar veriləndə Z. onun əleyhinə töhmət dolu satirik şeir nəşr etdirmişdi.

ZEYNALOV Nəriman Nəsrulla oğlu (1933-1989) – jurnalist, ədəbiyyatşünas. Filol. e.n. (1967). 30 ildən artıq Azərb. demokratik jurnalistikasının tarixini, xüsusilə, "Molla Nəsrəddin" jurnalında sənətkarlıq məsələlərini araşdırmış, elmi və kütləvi mətbuatda haqqında bir çox məqalə dərc etdirmişdir. BDU-nun jurnalistika fakültəsində "Azərb. mətbuatı tarixi" fənnindən mühazirələr oxumuşdur. "Molla Nəsrəddin" jurnalı sovet hakimiyyəti illərində" (1922-1931) mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir (1967). 2 hissədən ibarət "Azərbaycan mətbuatı tarixi" dərs vəsaitində (I hissə. B., 1973; II hissə. B., 1974) M.-nin jurnalistlik və red.-luq fəaliyyətindən, "Molla Nəsrəddin" jurnalının ictimai-ədəbi fikrimizdə yerindən və rolundan geniş bəhs açmışdır. Ömrünün son günlərində "Molla Nəsrəddin" jurnalı və Azərbaycan sovet satirik publisistikasının problemləri" mövzusunda yazdığı doktorluq dissertasiyası müdafiəyə buraxılmışdır.

"ZƏLZƏLƏ" – M.-nin hekayəsi. 20-ci illərdə yazılmışdır. Avtoqraf nüsxəsində yazıçı onu hekayə adlandırmışdır. Lakin əsərdə publisistik ruh və üslub üstün mövqedədir. Yazıçı vaxtilə Badamlı qəsəbəsində baş vermiş zəlzələ zamanı gördüyü bir səhnəni böyük narahatlıq və ürək ağrısı ilə xatırlayır: "Bir balaca uşaq bir övrətin döşlərini ağlaya-ağlaya söküşdürür, övrət də gözlərini göyə tərəf dikib baxmaqdadır. Haman dəqiqə duydum ki, övrət cansızdır... O vaxtdan on yeddi il keçir və həmişə gecə vaxtı bir uşaq ağlamağını eşidəndə Badamlı zəlzələsi yadıma düşür. Və həmişə bir yanda zəlzələ söhbəti qulağıma çatanda öz-özümə deyirəm: "Ax, yazıq uşaqlar!".

"Z." ədibin ikicildlik "Seçilmiş əsərləri"nin, üçcildlik və altıcildlik "Əsərləri"nin birinci cildinə daxil edilmişdir.

"ZƏNBUR" – 1909-1910 illərdə Bakıda nəşr olunmuş həftəlik ədəbi-ictimai satirik jurnal. Cəmi 70 nömrəsi çıxmışdır. Naşiri yazıçı və ictimai xadim Mirzə Əbdülxalıq Axundov, red.-ları müxtəlif vaxtlarda R.Səlixanov, Ə.Əzimzadə, M.Palavandov, Ə.Müznib olmuşlar. "Z." jurnalı "Molla Nəsrəddin" ənənələrindən bacarıqla istifadə edərək avamlığı, nadanlığı, qadın əsarətini, dini fanatizmi tənqid etmiş, xalqı maarifə, mədəniyyətə çağırmışdır. Burada M.Ə.Sabir, Ə.Nəzmi, Ə.Razi kimi mollanəsrəddinçilər yaxından iştirak edirdilər. "Z."-un əsas yazıları Ə.Müznib tərəfindən yazılırdı. Jurnalın forması, tərtibatı "Molla Nəsrəddin"ə çox oxşayırdı. Burada yazı materialları ilə bərabər, rəngli karikaturalar da verilirdi. Əsas rəssamı Beno (B.R.Telinqater) idi. "Z."-da Ə.Əzimzadənin bir neçə karikaturası da verilmişdir. "Z." jurnalı "Molla Nəsrəddin" ənənələrinə sadiq qalsa da, onun böyük təsiri ilə nəşrə başlasa da, istər ideya, istərsə də sənətkarlıq cəhətdən onun səviyyəsinə çata bilməmişdir. "Z." 1910 il oktyabrın 15-də 28-ci sayından sonra senzura tərəfindən qapanmışdır.

ZƏRDABİ (Məlikov) Həsən bəy Səlim bəy oğlu (1842-1907) – maarifçi naşir-demokrat, materialist təbiətşünas, publisist və pedaqoq. Moskva un-tinin fizika-riyaziyyat fakültəsinin təbiyyat şöbəsini bitirmişdir (1865). Z. Azərb.-da professional teatrın yaradıcılarından biri, demokratik mətbuatın banisidir. 1875-1877 illərdə "Əkinçi" qəzetini nəşr etdirmişdir. Qəzet çar hökuməti tərəfindən bağlandıqdan sonra, Zərdaba köçərək, maarifçilik fəaliyyətini davam etmiş, "Kaspi", "Новое обозрение" qəzetlərində müxtəlif sosial problemlərə dair məqalələrlə çıxış etmişdir. 1896 ildə Bakıya dönmüş, şəhər dumasının üzvü olmuş, Azərb.-da maarif və mədəniyyətin tərəqqisinə çalışmışdır. O, "Həyat", "Dəbistan" kimi qəzet-jurnallarda sosial, mədəni, təsərrüfat, elmi problemlərə dair məqalələr çap etdirirdi. Çarizmin, burjua-mülkədar zülmünün ifşası Z.-nin publisistikasında mühüm yer tutur. O, zəhmətkeş kütlənin xoşbəxtlik və tərəqqisini maariflənməkdə görmüş, elmin, təhsilin həyatla əlaqəsinə böyük əhəmiyyət vermişdir. Z. bu ideyasını həyata keçirmək üçün geniş dairədə ictimai fəaliyyət göstərmiş, 1906 ildə Bakıda ke-

H.Zərdabi

çirilmiş Qafqaz müsəlman müəllimlərinin I qurultayının işinə sədrlik etmişdir. Z. azərb. qadınların maariflənməsinə xüsusi əhəmiyyət vermiş, H.Z.Tağıyev tərəfindən 1901 ildə Bakıda azərb. qızlar üçün ilk məktəbin açılmasında yaxından iştirak etmişdir. Mollanəsrəddinçilər Z.-nin demokratik jurnalistika ənənələrindən bəhrələnmiş, Ə.Haqverdiyev və M.Ə.Sabir onun vətən və millət yolunda xidmətlərini yüksək qiymətləndirmişlər.

"ZIRRAMA" – M.-nin hekayəsi. İnqilabdan əvvəl yazıldığı ehtimal olunur. İlk dəfə "Maarif və mədəniyyət" jurnalında dərc olunmuşdur (1923, №1). Sonralar "Z." hekayəsi ədibin "Bəlkə də qaytardılar" (1927) hekayələr toplusuna, "Seçilmiş əsərləri"nin (1951), üçcildlik (1966) və altıcildlik "Əsərləri"nin (1983) birinci cildinə daxil edilmişdir. Avtoqraf nüsxəsi yoxdur.

"Z." satirik üslubdadır. Hekayənin qəhrəmanı Qurbanqulu bəyin timsalında M. heç bir işlə məşğul olmayan avara, sırtıq, boşboğaz, qırsaqqız, hərzəçənə adamların gülünc surətini canlandırır. Qurbanqulu bəy bütün günü "küçənin ortasında var-gəl eləyib", yoldan keçənləri çənəsinin altına salır, onları mənasız söhbətlərlə bezdirir: "Salaməleyküm, Molla əmoğlu! Əmoğlu, çoxdandır görsənmirsən? Deyəsən, bizdən iltifatını kəsibsən? Heç demirsən, vilayətimizdən gələn kim, gedən kim? Əmim Novruz ağanı atlı sultanı eləyiblər, özüm də indi qubernat yanında baş sekretaram. Xəlil ağa teleqraf naçalniki olub. İrəvandan Məşədi Cəfər gəlib Moskvaya gedir. Məşədi Qurbanəli gəlib Tiflisə, özünə diş qayıtdırmağa. Sarvanlardan da çox züvvar gəlib. Hacı Həsən oğlu Möhsün naxoş olub, həkimə gətiriblər. Rus ilə Osmanlının araları pozulubdu. Qaçaq Pirverdiyə 8 il Sibir kəsiblər"...

"Z." yığcam süjeti, mükəmməl arxitektonikası, aydın bədii dili olan avtobioqrafik bir hekayədir. Əhvalatlar əsasən birinci şəxsin – Molla əminin dilindən söylənilir. Bəzən təhkiyə dialoqlar vasitəsilə davam etdirilir. Yazıçı Qurbanqulu bəyin xarakterini şirin, gülməli bir dillə açdıqdan sonra, finalda "həmişərilərinin" ona verdiyi adı xatırladır – "Zırrama". Bu ad Qurbanqulu bəyin təsvir olunan hərəkətlərinə tam uyğun olub, onun xarakterinin güzgüsünə çevrilir.

ZİYA PAŞA (Əbdülhəmid Ziya bəy) (1825-1880) – türk şairi, publisist, ictimai xadim. "Yeni osmanlılar" cəmiyyətinin ideya rəhbərlərindən idi. Londonda və Cenevrədə Əli Suavi və Namiq Kamalla "Müxbir", "Hürriyyət" qəzetlərini nəşr etdirmişdir. Vətənə qayıtdıqdan sonra konstitusiya layihəsinin (1876) müəlliflərindən biri olaraq fəaliyyət göstərmişdir. Türk dili və ədəbiyyatının milliləşməsi və demokratikləşməsi üçün çalışmışdır. Ölümündən sonra şeirləri "Əşari-Ziya" (1881) adlı məcmuədə çap olunmuşdur. "Zəfərnamə" satirik əsəri məşhurdur. Bir sıra tarixi və ədəbi əsərləri türk dilinə tərcümə etmişdir. Azərb.-da əsərləri çox sevilmiş, onlara nəzirə və təhzillər yazılmışdır. M. "Cəfəngiyat", "Biblioqrafiya" felyetonlarında Z. P.-ya istinad etmişdir.

E.Zolya

ZOLYA EMİL (1840-1902) – fransız yazıçısı. Yaradıcılığının ilk dövrlərində romantik xarakterli əsərlər yazmışdır. "Tereza Raken", "Təcrübə romanı", "Naturalist" romanlarında naturalizm nəzəriyyəsini yaratmışdır. Yaradıcılığında O.Balzak ənənələrini davam etmiş, tənqidi realizmə meyl göstərmişdir. Fransız cəmiyyətinin bədii salnaməsi olan 20 romandan ibarət "Ruqonlar və Makkorlar" epopeyasının müəllifidir. XIX əsrin 90-cı illərində Z.-nın yaradıcılığında yeni motivlər əksini tapmış, bir sıra utopik romanlarında, hekayə, dram və publisistik əsərlərində ədaləti və insan hüquqlarını müdafiə etmiş, zülm və istibdadı, dini xürafatı qətiyyətlə pisləmişdir.

M. "Tacül-hac" felyetonunda ("Molla Nəsrəddin", 1910, №25) millətlərin inkişafında maarifin və mütərəqqi ictimai fikrin rolundan danışarkən oxucularına "Firəngistanın məşhur yazıçısı Emil Zolyanın "Rim" adında kitabını" oxumağı məsləhət görürdü. O yazırdı: "...Maarif artdıqca ruhanilik hörmətdən düşür... Emil Zolyanın kitabları Firəngistanda intişar tapan kimi zehinlər bir neçə ilin içində [...] oyandılar".

Cəlil Məmmədquluzadənin həyat və yaradıcılıq salnaməsi

1869

10 fevral – Naxçıvan şəhərində Məmmədqulu Məşədi Hüseynqulu oğlunun və Sara xanım Məşədi Baba qızının ailəsində anadan olur.

1875-1876

– M. Molla Əli Hüseynzadənin məktəbində oxumuşdur.

1876-1879

– M. Hacı Molla Bağır Məmmədovun məktəbində oxumuşdur.

1879

– M. üçsinifli şəhər məktəbinə daxil olur.

1880

20 iyun – Atası Məmmədqulu Məşədi Hüseynqulu oğlu Cəlilin Zaqafqaziya (Qori) müəllimlər seminariyasının Tatar (Azərb. – *red.*) şöbəsinə qəbul olunması üçün seminariyanın direktoru D.D.Semyonova ərizə ilə müraciət edir. Lakin Cəlilin cəmi 11 yaşı olduğuna görə ərizəyə rədd cavabı alır.

1881

10 iyul – Ata ikinci dəfə Zaqafqaziya Qori müəllimlər seminariyasına müraciət edir. Lakin Cəlilin 12 yaşı olduğuna görə onu yenidən qəbul imtahanlarına buraxmırlar.

1882

21 iyun – M. Naxçıvan şəhər məktəbini bitirmişdir.

– Ata üçüncü dəfə Zaqafqaziya (Qori) Müəllimlər Seminariyasına ərizə ilə müraciət edir. Ərizədə Cəlilin 16 yaşında olduğu qeyd edilmiş və buna uyğun doğum haqqında şəhadətnamə alınmışdır.

2 iyul – Cəlilin imtahanlara buraxılmasına icazə verilir və avqustun 24-ə qədər Qoriyə gəlməsi barədə Naxçıvan qəza polis idarəsi rəisi vasitəsilə xəbərdarlıq edilir.

– Cəlil bütün imtahanları müvəffəqiyyətlə verib, seminariyaya qəbul olunur.

1883-1884

– Cəlil əsasən "əla" və "yaxşı" qiymətlərlə hazırlıq sinfinin aşağı və yuxarı mərhələlərində oxuyur.

1885

– M. seminariyanın birinci əsas sinfində oxuyur.

30 oktyabr – M. seminariya dostları Ələkbər Məmmədxanov və Əbdülqasım Sultanovla birlikdə fotoşəkillərini çəkdirib, sevimli müəllimləri A.O.Çernyayevskiyə bağışlayırlar.

1886

– M. seminariyanın ikinci sinfində təhsilini davam etdirir, seminariya nəzdindəki ibtidai məktəbdə S.Vəlibəyovun rəhbərliyi altında pedaqoji təcrübə keçir.

1887

– M. seminariyanın üçüncü sinfində oxuyur. Seminariyanın nəzdindəki ibtidai məktəbdə pedaqoji təcrübə keçir.

7 iyul – M. buraxılış imtahanlarını verərək seminariyada təhsilini müvəffəqiyyətlə başa vurur və ibtidai məktəblərdə müəllim işləmək hüququ qazanır.

7 avqust – Qafqaz Tədris Dairəsi rəisinin göstərişi ilə M. Uluxanlı kənd məktəbinə müəllim təyin olunur.

17 avqust – M.-yə Uluxanlı normal məktəbinə müəllim təyin olunması haqda xəbər verilir.

13 oktyabr – M. müvəqqəti olaraq Baş Noraşen məktəbinə müəllim vəzifəsinə göndərilir.

1888

16 yanvar – M. İrəvan-Yelizavetpol qubernıyası xalq məktəblərinin direktoru D.D.Orlova teleqram göndərərək, Baş Noraşen kənd məktəbində daimi işdə saxlanmasını xahiş edir və müsbət cavab alır.

1889

20 dekabr – M. "Çay dəsgahı" alleqorik dramı üzərində işini başa çatdırır.

1890

13 yanvar – M. Baş Noraşen məktəbinin müəllimi vəzifəsindən azad edilmişdir.

15 yanvar – M. Nehrəm ikisinifli məktəbinə nəzarətçi vəzifəsinə təyin olunmuşdur.

1891

– M. Nehrəm kənd məktəbində işləyir. Naxçıvan teatrının tamaşalarında aktyor və rej. kimi iştirak edir.

1892

– M. "Kişmiş oyunu" pyesini başa çatdırır.

1893

2 fevral – M. bacısı Səkinəni və başqa 8 qızı Nehrəm məktəbinə cəlb etdiyinə görə İrəvan-Yelizavetpol quberniyası xalq məktəbləri müdiriyyətindən yazılı təşəkkür alır.

22 noyabr – M. İrəvan quberniyası xalq müəllimlərinin sahə qurultayında iştirak və çıxış etmişdir.

1894

– "Danabaş kəndinin əhvalatları" silsiləsinin "Bir yüngülvari müqəddimə", "Eşşəyin itməkliyi" və "Xitamə" hissələrini yazır.

1895

10 iyul-25 avqust – M. məzuniyyət götürərək Peterburqa gedir, burada "Novoye vremya" qəzetinin redaktoru A.Suvorinlə görüşür.

11 may – M. başqa iş tapmaq məqsədilə üç aylıq məzuniyyət istəmişdir.

– M. Nehrəm kəndlisi Nağının qızı Həlimə ilə evlənir.

1896

– M. müəllimliyini davam etməklə bərabər, Naxçıvanda keçirilən mədəni-maarif tədbirlərində yaxından iştirak edir.

– Nehrəmdə məktəbin nəzdində ölkəşünaslıq muzeyi yaradır.

1897

10 iyun – M. öz xahişi ilə işdən azad olunur.

– Qızı Münəvvər anadan olur.

– Həyat yoldaşı Həlimə vəfat edir.

12 avqust – M. İrəvan qəza polis idarəsinə tərcüməçi vəzifəsinə işə qəbul edilir.

1899

1 may – M. Naxçıvan şəhər pristavının köməkçisi vəzifəsinə işə keçirilir.

1900

– M. Naxçıvanda inzibati işini davam etdirir, tərcüməçiliklə məşğul olur.

13 iyun – M. mayor Şəfi ağa Kərim Sultanın qızı, Məmmədqulu bəy Kəngərlinin bacısı Nazlı xanımla (əsl adı Zeynəbağa xanımdır) evlənir.

1901

– M. istefaya çıxır. Naxçıvan şəhər polismeysterinin aşağı rütbəli kiçik köməkçisi vəzifəsində işləmişdir.

1902

– M. yenidən İrəvana köçmüş, vəkillik etmişdir.

7 mart – "Kaspi" qəzetinin 53-cü sayında M.-nin "İrəvan müxbirimizdən" adlı ilk məqaləsi dərc olunur.

28 mart – "Kaspi" qəzetinin 82-ci sayında "İrəvan" adlı Dəlmə bağları ilə əlaqədar ikinci məqaləsi dərc edilir.

1903

12 noyabr – "Poçt qutusu" hekayəsini yazır.

– Qaynı Məmmədqulu bəy Kəngərli ilə birlikdə xəstə arvadı Nazlı xanımı Tiflisə müalicəyə aparır. Burada "Şərqi-Rus" qəzetinin redaktoru və naşiri Məhəmməd ağa Şahtaxtlı ilə görüşür. M.Şahtaxtlı onu öz redaksiyasına işə dəvət edir.

1904

– "Şərqi-Rus" qəzetində "Poçt qutusu" (№5-6), "Kişmiş oyunu" (№64) hekayələrini, L.N.Tolstoyun "Zəhmət, ölüm və naxoşluq", (№7) Xanzadənin "Arvad" (№63-64) əsərlərinin tərcüməsini dərc etdirir, publisistik məqalələrlə çıxış edir.

14 fevral – Həyat yoldaşı Nazlı xanım vəfat edir.

26 noyabr – M. "Şərqi-Rus" qəzetinin müvəqqəti redaktoru təyin olunur.

– Öz təşəbbüsü ilə Tiflisdə müsəlman pansionu və məktəb açdırır.

1905

10 yanvar – Tiflisdə Müsəlman Xeyriyyə Cəmiyyətinin katibi seçilir.

– Ömər Faiq Nemanzadə və tacir Məşədi Ələsgər Bağırovla müştərək "Şərqi-Rus" qəzetinin mətbəəsini alıb, "Qeyrət" mətbəə-nəşriyyatını təşkil edir.

10 mart – "Qeyrət" mətbəəsində "Poçt qutusu" hekayəsini ayrıca kitabça halında nəşr etdirir.

10 may – M. Qafqaz canişininə ərizə yazaraq "Novruz" adlı qəzet çıxarmağa icazə istəmişdir. Rəsmi icazə aldıqdan sonra öz fikrini dəyişir.

– "Usta Zeynal" hekayəsini yazır.

– "Tiflisski listok", "Kaspi", "Vozrojdeniye", "Kavkazski raboçi listok" qəzetlərində çıxış edir.

29 avqust – M. Məmmədqulu Kəngərlinin Batumda öldürülməsi haqqında teleqram almışdır.

1 sentyabr – M. Batumdan M. Kəngərlinin cənazəsini gətirib Tiflisdə dəfn etmişdir.

Sentyabr – Həmidə xanımla tanış olur.

– Atası Məşədi Məmmədqulu kişi və anası Sara Məşədi Baba qızı vəfat etmişdilər.

1906

21 fevral – "Molla Nəsrəddin" satirik-yumoristik jurnalının nəşri üçün ərizə yazır.

4 mart – "Molla Nəsrəddin" jurnalının nəşrinə icazə alır.

7 aprel – "Molla Nəsrəddin" jurnalının 1-ci sayı çapdan çıxır.

(20 aprel)

– "Usta Zeynal" hekayəsini ayrıca kitabça halında çap etdirir.

Noyabr – M. "İranda hürriyyət" hekayəsini yazmışdır.

1907

20 mart – Tiflis xalq universitetləri cəmiyyətinin Azərbaycan şöbəsində məruzə ilə çıxış edir.

1 may – Şərq konsertində gurultulu alqışlarla qarşılanan M. Azərb. dilində bir Şərq əfsanəsi danışır, sonra onu rusca da söyləyir.

15 iyun – Həmidə xanım Cavanşirlə kəbin kəsdirir.

– "Ölülər" pyesi üzərində işləməyə başlayır.

1908

19 mart – Mirzə Cəlil və Həmidə xanımın ilk övladı Midhət anadan olmuşdur. Şair Hacıağa Fəqirin "Fatı" mənzuməsinə görə məsuliyyətə cəlb olunmuş, məhkəməyə çağırılmışdır.

1909

– M.-nin qardaşı Ələkbər Cənubi Azərbaycanda Səttar xan hərəkatında fəal iştirakına görə həbs edilir.

12 iyun – "Ölülər" komediyası üzərində iş başa çatır.

27 avqust – "Ölülər" pyesini tamaşaya qoymaq üçün icazə alır.

11 sentyabr – "Zaqafqaziya" qəzetində M.-nin "Ölülər" pyesi haqqında H.Minavazovun rəyi dərc olunmuşdur.

1910

1 iyul – Xankəndində Ağakərim körpüsü yanında çayda çimərkən burulğana düşür. Qəhrəman Şirinbəyov adlı bir gənc onu xilas edir.

9 iyun – Məhəmmədəli Sidqini Naxçıvandan Tiflisə dəvət edib "Molla Nəsrəddin"in redaktor köməkçisi təsdiq etdirmişdir.

21 iyul – M.-nin İran inqilabında iştirakına görə tutulan qardaşı Ələkbər İrəvan həbsxanasına göndərilir.

– M. Tiflis xalq universitetinin müsəlman şöbəsinə sədr seçilir.

1911

11 may – Mirzə Cəlilin və Həmidə xanımın ikinci övladı Ənvər anadan olur.

– M. İrəvanda qardaşı Ələkbərin məhkəməsində iştirak edir. Onun yaxından köməyi nəticəsində Ələkbərə yalnız

il yarım həbs cəzası kəsilir və o, müvəqqəti olaraq həbsdən azad edilir.

12 iyul – M.-nin yaxın dostu və məsləkdaşı, böyük şair M.Ə.Sabir vəfat edir.

1912

– "Poçt qutusu" yenidən ayrıca kitabça şəklində nəşr olunur.

– M. uzun müddətə Kəhrizliyə köçür.

1913

11 yanvar – M. Tiflis qubernatorundan jurnalın çapını "Gürcü nəşriyyat şirkəti" mətbəəsindən "Şərq" mətbəəsinə köçürmək üçün icazə istəmişdir.

18 yanvar – M. Tiflis qubernatoruna ərizə yazıb Naxçıvan əhli, şair Əliqulu Nəcəfovu "Molla Nəsrəddin" jurnalının redaktorluğuna əlavə etməyi xahiş edir.

20 fevral – "Molla Nəsrəddin" jurnalı C.Məmmədquluzadə və Ə.Nəcəfovun imzası ilə çıxır.

1914

– M. və Əliqulu Qəmküsar jurnalın 21-ci sayında dərc edilmiş "Gimnazist" şeirinə görə məhkəməyə cəlb olunurlar.

12 oktyabr – M. müvəqqəti olaraq "Molla Nəsrəddin" jurnalının nəşrini dayandırır.

1915

– "Molla Nəsrəddin" jurnalının redaktorları məharətli müdafiə sayəsində məhkəmə məsuliyyətindən yaxa qurtara bilirlər.

– "Ölülər" pyesinin tamaşaya qoyulması haqda danışıqlar başlanır.

1916

– "Molla Nəsrəddin" jurnalının yenidən nəşrə başlanması üçün icazə alınır.

29 aprel – "Ölülər" pyesi ilk dəfə Bakıda səhnəyə qoyulur.

– M. və Qəmküsar Orta Asiyaya yola düşürlər. İl ərzində "Ölülər" Daşkənd, Şuşa və Tiflisdə göstərilir.

1917

9 fevral – M. müəyyən fasilədən sonra "Molla Nəsrəddin" jurnalını yenidən nəşr etməyə başlamışdır.

May – "Ölülər" pyesi Naxçıvan dram cəmiyyəti tərəfindən səhnəyə qoyulmuşdur.

1918

– M. Tiflisdə və Kəhrizlidə yaşayır. "Konsulun arvadı" hekayəsini yazmışdır.

1919

Mart – "Molla Nəsrəddin" jurnalının ikinci redaktoru Əliqulu Qəmküsar öldürülür.

– M. Kəhrizlidə kənd təsərrüfatı işləri ilə məşğul olur.

İyun – Yerli həvəskarların iştirakı ilə "Ölülər" pyesi Şuşada, X.Natəvanın mülkündə tamaşaya qoyulur.

1920

– M. Şuşada "Anamın kitabı" və "Kamança" pyeslərini yazır.

11 iyun – M. ailəsi ilə birlikdə Təbrizə köçür.

7 sentyabr – Təbrizə gəlir. Az sonra Cənubi Azərb. demokratik hərəkatının başçısı Şeyx Məhəmməd Xiyabani ilə görüşür.

– "Molla Nəsrəddin" jurnalının Təbrizdə nəşrinə hazırlıq aparılır.

– Ələkbər Məmmədquluzadə həbs edilir.

1921

19 fevral – "Molla Nəsrəddin" jurnalı Təbrizdə nəşr olunur.

30 aprel – Naxçıvan İnqilab Komitəsinin sədri Mirzə Abbas Qədimov Əliheydər Qarayevin tapşırığı ilə Təbrizə teleqram vuraraq, M.-ni Bakıya, Xalq Təhsili Komissarlığına məsul işə dəvət edir.

1 may – M.-nin "Ölülər" komediyası Təbrizdə tamaşaya qoyulmuşdur.

24 may – M. ailəsi ilə birlikdə Təbrizdən Bakıya yola düşür.

27 iyun – M. Azərb. Xalq Maarif Komissarlığında məsul işə təyin olunur.

30 avqust – M. "Lal" pyesini başa çatdırır.

1922

29 avqust – Az.K(b)P Rəyasət Heyəti Bakıda "Molla Nəsrəddin"in nəşrinə icazə verir.

22 may – Ələkbər Məmmədquluzadə Kəhrizlidə vərəmdən vəfat edir.

– M. müvəqqəti olaraq "Yeni yol" qəzetinin redaktoru vəzifəsini ifa edir.

2 noyabr – "Molla Nəsrəddin"in birinci sayı çıxmışdır.

1923

15 yanvar – "Anamın kitabı" pyesi Bakıda, D.Bünyadzadə ad. teatrda səhnəyə qoyulur.

11 may – Bakıda "Molla Nəsrəddin" gecəsi keçirilir.

1924

– M. yeni Əlifbanın hazırlanması üzrə komitəyə üzv seçilir və yeni əlifbanın təbliği üçün S.Ağamalıoğlunun başçılığı ilə təşkil olunmuş nümayəndə heyətinin tərkibində Krım, Orenburq, Daşkənd, Ufa və Kazana ezam olunur.

1 may – "Yeni yol" qəzetinin redaktoru vəzifəsindən azad olunmaq üçün ərizə verir.

1925

2 iyul – "Molla Nəsrəddin" təyyarəsi Bakıya gəlir, ertəsi gün musiqi sədaları altında onun şəhər üzərində 10 dəqiqəlik uçuşu olur.

– "Ölülər" yazıçı Mömincan tərəfindən özbək dilinə tərcümə edilib, Daşkənddə səhnəyə qoyulur.

1926

– M. I Türkologiya qurultayında iştirak edir.

12 aprel – M. "Kamança" əsərini tamaşaya qoyulmaq üçün Bakı Tənqid-Təbliğ Teatrına verir.

– M. "Dəli yığıncağı" pyesini başa çatdırır.

20 oktyabr – AK(b)P Bakı Komitəsi M.-ni Azərb. mətbuatının 50 illik yubileyini keçirmək üçün yaradılmış 5 nəfərlik komissiyaya daxil edir.

30 dekabr – Tehran hakim dairələri "Molla Nəsrəddin" jurnalının "İran mütləqiyyətinə qarşı mübarizə aparmasına" etirazı-

nı bildirir. Bu münasibətlə SSRİ Xarici İşlər naziri AK(b)P MK-nə buna son qoymaq barədə rəsmi müraciət edir. AKP katibi Ruhulla Axundov AK(b)P XVI qurultayındakı məruzəsində bu "müraciət"ə təəccüb etdiyini kəskin surətdə söyləyir.

1927

4 yanvar – Bakıda İşçi-Kəndli teatrında M.-nin "Anamın kitabı" pyesi oynanılmışdır. Quruluşçu rej. A.A.İvanov idi.

24 yanvar – Lənkəranda Azərb. MİK-nin sədri S.Ağamalıoğlunun başçılığı ilə keçirilən sessiyanın iclasında M. qəzada torpaq sahələrinin bölüşdürülməsində yol verilmiş səhvlər üzərində xüsusi dayanmış, "cilidlərini dəyişib din və şəriət adı ilə ən yaxşı torpaqları ələ keçirənlərə [...] qarşı ciddi tədbir görməyə çağırmışdır".

28 yanvar – Tiflisdə Ş.Rustaveli ad. teatrda "Ölülər" pyesi oynanılır. Quruluşçu rej. İ.İsfahanlı idi.

20 mart – V Azərb. Sovetlər qurultayında Həmid Sultanovun təklifi ilə M. Azərb. MİK üzvlüyünə namizəd seçilir.

– Bakıda M.-nin "Bəlkə də qaytardılar" hekayələr kitabı çap olunmuşdur.

– "Ölülər" Kazanda müvəffəqiyyətlə tamaşaya qoyulur. Quruluşçu rej. və İsgəndər rolunun ifaçısı Qasım Şamil idi.

1928

12 mart – M. Bakıda M.F.Axundovun abidəsinin təməlinin qoyulusunda təbrik nitqi söyləmişdir.

20 mart – M. Azərb. İctimai Təminat Komissarlığına yazdığı ərizəsində göstərir ki, "...yazıçılığa və müəllimliyə qədəm qoyduğundan qırx il tamam olur və 23 il bundan irəli Tiflisdə türk mətbuatı sahəsində Molla Nəsrəddin dövrünü başlamışam. [...] Yavaş-yavaş bədəncə yoruluram, səbəb

budur ki, indi mənim altmış yaşım var və digər tərəfdən özümü də külfət basıbdır. Ümidvaram ki, Azərbaycan İctimai Təminat Komissarlığı mənim əhvalımı nəzərə alıb, müstəhəqq olduğum pensiyanı mənə verməklə bundan sonra mənim zindəganlığımı təmin edər..."

14 aprel – Azərb. SSR Xalq Komissarlar Şurasının qərarı ilə "Molla Nəsrəddin" jurnalının redaktoru Cəlil Məmmədquluzadəyə fərdi təqaüd təyin edilir.

5 oktyabr – Ümumittifaq Dram Yazıçıları və Bəstəkarlar Cəmiyyəti M.-yə həmin cəmiyyətin üzvlük vəsiqəsini göndərir.

Noyabr – M. "Ucuzluq" hekayəsini yazır.

1929

22 fevral – M. "Proletar şairi" hekayəsini yazır.

7 iyun – M. Azərb. yazıçılarından ibarət qrupun tərkibində Gürcüstan və Ermənistana yola düşür.

10 iyun – "Zarya Vostoka" qəzetində M.-nin şəkli və qısa tərcümeyihalı verilir.

27 iyun – "Molla Nəsrəddin" jurnalında M.-nin "Yazıçılar bayramı" adlı yazısı dərc olunur.

14 iyul – M. müalicə üçün Borjomiyə yola düşür.

12 oktyabr – "Kommunist" qəzetində müzakirə təriqilə Əli Vəliyevin "Molla Nəsrəddin" məcmuəsini islah etməli" adlı məqaləsi çıxır. Məqalədə göstərilir ki, "..."Molla Nəsrəddin"in dili bərbaddır. "Molla Nəsrəddin" məcmuəsi tədricən dilini dəyişdirməli və bugünkü ədəbi dilimizlə uyğunlaşdırmalıdır".

14 noyabr – "Molla Nəsrəddin" jurnalının 46-cı sayında "İdarədən" imzalı və "Məcmuəmizin islahı haqqında" adlı yazıda ictimai-siyasi vəziyyət nəzərə alınmaqla Əli Vəliyevin

"Kommunist" qəzetindəki məqaləsi qismən doğru sayıldığı bildirilir.

1930

8 fevral – M. Azərb. KP MK katibliyinə göndərdiyi məktubda jurnalının "Allahsız" adlandırılmasına etirazını bildirərək xahiş edir ki, onun keçmiş xidmətlərini nəzərə alıb, "Molla Nəsrəddin"in davamına icazə verilsin. Məktubda jurnalın 5 min tirajla çap olunduğu qeyd edilmişdir.

– Dekabr ayında "Molla Nəsrəddin" jurnalının son – 33-cü nömrəsi çıxır və jurnalın nəşri müvəqqəti dayandırılır.

30 noyabr – M. Azərb. Xalq Komissarları Şurasının verdiyi 200 manat pul və putyovka ilə oğlu Ənvərlə birlikdə Kislovodska müalicəyə gedir.

1931

2 yanvar – M. həkimlərin məsləhəti ilə Kislovodskdan Bakıya qayıdır.

Yanvar – "Molla Nəsrəddin" jurnalının 1-ci sayı yenidən çapdan çıxır (il ərzində cəmi 33 nömrə).

İyul-avqust – M. qızı Münəvvərlə birlikdə Şuşada müəllim R. Sadıqovun bağında kirayə otaq tutub istirahət edir.

– D.Bünyadzadə ad. Dövlət Dram Teatrında "Molla Nəsrəddin"in 25 illiyi qeyd olunur. Məruzəçi Abdulla Şaiqdir.

1932

4 yanvar – Səhər çağı evdə M.-nin halı qəflətən çox pisləşir. Tibbi yardım göstərilməsinə baxmayaraq gündüz saat 3-də böyük ədib vəfat edir.

6 yanvar – Bakıda M.-nin dəfn mərasimi. Çox az adamın iştirak etdiyi bu mərasimdə hökumət xadimlərindən heç kəs görünmür. Mərasimdə Ömər Faiq Nemanzadə nitq söyləyir.

NAMİZƏDLİK DİSSERTASİYALARI

Axundova E. Cəlil Məmmədquluzadə realizmi və XIX əsrin sonu, XX əsrin əvvəllərində rus ədəbiyyatı ənənələri. B., 1988.

Axundov N. "Molla Nəsrəddin" jurnalının tarixinə dair tədqiqatlar. B., 1948.

Atayev Məmmədşah. Cəlil Məmmədquluzadənin əsərləri Azərbaycan səhnəsində. B., 1983.

Bayramov A. Cəlil Məmmədquluzadənin ədəbi nəşri tarixi və yazıçı haqqında biblioqrafiya. B., 1970.

Cahangirov A. "Molla Nəsrəddin" jurnalının Azərbaycan ədəbi dilinin təmizliyi uğrunda mübarizəsi. B., 1950.

Ələkbərov Y. Cəlil Məmmədquluzadənin dövlət və hüquqi görüşləri. B., 1963.

Əlibəyzadə E. C.Məmmədquluzadənin Azərbaycan ədəbi dilinin təmizliyi uğrunda mübarizəsi. B., 1953.

Əlimirzəyev X. C.Məmmədquluzadənin ədəbi-tənqidi görüşləri. B., 1964.

Əliyev S. C.Məmmədquluzadə hekayələrinin leksikası. B., 1962.

Əliyev M. C.Məmmədquluzadənin ateizmi. B., 1962.

Əmirov S. Cəlil Məmmədquluzadənin felyetonları. B., 1967.

Əsədova İ. Eynəli Sultanovun yaradıcılıq yolu. B., 1991.

Hacıyev A. Tiflis ədəbi mühiti (1905-1917-ci illər). B., 1965.

Həsənzadə T. "Molla Nəsrəddin" jurnalında İran və Cənubi Azərbaycan həyatının inikası. B., 1972.

İbrahimov M. "Böyük demokrat" (Molla Nəsrəddin). B., 1939.

İsrafilov H. Cəlil Məmmədquluzadənin "Ölülər" pyesi. B., 1964.

İsrafilov H. Azərbaycan dramaturgiyasının inkişaf problemləri. B., 1964.

Qasımova E. C.Məmmədquluzadənin gizli imzaları. B., 1984.

Məmmədli A. Cəlil Məmmədquluzadə yaradıcılığında azərbaycançılıq. B., 2005.

Məmmədov A. Azərbaycan klassik ədəbiyyatında N.V.Qoqol ənənələri. B., 1955.

Məmmədov Altay. Cəlil Məmmədquluzadənin hekayələri. B., 1980.

Məmmədov M. C.Məmmədquluzadənin nəsri. B., 1958.

Mirəhmədova D. Cəlil Məmmədquluzadənin əsərlərinin rus dilinə tərcüməsi. B., 1982.

Mirəhmədov Ə. M.Ə.Sabir. B., 1956.
Nəsirov Y. C.Məmmədquluzadənin "Danabaş kəndinin əhvalatları" silsilə əsərləri. B., 1969.
Novruzov Ş. "Şərqi-Rus" qəzeti. B., 1968.
Paşayev Ataxan. İnqilabi-demokratik "Molla Nəsrəddin" juralının Şərqdə istibdad quruluşu və müstəmləkəçiliyə qarşı mübarizəsi" (1981).
Rəhimova İ. C.Məmmədquluzadə gülüşünün ictimai səciyyəsi. B., 1967.
Rəhimova G. C.Məmmədquluzadənin dramaturgiyası. B., 1966.
Rüstəmxanlı Sabir. "Molla Nəsrəddin" və folklor" B., 1976.
Səmədzadə H. İnqilabi satirik və alovlu vətənpərvər M.Ə.Sabir. B., 1944.
Vəliyev S. Cəlil Məmmədquluzadənin hekayələrinin leksikası. B., 1962.
Yusifov Y. Azərbaycanda felyeton janrının inkişafı (1930-1941). B., 1966.
Zeynalov N. "Molla Nəsrəddin" jurnalı sovet hakimiyyəti illərində. B., 1962.

DOKTORLUQ DİSSERTASİYALARI

Ağayev İ. "Molla Nəsrəddin" jurnalı və XX əsrin əvvəlləri Azərbaycan ədəbiyyatının ideya-bədii inkişafı problemləri". B., 1984.

Axundov N. Azərbaycan satira jurnalları (1906-1920-ci illər). B., 1966.

Cəfər Xəndan. İran Azərbaycanında demokratik ədəbiyyatın inkişafı (1906-1946). B., 1949.

Cəfərov C. M.Ə.Əzizbəyov adına Azərbaycan Dövlət Dram Teatrı. B., 1960.

Əlimirzəyev X. C.Məmmədquluzadənin dramaturgiyası. B., 1971.

Əziz Şərif. Cəlil Məmmədquluzadənin həyat və yaradıcılığının birinci dövrü. B., 1956.

Hacıyev T. XX əsrin əvvəllərində Azərbaycan ədəbi dili (satirik ədəbiyyatın dili). B., 1969.

Həbibbəyli İ.Ə. Cəlil Məmməquluzadə: mühiti və müasirləri. B., 1995.

Hüseynov F. Cəlil Məmmədquluzadə nəsrinin əsas problemləri. B., 1973.

Hüseynov Ə. Cəlil Məmmədquluzadə publisistikasının sənətkarlıq xüsusiyyətləri. B., 1972.

Qasımov M. "Molla Nəsrəddin" jurnalı və onun ictimai-siyasi istiqamətləri. B., 1965.

Məsimov M. Müasir Azərbaycan ədəbiyyatında satira. B., 1992.

Mir Cəlal. Azərbaycanda ədəbi məktəblər. B., 1948.

Mirəhmədov Ə. Cəlil Məmmədquluzadə (Molla Nəsrəddin) və XX əsrin əvvəllərində Azərbaycan mətbuatının inkişafı məsələləri. B., 1973.

Nəbiyev V. Azərbaycan bədii nəsrinin janr-üslub təkamülü (XIX-XX əsrlər). B., 1992.

Sultanlı Ə. Azərbaycan dramaturgiyasının inkişaf yolları. B., 1947.

Tağıyev Ə. C.Məmmədquluzadənin pedaqoji görüşləri. B., 1974.

CƏLİL MƏMMƏDQULUZADƏ
ENSİKLOPEDİYASI

“Şərq-Qərb”
Bakı
2008

Buraxılışa məsul: *Əziz Güləliyev*

Redaktor: *Sevda Ağababayeva*

Kompüter səhifələyicisi: *İlqar Əliyev*

Yığılmağa verilmişdir 05.03.2008. Çapa imzalanmışdır 11.10.2008.
Formatı 70x100 $^{1}/_{16}$. Fiziki çap vərəqi 20. Ofset çap üsulu.
Tirajı 25000. Sifariş 135.

DÜST 5773-90, DÜST 4.482-87

CBS POLYGRAPHIC PRODUCTION
Tel/Fax: 447 75 04, Tel.: 447 75 05

Kitab "CBS-PP" MMC mətbəəsində çap olunmuşdur.
Bakı, Şərifzadə küçəsi, 3.